

*Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:
## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

*Ümummilli Lider Heydər Əliyevin*
*100 illik yubileyinə həsr olunmuş*
*xüsusi buraxılış*

**2023**
**2 (82)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2023**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Namiq Əliyev, Ziyafət Həbibova, Elçin Əhmədov, İsaxan Vəliyev, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Rəcəb Rəhimli, Sevil Məmmədova, Firdovsiyyə Əhmədova, Yusif Ağayev***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2023, №2(82).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2023, 360s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2023*

ISSN 2309-1347

**The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan**

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

*Special edition dedicated to the 100th
anniversary of the
National Leader Heydar Aliyev*

**2023**
**2 (82)**

**ACADEMY OF PUBLIC ADMINISTRATION**
**BAKU – 2023**

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Namiq Aliyev, Ziyafet Habibova, Elchin Ahmadov, Isakhan Valiyev, Khatira Huseynova, Gulnara Gurbanova, Rajab Rahimli, Sevil Mammadova, Firdovsiyya Ahmadova, Yusif Agayev***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2023, №2(82)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2023, 360p.*

*© Academy of Public Administration, 2023*

# AZƏRBAYCAN RESPUBLİKASINDA 2023-cü İLİN "HEYDƏR ƏLİYEV İLİ" ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması

və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 sentyabr 2022-ci il*

DOI:10.30546/dia.2.82.2023.9


UOT 328; 342.5; 351/354;351

**URXAN ƏLƏKBƏROV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

*e-mail: alakbarovuk@gmail.com*

# DÖVLƏT İDARƏÇİLİYİNDƏ HEYDƏR ƏLİYEV FENOMENİ VƏ MÜASİR AZƏRBAYCAN RESPUBLİKASININ DAVAMLI İNKLÜZİV İNKİŞAFI

Azərbaycan Respublikası son illərdə iqtisadi, sosial və humanitar inkişaf, həmçinin ölkənin təhlükəsizliyinin təmin edilməsi sahələrində öz tarixində ən yüksək nailiyyətlər qazanıb. Bu nailiyyətlər Azərbaycan Respublikasında tətbiq edilən innovativ dövlət idarəçilik texnologiyaları, uğurla həyata keçirilən insan inkişafı siyasəti, ardıcıl və məqsədyönlü islahatlar, dövlət qulluğu sistemi üçün yüksək səviyyəli kadr potensialının formalaşdırılması və səfərbər olunmasının məntiqi nəticəsidir. Bütün bu proseslərin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyevin yaradıcı yanaşması sayəsində inkişaf etdirilib yeni səviyyəyə qaldırılmışdır. Bu il müasir Azərbaycan Respublikasının memarı, dövlət idarəçilik sahəsində fenominal istedada malik olan, siyasi və iqtisadi uzaqgörənliyi ilə seçilən və dünya miqyaslı siyasətçilər arasında xüsusi yeri olan Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu tarixi hadisə ilə əlaqədar ölkə Prezidenti İlham Əliyev 29 sentyabr 2022-ci ildə xüsusi sərəncam imzalayıb və həmin sənədlə 2023-cü “Heydər Əliyev İli” elan edilib. Sərəncamda göstərilir ki, “Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir” [1].

Milli sərvətimiz olan Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin miqyasına uyğun olan uğurlar arasında ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə gerçəkləşdirilmiş 44 günlük şanlı Vətən Müharibəsi, onun nəticəsində ölkənin ərazi bütövlüyünün bərpası, bununla BMT-nin Təhlükəsizlik Şurasının 4 Qətnaməsinin həyata keçirilməsini göstərmək olar. Bu tarixi qələbənin qazanılmasında əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğu və Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilmiş müasir ölkə quruculuğu istiqamətində uğurlu çalışmalar, innovativ dövlət idarəçiliyi sahəsində böyük bacarıqlar durur. Bu siyasətin həyata keçirilməsi nəticəsində ölkədə iqtisadi inkişafa nail olunmuş, sosial sahənin məqsədyönlü inkişafı təmin edilmiş, hərbi quruculuq istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Bunlarla yanaşı, Vətən Müharibəsində qələbəni, ölkənin ərazi bütövlüyünün bərpasını təmin edən digər amillər arasında qlobal miqyasda reallaşdırılan çevik və uğurlu diplomatik fəaliyyət, dünyanın aparıcı televiziya kanalları, qəzet və jurnallara verilən müsahibələrin çox böyük əhəmiyyəti olmuşdur. Bu fəaliyyətin əsası Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə qoyulub və Prezident İlham Əliyev cənabları tərəfindən böyük peşəkarlıqla həyata keçirilmişdir. Azərbaycan Respublikasında elmə əsaslanan və təcrübədən uğurla çıxan innovativ dövlət idarəçiliyində dünyada ilk dəfə tətbiq edilən yeni texnologiyalar ölkəni müasir inkişaf göstəricilərinə görə dünya liderləri sırasına çıxarıb. Bu fakt Davos Dünya İqtisadi Forumunun təsisçisi və əvəzsiz Prezidenti professor Klaus Şvabın dünya ölkələrinin inki-

şafının müqayisəli təhlilinə həsr olunmuş hesabatında da təsdiqini tapıb. Həcmi 667 səhifə olan bu hesabatda Azərbaycan Respublikası davamlı inklüziv inkişaf naminə uğurlu fəaliyyət göstərən və bu prosesdə ehtiyatları dünyada ən səmərəli idarə edən ölkə kimi təqdim olunub [2]. Bunun nəticəsidir ki, ölkə Prezidenti İlham Əliyev Nyu-Yorkda fəaliyyət göstərən ABŞ-nın aparıcı televiziya kanallarından olan "Fox News"-un müxbirinə 20 oktyabr 2020-ci ildəki müsahibəsində Azərbaycan Respublikasının müstəqillik illərində qazandığı bəzi nailiyyətləri sadaladı və ABŞ jurnalistinə təklif etdi: "Öz ölkən ilə müqayisə et" [3]. O da qeyd olunmalıdır ki, beynəlxalq statistikaya əsasən bir sıra istiqamətlərdə bu müqayisə ABŞ-nın xeyrinə deyildi. Müsahibə gedişində bu prosesdə iştirak edən Fox News kanalının əməkdaşı Prezident İlham Əliyevin ABŞ siyasətindən yaxşı məlumatlı olduğunu qeyd etdi. Prezident İlham Əliyevin cavabı çox qısa oldu: "Mən məlumatlı adamam" [3]. Bu ölkənin inkişaf strategiyası və taktikasının nə dərəcədə müasir olmasının, ölkə Prezidenti İlham Əliyevin isə dövlət başçısı kimi dünyada hansı dərəcədə yüksək nüfuz sahibi olmasının bir göstəricisidir.

Azərbaycan Respublikasının Vətən Müharibəsində qələbə qazanılması, işğal olunmuş ərazilərin azad etməsi və bununla beynəlxalq hüquqa əsaslanan BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin həyata keçirilməsi ölkə inkişafının vahid bir strategiya şəklində həyata keçirilməsinin nəticəsidir. Dövlət idarəçiliyində vətəndaş cəmiyyətinin təmsilçisi kimi ən yüksək səmərəliliyi Ulu Öndər Heydər Əliyevin adını daşıyan Fond nümayiş etdirir. Heydər Əliyev Fondu iqtisadi və sosial inkişafın müxtəlif istiqamətlərdə, o cümlədən insan inkişafı, gender paritetinin təmin edilməsi sahəsində çox səmərəli fəaliyyət göstərir [4]. Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi və şəxsi iştirakı ilə həyata keçirilən layihələr həm milli, həm də qlobal miqyasda davamlı inkişafa və inklüziv cəmiyyətin formalaşmasına xidmət edir. Azərbaycan Respublikasında dövlət idarəçiliyində formalaşmış strategiya vahid sistem kimi fəaliyyət göstərir. Onun dövlət, özəl sektor və vətəndaş cəmiyyəti kimi tərəfdaşlarının sinergetik texnologiyalar şəraitində əməkdaşlığı müxtəlif sahələrdə fəaliyyətin səmərəliliyini dəfələrlə yüksəldən amillər kimi çıxış edirlər [5]. Bu amillər arasında eyni zamanda Ulu Öndər Heydər Əliyevin xüsusi diqqət yetirdiyi dövlət idarəçiliyi üçün kadr potensialının formalaşdırılması və səfərbər edilməsi xüsusi qeyd edilməlidir. Azərbaycanın hazırda iqtisadi, sosial, humanitar və hərbi sahələrdə qazandığı nailiyyətlərin əsasında uğurlu kadr siyasəti durur [6].

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan Respublikasının dövlət idarəçilik strategiyası ölkə inkişafının hazırkı mərhələsində daha da təkmilləşib və müasirləşib. Dövlət idarəçiliyində rəsmi strukturlar, özəl sektor və vətəndaş cəmiyyətinin vahid sistem kimi çalışmasını nəzərdə tutan sinergetik texnologiyaların tətbiqi ilə yanaşı, Azərbaycan Respublikasında davamlı inkişaf məqsədlərinə nail olmaq və inklüziv cəmiyyətin qurulması üçün komplementar texnologiyalar də işlənilib və dövriyyəyə gətirilib. Komplementar texnologiyaların xüsusiyyətlərindən biri də dövlət idarəçiliyində istifadə olunan müxtəlif məqsəd və istiqamətli fəaliyyətlər arasında ehtimal və mümkün edilən təkrarlama, ziddiyyət və maraq toqquşmalarının qarşısını almaq və əksinə bu fəaliyyətlərin bir-birinə dəstəyini təmin etməkdir.

Sinergetik və komplementar texnologiyalar Azərbaycan Respublikasının dövlət idarəçiliyində dünyada ilk dəfə kompleks şəklidə tətbiq edilməyə başlanılıb və hazırda davam etdirilir. Ulu Öndər Heydər Əliyev tərəfindən əsaslandırılmış, Prezident İlham Əliyev tərəfindən nəzəri baxımdan işlənilmiş və praktikada sınanılmış bu innovativ texnologiyalar iqtisadi, sosial, humanitar, diplomatik, informasiya və hərbi təhlükəsizlik sahəsində fəaliyyətlərin planlaşdırma və həyata keçirilməsinin koordinasiyasını və sıx əlaqələndirilməsini nəzərdə tutur. Bu innovativ texnologiyaların

səmərəliliyini ölkə ərazisinin 2020-ci ildə işğaldan azad olunnmasını təmin edən 44 günlük Şanlı Vətən Müharibəsinin nəticələri bir daha nümayiş etdirdi. BMT Təhlükəsizlik Şurasının Qətnamələrinin yerinə yetirilməsi və Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası ilə əlaqədar bütün məsələlər 44 günə həll edildi və hərbi-diplomatik yolla həyata keçirildi. Eyni zamanda bu fəaliyyət üçün iqtisadi baza yaradıldı, bütün proseslərin diplomatik və informasiya təhlükəsizliyi şəraitində həyata keçirildi. Bu tarixi nailiyyət Azərbaycan Respublikasının dövlət idarəçiliyində tətbiq edilən yeni texnologiyaların nə dərəcədə səmərəli olduğunu nümayiş etdi [5].

Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından 30 ildən bir qədər artıq vaxt keçib. Tarixi baxımdan çox qısa zaman kəsiyi olmasına baxmayaraq, göstərilən müddətdə ölkə müstəqil inkişafı əngəlləyən ciddi çağırışlarla üzləşdi. İlk növbədə müstəqilliyin ilk illərində idarəetmədə cinayət ilə müqayisə edilə bilən səriştəsizlik və məsuliyyətsizlik ölkənin müstəqilliyinin qorunması üçün ciddi çağırışlar törətdi. Digər tərəfdən Ermənistanın hərbi təcavüzü, ölkə ərazilərinin işğal altına düşməsi, qaçqın və məcburi köçkün ordusunun yaranması ölkənin ərazi bütövlüyü və siyasi stabillik üçün böyük risklər törətmişdi. Yalnız xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə gətirilməsi dövlətin üzləşdiyi risklərin aradan qaldırılmasını və sürətli inkişaf yoluna çıxmasını təmin etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsi, ölkənin ərazi bütövlüyünün bərpası həyata keçirilən dövlət quruculuğu siyasətinin nəticəsidir.

Qeyd edilməlidir ki, müstəqilliyin bərpasının ilk onillikləri çətin şəraitdə keçsə də, ölkə bir sıra iqtisadi və sosial sahələrdə yüksək nəticələr əldə etmişdir. Davos İqtisadi Forumunun 2018-ci ildə, Dünya Bankının isə 2022-ci ildə dərc etdiyi hesabatlara əsasən, Azərbaycan Respublikası mövcud iqtisadi imkanlarını inklüziv inkişaf naminə dünyada ən səmərəli istifadə edən dövlətdir. Müqayisəli təhlillər göstərir ki, Azərbaycan Respublikasının bu üstünlüyü həm dünyanın 30 iqtisadi sahədə ən uğurlu ölkələri, həm də keçid iqtisadiyyatı qrupuna aid olan ölkələr arasında müşahidə olunur [7, 8]. Həmin mənbələrdə dərc olunmuş məlumatlara görə, Azərbaycan Respublikasının davamlı inklüziv inkişaf üzrə tutduğu yer ölkənin iqtisadi imkanlarına görə tutduğu yerdən 57 pillə yüksəkdir. Avropa İttifaqının bir çox üzvünün təmsil edildiyi keçid iqtisadiyyatına malik dövlətlər qrupunda isə ölkəmiz inklüziv inkişaf indeksinə görə 26-cı imkanla 3-cü yerdədir. Nisbətən az maddi imkanlarla iqtisadi və sosial inkişafda daha yüksək nailiyyətlərin əldə edilməsi yalnız resursların idarəedilməsində innovativ texnologiyaların istifadəsi, bu sahədə insan potensialının inkişafı şəraitində mümkündür. Azərbaycan Respublikasının dövlət idarəçiliyində yeni texnologiyaların tətbiqi prosesinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, ölkə Prezidenti tərəfindən isə yaradıcılıqla inkişaf etdirilmişdir. Bunun nəticəsidir ki, müasir Azərbaycan Respublikasının dövlət idarəçiliyində tətbiq edilən innovativ texnolo-giyalar ölkənin "böyük yeddilik" (G7) ölkələri ilə müqayisədə davamlı inklüziv inkişaf naminə maddi ehtiyatların idarəedilməsində daha uğurlu olmasını nümayiş etdirir (Şəkil 1). Şəkildən göründüyü kimi, iqtisadi, sosial, ekoloji, demoqrafik, humanitar və digər, davamlı inkişaf edən inklüziv cəmiyyət formalaşması üçün vacib olan, ümumiyyətlə 12 fərqli parametrlə dəyərləndirən inklüziv inkişaf indeksinin hər vahidinə adambaşına sərf edilən vəsait Azərbaycan Respublikasında "böyük yeddilik" ölkələrindən dəfələrlə azdır. Beynəlxalq statistikaya görə, inklüziv inkişaf sahəsində eyni nəticənin əldə edilməsinə bizim ölkədə Fransa ilə müqayisədə 2,3, ABŞ ilə müqayisədə isə 3,5 dəfə az vəsait sərf edilir [7, 8]. Dövlət idarəçiliyində yüksək səmərə verən texnologiyaların tətbiqinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində yeni səviyyəyə yüksəlmişdir.




**Şəkil 1.** İnklüziv inkişaf indeksinin hər vahidi üçün ölkədə hər nəfərə sərf edilən vəsait: G7 ölkələri və Azərbaycan Respublikası, ABŞ dolları, AQP [7, 8].

Ulu Öndər Heydər Əliyevin əsası qoyduğu və Prezident İlham Əliyev tərəfindən daimi yenilənən dövlət idarəçilik strategiyasının tətbiqinin bir nəticəsi də mövcud maddi ehtiyatlarla davamlı inkişaf və inklüziv cəmiyyətin formalaşması prosesinin optimal idarə edilməsidir. Şəkil 1 Azərbaycan Respublikasında və "böyük yeddilik" (G7) qrupuna daxil olan ölkələrdə dünyanın inkişafın ən müasir göstəricisi olan bu prosesin davamlılığı və inklüziv cəmiyyətin formalaşması səmərəliliyinin təzahürüdür. Dünya Bankı və Davos Dünya İqtisadi Forumunun hesabatları əsasında hazırlanmış bu qrafikdən aydın olur ki, Azərbaycan Respublikası bu sahədə dünya lideridir. Şəkildə təqdim olunmuş beynəlxalq statistikaya əsasən, eyni iqtisadi və sosial nəticəni əldə etmək üçün Azərbaycanda daha az vəsait sərf edilir. Bu isə dövlət idarəçiliyində innovativ texnologiyaların uğurlu tətbiqinin nəticəsidir və beynəlxalq statistikada öz əksini tapır. Dünya Bankı tərəfindən 2023-cü ildə dərc edilmiş məlumatlara əsasən, Azərbaycan Respublikasında hər nəfərə ildə düşən ümumdaxili məhsulun (ÜDM) dəyəri alıcılıq qabiliyyəti nəzərə alınaraq 15 854 ABŞ dolları təşkil edir. "Böyük yeddilik" qrupunun aparıcı üzvü olan ABŞ-da isə bu rəqəm 4,3 dəfə çoxdur və 69 287 ABŞ dollarına bərabərdir. Buna baxmayaraq, Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi daha yüksəkdir və 4,69 təşkil edir. ABŞ-da isə bu rəqəm 4,60 bərabərdir [7-9].

Azərbaycan Respublikasının maddi, təbii və insan resurslarının davamlı inkişaf və inklüziv cəmiyyət naminə optimal idarəedilməsində dünya lideri olması digər beynəlxalq müqayisələrdən də aydın olur. Bəllidir ki, hazırda bəşəriyyətin üzləşdiyi çağırışlar arasında qlobal iqlim dəyişmələri, bu prosesin neqativ iqtisadi, sosial və humanitar fəsadları ən aktual məsələ kimi dəyərləndirilir. Bunun nəticəsidir ki, artıq hər il, o cümlədən 2022-ci ildə də BMT bu problemə həsr olunmuş qlobal miqyasda xüsusi beynəlxalq konfranslar keçirir [9]. 2022-ci ildə keçirilən son konfransda 190 ölkədən 35000 nümayəndə iştirak edib. Qeyd edək ki, qlobal iqlim dəyişmələri prose-

sinin qarşısının tam alınması və ya əhəmiyyətli dərəcədə yumşaldılması istixana qazlarının ətraf mühitə atılması prosesinin əhəmiyyətli dərəcədə azaldılmasından keçir. Bu isə öz növbəsində həm enerji mənbələrinin istifadəsinin təkmilləşdirilməsi, yaşıl energetika payının artırılmasını, həm də mövcud, müxtəlif növ mənbədən alınan enerjidən daha səmərəli istifadə edilməsini tələb edir. Ulu Öndər Heydər Əliyevin vaxtında əsaslandırılmış neft strategiyasının həyata keçirməsi [10], hazırda isə Prezident İlham Əliyevin bərpa olunan enerjidən istifadəni genişləndirməsi bu məqsədə xidmət edir [11]. Bunun nəticəsidir ki, Dünya Bankının 2023-ci ildə dərc olunmuş məlumatlarına əsasən, Azərbaycan Respublikasında bir vahid enerjinin istifadəsi nəticəsində istehsal olunmuş məhsul və təqdim olmuş xidmətlərin dəyəri (ÜDM) 11,6 ABŞ dolları (alıcılıq qabiliyyəti pariteti ilə, AQP) təşkil edir (Şəkil 2).




**Şəkil 2.** Azərbaycan Respublikası və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində enerji səmərəliliyi: bir vahid enerjinin istifadəsi ilə istehsal olunmuş məhsul və təqdim olunmuş xidmətlərin dəyəri, ABŞ dolları, alıcılıq qabiliyyəti pariteti ilə [12].

Enerji səmərəliliyi ölkənin davamlı inklüziv inkişafını səciyyələndirən əsas indikatorlardan biridir. Bu göstəricinin vacib əhəmiyyəti bir sıra amillərlə əlaqədardır. Eyni miqdarda enerjidən istifadə etməklə daha çox dəyəri olan məhsulun istehsalı və ya xidmətlərin təqdim edilməsi (ÜDM-nin dəyəri) iqtisadi baxımdan əlverişlidir. Bu halda istehsal olunmuş hər vahid ÜDM-yə görə atmosferə atılan istixana qazlarının miqdarı da azalır. Beləliklə enerji səmərəliliyinin yüksəldilməsi eyni zamanda iqlim dəyişmələrinə təsirlərin yumşalmasına xidmət edir. Enerji səmərəliliyinin üçüncü üstünlüyü ondadır ki, hazırda istifadədə olunan bərpa olunmayan təbii ehtiyatların gələcək nəsillər üçün qorunmasını təmin edir ki, bu da davamlı inkişaf baxımından çox önəmlidir.

Şəkil 2-də Azərbaycan Respublikasının bu sahədə qazanılan nəticələri dünyanın 38 iqtisadi və texnoloji baxımdan yüksək inkişaf etmiş ölkələrinin göstəriciləri ilə müqayisə edilir. Təqdim olunmuş müqayisəli təhlildən aydın olur ki, beynəlxalq inkişaf təşkilatlarının statistik mənbələrinə görə, eyni miqdarda enerjinin istifadəsi nəticəsində istehsal olunmuş ÜDM-nin dəyəri Kanadada 5,9, ABŞ-da – 8,4, Fransada isə 11,1 ABŞ dolları təşkil edir [12].

Azərbaycan Respublikasında enerji səmərəliliyinin yüksək olması və dövlətin bu sahədə dünya liderləri sırasında mövcudluğu onun iqtisadiyyatının xüsusiyyətlərindən, sənaye strukturunda karbohidratların istehsalının və ixracının payının əhəmiyyətli olmasından asılı deyil. Bu, dünyanın tanınmış neft və qaz ixrac edən ölkələrinin göstəricilərinin müqayisəli təhlilindən aydın olur. Şəkil 3-dən göründüyü kimi, ölkəmizdə enerjidən istifadə edilməsi səmərəliliyi yüksəkdir və dünyada neft və qaz ixrac edən ölkələr arasında bu sahədə lider sayılan Norveç ilə təxminən eyni səviyyədə, hətta bir qədər yüksəkdir. Azərbaycan Respublikası ilə oxşar siyasi və iqtisadi tarixi yaşamış Rusiya Federasiyası və Qazaxıstanla müqayisələr göstərir ki, bizim ölkədə bir vahid enerjinin istifadə etdikdə bu ölkələrlə müqayisədə iki dəfədən çox dəyəri olan məhsul istehsal olunur və ya xidmətlər təqdim olunur [12].




**Şəkil 3.** Azərbaycan Respublikası və karbohidratlar ixrac edən ölkələrdə enerji səmərəliliyi: bir vahid enerjinin istifadəsi ilə yaradılmış ÜDM-nin dəyəri, ABŞ dolları, alıcılıq qabiliyyəti pariteti ilə [12].

Təqdim olunmuş məlumatlar göstərir ki, Ulu Öndər Heydər Əliyevin neft strategiyası ölkənin iqtisadi və sosial inkişafına xidmət etməklə yanaşı, bu prosesin innovativ olmasını da təmin edib. Belə nəticələrin əldə edilməsində ölkə Prezidenti İlham Əliyevin 2003-cü ildə Cenevrədə keçirilən Dünya Sammitində elan etdiyi gələcəyin inkişaf konsepsiyası durur. Bu konsepsiyaya görə, karbohidratların ixracından əldə edilmiş gəlirlər ölkədə insan potensialının inkişafına, onun iqtisadiyyatda insan kapitalına çevrilməsi və bunun hesabına innovativ inkişafın təmin edilməsinə xərclənir. Hazırda iqtisadi və sosial sahədə əldə edilən yüksək nəticələr ölkənin inkişaf strategiyasının nə dərəcədə düzgün olmasından xəbər verir.

Ölkələrin inkişaf səviyyələrini dəyərləndirmək və müqayisəli təhlillər aparılması üçün müxtəlif göstəricilərdən istifadə edilir. Bu göstəricilərin arasında iqtisadi və sosial sahələri səciyyələndirən və hər birinin vəziyyətini ayrıca dəyərləndirən indikatorlar mövcuddur. Keçən əsrin son onilliyində ölkələrin tərəqqisini səciyyələndirən və bu prosesi dəyərləndirmək üçün yeni göstərici – İnsan İnkişafı İndeksi kimi indikatordan istifadə təklif edildi [14]. Bu indikatorun üstünlüyü ondadır ki, ölkələrin inkişafı vahid bir göstərici ilə səciyyələnir və bu indikator eyni zamanda həm iqtisadi, həm də sosial sahədə vəziyyəti nümayiş etdirir.

Lakin insan inkişafı indeksi eyni zamanda iqtisadi vəziyyət və sosial durumdan məlumat daşısa da, onlar yalnız hazırkı vəziyyəti səciyyələndirir. Davamlı inkişafın vacib xüsusiyyəti olan tətbiq edilən dövlət idarəçilik texnologiyalarının gələcək nəsillərə təsirlərinin qiymətləndirilməsi insan inkişafı indeksi vasitəsi ilə həyata keçirilə bilmir. Yeni göstərici inklüziv inkişaf indeksi kimi məlumdur. Dünya ölkələrinin bu sahədə durumunun dəyərləndirilməsi ilk dəfə 2018-ci ildə həyata keçirilmişdir. Bu təhlilin nəticələri şəkil 4-də verilmişdir [8, 9].




**Şəkil 4.** İqtisadiyyatda yüksək nəticələr əldə etmiş ölkələr və Azərbaycan Respublikasının inklüziv inkişaf indeksləri [8, 9].

Digər ölkələrlə müqayisələr də göstərir ki, Azərbaycan enerjidən səmərəli istifadə göstəricisinə görə dünya liderləri səviyyəsinə qalxmışdır. Belə yüksək göstərici onunla əlaqədardır ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyev tərəfindən təkmilləşdirilmiş innovativ inkişaf strategiyasının tətbiqi nəticəsində Azərbaycan Respublikasında XXI əsrin ilk illəri ilə müqayisədə enerji səmərəliyi 3 dəfəyə yaxın artıb [13].

Təhlillər göstərir ki, Azərbaycan Respublikası müasir inkişafın bir sıra istiqamətlərində dünya liderləri sırasındadır. Bu mövqeyi ölkə tarixi baxımdan nisbətən qısa müddətdə və start vəziyyətdə olduqca mürəkkəb olan bir şəraitdə qazanmışdır. Ölkənin dünya liderləri sırasına daxil olması ilk növbədə Ulu Öndər Heydər Əliyevin şəxsi parlaq liderlik xüsusiyyətləri ilə əlaqədardır. Onun fenomenal lider olmasının əsasında həm bu dahi şəxsin unikal təbii xüsusiyyətləri, həm də həyat boyu qazandığı bilik və bacarıqları dururdu. İki əsas mənbəyi olan liderlik xüsusiyyətlərinin bir təzahürü gələcək hadisə və prosesləri qabaqcadan görmək, bunların əsasında düzgün siyasi proqnozlar vermək və buna uyğun olaraq praktiki fəaliyyət həyata keçirməkdir. Ulu Öndər Heydər Əliyev bu sahədə unikal istedada malik idi. Buna bir çox misallar gətirilə bilər. Onlardan biri Azərbaycan Respublikasının müstəqilliyinin qorunması və ölkənin uğurlu iqtisadi və sosial inkişafı üçün fövqəladə əhəmiyyətə malik olan Ulu Öndər Heydər Əliyevin "neft strategiyasıdır". Bir qayda olaraq "neft strategiyası"nın başlanğıcı kimi 1994-ci il, yəni məlum "Əsrin müqaviləsi" adlanan sənədlərin qəbul edilməsi tarixi götürülür. Bu tamamilə düzgündür, çünki bu sənədin qəbulundan sonra ölkənin müasir inkişafı üçün şərait yaradıldı. Lakin, təhlillər göstərir ki, Ulu Öndər Heydər Əliyevin "neft strategiyası" daha erkən hadisələrlə əlaqəli ola bilər. Buna bir misal Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasında dərin özülləri istehsal edən müəssisənin yaradılması ola bilər.

Bəlli olduğu kimi, Azərbaycanda hazırda Ulu Öndər Heydər Əliyevin adını daşıyan Bakı Dərin Özüllər Zavodunun Bakının Sahil qəsəbəsində təməlinin qoyulması hələ 1978-ci ildə baş tutmuşdu və bu müəssisə 1984-cü ildə artıq istismara verilmişdi. Bu unikal bir müəssisədir və onun keçmiş SSRİ-nin maliyyəsi hesabına Bakıda tikilməsi şəxsən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və çox düşünülmüş ardıcıl fəaliyyəti nəticəsində baş tutmuşdu. Ulu Öndər Heydər Əliyev liderlik keyfiyyətləri və siyasi uzaqgörənlik istedadına dayanaraq keçən əsrin 70-ci illərində dərk edirdi ki, o zamanlar dəniz neft, qaz mədənçiliyində istifadə olunan kəşfiyyat və istismar texnologiyaları artıq köhnəlib və bu sahədə müasirləşmə gələcək uğurlu inkişaf üçün vacib şərtdir. Bunun nəticəsidir ki, 1994-ci ildə xarici şirkətlərlə neft kontraktları imzalananda Azərbaycan Respublikasında dənizin dərin sularında kəşfiyyat və hasilat işləri aparmaq üçün lazım olan dərin özüllər istehsalının təşkili imkanı mövcud idi. Ölkədə bu zavod olmasaydı, həmin müəssisəni əvəz edən çox bahalı avadanlıq ya xaricdən gətirilməli, ya da yeni zavod tikilməli idi. Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və vaxtında həyata keçirtdiyi tədbirlər bir tərəfdən küllü miqdarda maddi vəsaitin qənaətini təmin etdi, digər tərəfdən isə hasil edilmiş nefti dünya bazarına daha tez çıxartmaq üçün şərait yaratdı.

Kadr potensialının formalaşması, bunun üçün insanların bilik və bacarıqlarının artırılması sahəsində ardıcıl fəaliyyət Ulu Öndər Heydr Əliyevin dövlət idarəçilik strategiyasının əsas istiqamətlərdən birini təşkil edirdi. Hələ Sovet dövründə milli kadrların yüksək səviyyədə hazırlanması üçün vacib təşəbbüslərlə çıxış edən Ulu Öndər Heydər Əliyev ölkənin müstəqilliyinin bərpasından sonra bu istiqamətdə fəaliyyəti daha da genişləndirdi [14]. Təsadüfi deyil ki, BMT ilə birgə hazırlanan "Azərbaycan Respublikasında İnsan İnkişafı" hesabatlarını milli və beynəlxalq ictimaiyyətə o özü şəxsən təqdim edirdi [15].

Ulu Öndər Heydər Əliyevin strateji siyasi uzaqgörənliyi inkişafın gələcək istiqamətlərini

düzgün müəyyən etmək və bu sahədə kadr potensialının hazırlanması dair təşəbbüslə çıxış etmək imkanı yaradırdı. Bir sıra hallarda bu təşəbbüslər dünyada ilk dəfə irəli sürülür. Buna misal olaraq dünyada davamlı inkişaf sahəsində təhsili göstərmək olar. Məlum olduğu kimi, BMT və UNESCO 2005-2014-cü illəri dünyada davamlı inkişaf sahəsində təhsil onilliyi elan etdi. Bu barədə bu iki beynəlxalq təşkilatın qərarı 1 mart 2005-ci ildə Nyu-Yorkda BMT-nin Baş Qərargahında imzalanmışdı [16]. Azərbaycan Respublikasında isə bu proses 2000-ci ildə başlamışdı (Şəkil 5).

Şəkil 5-dən göründüyü kimi, Azərbaycan Respublikasında davamlı insan potensialına əsaslanan inkişaf sahəsində tədrisin gələcək dünya üçün prioritet olması haqqında anlaşma və bu sahədə fəaliyyət artıq 2000-ci ildən start götürmüşdü. Azərbaycan Respublikasının Təhsil Nazirliyi 2001 və 2002-ci illərdə xüsusi qərarlar qəbul etdi və bu qərarlar əsasında həm bu yeni biliklərin tədrisi başlandı, həm də bu sahədə orta məktəblər üçün davamlı insan inkişafına həsr olunmuş dünyada ilk dərs vəsaiti dərc edildi. Bizim ölkədə həyata keçirilmiş bu təşəbbüs BMT-nin Baş Qərargahı (Nyu-York) tərəfindən "innovativ ideya və fəaliyyət" kimi dəyərləndirildi və məlumat bütün dünya yayıldı. Qlobal miqyasda isə bu proses 5 il sonra başladı. Bizim ölkədə bu qabaqlayıcı təşəbbüs Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi nəticəsində vaxtında təsdiq etdiyi milli təhsil strategiyası əsasında həyata keçirilmişdi.

Ulu Öndər Heydər Əliyevin davamlı inkişaf sahəsində həyata keçirdiyi innovativ təşəbbüs ölkə Prezidenti İlham Əliyev tərəfindən yaradıcılıqla davam etdirilmişdir. Bunun nəticəsidir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci ilin may ayında imzalanmış sərəncamları əsasında dünyada ilk dəfə olaraq ali təhsildə yeni ixtisas – "davamlı inkişafın idarəedilməsi" bakalavriatura, magistratura və doktorantura səviyyələrində ixtisaslar nomenklaturasına daxil edilmişdir. Dünyanın ən müasir prioriteti olan inkişafın davamlılığı və cəmiyyətin inklüzivlik prinsipləri əsasında idarə edilməsini təmin edən fəaliyyət bu sahədə mütəxəssislərin olmasını zəruri edir. Gələcək dünya üçün bu inkişaf istiqamətinin prioritet olmasını nəzərə alaraq, davamlı inklüziv inkişaf sahəsində ölkədə ali təhsilli kadrların hazırlanmasına başlanıldı.




**Şəkil 5.** Azərbaycanda və dünyada davamlı insan potensialına əsaslanan inkişafın tədrisi xronologiyası.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasında bu yeni ixtisasların ali təhsil nomenklaturasına daxil edilməsi 2015-ci ilin may ayında baş tutdu. Həmin sahədə fəaliyyətlərin dünya üçün aktuallığını müəyyən edən qərar isə 2015-ci ilin 25 sentyabrında Nyu-Yorkda keçirilən BMT-nin 70-ci Yubiley Sessiyasında qəbul edilmişdi. Sessiya bəşəriyyət üçün arzulanan dünyaya həsr olunmuşdu və burada davamlı inkişaf məqsədlərinə nail olmaq üçün 17 məqsəd müəyyən edildi [17]. Bu sahədə kadr hazırlığına başlamaq BMT-nin Sessiyası tərəfindən qəbul edilmiş qərarda öz əksini tapdı. Azərbaycan isə bu addımı dünyada birinci atdı.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan elm və texnologiyalara dayanan kadr hazırlığı siyasəti hazırda da davam edir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında davamlı inkişaf edən və inklüziv cəmiyyətin qurulmasının ən müasir istiqaməti olan ESG transformasiya sahəsində xüsusi tədris kursları həyata keçirilir. Ekoloji, sosial və korporativ məsuliyyətli fəaliyyəti nəzərdə tutan bu yeni idarəçilik texnologiyalarının tədrisi Azərbaycan Respublikasında ilk dəfə həyata keçirilir. Qeyd edilməlidir ki, bu sahədə biliklər həm ali məktəb tələbələrində, həm də dövlət qulluqçularında formalaşdırılır.

Azərbaycanın innovativ inkişaf istiqamətində dünya ölkələri arasında liderliyinin bir təzahürü ölkə Prezidenti İlham Əliyev tərəfindən yeni təşəbbüs kimi yaşıl enerjinin ixracı ilə bağlıdır [18]. Bütün bu tədbirlərin nəticəsi kimi onu göstərmək olar ki, Azərbaycan beynəlxalq statistikaya əsasən dünya ölkələri arasında mövcud iqtisadi imkanlarını sosial bərabərlik üçün ən uğurlu idarə edən ölkədir (Şəkil 6).




**Şəkil 6.** İqtisadiyyat və sosial siyasət: seçilmiş G 7, G 20 ölkələri və Azərbaycan Respublikası [2].

Şəkil 6 Davos Dünya İqtisadi Forumun hesabatında verildiyi kimi təqdim olunur. Bu hesabatda dünyanın 146 ölkəsinin iqtisadi imkanları və bu imkanların əhalinin sosial durumuna təsiri təhlil edilmişdir. Sosial göstərici kimi ölkələrdə gəlirlərin ədalətli bölünməsi götürülüb. Davos Dünya İqtisadi Forumunun təsisçisi və əvəzsiz Prezidenti olan professor K. Şvab tərəfindən hazırlanmış hesabatda Azərbaycan Respublikasının nailiyyətlərinin belə yüksək dəyərləndirilməsi ölkənin qısa müddətdə uğurlu inkişafından xəbər verir.

Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan Respublikasının formalaşmasında və inkişafında əvəzsiz xidmətləri olmuşdur. Hazırki məqalədə bu dahi şəxsiyyətin dövlət idarəçiliyi sisteminin qurulması və təkmilləşdirilməsi sahəsində fəaliyyətinin bir hissəsi işıqlandırılıb. Təbii ki, dünya şöhrətli siyasətçi Heydər Əliyevin ölkəmizin və xalqımızın inkişafına xidmət edən fəaliyyətini nəinki bir məqalədə, hətta cild-cild kitablarda belə tam əhatə etmək qeyri-mümkündür. Yuxarıda qeyd edilənlər isə Ümummilli Liderin xidmətləri qarşısında “dəryadan bir damla” kimi qiymətləndirilə bilər. Azərbaycan Respublikasında istər ayrı-ayrı elm sahələrinin, istər təhsil, səhiyyə kimi sosial sferaların, istər kənd təsərrüfatı və sənayenin və bütövlükdə dövlətin inkişafı məhz Ümummilli Liderin adı ilə bağlıdır. Bütün bunlar isə Heydər Əliyev ideyalarının daha dərindən öyrənilməsini zəruri edir. Çünki dahi Heydər Əliyev Azərbaycan xalqının xilaskarı olmaqla yanaşı, həm də Azərbaycan dövlətini davamlı inklüziv inkişafa aparan düşünülmüş strategiyanın banisidir.

**Ədəbiyyat:**


1. Əliyev İ.H. President.az/az/articles/view/57413, 29.09. 2022.
2. Schwab K. The Global Competitiveness Report 2018, Geneva, 2018, 667 p.
3. Əliyev İ.H. https://president.az/ru/articles/view/44279, 20.09.2020
4. Əliyeva M.A. ICESCO-nun "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü münasibətilə keçirilən tədbirdə video formatda çıxışı. https://islamworld.preslib.az/page/zYQ5oCn38T, 11.02.2021
5. Ələkbərov U.K. Prezident İlham Əliyevin unikal dövlət idarəçilik texnologiyalarının parlaq hərbi sınağı. J. Dövlət İdarəçiliyi (İSSN 2309-1347), 2020, № 4 (72), s.157-164.
6. Алакбаров У.К. Формирование кадрового потенциала: опыт Азербайджанской Республики. Ж. Государственная служба, 2019, т. 21, № 5, с. 6-11.
7. https://www.weforum.org/focus/davos-2018, 26 yanvar 2018
8. https://data.worldbank.org/indicator/NY.GDP.PCAP.PP.CD, 15.01 2023
9. https://www.weforum.org/events/united-nations-climate-change-conference-cop27-2022, 6.11.2022
10. https://azertag.az/xeber/Ulu_onder_Heyder_Aliyevin_ugurlu_neft_strategiyasi_Azerbaycani_yeni_inkisaf_merhelesine_yukseldib-1095174, 19.09.2017
11. https://president.az/az/articles/view/58555, 10.01.2023
12. https://data.worldbank.org/indicator/EG.GDP.PUSE.KO.PP, 15.01.2023
13. Alakbarov U.K., Lawrence J.E. Energy efficiency as an Indicator of Sustainable Development Policy: Azerbaijan Experience. Journal of Sustainable Development (Canada, ISSN 1913-9063), 2017, v. 10, № 3. p. 187-193.
14. https://heydar-aliyev-foundation.org/az/content/blog/56/Elm-v%C9%99-t%C9%99hsil, 02.12.2022
15. Azerbaijan Human Development Report. UNDP, Baku, 1996, 136 p.
16. Shaping the future we want. UN Decade of Education for Sustainable Development (2005-2014) Final Report, UNESCO, Paris, 2014, 198 p.
17. https://prezi.com/sr6hgbmmmszk/post-2015-davamli-inkisaf-mqsdlri/, 10.07.2017
18. https://president.az/az/articles/view/58221, 17.12.2022


***Açar sözlər:*** *Azərbaycan Respublikası, Heydər Əliyev, inklüziv cəmiyyət, davamlı inkişaf, dövlət idarəçiliyi*

**Urkhan Alakbarov**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Rector, Academician***

# THE PHENOMENON OF HEYDAR ALIYEV IN PUBLIC ADMINISTRATION AND SUSTAINABLE INCLUSIVE DEVELOPMENT OF THE MODERN REPUBLIC OF AZERBAIJAN

## ABSTRACT

The article highlights the invaluable merits of the National Leader Heydar Aliyev as the creator of modern Azerbaijan, which according to international organizations, is currently among the world leaders in the development and implementation of innovative technologies in the field of public administration. In accordance with the official reports of international organizations, including the UN, the World Bank, and the Davos World Economic Forum, the indicators of sustainable, inclusive development of the Republic of Azerbaijan exceed those of several economically highly developed countries that are members of the "Big Seven" (G 7), the Organization for Economic Cooperation and Development (OECD). According to these reports, the Republic of Azerbaijan is among the countries that have ensured the most rational use of resources for sustainable and inclusive development. Achievements in the fields of economy, social, and humanitarian spheres, as well as in the field of security, ensured that the Republic of Azerbaijan, as a result of the 44-day Patriotic War, liberated the territories occupied by Armenia and restored the territorial integrity of the country.

***Keywords:*** *The Republic of Azerbaijan, Heydar Aliyev, inclusive society, sustainable development, public administration*

**Урхан Алакбаров**

***Ректор Академии Государственного Управления при Президенте Азербайджанской Республики, академик***

# ФЕНОМЕН ГЕЙДАРА АЛИЕВА В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ И УСТОЙЧИВОЕ ИНКЛЮЗИВНОЕ РАЗВИТИЕ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

## РЕЗЮМЕ

В статье освещены бесценные заслуги Общенационального лидера Гейдар Алиева, как создателя современного Азербайджана, который в настоящее время в соответствии с оценками международных организаций входит в число мировых лидеров по разработке и реализации инновативных технологий в области государственного управления. Согласно официальным отчетам международных организаций, в том числе ООН, Всемирного Банка, Давосского Всемирного Экономического Форума, показатели устойчивого инклюзивного развития Азербайджанской Республики превосходят аналогичные показатели ряда экономически высокоразвитых стран, входящих в «большую семерку» (G7), Организацию Экономического Сотрудничества и Развития (ОЭСР). В соответствии с этими отчетами Азербайджанская Республика входит в число стран, обеспечивших наиболее рациональное использование ресурсов в целях устойчивого инклюзивного развития. Достижения в области экономики, социальной и гуманитарной сферах, а также в области обеспечения безопасности подтверждают тот факт, что Азербайджанская Республика в результате 44-х дневной Отечественной Войны освободила оккупированные Арменией территории и восстановила территориальную целостность страны.

***Ключевые слова:*** *Азербайджанская Республика, Гейдар Алиев, инклюзивное общество, устойчивое развитие, государственное управление*

UOT 32:316.37; 242.7
UOT 005:001.12/. 18; 658:001.12/.18

**ƏLİKRAM ABDULLAYEV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının I prorektoru, fəlsəfə elmlər doktoru, professor***
*e-mail: alikram@mail.ru*

**GÜLNARƏ QURBANOVA**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutunun direktoru, psixologiya elmləri doktoru, professor***
*e-mail: ggurbanova@yandex.ru*

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT İDARƏÇİLİYİ STRATEGİYASINDA DÖVLƏT QULLUĞU TƏHSİLİNİN YERİ VƏ ROLU

## 1. Dövlət idarəçiliyi sahəsində islahatların universal açarı

Azərbaycan keçən əsrin 90-cı illərinin əvvəllərində – 1991-ci il oktyabrın 18-də Konstitusiya Aktı qəbul etməklə özünün 71 il öncə itirdiyi dövlət müstəqilliyini bərpa etmiş oldu. Məntiqlə elə bu zamandan da keçmişin totalitar idarəçilik sisteminin sökülməsi, vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, yeni tipli dövlət-vətəndaş münasibətlərinin formalaşmasına yönəlmiş idarəçilik sisteminin qurulması prosesinə başlanmalı idi. Lakin belə olmadı. Xalqımızın öz dövlət müstəqilliyini bərpa etməsini «həzm edə» bilməyən bəzi xarici dövlətlərin düşmən mövqe tutması, ərazilərimizə və sərvətlərimizə susamış bədnam qonşunun hərbi müdaxiləsi, ölkə daxilindəki hərc-mərclik, orduda, hüquq mühafizə orqanlarındakı özbaşınalıq, iqtisadi taqətsizlik, mənəvi–ideoloji vakuum bu məsələnin həllini qeyri-müəyyən müddətə – gələcəyə saxlamağı qaçılmaz etdi. Yalnız uzun illər respublikaya başçılıq etmiş, Sovet İttifaqı kimi qüdrətli bir dövlətin hakimiyyət olimpində ən yüksək mövqelərdən birində uğurla çalışmış görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıtmasından sonra cəbhədə atəşkəsə, ölkə daxilində vətəndaş sülhünə və siyasi sabitliyə, «Əsrin müqaviləsi»nin imzalanmasına nail olmaq, müstəqil dövlətin ilk konstitusiyasını qəbul etmək dövlət idarəçiliyi sahəsində geniş miqyaslı islahatlar proqramının həyata keçirilməsinə başlamaq mümkün oldu.

Bu istiqamətdə atılan ilk addımlar 1995-ci ilin noyabrında Azərbaycan Respublikası Konstitusiyasının Ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi və qüvvəyə minməsi oldu. Konstitusiyanın preambulasında dövlətin öz Konstitusiyası çərçivəsində demokratik quruluşa təminat vermək, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək kimi ülvi niyyətlərini bəyan edilir, 55-ci maddəsində isə Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarəolunmasında iştirak etmək, habelə dövlət orqanlarında qulluq etmək hüququ təsbit olunurdu [1]. Bununla da əslində dövlət idarəçiliyi sahəsində həyata keçirilməli olan

gələcək islahatların sosial, siyasi və hüquqi çərçivələri müəyyənləşdirilmiş olurdu.

İslahatlar prosesinə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il dekabrın 29-da imzaladığı Fərmanla start verilmiş oldu. «Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət Komissiyasının yaradılması haqqında» adlanan həmin Fərmanda Azərbaycan cəmiyyətinin demokratikləşməsi və bazar münasibətlərinin daha da inkişaf etdirilməsi üçün dövlət idarəetməsində köklü islahatlar aparılmasının prinsipial əhəmiyyət kəsb etdiyi vurğulanır, eyni zamanda Ulu Öndərin özünün rəhbərliyi ilə xüsusi dövlət komissiyası təşkil edilməsi və onun tərkibində 4 işçi qrupu yaradılması nəzərdə tutulurdu. Həmin qrupların bilavasitə məşğul olacaqları istiqamətlər isə aşağıdakı kimi müəyyən edilirdi:

– dövlət xərclərinin idarə olunması sisteminin yenidən qurulması;
– audit sisteminin islahatı;
– dövlət idarəetmə sisteminin islahatı;
– hüquq və məhkəmə sisteminin islahatı [2].

İslahatların sonrakı gedişinin göstərdiyi kimi, bu istiqamətlərin hər birinin çərçivəsində onlarla digər islahatlar həyata keçirilməli idi.

Gözləmək olardı ki, islahatlar prosesinə start verən ilk Fərman hansısa siyasi, iqtisadi, hərbi və s. sahələrdən birinə həsr ediləcəkdi.

Lakin belə olmadı. Haqqında bəhs olunan 29 dekabr 1998-ci il tarixli Prezident Fərmanından sonra yeni ildə imzalanan ilk fərman keçmiş Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun bazasında Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təsis edilməsinə dair 3 yanvar 1999-cu il tarixli, 60 nömrəli Fərman oldu [3]. Xatırlayaq ki, cəmi 5 gün əvvəl imzalanmış adı çəkilən fərmanda nəinki Akademiya, heç təhsil haqqında bir kəlmə belə yox idi.

Bu təsadüf idimi? Əlbəttə ki, yox. 1999-cu ildə ölkə Prezidenti onlarla, bəlkə də daha çox fərman imzalamışdı. Elə yanvar ayının özündə imzalanmış fərmanlardan hər biri yeni ilin ilk Fərmanı ola bilərdi. Bu islahatlar prosesinə Dövlət İdarəçilik Akademiyası yaradılması ilə başlamaq bir seçim idi, özü də strateq seçimi.

XX əsrin fikir nəhənglərindən Erik Frommun belə bir müddəası var ki, gələcəyin inkişaf imkanları insanın ixtiyarında nələrin olmasından daha çox, onun özünün kim olmasından, ixtiyarında olanlarla onun nələri edə biləcəyindən asılıdır. Bu kəlam Heydər Əliyevin dövlət idarəçiliyinin islahatları strategiyasında bu sahə üçün kadr hazırlığı məsələsini həlledici amil kimi önə çəkilməsinin dərinliyinə varmağa imkan verir. İdarəetmə sahəsində, xüsusilə də dövlət idarəçiliyi sahəsində müasir biliklərə, kreativ düşüncəyə, yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik kadrlar olmadan heç bir islahat həyata keçirilə bilməzdi. Dövlətin həyata keçirmək istədiyi proqramların taleyi, bütövlükdə dövlətin özünün taleyi son nəticədə dövlət idarəçiliyində çalışan insanların peşəkarlığı və mənəvi-əxlaqi potensialından asılıdır. Dövlət hakimiyyəti, onun strateji hədəfləri, həyata keçirmək istədiyi yaxın və uzaq məqsəd və vəzifələri dövlət qulluğunu özü üçün peşə seçmiş insanların dövlət qulluqçularının gərgin, bir çox hallarda fədakar əməyi nəticəsində reallaşır. Vətəndaş da dövlət idarəçiliyinin səviyyəsi və keyfiyyətini birbaşa dövlət orqanının, dövlətin özünün keyfiyyəti kimi qəbul edir. Bəzi ekspertlər hesab edirlər ki, peşəkar olmayan, səriştəsiz, mənəviyyatsız kadrlar dövlətin varlığı üçün ən ciddi təhdiddir və buna görə də onlar kadr təhlükəsizliyinin milli təhlükəsizlik amili kimi qəbul olunmasını təklif edirlər. Heç də təsadüfi deyildir ki, dünya birliyi dövlət qulluğuna, onun səmərəliliyinin artırılmasına, nüfuzunun yüksəldilməsinə bu dərəcədə ciddi maraq göstərir. BMT, onun bir sıra ixtisaslaşmış qurumları, Dünya Bankı, Avropa İttifaqının müvafiq strukturları, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı dövlət qulluğunun modernləşməsi, onun sürətlə dəyişən sosial mühitə uyğunlaşması, səmərəliliyini artırılması, onun əxlaqi durumu məsələlərini daim diqqət mərkəzində saxlayır.

Bütün bu qeyd edilənlərin məntiqi nəticəsidir ki, BMT dövlət qulluğunun əhəmiyyətli bir sosial institut olduğunu vurğulamaq, habelə iştirakçı ölkələrdə dövlət qulluğunun yaxşılaşmasına kömək edə biləcək təcrübələri yaymaq məqsədilə təşkilatın Baş Assambleyasının 2005-ci il dekabrın 20-də qəbul etdiyi "Dövlət İdarəçiliyi və inkişaf" adlı qətnaməsi ilə iyunun 23-ünü BMT-nin dövlət qulluğu günü elan edib və eyni zamanda, üzv dövlətlərə həmin gün dövlət qulluğunun ümumi inkişafa verdiyi töhfəni əks etdirən xüsusi tədbirlər keçirmələrini tövsiyə edib. Belə günlərdə BMT xüsusi forumlar keçirir və bu forumlarda dövlət qulluğunun aktual problemlərinə dair elmi məruzələr dinlənilir, təcrübə mübadiləsi aparılır. Prezident İlham Əliyevin 2006-cı il 25 may tarixli Sərəncamı ilə "Dövlət qulluqçularının peşə bayramı günü" təsis edilib və elə həmin vaxtdan etibarən hər il iyunun 23-ü bayram kimi qeyd olunur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə təsdiq edilən tədbirlər planına uyğun olaraq DİA-da dövlət qulluğunun aktual məsələlərinə həsr edilən elmi-praktik konfranslar, yerli icra hakimiyyətlərində xüsusi tədbirlər keçirilir, kütləvi informasiya vasitələri dövlət qulluğu sisteminin mahiyyəti, ictimai inkişafdakı rolu barədə ictimaiyyəti məlumatlandırır. Peşə bayramı ərəfəsində qabaqcıl dövlət qulluqçularının əməyi layiqincə qiymətləndirilir, onlar "Dövlət qulluğunda fərqlənməyə görə" medalı, "Əməkdar dövlət qulluqçusu" fəxri adı, habelə ölkənin digər orden və medalları ilə təltif olunurlar.

Bu gün dünyanın bütün bölgələrində dövlət idarəçiliyi, dövlət qulluğu bu sahədə xüsusi təhsil görmüş insanlar tərəfindən həyata keçirilir və onların dövlət qulluğuna hazırlanmasını, qulluğun uğurlu keçməsini təmin etmək məqsədilə xüsusi təhsil sistemi fəaliyyət göstərir. Bu sistemin nüvəsini dövlət hakimiyyəti və idarəçiliyi orqanlarının ehtiyaclarına maksimal dərəcədə uyğunlaşdırılmış xüsusi təhsil müəssisələri təşkil edir ki, onlar artıq dövlət qulluğuna qəbul edilmiş mütəxəssislərin yenidən hazırlanması, ixtisasartırması ilə məşğul olur. Müxtəlif ölkələrdə bu mühüm dövlət əhəmiyyətli vəzifələrini yerinə yetirilməsində iştirak edən mərkəzlə yanaşı dövlət orqanlarının daxilində fəaliyyət göstərən mərkəzlər də çoxdur. Amma bütün hallarda onların arasında bir aparıcı mərkəz tanınır. MDB ölkələrində bu funksiyanı müvafiq ölkə Prezidenti yanında fəaliyyət göstərən Dövlət İdarəçiliyi və ya Dövlət Qulluğu akademiyaları yerinə yetirir. Avropa ölkələrinin hamısında, Mərkəzi və Şərqi Asiyanın əksər ölkələrində kontingenti çox ciddi surətdə seçilən xüsusi statusa malik təhsil ocaqları fəaliyyət göstərir. Hətta tarixən dövlət qulluqçularının əlavə təhsili sahəsində mərkəzləşmiş bir təsisatı olmayan ölkələr də sonralar bu tipli müəssisələr yaratmışlar. Məlumdur ki, Kontinental Avropadan fərqli olaraq Böyük Britaniyada əvvəllər dövlət qulluqçularının yenidən hazırlanması, ixtisasartırması sahəsində ayrıca bir mərkəz olmamışdır. Dövlət İdarəçiliyi, dövlət qulluğu sahəsində təhsil isə London Universitetinin nəzdindəki London İqtisadiyyat və Siyasət İnstitutunda, Oksford, Kembric və digər universitetlərdə həyata keçirilmişdir. Lakin Böyük Britaniya hökuməti də 1970-ci ildə orta və yüksək səviyyələrdə çalışan dövlət qulluqçularının hazırlığını təşkil etmək üçün aparıcı təhsil müəssisəsi kimi Dövlət Qulluğu Kollecini təsis etmişdir.

Haqqında bəhs olunan bu milli dövlət idarəçiliyi tədris, təlim mərkəzləri regional və beynəlxalq şəbəkələrdə birləşərək dövlət qulluğu sisteminin inkişafına güclü təsir göstərmək imkanına malik qlobal qüvvəyə çevrilmişdir. Bu gün dünya miqyasında dövlət idarəçiliyi sahəsində cərəyan edən dinamik dəyişiklikləri bu sahədə BMT-nin strukturunda fəaliyyət göstərən BMT Dövlət idarəçiliyi şəbəkəsi (UNPAN), Dövlət idarəçiliyi üzrə Ekspertlər Komitəsi, İnzibati İdarəçilik məktəbləri və institutlarının Beynəlxalq Assosiasiyası (İASİA), Mərkəzi və Şərqi Avropa Dövlət İdarəçiliyi məktəbləri və institutları şəbəkəsi (NİSPA), Milli Dövlət İdarəçiliyi və Dövlət qulluğu Akademiyaları və İnstitutlarının Avrasiya Assosiasiyası və s. birliklər çərçivəsində aparılan

araşdırmalar və təlim texnologiyalarını nəzərə almadan izah etmək mümkün deyildir.

Bu qısa icmal qədimlərdən bugünədək "öncə təhsil" prinsipinin dövlət qulluğunun idarə olunması üçün prioritet kimi qəbul edildiyini göstərir.

Burada diqqəti cəlb edən olduqca mühüm daha bir məqam var.

Tarixi prosesin izlənməsi belə bir meyli görməyə imkan verir ki, dövlət idarəçiliyində çalışmaq üçün peşəkarlar hazırlayan ixtisaslaşmış təhsil-təlim mərkəzlərinin yaradılması və ya bu sahədə ciddi islahatlar aparılması əksər hallarda güclü liderlərin güclü dövlət yaratmaq, dərin islahatlar həyata keçirmək istəyi və səyləri ilə bağlı olur. Dövlət idarəçiliyi tarixinə qısa bir ekskurs etməklə həmin meyli aşkar görmək mümkündür.

Araşdırmalar belə bir fikri söyləməyə əsas verir ki, ən qədim zamanlardan hökmdarlar dövlət idarəçiliyinə elmli, müdrik insanları cəlb etməyə çalışıblar. Lakin dövlət qulluğu xüsusi fəaliyyət sahəsinə çevrildikdən sonra dövlət idarəçiliyinin peşəkar dövlət qulluqçuları ilə təmin olunmasına ehtiyac yaranır və həmin ehtiyacı ödəmək üçün bu və ya digər formada təlim keçmə mexanizmləri yaratmağa cəhdlər göstərilir. İlk belə tədris-təlim ocağının nə zaman və harada yaradıldığını söyləmək çətindir. Lakin çox ehtimal ki, tarixin ən qədim sivilizasiyalarında ibtidai formada olsa da idarəçilik sahəsində bilik və bacarıq aşılayan mexanizmlər mövcud olmuşdur. Bunsuz onların belə uzun müddətli yaşarılığını təmin etmək mümkün olmazdı.

Dövlət qulluğuna məmur hazırlığını həyata keçirən ilk belə mərkəzlər haqqında məlumata Qədim Misir tarixinə dair mənbələrdə rast gəlirik. Həmin mənbələrdə olan məlumatlara görə Qədim Misirdə artıq eramızdan əvvəl XXVIII – XXIII əsrlərdə dövlət işlərinin idarə edilməsi xüsusi məktəblərdə hazırlanan məmurlara tapşırılırdı. Dövlətin fəaliyyətini əks etdirən geniş hesabatların, iki ildən bir tərtib edilən torpaq kadastrlarının hazırlanması, mülkiyyət və gəlirlərin qeydiyyata alınması məhz onların qüvvəsilə həyata keçirilirdi (15, s.64). Bu proseslərin Qədim Misir tarixinin qüdrətli sülaləsi olan III–VI sülalənin hakimiyyəti dövrünə düşməsi, yəqin ki, təsadüf nəticəsi deyildi. Stabil, səmərəli fəaliyyət göstərən güclü mərkəzi hakimiyyətə, vahid paytaxta (Memfis), yaxşı təşkil olunmuş təsərrüfat həyatına malik bir dövlət mütləq xüsusi hazırlıq keçmiş peşəkarlar tərəfindən idarə edilməli idi.

Çin tarixində də oxşar vəziyyət müşahidə olunur. Eramızdan əvvəlki II əsrdə Xan sülaləsinin hakimiyyəti dövrü Qədim Çin sivilizasiyasının özünün ən yüksək inkişaf zirvəsinə çatdığı, sənətkarlıq, elm, mədəniyyət, təhsil, hərb sənətinin çiçəklənən dövrü, böyük ipək yolunun yaranması dövrüdür. Məhz bu dövrdə ölkə tarixində ilk dəfə olaraq dövlət qulluğuna istedadlı insanları cəlb etmək məqsədilə islahatlar keçirilməsi, dövlət qulluğuna heç bir mülkiyyət və senzlərlə bağlı olmayan qulluq praktikasının gətirilməsi, məmurların dövlət qulluğunda vəzifə tutmaları üçün çoxpilləli imtahan verməsi [16, s.117] də yəqin ki, təsadüfi deyildi.

O zamandan etibarən dövlət qulluğuna qəbul imtahanlarına hazırlaşmaq, xüsusilə də İmperator məktəbində elm adamlarının yanında təlim keçmək, dövlət haqqında, onun idarə edilməsi haqqında bilikləri öyrənmək Çin mədəniyyətinin ayrılmaz elementinə çevrilmiş və məhz bu ənənəyə sadiqlik sayəsində imperatorların dəyişməsindən asılı olmayaraq Çin dövlətçiliyi uzun əsrlər boyu yaşaya bilmişdir. Qərb ölkələrinə isə Çin təcrübəsi Avropa diplomatlarının hesabatları vasitəsilə çatmış və uzun əsrlər sonra onlar da həmin təcrübədən faydalanaraq, özlərinin dövlət qulluğuna qəbul və təlim sistemlərini yaratmışlar.

Dövlət işlərinin idarə edilməsinə cəlb olunan insanların peşəkarlığını təmin etmək məqsədi ilə xüsusi təhsil-təlim mərkəzlərinin məhz güclü hakimiyyətlərin olduğu dövrlərdə yaradıldığını XV əsrdə Osmanlı imperatoru II Mehmetin yaratdığı məşhur Əndərun saray məktəbinin nümunəsi də əyani surətdə nümayiş etdirir. Bu məktəb əslində II Mehmetin atası Sultan II Muradın dövründə yaradılmışdı,

lakin məktəbin geniş və olduqca səmərəli fəaliyyəti məhz Sultan II Mehmetin hakimiyyətdə olduğu illərə təsadüf edir. Məktəb də onun adı ilə tarixdə qalır.

Almaniya tarixində baş verən bir sıra hadisələr də bir qədər öncə irəli sürülən bu müddəanın doğruluğunu təsdiq edir. Tarixi mənbələrdən yaxşı bəllidir ki, XIX əsrdə Avropada IV və V Koalisiya müharibələri Prussiya üçün çox ağır nəticələr verdi: Alman xalqının Müqəddəs Roma imperiyasının min illik tarixinə son qoyuldu, Napoleon ordusu Berlinə daxil oldu, Prussiyanın təbii sərvətlərlə zəngin olan geniş əraziləri Fransaya birləşdirildi. Yaranmış vəziyyət təbii olaraq alman cəmiyyətinə dərin milli məyusluq gətirdi. Bu ağır mənəvi-psixoloji durumu "həzm edə" bilməyən və itirilmiş milli nüfuzu bərpa etməyi qət edən Prussiya kralı özünün gələcəyə hesablanmış planlarını həyata keçirməyə məhz dövlət fəaliyyətinin səmərəli olmasını təmin edə biləcək bürokratlar hazırlayan universitetlər təsis etməkdən başladı. Bu günə qədər də çox ciddi surətdə reqlamentləşdirilmiş möhkəm intizamı ilə seçilən alman bürokratiyası o zaman həmin universitetlərdə formalaşmağa başlamışdır [14, s.127]. Bu strategiya ona gətirib çıxardı ki, Kral I Fridrix Vilhelm Almaniya tarixinin, eləcə də bütünlükdə XIX əsr Avropasının ən güclü siyasətçilərindən biri olan "dəmir Kansler" Otto fon Bismarkla birlikdə ölkə daxilində əleyhdarların müqavimətini qıraraq, "Avropa səhnəsində" isə əsas rəqib dövlət üzərində parlaq qələbə çalaraq, pərakəndə Alman torpaqlarını birləşdirib, yeni, güclü mərkəzləşmiş dövlət – Almaniya imperiyasını yaratmağa nail oldu və bu işdə alman bürokratiyasının, deməli, həm də o bürokratiyanı bəsləyib yetirmiş bürokratiya universitetlərinin rolu danılmaz idi.

Fransanın tarixi bu baxımdan xüsusilə əlamətdardır. Keyfiyyətli məmur hazırlığı bu ölkə üçün əsrlər boyu bir növ böyük ümid strategiyası olmuşdur. Məlumdur ki, Fransa Avropanın digər dövlətləri ilə müqayisədə daha çox öz qeyri-stabilliyi ilə seçilən dövlətdir. Dünyanın bu bölgəsində nisbətən qısa tarix ərzində 5 monarxiya, 5 respublika, 4 inqilab, 4 müvəqqəti hökumət, 10-dan çox konstitusiya, 2 konstitusiyasız siyasi rejim görmüş ikinci dövlət təsəvvürə gətirmək çətindir. Ona görədir ki, bu ölkədə stabil dövlət, stabil idarəçilik yaratmaq istəyən hər bir hakimiyyət öz planlarını reallaşdırmağa etibarlı məmur heyəti hazırlığını təşkil etməkdən başlamışdır. Heç də təsadüfi deyil ki, Fransada mütləqiyyət monarxiyasını ləğv etmiş, I Fransa Respublikasını elan etmiş, yalnız Fransanın deyil, Avropanın, hətta bütünlükdə dünyanın tarixinə ciddi təsir göstərmiş 1789–1793-cü illər inqilabı sosial-siyasi transformasiya prosesinə ilk olaraq təhsildən başladı. 1793-cü ildə Konventin dekreti ilə o vaxta qədər ölkə ərazisində fəaliyyət göstərən və sırf dini-ideoloji mərkəzlər rolunu oynayan 22 universitetin hamısı bağlandı. Onları peşə-ixtisas yönümlü təhsil müəssisələri ilə əvəz etmək kursu götürüldü. Az sonra – 1794-cü ildə fransız alimləri Qaspar Monj və Lazar Kapno "İctimai İşlər üzrə Mərkəzi məktəb"i təsis etməklə yeni bürokratiya nəsli hazırlamaq istiqamətində milli əhəmiyyətli ilk addımı atdılar [18, s.12]. Bir il sonra o, Fransanın yeni dövr təhsilində mühüm rola malik olan "Ekol Politeknik"ə çevrildi [22].

İllərcə qeyri-stabillik fırtınasında çalxalanan Fransa, çoxdan axtardığı sosial-siyasi müvazinəti, nəhayət, güclü Napoleon hakimiyyətində tapdı. Fransanın müasir dövlət institutlarının yaradılması, ölkə tarixində ilk olaraq dövlət qulluğuna məmurların müsabiqə yolu ilə qəbul edilməsi, fransız bürokratiyasının başlıca keyfiyyətlərinin formalaşması, bu islahatların həyata keçirilməsini təmin etmək üçün peşəkar dövlət qulluqçularının hazırlanmasının geniş miqyasda təşkili də bu dövrdə baş verdi. İmperatorun əmri ilə öncə "Ekol Politeknik" inzibati elita hazırlığının əsas mərkəzi kimi müəyyənləşdirildi, ardınca isə bu məqsədlə daha bir neçə elitar təhsil ocağı yaradıldı.

Fransada dövlət idarəçiliyi kadrlarının hazırlığı ilə bağlı digər mühüm islahatlar kompleksinin həyata keçirilməsi yenə bu ölkə üçün taleyüklü bir tarixi hadisə ilə bağlı olmuşdur.

1870-1871-ci illərin Prussiya – Fransa müharibəsində fransızlar məğlubiyyətə uğrayaraq, olduqca ağır təzminat ödəmək, təbii sərvətlərlə zəngin Elzas və Lotaringiya ərazilərini almanlara vermək kimi ağır şərtlərlə sülh müqaviləsi imzaladılar. Almanlarsa pərakəndə alman torpaqlarını birləşdirərək mərkəzləşmiş güclü Alman dövlətini – Almaniya imperiyasını yaratdılar və Kayzer I Vilhelmi İmperator, Otto fon Bismarkı Kansler elan etdilər. Özü də bütün bu təntənə mərasimi Fransa krallarının iqamətgahı olan Versal sarayında keçirilirdi. Bu ağır və alçaldıcı məğlubiyyətin törətdiyi milli mənəvi böhrandan xilas olmaq yolunda fransızların atdıqları ilk addım yenə yaranacağına ümid bəslədikləri gələcək güclü fransız dövləti üçün güclü siyasətçilər və məmurlar hazırlığının təşkili oldu. Müharibə bitəndən az sonra bir qrup alim, iş adamı və siyasətçi görkəmli fransız politoloqu və sosioloqu Emil Butminin rəhbərliyi ilə hazırda Paris Siyasi Elmlər İnstitutu (Sciences Po Paris) kimi tanınan Fransada ilk ali idarəçilik kadrlarının hazırlanması mərkəzi – Müstəqil Siyasi Elmlər Məktəbini (École Libre des Sciences Politiques, Paris) yaratdılar [19].

1872-ci ildən başlayaraq bu İnstitut uzun illər ölkənin dövlət orqanlarını ali idarəçilik kadrları ilə təchiz edən əsas mərkəz olmuşdur. Sonralar müxtəlif vaxtlarda onun ətrafında digər şəhərlərdə fəaliyyət göstərən daha bir neçə Siyasi Elmlər İnstitutu təsis edilmişdir. Müxtəlif islahatlara məruz qalmaqla həmin institutlar sistemi öz fəaliyyətini bu gün də davam etdirməkdədir. Paris Siyasi Elmlər İnstitutu isə sosial elmlər üzrə ölkənin ən elitar ali təhsil ocağı statusunu qoruyub saxlayır, dünya reytinqində siyasət və beynəlxalq münasibətlər sahəsində kadr hazırlığı üzrə davamlı olaraq ən yüksək yerlərdən birini tutur.

Bu ölkədə dövlət qulluqçularının hazırlanması işində daha bir geniş miqyaslı, həm də inqilabi xarakterli dəyişiklik yenə Fransa üçün taleyüklü olan başqa bir anda baş vermişdir. II dünya müharibəsi başa çatan kimi hələ dövlət strukturlarının formalaşmasına başlanmamış general Şarl de Qollun rəhbərliyi altında fəaliyyət göstərən Müvəqqəti hökumətin nəzdində fəaliyyət göstərən Müvəqqəti Komissiyanın qərarı ilə gələcək demokratik Fransanın yüksək səviyyəli kadr korpusunun hazırlanmasını təmin etməsi nəzərdə tutulan Milli İdarəçilik Məktəbi (Ecole national d'administration, ENA) təsis edildi [20]. Ölkənin siyasi həyatında bu təhsil müəssisəsinin oynadığı rolu təsəvvürə gətirmək üçün təfsilata varmadan təkcə Fransanın "ENA-çılar dövləti" kimi səciyyələndirilməsini xatırlamaq kifayətdir.

Napoleon dönəmindən bəri dövlət qulluqçuları heyətinin hazırlanmasında fəal iştirakı olmuş "Ekol Politeknik"i və daha beş regional dövlət idarəçiliyi institutunu əhatə edən, Fransanın dörd Prezidenti və doqquz baş nazirini yetirən, yalnız Fransanın deyil, bütünlükdə Avropanın, hətta ABŞ və digər yaxın və uzaq ölkələrin siyasi elitasının formalaşmasına ciddi töhfələr verən ENA 2021-ci ilin aprelində onun öz məzunu Emmanuel Makronun sərəncamı ilə guya dövlət qulluğunun demokratikləşməsini təmin etmək məqsədini güdən islahatlarla əlaqədar bağlandı və tezliklə də (növbəti ilin yanvarından) yeni adla – Fransa Milli Dövlət Qulluğu İnstitutu adı ilə fəaliyyətini davam etdirməyə başladı. Fransız cəmiyyəti bunu birmənalı qarşılamadı [21]. O zaman Mond qəzetinə verilən bir intervyüdə isə hətta bu qərarın qəbul edilməsi kəskin sosial problemlərdən ictimaiyyətin diqqətini yayındırmaq, növbəti dəfə siyasi uğursuzluqlar üçün məsuliyyəti məmurların boynuna yıxmaq cəhdi kimi qiymətləndirilirdi [22].

Qeyd edilənlər dövlət idarəçiliyində çalışmaq üçün peşəkar insanlar hazırlayan ixtisaslaşmış təhsil-təlim mərkəzlərinin yaradılması və bu sahədə ciddi islahatlar aparılmasının bir qayda olaraq, məhz dövlət və xalq üçün taleyüklü olan anlarda gerçəkləşməsini, həm də bunun güclü liderlərin həyat qabiliyyətli dövlət yaratmaq istəyi və səyləri ilə bağlı olduğunu əyani surətdə nümayiş etdirir.

Beləliklə də «Azərbaycanın dünyaya bir günəş kimi doğacağına» inanan və öz gündəlik fəaliyyəti ilə yorulmadan bu niyyətini reallaşdırmağa can atan Heydər Əliyevin dövlət ida-

rəçiliyi islahatları strategiyasının «universal açarı» kimi niyə məhz Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılmasını seçməsinin məntiqi, zənnimizcə, kifayət qədər aydın olur.

## 2. Azərbaycan Respublikasında dövlət qulluqçularının təhsilinin müasir modelinin formalaşması və inkişafı

Müstəqil Respublikanın dövlət qulluğunun kadr təminatı sisteminin yaradılarkən təbii ki, yeni - demokratik dövlət quruculuğuna uyğun gələn dəyərlər və bu dəyərlərdən irəli gələn məqsəd və vəzifələr əsas götürülürdü. Bununla belə hər şeyi “sıfırdan başlamaq” zərurəti yox idi. İnkişaf etmiş ölkələr əsrlər boyu bu sahədə tapdadıqları zəngin təcrübəni bizimlə bölüşməyə hazır idilər. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasında Avropa İttifaqının dəstəyi ilə 1999-2001-ci illərdə Universitet İdarəetməsi üzrə “EuroAzer France – Spain – Azerbaijan” və 2002-2004-cü illərdə “Azərbaycanda dövlət qulluğu islahatları (Aİ, TACİS)” layihələrinin uğurla icra olunmuş bunun əməli ifadəsi idi. Digər tərəfdən müstəqillik əldə etmiş bir sıra digər postsovet respublikalarından fərqli olaraq Azərbaycanın özünün də bu sahədə müəyyən milli təcrübəsi var idi. Əvvəla, qısa müddətdə olsa da Azərbaycan Xalq Cümhuriyyəti dönəmində demokratik dəyərlərə əsaslanan dövlət idarəçiliyi üçün məmur hazırlığını həyata keçirən kurslar fəaliyyət göstərmişdi. Məlum tarixi proseslər nəticəsində bu kursların fəaliyyətini davam etdirmək mümkün olmasa da, 1921-ci ildən başlayaraq [13, s.11], 1991-ci ilin iyul ayınadək 70 il ərzində Respublikada adında və funksiyalarında müəyyən dəyişikliklər edilməsinə baxmayaraq, dövlət idarəçiliyi sahəsində kadrların hazırlığı və ixtisasartırmasını həyata keçirən mərkəz olmuşdur. Özü də burada on illərlə tək Azərbaycan üçün deyil, bütün Cənubi Qafqaz üçün idarəçilər heyəti hazırlanmışdır. Onlardan əlavə müxtəlif illərdə Bakıda Rusiya Federasiyasından, Belorus və Ukrayna respublikalarının ayrı-ayrı vilayətlərindən, Türkmənistan və Özbəkistandan müvafiq dövlət orqanlarının göndərişi ilə gələn çoxsaylı müdavim təhsil almışdır. Doğrudur, bu, fərqli siyasi, ideoloji baxışlara söykənən bir təcrübə – partiya və sovet quruculuğu kadrlarının hazırlanması təcrübəsi idi. Lakin həmin təcrübənin bir çox cəhətdən faydalı ola biləcəyi şübhəsizdir.

Akademiyanın təsis olunması ilə bağlı sənədlərin məzmunu hər iki təcrübədən çox geniş istifadə olunduğunu nümayiş etdirir. Lakin yaradılmış yeni institusional və elmi-metodiki sistem haqqında söhbət gedən beynəlxalq və milli təcrübənin sadəcə təkrarı deyil, onların respublikada yaranmış yeni şəraitə, yeni məqsədlərə maksimal dərəcədə uyğunlaşdırılmış tətbiqi idi. Orada hətta əvvəllər nə özümüzün tarixi təcrübəmizdə, nə də yaxın əhatədə mövcud olmayan elementlər də öz əksini tapmışdır.

Bütünlükdə dövlət qulluqçularının təhsilinin iki mərhələsi fərqləndirilir: qulluqdan əvvəlki və qulluq keçərkən alınan təhsil. Qulluqdan əvvəlki təhsil dedikdə şəxsin dövlət qulluqçusu statusuna yiyələnməzdən əvvəl aldığı təhsil nəzərdə tutulur və o, istər milli, istərsə də beynəlxalq təcrübədə üç səviyyəli (bakalavriat, magistratura, doktorantura) ali təhsil müəssisələrində həyata keçirilir. Bu təhsil onların seçdikləri ixtisas üzrə bilik və səriştələrini, dünyagörüşünün əsaslarını, analitik bacarıqlarını və s. formalaşdırır. Qulluq keçərkən alınan təhsil isə ali təhsildən sonrakı təhsil – əlavə peşə təhsili adlanır. Azərbaycan Respublikasında əlavə təhsil ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi, təkrar alli təhsil və orta ixtisas təhsili, dərəcələrin yüksəldilməsi və yaşlıların təhsili istiqamətlərini əhatə edir [11].

Adətən bu tipli təhsil ocaqları qulluq keçərkən alınan təhsil verməklə, yenidənhazırlanma, ixtisasartırma və stajkeçmə funksiyalarını yerinə yetirməklə məşğul olur.

Akademiyanın təsis edilməsinə dair Azərbaycan Respublikası Prezidentin Fərmanı və həmin fərmanla təsdiq edilmiş Nizamnamə isə ona dövlət qulluqçularının təhsilinin hər iki

mərhələsi – həm qulluqdan əvvəlki, həm də qulluq keçərkən alınan təhsillə məşğul olmaq imkanı yaradırdı. Eyni zamanda Akademiyaya ali təhsil müəssisəsi üçün dünya praktikasında mövcud olan ən yüksək status – ölkə Prezidenti yanında ali təhsil müəssisəsi statusu verilir, dövlət idarəçiliyi və icra hakimiyyəti orqanları üçün ali təhsilin bütün səviyyələri üzrə mütəxəssislər hazırlanması və onların əlavə təhsili sahəsində aparıcı metodiki, tədris, elmi və analitik informasiya mərkəzi kimi olduqca geniş funksiyalar nəzərdə tutulurdu. Kadr siyasətinə dair təkliflərin işlənib hazırlanması, dövlət idarəçiliyinin inkişafı və onun hüquqi təminatına dair tövsiyələrin hazırlanması, dövlət idarəçiliyinin analitik informasiya təminatı, dövlət vəzifələrində olan dövlət qulluqçularını, habelə onları əvəz etmək üçün ehtiyat kadrların hazırlanması və əlavə təhsilin təmin edilməsi isə onun əsas fəaliyyət istiqamətləri kimi müəyyənləşdirilirdi [3].

Ulu Öndərin layiqli siyasi varisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı məsələlər haqqında» 11 dekabr 2014-cı il tarixli [4] və “Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 3 yanvar tarixli 60 nömrəli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Idarəçilik Akademiyasının Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında” 2017-ci il 21 iyul tarixli Fərmanları [5] Akademiyanın inkişafı üçün yeni, daha geniş imkanlar açmışdır.

Artıq 24-cü ildir ki, Akademiyanın kollektivi Ulu Öndərin imzası ilə təsdiq edilmiş Nizamnamədən və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq fərmanlarından irəli gələn vəzifələri yerinə yetirmək uğrunda əzmlə çalışır, bakalavr, magistr hazırlığı həyata keçirmək, doktorantura və dissertantura yolu ilə yüksək ixtisaslı kadrlar yetişdirmək, dövlət qulluqçularına təlimlər keçmək, elmi araşdırmalar aparmaq vasitəsilə dövlət idarəçiliyi sisteminə öz töhfəsini verir.

Akademiya 1999-cu ildə davamçısı olduğu keçmiş Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun özünü təsdiq etmiş dövlət qulluğuna qədərki təhsil ənənəsini davam etdirərək politologiya, beynəlxalq münasibətlər, hüquq, dövlət və bələdiyyə idarəçiliyi, menecment ixtisasları üzrə bakalavr, onların bazasında isə magistr və doktorlar hazırlığı ilə fəaliyyətə başlamışdır. Sonrakı illərdə o, iqtisadiyyat, davamlı inkişafın idarə edilməsi və kompüter elmləri sahəsində hər üç səviyyəni əhatə edən kadr hazırlığı ilə öz fəaliyyət dairəsini ciddi surətdə genişləndirmiş, dövlət idarəçiliyi sisteminin daha fəal kadr təchizatçısına çevrilmişdir. Bu illər ərzində Akademiya Respublikamızın ən dinamik inkişaf nümunələri göstərən bir ölkəyə çevrilməsinə nail olmuş unikal dövlət idarəçiliyi sisteminə inteqrasiya oluna bilmiş, öz elmi araşdırmaları, tədris-metodiki işi, mənəvi ab-havası ilə cəmiyyətin rəğbətini qazanmış, istedadlı gənclərimizin can atdığı bir təhsil ocağına çevrilmişdir. Bu gün Akademiyanın məzunları dövlət idarəçiliyinin bütün sahələri və səviyyələrində – mərkəzi icra hakimiyyəti orqanlarında, ölkə parlamentində, diplomatik xidmətdə, hüquq mühafizə orqanlarında, orduda, bank sistemində, bələdiyyə qurumlarında, mediada uğurla fəaliyyət göstərir, dövlətimizin, cəmiyyətimizin dinamik inkişafının təmin olunmasında fəal iştirak edirlər.

Dövlət qulluqçularının əlavə təhsilinin formaları məqsəd və vəzifələri Azərbaycan Respublikasının Təhsil Qanununda [8], Dövlət qulluğu haqqında Qanunda[9], Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 3 yanvar tarixli 60 nömrəli fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Nizamnaməsində [3], Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı bəzi məsələlər haqqında» [4] 11 dekabr 2014-cı il tarixli və “Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 3 yanvar tarixli 60 nömrəli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Idarəçilik Akademiyasının Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında” 2017-ci il 21 iyul tarixli[5]

Fərmanlarında, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 mart tarixli, 44 nömrəli qərarı ilə təsdiq edilmiş “Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydalarında” [10] müəyyən edilmişdir. Bundan əlavə 25 sentyabr 2015-ci ildə BMT-yə üzv olan 193 ölkə 2030-cu ilədək davamlı inkişaf konsepsiyasının gündəliyini qəbul etmişlər [23]. Konsepsiya ölkələrin qarşısına dünyanı qoruyub inkişaf etmək üçün 17 məqsəd qoymuşdur. Məqsədlərdən biri keyfiyyətli hərtərəfli, ədalətli və uzunmüddətli təhsilin təşkil olunmasıdır. Buna görə ixtisaslı, peşəkar kadrların hazırlanması və onun elmi-metodiki təminatı Azərbaycan Respublikasının dövlət siyasətinin mühüm istiqamətini təşkil edir [12, s.176]. Bu məqsədlə də Respublikamızda dövlət qulluqçularının əlavə təhsilinin təşkil olunmasına xüsusi əhəmiyyət verilir.

Bu gün əsas problem onunla bağlıdır ki, cəmiyyətin inkişafının müasir mərhələsindəki tələblərlə idarəetmə fəaliyyətindəki köhnə stereotiplər arasındakı ziddiyyətlər kəskinləşir. Hər bir idarəetmə orqanının işçisi fasiləsiz təhsil vasitəsilə daim peşə biliklərini yeniləməli və dərinləşdirməlidir.

Dövlət qulluğu sahəsində kadr hazırlığının diversifikasiyası tələb olunur. Bununla bağlı əsas məsələ gələcək mütəxəssislərin peşəkar və şəxsi inkişaf birliyini təmin etmək, proqram-məqsəd konsepsiyasının, şəxsi yönümlü təlimin reallaşdırılmasını, təlim sisteminin inkişaf etdirilməsini, müasir elmi nailiyyətlərə əsaslanaraq peşəkar problemləri həll etməyə yönəlmiş mütəxəssis hazırlığı kadrlarla işin yeni metod və texnologiyalarından istifadə olunmasını tələb edir.

Hazırda Azərbaycan Respublikasında dövlət qulluqçularının əlavə təhsili və ixtisasartırılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçılik Akademiyası mühüm rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında keçirilən kurslara hər il yerli və mərkəzi icra orqanlarında çalışan dövlət qulluqçuları cəlb olunur. Kurslarda Azərbaycan Respublikasının Prezident Administrasiyanın yüksək vəzifəli dövlət qulluqçuları, Azərbaycan Respublikasının Milli Məclisinin deputatları, nazirlər və nazir müavinləri, dövlət komitələrinin sədrləri, Azərbaycan Respublikasının qanunverici və icra hakimiyyəti orqanlarının rəhbər işçiləri, təcrübəli mütəxəssislər, DİA-nın və ölkənin ali məktəblərinin alimləri, Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatların nümayəndələri təlim və seminarlarda müxtəlif mövzularla çıxış edirlər.

Azərbaycan Respublikasının Prezidentinin 30 oktyabr 2018-ci il tarixli 602 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyasına” [6] əsasən dövlət qulluqçularının bilik və bacarıqlarının artırılması məqsədilə hər il DİA-nın qısamüddətli ixtisasartırma kurs, təlim, seminarlarında 3000 nəfərdən çox dövlət qulluqçusu iştirak edir. Eyni zamanda DİA Azərbaycan Respublikası Prezidenti Administrasiyasının seçimi əsasında magistratura səviyyəsində yenidən hazırlanma növü üzrə əlavə təhsilə cəlb olunan dövlət qulluqçularının təhsili prosesini təşkil edir. Magistrantlar “Dövlət və bələdiyyə idarəetməsi” ixtisası (“Dövlət qulluğunun təşkili və idarəedilməsi” və “Dövlət strukturlarında menecment ixtisaslaşmaları”), “Davamlı inkişafın idarəedilməsi” ixtisası (“Davamlı inkişafın planlaşdırılması” ixtisaslaşması) və “Sosial iş” (“Gənclərlə iş” ixtisaslaşması) üzrə hazırlanır.

Həmçinin dövlət idarəçilik sahəsi üçün mütəxəssislər hazırlanmasını və onların peşəkarlıq səviyyələrinin artırılmasında Akademiya müstəsna xidmətlər göstərir. Bundan başqa, Dövlət İdarəçılık Akademiyası öz nizamnaməsinə uyğun olaraq dövlət idarəçiliyi və dövlətin kadr siyasəti sahəsində elmi tədqiqatlar aparır, dövlət vəzifələrində çalışan dövlət qulluqçularını, habelə onların əvəz edilməsi üçün ehtiyatı hazırlayır, yenidən hazırlayır, yaxud ixtisaslarını artırır, dövlət idarəçiliyi məsələləri üzrə dövlət hakimiyyət orqanlarının analitik informasiya təminatını həyata keçirir,

dövlət qulluqçularının peşəkarlıq səviyyəsinə olan əsaslı tələblərin ekspertizasını keçirir [3]. "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın 2023-2025-ci illərdə icrası üzrə Fəaliyyət Planında [7] dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının qarşısında duran vəzifələr öz əksini tapmışdır. Göstərilir ki, dövlət qulluqçularının peşəkar səviyyəsinin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət qulluqçularının əlavə təhsili sahəsində fəaliyyəti daha da təkmilləşdirilməlidir və xüsusən 3.2 bəndində ona dövlət qulluğunda rəhbər vəzifəli şəxslər üçün idarəetmə sahəsində, o cümlədən insan resurslarının idarə edilməsi ilə bağlı təlimlər keçirilməsi həvalə olunmuşdur. Bundan əlavə Akademiyada qısamüddətli yenidənhazırlanma və ixtisasartırma proqramlarının sayı və çeşidi ildən ilə artırılır, təhsilin müasir metodlarından, elmi-texniki yeniliklərdən istifadə genişlənir. Qısamüddətli ixtisasartırma kurslarının fəaliyyətinə nəzər salsaq görmək olar ki, son 10 ildə proqramların sayı 5 dəfə, dinləyicilərin sayı isə 10 dəfə artıb.

"Dövlət qulluğu haqqında" Qanunun 22-1.8-ci maddəsinə müvafiq olaraq Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları"na görə[10], dövlət qulluqçularının əlavə peşə təhsilinin proqramları onların çalışdıqları sahə üzrə yenilikləri, texnikanın, texnologiyaların, hüququn, siyasətin, iqtisadiyyatın və elmin digər sahələrinin mövcud və perspektiv sahələrini əhatə etməli, təlimlərin hazırlanması və keçirilməsində qabaqcıl dünya və milli təcrübədən istifadə edilməlidir.

Qaydalara görə, uzunmüddətli əlavə peşə təhsili olan dövlət qulluqçusunun yenidən hazırlanması daimi dövlət qulluğuna qəbul edilmiş şəxslərə şamil olunur.

Dövlət qulluqçusunun ixtisasartırma keçməsi – dövlət qulluqçusunun peşə və ixtisas üzrə biliklərinin artırılması məqsədi ilə həyata keçirilən qısamüddətli təlimlər (treninq, seminar və s.) və ya ixtisasartırma kursları şəklində təşkil edilən əlavə peşə təhsilidir.

Daimi dövlət qulluğuna qəbul edilmiş dövlət qulluqçuları və ya dövlət qulluğuna qəbul edilmə (müsahibə yolu ilə) vaxtından 1 il keçdikdən sonra dövlət qulluqçuları ixtisasartırma kurslarına göndərilə bilər.

Dövlət qulluqçusunun əlavə peşə təhsili aşağıdakı müddətləri əhatə edir:

– təcrübə keçmə üzrə: 15 günədək müddətdə;
– ixtisasartırma keçmə üzrə: 4 ayadək müddətdə;
– yenidənhazırlanma keçmə üzrə: təhsil başa çatanadək [10, Maddə 12].

Məlum olduğu kimi, dövlət qulluqçusunun əlavə təhsilə cəlb edilməsi üçtərəfli prosesdir. Belə ki, burada qulluqçunu əlavə təhsilə göndərən dövlət təşkilatı, dövlət qulluqçusunun özü və təhsil müəssisəsi çıxış edir. Bu üç tərəf arasında qarşılıqlı münasibətlərin rəsmiləşdirilməsi ilə bağlı xarici təcrübə maraq kəsb edir. Belə ki, Avropanın Almaniya, Fransa kimi ölkələrində dövlət qulluqçusunun əlavə təhsili üzrə hüquq münasibətlərinin tərəflərinin – subyektlərin qarşılıqlı əlaqəsinin səmərəli sistemi formalaşmışdır. Tərəflərin öhdəlikləri əsasən, müvafiq tədris proqramlarının hazırlanması, onun reallaşması mərhələsində hər bir tərəfin məsuliyyətini və əldə edilən biliklərin nəticəsi olaraq həmin mütəxəssislərdən səmərəli istifadəni müəyyən edən üçtərəfli inzibati müqavilə vasitəsi ilə təyin olunur.

Dövlət qulluğunda təhsilin əhəmiyyəti bir çox xarici ölkələrin təcrübəsində də özünü təsdiqləyir. Belə ki, aparıcı Qərb ölkələrində dövlət qulluqçularının peşə hazırlığım həyata keçirən xüsusi tədris mərkəzləri fəaliyyət göstərir. Məsələn, Almaniyada Ali Inzibati Elmlər Məktəbi, Fransada Milli İnzibati Məktəb, İngiltərədə Mülki Xidmət Kolleci, Çexiyada Ümumi İdarəçilik İnstitutu belə təhsil müəssisələrindəndir. ABŞ-da da bir çox idarəetmə məktəbi vardır. Bunlardan biri də Harvard Universitetinin yanında fəaliyyət göstərən Kennedi adına məktəbdir. Bunlar öz xərclərini

özləri ödəyir və yüksək səviyyəli dövlət qulluqçuları hazırlayırlar.

Nəticədə qeyd etmək istərdik ki, müasir dövlət qulluğu sisteminin yaradılmasında, peşəkar kadr potensialının formalaşmasında dövlət qulluqçularının təhsili vacib əhəmiyyət kəsb edir. Dövlət qulluqçusu qulluğa qəbul olduqdan sonra işlədiyi sahə üzrə bilik və bacarıqlarının təkmilləşdirimilməsinə ehtiyac duyur. Dövlət qulluqçusu öz vəzifəsi üçün zəruri olan dəyişiklikləri, qanunvericiliklə bağlı yenilikləri, innovasiyaları və s. mənimsəməyə borcludur. Hazırda bu təhsilin həm ölkəmizdə, həm də xarici təcrübədə müxtəlif üsul və formaları istifadə edilir.

Beləliklə görmək olar ki, bu gün dövlət qulluqçusunun əlavə təhsili ilə bağlı konseptual çərçivə müəyyən edilmişdir. Burada təhsilin məqsədindən tutmuş təhsilin formasınadək bir çox məqamlar öz əksini tapmışdır. Bu isə dövlət qulluqçularının qulluq vəzifələrinin tələblərinə uyğun şəkildə inkişafına təminat yaradır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası 12 noyabr 1995-ci il. - https://www.e-qanun.az/framework/897
2. «Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət Komissiyasının yaradılması haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 29 dekabr 1998-ci il. https://e-qanun.az/framework/3457
3. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 3 yanvar 1999-cu il . https://e-qanun.az/framework/1756
4. “Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı məsələlər haqqında». Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 11 dekabr 2014-cü il. - https://e-qanun.az/framework/30770
5. “Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Idarəçilik Akademiyasının Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 21 iyul 2017-ci il. - https://e-qanun.az/framework/36169/
6. “2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”-nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 30 oktyabr 2018-ci il. https://president.az/az/articles/view/30514/
7. “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya”nın təsdiq edilməsi haqqında 23 noyabr 2018-ci il tarixli https://president.az/articles/30842 və “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya”nın 2023–2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında 30 dekabr 2022 -ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamları https://e-qanun.az/framework/53091.
8. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. - https://e-qanun.az/framework/18343/
9. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu.-https://www.e-qanun.az/framework/4481
10. “Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları”. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 mart 2009-cu il tarixli 44 nömrəli Qərarı.- https://e-qanun.az/framework/16444/
11. Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası. - Təhsil qanunvericiliyinə dair normativ-hüquqi sənədlər toplusu. I cild. Bakı, Şərq-Qərb. 2012.

12. Urxan Ələkbərov. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. Dərslik. "Təhsil" Bakı.2017.
13. Известия ЦК АКП(б), № 1, 1922.
14. Василенко И. А. Административно-государственное управление в странах запада: США, Великобритания, Франция, Германия: Учебное пособие. Изд. 2-е, перераб. и доп. – М.: Издательская корпорация «Логос», 2000.
15. Голубин Р.В., Сорокин А.С., Коротышев А.П. История мировых цивилизаций. Хрестоматия, Нижний Новгород: Нижегородский госуниверситет, 2014. - http://www.unn.ru/books/met_files/imc.pdf /
16. Джавахарлал Неру. Взгляд на всемирную историю. Перевод с английского в трёх томах. т.I, Москва, 1981
17. Василенко И. А. Административно-государственное управление в странах запада: США, Великобритания, Франция, Германия. - http://vasilievaa.narod.ru/gu/stat_rab/book/Zar_adm-gos_upr_Vasilenko/5-23.aspx.htm/
18. Пискунова Е.Т. Создание университетской системы во Франции в правление Наполеона I: цели и результаты. Вестник Вол ГУ. Серия 4, История, Регионоведение, Международные отношения, 2020, т.25, № 2
19. Институт политических исследований Парижа (Sciences Po) – https://www.vparis.net/vysshie-shkoly-frantsii/institut-politicheskikh-issledovanij-parizha-sciences-po.html/
20. Шарль де Голль и модернизация Пятой республики. - https://er.ru/activity/news/sharl-de-goll-i-modernizatsiya-pyatoj-respubliki/
21. https://www.francetvinfo.fr/economie/emploi/recherche-d-emploi/fonction-publique/non-les-eleves-de-lena-ne-sont-ni-cooptes-ni-coupes-des-realites-le-directeur-de-la-prestigieuse-ecole-repond-a-emmanuel-macron_3411877.html
22. Ксения Гулиа. Макрон объявил о ликвидации «кузницы французских элит» – Национальной школы администрации ENA. Опубликовано: 09/04/2021- (rfi.fr)
23. Transforming our World. The 2030 Agenda for Sustainable Development https://www.unfpa.org/resources/transforming-our-world-2030-agenda-sustainable-development

***Açar sözlər:*** *dövlət qulluğu, dövlət qulluğunda şəffaflıq, dövlət qulluğunda peşəkarlıq, dövlət qulluqçusunun əlavə təhsili, innovasiyalar*

**Alikram Abdullayev**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan I Vice-rector, Professor***

**Gulnara Gurbanova**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Director of the Institute for Executive Training of Government Officials, Professor***

# FORMATION AND DEVELOPMENT OF THE MODERN MODEL OF EDUCATION OF CIVIL SERVANTS IN THE REPUBLIC OF AZERBAIJAN

## ABSTRACT

The article examines the fundamentals of civil service in modern Azerbaijan, as well as the reforms implemented by the National Leader, Heydar Aliyev, in the field of public administration. The main tasks of the civil service reforms carried out in the country have been determined; among them is the creation of normative and legal protection for the civil service, the improvement of the management of the civil service system, the improvement of the existing classification of civil service duties, the provision of legal protection and political neutrality for civil servants, the strengthening of stimulation and motivation of civil servants, the improvement of the civil service recruitment and promotion system, the creation of a system of professional education and training for civil servants and public personnel resources, and the fight against corruption in the civil service system. The article studies the education of civil servants and the tasks facing the Academy in achieving this objective.

***Keywords:*** *civil service, transparency of the civil service, professionalism of the civil service, additional education of civil servants, innovations*

**Аликрам Абдуллаев**

***I проректор Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философских наук, профессор***

**Гюльнара Гурбанова**

***Директор Института Повышения Квалификации Руководящих Кадров Государственного Управления Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор психологических наук, профессор***

## ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ СОВРЕМЕННОЙ МОДЕЛИ ОБРАЗОВАНИЯ ГОСУДАРСТВЕННЫХ СЛУЖАЩИХ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

### РЕЗЮМЕ

В статье анализируются основы государственной службы в современном Азербайджане и реформы, проведенные Общенациональным лидером Гейдаром Алиевым в сфере государственного управления. Определены основные задачи проводимых в стране реформ государственной службы, среди них создание нормативно-правовой защиты государственной службы, совершенствование управления системой государственной службы, совершенствование существующей классификации обязанностей государственной службы, обеспечение правовой защиты и политической нейтральности государственных служащих, усиление стимулирования и мотивации государственных служащих, совершенствование системы приема на государственную службу и продвижения по службе, создание системы профессионального образования и обучения государственных служащих и резервы государственных кадров, борьба с коррупцией в системе государственной службы.

В статье широко освещены вопросы образования государственных служащих и задачи, стоящие перед Академией в этом направлении.

***Ключевые слова:*** *государственная служба, прозрачность государственной службы, профессионализм государственной службы, дополнительное образование государственных служащих, инновации*

DOI:10.30546/dia.2.82.2023.37


UOT 32(092)

**ELMAN NƏSİROV**

***Milli Məclisin deputatı,***
***Azərbaycan Respublikasının Prezidenti yanında***
***Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru,***
***siyasi elmlər doktoru, professor***

*e-mail: elmannasirov@yahoo.co.uk*

# HEYDƏR ƏLİYEV VƏ YENİ AZƏRBAYCAN PARTİYASI: PERMANENT QALİBİYYƏTLƏR ÜÇÜN DOĞULMUŞ VAHİD QÜVVƏ

Müasir Azərbaycan dövlətçiliyinin qurulması, möhkəmləndirilməsi və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycan dövlətçiliyini permanent xaos və böhran məngənəsindən çıxarmış, ümummilli fəlakətin – vətəndaş müharibəsinin qarşısını almış, döyüş cəbhəsində məğlubiyyətlər seriyasına son qoymuş və atəşkəs rejiminin tətbiqinə nail olmuş, bir sözlə, xalqımızın taleyində misilsiz xilaskar missiyasını şərəflə yerinə yetirmişdir.

O, Azərbaycanda siyasi plüralizm, siyasi mədəniyyət və siyasi sistemin yaranmasının əsasını qoyan nadir şəxsiyyətdir. 1992-ci il noyabrın 21-də bir müxalifət partiyası olaraq yaratdığı Yeni Azərbaycan Partiyası (YAP) hakimiyyətə sivil yolla gəlməyin əsl "yol xəritəsi"ni ortaya qoydu. Bununla da bir siyasi mədəniyyət və siyasi əxlaq nümunəsi yaratdı. Bu nümunə əslində siyasi xəttindən və davranışından asılı olmayaraq bütün siyasi qüvvələr üçün örnək olmalıdır. Bu nümunə özündə sağlam, obyektiv, şəffaf və demokratik mübarizə mədəniyyətini ehtiva edir və qələbə təminatına görə unikaldır.

YAP Cənubi Qafqazın ən böyük partiyasıdır. Bu partiya ümumxalq partiyasıdır. Bu partiyada cəmiyyətin bütün təbəqələri iştirak edir və hər zaman islahatlara açıq olan partiyadır.

Ulu Öndər Heydər Əliyevin yaratdığı partiya onun öz sözlərində deyildiyi kimi "Dünənin, bu günün və gələcəyin partiyasıdır". YAP-ın yaradılması Ulu Öndər Heydər Əliyevə Azərbaycan cəmiyyətinin sifarişi idi, çünki bu partiya yaradılmadan Azərbaycanın gələcəyi və Azərbaycanın çox ciddi siyasi-iqtisadi kataklizmlərdən çıxış yolu yox idi. Məşhur "91-lər"in müraciəti əsasında zəmanəmizin dühası Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasına, ona rəhbərlik etməyə razılıq verdi. Özünü "demokratiya aşiqləri" kimi qələmə verən, əslində isə antimilli və antidemokratik mahiyyət daşıyan Xalq Cəbhəsi-Müsavat hakimiyyəti Heydər Əliyev şəxsiyyətinə olan ümumxalq sevgisindən o qədər vahimələnirdi ki, hətta Yeni Azərbaycan Partiyasının Təsis Qurultayının Bakı şəhərində keçirilməsinə belə imkan vermədi. Qurultay Naxçıvanda, Cəlil Məmmədquluzadə adına Dram Teatrının binasında keçirildi. Demokratiyadan eninə-uzununa dəm vuran Xalq Cəbhəsi-Müsavat cütlüyü qurultay iştirakçılarının Naxçıvana gəlişinə belə çeşidli maneələr yaratmaqdan çəkinmədi. Bütün bu süni əngəllərə baxmayaraq, 550 nəfərə qədər vətənpərvər insan hakimiyyətin təhdid və qorxu aparatına tabe olmayaraq qurultaya qatıldı. Qurultay baş tutdu. Nəticədə Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycanın siyasi sisteminin əsasını təşkil edən Yeni Azərbaycan Partiyası yaradıldı. Naxçıvandan başlayaraq bütün Azərbaycanın nicatına gedən yolun əsası qoyuldu. Heydər Əliyevin

hakimiyyətə gəlməsi tarixi zərurətə çevrildi. 1993-cü ildə müdrik Azərbaycan xalqı qara-güruha yox dedi. Antimilli hökumətin mövcudluğuna maksimum bir il dözə bildi və onu tarixin səhnəsindən birdəfəlik süpürüb atdı. 1993-cü il iyunun 15-də Azərbaycanın Qurtuluş tarixi başlandı. Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan Respublikası real müstəqilliyinə qovuşdu. Xalq artıq sahibsiz deyildi. Ona dünya səviyyəli lider-Heydər Əliyev rəhbərlik edirdi. Qarşıda isə dövlətçiliyimizin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edən siyasi hadisə-yeni prezident seçkilərinin keçirilməsi məsələsi dayanırdı.

Heç kəsə sirr deyildir ki, Ulu Öndər 1993-cü il 3 oktyabrda keçiriləcək prezident seçkiləri öncəsi seçkiqabağı təbliğat kampaniyasına xüsusi əhəmiyyət verir, praktiki olaraq əhalinin bütün təbəqələri ilə görüşürdü. Fikrimizi faktlar və arqumentlərlə əsaslandıraq.

Azərbaycan Respublikasının prezidentliyinə namizəd Heydər Əliyev 1993-cü il sentyabrın 10-da yerli və xarici jurnalistlər üçün mətbuat konfransı keçirdi. Sentyabrın 20-də Azərbaycan Daxili İşlər Nazirliyinin əməkdaşları, sentyabrın 21-də AMEA-da ziyalılar qarşısında, sentyabrın 22-də Ali Sovetdə Azərbaycan gənclərinin nümayəndələri, sentyabrın 28-də Bakı Məişət Kondisionerləri zavodunda əmək kollektivlərinin təmsilçiləri qarşısında çıxışlar etdi. Bu çıxışlarda Ulu Öndər Heydər Əliyev prezident seçiləcəyi təqdirdə xalqı narahat edən hansı mürəkkəb problemlərin köklü həllinə nail olmağı hədəf seçdiyini bəyan etdi. Bu, ilk növbədə, polisin ictimai asayişin qorunması ilə bağlı birbaşa vəzifəsini icra etməsi, müxtəlif rayonlarda kök salmış və dinc sakinləri qorxu altında saxlayan çoxsaylı gizli silahlı qrupların və bandaların üzə çıxarılması, onların ifşa və tərksilah edilməsi ilə bağlı idi.

Ziyalılar qarşısında çıxış edən Heydər Əliyev ideoloji stereotiplərdən və təhriflərdən azad olmuş real və həqiqi Azərbaycan tarixinin yazılmasını təxirəsalınmaz vəzifə kimi qarşıya qoydu. Ulu Öndər xüsusi olaraq vurğuladı ki, tarixi qələmə alarkən ədalət hissini bir an yaddan çıxarmaq olmaz. Ağı ağ, qaranı qara yazmaq lazımdır. Bu xüsusda Ümummilli Lider xüsusi olaraq vurğuladı ki, “1920-ci ildən başlayaraq müstəqillik əldə etdiyimiz vaxtadək Azərbaycan xalqı böyük bir tarixi yol keçmişdir. Azərbaycanda böyük elm, mədəniyyət yaranmışdır. Ölkənin sənayesi, kənd təsərrüfatı inkişaf etmişdir. Bu dövrü tarixdən silmək olarmı? Şübhəsiz, bu dövrün çox qaranlıq səhifələri də var – 37–38-ci illər, elə 20-ci illərin əvvəlləri, 30-cu illər, repressiya illəri, qanunsuzluq, insan hüquqlarının pozulması, Azərbaycan xalqına böyük zərbələr vurulması. Bunlar həqiqətdir. Eyni zamanda o da həqiqətdir ki, bu dövrdə əzab-əziyyətlərlə, çətinliklərlə yanaşı, Azərbaycan xalqı öz iqtisadiyyatını yaratmışdır. Əgər 70-ci illərdə yaranmış bu iqtisadiyyat olmasaydı, indi Azərbaycan Respublikası müstəqil dövlət kimi yaşaya bilərdimi?!. Eləcə də digər şəxsiyyətləri də itirmək olmaz. Bizim üçün Mirzə Fətəli Axundov da, Əhməd bəy Ağayev də, Məmməd Əmin Rəsulzadə də böyük şəxsiyyətlərdir. Nəriman Nərimanov da... Tarixi təhrif edənlər xalqa xəyanət edir. Tariximizdə olan şəxsiyyətlərin hamısı bizim üçün qiymətlidir. Onların heç birinə toxunmaq olmaz” [1]. Bu obyektiv mövqeyi ilə Ulu Öndər Heydər Əliyev bir daha paklıq zirvəsinə yüksələrək haqq və ədalətin keşiyində dayanırdı. Xalqın gözü tərəzidir. Xalq öz liderini birmənalı olaraq müəyyən edirdi. O xalq ki, ölkəsinin viran olduğunun fərqində idi və Heydər Əliyevə yeganə ümid yeri kimi baxırdı. Həmin çıxışında Heydər Əliyev Azərbaycanın o zamankı faciəli vəziyyətini fırtınanın sahilə tulladığı sınıq gəmi ilə müqayisə etdi: ”Həmin gəmini yenidən tikmək, elə vəziyyətə salmaq lazımdır ki, bir daha dənizə çıxa bilsin. Azərbaycan indi təxminən belə vəziyyətdədir.” [1].

Gənclər qarşısında çıxışında isə Ulu Öndər Heydər Əliyev ölkənin təhsil və gənclər siyasəti sahəsində həllini gözləyən olduqca mürəkkəb problemlərə diqqəti cəlb etdi və bu

istiqamətlərdə konseptual yanaşmalarını ortaya qoydu. İlk növbədə onu vurğuladı ki, milli nihilizm mövqeyindən birdəfəlik imtina etmək lazımdır. Sovet ideologiyasını haqlı olaraq özümüzdən uzaqlaşdırsaq da, ancaq sovet təhsil sistemində bir çox müsbət cəhətlərin olduğunun da üstündən xətt çəkə bilmərik. Biz savadlı, təhsilli millətə çevrilmişik. Elmdə və mədəniyyətdə böyük uğurlara imza atmışıq. Bundan sonranı düşünmək lazımdır. İndi necə irəliləyək? Təkcə texnikumları kolleclərə, məktəbləri liseylərə, institutları universitetlərə və akademiyalara çevirməklə işləri düzəltmək olmaz [2].

Ulu Öndər hər zaman olduğu kimi, təkcə problemləri qabartmır, eyni zamanda onların həlli yoluna işıq salırdı. Bu xüsusda o, Azərbaycan gənclərinin ABŞ, Böyük Britaniya, Fransa, Türkiyə, Rusiya və digər ölkələrin nüfuzlu ali təhsil ocaqlarına göndərilməsinin vacibliyini vurğulayır və bu sahədə hələ sovet dövründə olduqca müsbət təcrübənin qazanıldığına diqqəti cəlb edirdi.

Eyni zamanda Ulu Öndər gənclər arasında xoşagəlməz halların, o cümlədən sərxoşluq, narkomaniya, ən dəhşətlisi isə fərariliyin artmasından ürək ağrısı ilə danışırdı: "Bilirsiniz adam dəhşətə gəlir. Axı nə üçün Azərbaycan oğulları fərari olsunlar? Fərarilik edən hər bir gənc gərək cəmiyyətin üzünə çıxa bilməsin, fərarilik xalqa düşmən olmaq deməkdir." [2].

Ulu Öndər Heydər Əliyevin Azərbaycan gəncləri ilə bu və digər görüşləri cəmiyyətdə böyük siyasi rezonans doğurdu. Gənclərdə vətənpərvərlik hissləri yüksəldi. Xalqımız bir daha əmin oldu ki, ona elə bir siyasi lider rəhbərlik etməyə hazırlaşır ki, onun polad iradəsi, əzmi və enerjisi sayəsində bütün bəlalardan hifz olacağımız artıq xülya deyil, bir reallıqdır.

1993-cü il oktyabrın 1-də isə Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən Heydər Əliyev Bakıda respublikada yaşayan azsaylı xalqların nümayəndələri ilə görüşdü. Bu görüşün ölkəmizdə ictimai-siyasi sabitliyin təminatı baxımından mühüm əhəmiyyəti var idi. "Xalq Cəbhəsi-Müsavat" cütlüyünün antimilli siyasəti sayəsində ölkə ərazisində yaşayan xalqlar arasında birlik və harmoniya deyil, təfriqə və toqquşma meyilləri güclənmişdi. Əslində bu yarıt-maz və xəyanətkar siyasətin müəllifləri ölkənin bütövlüyü və suverenliyi əleyhinə ən qorxulu ssenarilərin formalaşmasına rəvac verir və dövlətçiliyə qarşı xəyanətkar yol seçmiş olurdular. Bu acı reallıqlar fonunda Ulu Öndər Heydər Əliyev məlum görüşdə xüsusi olaraq vurğuladı ki, prezident seçiləcəyi təqdirdə o, respublikanın keçmiş rəhbərliyinin milli siyasətdə buraxdığı ciddi pozuntuların aradan qaldırılması üçün əlindən gələni əsirgəməyəcəkdir. Azərbaycanda yaşayan bütün xalqlar siyasi əqidəsindən, milliyyətindən, dinindən asılı olmayaraq bərabər hüquq və imkanlara malik olacaqlar [3].

Ulu Öndər Heydər Əliyevin xalq tərəfindən böyük coşqu ilə qarşılanan seçki kampaniyası xalqın etimadını tam itirmiş Xalq Cəbhəsinin əsl antimilli, xəyanətkar və dönük mahiyyətinin daha bariz şəkildə üzə çıxmasına səbəb oldu. Onlar məğlubiyyətləri ilə barışa bilmir, əvvəlcə referendumu, sonra isə prezident seçkilərini boykot etmək çağırışları ilə mitinqlər təşkil edirdilər. AXC-nin ekstremist qanadı isə Türkiyə vətəndaşı Həsən Tokunun iştirakı ilə sentyabrın 30-da Heydər Əliyevin həyatına sui-qəsd təşkil etməyə cəhd göstərdilər. Bu sui-qəsd addımı da, sonralar təkrarlanan oxşar cinayətlər və dövlət çevrilişinə cəhdlər də nəticəsiz qaldı. Ulu Yaradan və xalq sevgisi missiyası millətin və dövlətin xilaskarı olan Heydər Əliyevi hifz etdi. O, qalibiyyətlər üçün doğulmuşdu. 1993-cü il 3 oktyabr prezident seçkilərində xalqın 98,8 faiz səsini toplayaraq hakimiyyət olimpinin zirvəsinə yüksəlməklə məhv olmaq təhlükəsi ilə üz-üzə qalan Azərbaycan dövlətçiliyini xilas etdi, onun növbəti intibahının əsasını qoydu. Bu yerdə bəzi paralellər aparıb, nəzəri mülahizələrimizi əsaslandırmağa çalışaq.

Ötən əsrin 70-ci illərinin əvvəllərində "Literaturnaya qazeta"ya verdiyi məşhur müsahibəsində "Qoy ədalət zəfər çalsın" deyən

Heydər Əliyev özünün milli intibah missiyasının 1969–1982-ci illər tarixi çərçivəsində, sözün həqiqi mənasında, ədalətin zəfər çalmasına nail oldu. Ölkədə həmin illərdə 213 yeni sənaye müəssisəsi istismara verildi. Bakı Məişət Kondisionerləri, Salyan Plastmas Emalı zavodu, Sumqayıtda Kompressor zavodu, Üst Trikotaj fabriki, Bakıda Tikiş, Ayaqqabı hissələri fabrikləri, Şampan şərabları zavodu, Gəncədə Ət kombinatı, Qənnadi fabriki, Əlvan Metallar emalı zavodu, Lənkəranda Konserv zavodu, çay fabriki, Naxçıvanda Şüşə Qablar zavodu, Kəlbəcərdə "İstisu" mineral su zavodu, Yevlaxda Yunun ilkin emalı fabriki və s. kimi böyük iqtisadi potensialı olan müəssisələr məhz həmin illərdə tikilib istifadəyə verildi. Qeyd edilən 13 il ərzində istehsal olunan sənaye məhsulu öz həcminə görə əvvəlki 50 ilə bərabər idi [4].

1969-cu ildən sonra Azərbaycanda geniş tikinti-quruculuq işlərinə start verildi. Respublika tikinti meydanını xatırladırdı. 1975–1985-ci illərdə ümumi sahəsi 22, 2 milyon kvadratmetr olan mənzillər inşa edildi ki, bu göstərici Azərbaycanda bütün əvvəlki illərdə tikilmiş mənzillərin 70 faizini təşkil edirdi. Yeni iş yerlərinin yaradılması nəticəsində iqtisadiyyatda çalışanların ümumi sayı 1985-ci ildə 2,4 milyon nəfərə çatmışdı. Bu, 1970-ci ilin müvafiq göstəricisindən 1,5 dəfə çox idi. 1969-cu ildə orta aylıq əməkhaqqının səviyyəsinə görə Azərbaycan 15 müttəfiq respublika arasında axırıncı yerdə dayandığı halda, 1980-ci ildə 4-cü yerə çıxdı [5].

Həmin dövrdə kənd təsərrüfatının dirçəldilməsi və sonrakı inkişafı sahəsində də böyük işlər görüldü. Möhtərəm Heydər Əliyevin təşəbbüsü ilə 70-ci illərin əvvəllərində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində qısa müddət ərzində qidalılıq balansını itirmiş torpaqlar əsl məhsuldar torpaqlara çevrildi. İlk növbədə kənd təsərrüfatının su təchizatı yaxşılaşdırıldı. Bu məqsədlə Yuxarı Qarabağ, Yuxarı Şirvan və Samur-Abşeron kanallarının tikintisi başa çatdırıldı, Naxçıvan Muxtar Respublikasında "Arpaçay", Lənkəranda "Xanbulançay", Masallıda "Viləşçay", Şəkidə "Əyriçay", Şəmkir və Ağstafa su dəryaçaları, "Bəhrəmtəpə" suvarma şəbəkəsi, İsmayıllıda "Aşıq Bayram" gölü istifadəyə verildi.

Əvvəllər əsassız olaraq azaldılmış taxıl, pambıq, meyvəçilik sahələri, habelə qoyunçuluq və quşçuluq yenidən bərpa olundu. Kənd təsərrüfatı üçün yüksək ixtisaslı kadrların hazırlanması sahəsində də ciddi addımlar atıldı. Yalnız Azərbaycan Respublikası Kənd Təsərrüfatı Akademiyasında 1970-1975-ci illərdə 40 min nəfərə yaxın ali təhsilli, respublikanın orta ixtisas məktəblərində isə 86, 4 min nəfər orta ixtisas təhsilli kənd təsərrüfatı mütəxəssisi hazırlandı.

Ümummilli Lider Heydər Əliyevin titanik fəaliyyətinin nəticəsi olaraq 1981-ci ildə respublika tarixində ilk dəfə olaraq 402 min ton taxıl, 1 milyon 151 min ton pambıq, 1 milyon 616 min ton üzüm, 644 min ton tərəvəz, 41 min ton bostan məhsulları, 26 min ton yaşıl çay yarpağı, 125 min ton mal-qara və quş əti, 340 min ton süd, 294 milyon ədəd yumurta və 12 min ton yun tədarük edildi [5].

Ümumən, həmin illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə artdı. "Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır", – deyən Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə təhsil, səhiyyə, mədəniyyət, incəsənət və milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı sahəsində də ciddi və əhəmiyyətli addımlar atıldı.

Həmin dövrdə Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə qalxdı, bu istiqamətdə aparılan ardıcıl və məqsədyönlü dövlət siyasəti Azərbaycan əhalisinin təhsil, ümummədəni və intellektual səviyyəsinin yüksəldilməsində müstəsna rol oynadı.

70-ci illərdə və 80-ci illərin əvvəllərində ali təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində böyük işlər görüldü. Ölkə rəhbərinin təşəbbüsü və qayğısı ilə ali məktəblər üçün çoxlu sayda tədris korpusları, yataqxana kompleksləri tikildi.

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafında müstəsna xidmətlərindən biri də 1970–1980-ci illərdə şəxsi təşəbbüsü və qayğısı sayəsində Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən və xüsusi ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına imkan və şərait yaratması olmuşdur. Onu da qeyd edək ki, Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların sayı 1970-ci ilədək 40 faiz təşkil edirdisə, ümummilli Lider Heydər Əliyevin apardığı uzaqgörən siyasət nəticəsində 1976-cı ildə müvafiq göstərici 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərin əvvəllərində isə 97,6 faizə yüksəlmiş oldu. Bu addımlar öz xarakteri etibarilə strateji məzmun kəsb edirdi [6]. Daha dəqiq desək, bir tərəfdən Azərbaycanın yüksək ixtisaslı kadrlara olan ehtiyacını təmin edirdi, digər tərəfdən potensial Azərbaycan diasporunun formalaşması prosesinin konturları cızılırdı. Təsadüfi deyildir ki, bu gün MDB məkanında Azərbaycan diasporunun sosial tərkibinin böyük bir hissəsini məhz həmin illərdə Ulu Öndərin xeyir-duası ilə təhsil almış insanlar təşkil edir və onlar müstəqil dövlətimizin maraqlarını təmsil olunduqları ölkələrdə şərəflə qoruyurlar.

“Xalqı həmişə mənəviyyat birləşdirmişdir, çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür,” – deyən Ümummilli Liderin qənaətinə görə, milli özünüdərkə xalqın yaratdığı və yaşatdığı mədəni sərvətlərə dərindən yiyələnməklə çatmaq olar [7]. Bu xüsusda Heydər Əliyev böyük siyasi ustalıqla 59 yaşında pantürkist-millətçi ittihamı ilə Sibirə sürgün edilən dahi Hüseyn Cavidin nəşini 100 illiyində Vətənə gətirməklə əslində milli hissə və duyğuya malik olan şəxsiyyətlərin hamısının cənazəsini, ruhunu öz doğma vətənlərinə – Azərbaycana qaytarmış oldu.

Danılmaz həqiqətdir ki, 1930-cu illərdə SSRİ Dövlət mükafatı “Rusca-azərbaycanca lüğət”ə verilmişdisə, məhz Heydər Əliyevin qətiyyəti sayəsində 1970-ci illərdə “Azərbaycan dili” dərsliyi eyni etimada layiq görüldü. Bu mükafatların arxasında böyük siyasi mətləblər gizlənirdi. Başqa sözlə, birinci halda rus dilinin təbliğinə, ikinci halda isə doğma dilimizin inkişafına görə ali mükafat verilmişdi. Bu, Ulu Öndərin millətin genetik kodunun mühüm komponenti hesab etdiyi milli dilə verdiyi əvəzsiz dəyər idi. Elə bu məntiqlə də Heydər Əliyev böyük səylər hesabına 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusi-yasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasına nail olmuşdu [7].

Bütün bu və digər xidmətləri ilə Heydər Əliyev ədəbi-mədəni irsimizin, dilimizin, ziyalılarımızın, ən başlıcası isə milli özünüdərk və kimliyimizin əvəzsiz himayədarı və hamisi zirvəsinə yüksəlmiş oldu. Təbii ki, fitri istedadı və iti fəhmi hesabına ölkəmizin perspektiv müstəqilliyini proqnozlaşdıran Heydər Əliyev suveren dövlətçiliyimizin sosial-iqtisadi, ictimai-siyasi və xüsusilə də təhlükəsizlik sahəsində hansı ciddi problemlərlə sınağa çəkiləcəyini də görməyə bilməzdi. Bu baxımdan Ümummilli Liderin hələ sovet dövründə respublikamız üçün milli hərbi kadrların hazırlanması sahəsində atdığı uzaqgörən addımların ölkəmizin Ermənistanın təcavüzünə məruz qaldığı zamanda necə misilsiz əhəmiyyət daşıdığının bir daha şahidi olduq.

Bu, bir həqiqətdir ki, sovet dövlətində bütün sahələr kimi, ordu quruculuğu prosesi də məlum siyasi-ideoloji prinsiplərə əsaslanırdı. Rəsmi Moskva milli respublikalarda, ələlxüsus müsəlman ölkələrində milli hərbi kadrların hazırlanması yönündə cəhdləri bir qayda olaraq qısqanclıqla qarşılayır və buna mane olurdu. Müttəfiq respublikalarda hərbi tədris məktəbləri əsasən Rusiya, Ukrayna və Belarusda fəaliyyət göstərirdi.

“Bunları görəndə, düşünürdüm ki, yaxşı, biz Sovet İttifaqının bərabərhüquqlu müttəfiq respublikasıyıq, böyük səlahiyyətlərimiz var. Biz nə üçün ordudan təcrid olunuruq?,” – bu sözləri Heydər Əliyev 2003-cü il aprelin

21-də, Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin 30 illik yubiley təntənəsində çıxış edərkən demişdi [7].

Ulu Öndər Heydər Əliyev 1971-ci ildə böyük səylər nəticəsində belə bir məktəbin yaradılmasına nail olmuşdu. Həmin dövrdə Azərbaycan ildə təxminən 60 min gənci ordu sıralarına göndərirdi. Ancaq onların tam əksəriyyəti inşaat batalyonlarında xidmət keçirdi. Hərbi hissələrdə azərbaycanlı zabitləri isə, necə deyərlər, barmaqla saymaq olardı. Əlbəttə, indi bəziləri 1971-ci ildə Bakıda belə bir hərbi məktəbin yaradılmasını bir zavod, fabrik tikintisi qədər adi qərar hesab edə bilərlər. Amma buna nail olmaq üçün həqiqətən böyük siyasət və uzaqgörənlik lazım idi. Sovet rejiminin ən güclü vaxtlarında Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılmasına rəsmi Moskva laqeyd yanaşa bilməzdi. Təsadüfi deyil ki, həmin dövrdə Bakıya təşrif buyuran çeşidli komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını "əsaslandırmağa" çalışırdılar. Amma Heydər Əliyev bu cəhdlərin qarşısını qətiyyətlə almağı bacardı. Nəticədə Heydər Əliyevin yaratdığı hərbi məktəb müstəqil Azərbaycanda ordu quruculuğu üçün əsas bazalardan birinə çevrildi. 70-ci illərdə həmin məktəbin müdavimləri olan zabitlər artıq müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin komandirləri, generallarıdırlar.

Beləliklə, Heydər Əliyev 1969-1982-ci illərdə Sovet İttifaqı çərçivəsində perspektiv müstəqil Azərbaycan dövləti üçün xidmət edə biləcək bütün zəruri addımları atmağa nail oldu. 1991-ci ildə müstəqilliyini bəyan edən Azərbaycan Respublikası əslində real suverenliyinə 1993-cü ildə nail oldu. Həmin il xalqın israrlı tələb və xahişindən sonra Heydər Əliyevin hakimiyyətə qayıdışı baş verdi və bununla da Azərbaycanda milli intibah dövrünün ikinci mərhəsi (1993–2003-cü illər) başlandı. Bu dövr Ulu Öndərin təbirincə desək, müstəqilliyin əldə edilməsindən daha çətin olan onun qorunması və möhkəmləndirilməsi ilə xarakterizə olunurdu. Həmin dövrdə Rusiyanın siyasi-hərbi elitasında formalaşmış mövqeyə görə, ərazisindən hərbi bazaları çıxarılan və birmənalı olaraq Qərbə inteqrasiya xəttini seçən Azərbaycan guya regionda Kremlin plan-ları üçün birbaşa təhlükə mənbəyi rolunu oynayırdı. Həmin mərhələdə hakimiyyətdə olan Müsavat-AXC cütlüyünün həyata keçirdiyi səbatsız daxili və xarici siyasət kursu Rusiyanın Azərbaycana münasibətdə məlum sərt mövqeyinin formalaşmasında az rol oynamadı. Nəticədə məhz həmin illərdə Rusiyanın himayəsi ilə torpaqlarımızın Ermənistan tərəfindən işğalı həyata keçirildi.

Yeri gəlmişkən, burada bir həqiqəti də xüsusi olaraq qeyd edək ki, Azərbaycan xalqının ən ağır dərdi olan Dağlıq Qarabağ problemi ilə bağlı Ulu Öndər Heydər Əliyevin 1969–1982-ci illərdə həyata keçirdiyi siyasətin nəticəsində bu dövrdə erməni millətçiləri bir dəfə də olsun ölkəmizə qarşı ərazi iddialarını açıq şəkildə dilə gətirməyə cəsarət etmədilər və buna imkan verilmədi. Prezident İlham Əliyevin Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdə qeyd etdiyi kimi, "1987-ci ildə Heydər Əliyev vəzifədən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında beynəlxalq mətbuatda və sovet mətbuatında məsələ qaldırmışlar. Artıq Dağlıq Qarabağda separatçı meyillərə elə bil ki, yaşıl işıq yandırıldı. Heydər Əliyev vəzifədən gedəndən 3 ay sonra Sumqayıt hadisələri baş vermişdir. Sumqayıt hadisələri də məkrli planın tərkib hissəsi idi. Plan ondan ibarət idi ki, Heydər Əliyev hakimiyyətdən getsin. Çünki onun Siyasi Büronun üzvü kimi fəaliyyəti erməni millətçilərə imkan vermirdi ki, məsələ qaldırsınlar" [7].

Bundan savayı, Müsavat-AXC cütlüyünün hakimiyyəti dövründə İranla da münasibətlər son dərəcə kəskinləşdi. Bu siyasətin nəticəsində faktiki olaraq Azərbaycan həm şimaldan, həm də cənubdan ağır təzyiq altına düşdü. ABŞ Konqresi isə Azərbaycanı dövlət səviyyəsində hər cür yardımdan məhrum edən "907-ci əlavə"ni qəbul etdi.

Bu şəraitdə dövlətçiliyimiz ərazi bütövlüyümüzün pozulması təhlükəsi ilə üz-üzə qalmışdı. Erməni işğalçılarının aramsız hücumları, cənubda "Talış Muğan Respublikası"nın elan edilməsi, şimalda "Sadval" təşkilatının ərazi iddiaları və Gəncədə Surət Hüseynova məxsus hərbi hissənin qiyam qaldırması həmin dövrdə ölkəmizin dəhşətli siyasi kataklizmlər mərhələsində olduğunu bir daha təsdiqləyir. Əslində respublikamız real vətəndaş müharibəsi astanasına idi. Ölkədə hakimiyyətsizlik və xaos hökm sürürdü. İnflyasiya 1992-ci ildə 1174%, 1993-cü ildə isə 1080%-ə çatmışdı. (7) Yuxarıda qeyd etdiyimiz kimi, yalnız Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi və xahişi ilə hakimiyyətə qayıdışından sonra bu ağır problemlər öz həllini tapmağa başladı. Lakin bu prosesin özü də hamar yol ilə getmədi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında Azərbaycanın müstəqilliyini istəməyən xarici qüvvələrin himayəsi ilə respublikamızda dövlət çevrilişlərinə cəhdlər edildi. Prezident Heydər Əliyevlə xalqın sarsılmaz birliyi bu sınaqlardan da uğurlu çıxışı təmin etdi. Zəmanəmizin dühası olan Heydər Əliyev xalqımızın və dövlətçiliyimizin tarixində, əgər bir sözlə ifadə etmək mümkünsə, məhz Xilaskar missiyasını yerinə yetirdi.

Ümummilli Lider Azərbaycanda demokratik inkişaf proseslərinin də əsasını qoydu. Ölkəmizdə şəxsiyyətin azadlığı və toxunulmazlığı, habelə onların hüquqi müdafiəsi təmin edildi, çoxpartiyalı sistem üçün əsaslar yaradıldı, siyasi plüralizm, vicdan və etiqad azadlığı, milli azlıqların hüquqları, qanun qarşısında bərabərlik təmin edildi. Azərbaycan Respublikasının qa-nunvericilik aktlarında əks olunan, onun ayrılmaz komponenti olan təqsirsizlik prezumpsiyası təmin edildi. Bundan savayı, Konstitusiya Məhkəməsi, üçpilləli məhkəmə sistemi, yeni məhkəmə korpusu yaradıldı, məhkəmələrin müstəqilliyi və prosedur qaydalarının şəffaflaşması təmin edildi, on minlərlə insan amnistiya edildi və böyük sayda məhkum bağışlandı, senzura ləğv edildi, KİV-in azadlığı və QHT-lərin sərbəst fəaliyyəti təmin edildi.

Bu prosesdə-demokratik dövlət quruculuğu istiqamətində Ümummilli Liderin miras qoyduğu irsin öyrənilməsi, təbliği və tətbiqində unikal genetik irsə, zəngin təcrübəyə, böyük intellektə və geniş təşkilatçılıq qabiliyyətinə malik Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri müstəsna əhəmiyyət kəsb edir. Başqa sözlə, Ulu Öndərin irsinin öyrənilməsi istiqamətində irimiqyaslı proqramların həyata keçirilməsini dəstəkləmək, Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönəldilmiş təşəbbüsləri himayə etmək, ölkədə elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə və digər mühüm vəzifələrin icrasına nail olmaq ölkənin birinci xanımının rəhbərlik etdiyi təşkilatın genişmiqyaslı fəaliyyətinin prioritet istiqamətlərini təşkil edir və geniş ictimaiyyət tərəfindən olduqca yüksək dəyərləndirilir. Hörmətli Mehriban xanımın qazandığı ümumxalq sevgisinin kökündə dayanan əsas amil insanların inamını qazanması ilə bağlıdır. Mehriban xanım Əliyeva Rusiyanın nüfuzlu "Rossiya-24" kanalına müsahibəsində bu xüsusda haqlı olaraq vurğulayır ki, "Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrult-malıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam." [7].

Bu gün Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Zəmanəmizin dühasından "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", – qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. O, Azərbaycanın çağdaş tarixinə yeni missiya ilə daxil olmuşdur. Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

Öz əməlləri ilə xalqın və dövlətin sonsuz sevgisini qazanmış lider xoşbəxtdir. Məsələyə bu xüsusda yanaşdıqda böyük qürur və fəxarət hissi ilə deyə bilərik ki, möhtərəm Prezidentimiz İlham Əliyev xoşbəxt dövlət rəhbəridir. Xalq ona görə cənab prezidenti sevir ki, o, müasir Azərbaycan dövlətçiliyinin banisi Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiqdir və son 20 il ərzində ölkəmizi uca zirvələrə yüksəltməkdədir. Xalq ona görə prezidentini sevir ki, o, heç bir vaxt hər hansı böyük dövlət və ya beynəlxalq təşkilatın diqtəsi ilə deyil, məhz lideri olduğu çoxmillətli və çoxkonfessiyalı Azərbaycan dövlətinin milli maraqlarından irəli gələn müstəqil siyasətin müəllifidir. Həmin siyasətin təntənəsi Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində, xüsusilə də tarix yazan güclü ordusunda öz təsdiqini tapır. Bu gün müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında yenilməz Azərbaycan Ordusu torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmişdir. Noyabr ayının 8-də qədim Azərbaycan şəhəri, Qarabağın incisi Şuşanın müasir hərb elminin ən nadir və unikal əməliyyatlarından birinin həyata keçirilməsi nəticəsində azad olunması düşmənin müqavimət potensialını heçə endirdi. Nəticədə noyabr ayının 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşiyanın imzaladığı üçtərəfli bəyanat regionda uzunmüddətli münaqişənin hərbi fazasını başa çatdırdı və faktiki olaraq işğalçı Ermənistan dövlətinin kapitulyasiyası aktı oldu. Noyabr ayının 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabr ayının 1-də isə Laçın rayonu bir güllə belə atılmadan, bir nəfər şəhid belə vermədən işğaldan azad olundu. Ordumuzun əldə etdiyi tarixi zəfər heç bir halda təsadüfi olmayıb, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən inkişaf doktrinasının, o cümlədən titanik hərbi quruculuq siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir.

Zəfərimiz yeni tarixi reallıqlar yaratmışdır. Ölkəmizin qarşısında yeni strateji vəzifələr müəyyən edilmişdir. Həmin vəzifələrin icra edilməsi üçün ölkənin siyasi sisteminin mərkəzi elementi olan YAP-ın üzərinə böyük məsuliyyət düşür. Məhz bu məsuliyyətdən irəli gələrək ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ötən ilin 5 mart tarixində YAP-ın VII qurultayı keçirildi [8], Qurultayın qəbul etdiyi qərarlar partiyanın yeni tarixi dövrdə çevikliyi və dinamizminin daha da artırılması, onun icra mexanizmlərinin təkmilləşdirilməsi mənafeyinə xidmət göstərir. Yeni nizamnaməyə görə, artıq partiyanın Siyasi Şurası və icra katibi vəzifəsi ləğv edilmişdir. Eyni zamanda, partiyanın 40 nəfərdən ibarət yeni İdarə Heyəti formalaşdırılmışdır. Bu prosesdə şəffaflıq məsələləri çox böyük önəm kəsb edir. Cənab Prezident də həmişə vurğulayır ki, şəffaflıq hər bir dövlətin inkişafının göstəricisidir. Bu nöqteyi-nəzərdən hakim Yeni Azərbaycan Partiyası da məsələyə çox böyük diqqətlə yanaşır. Ölkə Prezidenti şəffaflığın təminatı, rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə məsələlərini prioritet məsələlər kimi müəyyən etmişdir Məsələyə bu prizmadan yanaşdıqda, partiyanın rəhbər orqanlarından biri kimi Təftiş Komissiyasının formalaşması da böyük əhəmiyyət kəsb edirdi. Əvvəlki qurultayda 15 nəfərlik Təftiş Komissiyası formalaşdırılmışdısa, bu dəfə onların sayı 13-ə endirildi. Nəhayət, ilk dəfə olaraq partiyanın tərkibində 35 nəfərdən ibarət Veteranlar Şurası yaradıldı. Məqsəd ondan ibarətdir ki, YAP-ın rəhbər qurumlarından yaşa görə çıxarılmış təcrübəli üzvlərinin gənclərlə ünsiyyətləri qoruyub saxlasın. YAP-ın yaşlı nəsli ilə gənc təbəqəsi arasında rabitə pozulmasın. Bu prosesdə müvafiq olaraq təcrübə və enerjinin vəhdəti YAP-ın daha da güclənməsi mənafeyinə xidmət göstərir [8].

Bu qurultayda 6 siyasi partiyanın YAP ilə birləşmək niyyətini ortaya qoyması bir daha göstərir ki, iqtidar partiyasının cəzbetmə əmsalı kifayət qədər böyükdür. Ayrı-ayrı siyasi partiyalar öz proqramlarında ərazi bütövlüyü məsələsini prioritet vəzifə olaraq müəyyən etmişdilər və gördükdə ki, Ali Baş Komandan,

Prezident və hakim partiyanın rəhbəri olaraq cənab İlham Əliyev bu tarixi missiyanı şərəflə yerinə yetirmişdir, bu halda həmin siyasi qüvvələr gələcək talelərini məhz YAP sıralarında görməyi məqbul variant olaraq irəli sürmüşlər [8].

Beləliklə, Ulu Öndər Heydər Əliyev dühasının məhsulu olan və müasir Azərbaycan dövlətçiliyinin qorunması və inkişafında misilsiz xidmətlərə imza atan Yeni Azərbaycan Partiyası öz müzəffər liderinin-Prezident İlham Əliyevin rəhbərliyi altında yeni tarixi vəzifələrin icrası prosesinə böyük töhfələr vermək niyyətində və iqtidarındadır. Bu, ilk növbədə, 30 illik erməni işğalından azad edilmiş Qarabağın bərpası və yenidənqurulması kimi tarixi missiyanın icrası, habelə epoxal uğurlarımızın təminatında müstəsna əhəmiyyətə malik olan siyasi dialoq mühitinin qorunması və dərinləşdirilməsi prosesinə yüksək səviyyəli dəstəyin verilməsi anlamını özündə ehtiva edir.

Yaşasın Xilaskar Ali Baş Komandanımız! Yaşasın Müzəffər Ordumuz! Yaşasın Qalib Xalqımız! Yaşasın Yeni Azərbaycan Partiyası! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə çıxışı (21 sentyabr 1993-cü il), Heydər Əliyev. Elektron sənədlər toplusu//https://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
2. Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə çıxışı (22 sentyabr 1993-cü il), Heydər Əliyev. Elektron sənədlər toplusu//https://files.preslib.az/projects/toplu/v2/f3_3.pdf
3. Müstəqil dövlətimiz və parlamentimiz. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 10-cu ildönümünə həsr olunur. Azərbaycan Respublikası Milli Məclisinin nəşri,Bakı,2001//https://meclis.gov.az/neshrler/musteqil_dovletimiz_ve_parlamentimiz.pdf
4. Bu gün ulu öndərin şah əsəri olan Azərbaycan etibarlı əllərdədir/ https://ik-isahil.az/post/bu-gun-ulu-onderin-shah-eseri-olan-musteqil-azerbaycan-etibarli-ellerdedir
5. Heydər Əliyev-Ömrü mənsub olduğu xalqın ömrü qədər olan nadir şəxsiyyət /https://azertag.az/xeber/Heyder_Aliyev_Omru_mensub_oldugu_xalqin_omru_qeder_olan_nadir_sexsiyyet-1949988
6. Azərbaycan təhsilinin inkişafında ulu öndər Heydər Əliyevin tarixi xidmətləri/https://azertag.az/xeber/Azerbaycan_tehsilinin_inkisafinda_ulu_onder_Heyder_Aliyevin_tarixi_xidmetleri-2341676
7. Heydər Əliyev: Qalibiyyətlər üçün doğulmuş unikal şəxsiyyət// Xalq qəzeti, 2021, 9 may, s.6


***Açar sözlər:*** *Heydər Əliyev, Yeni Azərbaycan Partiyası, milli intibah, müzəffər prezident, tarixi zəfər*

**Elman Nasirov**

***Member of the Milli Majlis,***
***The Academy of Public Administration***
***under the President of the Republic of Azerbaijan,***
***Director of the Institute of Political Research,***
***Dr. of Political Sciences, Professor***

# HEYDAR ALIYEV AND THE NEW AZERBAIJAN PARTY: THE ONLY POWER BORN FOR PERMANENT VICTORIES

## ABSTRACT

In the article, it is justified based on analytical investigation and analysis that the National Leader, Heydar Aliyev, is a rare personality who laid the foundation for the emergence of political pluralism, political culture, and a political system in Azerbaijan. The New Azerbaijan Party (YAP), which he created as an opposition party on November 21, 1992, revealed the real road map for accession to power in a civilized way.

Referring to possible facts and arguments, the author emphasizes that the creation of the YAP was an order by the Azerbaijani society to the great leader Heydar Aliyev because, without the creation of this party, there was no way out of Azerbaijan's very serious political and economic cataclysms for Azerbaijan's future.

The article emphasizes explicitly that today independent Azerbaijan, the masterpiece of the great leader, is now in safe hands. Under the leadership of Mr. Ilham Aliyev, Azerbaijan is experiencing another glorious stage of its national state-building and administration. Under the leadership of Muzaffar Supreme Commander-in-Chief Ilham Aliyev, the invincible Azerbaijani Army has honorably accomplished the solemn duty of liberating our lands from the occupation of the invading Armenian armed forces and created new historical realities. In light of these facts, new historical duties for the YAP were defined.

***Keywords:*** *President Heydar Aliyev, New Azerbaijan Party, national revival, victorious, historic victory*

**Эльман Насиров**

***Депутат Милли Меджлиса,***
***директор Института политических исследований***
***Академии Государственного управления***
***при Президенте Азербайджанской Республики,***
***доктор политических наук, профессор***

## ГЕЙДАР АЛИЕВ И ПАРТИЯ ЕНИ АЗЕРБАЙДЖАН: ЕДИНАЯ СИЛА, РОЖДЁННАЯ ДЛЯ ПЕРМАНЕНТНЫХ ПОБЕД

### РЕЗЮМЕ

В статье на основе анализа аргументированно обосновывается, что общенациональный лидер Гейдар Алиев является редкой личностью, заложивший основы возникновения и развития в Азербайджане политического плюрализма, демократической политической культуры и политической системы. Партия «Ени Азербайджан» (ПЕА), созданная им 21 ноября 1992 года как оппозиционная партия, выдвинула настоящую или подлинную «дорожную карту» прихода к власти цивилизованным путем. Ссылаясь на конкретные факты и аргументы, автор подчеркивает, что создание Партии «Ени Азербайджан» было заказом азербайджанского общества Великому лидеру Гейдару Алиеву, так как без создания этой партии не было бы будущего Азербайджана и выхода из очень серьезных политических и экономических катаклизмов.

В статье особо подчеркивается, что сегодня независимый Азербайджан, являющийся шедевром Великого лидера, находится в надежных руках. Под руководством Президента страны господина Ильхама Алиева Азербайджан переживает очередной славный этап своего национального государственного строительства и управления. Непобедимая Азербайджанская Армия под руководством Победоносного Верховного Главнокомандующего Ильхама Алиева с честью выполнила священную задачу по освобождению наших земель от оккупационных вооруженных сил Армении и создала новые исторические реалии. На фоне этих реалий и перед Партией «Ени Азербайджан» определились новые исторические задачи.

***Ключевые слова:*** *Гейдар Алиев, Партия «Ени Азербайджан», национальное возрождение, победоносный президент, историческая победа*

UOT 32; 32(092); 32:93/94; 32:316.37; 242.7

**ELÇİN ƏHMƏDOV**
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Qarabağ İrsini Araşdırma Mərkəzi"nin rəhbəri, siyasi elmlər doktoru, professor***
*e-mail: elchin_ahmedov@yahoo.com*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN MİLLİ MARAQLARA ƏSASLANAN DÖVLƏT SİYASƏTİ

## Giriş

Ümummilli Lider Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi dövrlərdə (1969–1982; 1993-2003) Azərbaycanın milli maraqlarını hər zaman uca tutmuşdur. 1969-cu il iyulun 14-də Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanın taleyində və tarixində dönüş başlandı. Bu şərəfli tarixdə, 1969–1982-ci illərdə bütün sahələrdə əldə edilən tərəqqi və yüksəlişdə Azərbaycan KP MK-nın 1969-cu il 5 avqust tarixli plenumu böyük bir proqram sənədi olmaqla mühüm əhəmiyyətə malik olmuşdur. Bu proqram sənədi əsasında həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanda tənəzzüldən tərəqqiyə dönüş başlandı. Heydər Əliyevin hakimiyyətə gəlməsi və bu proqram sənədini irəli sürməsi ilə Azərbaycanda dirçəliş, inkişaf, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə dönüş mərhələsinin başlanğıcı qoyulmuşdur.

1969-1982-ci illər Azərbaycanın ictimai-siyasi, o cümlədən sosial-iqtisadi və mədəni həyatında milli intibah dövrü kimi dəyərləndirilir. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə respublikanın iqtisadi inkişafının konsepsiyası hazırlanmış, iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında ixtisaslaşma, maddi-texniki və müasir istehsal sahələrinin yaradılması ilə kompleks tədbirlər həyata keçirilmişdir. Bununla yanaşı, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi ilk dövrdə elm, təhsil və mədəniyyətin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması istiqamətində görülən işlər milli ruhun oyanmasına, azərbaycançılıq məfkurəsinin zənginləşməsinə güclü təsir göstərmiş və gələcəkdə müstəqil dövlətçiliyin bərpası üçün əsaslı zəmin hazırlamışdır.

1969-cu ildə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gələrkən respublikanın qarşısında həllini gözləyən bir sıra ciddi problemlər dururdu. Həmin problemlər bütün əvvəlki tarixi dövrlərdə, xüsusilə sovet hakimiyyəti illərində yığılıb qalmış, həllinə çox vaxt heç cəhd edilməmiş və ya edilən bəzi cəhdlər elə bir ciddi nəticələr verməmişdi.

Qeyd etmək lazımdır ki, Azərbaycan sovetləşdikdən sonra bolşevik cildində respublikaya qayıdan ermənilər müxtəlif partiya və sovet orqanlarında məsul vəzifələr tutaraq antiazərbaycan fəaliyyətlərini yeni hakimiyyətin şüarları ilə pərdələnmiş halda qəddarlıqla davam etdirirdilər. Bu mənada Cümhuriyyət dövründə xarici ölkələrə təhsil almağa göndərilmiş azərbaycanlı gənclərin böyük əksəriyyəti 20-30-cu illərdə sovet repressiya maşınının qurbanı oldular.

Azərbaycanın ən ciddi problemlərdən biri mədəni, tarixi irsi məhv olmaqdan qorumaq, inkişaf etdirmək və zənginləşdirmək idi. Həmçinin milli-mənəvi və dini dəyərlərin qorunması da çox mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan əsas problemlərdən biri olan ana dilini qorumaq, inkişaf etdirmək, ona dövlət dili statusu vermək olduqca zəruri idi. Bununla yanaşı, görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969–1982-ci

illərdə Qarabağa çox böyük diqqət və qayğı göstərilmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdır.

Qeyd etmək lazımdır ki, Ümummilli Lider Heydər Əliyev 1982–1987-ci illərdə Moskvada yüksək vəzifədə işlədiyi müddətdə də Azərbaycanı diqqətdə saxlamış, qarşıya çıxan problemləri həll etmiş, respublikanın elmi-texniki tərəqqisinə, mədəni inkişafına daim qayğı göstərmişdir.

XX əsrin sonunda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti düşünülmüş, ardıcıl və milli maraqların qorunmasına əsaslanan xarici siyasət tələb edirdi.

1993-cü ilin ikinci yarısında Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Ümummilli Lider məhz xalqımızın milli dəyərlərinə, adət-ənənələrinə, tarixi soykökünə, xüsusilə dövlətçilik prinsiplərinə sadiq qalaraq Azərbaycanın ideoloji fəaliyyət strategiyasını da məhz bu amillər üzərində qurdu. Ümummilli Lider son dərəcə təcrübəli dövlət başçısı və görkəmli siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmək bacarığı nümayiş etdirdi. Bununla yanaşı, Azərbaycanın sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir.

### Görkəmli dövlət xadimi Heydər Əliyevin ermənilərin əsassız ərazi iddialarına qarşı mübarizəsi

Qeyd etmək lazımdır ki, sovet dövründə erməni millətçiləri zaman-zaman imkan düşdükcə Azərbaycan torpaqlarına əsassız iddialar irəli sürürdülər. İkinci dünya müharibəsi qurtardıqdan sonra Azərbaycan və Türkiyə yenidən əsassız erməni iddiaları ilə üz-üzə qaldı. Xaricdə fəaliyyət göstərən erməni təşkilatları SSRİ–Türkiyə münasibətlərindəki soyuqlaşmadan və dünyada yaranmış vəziyyətdən yararlanıb Türkiyəyə qarşı sərsəm ərazi iddiaları ilə çıxış edərək dünyanın müxtəlif ölkələrində, yenicə yaradılmış Birləşmiş Millətlər Təşkilatının qarşısında tələblərinin yerinə yetirilməsini irəli sürdülər. Lakin Türkiyədən torpaq ərazisi almaq istəkləri boşa çıxdıqdan sonra onlar Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyə başladılar.

Bəzi xarici dövlətlərin erməni daşnaklarından ölkə əleyhinə casusluq məqsədilə istifadə etmələrinə qarşı fəaliyyət göstərən Ümummilli Lider Heydər Əliyev bu istiqamətdə qonşu ölkələrdə və respublikada əməliyyatların keçirilməsində, eləcə də onların zərərsizləşdirilməsində müstəsna rol oynamışdı. Heydər Əliyev bu fəaliyyətini 60-cı illərdə də davam etdirmişdi. 1965-ci ilin aprel ayında İrəvan küçələrinə çıxan bir neçə min erməni yenidən Türkiyə və Azərbaycana qarşı ərazi iddiaları irəli sürdülər [7, s.338].

XX əsrin 60-cı illərinin ortalarında Ermənistan SSR-də növbəti dəfə anti-Azərbaycan təbliğatı geniş miqyas almağa başladı. Bununla yanaşı, 1965-ci il aprelin 23-də İrəvanda qondarma "erməni soyqırımı"nın 50 illiyi, terrorçu Andronikin isə anadan olmasının 100 illiyi Ermənistan SSR-də təntənəli surətdə qeyd edildi (10, s.337-339). Həmin dövrdə ermənilərin təbliğatının bir hissəsi də tarixin saxtalaşdırılaraq uydurma erməni tarixinin yaradılması, azərbaycanlıların vəhşi bir millət kimi təqdim edilməsi istiqamətində müxtəlif məzmunlu əsərlərin yazılması, bu yalanların reallıq kimi bilərəkdən dərsliklərə salınmasının təşkili, bununla da planlarının növbəti mərhələsini həyata keçirmək məqsədilə erməni gəncləri arasında ifrat millətçiliyin və düşmənçiliyin təbliğ edilməsi idi.

Heç şübhəsiz, erməni iddialarına qarşı sərt mübarizə aparan azərbaycanlı xadimlər, xüsusi xidmət orqanlarının əməkdaşları da var idi. Bu baxımdan, Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsində (DTK-da) müxtəlif vəzifələrdə, bu orqanın sədr müavini və sədri işləyərkən millətin bütün problemlərini daha dərindən

öyrənmişdi. Ümummilli Lider Heydər Əliyev, eyni zamanda Qarabağın tarixini, coğrafiyasını, iqtisadiyyatını, orada yaşayanların düşüncələrini də gözəl bilirdi. Qeyd etmək lazımdır ki, Heydər Əliyev DTK sədri vəzifəsində çalışdığı illər ərzində gənc milli kadrların işə qəbul olunması zamanı onların Azərbaycan xalqının milli, dini adət-ənənələrini, Azərbaycan tarixi, mədəniyyəti və incəsənətini necə bilmələri ilə maraqlanar, bunlara dair suallar verərdi.

Ümummilli Lider Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olarkən erməni millətçilərinin əsassız ərazi iddialarının qarşısı dəfələrlə alınmış, onların fitnəkar niyyətlərinə qarşı mübarizəni daha da gücləndirmiş və bu istiqamətdə həyata keçirilən tədbirlərə şəxsən nəzarət etmişdir. Sonralar müstəqillik illərində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev nitqlərinin birində etiraf edərək deyirdi: "60-cı, 70-ci illərdə erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər. Onlar dəfələrlə çox qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdır. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam" (28).

Qeyd etmək lazımdır ki, Heydər Əliyev hələ 1965-ci ildə DTK sədrinin müavini işlərkən Yerevanda bir qrup azğınlaşmış erməninin keçirdiyi mitinqlərdə Türkiyə və Azərbaycan əleyhinə əsassız ərazi iddiaları irəli sürməsini yaxşı bilirdi. Onun bütün bu fəaliyyətin nəticəsində gənc, ancaq təcrübəli DTK əməkdaşlığından Sov.İKP MK Siyasi bürosu üzvlüyünə qədər keçdiyi həyat yolu, eyni zamanda erməni millətçiliyinə, daşnaklara sarsıdıcı zərbə vurulması, Qarabağın dağlıq hissəsində antiazərbaycan fəaliyyətlərinin qətiyyətlə qarşısının alınması bu gün üçün olduqca əhəmiyyətlidir və öyrənilməsi bir tarixdir.

Belə ki, Heydər Əliyev 1967-ci il iyun ayının 26-da Azərbaycan KP MK-nın birinci katibi V.Axundova məktubunda yazırdı ki, iyun ayının 23-dən 24-nə keçən gecə Xankəndidə bəzi küçələrdə erməni dilində 8 x 9 sm. ölçüdə 300 vərəqə yayılmışdır (10, s.347; 7, s.328). Həmin vərəqələrdə ermənilər tərəfindən Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi tələb edilir və millətçi fikirlər irəli sürülürdü. Məktubda qeyd edilirdi ki, vərəqənin müəlliflərini axtarıb tapmaq, eləcə də digər lazımi tədbirləri görmək üçün Xankəndiyə əməliyyat qrupu göndərilmiş və təqsirkarlar ciddi cəzalandırılmışlar. Həmin ildə Dağlıq Qarabağda 1200-dən artıq belə vərəqə hazırlanıb yayılmışdı. Qısa müddət ərzində belə vərəqələri hazırlayanlardan 13 nəfər, yayanlardan isə 17 nəfər saxlanılmışdı (28).

Heydər Əliyev ilk dəfə Şuşada hələ 1967-ci ildə olmuşdur (7, s.328). Həmin ilin əvvəllərində erməni millətçiləri tərəfindən əvvəlcədən hazırlanan plana əsasən, Dağlıq Qarabağda milliyyətcə erməni olan şəxs məqsədyönlü şəkildə öz qohumu tərəfindən qətlə yetirilmişdi. Planın ikinci mərhələsinə uyğun olaraq, xüsusi erməni təhrikçilərinin rəhbərliyi altında kütlə bu ölüm hadisəsi ilə bağlı məhkəmə iclasının keçirildiyi Xankəndində yay parkında şübhəli şəxs kimi həmin prosesdə dindirilən 3 azərbaycanlını (Ərşad, Ələmşah və Zöhrab Məmmədovlar) zorla mühafizəçilərin əlindən alıb xüsusi amansızlıqla öldürmüşdülər (10, s.347; 7, s.328-329). Təqsirləndirilən, lakin sonradan bəraət almış digər azərbaycanlı isə dustaq maşını ilə birlikdə yandırılmışdı. Burada əsas məqsəd hadisələri qızışdırıb milli zəmində qarşıdurma törətmək, nəticədə, azərbaycanlıların bütün Dağlıq Qarabağ ərazisindən köçürülməsini və ərazinin Ermənistana birləşdirilməsinin təməlini qoymaq idi. Lakin Azərbaycan təhlükəsizlik orqanlarının, xüsusilə Heydər Əliyevin çevik müdaxiləsi nəticəsində bu hadisələrin qarşısı qısa müddətdə alınmışdı. İşin istintaqını Heydər Əliyev şəxsən öz nəzarətinə götürmüşdü. Həmin məsələni dərindən araşdırmaq üçün Xankəndiyə getmiş, cinayətkarlar haqqında istintaq işi açılmış və onlar layiqli cəzalarını almışdılar. O vaxt Heydər Əliyev 15 gün Qarabağda olmuş, eləcə də Şuşaya getmişdi. Şuşada olarkən 1905–1906, 1918–1920-ci illərdə ermənilərin təcavüzü nəticəsində dağıdılmış və yandırılmış evlərin hələ də bərpa edilmədiyini görmüşdü

(1, c.6, s.128–129; 7, s.330). O, Şuşa şəhərinin Azərbaycan xalqının böyük bir tarixi abidəsi, incisi kimi bərpa etdirilməsinin zəruriliyi qənaətinə gəlmiş və Bakıya qayıtdıqdan sonra şəhərin belə vəziyyətdə saxlanılmasının mümkünsüzlüyü barədə mülahizələrini Azərbaycan rəhbərlərinə söyləmişdi.

Ərazi iddiaları ilə kifayətlənməyən Ermənistanın rəsmi dairələri tarixi torpaqlarında yaşayan azərbaycanlıları sıxışdırmağı, etnik mənsubiyyəti göstərən bütün toponimlərin adlarını dəyişdirməyi, tarixi abidələri məhv etməyi genişləndirirdilər. Bu işi həyata keçirən erməni siyasətçiləri, ədibləri daim antiazərbaycan mövqe tutaraq onu həm ölkə daxilində, həm də beynəlxalq aləmdə gözdən salmağa çalışırdılar. Bununla yanaşı, digər başlıca problemlərdən biri də Azərbaycan xalqının nəinki beynəlxalq aləmdə hətta SSRİ-də tanınmaması, az tanınması və ya pis tərəfdən tanınması üçün rəy formalaşdırılmışdı. Təbii ki, bu məsələdə də erməni amili öz rolunu oynamışdı.

Erməni dairələrinin getdikcə artan əsassız iddialarının qarşısının alınması Azərbaycanın qarşısında duran başlıca problemlərdən biri idi və bu işi bacaran rəhbərə daha çox ehtiyac duyulurdu. Məhz Heydər Əliyev həmin problemləri həll etməli idi və Ümummilli Lider bütün bu çətin, eləcə də təxirəsalınmaz vəzifənin öhdəsindən ləyaqətlə gəldi.

Hələ 1969-cu ildən, yəni Heydər Əliyev hakimiyyətə gəlməmişdən əvvəl Ermənistan Azərbaycanla sərhəd olan bəzi əraziləri ələ keçirmək istəyirdi. Erməni rəsmi dairələri və alimləri hətta XX əsrin 20-ci illərinin saxtalaşdırılmış xəritələrini ortaya çıxarmışdılar. Ərazi məsələsinə dair danışıqlar artıq müzakirə obyektinə çevrilmişdi. 1967-ci ildə Ermənistan SSR-in millətçi dairələri Azərbaycan SSR-in daxili işlərinə qarışaraq Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) azərbaycanlı əhalinin yaşadığı məntəqələrin inkişafı üçün ayrılan vəsaitin bölünüb təsdiq olunmasına hər vəchlə mane olmağa çalışırdılar. Mərkəzi SSRİ hökumətinin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il mayın 7-də Ermənistan SSR-lə sərhəd rayonlarının ərazilərindən 2 min hektardan çox torpağın Ermənistan SSR-ə verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul etdiyi qərarı təsdiq etdi (10, s.351).

Ümummilli Lider Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan SSR-in rəhbəri seçilən kimi bu məsələni ön plana çəkdi və bu qərarın icrasını dayandırdı. Azərbaycan xalqının mənafeyini hər şeydən üstün tutan Heydər Əliyev nə qədər təhlükəli olsa da, təzyiqləri rədd edərək prinsipial mövqe göstərdi, erməni millətçilərinin qarşısını qətiyyətlə aldı. Moskvadakı bəzi qüvvələrin və Ermənistan rəhbərlərinin cəhdlərinə baxmayaraq, Heydər Əliyev həmin qərarın həyata keçirilməsinə imkan vermədi. Lakin ermənilər öz çirkin niyyətlərindən əl çəkmirdilər. 1970-ci illərdə də ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atsalar da, onların bu istəklərinin qarşısı qətiyyətlə alınmışdı. 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul edilərkən Ermənistan SSR rəhbərliyi erməni millətçilərinin təhriki ilə yenidən Azərbaycan SSR-in DQMV-nin ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi ilə bağlı SSRİ mərkəzi hökumətinə müraciət etmişdi (10, 365; 7, s.330). 1977-ci il noyabrın 23-də keçmiş SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin iclasında Ermənistan SSR rəhbərliyinin təkidi ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi müzakirə olunmuş və bununla bağlı təklif irəli sürülmüşdü. Məsələdən xəbər tutan Heydər Əliyev ermənilərin bu cəhdlərinin qarşısını almaq üçün qəti addımlar atmışdır. Bu məqsədlə Heydər Əliyevin tapşırığı ilə elmi arayış hazırlanmış, sonra bu sənəd Azərbaycan KP MK Siyasi Bürosunda müzakirə edilərək Ermənistan SSR rəhbərliyinin iddialarının əsassız olması haqqında qərar qəbul edilmiş və həmin qərar keçmiş SSRİ rəhbəri L.Brejnevə təqdim olunmuşdur (10, s.365). Heydər Əliyevin atdığı qəti addımlar nəticəsində ermənilərin bu niyyəti də baş tutmamışdır. Ümumiyyətlə, Heydər Əliyevin qətiyyətli mövqeyi hər zaman SSRİ rəhbərliyində olan erməni millətçilərini çox narahat

etmiş və onların öz çirkin niyyətlərini həyata keçirmələri üçün ciddi bir maneə olmuşdur.

Həmin dövrdə Heydər Əliyev özünün çoxşaxəli fəaliyyəti ilə sosial-iqtisadi, mədəni və digər sahələrdə Ermənistanı Azərbaycandan xeyli geridə qoymuşdu. Buna görə də qatı millətçi ermənilər qısqanclıq hisslərini cilovlaya bilmirdilər.

Ümummilli Liderin Dağlıq Qarabağda yeritdiyi cəsarətli siyasət, o cümlədən Azərbaycan naminə bütün fəaliyyəti müəyyən erməni dairələri tərəfindən qəzəblə qarşılanırdı. Heydər Əliyevə qarşı həm Ermənistandakı rəsmi dairələr, ziyalılar, həm də xaricdəki daşnaklar, dünya erməniliyi, müxtəlif təşkilatlarda gizli və ya açıq şəkildə birləşmişdilər. Məqsədə nail olmaqdan ötrü bütün vasitələrdən istifadə etməyə çalışırdılar. Onun Sov.İKP MK Siyasi bürosu üzvlüyünə namizəd seçilməsi, Azərbaycanın tərəqqisi və inkişafı, azərbaycanlıların SSRİ məkanında və xaricdə nüfuzunun artması erməni dairələrini olduqca narahat edirdi.

Heydər Əliyevin hakimiyyəti illərində Qarabağ dağlıq hissəsində yaşayan ermənilər Azərbaycan torpaqlarına gəlmə olduqlarını yaxşı başa düşmüşdülər hətta bu diyara köçürülmələrinin 150 illiyi münasibəti ilə abidə də qoymuşdular.

Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi nəticəsində burada yeni erməni kəndləri – Marağalı, Canyataq, Yuxarı Çaylı, Aşağı Çaylı və s. kəndlər salınmışdı. Cənubi Azərbaycanın Marağa şəhərindən Qarabağın dağlıq hissəsinə köçürülərək orada məskunlaşan ermənilər 1828-ci ildən 150 il sonra, yəni 1978-ci ildə sovet dövründə Ağdərə rayonunda həmin köçürülmənin şərəfinə abidə ucaltmış (abidənin üzərində ermənicə “Marağa-150” sözləri yazılmışdı), lakin XX əsrin 80-ci illərinin sonunda, yəni Azərbaycana qarşı ərazi iddiaları qaldırdıqları zaman həmin abidəni özləri məqsədyönlü şəkildə dağıtmışlar (12, s.9; 13, s.22).

Həmin illərdə bütün bunları dərk edən çoxlu sayda erməni Dağlıq Qarabağı özünə doğma torpaq hesab etməyərək köçüb bölgədən gedirdi. Amma bəzi erməni alimləri, siyasətçiləri, yazıçı, şair və publisistləri antiazərbaycan siyasətlərindən heç cür əl çəkmək istəməyərək Qarabağın dağlıq hissəsindəki təsərrüfat, mədəni quruculuq işlərinin mətbuatda əks olunmasını qısqanaraq əsassız iddialarını daha məkrlə davam etdirirdilər. Onların Heydər Əliyevin əleyhinə müxtəlif mərkəzi orqanlara göndərdikləri şər, böhtan dolu, heç bir əsası olmayan şikayət məktub-larının və teleqramlarının ardıarası kəsilmirdi (7, s.339-340).

Ümumiyyətlə, Heydər Əliyevin 1969–1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrlərdə fəaliyyətinin əsas istiqamətlərindən biri Dağlıq Qarabağın sosial-iqtisadi və mədəni cəhətdən inkişaf etdirilməsi olmuşdur. Qarabağın tarixini, mədəniyyətini və incəsənətini, əhalisinin düşüncələrini dərindən bilən Azərbaycan rəhbəri bölgədə əmin-amanlığın qorunması istiqamətində çalışır, hamının, o cümlədən azərbaycanlı əhalinin hüquqlarının qorunmasına xüsusi diqqət verirdi. Bununla yanaşı, millətçi erməni dairələrinin təhlükəli antiazərbaycan siyasətini dərindən bilən Ümummilli Lider Azərbaycanın milli maraqlarını qoruyarkən qətiyyətli praktik işlər görərək ona qarşı amansızlıqla mübarizə aparırmış, başlıca olaraq Azərbaycan xalqının mənafeyini qorumuşdur.

Nəticədə, Heydər Əliyevin bu dövrdəki hakimiyyəti illərində Qarabağın dağlıq hissəsində yeni iş yerləri açılmış, Xankəndində ali məktəbin Azərbaycan bölməsi yaradılmış, mədəni-maarif müəssisələri, məktəb binaları tikilmiş, dəmiryolu çəkilmiş, əhalinin həyat səviyyəsi yaxşılaşmışdı. Belə şəraitdə azərbaycanlı əhali, ziyalılar Qarabağda açılan iş yerlərində çalışır və burada daha çox məskunlaşır, ermənilər isə diyara yad, gəlmə olduqlarını başa düşərək köçməyə başlayırdılar.

### Heydər Əliyevin Qarabağda milli ruhun yüksəlməsi istiqamətində fəaliyyəti

Qeyd etmək lazımdır ki, sovet dövründə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı. Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Azərbaycana rəhbər seçiləndən sonra Ümummilli Lider tərəfindən, Şuşanı abadlaşdırmaq, XX əsrin əvvəllərində erməni təcavüzü nəticəsində şəhərin başına gətirilən müsibətlərin izlərini ləğv etmək, dağıdılmış, yandırılmış evləri bərpa etmək, eyni zamanda tarixi abidələri qoruyub saxlamaq, yenidən həyata qaytarmaq, ümumiyyətlə, bu bənzərsiz və qədim Azərbaycan şəhərini böyük bir muzeyə çevirmək üçün ilk mühüm addımlar atıldı.

Şuşanı zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi dəyərləndirən Heydər Əliyev XX əsrin 70-ci illərində şəhərdə Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə göstəriş vermişdi. Eyni zamanda Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmış, Azərbaycan poe-ziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış olmuşdur (6, s.32).

Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq, şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar inşa edildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, azərbaycanlıların milli ruhu güclənirdi. Keçmiş SSRİ-nin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər, eyni zamanda Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular.

Qeyd etmək lazımdır ki, 1920-ci ildən 1970-ci ilə qədər Şuşada heç vaxt belə geniş quruculuq işləri aparılmamışdır. Şuşa şəhərinin “Qala divarları”nın və “Gəncə qapısı”nın bərpasına 1975-ci ildə 25 min manat (rubl) vəsait xərclənmişdi (7, s.332). Azərbaycan mədəniyyəti, incəsənəti və elm xadimlərinin, o cümlədən XIX əsrin görkəmli ədibi, satirik şair Qasım bəy Zakirin məzarı qaydaya salındı. 1977-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə “Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında” qərar qəbul edilmişdir (6, s.32). Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Şuşa ictimaiyyəti ilə keçirdiyi görüşdə Heydər Əliyev tövsiyə edərək demişdi: “Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır” (6, s.32).

Bununla yanaşı, Ümummilli Lider Qarabağın dağlıq və aran hissələrinin təsərrüfat, iqtisadi cəhətdən daha sıx birləşdirilməsinə çalışırdı. Bu, səbəbsiz deyildi. Erməni millətçiləri Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın dağlıq hissəsinin ölkəmizin digər rayonları ilə guya iqtisadi və təsərrüfat əlaqələrinin olmadığını, əhalinin ümumi sayında ermənilərin çoxluğunu iddia edirdilər.

Ancaq sənədlər təsdiq edir ki, Qarabağ bölgəsinin dağlıq hissəsinə XIX əsrdə məqsədli şəkildə köçürülmüş ermənilərə 1923-cü il iyulun 7-də sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə Azərbaycan tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adlı status verilmiş və nəticədə, Azərbaycanın inzi-bati-ərazi bölgüsü kobudcasına pozulmuşdu. 1923-cü ildə qəbul edilən bir qərarla Azərbaycanın Şuşa, Cavanşir və Qubadlı

qəzalarının əraziləri bölünüb məqsədli şəkildə DQMV yaradılmışdı. Azərbaycan tərkibində süni şəkildə DQMV-nin yaradılması təkcə Azərbaycanın inzibati-ərazi bölgüsünün pozulması deyil, həm də Ermənistanın Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün bir vasitə olmuş və elə o vaxtdan da "Dağlıq Qarabağ" termini meydana çıxmışdır (5, s.23).

Onların bu niyyətlərinin qarşısını almaqda, Yuxarı Qarabağın Aran Qarabağla və Azərbaycanın digər rayonlarla əlaqəsini daha da sıxlaşdırmaq, strateji əhəmiyyətli kommunikasiyaların sayını artırmaq böyük rol oynaya bilərdi. Bu baxımdan, Ağdam-Xankəndi dəmiryolu çəkildi və 1979-cu il yanvarın 12-də həmin yol Ümummilli Liderin iştirakı ilə istifadəyə verildi (7, s.333). Bu, Heydər Əliyevin Qarabağın dağlıq və aran hissələrinin, Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən daha çox birləşdirilməsi sahəsində strateji addımı və böyük tarixi xidməti idi.

Bundan əlavə, Heydər Əliyevin göstərişi ilə Xankəndində Pedaqoji İnstitutun açılması və orada Azərbaycan bölməsinin yaradılması Qarabağda elmi-mədəni mühitin formalaşmasına, əhalinin ali təhsil almasına əlverişli şərait yaratmışdı. Ümummilli Lider təkcə Yuxarı Qarabağın deyil, bütövlükdə Qarabağın inkişafına hər zaman diqqət yetirmiş və bu istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, Azərbaycan KP MK bürosunun 1974-cü il avqustun 6-da keçirilən iclasında Laçın şəhərinin 50 illiyinin qeyd edilməsi qərara alınmış və yubiley tədbiri böyük təntənə ilə keçirilmişdi (1, c.6, s.130). Bununla yanaşı, büronun 1979-cu il dekabrın 5-dəki iclasında Laçında tarix-diyarşünaslıq muzeyinin yaradılması barədə qərar qəbul edilmişdi (7, s.336).

Həmin illərdə Heydər Əliyevin Şuşaya göstərdiyi diqqət və qayğı daha da artmış, geniş quruculuq işləri vüsət almışdı. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980–1981-ci illərdə abidə, məqbərə kompleksi tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Heydər Əliyev Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdır. Onun M.P.Vaqifə bu münasibəti bir tərəfdən milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Əslində, bu məqbərə, eyni zamanda gözəl memarlıq abidəsi idi. Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada Poeziya evini açaraq, Vaqif poeziya günlərində iştirak etmişdi (6, s.32-33).

Eyni zamanda, Heydər Əliyev Üzeyir Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyələrini vermişdi. Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdi. Bununla yanaşı, Heydər Əliyevin Şuşa məscidinə getməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Heydər Əliyev erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyə etmişdi.

1982-ci il iyulun 29-dan avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada görkəmli şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu (6, s.33). Qeyd etmək lazımdır ki, bir ildə iki dəfə Şuşaya gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə görkəmli dövlət xadimi Heydər Əliyev ziyalıları Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, Şuşaya tez-tez səfərə gəlmələrini tövsiyə edirdi.

1993-cü ilin ikinci yarısından, yəni Ümummilli Liderin yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizin beynəlxalq aləmdə fəallığının güclənməsi və qətiyyətli addımların atılması dahi şəxsiyyət Heydər Əliyevin siyasi iradəsi və zəngin dövlətçilik təcrübəsi sayəsində mümkün olmuşdur. Həmçinin, 1993-cü ilin

ikinci yarısından başlayaraq Ümummilli Lider Heydər Əliyev Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasətini beynəlxalq aləmə çıxararaq təcavüzkarın ifşası, ölkəmizin ərazi bütövlüyünün bərpası və regionda sülhün bərqərar olması üçün qətiyyətli addımlar atmışdır.

Eyni zamanda, doğma yurdlarından didərgin salınmış və məcburən köçkün düşmüş insanların bütün qayğı və problemləri Azərbaycan dövlətinin gündəlik fəaliyyətinə çevrilmişdir. Bununla yanaşı, Ümummilli Lider Heydər Əliyev 1996-cı il mayın 6-da Prezident sarayında doğma yurdlarından məcburən köçkün düşmüş Şuşa və Laçın rayonlarının ictimaiyyəti ilə görüşdə Şuşanın Azərbaycan üçün nə dərəcədə müstəsna əhəmiyyət kəsb etdiyini qiymətləndirərək demişdir: "...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbay-canlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir" (1, c.6, s.127-128).

Şuşanın inkişafı üçün XX əsrin 70-ci illərində görülən işləri, bir neçə xüsusi qərar qəbul edildiyini bildirən Ümummilli Lider bu qədim şəhəri böyük bir muzeyə bənzədərək demişdir: "Şuşa həqiqətən bir şəhər kimi eyni zamanda vahid bir muzey – Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, elminin böyük bir hissəsini əks etdirən muzeydir. Şəhər özü həm quruluşu, həm də abidələri, yüksək memarlıq səviyyəsində olan binaları, Cıdır düzü ilə, təbii gözəlliyi ilə böyük bir muzeydir" (1, c.6, s.129).

### Azərbaycanın intellektual potensialının milli dövlətçiliyin inkişafına cəlb edilməsi

Azərbaycanda milli dəyərlərin qorunması, xalqın milli düşüncə tərzinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirləri yalnız Heydər Əliyev kimi cəsarətli bir dövlət xadimi, siyasi lider reallaşdıra bilərdi. Həmin illərdə görkəmli dövlət xadimi Heydər Əliyevin bilavasitə göstərişi və rəhbərliyi ilə Azərbaycandakı memarlıq abidələrində bərpa işləri aparılmış, tarix və mədəniyyət abidələrinin pasportu hazırlanmış, görkəmli şair və yazıçıların yubileyləri keçirilmiş, tarixi şəxsiyyətlərin və xalq qəhrəmanlarının abidələri ucaldılmış, onların adlarını daşıyan küçə və yaşayış məntəqələri salınmış, milli varlığımızın, dəyərlərimizin və adət-ənənələrimizin təbliğinə xidmət edən filmlər çəkilmişdir.

1969-1982-ci illər həm də Azərbaycanda milli intibah, elm və təhsilin inkişaf dövrü kimi xatırlanır. XX əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə ali təhsil müəssisələrinin zəngin şəbəkəsinin yaradılması və onların maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənarda yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsi gələcək dövlət müstəqilliyimiz üçün zəruri intellektual potensial yaratmışdır.

Heydər Əliyevin XX əsrin 70-80-ci illərindəki ən böyük xidmətlərindən biri olan milli hərbçi kadrların hazırlanması sahəsində qəbul etdiyi tarixi qərarlar gələcəyə hesablanmış strateji xətt idi. Bunun nəticəsi olaraq 1971-ci ilin noyabr ayında məhz Heydər Əliyev təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb fəaliyyətə başlamışdır (7, s.306-307). 1976-cı ildə Hərbi Məktəbin fəaliyyətini yaxşılaşdırmaq məqsədilə Azərbaycanın KP MK-nın və Nazirlər Şurasının qərarı ilə tədbirlər görülmüşdür. Ümummilli Lider 1976–1977-ci illərdən başlayaraq keçmiş SSRİ-nin ali hərbi məktəblərinə ildə 800-900 nəfər gəncin göndərilməsinə nail oldu (7, s.307). Məhz o dövrdə yüzlərlə azərbaycanlı gəncin keçmiş SSRİ-də mövcud olan 54 ən qabaqcıl

ali hərbi məktəblərə və hərbi akademiyalara təhsil almağa göndərilməsi müstəqil dövlət quruculuğu istiqamətində atılan və gələcəyə heşablanmış mühüm addımlardan biri idi. Qeyd etmək lazımdır ki, Ümummilli Liderin XX əsrin 70-ci illərində başladığı hərbi quruculuq prosesi əsrin 90-cı illərində müstəqilliyimizi yenidən bərpa etdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin zabit heyətinin formalaşmasında müstəsna rol oynamışdır.

Bununla yanaşı, Heydər Əliyev azərbaycanlı tələbələrin imkan daxilində xarici ölkələrin universitetlərində praktika keçmələrinə və mübadilə proqramları çərçivəsində təhsil almalarına da nail oldu. Qeyd etmək lazımdır ki, təkcə 1979-cu ildə 122 nəfər azərbaycanlı tələbə Şərqi Avropa ölkələrində təhsil almağa göndərilmişdi (7, s.131). Bu ölkələr sosialist dövlətləri olsalar da, hər halda Avropa ölkələri kimi onlarda elm, təhsil və mədəniyyətin yüksək səviyyəsi həmişə xüsusi diqqət cəlb etmişdir.

Eyni zamanda məhz Heydər Əliyevin diqqəti və gələcəyə hesablanmış strateji addımları sayəsində həmin dövrdə minlərlə azərbaycanlı keçmiş SSRİ-nin ən nüfuzlu təhsil ocaqlarında təhsil almaq imkanı əldə etdi. Ümummilli Lider ilk növbədə Moskva, Sankt-Peterburq, Kiyev, Minsk və başqa şəhərlərdəki ali mək-təblərə müsabiqədənkənar qəbuluna icazə almışdı. Artıq XX əsrin 70-ci illərinin ortalarından başlayaraq postsovet məkanının 40 şəhərində yerləşən ali məktəblərdə 1627 azərbaycanlı gənc müxtəlif ixtisaslar üzrə təhsil alırdı. 1977-ci ildə isə bu rəqəm 2500 nəfərə çatmışdı. 1970-1979-cu illərdə keçmiş SSRİ-nin başqa ali məktəblərini 500 nəfər azərbaycanlı bitirmişdi. Bu illər ərzində həmin ali məktəblərə azərbaycanlı gənclərin qəbulu 10 dəfə artırılmış, nəticədə 1979-cu ildə digər şəhərlərdə 2800 nəfər azərbaycanlı oğlan və qız 244 ixtisas üzrə təhsil almışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər sonrakı illərdə də davam etdirildi və 1981-ci ildə başqa ali məktəblərə 853 nəfər oxumağa göndərildi ki, onlardan 720 nəfəri birinci kursa daxil olmuşdu. Həmin ildə keçmiş SSRİ-nin müxtəlif ali məktəblərində 244 ixtisas üzrə 3600 nəfər azərbaycanlı təhsil alırdı. 1982-ci ildə digər şəhərlərin müxtəlif ali məktəblərinin birinci kurslarına oxumağa 737 nəfər azərbaycanlı göndərilmiş və həmin gənclər tələbə təqaüdü ilə təmin olunmuşdular (7, s.133-135).

Bununla yanaşı, postsovet məkanının müxtəlif yerlərində çalışan gənc mütəxəssislər respublikanı bacarıqla təmsil edirdilər. Ümummilli Lider, həmçinin hesab edirdi ki, azərbaycanlı mütəxəssislər Azərbaycanın milli sərvətidirlər. Nəticədə, Heydər Əliyevin bilavasitə gərgin fəaliyyəti nəticəsində Azərbaycan savadlılar diyarına çevrildi. Qeyd etmək lazımdır ki, aparılan bu siyasətdə qarşıya qoyulan məqsədlərdən biri də azərbaycanlıları artırmaqla həm də bütün postsovet məkanında Azərbaycan diasporunu yaratmaq idi.

Belə ki, nəticədə keçmiş SSRİ-nın 50-dən çox şəhərinin 170-dən artıq ali təhsil ocağında elm, iqtisadiyyat, mədəniyyət, istehsalat və digər sahələri əhatə edən, eləcə də zəruri ehtiyac duyulan 250-dən artıq ixtisas üzrə 18 mindən çox azərbaycanlı gənc təhsil alaraq müxtəlif ixtisaslara yiyələnmişdir. Onların əksəriyyəti bu gün müstəqil Azərbaycanın iqtisadiyyatının, elminin, təhsilinin inkişafında, dövlətçiliyinin möhkəmləndirilməsində fəal iştirak edirlər.

Bununla yanaşı, Heydər Əliyev 1969-cu ildə Azərbaycanda hakimiyyətə gələndə bütün postsovet məkanında rus dili hakim və rəsmi dil idi. Ümummilli Lider prinsipiallıq, cəsarət və siyasi müdriklik nümayiş etdirərək Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr olunan təntənəli toplantıda Azərbaycan dilində çıxış edərək ana dilimizə, milli dəyərlərimizə sahib çıxacağını nümayiş etdirmişdir. Eyni zamanda, nə qədər çətin olsa da, hələ 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən Ümummilli Lider Heydər Əliyevin təşəb-büsü ilə dövlət dili Azərbaycan dili kimi təsdiq olundu.

### XX əsrin sonunda ermənilərin ərazi iddiaları, antitürk və antiazərbaycan təbliğatının genişlənməsi

1982-ci ildə Heydər Əliyev Moskvaya yüksək vəzifədə işləməyə gedərkən Azərbaycan rəhbərlərinə Qarabağa diqqət və qayğı, qonşu Ermənistanla münasibətlərə xüsusi diqqət yetirməyi tövsiyə etmişdi. Lakin bu tövsiyələr yetərincə nəzərə alınmadı, nəticədə erməni millətçi dairələri yenidən Azərbaycan əleyhinə fəaliyyətlərini daha da genişləndirdilər. Belə ki, 1983-cü ildən etibarən ermənilər Azərbaycana qarşı yenidən əsassız ərazi iddiaları irəli sürdülər (7, s.359).

1983-cü ildə iki respublika arasında baş verən münaqişənin kəskinləşməsinin əsas səbəbi Qazax rayonunun Kəmərli kəndində 1,675 ha meşə massivindən istifadə etmək üstündə idi. Ermənilər həmin ərazini ələ keçirmək istəyirdilər. Kəmərli kəndinin nümayəndələri hətta Sov. İKP MK-da şikayətdə olmuşdular. 1984-cü ilin oktyabr ayında torpaq məsələsini öyrənmək üçün Azərbaycan rəsmi şəxslərdən bir neçə nəfər rayonda vəziyyəti yerində öyrənmişdilər. Lakin xalqın etirazının elə bir nəticəsi olmadı. Azərbaycan KP MK bürosunun 1984-cü il 12 noyabr tarixli iclasında “Qazax rayonunun Kəmərli kəndində münaqişə haqqında” məsələ müzakirə edildi və geniş müzakirələrdən sonra on bənddən ibarət büro qərarı qəbul olundu (7, s.360). Təbii ki, belə vəziyyət Azərbaycan rəhbərliyinin zəifliyini göstərir və bu hadisə erməniləri daha da şirnikləndirdi.

Heydər Əliyev isə Moskvada işlədiyi dövrdə Azərbaycanın dövlət maraqlarını qətiyyətlə qorumuş və erməni iddialarının reallaşmasına imkan verməmişdi. Sov.İKP MK Siyasi bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işlədiyi zaman Ümummilli Liderin imzaladığı qərarlarla işdə yol verdiyi ciddi nöqsanlara görə bir sıra şəxslər, o cümlədən bəzi ermənilər vəzifələrindən azad edilmişdilər. Heç şübhəsiz, belə mühüm sənədləri imzalamazdan əvvəl Heydər Əliyev sovet rəhbərləri ilə razılaşdıraraq ona milli don geyindirilməsinə imkan verməmiş, Azərbaycanın milli maraqlarını və ümumi mənafeyini qorumuşdu.

Qeyd etmək lazımdır ki, 1985-ci ilədək Heydər Əliyevin iştirakı ilə keçirilən Sov.İKP MK Siyasi bürosunun və SSRİ Nazirlər Sovetinin iclaslarında Azərbaycan əleyhinə olaraq ermənilərin xeyrinə qərar qəbul edilməmişdir. XX əsrin 80-ci illərin ortalarından etibarən erməni dairələri öz fəaliyyətlərini bir neçə istiqamətdə daha da genişləndirmişdilər. İlk növbədə Ermənistanın millətçi alim, yazıçı, şair və jurnalistlərinin Azərbaycan, Türkiyə əleyhinə yazdıqları uydurma və subyektiv mülahizələrə əsaslanan “kitab”ların nəşri çoxalmış, eyni zamanda antiazərbaycan əhval-ruhiyyə daha da güclənmişdi.

Həmin dövrdə Ermənistanda da Azərbaycan əleyhinə geniş təbliğat-təşviqat işləri genişlənməyə başladı. Qondarma erməni tarixçiləri tərəfindən Qarabağın tarixi saxtalaşdırılaraq “erməni torpaqları” olması barədə dərsliklər və məqalələr, qədim Azərbaycan ərazilərinin Ermənistana birləşdirilməsi barədə Moskvaya ardı-arası kəsilməyən məktublar, müraciətlər yazılırdı. Azərbaycan xalqının əleyhinə və erməni millətçiliyi ruhunda yazılmış Z.Balayanın Yerevanda “Sovetakan qrox” nəşriyyatında 100 min tirajla çap olunan və SSRİ məkanında geniş yayılan “Ocaq” (Yurd) kitabı Ermənistanda Dağlıq Qarabağı ələ keçirmək üçün aparılan təbliğat işini daha da gücləndirdi (5, s.33).

1985-ci il fevralın 21-də Ermənistan KP MK-nın sovet rəhbərliyinə 24 aprel gününün “Soyqırımı qurbanlarının xatirə günü” kimi qeyd edilməsi haqqında müraciəti Sov.İKP MK Siyasi Bürosunun iclasının gündəliyinə daxil edildi. Həmin il iyunun 20-də SSRİ Nazirlər Soveti “1985–1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında” qərar qəbul etdi (5, s.33). Həmin qərarın yerinə yetirilməsi nəticəsində Ermənistana xarici ölkələrdən çoxlu sayda erməni köçürüldü. Onlar özləri ilə qatı erməni millətçiliyi gətirərək azərbaycanlılara qarşı düşmənçiliyi qızışdırır və bu istiqamətdə təbliğat aparırdılar.

XX əsrin 80-ci illərinin ortalarından etibarən keçmiş SSRİ məkanında və ilk növbədə, Ermənistan SSR ərazisində antiazərbaycan, antitürk təbliğatı daha da güclənməyə başladı. Bu proses M.Qorbaçovun SSRİ rəhbəri seçilməsindən sonra daha geniş miqyas aldı. 1985-ci ilin əvvəlində Ermənistan KP MK birinci katibi K.Dəmirçyan Sov. İKP MK-nın Siyasi Bürosuna qondarma "erməni soyqırımı"nın 70 illiyi ilə bağlı 24 aprel tarixinin hər il SSRİ-də anım günü kimi qeyd olunması təklifi ilə müraciət etmiş, Siyasi Büronun iclasını aparan M.S.Qorbaçov buna razılıq versə də, Heydər Əliyevin, N.Tixonovun və A.Qromıkonun sərt və prinsipial mövqeyi ilə qarşılaşmışdır. Lakin ermənilər öz çirkin niyyətlərindən əl çəkmirdilər (10, s.399-406).

1987-ci il oktyabrın 21-də Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Sov.İKP plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra Sov.İKP MK-nın baş katibi M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə "İnterkontinental" hotelində müsahibəsində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək Azərbaycanın bu ayrılmaz hissəsinin Ermənistana birləşdirilməsi ideyasını əsassız olaraq irəli sürdü. Bunun ardınca noyabrın 18-də A.Aqanbekyanın Parisdə verdiyi müsahibə "L'Humanite" qəzetində çap olundu. Bu müsahibə ermənilərin Dağlıq Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı (8, s.102-103).

## Heydər Əliyevin milli maraqlara əsaslanan xarici siyasət strategiyası

Dövlət müstəqilliyinin bərpası Azərbaycan xalqının tarixində böyük hadisə olmaqla, yeni bir dövrün başlanğıcı idi. Azərbaycan xalqı milli dövlətçilik ənənələrinə, tarixi və mədəni irsinə söykənərək demokratik və hüquqi dövlət quruculuğu yolunu seçdi. Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə başlayan hərbi təcavüzün genişlənməsi ölkəmizi ciddi siyasi və iqtisadi problemlərlə üz-üzə qoymaqla yanaşı, dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini ön plana çəkdi. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra, dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu.

Bu dövrdə Azərbaycan Respublikasının qarşısında onun dövlət müstəqilliyinin tanıdılması və möhkəmləndirilməsi, Ermənistanın əsassız ərazi iddiaları ilə başladığı təcavüzü nəticəsində yaradılmış Qarabağ münaqişəsinin milli maraqlara uyğun həlli və işğal edilmiş ərazilərin azad edilməsi, dövlət quruculuğu, ölkənin inkişafını təmin etmək üçün əlverişli beynəlxalq şəraitin yaradılması kimi mühüm vəzifələr dururdu. Həmin vəzifələri yerinə yetirmək üçün ardıcıl, məqsədyönlü xarici siyasət kursunun hazırlanması və reallaşdırılması tələb olunurdu.

Lakin XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı sayəsində başlamış Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, eləcə də hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal altına düşdü. Bu zaman xarici siyasət fəaliyyəti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və davam edən işğalı şəraitində həyata keçirilirdi. Müstəqilliyin bərpa edildiyi ərəfədə və ondan az sonra azərbaycanlılar Ermənistandan – öz tarixi torpaqlarından qovularaq qaçqına çevrilmişdilər. Azərbaycanın Qarabağ dağlıq hissəsində isə azərbaycanlılar yaşayan məntəqələri bir-birinin ardınca Ermənistan silahlı qüvvələri və terrorçu dəstələri tərəfindən keçmiş sovet hərbi hissələrinin köməyi ilə işğal edilmiş, əhalisi isə öz doğma yurdlarından məcburən köçkün düşmüşdü. Təcavüzün gedişində 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan

silahlı qüvvələri Xankəndidə yerləşən sovet ordusundan qalmış 366-cı motoatıcı alayın hərbçiləri və ağır texnikasının iştirakı ilə Xocalı şəhərinə hücum edərək şəhəri yerlə-yeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdılmış, yandırılmış və insanlar xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Azərbaycanın qədim Xocalı şəhərində həyata keçirilmiş bu soyqırım nəticəsində rəsmi rəqəmlərə görə, 613 nəfər öldürüldü ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qoca idi. Səkkiz ailə tamamilə məhv edilmişdi. Bundan əlavə, 1275 nəfər əsir götürülmüş, 155 nəfərin taleyindən indiyə kimi heç bir məlumat yoxdur (5, s.67-68).

Belə bir ağır şəraitdə, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra 1991-ci il oktyabrın 29-da BMT-yə və dünya dövlətlərinə müraciət etdi. 1992-ci il fevralın 14-də Azərbaycanın müraciətini müzakirə edən BMT Təhlükəsizlik Şurası ölkəmizin bu təşkilata üzv qəbul olunmasını tövsiyə etdi (9, s.370). Beləliklə, BMT Baş Məclisinin 1992-ci il martın 2-də keçirilən 46-cı sessiyasında Azərbaycan Respublikasının BMT üzvlüyünə qəbul olması barədə qətnamə qəbul edildi (29, p.289; 30, p.12). 1992-ci il martın 6-da Azərbaycanın BMT yanında daimi nümayəndəliyi Nyu-Yorkda fəaliyyətə başladı, həmin ilin noyabr ayında isə BMT-nin Azərbaycanda daimi nümayəndəliyi açıldı (29, p.325).

Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti düşünülmüş, ardıcıl və milli maraqların qorunmasına əsaslanan xarici siyasət tələb edirdi.

1993-cü ilin ikinci yarısında Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli maraqlarının və mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Heydər Əliyev özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsini qarşıya məqsəd kimi qoymuşdu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxartmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni siyasi kursu həyata keçirmək üçün hər şeydən əvvəl müharibə dayandırılmalı və dinc şərait təmin edilməli idi.

Müstəqilliyini bərpa etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi.

Ümummilli Lider Heydər Əliyev bildirmişdir ki, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək üçün əsas vəzifələrdən biri ölkəmizin mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasət olmasıdır: "Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir...Nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü, xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq... Bundan sonra görüləsi işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və Respubli-

kamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır" (1, c.1, s.132).

Digər mühüm vəzifələrdən biri də bəzi dövlətlər ilə münasibətlərdə əsassız yaradılmış gərginliyi aradan qaldırmaq, dövlətlərlə münasibətlərdə tarazlaşdırılmış xarici siyasət xəttini təmin etmək, region dövlətlərlə münasibətlərə daha çox diqqət yetirməklə qarşılıqlı əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin qorunmasına nail olmaq idi. Qarşıda duran ən mühüm vəzifələrdən biri də münaqişənin ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi şərti ilə ədalətli şəkildə həll olunması üçün böyük dövlətlərin, eləcə də beynəlxalq təşkilatların səylərini gücləndirməyə nail olmaqdan ibarət idi.

Azərbaycanın milli təhlükəsizliyi onun dünya və region dövlətləri, habelə beynəlxalq təşkilatlarla balanslaşdırılmış strateji xətt yeritməsini zərurətə çevirdi. Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının xarici siyasət prioritetlərindən bəhs edərək qeyd edirdi ki, "...Dəyişən dünyamızda Azərbaycanın siyasi missiyası dost və tərəfdaş axtarışına, blok və ittifaqların çoxvariantlılığına yönəlmişdir. Bu, Azərbaycanın dünya dövlətləri ailəsində statusunu, suverenliyini möhkəmləndirəcək, həm də müxtəlif dövlətlərlə yaxınlaşmasına kömək edəcəkdir" (2, s.31).

Ümummilli Lider çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi (8, s.297). "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələri Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi.

Azərbaycanın enerji siyasətinin əsasını təşkil edən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz əsas ixrac boru kəmərlərinin tikintisinə başlandı. Sonrakı illərdə onların işə salınması nəticəsində Azərbaycan nəinki özünün enerji təhlükəsizliyini təmin etdi, eyni zamanda Avropanın enerji təminatında mühüm rol oynamağa başladı. Həmçinin, enerji diplomatiyası Azərbaycan dövlətinin beynəlxalq mövqelərini möhkəmləndirdi.

Bununla yanaşı, dövlət müstəqilliyinin bərpasından sonra Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi Azərbaycan diplomatiyasının qarşısında duran mühüm və çətin məsələlərdən biri oldu. Bu məsələyə dair Xəzəryanı ölkələrlə Azərbaycanın milli mənafelərinə uyğun olaraq səmərəli danışıqlar aparıldı.

Qeyd etmək lazımdır ki, SSRİ-nin mövcudluğu dövründə Xəzər dənizi İranın və Sovet İttifaqının nəzarəti altında idi. Ötən müddət ərzində SSRİ və İran Xəzər dənizinə dair siyasətlərini 1921 və 1940-cı illərdə imzalanmış müqavilələrə uyğun olaraq qurmuşdular. Lakin İran bu dövrdə Xəzər dənizinə az maraq göstərirdi. Xəzər əslində "sovet gölünə" çevrilmişdi. Xəzər dənizində üçüncü dövlətin gəmiləri ola bilməzdi. Sonrakı illərdə İran bu vəziyyətin dəyişdirilməsinə müəyyən cəhdlər etsə də, heç bir nəticə əldə edə bilmədi. Beləliklə, SSRİ dağılana qədər Xəzər dənizinin hüquqi statusu məsələsi ikitərəfli münasibətlərdə müzakirə mövzusu olmadı (8, s.371).

SSRİ-nin dağılması nəticəsində Xəzər dənizi ətrafında yeni müstəqil dövlətlərin – Azərbaycan, Türkmənistan, Qazaxıstan və Rusiyanın meydana gəlməsi ilə regionda tamamilə yeni geosiyasi şərait yarandı. Hələ sovet dövründə Xəzər dənizində ciddi siyasi, iqtisadi, ekoloji və digər xarakterli problemlər mövcud idi. SSRİ-nin dağılması ilə həmin problemlər daha da kəskinləşdi. Xəzər dənizinin zəngin təbii, ilk növbədə enerji ehtiyatlarının mövcudluğunun təsiri altında vəziyyət tamamilə dəyişdi.

Xəzəryanı dövlətlərdən hər biri öz maraq və mənfəətlərini əsas götürərək mövqelərini əsaslandırmağa başladılar. Nəticədə, Xəzər dənizi hövzəsi geosiyasi, geoiqtisadi və geostrateji maraqların toqquşduğu meydana çevrildi. Bu isə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsini gündəliyə gətirdi və sahilyanı ölkələr arasında gərgin diplomatik müzakirələr aparıldı. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsini bir sıra amillər zəruri edirdi. Birincisi, artıq qeyd edildiyi kimi, SSRİ dağıldıqdan sonra regionda tamamilə yeni geosiyasi vəziyyət yaranmışdı. İkincisi, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi yalnız region dövlətlərinin inkişafı, dövlətlərarası münasibətlərin möhkəmləndirilməsi deyil, eyni zamanda onun biomüxtəlifliyinin, flora və fauna zənginliyinin qorunub saxlanılması, ekoloji vəziyyətinin yaxşılaşdırılması baxımından vacib idi. Nəhayət, Xəzər dənizi yerləşdiyi geosiyasi mövqeyi baxımından bütövlükdə region üçün xüsusi strateji əhəmiyyət kəsb edirdi (8, s.374).

Qeyd etmək lazımdır ki, 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi Böyük İpək Yolunun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın qazandığı ən mühüm nailiyyətlərindən biridir (9, s.563).

İlk növbədə Avropa ilə Asiyanın qovuşağında çox mühüm və geosiyasi bir ərazidə yerləşən, müstəqilliyini bərpa etmiş Azərbaycanın qonşu dövlətlərlə – Türkiyə, Rusiya, İran, Gürcüstan, Qazaxıstan və Türkmənistan ilə münasibətlərinin inkişaf etdirilməsi ölkəmizin xarici siyasətinin əsas prioritet istiqamətlərindən biri oldu. Həmin ölkələrlə münasibətlərdə başlıca məqsəd mehriban qonşuluq və qarşılıqlı əməkdaşlığa əsaslanan ikitərəfli və çoxtərəfli əlaqələr qurmaq idi.

Bununla yanaşı, Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən biri də Avropa ölkələri ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi idi. Bu baxımdan Azərbaycanı müstəqil dövlət kimi tanıtmaq, beynəlxalq mövqelərini möhkəmləndirmək qarşıya məqsəd kimi qoyulmuşdu. Bu dövrdə, yalnız ikitərəfli deyil, çoxtərəfli əsasda da fəal xarici siyasət yürüdülərək Azərbaycanın beynəlxalq təhlükəsizlik və əməkdaşlıq sistemində özünəməxsus yer tutması üçün bir sıra mühüm addımlar atıldı.

Azərbaycan Respublikasının xarici siyasət strategiyasının mühüm istiqamətlərindən biri beynəlxalq təşkilatlarla hərtərəfli əməkdaşlıq etməkdir. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycan Respublikası beynəlxalq təşkilatlarla əməkdaşlığı bütövlükdə ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək verəcək vasitə kimi görür.

Azərbaycanın beynəlxalq təşkilatlara üzv olması ilə yanaşı, onların işlərində fəal surətdə iştirak etməsi və səmərəli əməkdaşlıq ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb edir. Məhz buna görə də dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil etmişdir.

Ümummilli Lider Heydər Əliyev xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirirdi. Bu baxımdan 1994-cü il mayın 4-də Prezident Heydər Əliyevin “Sülh naminə tərəfdaşlıq” proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu (9, s.447).

Bununla yanaşı, Heydər Əliyevin Azərbaycan Prezidenti kimi BMT Baş Məclisinin sessiyalarında və digər yüksək səviyyədə keçirilən müxtəlif iclaslarda və çoxsaylı görüşlərdə bu əlaqələr inkişaf etdirildi. Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə Ümummilli Lider 1994-cü il sentyabrın 29-da BMT Baş Assam-

bleyasının 49-cu sessiyasında çıxış edərək, bu universal beynəlxalq təşkilatın tribunasından ölkəmizin bir çox məsələləri ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü haqqında həqiqətləri dünya ictimaiy-yətinə çatdırmışdır (1, c.2, s.193-197). 1995-ci il oktyabrın 22-də BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən Baş Məclisinin xüsusi təntənəli iclasında çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək, mövcud qlobal problemlərə dair Azərbaycan dövlətinin prinsipial mövqeyini açıqlamış, xüsusilə Ermənistan təcavüzünün aradan qaldırılması ilə bağlı təcili tədbirlərin görülməsi və beynəlxalq səylərin artırılmasına çağırmışdır (1, c.4, s.194).

2000-ci ilin sentyabr ayında BMT-nin Minilliyin sammitində çıxış edən Prezident Heydər Əliyev dünyada sülhün və təhlükəsizliyin qorunmasında əsas missiyanı öz üzərinə götürmüş bu beynəlxalq təşkilatın kürsüsündən Azərbaycanın mövqeyini bir daha dünyaya bəyan etmiş, bəşəriyyətin üzləşdiyi problemlərin həllində BMT-nin fəaliyyətini daha da gücləndirmək məqsədilə təşkilatda islahatların aparılmasının zəruriliyini vurğulamışdır (1, s.447).

1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan “Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi” imzalanmışdır (9, s.561). Bu müqavilənin imzalanması Azərbaycanın xarici siyasətinin ən uğurlu səhifələrindən biri kimi qiymətləndirilir. Dövlətimiz və xalqımız üçün mühüm tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsi, xüsusilə inteqrasiya istiqamətində hüquqi baza rolunu oynayır. Hazırda Azərbaycan Respublikası ümumavropa sisteminə inteqrasiya olunmaqla yanaşı, qitənin təhlükəsizlik arxitekturasına öz töhfəsini verərək Avropa ölkələrinin enerji təchizatının təmin olunmasında da çox mühüm rol oynamaqdadır.

Ümumiyyətlə, Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993–2003-cü illərdə respublikamız üçün həlledici illər olmuşdur. Məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulmuşdur. O illərdə Azərbaycanın xarici siyasətlə bağlı strateji xətti müəyyən edilmiş, Azərbaycan dünya birliyinə qovuşmuşdur. Azərbaycanın beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində müntəzəm, eləcə də fəal surətdə iştirak etməsi səmərəli əməkdaşlığımız ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb etmişdir. 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmiş, siyasi sistem möhkəmləndirilmiş və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır. Bu illər ərzində görülmüş işlər hazırda ölkəmizin uğurlu inkişafını şərtləndirmişdir. Həmin dövrdə başlanmış layihələr bu gün çox uğurla davam etdirilir.

### Heydər Əliyevin Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin qurulması və inkişafında rolu

Qeyd etmək lazımdır ki, xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirmək yolu ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərən BMT-nın Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı – YUNESKO ilə Azərbaycanın əlaqələri öz tarixinə görə ölkəmizin BMT-yə qəbul olduğu dövrdən əvvəlki illərə, yəni SSRİ-nin tərkibində yaşadığımız dövrə təsadüf edir.

Sovet sistemi şəraitində müttəfiq respublikaların xarici ölkələrlə birbaşa əlaqələr qurmaq imkanı olmadığından Heydər Əliyev müxtəlif vasitələrlə bu əməkdaşlığı qurmağa və inkişaf etdirməyə çalışırdı. Belə ki, keçmiş SSRİ-yə gələn müxtəlif səviyyəli nümayəndə heyətlərinin Azərbaycana səfərləri artmaqla yanaşı, eyni zamanda İttifaq (keçmiş SSRİ - müəllif) vasitəsilə həyata keçirilən beynəlxalq iqtisadi əlaqələr genişləndirildi, həmçinin Azərbaycan beynəlxalq və ümumittifaq elmi, mədəni və siyasi tədbirlərin keçirildiyi mərkəzə çevril-

məyə başladı. Eyni zamanda, xarici ölkələrdə işləməyə göndərilən ixtisaslı azərbaycanlıların sayı artırıldı. Beynəlxalq mədəni əlaqələri genişləndirilməklə yanaşı, azərbaycanlı diplomat kadrların hazırlanmasına başlıca diqqət yetirilirdi. Xarici İşlər Nazirliyi, Xarici Ticarət Nazirliyi və xarici turizm təşkilatlarının funksiyaları tədricən artırılırdı (7, s.391).

Bu baxımdan, Azərbaycan hələ XX əsrin 60-cı illərindən Sovet İttifaqının tərkibində olarkən YUNESKO-nun fəaliyyətində aktiv iştirak etmişdir. YUNESKO-nun Parisdəki mənzil qərargahında "Azərbaycan xalçaları" (1981), "Azərbaycan əlyazmaları" (1985), Londonda isə YUNESKO-nun himayəsi altında "Bakının memarlığı" (1985) sərgiləri keçirilmişdir. 1984-cü ilin noyabr ayında YUNESKO-nun mənzil qərargahında Azərbaycan Dövlət Rəqs ansamblının çıxışı olmuşdur. YUNESKO Sovet İttifaqı zamanı Bakıda iki beynəlxalq tədbirin – "Dil və şəhər" (1981) və "Şərq xalça sənəti" (1983) konfranslarının keçirilməsi üçün Azərbaycana maliyyə yardımı göstərmişdir. 1983-cü ildə Azərbaycan hökuməti xalçaçı-rəssam Lətif Kərimovun toxuduğu, üzərində Memar Əcəmi Naxçıvaninin təsviri olan xalçanı Bakıya səfər etmiş YUNESKO-nun Baş Direktoru Amadu Mahtar M'Bou vasitəsilə təşkilata hədiyyə etmişdir (4, s.30).

Sovet İttifaqının mövcud olduğu illərdə Azərbaycanın YUNESKO ilə əlaqələrinin qurulmasında və inkişaf etdirilməsində Ümummilli Lider Heydər Əliyevin böyük xidmətləri olmuşdur. O, YUNESKO-nun Azərbaycan mədəniyyəti ilə bağlı təşkil etdiyi tədbirlərdə yaxından iştirak etmişdir. Qeyd etmək lazımdır ki, 1983-cü ildə Bakıda təşkil edilmiş "Şərq xalça sənəti" I Beynəlxalq Simpoziumu zamanı o vaxt Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü olan Heydər Əliyev YUNESKO-nun Baş Direktorunun xüsusi məsləhətçisi Federiko Mayorla görüşmüş və bu dostluq əlaqələri Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkəmizin YUNESKO ilə münasibətlərinə öz müsbət təsirini göstərmiş və beləliklə, Azərbaycanın təşkilatdakı uğurlarının təməli qoyulmuşdur (4, 30-31).

Müstəqilliyini yenidən bərpa etdikdən sonra, isə Azərbaycan Respublikası BMT-nin ixtisaslaşmış qurumu olan YUNESKO-ya 1992-ci il iyulun 3-də üzv qəbul olunmuşdur (14, s.57-58). Azərbaycanın YUNESKO ilə əlaqələrinin genişləndirilməsi isə, 1993-cü ilin ikinci yarısından, yəni Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra başlanmışdır. Belə ki, Azərbaycan–YUNESKO əlaqələrinin inkişafında ən mühüm addım Azərbaycan Prezidenti Heydər Əliyevin Fransa Respublikasına 1993-cü ilin dekabrın 19-dan 21-dək davam edən ilk rəsmi səfəri çərçivəsində YUNESKO-nun Baş Direktoru Federiko Mayorla görüşü zamanı atılmışdır (2, s.38-40; 14, s.58). Görüş zamanı ikitərəfli əməkdaşlığın genişləndirilməsi məsələləri və inkişaf perspektivlərini müzakirə etmişdilər.

YUNESKO-nun Nizamnaməsinin 7-ci maddəsinə görə, üzv-dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini YUNESKO-nun işi ilə əlaqələndirmək üçün ilk növbədə Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Ona görə də YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması üçün lazımi addımlar atılmış və 1994-cü il fevralın 21-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bununla əlaqədar Sərəncam imzalamışdır (4, s.31). Sərəncama əsasən Milli Komissiya Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nəzdində yaradılmış, Xarici İşlər Naziri onun sədri təyin edilmiş və eyni zamanda sədrə Milli Komissiyanın tərkibini müəyyən etmək səlahiyyəti verilmişdir. Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarla mədəniyyət sahəsində qurduğu geniş əməkdaşlıq əlaqələri ölkəmizin milli-mədəni ənənələrə sadiq qalaraq dünya sivilizasiyasına inteqrasiyası üçün əlverişli şərait yaratmışdı.

Bundan sonra Respublikanın müvafiq nazirlik və idarələrinin rəhbərlərindən, ziyalılardan və ictimaiyyətin digər nümayəndələrindən ibarət Milli Komissiyanın 25 nəfərlik tərkibi və daimi katibliyi formalaşdırılmışdır. 2005-ci il sentyabrın 15-də Azərbaycan Respublikasının

Prezidenti İlham Əliyev YUNESKO ilə Azərbaycan Respublikası arasında qarşılıqlı əlaqələrin inkişaf səviyyəsini nəzərə alaraq, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalamışdır (17). Sərəncama əsasən YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yeni tərkibi müəyyənləşdirilmişdir. Milli Komissiya Azərbaycanın YUNESKO-dakı siyasətinin əsas istiqamətlərini müəyyən edir. Azərbaycanın YUNESKO əməkdaşlığı ilə bağlı gündəlik operativ iş Bakıda Xarici İşlər Nazirliyinin nəzdində Milli Komissiyanın Daimi Katibliyi və Parisdə Azərbaycan Respublikasının YUNESKO yanında Daimi Nümayəndəliyi tərəfindən həyata keçirilir.

Azərbaycanla YUNESKO arasındakı əlaqələrin inkişaf etdirilməsində Ümummilli Lider Heydər Əliyevin bu ixtisaslaşmış qurumun baş direktoru Federiko Mayorla görüşləri mühüm əhəmiyyət kəsb edir. Keçirilən görüşlərdə Azərbaycanla bağlı təhsil, elm və mədəniyyət məsələləri geniş müzakirə edilmişdir. 1996-cı il noyabr ayının 18-də Azərbaycan Prezidenti Heydər Əliyev və YUNESKO-nun baş direktoru Federiko Mayor tərəfindən Azərbaycan Respublikası ilə YUNESKO arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır (4, s.32). Memorandumda respublikamıza təhsil, mədəniyyət və digər sahələrdə yardımların göstərilməsi nəzərdə tutulurdu. Burada Azərbaycanın mədəniyyət abidələrinin mühafizəsi və bərpası sahəsində əməkdaşlıq məsələləri də öz əksini tapmışdı. Azərbaycan–YUNESKO əməkdaşlığına dair imzalanmış saziş təhsil, elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlığın yeni mərhələsinin başlanğıcı idi. Təsadüfi deyil ki, məhz bundan sonra Azərbaycanda ali təhsilin TASIS və TEMPUS proqramlarına uyğun şəkildə yenidən qurulmasına dair iki layihə reallaşdırılmağa başlandı (9, s.563–569). 2000-ci il YUNESKO tərəfindən Böyük İpək Yolu – TRASEKA ili elan olundu.

Ümummilli Lider Heydər Əliyevin 1997-ci il sentyabrın 3-də YUNESKO-nun Baş direktoru Federiko Mayora ünvanladığı məktubunda YUNESKO-nun İnsanların Sülh Hüququ haqqında Bəyannaməsini qəbul edilməsi təklifini təqdirəlayiq hal hesab etdiyini və bəyannamə layihəsini dəstəklədiyini baş direktorun diqqətinə çatdırmışdı (1, c.12, s.69-70).

Azərbaycanın mədəni irsinin dünyaya çatdırılmasında növbəti addım Ümummilli Lider Heydər Əliyevin 1997-ci il aprelin 20-də “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin keçirilməsi ilə əlaqədar imzaladığı fərman olmuşdur (4, s.31). Yubiley çərçivəsində elmi, ictimai, siyasi və bədii nöqteyi-nəzərdən böyük işlər görülmüş və bütün bunları yüksək qiymətləndirən Ümummilli Lider “Kitabi-Dədə Qorqud” ensiklopediyasının nəşrini böyük nailiyyət adlandırmışdır.

Azərbaycan–YUNESKO əlaqələrinin inkişafında ən yaddaqalan və vacib məqamlardan biri 1996-cı ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500 illik, 2000-ci ildə isə “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileylərinin Azərbaycanda geniş şəkildə keçirilməsi ilə yanaşı, Parisdə YUNESKO-nun baş qərargahında da təntənə ilə qeyd edilməsi olmuşdur (4, s.31). Bu tədbirlər çərçivəsində Ümummilli Liderin şəxsi nüfuzuna görə 1996-cı ildə YUNESKO-nun Baş Direktoru Federiko Mayor, 2000-ci ildə YUNESKO-nun Baş Direktoru Koiçiro Matsuura Azərbaycana səfər etmiş və Ümummilli Lider Heydər Əliyevlə görüşmüşdülər.

Ümummilli Lider qeyd edirdi ki “Dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq mədəni əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz” (4, s.3). Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, incəsənətinə, elminə göstərdiyi yüksək diqqət və qayğını ehtiva edən siyasəti hazırda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

### Milli həmrəyliyin əsası olan azərbaycançılıq ideyasının birləşdirici amilə çevrilməsi

1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin ilk səsləndirdiyi "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!", yaxud, "Vətən birdir və hamı bu Vətən üçün çalışmalıdır!" çağırışı bu sahədəki fəaliyyətin əsas göstəricisi hesab oluna bilər. Ümummilli Lider Heydər Əliyev azərbaycançılıq ideologiyasını tarixi keçmişimizlə, xalqımızın adət-ənənələri, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olduğunu vurğulayırdı. Sovet ideologiyasının təsiri ilə dünyanın müxtəlif ölkələrinə səpələnmiş Azərbaycan diasporu yalnız ölkəmiz yenidən müstəqillik qazanandan sonra formalaşmağa və inkişaf yolunu tutmağa başladı. Bu baxımdan, XX əsrin 80-ci illərinin sonundan etibarən SSRİ-də aparılan yenidənqurma siyasəti və sosializm rejiminin süqutu xaricdə yaşayan azərbaycanlıların Vətənlə əlaqələr qurması üçün geniş imkanlar yaratdı.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycana əsassız ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlıq siyasəti və keçmiş SSRİ rəhbərliyinin onlara himayədarlığına öz qəti etirazını bildirən dinc insanlara qarşı sovet ordusunun xüsusi təlim keçmiş hissələrindən istifadə olunması 1990-cı il yanvarın 20-də qanlı faciəyə gətirib çıxardı. Milli azadlıq və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə silahlı təcavüz nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. 1990-cı ildə Bakıda 20 Yanvar və Azərbaycan tarixində ondan əvvəl baş vermiş faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Sovet rəhbərliyinin himayədarlığı ilə başlayan Qarabağ münaqişəsi, Azərbaycan xalqına qarşı soyqırımı və azərbaycanlıların indiki Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.

Bununla yanaşı,1990-cı ilin Qanlı 20 Yanvar hadisələri Azərbaycan xalqının milli həmrəyliyini nümayiş etdirən mühüm hadisələrdən biri kimi müasir tariximizə şərəf və qəhrəmanlıq səhifəsi kimi yazıldı. Sovet qoşunlarının 1990-cı il yanvarın 20-də Bakıya hərbi müdaxiləsi zamanı yalnız Ümummilli Lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, yanvarın 21-də siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəlmiş və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etmiş, sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi qırğın əməliyyatını pisləmiş və bu tarixi bəyanat dünyada yaşayan azərbaycanlıları səfərbər edərək ayağa qaldırmışdı (8, s.130).

Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq ideyası milli həmrəyliyi, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məfkurədir. Hələ SSRİ-nin mövcudluğu, həmin dövrün siyasi reallıqları və sovet ideologiyasının hakim olduğu dövrdə diaspor problemi ilə milli-ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verilməsə də, mədəniyyət, incəsənət, elm sahəsində ciddi iş aparılır, Respublikamızın nailiyyətləri təbliğ edilir, dünya azərbaycanlılarının tarixi Vətənlə əlaqəsinə xidmət edəcək hər bir imkandan səmərəli şəkildə istifadə olunurdu. Müxtəlif ölkələrlə mədəni əlaqələrin güclənməsi, xaricdə yaşayan həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyətinin ("Vətən" cəmiyyəti) yaradılması həmvətənlərimizin birliyinə və Vətənlə əlaqəsinə xidmət edən mühüm addımlardan idi (7, s.441). İlk növbədə, həmin dövrdə Respublikamızın hərtərəfli inkişafı həmvətənlərimizdə milli qürur hissi oyadaraq onlarda Vətənə maraq və bağlılığı artırırdı. Hələ XX əsrin 70–80-ci illərində Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev böyük uzaqgörənliklə qətiyyət və müdriklik nümayiş etdirərək xalqımızın tarixi yaddaşının qorunmasına, o cümlədən Azərbaycanın bütün dünyada tanınmasına çalışırdı. Məhz Ümummilli Lider Heydər Əliyevin diqqəti sayəsində həmin dövrdə yüzlərlə azərbaycanlı SSRİ-nin

ən nüfuzlu təhsil ocaqlarında təhsil almaq imkanı əldə etdi.

Qeyd etmək lazımdır ki, hər bir dövlətin milli-mənəvi sərvəti, əsas təsir qüvvəsi və təbliğatçılıq fəaliyyətində mühüm amil kimi güvənə biləcəyi strateji silahlardan sayılan diaspor məsələsi bu gün də beynəlxalq münasibətlər sistemində əsas amillərdən sayılır. Məhz diaspor siyasəti hər bir dövlətin öz mədəniyyətini, dilini, tarixini, adət-ənənəsini təbliğ etmək yolunda əhəmiyyət verdiyi əsas amillərdəndir.

Bu baxımdan, 1990-cı illərdə Ümummilli Lider Heydər Əliyev azərbaycançılıq ideyasına müraciət edərək onu milli və birləşdirici təlimə çevirməyə çalışmış, məhz onun müstəqil Azərbaycan dövlətinə rəhbərliyi dövründə azərbaycançılıq ideyası məzmunca tamamlanaraq və zənginləşdirilərək, yeni konfiqurasiyada rəsmi dövlət siyasəti səviyyəsində ölkə vətəndaşlarının və bütün dünya azərbaycanlılarının birləşdirici, eləcə də səfərbəredici milli ideyası statusuna qaldırılmışdır. Onu da qeyd etmək vacibdir ki, 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətidir. Məhz 1991-ci il dekabrın 16-da Ümummilli Liderin təşəbbüsü əsasında Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" qərar qəbul etmiş, bu hadisə Azərbaycanlıların mənəvi birliyinin rəmzinə çevrilərək əlamətdar bayram kimi ilk dəfə Naxçıvanda geniş qeyd olunmuşdur (27).

Heydər Əliyev azərbaycançılıq ideologiyasını müəyyən edərkən həm də beynəlxalq aləmdə cərəyan edən hadisələri, müasir dünya siyasətinin, qloballaşan və transmilliləşən dünyanın inkişaf meyllərini nəzərə alırdı. Ümummilli Liderin sistemləşdirdiyi azərbaycançılıq ideologiyası təkcə ölkəmizin ərazisində yaşayan insanları yox, eyni zamanda bütün dünyada məskunlaşan azərbaycanlıları səfərbər edərək dünyaya səpələnmiş soydaşlarımızın milli istinad mənbəyinə çevrildi. Azərbaycançılıq ideologiyası da məhz buradan qaynaqlanır və bu ideologiya bütün dünyada yaşayan soydaşlarımızı bir amal uğrunda birləşdirir.

Bu baxımdan, milli həmrəyliyin və birliyin ideoloji əsası olan azərbaycançılıq ideyası Ümummilli Lider Heydər Əliyev tərəfindən formalaşdırılmışdır. Yalnız Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Respublikası dünya azərbaycanlılarının mənafe və maraqlarının təminatçısı olduğunu rəsmən bəyan etdi və məhz Ümummilli Lider ilk dəfə olaraq, xaricdə yaşayan azərbaycanlılarla dövlət səviyyəsində sistemli iş aparmağa başladı. Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, o cümlədən beynəlxalq əlaqələrin qurulmasında və genişləndirilməsində diasporun əhəmiyyətini dəyərləndirən zəngin təcrübəyə malik, dövlət xadimi Heydər Əliyevin ABŞ, Almaniya, Fransa, Türkiyə, Böyük Britaniya, Rusiya, Çin və digər ölkələrə işgüzar səfərlərində, oradakı həmvətənlərimizlə görüşlərdə səsləndirdiyi fikirlər həm ölkə vətəndaşları, həm də Azərbaycan diasporu üçün səmərəli fəaliyyət proqramı kimi bu gün də mühüm əhəmiyyət kəsb edir (27).

Azərbaycançılıq ideyasını Heydər Əliyev həm də ölkədaxili ictimai-siyasi qüvvələrin, sosial, milli və dini qrupların birləşdirici amili kimi dəyərləndirirək qeyd etmişdir ki, "Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" (1, c.36, s.198). Heydər Əliyev milli ideologiyamızın əsasını müəyyənləşdirməklə bərabər, bilavasitə onun həyata keçirilməsini də təmin edirdi ki, bu da onun dövlət başçısı olmasından əlavə, həm də milli lider kimi üzərinə götürdüyü missiyaya necə böyük məsuliyyətlə yanaşmasını təsdiq edirdi (11, s.87). Heydər Əliyev azərbaycançılıq ideyasına tamamilə yeni bir məzmun verərək onu Azərbaycanın milli-etnik xüsusiyyətlərinə, müasir dövrün tələblərinə və dünyanın müasir şəraitinə uyğunlaşdırdı.

Diaspor quruculuğu işində yaxından köməklik göstərən və xaricdə yaşayan soydaşlarımızın milli-mənəvi dəyərlər, milli həmrəylik və azərbaycançılıq ideyası prinsipləri kontekstində formalaşmasına çalışan Ümummilli Lider Heydər Əliyevin diaspor məsələlərinə xüsusi diqqət yetirməsi və bu sahədə vahid dövlət

siyasətinin həyata keçirilməsi həmvətənlərimizin təşkilatlanması prosesini sürətləndirmişdir. Bu baxımdan, Azərbaycançılıq ideyasının, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi üçün dünyaya səpələnmiş soydaşlarımızın Vətənlə əlaqələrinin, xüsusilə ölkəmizin bütün məsələlərdə milli maraqlarının və tarixən formalaşmış mənəvi dəyərlərinin qorunması məqsədilə diaspor quruculuğu sahəsində bir sıra mühüm addımlar atılmışdır.

Bu baxımdan, Ümummilli Liderin 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında 23 may 2001-ci il tarixli Sərəncamı diaspor quruculuğu sahəsində həlledici mərhələ oldu (27). Bu fəaliyyətin nə qədər ciddi və geniş miqyaslı olduğunu "Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi bir daha təsbit etdi. Ümummilli Liderin 2002-ci il dekabrın 27-də imzaladığı Fərman diaspor siyasətinin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən etdi. Qanunda Azərbaycan diasporu ilə bağlı təsbit olunmuş maddələrin səmərəliliyinin artırılması, diasporumuzun təşkilatlanması, dünya azərbaycanlılarının birliyinin yaranması, dövlətimizin bu sahədə apardığı siyasətin təbliğinə nail olmaq kimi konkret məqsəd və vəzifələr yer alır.

2002-ci il iyulun 5-də isə Ümummilli Lider Heydər Əliyev "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" imzaladığı Fərman Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyət kəsb edən mühüm tarixi sənəd olmuşdur (15). 2008-ci il noyabrın 19-da isə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradılmışdır (16).

Qeyd etmək lazımdır ki, Azərbaycanın sərhədlərindən, eləcə də tarixi torpaqlarından kənarda yaşayan soydaşlarımızın Vətəndən uzaqda milli həmrəylik ətrafında birləşdirilməsi, eləcə də diaspor quruculuğu sahəsində dövlət siyasətinə xidmət edəcək belə bir Komitənin yaradılması məhz Ümummilli Liderin uzaqgörən şəxsiyyət olması ilə yanaşı, dünya ölkələri üçün də bir nümunəyə çevrildi.

Nəticədə, dövlətimizin Azərbaycan diasporunun daha sıx təşkilatlanması istiqamətindəki fəaliyyəti, Bakıda dünya azərbaycanlılarının dörd qurultayının keçirilməsi, xaricdə yaşayan həmvətənlərimizlə iş üzrə ayrıca dövlət qurumunun təsis olunması ilə soydaşlarımızın tarixi Vətənlə əlaqələrinin güclənməsinə mühüm zəmin yaratmış, azərbaycançılıq məfkurəsi, milli həmrəylik, Azərbaycanın milli maraqlarının və mənəvi dəyərlərinin qorunmasına nail olmaqla ölkəmizin dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir.

Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə həyata keçirilən tədbirlər məhz Ümummilli Liderin adı və onun fəaliyyəti ilə bağlı olmuşdur. Ümummilli Lider çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və müdrik siyasi xadim kimi bir sıra çətin, eləcə də mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmək bacarığı nümayiş etdirmişdir. Həmin dövrdə Azərbaycanda bütün sahələrdə ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş bir sıra mühüm addımlar atılmış, eləcə də bu nailiyyətlər o vaxt hakimiyyətdə olan Ümummilli Liderin rəhbərliyi, həmçinin prinsipiallığı nəticəsində mümkün olmuş və dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın milli maraqlarını hər zaman uca tutmuşdur.

Bu gün ideoloji dəyərləri, Azərbaycanın milli maraqlarını hər zaman uca tutan dahi şəxsiyyət, görkəmli dövlət xadimi Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş azərbaycançılıq, milli birlik və həmrəylik ideyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qorunur və uğurla inkişaf etdirilir. 2016-cı il iyunun 3-də Bakıda dövlət başçısının təşəbbüsü ilə keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayında 49 ölkədən 500-dən çox diaspor nümayəndəsi və qonaq iştirak edirdi (18). Bu qurultay dünyanın

müxtəlif ölkələrinə səpələnmiş 50 milyon nəfərdən artıq azərbaycanlının bir araya gəlməsində mühüm rol oynayaraq azərbaycançılığın böyük tarixi imkanlara, birləşdirmə, səfərbər etmə gücünə malik olduğunu bir daha sübut etmiş oldu.

**Azərbaycanın müasir xarici siyasəti və İkinci Qarabağ müharibəsində hərbi-diplomatik uğurları**

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu (20).

2020-ci il noyabrın 8-i isə tariximizə ən şanlı bir gün kimi yazıldı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

Vətən müharibəsinin 44 günü ərzində dövlətimiz, beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərinin, 17-də Füzuli şəhərinin, 20-də Zəngilan şəhərinin, 25-də Qubadlı şəhərinin işğalçılardan azad olunması ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnaməni özü icra etdi (21).

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi (31). Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi (19). Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir (21).

Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı Sərəncamında vurğulanır ki, şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, bu mühüm sənəddə göstərilir ki, tarixi-mədəni əhəmiyyəti və Azərbaycan

xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir (22).

2021-ci il mayın 12-13-də hər bir azərbaycanlı üçün müqəddəs məkanda, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, bənzərsiz və füsunkar Cıdır düzündə 29 ildən sonra yenidən "Xarıbülbül" musiqi festivalı keçirildi. Nəticədə, Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı, Xarıbülbül Qarabağın azadlıq rəmzinə çevrildi.

2021-ci il avqustun 30-da isə 1982-ci ildə ilk dəfə keçirilmiş Vaqif poeziya günləri Şuşa işğaldan azad edildikdən sonra ilk dəfə yenidən təşkil olundu. Həmin gün Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir", eləcə də bərpa və təmir olunaraq yaradılan Şuşadakı Xalçaçılıq Qalereyasında "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" sərgiləri keçirildi. Bununla yanaşı, Azərbaycanın qədim tarixini, zəngin mədəniyyətini, gözəl təbiətini, ənənələrini təcəssüm etdirən "Yaddaş. Fotoqrafik tarix" adlı fotosərgi nümayiş olundu.

2021-ci il sentyabrın 18-də ilk dəfə Şuşada Milli Musiqi Günü çərçivəsində Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti keçirildi (23). Xatırladaq ki, 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada ucaldılmış bəstəkarın heykəli 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı tamamilə məhv edilmişdi. Artıq işğaldan azad edilmiş Şuşa şəhərində görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəli Azərbaycanın mədəniyyət paytaxtında öz əvvəlki yerində ucaldılmışdır (24).

Bununla yanaşı, 2022-ci il martın 31-də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçildi (25).

Qeyd etmək lazımdır ki, 2022-ci il aprelin 22-23-də dünyanın 65 ölkəsindən 400-dən çox soydaşımızı bir araya gətirən Dünya Azərbaycanlılarının Zəfər Qurultayının məhz Qarabağın tacı, mədəniyyət paytaxtı Şuşada keçirilməsi böyük rəmzi, həmçinin siyasi məna daşıyır. Qeyd etmək lazımdır ki, Zəfər Qurultayında 230-a yaxın xarici ölkə vətəndaşı olan azərbaycanlı, o cümlədən 36 alim və 36 iş adamı iştirak etmişdir (26).

Artıq işğaldan azad edilmiş Şuşada keçirilən mühüm tədbirlər – "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri, Azərbaycan-BMT tərəfdaşlığının 30 illiyinə həsr olunmuş toplantı, Dünya Azərbaycanlılarının V Zəfər Qurultayı, "Cənubi Qafqaz: İnkişaf və Əməkdaşlıq" adlı beynəlxalq forum, Beynəlxalq Kulinariya Festivalı, "Münaqişədən sonrakı humanitar gündəliyin inkişafı: mədəni mühitin canlandırılması yolu ilə davamlı inkişaf" mövzusunda beynəlxalq konfrans və digər tədbirlər dünya ictimaiyyəti tərəfindən də böyük maraqla izlənilmişdir.

Bu baxımdan qeyd etmək lazımdır ki, Azərbaycanın milli maraqlarını uca tutan, Prezident İlham Əliyevin prinsipial mövqeyi hərb, diplomatiya meydanında olduğu kimi, informasiya savaşında da uğurlarımızı şərtləndirirdi və tarixi Qələbəmizin əsası qoyuldu.

Bununla yanaşı, hazırda bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun ən çox inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin etmişdir. Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş və milli maraqlara söykənən xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Müasir dövrdə Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.

Hazırda, Azərbaycanın qlobal miqyasda qazandığı uğurlar və tarixi nailiyyətlər ölkə daxilində milli birliyin təmin olunmasına, dün-

ya azərbaycanlıları arasında həmrəyliyin güclənməsinə təkan vermiş, xüsusilə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı daha da ruhlandıraraq ölkəmizin milli maraqları ətrafında sıx birləşməsinə zəmin yaratmışdır. Bütün bunlar onu deməyə əsas verir ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursu Prezident İlham Əliyevin davam və inkişaf etdirməsi, eləcə də dinamik, çoxşaxəli və milli maraqlara əsaslanaraq həyata keçirilən dövlət siyasəti nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin etmişdir.

**Ədəbiyyat:**


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Bakı, 1997-2013-cü illər. Elektron külliyat. - https://heydaraliyev.preslib.az/musteq.html
2. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır /tərtibçi - Şükürov İ/. Bakı, 1994, 175 s.
3. İlham Əliyev. İnkişaf - məqsədimizdir. /çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər/. 1-123-cü kitablar. Bakı, 2008-2022-ci illər. Elektron külliyat. - https://ilhamaliyev.preslib.az/.
4. Azərbaycan – YUNESKO: insan hüquqlarına əsaslanan tərəfdaşlıq / BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman); tərt. Rumzadə R. F. Bakı, 2014, 287 s.
5. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: Etnik təmizləmə, soyqırım, terror, işğal. II kitab. Bakı, 2015, 408 s.
6. Əhmədov E. Şuşa – Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı /Yeniləşdirilmiş və təkmilləşdirilmiş ikinci nəşr/. Bakı, 2022, 472 s.
7. Qasımlı M. Heydər Əliyev - istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, 2006, 608 s.
8. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti: 1991-2003: 2 hissədə. I hissə. Bakı, 2015, 648 s.
9. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti: 1991-2003: 2 hissədə. II hissə. Bakı, 2015, 664 s.
10. Qasımlı M. Ermənistanın sovetləşməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix - olduğu kimi (1920-1994-cü illər). Bakı: 2016, 520 s.
11. Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001, 358 s.
12. Brief information of the history of Garabagh. Heydar Aliyev Foundation presents. The series of "The true facts about Garabagh". Baku, 2005, 12 p.
13. Musayev T. From territorial claims to blligerent occupation: legal appraisal. – "World of Diplomacy" Journal, №18-19, 2008, p.30-49.
14. Микеладзе Г.А. Гражданский подвиг Рамиза Абуталыбова: пути и судьбы эмиграции. Баку, 2010, 72 с.
15. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. - 05.07.2002. - https://azertag.az/xeber/ 963813
16. Azərbaycan Respublikasinin Diaspor ilə İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikasi Prezidentinin Sərəncami. - 19.11.2008. - https://azertag.az/xeber/424712
17. YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağli əlavə tədbirlər haqqinda Azərbaycan Respublikası Prezidentinin Sərəncamı - 15.09.2005. - https://azertag.az/xeber 1050436
18. Bakıda Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılış mərasimi. - 03.06.2016. - https://azertag.az/xeber/VIDEO-957111
19. Azərbaycan hərbi-diplomatik uğurları ilə

BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin icrasını da təmin etdi. – 26.11.2020. - https://azertag.az/xeber/1651629
20. İşğaldan azad edilmiş şəhər və kəndlərimiz. - 01.12.2020. - https://azertag.az/xeber/1622227.
21. 2020-ci il sentyabrın 27-dən Azərbaycanın işğal olunmuş ərazilərində aparılan əks-hücum əməliyyatları ilə bağlı mühüm hadisələrin xronikası. - https://files.preslib.az/site/qarabag/xronika_az.pdf.
22. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı - 07.05.2021. - https://azertag.az/xeber/ 1775545
23. Şuşada Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının konserti keçirilir. – 18.09.2021. - https://azertag.az/xeber/ 1879213
24. Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanışlıq. - 29.08.2021. - https://azertag.az/xeber/ VIDEO-1863605
25. Şuşa şəhəri “Türk dünyasının mədəniyyət paytaxtı” seçilib. - 31.03.2022. - https://azertag.az/xeber/2072408
26. Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı. - 22.04.2022. - https://azertag.az/xeber/VIDEO-2104946
27. Azərbaycanın milli maraqlarını və həmrəyliyini hər zaman uca tutan görkəmli dövlət xadimi. – 10.05.2022. - https://azertag.az/xeber/2127029
28. Azərbaycanın milli maraqlarını hər zaman uca tutan dahi şəxsiyyət, görkəmli dövlət xadimi. – 14.07.2022. - https://azertag.az/xeber/2214974
29. Basic Facts About the United Nations. New-York, 2000, 346 p.
30. United Nations. Handbook 2001, 390 p.
31. Statement by the President of the Republic of Azerbaijan, Prime Minister of the Republic of Armenia and President of the Russian Federation. – 10 november 2020.- https://en.president.az/articles/45923

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Heydər Əliyev, görkəmli dövlət xadimi, milli maraqlar, milli-mənəvi dəyərlər, xarici siyasət, Qarabağ, milli həmrəylik*

**Elchin Ahmadov**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Head of the "Karabakh Heritage Research Center" Professor, Dr. of Political Sciences***

# HEYDAR ALIYEV AND AZERBAIJAN'S STATE POLICY BASED ON THE NATIONAL INTERESTS

## ABSTRACT

The state policy based on the national interests of our country during the period of national leader Heydar Aliyev's leadership of Azerbaijan (1969–1982, 1993–2003) is studied in the article. Firstly, prominent statesman Heydar Aliyev's struggle against groundless territorial claims of Armenians in 1967–1987 is extensively analyzed in the article. At the same time, National Leader Heydar Aliyev's determined activities toward the rise of the national spirit in Karabakh are studied. The article also analyzes the National Leader's activity in terms of protecting national moral values and statehood interests. In addition, from 1993–2003, Heydar Aliyev's new foreign policy strategy based on national interests was studied. What is more, the role of the national leader in establishing and expanding Azerbaijan's international cultural relations is analyzed. Also, the idea of Azerbaijanism, the basis of national solidarity and unity, is explored in the article. During the period of National Leader Heydar Aliyev's leadership in the Republic, several essential issues aimed at protecting the national interests and the advantages of our country were studied widely. It is shown that, as a wise political figure, Heydar Aliyev successfully coped with a number of challenging and complex tasks.

***Keywords:*** *The Republic of Azerbaijan, Heydar Aliyev, prominent statesman, national interests, national moral values, foreign policy, Karabakh, national solidarity*

**Эльчин Ахмедов**

***Руководитель «Центра Исследования Наследия Карабаха» Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор политических наук, профессор***

# ГЕЙДАР АЛИЕВ И ОСНОВАННАЯ НА НАЦИОНАЛЬНЫХ ИНТЕРЕСАХ ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

В статье исследуется государственная политика, основанная на национальных интересах нашей страны в период, когда Азербайджаном руководил Общенациональный лидер Гейдар Алиев (1969-1982; 1993-2003 гг.). Прежде всего, широко анализируется борьба видного государственного деятеля Гейдара Алиева против необоснованных территориальных притязаний армян в 1967-1987 годах. В то же время изучается деятельность Общенационального лидера Гейдара Алиева в направлении поднятия национального духа в Карабахе. Наряду с этим, в статье анализируется деятельность Общенационального лидера в направлении защиты национально-нравственных ценностей и интересов государственности.

Кроме того, исследуется новая внешнеполитическая стратегия Гейдара Алиева, основанная на национальных интересах, в 1993-2003 годах. Анализируется роль Общенационального лидера в установлении и расширении международных культурных связей Азербайджана. Также в статье исследуется идея азербайджанства, которая является основой национальной солидарности и единства. Широко исследуется ряд важных вопросов, направленных на защиту национальных интересов во всех сферах в Республике во времена, когда Общенациональный лидер Гейдар Алиев руководил Азербайджаном. Показывается, что Гейдар Алиев как мудрый политический деятель продемонстрировал способность успешно справляться с рядом трудных и сложных задач.

***Ключевые слова:*** *Азербайджанская Республика, Гейдар Алиев, видный государственный деятель, национальные интересы, национальные нравственные ценности, внешняя политика, Карабах, национальная солидарность*

DOI:10.30546/dia.2.82.2023.75


UOT 005; 007; 35; 658; 338
UOT 351

**RƏCƏB RƏHİMLİ**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*"Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müdiri,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
*e-mail: rehimli@yahoo.com*

# AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QULLUĞU SİSTEMİNİN FORMALAŞMASI: PRİORİTET İSTİQAMƏTLƏR VƏ TRENDLƏR

## Giriş

XX əsrin 80-ci illərinin ikinci yarısı və 90-cı illərinin əvvəllərində iki sistem – kapitalist və sosialist inkişaf yolları arasında kəskinləşən ziddiyyətlər dünya geosiyasi məkanında ön plana çıxdı və onlar arasında soyuq müharibə, silahlanma yarışı pik həddə çatdı. Planlı sosialist iqtisadiyyatı və Kommunist Partiyasının rəhbərlərinin komanda-inzibati idarəetmə sistemi dünyada baş verən inkişaf proseslərində rəqabətə tab gətirə bilmədi və köhnəlmiş idarəetmə üsulları texnoloji və təşkilati baxımdan açıq-aşkar geridə qaldı. Sovet dövlətinin durğun idarəetmə siyasəti nəticəsində illər boyu yığılıb qalmış problemlər öz həllini tapmırdı, insanların həyat səviyyəsi və keyfiyyəti dönməz şəkildə aşağı düşürdü. Sovet İttifaqına üzv olan dövlətlər yaranmış vəziyyətdən çıxış yolu kimi İttifaqdan çıxmaq və öz müstəqil dövlətlərini qurmaqda görürdülər. Ümumiyyətlə, bəşər tarixi bir həqiqəti sübut edir ki, dövlətlər üçün strateji və cari məqsədlər, vəzifələr və fəaliyyət sahələri müxtəlif vaxtlarda fərqli olsa da, hər bir millət və dövlət üçün dəyişməz və sarsılmaz dəyərlər var: bunlar azadlıq və müstəqillikdir. 1991-ci ilin oktyabrın 18-də Azərbaycan Ali Sovetin sessiyasında Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi və ölkəmiz suveren gənc dövlət kimi dünya birliyinin üzvü oldu. Əfsuslar olsun ki, müstəqilliyin ilk illərində dövlətə rəhbərlik edən naşı siyasətçilər ölkəni xaosa, anarxiyaya sürüklədilər və nəticədə 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhv olmaq təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə gətirildi. Belə bir vəziyyətdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı bu təhlükəli vəziyyətdən çıxara bildi. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə əsl dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.

## Heydər Əliyevin dövlət quruculuğu konsepsiyası

1993-cü il iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyəti Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevə həvalə olundu. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini qəbul etdiyi andan Heydər Əliyev, ilk növbədə, onun gələcək siyasi kursunun əsas konturlarını müəyyən etməli idi. O dövrdə Azərbaycan cəmiyyətinin və dövlətinin inkişafını nəzərə alsaq, bu, kifayət qədər çətin iş idi.

Ölkə siyasi təlatümlər içində idi. Daxili çəkişmələr, erməni təcavüzü yenicə dövlət müstəqilliyinə qovuşmuş Azərbaycanı çətin sınaqlara çəkirdi. Ölkə rəhbəri kimi Heydər Əliyevin qarşısında həlli vacib məsələlər dururdu. Heydər Əliyev Azərbaycanı bütün lazımi atributlara malik suveren dövlət kimi formalaşdırıb beynəlxalq birliyə tanıtmalı, ölkənin gələcək inkişafı üçün ciddi siyasi, iqtisadi, sosial-mədəni əsaslar yaratmalı və Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri sırasına daxil olması üçün aydın strateji istiqamətlər müəyyən etməli idi. Bundan əlavə, millətlərarası və konfessiyalararası harmoniya ilə seçilən milli dəyərlər sistemi formalaşmalı və qorunmalı idi. Çoxvektorlu prinsip əsasında Azərbaycan regional və qlobal səviyyədə beynəlxalq proseslərdə rolunu və iştirakını gücləndirməyə hesablanmış fəal xarici siyasət aparılmalı idi. Zaman göstərdi ki, o dövrdə Azərbaycanda bu çətin vəzifələrin öhdəsindən gələ biləcək yeganə ictimayi-siyasi xadim Heydər Əliyev idi. 1993-cü il oktyabrın 3-də keçirilən Prezident seçkilərində seçicilərin 98,8 faizi Heydər Əliyevə səs verərək, ölkənin taleyini ona həvalə etdi. Bundan sonra ölkədə möhkəm ictimai-siyasi sabitlik yaradıldı, Qarabağ münaqişəsində atəşkəsə nail olundu ki, nizami ordu quruculuğu həyata keçirildi. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı, 1995-ci ilin Mart çevriliş cəhdinin qarşısı qətiyyətlə alındı. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. Ən əsası, uğurlu dövlət quruculuğu prosesinin əsası qoyuldu.

1995-ci il noyabrın 12-də Heydər Əliyevin müəllifi olduğu müstəqil Azərbaycanın ilk Konstitusiyası ümumxalq səsverməsi – referendumla qəbul edildi və 1995-ci il noyabrın 27-də qüvvəyə mindi. Sonrakı illərdə Azərbaycan Respublikasında gedən iqtisadi inkişafdan, ölkədə vətəndaşların hüquq və azadlıqlarının qorunması, dövlət strukturlarının təkmilləşdirilməsi, Silahlı Qüvvələrin gücləndirilməsi, respublikanın təhlükəsizlik sisteminin möhkəmləndirilməsi, vətəndaşların məhkəmələrə özlərinin hüquqlarının qorunması üçün müraciətlərinin tam şəkildə təmin edilməsi, o cümlədən seçkili orqanlarda iştirak və burada olan baryerlərin aradan qaldırılması zərurətindən 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumlarda Konstitusiyaya əlavə və dəyişikliklər edildi. Konstitusiyanın 55-ci maddəsi vətəndaşlara dövlətin idarə olunmasında iştirak etmək hüququ da verirdi ki, bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərdilər. Bundan əlavə, həmin maddədə qeyd edilirdi ki, Azərbaycan Respublikasının vətəndaşları dövlət orqanlarında qulluq etmək imkanına malikdirlər. Dövlət orqanlarının vəzifəli şəxsləri Azərbaycan Respublikasının vətəndaşları sırasından təyin edilirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər dövlət qulluğuna qanunla müəyyənləşdirilmiş qaydada qəbul edilə bilərlər. Konstitusiyada həmçinin dövlət hakimiyyətinin üç qolu – qanunvericilik, icra və məhkəmə hakimiyyəti də təsbit edildi.

Heydər Əliyevin ölkədə demokratik dövlət quruculuğu sahəsində həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasəti nəticəsində 1996-cı il 17-18 mart tarixlərində keçirilən Avropa Şurasının Qanun vasitəsilə Demokratiya üzrə Avropa Komissiyasının (Venesiya Komissiyası) iclasında Azərbaycan bu komissiyaya üzv qəbul edildi və 1996-cı ilin iyun ayında AŞPA Bürosu Azərbaycanın demokratik dövlət quruculuğu istiqamətində səylərini nəzərə alaraq, ölkəyə "xüsusi dəvət olunmuş qonaq" statusunun verilməsi haqqında qərar qəbul etdi. 1996-cı il sentyabrın 11-də AŞ Nazirlər Komitəsinin 573-cü iclasında Azərbaycanın Avropa Şurasına daxil olması, Azərbaycanda demokratiyaya keçid prosesinin sürətləndirilməsi məqsədilə Azərbaycan hakimiyyət dairələri ilə danışıqların intensivləşdirilməsi, əməkdaşlıq proqramları formasında yardımın edilməsini nəzərdə tutan (96) 32 saylı qətnamə qəbul edildi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda 1993-cü ildən ölüm cəzasına moratorium qoyuldu, 1998-ci ildə isə ləğv edildi. Ölüm cəzasının ləğvi və cəza siyasətinin




**Sxem 1.** Dövlətin kadr siyasəti: prinsiplər, məqsədlər, vəzifələr.
Sxem müəllif tərəfindən formalaşdırılmışdır.

humanistləşdirilməsi Azərbaycanın Avropa ailəsinə qoşulmasını təmin edən mühüm amillərdən biri oldu.

Heydər Əliyev tərəfindən dövlət idarəçilik sisteminin formalaşdırılmasında atılan növbəti addım 1996-cı il dekabrın 29-da Hüquqi islahatlar komissiyasının yaradılması oldu. Bu Komissiya ilkin mərhələdə reallaşdırılacaq hüquqi islahatların prioritetlərini müəyyən etdi və Sovet İttifaqından miras qalmış hüquq sisteminin fəlsəfəsini tamamilə dəyişdirdi. Heydər Əliyev yalnız qanunlar qəbul edilməsinə deyil, onların həyata keçirilməsinə də xüsusi qayğı göstərirdi. 1998-ci ildə respublikada ilk dəfə olaraq Konstitusiya Məhkəməsi yaradıldı. "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət proqramı" təsdiq edildi və reallaşdırılmağa başlanıldı. Azərbaycan dövlətçiliyinin inkişafında bələdiyyələr haqqında qanun qəbul edildi və bələdiyyə institutunun fəaliyyətə başlaması da yeni hadisə oldu. 2002-ci il iyulun 2-də Heydər Əliyevin təqdimatı ilə Milli Məclis İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) seçdi. Azərbaycan Respublikasının beynəlxalq

konvensiyalara qoşulması, yerli hüquqi sənədlərin beynəlxalq standartlara uyğunlaşdırılması da mühüm əhəmiyyət kəsb etdi.

**Heydər Əliyevin idarəçi kadr hazırlığı strategiyası**

Sovet dövründə Ümummilli Lider Heydər Əliyev dövlət aparatının milliləşdirilməsi, Azərbaycanda yeni idarəçi kadrların hazırlanması işinə böyük diqqət ayırırdı. Ölkəyə rəhbərlik etdiyi 1969-1982-ci illərdə keçmiş SSRİ-nin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına şərait yaratmışdı. Həmin mütəxəssislər sonradan Azərbaycanın inkişafında mühüm rol oynamış və bu gün də həmin missiyanı davam etdirirlər. Heydər Əliyev Azərbaycanın gələcəyini yüksək təhsil almış gənclərin, mütəxəssislərin simasında görür, ona görə də bu məsələlərə xüsusi əhəmiyyət verirdi [13].

Ölkədə dövlət aparatının səmərəli fəaliyyət göstərməsi üçün yüksək ixtisaslı idarəçi kadrlara ehtiyac duyulurdu. Bu məqsədlə dövlət idarəçilik sahəsi üçün mütəxəssis hazırlanması işinin müasir tələblərə uyğun qurulması üçün Heydər Əliyev 1999-cu il yanvarın 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması haqqında 60 saylı Fərman imzaladı [3]. Ölkədə ilk dəfə Prezident yanında yaradılan bu təhsil müəssisəsinin üzərinə həlli vacib olan məsələlər – Azərbaycan Respublikasında dövlət qulluqçularının hazırlanması və əlavə təhsilinin həyata keçirilməsi məsələləri vəzifə kimi qoyuldu. Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının fəaliyyətinin əsas istiqamətlərini müəyyən etdi:

Sonrakı illərdə Prezident İlham Əliyev tərəfindən Akademiyanın fəaliyyətinin daha da təkmilləşdirilməsi məqsədi ilə 2014-cü il dekabrın 11-də “Dövlət qulluqçularının əlavə




**Sxem 2.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının fəaliyyət istiqamətləri
(elektron resurs: https://e-qanun.az/framework/1756 müraciət vaxtı: 10.02.2023)

təhsili ilə bağlı bəzi məsələlər haqqında" Fərman imzalandı. Fərmanda deyilirdi: "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası dövlət qulluqçuları üçün ixtisasartırma və yenidənhazırlanma növləri üzrə əlavə təhsili təşkil etsin. Dövlət İdarəçilik Akademiyasında təşkil olunan ixtisasartırma və yenidənhazırlanma növləri üzrə əlavə təhsil dövlət sifarişi əsasında dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir, ixtisasartırma və yenidənhazırlanma növləri üzrə əlavə təhsilə cəlb olunan dövlət qulluqçularının təhsil aldıqları müddətdə əmək haqları saxlanılır". Ölkə Prezidenti bu Fərmanla Prezident Administrasiyasına da tapşırıqlarını vermişdir. Belə ki, Fərmanın 2.1-ci bəndində nəzərdə tutulmuş dövlət sifarişinin təşkili və icrası işinin əlaqələndirilməsi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına həvalə edilmişdi. Prezident Administrasiyası hər il ixtisasartırma növü üzrə əlavə təhsilə cəlb olunan dövlət qulluqçularının siyahısını və sayını müəyyən etməli, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə birlikdə ixtisasartırma və yenidənhazırlanma növləri üzrə əlavə təhsilin həyata keçirilməsini təmin etmək üçün lazımi tədbirlər görməlidir [6]. Bundan əlavə, Prezident İlham Əliyev Dövlət İdarəçilik Akademiyasının fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün 2017-ci il sentyabrın 22-də Fərman imzaladı. Fərmanda Dövlət İdarəçilik Akademiyası dövlət idarəçiliyi və icra hakimiyyəti orqanları üçün müvafiq ixtisaslar üzrə mütəxəssis hazırlığını və əlavə təhsili həyata keçirən aparıcı tədris, metodik, elm və analitik informasiya mərkəzi kimi dəyərləndirilmişdir[7, s.30-31].

Ümumiyyətlə, dövlət idarəçiliyi üçün kadr hazırlığının tarixinə nəzər salsaq görərik ki, hələ 1906-cı ildə V.Ulyanovun təşkil etdiyi partiya silahdaşlarının ideoloji hazırlığı dərnəkləri və Paris ətrafında kiçik Lonjyumo (*Lonjumoda partiya məktəbi. "Longjumeau" - Paris yaxınlığında bir yer*) [21] şəhərciyində 1911-ci ilin baharında ilk Partiya məktəbində kadr hazırlığı həyata keçirilirdi. Sovet dövründə Ali Partiya Məktəbi ilə yanaşı 11 fevral 1921-ci ildə "Qırmızı professorların hazırlanması üçün institutların yaradılması haqqında" fərman da imzalanmışdır. İnstitutların yaradılması Moskvada və Petroqradda nəzərdə tutulsa da, müəllim çatışmazlığı səbəbindən 1921-ci ilin oktyabrında yalnız Moskvada açılmışdır. İlk buraxılış 1924-cü ildə baş tutdu. Sovet İttifaqında bir müddət Qırmızı Professorlar İnstitutunu bitirdikdən sonra professorluq dərəcəsi verilirdi. 30-cu illərin ikinci yarısında dərəcənin verilməsi qaydaları sərtləşdi [22].

O dövrdə Azərbaycanda da ilk yüksək tipli siyasi təhsil müəssisəsi 1921-ci ilin dekabrında Mərkəzi Sovet Partiya Məktəbi adı altında təşkil edildi. Bu məktəb 1928-ci ildə Bakı partiya komitəsi nəzdində olan Ali Sovet Partiya məktəbi ilə birləşərək 2 illik, 1954-cü ildən isə 3 illik proqramlar əsasında fəaliyyətini davam etdirdi. Məktəbin xüsusi fakültəsində Cənubi Azərbaycandan, Bolqarıstan Xalq Respublikasından, Gürcüstan və Dağıstandan tələbələr təhsil alırdılar. Bakı Ali Partiya Məktəbinin varisi olan Bakı Dövlət Sosial İdarəetmə və Politologiya İnstitutunun bazasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradıldı. Tarixə ekskurs bizə bunu deməyə əsas verir ki, 100 ildən atrıq bir təcrübə keçmiş dövlət qulluqçularının hazırlığı işi bu gün özünün tərəqqi dövrünü yaşayır. 24 xarici və 12 yerli dövlət qurumu ilə Əməkdaşlıq Protokolları imzalamış Dövlət İdarəçilik Akademiyasında yeni tədris texnologiyalarının tətbiqi ilə ali təhsilin müxtəlif səviyyələrində və fərqli istiqamətlər üzrə xarici mütəxəssislər və ölkənin aparıcı alimləri tərəfindən ildə 3000-dən artıq dövlət qulluqçusu yenidən hazırlanır. Dövlət qulluqçularının əlavə təhsilinin təşkili və peşə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə rəhbər vəzifəli və digər dövlət qulluqçularının fasiləsiz təhsilinin təşkili çərçivəsində müxtəlif müddətli fokus qruplar üçün ən son yeniliklər əsasında daim yenilənən təlimlər paketi formalaşdırılır. Akademiya həmçinin Şərq Tərəfdaşlığı Ölkələri çərçivəsində Avropa İttifaqının Erasmus+ təh-

sil və təlim layihələrində iştirak edir. Həmçinin Akademiya ali təhsil sahəsində potensialın gücləndirilməsi ilə bağlı tam yeni magistr təlim proqramlarının işlənib hazırlanması üzrə "Jean Monnet" komponenti çərçivəsində əməkdaşlıq əlaqələri qurur.




**Sxem 3.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Rəhbər dövlət idarəçiliyi kadrlarının ixtisasının artırılması" institutunda ixtisasartırma kurs və təlim iştirakçılarının sayı. (mənbə: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 2022-ci il üzrə hesabatı)




**Sxem 4.** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Rəhbər dövlət idarəçiliyi kadrlarının ixtisasının artırılması" institutunda kurs, təlim, proqram və modulların sayı. (mənbə: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 2022-ci il üzrə hesabatı)

Heydər Əliyevin Azərbaycanın dövlət idarəçilik sisteminin qurulması üçün attığı növbəti addım 21 iyul 2000-ci ildə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi ilə bağlı oldu. Bu Qanun Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılması, bu sahədə kadr siyasətinin əsas prinsiplərini, dövlət qulluqçularının cəmiyyətdəki yerini və onların hüquq və vəzifələrini müəyyənləşdirdi. Qanun həmçinin Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimlədi.

Dövlət qulluğunun daha səmərəli təşkili və həyata keçirilməsi ilə bağlı normativ hüquqi aktların, metodik göstərişlərin layihələrinin hazırlanması, həmin sənədlərin hazırlanmasında dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsinə digər məsələlərin tənzimlənməsi üçün Ümummilli Lider 2002-ci il martın 29-da "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə 283-IIQ nömrəli Qanun imzaladı. Şura vahid dövlət kadr siyasətinin formalaşdırılmasında iştirak, dövlət hakimiyyəti orqanlarında dövlət qulluğunun vəziyyətinin və səmərəliliyinin təhlil edilməsi, dövlət qulluğunun kadr təminatının proqnozlaşdırılması və planlaşdırılması işinin həyata keçirilməsini təşkil etməli idi. Qanunda qeyd edilirdi ki, Dövlət Qulluğunu İdarəetmə Şurası "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsinə uyğun olaraq həmin Qanunun tətbiqinə nəzarəti və dövlət qulluğunun normativ-metodik təminatını həyata keçirir, Azərbaycan Respublikasında dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısını müəyyənləşdirir. Şura 18 nəfər üzvdən ibarət tərkibdə təşkil edildi və dövlət hakimiyyəti orqanlarının dövlət qulluğu və kadr xidmətlərinin metodik işinin əlaqələndirilməsini, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş hallarda şikayətlərə baxılmasını, dövlət qulluqçularının peşə hazırlığı, təcrübə və əlavə təhsili sahəsində işlərin təhlili və bununla bağlı təkliflərin hazırlanmasını, dövlət qulluqçularına dair məhdudiyyətlərin və təminatların yerinə yetirilməsinə nəzarət edilməsi işini və Şuranın səlahiyyətlərinə aid edilən digər məsələləri təşkil etdi.

Heydər Əliyev 2002-ci il mayın 31-də "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" Qanun imzaladı. Sonrakı illərdə, 2008-ci il iyunun 20-də Prezident İlham Əliyev "Hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçularının siyahısı"nın və hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın məbləğinin təsdiq edilməsi barədə Fərman imzaladı. Fərmanla "Hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçularının siyahısı" təsdiq edildi və hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə aylıq vəzifə maaşının 15 faizi məbləğində əlavə haqq təyin edildi.

**Azərbaycanda dövlət idarəetmə sisteminin müasir dövrü**

2003-cü il oktyabrın 15-də Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyev xalqımızın etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başlandı. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik, çoxvektorlu, milli maraqlara əsaslanan düşünülmüş siyasət nəticəsində "güclü dövlət" konsepsiyası rellaşdırıldı və Azərbaycan regionun ən güclü aktoruna, nüfuzlu dövlətinə çevrildi.

2003-cu ildə dövlət qulluğu sahəsində başlanan islahatlar Avropa İttifaqının TACİS (Technical Assistance for the Commonwealth of Independent States) proqramının layihəsi çərçivəsində davam etdirildi, Azərbaycan Respublikası Prezident Aparatının [*Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının strukturunun təsdiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarının ləğvi və bəzi fərmanlarında*

*dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının 23 may 2018-ci il tarixli 91 nömrəli Fərmanı ilə "İcra Aparatının" sözləri "Administrasiyasının" sözü ilə əvəz edilmişdir. (10.1. bənd)*] (Administrasiyasının) və 12 nazirlikdə rəhbər kadrlar ilə dövlət qulluqçusu haqqında məlumatları əhatə etmiş vahid informasiya mərkəzinin formalaşması üzrə iş aparmaqla davam etdi. Layihə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununun icra olunması strategiyasının işlənib hazırlanması, Dövlət Qulluğunu İdarəetmə Şurasının fəaliyyətinin qurulması, dövlət qulluqçusunun mərkəzləşmiş məlumat sisteminin formalaşması, dövlət idarəetməsi sahəsində islahatlar strategiyasının işlənib hazırlanmasını nəzərdə tuturdu [12, s.45]. 2003-cü ildə İnzibati və yardımçı vəzifələrin təsnifat toplusunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı da imzalandı. Fərmanla Azərbaycan Respublikası Prezidentinin nomenklaturasına aid edilən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aparatlarında işləyən dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi təmin edildi. Bundan əlavə, 2003-cü ildə "Dövlət qulluqçuları üçün bəzi təminatlar haqqında", 2004-cü ildə isə "Dövlət qulluqçularının pensiya təminatı haqqında" Fərmanlar imzalandı.

Dövlət qurumlarının fəaliyyətində şəffaflığın artırılması, korrupsiyaya şərait yaradan halların qarşısının alınması, dövlət orqanlarının ictimaiyyət qarşısında hesabatlılığının daha da gücləndirilməsi məqsədilə 2004-cü il yanvarın 13-də Korrupsiyaya qarşı mübarizə haqqında Qanun qəbul edildi və 2005-ci ilin yanvarın 1-dən qüvvəyə mindi. Qanun korrupsiya ilə əlaqədar hüquqpozmaların aşkar edilməsi, qarşısının alınması və nəticələrinin aradan qaldırılmasına, sosial ədalətin, insan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiə olunmasına, iqtisadiyyatın inkişafı üçün əlverişli şəraitin yaradılmasına, dövlət orqanlarının və yerli özünüidarəetmə orqanlarının, publik hüquqi şəxslərin, vəzifəli şəxslərin fəaliyyətinin qanuniliyinin, şəffaflığının və səmərəliliyinin təmin edilməsinə yönəldi. Həmçinin bu Qanun peşəkar kadrların dövlət və yerli özünüidarəetmə orqanlarında, qurumlarda qulluğa girməyə həvəsləndirilməsi, həmin şəxslərin korrupsiya ilə əlaqədar hüquqpozma törətməsini istisna edən şəraitin yaradılması məqsədini daşıyırdı. Qanunda korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri, Qanunun tətbiq dairəsi, korrupsiyaya qarşı mübarizəni həyata keçirən orqanlar, korrupsiya ilə əlaqədar hüquqpozmalar və bu hüquqpozmalara görə məsuliyyət məsələləri göstərildi [11, s.231].

Korrupsiya ilə əlaqədar hüquqpozmaların qarşısının alınması, aşkar edilməsi və nəticələrinin aradan qaldırılması məqsədilə 2004-cü il sentyabrın 3-də 2004-2006-cı illər üçün Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı təsdiq edildi. Korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsi, normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətində şəffaflığın artırılması və bu sahədə dövlət siyasətinin həyata keçirilməsi məqsədilə 2007-ci il iyulun 28-də Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı 2007–2011-ci illər üçün Fəaliyyət Planı təsdiq edildi. Prezident İlham Əliyevin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012–2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda icrası nəzərdə tutulmuş problemlərin həlli də ölkəmizdə şəffaflığın artırılması istiqamətində düzgün yol tutmaqda öz dəyərli töhfəsini verdi. 2020-ci il fevralın 27-də təsdiq olunmuş "Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda da ölkəmizdə şəffaflığın təmin edilməsi, vətəndaş cəmiyyəti quruculuğunun sürətləndirilməsi, informasiya azadlığı və digər sahələri əhatə edən mühüm vəzifələr müəyyənləşdirildi. Prezident İlham Əliyev korrupsiyaya qarşı mübarizəni ən prioritet məsələ kimi dəyərləndirməkdə Azərbaycanın korrup-

siyadan azad olması və dünyanı bürümüş bu sosial bəla ilə mübarizədə ölkəmizin öncüllər sırasına çıxması üçün mühüm addımlar atdı. 2022-ci il aprelin 4-də Prezident İlham Əliyevin Sərəncamı ilə "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı" təsdiq edildi. Fəaliyyət Planı fərqli fəaliyyət istiqamətləri olan müxtəlif qurumların korrupsiyaya qarşı mübarizə səylərini birləşdirməyə xidmət edir, eləcə də korrupsiyaya qarşı mübarizənin bütün dövlət strukturları və vətəndaş cəmiyyəti institutları ilə birgə sistemli və əlaqəli şəkildə gerçəkləşdirilməsinə imkan yaradır.

Dünya Bankının hesabatından Azərbaycanda hökumətin səmərəli fəaliyyəti, ölkədəki siyasi sabitlik üzrə göstəricilər qənaətbəxşdir və korrupsiya ilə mübarizədə müsbət nəticələr əldə edilmişdir. Onu da qeyd edək ki, hələ 2019-cu il iyunun 3-də Strasburqda Avropa Şurasının antikorrupsiya monitorinq orqanı – Korrupsiyaya Qarşı Dövlətlər Qrupunun (GRECO) fəaliyyətini əks etdirən hesabatın təqdimatı keçirilib. Hesabat parlament üzvləri, hakimlər və prokurorların fəaliyyətində korrupsiyanın qarşısının alınması məsələlərini əhatə etdi. Hesabata əsasən, Azərbaycan GRECO-nun tövsiyələrini 61,9 faiz icra etməklə bu göstərici üzrə Avropa Şurasına üzv 50 ölkə arasında 7-ci yerdə, MDB ölkələri arasında isə birinci yerdə oldu. [5].

Dövlət qulluğu sahəsindəki islahatları sürətləndirmək, dövlət qulluğunu daha yaxşı təşkil etmək məqsədilə Prezident İlham Əliyev 2005-ci ildə Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın yaradılması barədə Fərman imzaladı. Komissiyanın əsas fəaliyyət istiqaməti Azərbaycan Respublikasının Konstitusiyasının 55-ci maddəsinə müvafiq olaraq vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququnun həyata keçirilməsi üçün dövlət qulluğuna qəbulun bərabərlik, şəffaflıq və müsabiqə əsasında keçirilməsi ilə bağlı idi. Qeyd edək ki, 2016-cı ildə Komissiyanın səlahiyyətlərinə xitam verilsə də Komissiya fəaliyyət göstərdiyi dövr ərzində dövlət qulluğu və digər kadr məsələləri sahəsində vahid dövlət siyasətinin formalaş-dırılmasında iştirak etdi, mərkəzləşdirilmiş qaydada vətəndaşların dövlət qulluğuna qəbulunun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsini təşkil etdi, müvafiq sahədə kadr hazırlığını təmin etdi, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər gördü.

Ölkədə dövlət qulluğunun daha səmərəli fəaliyyət göstərməsi üçün dövlət qulluqçularının fəaliyyətini tənzimləyən yeni qanunlar da qəbul edildi. Belə ki, 2006-cı ildə "Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinin aparılması qaydaları", "Azərbaycan Respublikasının dövlət orqanlarında dövlət qulluğunun rəhbər vəzifələrinin tutulması üçün ehtiyat kadrların formalaşdırılması qaydaları", 2007-ci ildə isə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanunlar qəbul edildi. Bu Qanun dövlət qulluqçuları üçün etik davranış qaydalarını və prinsiplərini və onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizmləri müəyyənləşdirdi.

Prezident İlham Əliyev tərəfindən dövlət qulluğunun müasirləşdirilməsi, şəffaflığın artırılması və idarəetmədə yeni fəaliyyət üslubunun formalaşdırılması məqsədilə 2012-ci ilin 13 iyul tarixində Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması haqqında Fərman imzalandı. Agentliyin nəzdində "ASAN xidmət" mərkəzləri yaradıldı ki, bu Mərkəzlərin yaradılmasında məqsəd dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən dövlət xidmətlərinin daha keyfiyyətli həyata keçirilməsi, vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması, dövlət strukturlarına etimadın daha da gücləndirilməsi, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, elektron xidmətlərdən daha geniş istifadə olunması və bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılması idi. Hazırda Azərbaycanda 24 "ASAN xidmət" Mərkəzi fəaliyyət göstərir və vətəndaşların göstərilən xidmətlərdən məmnunluq dərəcəsi 98–100%-dir [7].

Prezident İlham Əliyev tərəfindən ölkədə iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafının təmin edilməsi, əhalinin sosial rifahının yüksəldilməsi, habelə sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşmanın yaradılması məqsədilə bir sıra Dövlət Proqramları da qəbul edildi ki, bu Dövlət Proqramları da dövlət qulluğu sisteminin təkmilləşdirilməsində öz rolunu oynadı. Belə ki, 2012-ci ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası", 2016-cı ildə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsi", 2018-ci ildə "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya" təsdiq edildi. 2019–2025-ci illər üçün Strategiya dövlət qulluğu sisteminin inkişaf etdirilməsi məqsədilə əsas hədəfləri və bu hədəflərə çatmaq üçün orta və uzun müddəti əhatə edən çoxşaxəli, ardıcıl, mərhələli tədbirləri müəyyənləşdirdi. Strategiyada dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunun formalaşdırılması və dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılması prioritet məsələ kimi irəli çəkildi. Strategiya həmçinin kadr siyasəti, dövlət qulluqçularının rotasiyası, dövlət qulluğunda səriştə (kompetensiya) və mütərəqqi motivasiya (həvəsləndirmə) modellərinin tətbiqini də nəzərdə tuturdu. Strategiyanın icrası 2019–2021-ci və 2022–2025-ci illəri əhatə edən iki fəaliyyət planının həyata keçirilməsi ilə təmin edildi [2].

Dövlət qulluğunda istedadların idarə edilməsi, başqa sözlə desək, yetənəyin idarə edilməsi (Talent Management) modelinin yaradılması üçün dövlət qulluqçuları sırasında əhəmiyyətli potensialın aşkar edilərək inkişaf etdirilməsi, müvafiq mövqelərə yerləşdirilməsi və motivasiya alətləri ilə əldə saxlanılmasıdır. "Talent Management" yetənəyin əldə edilməsindən başlayaraq onun əldə saxlanılmasına qədər olan, bir-birinə inteqrasiya olunmuş funksional fəaliyyətlərin cəmidir. Dövlət qulluğunda yetənək anlayışı müxtəlif çür izah oluna bilər. Yetənəkli adam təşkilatın (qurumun) performansında, hədəflərinə yönəlməsində ciddi rol oynayan insandır. Yüksək performansa sahib, dəyərqatma göstəricisi yüksək olan işçi, digər əməkdaşların da performansının artmasında rol oynayır və qurum bu şəxslərin əldə saxlanmasında maraqlıdır. Bu cür işçilərə edilən investisiyalar onların mövcud və potensial dəyərqatma göstəriciləri əsasında analiz edilir və sinifləndirilir. Talent Menecmenti İnsan Resurslarının idarə edilməsindən fərqləndirən cəhət də, məhz hər hansı qurumda personalın funksional dəyişikliyindən çox onlara yanaşmanın dəyişməsidir. İnsan Resurlarının idarə edilməsinin əsasını təşkil edən Performansın idarə edilməsi (Performance management), Səriştəliliklərin idarə edilməsi (Competency Management), Öyrənmə və İnkişaf (Learning and Development) həmçinin "Talent Management"in də tərkib hissəsidir. İnsan Resurslarının idarə edilməsi əsasən gündəlik insan idarə edilməsinə yönəlirsə, "Talent Management"in strateji hədəfləri isə yetənəklərin inkişafı və önə çəkilməsinə fokuslanmışdır. Artıq bir çox inkişaf etmiş ölkələrdə İnsan Resurslarının idarə edilməsindən (HRM) "Talent Management"ə (TM) keçid edilir. TM strategiyası cari fəaliyyətləri, nəticələri deyil, gələcək plan, hədəf və gözləntiləri əhatə edir. İstedadların idarə edilməsi sisteminə işə qəbul, performansın idarə edilməsi, təlim və inkişaf və kompensasiya daxildir.

İstedadların idarə edilməsi sistemlərinin funksional modullarına aşağıdakılar daxildir: kadr performansının idarə edilməsi, məqsədlərə nail olmağın idarə edilməsi, kompensasiya idarəetməsi, istedadların əldə edilməsi/işə qəbulu, öyrənmə idarəetməsi, karyera idarəetməsi, uğur üçün planlaşdırma. Sxemdə Talent Acquisition (find the right people) istedadların idarə edilməsi (düzgün insanları tapın), Talent Deployement (Get people ready for key roles in the business), İstedadların yerləşdirilməsi (İnsanları işdə əsas rollara hazırlayın), Talent Development (İnvest in people and nature




**Sxem 5.** İstedadların idarə edilməsi sisteminin funksional modulları. (elektron resurs: https://www.tadviser.ru/index.php.talent_management müraciət vaxtı 20.02.2023)

growth) İstedadın inkişafı (insanlara sərmayə qoyun və inkişaf etdirin), Talent Identification (Evaluate and understand existing talents) İstedadın müəyyənləşdirilməsi (mövcud istedadları qiymətləndirin və anlayın).

Dövlət idarəetmə aparatında və ümumilikdə dövlət qulluğunda istedadların idarə olunması (Talent manegement), idarəetmə resursunun təkmilləşdirilməsi, müasir idarəetmə vasitələrinin və dövlət sektorunda korporativ idarəetmə prinsiplərinin tətbiqi günümüzün aktual probleminə çevrilmişdir. Belə ki, beynəlxalq ekspertlərin də söylədikləri kimi, inkişaf etməkdə olan ölkələr arasında rəqabət və qlobal iqtisadi qarşıdurma günü-gündən artır. Aydın şəkildə dərk edilməlidir ki, yalnız ən güclülərə dövlətçiliyini qorumaq və dünya iqtisadi bazarının aktoru olmaq imkanı verilir. Buna görə qloballaşan iqtisadiyyat kontekstində dövlət xidmətinin optimallaşdırılması və səmərəliliyinin artırılması üçün yeni resurslar tapılmalıdır. Bu kontekstdə “idarəçi kadr” rəqabətin ən vacib subyektinə çevrilir və onun səriştələri konkret məsələlərin həllində nə qədər istedadlı olduğunu müəyyən edir. İstedadlı işçilərin seçilməsi və ya qiymətləndirilməsi meyarlarını müəyyən etmək üçün dövlət orqanlarının istifadə edə biləcəyi bir çox üsullar mövcuddur. Bir qayda olaraq, aydın meyarları qiymətləndirərkən və müəyyən edərkən yalnız bir metoda etibar etmək mümkün deyil. Bir çox tədqiqatçılar istedadların seçilməsi




**Sxem 6**. Səriştə modeli. Müəllif tərəfindən açıq resurslardan istifadə edilərək tərtib edilmişdir.

meyarlarını fərqli şəkildə müəyyən edirlər. Məsələn, yaradıcılıq, yaradıcı düşüncə, təşəbbüs, liderlik bacarıqları, ekspert bacarıqları, təqib, məsuliyyət, nəzarətetmə bacarığı, səriştə və s. Ümumiyyətlə, əmək bazarında bir neçə səriştə modeli mövcuddur.

Dövlət sektorunda istedadların idarə olunması sisteminin özəlliyi ondan ibarətdir ki, hər hansı dövlət qulluqçusu ilk növbədə iddia etdiyi və ya tutduğu vəzifəyə uyğun olmalıdır. Amma öz vəzifələrini mümkün qədər səmərəli şəkildə yerinə yetirmək üçün onun müəyyən istedadları olmalıdır. Bəzi ölkələrdə 6-cı sxemdə göstərilən meyarlar dövlət orqanında istedadların seçilməsi meyarları sistemində istifadə olunur. Dövlət qulluqçusu aşağıdakı hallarda istedadlı hesab edilə bilər:

Dövlət orqanlarında istedadların seçilməsi meyarları bir sıra amillərdən asılıdır: konkret təşkilatın xüsusiyyətlərindən və vakant vəzi-




**Sxem 7.** İstedadların seçilməsi meyarları.
Müəllif tərəfindən açıq resurslardan istifadə edilərək tərtib edilmişdir.

fənin xüsusiyyətlərindən. Dövlət qulluğu üçün istedadların seçilməsi meyarlarını müəyyən edərkən, işçinin mövcud nailiyyətlərini və potensialını da vurğulamaq lazımdır. Eyni zamanda, mövcud nailiyyətlər sahəsində onun qiymətləndirmə zamanı faktiki vəziyyəti, eləcə də müxtəlif vəziyyətlərdə davranışı qiymətləndirilir. Potensialı təhlil edilərkən işçinin qarşıya qoyulan məqsədlərə necə nail olması, onun fəaliyyəti (hansı məqsədlər qoyulub; onlara necə nail olunub; nəticənin əldə edilməsində effektivlik dərəcəsi nə qədərdir) və digər xüsusiyyətləri öyrənilir.

İstedadların idarə edilməsi sistemi (Talent Management System) dörd əsas sahədə problemlərin həlli üçün avtomatlaşdırılmış alətlər təqdim edən inteqrasiya olunmuş proqram məhsuludur:




**Sxem 8.** İstedadların idarə edilməsi sisteminin (Talent Management System) avtomatlaşdırılmış alətləri.

İstedadların idarə edilməsi bacarıq və kompetensiyaların üzərində qurulur və iki istiqaməti mövcuddur:

**Hard Skills:** peşəkar və texniki biliklər;

**Soft Skills:** kompetensiyalar (tapşırıqları, insanları, özünü idarəetmə)

Ənənəvi HRM (Human Resource Management) və ERP sistemləri (Enterprise Resource Planning – "müəssisədə resurs planlaması") ilk növbədə tranzaksiya proseslərinə və əsas insan resurslarının idarə edilməsinə diqqət yetirsə də və əmək haqqı, vaxtın idarə edilməsi və digər funksiyaları özündə ehtiva edirsə, TMS (Talent Management System) sistemləri qurumların insan kapitalı vasitəsilə uzunmüddətli məqsədlərinə çatmaq üçün nəzərdə tutulmuşdur.

Beləliklə, dövlət qulluğu sistemində islahatlar həyata keçiriləndə mürəkkəb, qeyri-standart vəzifələri orijinal şəkildə həll edə bilən, yaradıcı, yeni idarəetmə sisteminə uyğunlaşa bilən, yüksək intellektli peşəkar kadrlara ehtiyac artır. Buna görə ölkəmizdə tətbiq olunan yeni dövlət idarəetmə sisteminin daha çevik, yığcam və məqsədyönlü olması üçün inzibati alətlərdən deyil, dünyada insan resurslarının idarə olunması sahəsində əldə edilmiş innovativ nailiyyətlərdən, elmi əsaslara söykənən zəngin təcrübədən istifadə edilir.

Ölkədə dövlət aparatının səmərəli fəaliyyət göstərməsi üçün intellektual səviyyəsi və idarəetmə bacarıqları yüksək olan perspektivli rəhbərlərin müəyyən edilməsi, onların inkişaf etdirilməsi, dəstəklənməsi və bununla da ölkədə kadr ehtiyatı bankının yaradılması zəruridir. Bu məqsədlə ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə 26 iyul 2019-cu ildə "Yüksəliş" müsabiqəsi təsis edildi. Müsabiqə vasitəsi ilə namizədlərin fərdi keyfiyyətlərinin və bacarıqlarının müəyyən edilməsinə imkan verən müxtəlif metodlardan istifadə etməklə onların çoxpilləli kompleks qiymətləndirilməsi həyata keçirilir və iştirakçılar arasında təcrübə mübadiləsi üçün platforma rolunu oynamaqla, onların inkişafına və ən yaxşı təcrübələrin yayılmasına nail olunur. Müsabiqə obyektivlik, şəffaflıq, bərabər imkanlar və maraqların toqquşmasının yolverilməzliyi prinsipləri əsasında həyata keçirilir [14].

Ölkənin idarə olunmasında və inkişafının gücləndirilməsində ciddi rol oynayan dövlət qulluqçularının sayı da həmişə diqqəti cəlb edən məsələlərdən olmuşdur. Yeni idarəetmə strukturlarının yaradılması, bəzi qurumların yenidən təşkil olunması, dövlət idarəçiliyinin optimallaşdırılması ilə əlaqədar əvvəlki illərlə müqayisədə dövlət qulluqçularının sayının azalması müşahidə olunmuşdur. Prezident




**Sxem 9.** Təcrübə və kompetensiyalar üzərində qurulan bacarıqların idarə edilməsi təcrübəsi. Müəllif tərəfindən açıq resurslardan istifadə edilərək tərtib edilmişdir.

İlham Əliyevin müəyyən etdiyi dayanıqlı inkişaf konsepsiyasına uyğun olaraq, Azərbaycan hökuməti son illər idarəetmənin bütün sahələrində müasir texnologiyaların nailiyyətlərindən istifadə edərək məmur-vətəndaş təmaslarını minimuma endirmiş, "ASAN" Xidmət modelini tətbiq edərək, bir pəncərə sistemi vasitəsilə keyfiyyətli elektron xidmətlərə keçid əldə etmişdir.




**Sxem 10.** Azərbaycanda dövlət qulluqçularının sayı.
Müəllif tərəfindən açıq resurslardan əldə edilən məlumatlar əsasında formalaşdırılmışdır.

Sxemdən də göründüyü kimi, 2015-ci ildə ölkədə dövlət qulluqçularının sayı 30 min 123 nəfər olmuş, aparılmış islahatlar nəticəsində 2022-ci il yanvarın 1-də bu rəqəm 26,7 min nəfərə enmişdir ki, bu da 8% -dən çox azalma deməkdir. Bu isə dövlət idarəetmə sistemində aparılmış səmərəli islahatların, optimallaşdırma siyasətinin, dövlət qulluğunun keyfiyyətinin yüksəldilməsinin və dövlət qulluğunun mobilliyinin təmin edilməsi nəticəsində mümkün olmuşdur.

Azərbaycanda davamlı inkişafın təmin edilməsi, ölkə iqtisadiyyatının dinamik inkişaf etdirilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, əməkhaqları, pensiyalar, təqaüdlər və müavinətlərin artırılması, yoxsulluğun səviyyəsinin minimuma endirilməsi istiqamətində həyata keçirilən islahatların davamı olaraq 2021-ci il fevralın 2-də ölkə Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında Sərəncam imzalandı. Milli Prioritetlər növbəti 10 il ərzində ölkə qarşısında həlli vacib olan istiqamətləri özündə əks etdirdi. Milli Prioritetlər ölkənin dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyata malik olmasını, o cümlədən ölkədə dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşmasını özündə ehtiva etdi. Bundan əlavə, Milli Prioritetlərdə rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılması, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təşkil edilməsi və təmiz ətraf mühit və Azərbaycanın "yaşıl artım" ölkəsi kimi dünyada öz yerini tutması hədəfləndi. Milli Prioritetlər dövlətin inkişafına və cəmiyyətin rifahına xidmət edən təşəbbüs olmaqla yanaşı, milli maraqlar və strateji planlamanın da vəhdətini təşkil etdi, ölkəmizin gələcək inkişaf mənzərəsini müəyyənləşdirdi [8. s.99-100].

**Nəticə**

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil Azərbaycanın memarı Heydər Əliyevin zəngin və çoxşaxəli irsinin indiki və gələcək nəsillərə çatdırılması və təbliği məqsədilə 2022-ci il sentyabrın 29-da "2023-cü ilin Heydər Əliyev ili" elan olunması haqqında Sərəncam imzaladı. Sərəncamda qeyd edilir ki, "Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaqdır". Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Ulu Öndərin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilən dövlət quruculuğu və iqtisadi inkişaf strategiyası özünün parlaq bəhrəsini verməkdədir. Prezident İlham Əliyevin dövlət idarəetmə sistemində həyata keçirdiyi islahatların məqsədi də dövlət müstəqilliyinin daha da gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi, hüquqi dövlət quruculuğunun gücləndirilməsi, dövlət xidmətlərinin keyfiyyətinin artması və əlçatanlığı, vətəndaş məmnunluğunun artırılmasıdır. Aparılan islahatlar elektron hökumətin inkişafını, "One-stop-shop"dan "non-stop-shop"a və reaktiv xidmətlərdən proaktiv xidmətlərə keçidləri, "Only one entry" prinsipinin yığcam, mobil və məqsədyönlü fəaliyyətini stimullaşdırdı. Həmçinin, dövlət idarəçiliyində həyata keçirilən islahatlar məcburetmədən könüllü riayətə, imperativ idarəetmədən tənzimlənməyə, yoxlamadan monitorinq və qiymətləndirməyə, məmur-sahibkar təmaslarından rəqəmsal həllərə keçidi təmin etdi. Dövlət idarəçiliyində həyata keçirilən islahatlar həmçinin dövlət-özəl, dövlət-vətəndaş arasında dialoqun daha da inkişaf etdirilməsinə xidmət etmişdir. Artıq əminliklə deyə bilərik ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilən effektiv dövlət idarəetmə sistemi tam qurulmuş, hökumətin uzunmüddətli vizyonu

formalaşdırılmış, dövlət xidmətlərindən vətəndaşların məmnunluq səviyyəsi ASAN, ABAD, DOST və digər Mərkəzlərdə bir pəncərə sisteminin tətbiqi nəticəsində yüz faiz təmin olunmuşdur. Heydər Əliyevin qurub yaratdığı müstəqil Azərbaycanın dövlət idarəçilik sisteminin təntənəsi 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi, Birinci-vitse Prezident Mehriban Əliyevanın yaxından iştirakı ilə Azərbaycan ordusunun 30 illik işğala son qoymasında parlaq təzahür etmişdir. Müstəqil Azərbaycan dövlətimiz, Qarabağ savaşındakı şanlı qələbəmiz Heydər Əliyev dühasının təntənəsi və Ulu Öndərin təməlini qoyduğu siyasətin məntiqi nəticəsidir!

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2016
2. Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019 -2025-ci illər üçün Strategiya, 23 noyabr 2018, (elektron resurs: https://e-qanun.az/framework/40748 müraciət vaxtı 09.02.2023)
3. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması haqqında 60 saylı Fərman. (03.01.1999) https://e-qanun.az/framework/1756
4. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 02 fevral 2021, (elektron resurs: https://president.az/az/articles/view/50473 müraciət vaxtı 10.02.2023)
5. Azərbaycan Respublikasının Auditorlar Palatası. https://audit.gov.az/Az/page/765 müraciət vaxtı 13.02.2023)
6. "Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikasının Fərmanı, Bakı şəhəri, 11 dekabr 2014-cü il, № 387 https://e-qanun.az/framework/30770 müraciət vaxtı 13.02.2023)
7. Rəhimli R.Z. Dövlət qulluğunda kadr hazırlığı texnologiyaları (post ölkələri timsalında). "Heydər Əliyev və Azərbaycan Respublikasının müasir innovativ inkişafı" mövzusunda doktorant və dissertantların Elmi-Praktik Konfransının materialları. Bakı, "Təhsil", 2021, 168 səh.
8. Rəhimli R.Z. Davamlı inkişaf məqsədlərinin həyata keçirilməsində dövlət qulluğunun rolu, İnsan və biosfer (MaB, UNESCO) Azərbaycan milli komitəsinin əsərləri, Ekoloji sivilizasiya, davamlı inkişaf, ətraf mühit, 16, 2021. 85-106.
9. Rəhimli R.Z., Həsənov A. Dövlət qulluqçularının fəaliyyət səmərəliliyinin artırılması: kadr hazırlığı və səriştə modelinə keçid. İnsan və biosfer (MaB, UNESCO) Azərbaycan milli komitəsinin əsərləri, Ekoloji sivilizasiya, davamlı inkişaf, ətraf mühit, 15, 2020. 165-181.
10. Rəhimli R. Dövlət İdarəçiliyinin rəqəmsal gələcəyi: dünya trendləri və müasir dövlət qulluğu. Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə Elmi-nəzəri jurnalı, № 2 (70), Təhsil Nəşriyyatı, Bakı-2020, s.173-186
11. Rəhimli R.Dövlət qulluğunda etika və onun əsas komponentləri. Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə Elmi-nəzəri jurnalı. – №4 (64). Təhsil Nəşriyyatı, Bakı. – 2018. – s.225-236
12. Ronald Yanq, Eldar Azadov. Dövlət idarəetməsində islahatlar: nailiyyətlər, problemlər, perspektivlər. Bakı-2004, CBS Polygraphic Production mətbəəsi, 340 səh.
13. İsmayılov S. Ulu Öndər Heydər Əliyevin idarəçilik meyarları: təcrübəyə söykənən müasirlik və gələcəyə aparan təşəbbüskarlıq. Azərbaycan qəzeti. 05.05.2020. https://www.azerbaijan-news.az/view-188674/ulu-onder-heyder-eliyevin-

idarecilik-meyarlari-tecrubeye-soykenen-muasirlik-ve-geleceye-aparan-tesebbuskarliq (müraciət vaxtı 14.02.2023)
14. "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 1354 nömrəli Sərəncamı. 26 iyul 2019-cu il. http://e-qanun.az/framework/42996 (müraciət vaxtı 14.02.2023)
15. T.C.Cumhurbaşkanlığı insan kaynakları ofisi, Üniversite kariyer merkezleri, 2019. Hazırlayanlar:Doç.Dr.Salim ATAY, Banu Çırakoğlu TANRIVERDİ, Neşe GÜLMEZ. Cumhurbaşkanlığı Külliyesi 06560 Beştepe, Ankara, Türkiye, 2019, 180 s.
16. Alikhan Baimenov, Panos Liverakos. Public Service Excellence in the 21st Century. Palagrave macmillan, Astana, Kazahstan, 2019. p.345.
17. Training for Leadership/ Michiel S.de Vries, Geert Bouckaert Editors, IASIA/IIAS,International Association of Schools and Institutes of Administration, Brxelles-2013, p.384. ISSN 2294-5970,ISBN 978-2-8027-4335-4.
18. Michael Pidd, Measuring the Performance of Public Services/ Principles and Practice/ Cambridge University Press, ISBN 978-1-107-00465-8 Hardback, Edinburgh, 2012. p.316
19. Motivation in Public Management, The call of Public Service, James L. Perry and Annie Hondergehem. Oxford, ISBN-13: 978-0-19-923403-5, Great Britain, 2008. p.333
20. Акматалиев А.А., Болпонова А.Б., Исланова Р.У., Апсаматов У.А. Кадровая политика и кадровая работа на государственной и муниципальной службе. Учебно-практическое пособие. Академия Государственного Управления при Президенте Кыргызской Республики, Бишкек 2021, 135 с.
21. Большая советская энциклопедия. в 30-ти т. – 3-е изд. – М. : Совет. энцикл., 1969 - 1986. ил., карт. // https://www.booksite.ru/fulltext/1/001/008/087/181.htm
22. Гольдфарб С., Щербаков Н., Нестерович А. Иркутский государственный университет (1918-1998). Ректоры, деканы, профессора // Иркутский государственный университет (1918 - 1998) (500 экз.). Иркутск: Издательство Иркутского университета. 1998. 299. ISBN 5-7430-0573-7.

***Açar sözlər:*** *dövlət qulluğu, dövlət quruculuğu, dövlət idarəçiliyində islahatlar, dövlət xidməti, liderlik*

**Rajab Rahimli**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Head of the Department of Public Service and Human Resources Politics, Ph.D. in Political Sciences, Associate Professor***

# FORMATION OF CIVIL SERVICE SYSTEM IN THE REPUBLIC OF AZERBAIJAN: PRIORITY DIRECTIONS AND TRENDS

## ABSTRACT

Following the restoration of independence, it became necessary to carry out reforms aimed at national state-building in accordance with internationally accepted principles of state administration. The old Soviet state apparatus, which existed in our country for seventy years, was replaced by an

independent state administration apparatus. Following the re-election of the National Leader, Heydar Aliyev, to the presidency of the Republic of Azerbaijan, the reform process began in all sectors of the country. The reforms addressed not only the socio-economic realm but also the administrative management. The execution of administrative reforms, particularly in the field of civil service, was motivated not only by the need for state construction but also by the necessity for economic development.

***Keywords:*** *civil servants, state building, reforms in public administration, public service, lidership*

**Раджаб Рагимли**

***Заведующий кафедрой Государственной службы и кадровой политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам, доцент***

## ФОРМИРОВАНИЕ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ СИСТЕМЫ ГОСУДАРСТВЕННОЙ СЛУЖБЫ: ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ И ТРЕНДЫ

### РЕЗЮМЕ

После обретения Азербайджаном независимости возникла необходимость проведения реформ в направлении национального государственного строительства в соответствии с принятыми в современном мире системами государственного управления. Вместо старого советского государственного аппарата, существовавшего в стране семьдесят лет, был образован самостоятельный аппарат государственного управления Азербайджана. После возвращения Общенационального лидера Гейдара Алиева к высшему руководству Азербайджанской Республики начался процесс реформ во всех сферах жизни страны. Реформы охватили не только социально-экономическую сферу, но и систему административного управления. Осуществление административных реформ и, в частности, реформ в сфере государственной службы, определялось не только необходимостью осуществления государственного строительства, но и влиянием общемировых тенденций.

***Ключевые слова:*** *государственный служащий, государственное строительство, реформы в государственном управлении, государственная служба, лидерство*

UOT 328; 342.5; 351/354

**ZİYAFƏT HƏBİBOVA**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*Tədris-metodiki və analitika şöbəsinin müdiri,*
*siyasi elmlər doktoru, professor*

*e-mail: dia.library@mail.ru*

# İNSAN POTENSİALI HEYDƏR ƏLİYEVİN İNKİŞAF STRATEGİYASININ ƏSASI KİMİ

Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi fəaliyyətini təhlil edərkən, öncə "Əliyev fenomeninin sirri nədədir?" – sualını cavablandırmaq lazım gəlir. Onun ən mühüm özəlliyi insanların ehtiyaclarını anlayan və xalqın layiqli həyat yaşaması üçün ağır məsuliyyəti yüklənmiş həqiqi dövlət adamı olmasıdır. Azərbaycan xalqının ən böyük şansı Heydər Əliyevin siyasi üfüqdə tam zamanında parlamasındadır. Heydər Əliyev respublikaya rəhbərlik etməyə başlayan gündən ölkədə köklü islahatlara start verildi. 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu. O, dəqiq bilirdi ki, bəşəriyyət tarixinin yeni mərhələsinə uyğunlaşmaq üçün ölkənin tamamilə dəyişməsi zəruridir.

Ulu Öndər şəxsiyyəti o qədər mürəkkəb və çoxşaxəlidir ki, bu, birmənalı qiymətləndirilə bilməz. Əksinə olsaydı, müasir nəsillər Heydər Əliyev fenomenini öyrənməyə ehtiyac duymazdılar. Öz mənəvi inkişafı və digər insani keyfiyyətləri sayəsində Ulu Öndər zamanın fövqündə dayanır və baş verəcəkləri öncədən hesablaya bilirdi. Əslində, Heydər Əliyevin siyasi liderlik modeli Azərbaycan Respublikasının sərhədlərini aşaraq müasir qlobal lider tipinin formalaşmasına yol açıb. Obrazlı desək, Ulu Öndər əsrlər və qitələr miqyasında düşünürdü. Heydər Əliyev hələ illər öncə bu gün XXI əsrin prioriteti kimi müəyyənləşdirilən "Davamlı inkişaf məqsədləri"ndə yer alan hədəfləri coğrafi baxımdan kiçik Azərbaycan miqyasında gündəmə gətirmişdi.

Qeyd etmək lazımdır ki, dünyanın bir çox ölkələrində XX əsrin son onilliyindən başlayaraq daha çox müşahidə edilən və son zamanlar şiddətlənən iqtisadi və bununla əlaqədar olan sosial, siyasi və ekoloji qeyri-stabillik bir çox problemlərin, o cümlədən hərbi münaqişələrin səbəbi kimi çıxış edir. Bu yeni çağırışların meydana gəlməsi inkişafın planlaşdırılması və idarəedilməsi prosesində davamlı inkişaf prinsiplərinə riayət olunmaması ilə bağlıdır. Yaranmış vəziyyət BMT tərəfindən bir çox hallarda "gələcəksiz inkişaf" və "qeyri-bərabərliklə müşayiət edilən inkişaf" kimi qiymətləndirilir və tərəqqi proseslərinə mənfi təsir göstərə bilən amil kimi səciyyələndirilir. Aparılan təhlillərdən aydın olur ki, inkişaf proseslərində müşahidə edilən və qarşısı alınmalı olan neqativ tendensiyaların əsasında digər amillərlə yanaşı dövr üçün səciyyəvi və müasir cəmiyyəti xarakterizə edən qeyri-optimal istehlak durur. Beynəlxalq təşkilatların bilgilərinə görə, artıq XXI əsrin birinci onilliyində XX əsrin 50-ci illəri ilə müqayisədə dünyada istehlak ən azı iyirmi dəfə artıb. Bu, həm əhalinin sayının artımı və yaş strukturunun dəyişməsi, həm də adambaşına istehlakın artımının nəticəsidir. Ümumi istehlakın artması ilə yanaşı, istehlakda müşahidə edilən kəskin, hətta ifrat dərəcəsinə çatmış qeyri-bərabərlik mövcud problemi daha da qabardır. Bu səbəbdən hal-

hazırda artımsız inkişaf konsepsiyası da gündəmdədir [2].

Aydındır ki, yaranmış vəziyyətdə uzunmüddətli həm beynəlxalq, həm də milli inkişaf strategiyası ən müasir texnologiyalara arxalanmaqla yanaşı, ənənəvi, tarixin sınağından keçmiş etnik və yerli biliklərin cəlb edilməsinə də əsaslana bilər. Hazırki dövrdə bu istiqamət UNESCO-nun əsas prioritetlərindən biridir və yerli bərpa olunan təbii ehtiyatların davamlı inkişaf naminə istifadə edilməsinə xidmət edir. Lakin, qeyd edildiyi kimi, bu istiqamətin səmərəliliyi o zaman yüksək ola bilər ki, o biliklərin tətbiqi ən müasir texnologiyalarla vəhdət təşkil etsin. Belə bir vəhdət davamlı inkişaf sahəsində qarşıda duran məsələlərin həllinin ən optimal yolu hesab edilir [8].

Hər iki istiqamətdə nailiyyətlərin qazanılması yüksək texnoloji sahələrdə rəqabət qabiliyyətinin artırılmasını, insan kapitalının keyfiyyətinin yüksəldilməsi sahəsində inqilabi dəyişiklikləri, innovativ faktorların iqtisadi yüksəlişin başlıca mənbəyinə çevrilməsini nəzərdə tutur. Bu məsələlərin həlli üçün dövlət, özəl sektor, vətəndaş cəmiyyətinin elm və təhsil institutlarının innovativ inkişaf vasitələrindən və müasir planlaşdırma və idarəetmə prinsiplərindən faydalanaraq, qarşılıqlı fəaliyyətinin təşkili zəruridir. Bəlli olduğu kimi, çağdaş dünyada vasitə qıtlığı yoxdur. Əksinə, maddi resursların həddən artıq olması fonunda biz ara-sıra daha çox xroniki məqsəd və strateji düşüncə qıtlığı ilə üzləşirik. Və bu gerçəklik zamanında Ulu Öndər Heydər Əliyev tərəfindən dəqiqliklə dəyərləndirilmişdi. Heydər Əliyev bacarıqlı idarəçi kimi təkcə gələcəyi görməklə kifayətlənməyib, prioritet məqsədlərə çatmaq üçün əməli tədbirlər gerçəkləşdirirdi. O, fövqəladə bacarığı sayəsində siyasi prosesləri dərhal konstruktiv dəyişikliklər məcrasına yönəldə bilirdi. Təsadüfi deyil ki, onun adı siyasi brendə, qəbul etdiyi strateji qərarların keyfiyyət nişanına çevrilib. Eyni zamanda, o, heç şübhəsiz, cəsarətli novator idi. Onun təşəbbüslərinin diapazonu olduqca genişdir və Heydər Əliyev yeni qlobal imkanları aşkarlayıb onlardan faydalanmaqla modernləşmənin öncülü rolunda çıxış edirdi. Onun ideyalarının bir çoxu zamanı qabaqlayırdı. Azərbaycanın beynəlxalq təşkilatlar tərəfindən də təsdiqlənən uğurlarının təməlində, heç şübhəsiz, ölkədə reallaşdırılan çoxşaxəli, səmərəli və innovativ iqtisadiyyatın formalaşmasına əsaslanaraq sosial sahədə önləyici inkişaf trendinin təmin olunması, əhalinin rifahının qabaqcıl beynəlxalq standartlara çatdırılmasına yönəlik siyasi kurs, strategiya və uğurlu idarəçilik dayanır. Azərbaycan Respublikasının konseptual inkişaf istiqamətlərinin meyar göstəriciləri 1993-cü ildən başlayaraq formalaşıb, inkişaf edib və təcrübə ilə zənginləşib. Sadalananlara örnək kimi Ulu Öndərin davamlı inkişaf prinsiplərini onların qlobal miqyasda prioritet kimi müəyyənləşdirilməsindən qabaq Azərbaycanda tətbiq etməyə başlamasını göstərmək olar.

Əslində, dünya birliyinin davamlı inkişaf ideyasını prioritet seçməsi və onun BMT-nin XXI əsrin gündəmində və digər sənədlərdə təsdiqləməsi dövlətlər qarşısında davamlı inkişafın əsasını təşkil edən iqtisadi inkişaf, sosial inkişaf və ətraf mühitin mühafizəsi sahəsində yeni vəzifələr qoyur. Yeni postindustrial (noosfer) cəmiyyətdə zənginliyin ölçüsü maddi sərvətlər deyil, ilk növbədə ətraf mühitlə harmoniyada yaşayan insanın bilikləridir. Bu zaman ətraf mühit təbii, iqtisadi, sosial, mədəni, hüquqi və bunları idarə edən siyasi komponentlərdən təşkil edilmiş vahid bir sistem kimi qəbul edilir. Davamlı inkişafa keçid uzun təkamül prosesidir və onun reallaşdırılmasının başlıca mexanizmlərindən biri məhz gələcək prosesləri planlışdıracaq və idarə edəcək insan potensialının fomalaşdırılması və inkişaf etdirilməsidir. Hal-hazırda daha aktual müzakirə mövzusu yeni cəmiyyətin ekoloji prinsiplər əsasında qurulması və sivilizasiyanın yeni mərhələyə keçməsi zərurətidir. Ekoloji sivilizasiya (ekosivil) konsepsiyası, keçən əsrin 80-ci illərində formalaşmasına baxmayaraq, onun əsasını təşkil edən prinsiplər və bu istiqamətdə zəruri tədbirlər artıq bir sıra ölkələrdə tətbiq olunmaqdadır [2]. Eyni zamanda bu istiqamətdə bilik və bacariqların formalaşması orta və ali

məktəblərin kurikulumlarına salınıb. Bəlli olduğu kimi, davamlı insan inkişafı orta məktəb kurikulumlarına dünyada ilk dəfə 2001-ci ildə Azərbaycanda daxil edilib. Qlobal miqyasda isə bu prosesə 4 il sonra – 2005-ci ildə BMT və UNESCO-nun xüsusi sənədi əsasında start verilib [5]. Azərbaycanın bu istiqamətdə ilk addımları və təşəbbüsü haqqında məlumatı BMT-nin Baş Qərargahı qlobal şəbəkədə zamanındaca tirajlayıb.

İnsan inkişafından bəhs olunarkən ilk olaraq insan potensialının spesifik özəlliklərinə nəzər salınmalıdır. Şəkil 1-də təqdim olunmuş sxemdən aydın olduğu kimi, insan potensialı bir sıra sistem özəlliklərinə malikdir. Onun formalaşdırılmasında bir qayda olaraq "xarici" faktorlar, var olduğu mühitin xarakteri mühüm əhəmiyyət kəsb edir. İnsan potensialına gizli özəlliklərin olması da xasdır. Gizli potensiala eyni zamanda hər bir şəxsin təbii qabiliyyəti, onun fərdi inkişafına təsir göstərən fərdi istedadı, xüsusi qabiliyyətləri də aid edilə bilər. Eyni zamanda insan potensialına xas özəlliklər yaxın perspektiv, həmçinin uzaq gələcək üçün insan inkişafı imkanlarını şərtləndirir. Bu da insan potensialının strateji spesifikliyi ilə bağlıdır.

İnsan potensialının inkişafı məsələsi bu gün sosial sektor – təhsil, səhiyyə, mədəniyyət, elmin modernləşməsinə yönəlik dövlət vəzifəsi kimi anlşılmalıdır. Dövlət vəzifələri dedikdə, burada həm hökumət qurumlarının, həm də vətəndaş cəmiyyətini təmsil edən qeyri-hökumət təşkilatlarının və fərdi biznesin vahid milli proqramlar çərçivəsində müştərək çalışmaları nəzərdə tutulur. Qloballaşma və insan imkanlarının həddən artıq genişləndiyi bir dönəmdə insan potensialı mürəkkəb, rekord məqsədlərin seçilməsi, müasir mobillik formalarına hazır olmaq, geomədəni, geoiqtisadi və geosiyasi koordinatlarda düşünmək, öz perspektivlərinə yaradıcı yanaşmaq deməkdir. İnsan inkişafı üzrə sosial siyasətin başlıca vəzifəsi innovativ layihə və milli, regional inkişaf strategiyaları çərçivəsində müasir insan infrastrukturunun formalaşdırılmasıdır. Bu arada fərdi sektorun əsas məqsədi öz fəaliyyətini sosial məsuliyyətli şəkildə qurmaq və bu şərti gəlirdən üstün tutmaqdır. Bu isə öz növbəsində fərdi sektor üçün yeni innovativ prinsiplərlə idarə etmək qabiliyyətinə malik insan potensialının formalaşdırılması məsələsini gündəmə gətirir.

Göstərilən məsələlərin çözümü zamanı mütləq nəzərə alınmalıdır ki, insan potensialının formalaşdırılması bir sıra parametrlərdən asılıdır. Həmin parametrlər arasında mədəniyyət və mədəniyyətlərarası kommunikasiyanın, o sıradan da informasiyanın, çoxsahəli məlumatlandırmanın əhəmiyyəti xüsusi vurğulanmalıdır.




**Şəkil 1.** İnsan potensialının formalaşmasına təsir edən amillər




**Şəkil 2.** İnsan potensialının formalaşmasında çoxsahəli məlumatlandırmanın əhəmiyyəti

İnsan inkişafının yeni paradiqması "həyat səviyyəsi" anlayışından "həyat keyfiyyəti" anlayışına keçidi zəruri edir. Doğurdan da, ancaq həyat keyfiyyətini yüksəltmək, insanın şəxsi keyfiyyətləri ilə bağlı tələbləri və şərtləri dəyişməklə, dövlət və cəmiyyət müasir şəraitdə ölkələrin sosial-iqtisadi inkişafının birbaşa asılı olduğu insan potensialının keyfiyyətini artıra bilər. Yuxarıdakı sxemdən də aydın olduğu kimi, insan potensialı anlayışı postindustrial dövrün, informasiya və innovativ tutumlu texnologiyalara əsaslanan informasiya cəmiyyətinin inkişaf pikində olduğu bir dönəmin məhsuludur. Burada inkişafın başlıca resursu insan kapitalı, istehsalın aparıcı, stimullaşdırıcı faktoru isə biliklərdir.

Azərbaycan rəhbərliyinin son dönəmdə biliklərə və innovasiyalara əsaslanan, sosial dövlətin qurulmasına yönəlik strateji siyasi kurs yürütdüyü heç kimə sirr deyil. Ölkənin modernləşməsi vəzifəsinin ön plana çıxması ilə insan potensialı problemi olduqca aktuallaşıb. Zamanında Azərbaycanda "neft qızılının insan qızılına" çevrilməsini prioritet hədəf kimi müəyyənləşdirən Prezident İlham Əliyev bu hədəfə çatmaq əzmini əməli fəaliyyətdə də nümayiş etdirib. 2013-cü ilin aprelində Bakıda keçirilən Davos Dünya İqtisadi Forumunun yekunundakı nitqində ölkə başçısı insan potensialının önəmini bir daha qabardıb: "Biz bilirik ki, təbii sərvətlər əbədi deyil və zaman keçdikcə tükənəcək. Bu səbəbdən də qara qızılı insan kapitalına çevirmək sadəcə şüar deyil. Bu, reallıqdır. Biz, nəinki neft və qaz erasından sonrakı dövrə hazırlaşırıq, – baxmayaraq ki, bu, hələ ən azı 100 ildən sonra baş verəcək, - o cümlədən neft və qaz gəlirlərini qeyri-enerji sektorunun inkişafı, insan kapitalı və təhsil üçün istifadə edirik. Gənc nəsil bundan bəhrələnir. Bu gün Azərbaycanda və xarici ölkələrdə

yaxşı təhsil almış gənclər ölkəmizdə mühüm biznes fəaliyyəti ilə məşğuldurlar və Azərbaycanın davamlı inkişafına töhfə verirlər" [1].

Danılmaz həqiqətdir ki, iqtisadi yüksəliş yalnız o zaman insan inkişafına yol açır ki, sadəcə adambaşına düşən gəlirin artımını təmin etmir, həm də sosial sferaya investisiya olunan dövlət xərclərinin səviyyəsinin kifayət dərəcədə olmasına imkan verir və iqtisadiyyatda resursların ədalətli bölgüsü ilə müşayiət olunur. Son illər Azərbaycan əhalisinin insan potensialının ümumi keyfiyyəti nəzərəçarpacaq dərəcədə dəyişib. Bu, ölkə rəhbərliyinin insan potensialının inkişaf resurslarına düzgün və sistemli yanaşmasının nəticəsidir. Aşağıdakı sxemdə ifadə olunan resurs yanaşma insan potensialının inkişafının idarəedilməsi sahəsində nüfuzlu beynəlxalq qurumların hesabat və reytinqlərində Azərbaycanın lider mövqelərədək irəliləməsi ilə sonuclanıb. Qeyd etmək lazımdır ki, sxemdə verilmiş faktorlar və prioritetlər insanın mövcudluğunun təkcə iqtisadi deyil, həmçinin psixoloji və xüsusilə mədəni, mənəvi, əxlaqi cəhətlərini də nəzərə alır. Bu, ölkədə gerçəkləşdirilən strateji xəttin sosialyönümlülüyünün bariz təzahürüdür. Eyni zamanda göstərilən məqam Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 noyabr 2011-ci il tarixində imzaladığı Sərəncamına əsasən hazırlanmış "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da qırmızı xəttlə keçir.




**Şəkil 3.** İnsan potensialının inkişaf resursları

İnsan potensialının inkişaf resursları üzrə göstəricilərin yaxşılaşdırılması istiqamətində tərəqqi və inkişaf təkcə ölkə daxilində deyil, dünyada da müsbət qarşılanır və Azərbaycanın iqtisadı qüdrətinin, sosial-siyasi nüfuzunun təzahürü kimi qəbul edilir. Məsələn, son illərdə demoqrafik resurslar ana və uşaq ölümünün azaldılması, QİÇS və digər təhlükəli xəstəliklərlə mübarizə, zərərli vərdişlərin maarifləndirmə yolu ilə aradan qaldırılması sahəsində real nəticələr əldə olunub. 1993-cü ildən indiyədək Azərbaycanda körpə ölümü göstəricisi təxminən üç dəfəyə yaxın azalıb. 1992-93-cü illərdə hər min diri doğulan uşaqdan 29-u bir yaşa çatanadək tələf olurdusa, 2011-ci ildə bu rəqəm 11 nəfər təşkil edib. Statistik təhlillər göstərir ki, ölkədə müstəqillik qazanılandan sonra son illərdə real və gözlənilən ömür müddəti də artmaqdadır. Azərbaycanda mövcud olan ənənəvi uzunömürlülük və aparılan iqtisadi və sosial islahatlar, dövlət siyasətinin sosialyönümlü olması ölkədə orta ömür müddətinin daha da artması üçün şərait yaradır. QİÇS və sair bu sayaq xəstəliklərlə mübarizə sahəsində də real addımlar atılıb, bir sıra layihələr həyata keçirilib. Qeyd edək ki, bu istiqamətdə dövlət qurumları ilə yanaşı, qeyri-hökumət təşkilatları, ilk növbədə Heydər Əliyev Fondunun fəaliyyəti də olduqca effektiv və nəzərə çarpandır. Sosial resurslarla bağlı ilkin olaraq təhsilin keyfiyyəti və əhalinin təhsil almaq imkanlarının daha da genişləndirilməsi istiqamətində fəaliyyət, ölkə Prezidentinin 11 iyul 2011-ci il tarixli müvafiq Sərəncamına əsasən hazırlanan Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya çərçivəsində gerçəkləşdiriləcək kompleks tədbirlərə start verilməsi xüsusi diqqət çəkir və insan inkişafına yönəlik gözləntilərin maksimum dərəcədə təmin olunmasına hesablanıb. Son on ildə insan inkişafının iqtisadi resurslarından olan yoxsulluqla bağlı tədbirlər gözəl nəticələrə gətirib çıxarıb. On ilə Azərbaycanda yoxsulluq təxminən 10 dəfə – 49 faizdən 5,5 faizədək azalıb. Bu, əlbəttə ki, iqtisadi islahatların uğurlu olmasından xəbər verir. Bununla yanaşı, Azərbaycanda 1 milyon 200 min yeni iş yerinin açılması (onlardan 900 mini daimi iş yeridir) sayəsində işsizlik kimi ciddi problemin böyük hissəsi demək olar ki, həllini tapıb. Hazırda işsizliyin səviyyəsi təxminən 5 faiz civarındadır [6]. Ölkədə gender bərabərliyinin təmin edilməsi, mədəni-dəyər oriyentasiyalarına xüsusi önəm verilməsi Azərbaycanın sosial dövlət kimi dəyərləndirilməsinə gətirib çıxarıb və sosial siyasətin bundan sonrakı illərdə də prioritet olaraq qalacağına işarədir [4].

Təbii ki, bu istiqamətdə görülməli işlər də var və əsas hədəflər artıq müəyyənləşdirilib. Bu sırada ilk olaraq ölkənin modernləşməsinin aktorları olacaq qrupların, kreativ zümrənin potensialının artırılması məsələsi aktuallıq qazanmış olur. Həmin, eləcə də əhalinin digər klasterlərində təmsil olunanların öz insan kapitallarını yeniləmək, ömürboyu təhsil almaq meyillərini stimullaşdırmaq sayəsində Azərbaycan təkcə texniki-iqtisadi deyil, sosial və sosio-mədəni sahələrdə də modernləşmə imkanlarını bütövlükdə reallaşdıraraq uğurlu və innovativ insan inkişafı modelini təqdim etmiş olar. Qeyd olunan istiqamətdə uğurun yeganə yolu kimi təhsil sistemlərində müasir təsnifatların (bilik, bacarıq, qabiliyyət, vərdişlər) inkişafı, təkcə özəl deyil, həm də dövlət sektorunda insan potensialının kapitallaşdırılması infrastrukturunun formalaşdırılması nəzərdən keçirilə bilər. Bir sözlə, təbii və sosial resursların maddi nemətlər və rifaha transformasiyası üstəgəl iş, innovasiyalar və intellektual nailiyyətlər insanın həqiqi zənginliyi və inkişafının açarıdır.

**Ədəbiyyat:**

1. İlham Əliyevin yekun nitqi, Davos Dünya İqtisadi Forumu, Bakı, aprel 2013.
2. Ələkbərov U. "Davamlı insan İnkişafı və ekoloji sivilizasiyanın əsasları". Bakı, 2013

3. “Azərbaycan 2020: gələcəyə baxış ” inkişaf konsepsiyası // Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı
4. “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası; www.president.az/files/future_az
5. Human Development Report, UNDP, New-York, 2012;
6. www.azstat.org/sdds/az/Met/L_Un.shtml
7. Draft Medium-Term Strategy (2014-2021); UNESCO Paris, Franse, General Conference 37 th; 5-20 november 2013;
8. http//hdr.undp.org/nhdr/impact
9. Человеческий потенциал: опыт комплексного подхода / Под ред. И.Т. Фролова. М., 1999;
10. Буланов В., Катайцева Е. Человеческий капитал как форма проявления человеческого потенциала // Общество и экономика. – 2011. – № 1. – с.13-22.

***Açar sözlər:*** *insan potensialı, inkişaf resursları, insan inkişafı indeksi, davamlı inkişaf*

**Ziyafət Habibova**

***Head of the Teaching-Methodical and Analytical Department of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Doctor of Political Sciences, Professor***

## HUMAN RESOURCES AS THE BASIS OF HEYDAR ALIYEV’S STRATEGY FOR DEVELOPMENT

### ABSTRACT

Today, in an era of radical changes in the development of algorithms relevant to any country, the question of identifying driving forces adequate for innovative development that can ensure its solution is relevant for any country in the world. In this situation, the governance can and should rely only on the creative forces and improving the quality of life for the people. These issues clearly need to be addressed within the concept of “human potential”. “The essential” approach to this conception reveals modern contradictions in human development and identifies new principles of social reproduction in the transition to a new civilization. The value of the concept of “human potential” is primarily in the fact that it is founded based on an assessment of the state of a country that includes not only traditional macroeconomic parameters but also the characteristics of the health and education of the population, and the most valuable thing is to give the same importance to all three of these components.

The necessity of examining “internal analysis” in every country includes not only the already-mentioned three components of human development (economy, health, and education), but also its different projections of intellectual potential, population potential, personal capacity, etc. We tried to collate all these projections and concepts with the human development concept to implement a comparative analysis of the concept of human capital, human resources, social capital, symbolic capital, life potential, and personal potential in the context of the human development concept as a qualitative transformation of its forms. This article also gives a theoretical and methodological reproduction of the human potential in the condition of change, the transition to an innovation economy, and identifies and discloses the socio-economic content and originality of the reproduction of human potential, the sociological parameters of the human potential of the Azerbaijan Republic. The article draws a parallel between the dynamics of the human development index of the country and public policies in this area, which are considered risk factors, phenomena,

processes, trends, etc., and create a threat to the conservation, development, and realization of human potential in the Republic of Azerbaijan.

***Keywords:*** *human potential, resources of development, human development index, continuous development*

**Зияфет Хабибова**

***Заведующая Учебно-методическим и аналитическим отделом Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор политических наук, профессор***

## ЧЕЛОВЕЧЕСКИЙ ПОТЕНЦИАЛ КАК ОСНОВА СТРАТЕГИИ РАЗВИТИЯ ГЕЙДАРА АЛИЕВА

### РЕЗЮМЕ

Сегодня, в эпоху радикальной смены алгоритмов развития, актуальным для любой страны мира является вопрос выявления адекватных для инновативного развития движущих сил, способных обеспечить ее решение. В данной ситуации государственное управление может и должна опираться только на творческие силы и улучшение качества жизни народа. Эти вопросы однозначно необходимо решать в рамках концепции «человеческого потенциала». «Сущностный» подход данной концепции позволяет выявить современные противоречия человеческого развития и определить новые принципы общественного воспроизводства в условиях перехода к новой цивилизации. Ценность концепции «человеческого потенциала» прежде всего в том, что базирующаяся на её основе оценка состояния той или иной страны включает в себя не только традиционные макроэкономические параметры, но также характеристики здоровья и образования населения. И что самое ценное – всем этим трём составляющим придаётся одинаковая значимость.

В статье обосновывается необходимость рассмотрения для «внутренного анализа» в каждой стране не только уже упомянутые три составляющие человеческого потенциала (экономика, здоровье, образование), но и его различные проекции – интеллектуальный потенциал, популяционный потенциал, личностный потенциал и т.п. Далее автором сопоставляются все эти проекции и понятия с концепцией человеческого потенциала, проводится компаративный анализ понятий человеческий капитал, человеческие ресурсы, социальный капитал, символический капитал, жизненный потенциал, личностный потенциал в контексте концепции человеческого потенциала, как качественных форм его трансформации. Также теоретико-методологически обоснована воспроизводство человеческого потенциала в условиях перемен, перехода к инновационной экономике, выявлены и раскрыты социально-экономическое содержание и своеобразие воспроизводства человеческого потенциала, социологические параметры качества человеческого потенциала Азербайджана и роль Общенационального лидера Гейдара Алиева в процессе его формирования. В работе проведена параллель между динамикой индекса развития человеческого потенциала страны и государственной политикой в этой области, рассмотрены факторы риска, т. е. явления, процессы, тенденции и т. п., создающие угрозы для сохранения, развития и реализации человеческого потенциала Азербайджана.

***Ключевые слова:*** *человеческий потенциал, ресурсы развития, индекс человеческого развития*

UOT 321:342.4

**ADİL VƏLİYEV**

***Azərbaycan Respublikası Milli Məclisi Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent***

*e-mail:adilveliyev@rambler.ru*

# HEYDƏR ƏLİYEV – AZƏRBAYCANDA MÜASİR QANUNVERİCİLİK SİSTEMİNİN DÖVLƏT TƏMİNATÇISI

*Hər bir demokratik dövlətdə, hakimiyyət bölgüsü prinsipi əsasında qurulmuş dövlətdə qanunvericilik fəaliyyəti çox mühüm əhəmiyyət kəsb edir*

*Heydər Əliyev*

Bəşəriyyətin çoxəsrlik tarixi təcrübəsi sübut edir ki, xalqların və dövlətlərin inkişafında liderlərin rolu əvəzsizdir. Güclü lideri olan dövlətlər və millətlər çox yüksək inkişaf yolu keçmiş və tarixi uğurlar əldə etmişlər. Belə liderlər bizim xalqın tarixində də yetişmiş, Azərbaycanımızın inkişafında, dövlətçiliyimizin yaranıb möhkəmlənməsində, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında əhəmiyyətli rol oynamışlar. Onların arasında öz işıqlı əməlləri ilə bu xalqı müstəqilliyə qovuşdurmuş, dövlətçiliyimizin daha da möhkəmlənməsində müstəsna xidmətləri olmuş Ulu Öndər Heydər Əliyevin adı hər zaman qürur hissi ilə çəkilməkdədir. Azərbaycanın tarixi şəxsiyyətlərinin fövqündə yer alan bu dahi insanın xalqımız qarşısındakı xidmətləri ölçüyəgəlməzdir. Azərbaycan dövlətinin, müstəqilliyinin mövcudluğu üçün xalqımız məhz Ümummilli Lider Heydər Əliyevə borcludur.

Otuz ildən artıq bir müddətdə Azərbaycan dövlətçiliyinin taleyi dahi və uzaqgörən şəxsiyyət, öz xalqını və vətənini canından artıq sevən ən böyük azərbaycanlı, şərəfli adı bizim üçün həmişə əziz və unudulmaz olan Heydər Əliyevlə bağlı olmuşdur. Bu illər xalqımızın milli mənlik şüurunun oyanışı, azadlıq və müstəqillik hissinin güclənməsi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatının vüsətli dirçəlişi ilə əlamətdar olmuşdur. Bütün həyatını və siyasi fəaliyyətini böyük tarixi keçmişi və zəngin mədəniyyəti ilə fəxr etdiyi xalqının və vətəninin tərəqqisinə həsr etmiş Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxaraq, ölçüyəgəlməz irəliləyişə nail olmuşdur.

Çoxəsrlik dövlətçilik tariximizdə müstəsna yeri olan Ümummilli Liderimizin fəaliyyəti təkcə Azərbaycan üçün deyil, həm də postsovet məkanı üçün mühüm əhəmiyyət daşımaqla yanaşı, dünya miqyasında gedən proseslərə də birbaşa təsir göstərmişdir.

1969-cu ilin iyulunda Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanın taleyində və tarixində dönüş başlandı. Xalqımızın mənəvi-əxlaqi dəyərlərinə söykənən geniş miqyaslı tədbirlər həyata keçirilməsi sayəsində insanlarda nəinki milli ruhun və özünüdərkin oyanışını şərtləndirdi, həmçinin, onların ictimai fəallığının və işgüzarlığının yüksəlməsinə təkan verdi. Milli qürur hissinin güclənməsi, milli şüurun yüksəlməsi sosial-iqtisadi və mədəni həyatın bütün sahələrinin

dirçəlişi üçün zəmin oldu. Bu, xalq ruhuna dərindən bələd olan respublika rəhbərinin təşəbbüskarlığının və uzaqgörənliyinin nəticəsi idi.

Tarixi hadisələrin sonrakı gedişi də sübut etdi ki, Heydər Əliyevin 1969-1982-ci illərdə gördüyü işlər gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün şərait yaratdı. Həmin dövrdə respublikada bərqərar edilən əsl işgüzarlıq mühiti, sosial ədalətə əsaslanan sağlam mənəvi-psixoloji durum iqtisadi tərəqqinin yüksək həddə çatmasına, Azərbaycanın keçmiş ittifaq miqyasında nüfuz qazanmasına, hətta beynəlxalq səviyyədə tanınmasına imkan verdi. Azərbaycanın indiki siyasi və iqtisadi müstəqilliyi, beynəlxalq münasibətlər sisteminə və dünya iqtisadiyyatına inteqrasiyası hələ 1970-80-ci illərdə təməli Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır.

XX-XXI əsrlərin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərlə sadiq müstəqil bir dövlət kimi formalaşması böyük öndərimizin fədakar siyasi fəaliyyətinin nəticəsi, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə onun hakimiyyətə qayıdışının bəhrəsidir. İyunun 15-də Heydər Əliyev xalqın təkidli tələbi və yenilməz iradəsi ilə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Həmin gün parlamentin tarixi iclasında Heydər Əliyev çıxış etdi: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni öz üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək." [5, 459]

Heydər Əliyevin Ali Qanunvericilik orqanına sədr seçilməsi respublika həyatında çox mühüm bir hadisə oldu. Belə bir möhtəşəm siyasi qayıdış, sözün həqiqi mənasında Azərbaycanı azərbaycanlılara, milləti özünə qaytardı. Hadisələrin sonrakı gedişi göstərdi ki, 15 iyun Azərbaycanın müstəqillik tarixində yeni siyasi eranın başlanğıcı oldu!

Heydər Əliyev Ali Sovetin sədri kimi ilk gündən parlamentarizm ənənələrinə sadiq qalaraq aşkarlıq prinsipinə üstünlük verdi. Milli Məclisin iclasları, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr birbaşa yayımla televiziya ekranlarına verildi. Ölkədəki vəziyyət olduğu kimi xalqa çatdırıldı. İctimai-siyasi həyatdakı gərginliyin aradan qaldırılması üçün lazımi tədbirlər görülməyə başlandı.

Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Ali Sovetə rəhbərlik etdiyi dövrdə parlamentarizm ənənələri yeni nəfəs, yeni qüvvə aldı. Ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul edildi. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailəsinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Konstitusiyada və müxtəlif hüquqi sənədlərdə dəyişikliklər edildi.

Heydər Əliyev bu dövrdə əhalini döyüş ruhunu qaldırmaq, müharibə dövrünə uyğun təbliğat aparmaq, qanunsuz silahlı dəstələri zərərsizləşdirmək üçün lazımi tədbirlər görür, ölkədəki vəziyyət barədə fikirlərini tez-tez xalqla bölüşürdü.

Heydər Əliyev parlamentin sədri kimi Azərbaycanın strateji maraqları əsasında ölkənin yeni xarici siyasət konsepsiyasını, onun

beynəlxalq münasibətlər sistemində yerini müəyyənləşdirdi. İlk növbədə AXC hakimiyyətinin bu sahədə buraxdığı kobud səhvlər tezliklə aradan qaldırıldı.

Ali Sovetin sədri mədəniyyətin, elmin və təhsilin inkişafına da böyük diqqət yetirir, alimlərlə, gənclərlə görüşlər keçirir, onlarla ölkənin gələcəyi barədə fikirlərini bölüşürdü.

Parlamentin sədri vəzifəsində fəaliyyət göstərən Heydər Əliyev qanunun aliliyi, azad vətəndaş cəmiyyəti prinsiplərinin bərqərar olması zəruriliyini dəfələrlə vurğulayırdı: "Azərbaycan Respublikası demokratik yolla getməlidir, Azərbaycanda həqiqi demokratiya prinsipləri yaranmalıdır, inkişaf etməlidir, Azərbaycanda siyasi plüralizmə imkan yaradılmalıdır. Azərbaycan çoxpartiyalı bir cəmiyyət kimi yaranmalıdır, partiyaların fəaliyyətinə şərait yaradılmalıdır, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə getməlidir. Azərbaycanda milli həmrəylik, insanlar, siyasi partiyalar, qurumlar arasında sülh və sağlam rəqabət əhval-ruhiyyəsi yaranmalıdır." [5, 153]

Milli Məclisin iyulun 3-də keçirilən iclasında Heydər Əliyev bildirdi ki, o, AXC hökuməti zamanı neft sahəsindəki bütün danışıqları müvəqqəti olaraq dayandırır və hesab edir ki, bu məsələ mütəxəssislər tərəfindən ətraflı öyrənilməli və yalnız onların rəyindən sonra hər hansı bir qərar qəbul edilməlidir və bu zaman Azərbaycan xalqının mənafeyi əsas götürülməlidir. Zaman bu görkəmli dövlət xadiminin haqlı olduğunu bir daha sübut etdi.

Cəmi dörd ay Ali Sovetin sədri vəzifəsində çalışsa da, Heydər Əliyev bu qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, Milli Məclisə siyasi mədəniyyət gətirdi. Onun iclası aparmaq tərzi, fikirlərini dəqiq əsaslandırması, çıxışların məğzini tutmaq bacarığı, qiymətli fikirləri ümumiləşdirmək qabiliyyəti özlüyündə parlamentin üzvləri üçün yeni bir örnək, əsl parlamentarizm məktəbi idi.

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin Ali Sovetin sədri vəzifəsində çalışdığı qısa zaman kəsiyində Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyuldu. Heç də təsadüfi deyildir ki, 1993-cü il 3 oktyabr tarixli prezident seçkilərində seçicilərin 98,8 faizi Heydər Əliyevə səs verərək ölkənin taleyini bu görkəmli dövlət xadiminə həvalə etmək niyyətində olduqlarını bütün dünyaya nümayiş etdirdilər.

Müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının təmini məqsədilə həyata keçirilən hüquqi islahatlar içərisində ən mühümü məhz yaşamaq hüququnun təmini istiqamətində həyata keçirilən tədbirlər planı olmuşdur. 1993-cü ildə Heydər Əliyevin ilk qərarlarından biri məhz ölüm cəzasının tətbiqi üzərində moratorium qoyulması oldu.

Heydər Əliyev bugünkü Azərbaycan dövlətinin qurucusu olmaqla yanaşı həm də haqlı olaraq müasir Azərbaycan parlamentinin banisi sayılır. Sovet dövründə digər sosialist respublikalarında olduğu kimi Azərbaycanda da parlamentin qəbul etdiyi qanun və qərarlar Kommunist Partiyasının siyasi, iqtisadi və ideoloji məqsədlərini həyata keçirməyə xidmət edirdi. XX əsrin 50-60-cı illərində respublikada milli-mənəvi dirçəliş istiqamətində bir sıra ehtiyatlı addımlar atılsa da bu sahədə məqsədyönlü iş Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçildiyi vaxtdan başlandı. Respublikanın rəhbəri kimi Heydər Əliyev ilk gündən uzaqgörənliklə bütün dövlət hakimiyyəti orqanlarının, o cümlədən parlamentin işini xalqın iqtisadi və sosial-mədəni tərəqqisinə, milli dirçəliş siyasətinin reallaşmasına yönəltdi. O, mahir siyasətçi kimi Ali qanunvericilik orqanının mövcud imkanlarından bacarıqla istifadə edərək milli oyanışın və gələcək müstəqilliyin möhkəm təməlini qoydu.

Demokratik hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycan xalqı milli müstəqillik əldə etdikdən sonra bir çox çətinliklərlə qarşılaşmışdı. O dövrdə ölkəmizdə hökm sürən hərc-mərclik, özbaşınalıq, qanunsuz silahlı birləşmələrin mövcudluğu, cinayətkarlığın tüğyan etməsi, insanların dinc və təhlükəsiz yaşamasını qəsdə məruz qoymuşdu.

Ulu Öndərimizin həyata keçirdiyi siyasət nəticəsində dövlətçiliyimiz möhkəmləndirildi, ictimai-siyasi sabitlik bərqərar edildi, qanusuzluqlara, zorakılığa, cəzasızlıq əhval-ruhiyyəsinə son qoyuldu. Vətəndaşlarımız təhlükəsiz yaşamaq hüququ əldə etdilər. Bütün bunlar demokratik cəmiyyətin qurulmasına, insanların hüquq və azadlıqlarının müdafiəsinə təminat verdi.

1995-ci ilin noyabrın 12-də Azərbaycanın tarixində ilk dəfə olaraq müstəqil dövlətimizin Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas müddəalarını özündə əks etdirən Konstitusiyada insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olundu. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə söykənərək yaradılan Konstitusiyamız hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu.

Qeyd olunduğu kimi, 1993-cü ilin iyun ayından ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulmuş, daha sonra ölüm cəzasının tətbiqi məhdudlaşdırılmış və 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzası ləğv edilmişdir. Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığımıza əsaslanmaqla humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan Ulu Öndərin gələcək nəsillərə misilsiz töhfəsi oldu.

Dövlət başçısının 3 fevral 1998-ci il tarixli müraciətində deyilirdi: “Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm” [9]. Ölüm cəzasının ləğvi Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolunda olmasını bir daha sübut etdi.

Həmin dövrdə həlli vacib olan məsələlərdən biri davam etməkdə olan Ermənistan-Azərbaycan müharibəsinin gedişinə təsir göstərə biləcək qəti addımlar atılması idi. Bunsuz ölkənin ərazi bütövlüyünü qorumaq, daxili ictimai sabitliyə nail olmaq mümkün deyildi. Milli Ordunun döyüş qabiliyyətinin artırılması və geniş miqyaslı müdafiə tədbirlərinin həyata keçirilməsi, döyüşçülərdə yaranan ruh yüksəkliyi sayəsində düşmənə qarşı bir neçə uğurlu hərbi əməliyyat aparıldı. Belə şəraitdə beynəlxalq qüvvələrin təsiri altında münaqişə tərəfləri atəşi dayandırmaq barədə razılığa gəldilər. Bu barədə saziş 1994-cü ilin mayında imzalandı və münaqişənin dinc vasitələrlə aradan qaldırılmasına prioritet istiqamət sayıldı. Ötən dövrdə bu istiqamətdə göstərilən səylər konkret nəticə verməsə də, atəşkəs rejimi Azərbaycanın müstəqil dövlət kimi yaşamasını, sonrakı inkişafını və nəhayət 26 ildən sonra möhtərəm Prezidentimiz, Ali Baş komandan cənab İlham Əliyevin rəhbərliyi ilə xalqımızın və qüdrətli ordumuzun 44 günlük Vətən müharibəsində tarixi qələbəsini şərtləndirən əsas amillərdən biri olmuşdur.

Belə bir faktı qeyd etməyə dəyər ki, Heydər Əliyevin ölkə iqtisadiyyatında köklü dəyişikliyə gətirib çıxaran və müstəqil dövlətimizə beynəlxalq nüfuz qazandıran yeni neft strategiyasının həyata keçirilməsinə məhz atəşkəsdən sonra başlanıldı və 1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə “Əsrin müqaviləsi” adlandırılan ilk neft müqaviləsi imzalandı.

Lakin müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafın bünövrəsinin qoyulması Azərbaycanı yenidən anarxiya və başıpozuqluq girdabına salaraq, bundan öz mənfəətləri naminə istifadə etmək istəyən daxili və xarici qüvvələrin ciddi müqaviməti ilə üzləşdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə silahlı cəhdlərin göstərilməsi müstəqil dövlətçiliyimiz üçün növbəti sınaqlar oldu. Azərbaycan Prezidenti Heydər Əliyevin qətiyyəti, xalqın öz qüdrətli liderini qızğın şəkildə dəstəkləməsi nəticəsində bu təhlükəli cəhdlərin qarşısı alındı, ölkədə hakimiyyəti zor və silah gücünə ələ keçirmək ənənəsinə birdəfəlik son qoyuldu.

1993-1995-ci illər müasir Azərbaycanın tarixinə dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə dövrü kimi yazılmışdır. İctimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edilməsi bu dövrün ən mühüm nailiyyəti oldu və Ümummilli Liderimizə dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq, geniş miqyaslı və ardıcıl islahatlar aparmaq üçün əlverişli imkan yaratdı.

Böyük öndərimiz əmin idi ki, demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığın, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Siyasi, iqtisadi, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda Konstitusiyanın – Əsas Qanunun rolu qat-qat artır.

Bu bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunması və müstəqillik tariximizdə ilk parlament seçkiləri keçirilməsi ilə Azərbaycanın tarixi inkişafının yeni bir mərhələsi başlandı. Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış ümumxalq müzakirəsinə çıxarılan Konstitusiya layihəsi həmin il, yəni 1995-ci ilin noyabrın 12-də keçirilən referendumda – ümumxalq səsverməsində qəbul edilmişdir. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər fundamental hüquq və azadlıqları öz əksini tapmışdır.

Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə islahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm sənədlər qəbul edilmiş, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə xeyli tədbirlər həyata keçirilmişdir.

Bu tədbirlər sırasında Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasını xüsusi qeyd etmək lazımdır. Bu komissiya xalqımızın dövlətçilik tarixində yaratdığı ənənələri qorumaqla inkişaf etmiş dövlətlərin hüquq islahatları ilə bağlı təcrübəsindən də bəhrələnmişdir. Komissiyanın 4 may 1996-cı ildə keçirilmiş iclasında Ümummilli Liderimiz Heydər Əliyev demişdir: "Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. Bu baxımdan məhkəmə, hüquq-mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm əhəmiyyət kəsb edir. İndi qarşımızda Konstitusiya əsasında qanunların qəbul olunması kimi çox böyük vəzifələr var. Hər sahədə qanunlar qəbul edilməlidir. İndi mən vaxt deyə bilmərəm, - bir il, iki il, - hər halda müəyyən bir zaman ərzində nail olmalıyıq ki, bütün sahələr üzrə müstəqil Azərbaycan dövlətinin qanunları olsun" [4, 67].

Heydər Əliyevin Hüquq İslahatları Komissiyasındakı bu nitqi respublikamızda qanun yaradıcılığı sahəsində həyata keçirilən böyük işlərin proqram sənədi kimi mühüm əhəmiyyətə malikdir.

Hüquq islahatları sahəsində çox əhəmiyyətli sənədlərdən biri də Heydər Əliyevin 1996-cı il iyunun 8-də imzaladığı "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında" sərəncamdır. Bu sənədə əsasən beynəlxalq standartlara uyğun "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında" qanun və digər hüquqi sənədlərin layihələri hazırlanıb Milli məclisdə müzakirə edilmiş və müvafiq qaydada qəbul olunmuşdur [11].

Milli Məclisin bu günə qədər qəbul etdiyi hüquqi sənədlərin böyük bir hissəsi Heydər Əliyev tərəfindən parlamentin müzakirəsinə verilmiş qanun layihələri, konvensiyalar və sazişlərdir. Respublika parlamenti bu gün də qeyd olunan istiqamətdə, yəni hüquq islahatları sahəsində xeyli tarixi sənədlər qəbul etməkdədir.

Böyük öndərimizin 22 fevral 1998-ci il tarixli "İnsan və vətəndaş hüquqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanı da hüquq islahatları baxımından mühüm əhəmiyyət kəsb edən tarixi sənədlərdəndir. Bu fərmanda ölkəmizdə insan hüquq və azadlıqlarının cəmiyyətimizdə əsas meyar olduğu xüsusilə vurğulanmış, icra strukturlarının vəzifələri müəyyən edilmişdir [10].

Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisdə ölkəmizin Avropa xalqları ailəsi ilə inteqrasiyasını gücləndirən normativ sənədlər də qəbul olunmuşdur. Parlament bu sahədə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanı, "İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyasını, "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasını təsdiq edən sənədləri, "Vətəndaşlıq haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Dini etiqad azadlığı haqqında" qanunları qəbul etmişdir [5, 207].

Məlum olduğu kimi, Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul olunması hüquq islahatları baxımından respublikamız qarşısında mühüm öhdəlik və vəzifələr qoymuşdu. Bu vəzifələrin yerinə yetirilməsi sahəsində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilmiş, Ulu Öndərin təşəbbüsü ilə Milli Məclisdə dövlət qulluğunu tənzimləyən bir sıra qanunvericilik aktları da qəbul edilmişdir.

Hüquq islahatları sahəsində Milli Məclis Heydər Əliyevin təşəbbüsü ilə bir neçə konstitusiya qanunu da qəbul etmişdir. Bunlar "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında", "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında", "Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Konstitusiya qanunlarından ibarətdir. Bütün bu sənədlər ölkəmizdə insan hüquq və azadlıqlarının qorunmasına necə böyük əhəmiyyət verdiyinin əyani təsdiqidir [5, 204].

Heydər Əliyev ölkəmizdə aparılan hüquq islahatları haqqında respublikamızın dövlət müstəqilliyinin onuncu ildönümünə həsr olunmuş təntənəli mərasimdə demişdir: "1995-ci ildə müstəqil Azərbaycanın ilk milli Konstitusiyası qəbul olundu. Həmin o il Azərbaycanın ilk Milli Məclisi seçildi. Baxmayaraq ki, 1995-ci ildə biz hələ ağır iqtisadi vəziyyətdə yaşayırdıq, ictimai-siyasi vəziyyət ardıcıl surətdə sabitləşdirildi. Bunların hamısı bizə Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, Azərbaycana xarici investisiyanın cəlb edilməsini təmin etmək, Azərbaycanın ordusunu yaratmaq, onu möhkəmləndirmək və insanların rifah halını yaxşılaşdırmaq üçün imkanlar yaratdı.

Hər bir qanunun arxasında Azərbaycanda dövlət quruculuğunu təmin etmək, iqtisadi islahatları həyata keçirmək, siyasi islahatları həyata keçirmək, sosial islahatları həyata keçirmək məsələləri durur. Azərbaycanı keçmiş sosialist ictimai-siyasi, iqtisadi sistemindən yeni sistemə keçirmək prosesini biz bu illərdə apardıq və buna da nail olmuşuq. Məhz bunların nəticəsində indi Azərbaycanda demokratik, hüquqi dövlət öz fəaliyyətini uğurla həyata keçirir. Azərbaycan xalqı bunların nəticəsində öz müstəqil ölkəsində tam azadlığa çıxardır." [7, 229].

Ulu Öndərimizin rəhbərliyi ilə ötən əsrin sonlarında Azərbaycanda dövlət quruculuğu prosesləri ilə paralel olaraq, ölkədə sosial müdafiə siyasətinin də formalaşması və həyata keçirilməsi istiqamətində mühüm addımların atılmasına başlanıldı. Büdcə imkanlarının zəif olduğu həmin vaxtlarda mövcud maliyyə imkanlarının sosial müdafiə sahəsinə, planlı təsərrüfatdan bazar iqtisadiyyatına keçidin, sərbəst qiymətlərin tətbiqinin doğurduğu çətinliklərdən əhalinin müdafiəsinə yönəldilməsi, o cümlədən, işləməyən pensiyaçılara kompensasiya verilməsi, çörəyin və çörək məmulatlarının qiymətlərinin tənzimlənməsi və əhalinin aztəminatlı təbəqələrinin sosial

müdafiəsinin gücləndirilməsi sahəsində görülən əlavə tədbirlər Ümummilli Lider Heydər Əliyevin xalqa bağlılığını əyani təzahür etdirməklə, eyni zamanda, sosial sahənin inkişafının onun fəaliyyətində əsas istiqamətlərindən olduğunun daha bir göstəricisi idi. “Sosial yönümlü bazar iqtisadiyyatı bizim iqtisadiyyatımızın əsas prinsipi olmalıdır” deyə bəyan edən Ulu Öndərin qəbul etdiyi qərarlar bu sözlərin dövlətin daimi güclənməsi prosesində əməli təsdiqini tapmasına xidmət edirdi [6, 114].

Ulu Öndərimizin uğurlu neft strategiyasının nailiyyəti kimi 1994-cü ilin 20 sentyabrında “Əsrin müqaviləsi”nin imzalanması respublikada iqtisadiyyatının inkişafına təkan verməklə, sosial məqsədlərin də uğurla reallaşması üçün mühüm addımların atılmasına imkan yaratdı.

Eyni zamanda, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyasında Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi və Azərbaycan dövlətinin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qaldığı ən yüksək səviyyədə bəyan edildi. Bu da dahi şəxsiyyət Heydər Əliyevin sosial dövlət ideyasının Əsas Qanun səviyyəsində təsbit edilməklə, bu ideyanın dövlətin inkişafında aparıcı amil kimi müəyyən edilməsini şərtləndirdi.

Ümummilli Liderimiz Heydər Əliyevin qəbul etdiyi qərarlar nəticəsində sosial cəhətdən həssas kateqoriyaların, o cümlədən şəhid ailələrinin, müharibə veteranlarının və əlilliyi olan şəxslərin, qaçqın və məcburi köçkünlərin, Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, Milli Qəhrəmanlara, onlardan həlak olanların ailələrinə yardım edilməsi, minimum əmək haqqı məbləğinin artırılması və s. kimi istiqamətlərdə ilk və mühüm addımlar atıldı. “Biz sosial cəhətdən köməyə ehtiyacı olan insanların sosial təminatını gündən-günə yaxşılaşdırmağa çalışmalıyıq”, deyə qeyd edən Ulu Öndərin təşəbbüsü və tapşırığı əsasında sosial cəhətdən həssas qruplarla bağlı sosial müdafiə tədbirlərinin əhatə dairəsi yeni sosial təminat və reabilitasiya məqsədli proqramlara başlanılmaqla xeyli genişləndirildi [8].

Qısa zaman ərzində respublikada nəinki sosial sabitliyə nail olundu, eyni zamanda, 1990-cı illərdə şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan vətəndaşların dövlət hesabına mənzillərlə, müharibə ilə əlaqədar əlilliyi olan vətəndaşların minik avtomobilləri ilə təminatı, fiziki məhdudiyyətli insanların qabiliyyət və istedadlarının tanıdılması üçün ümumrespublika tədbirlərin təşkili işlərinə başlanılmaqla, bu işlər ildən-ilə gücləndirildi.

Azərbaycanda sosial dövlətin möhkəm təməlinin formalaşması həm də artıq 2000-ci ildə ölkəmizin qlobal səviyyədə yoxsulluğunun kəskin şəkildə azadılmasını nəzərdə tutan beynəlxalq təşəbbüs və proqramlara fəal şəkildə qoşulmasına imkan verdi. BMT-nin 2000-ci ilin sentyabrında Nyu-Yorkda keçirilən Minilliyin sammitində 147 ölkənin qoşulduğu Minilliyin Bəyannaməsini Azərbaycan Respublikası adından imzalayan Ümummilli Liderimiz Heydər Əliyev bu mühüm sənəddən irəli gələn öhdəliklərin ölkəmizdə uğurla yerinə yetirilməsi üçün uğurlu dövlət siyasətinin də formalaşmasını təmin edib. Bəyannamədə 8 qlobal məqsəddən birincisi - ifrat yoxsulluq və aclıq içində yaşayan dünya əhalisinin sayının yarıyadək azaldılması idi. Ulu Öndərimizin müəllifi olduğu uğurlu sosial-iqtisadi inkişaf strategiyası, yoxsulluğun azaldılmasına və iqtisadi inkişafın təmin edilməsinə istiqamətlənən dövlət proqramları ölkəmizdə yoxsulluğun azaldılmasında mühüm irəliləyişlərə şərait yaratdı.

Ümumilikdə 1993-2003-cü illər Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan dövlətinin qurulması və uzunmüddətli inkişaf yoluna səfərbər olunması təmin edilərək, Azərbaycan tarixinin bu şərəfli dövründə güclü sosial siyasətin formalaşdırılmaqla daim

gücləndirilməsinə, pensiya və müavinətlərin 8 dəfə, muzdla işləyənlərin orta aylıq əməkhaqqının 6 dəfədən çox artırılmasına nail olundu. [8]

MDB məkanında ilk dəfə Azərbaycanda yeni sosial-iqtisadi münasibətlər dövrünə uyğun Əmək Məcəlləsinin, Demoqrafik İnkişaf Konsepsiyasının, məşğulluq, əmək miqrasiyası və s. sahələrlə bağlı qanunların, əlilliyin qarşısının alınması və reabilitasiyası üzrə ilk dövlət proqramının qəbul edilməsi, pensiya təminatı sisteminin qabaqcıl beynəlxalq təcrübə əsasında yenidən qurularaq təkmilləşdirilməsi üçün islahatlara başlanması təmin edildi.

Bütün qeyd edilən sosial nailiyyətlər Ulu Öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyi güclü sosial siyasətin, təkmil islahatlar proqramının nailiyyətləridir. Əminəm ki, Azərbaycanın sosial inkişaf modelini təzahür etdirən bu uğurlar qarşıdakı dövrdə də davam edəcəkdir.

Torpaqlarımızın, Qarabağın işğaldan azad olunması Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından biri idi. O, Azərbaycan Prezidenti vəzifəsində çalışarkən problemin həlli üçün böyük çabalar göstərib. Heydər Əliyev Azərbaycanın qələbəyə doğru atılan addımlarının əsaslarının qoyulması istiqamətində əhəmiyyətli xidmətlər göstərib. 1996-cı ildə ATƏT-in Lissabon Sammitində bu istiqamətdə ilk diplomatik uğur qazanılıb. Heydər Əliyev bütün dünyaya Qarabağ həqiqətlərini çatdırıb. Diplomatik fəaliyyətlə yanaşı, güclü ordu quruculuğuna xüsusi diqqət yetirilib.

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi Heydər Əliyevin arzu etdiyi qələbə sevincini xalqa bəxş etmiş olub. Bu zəfərin əldə olunmasının həlledici amili Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev olub. Hərbi, diplomatik və informasiya müstəvisində müharibənin zəfərlə başa çatması istiqamətində görülən bütün işlər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirildi. Bu da möhtəşəm qələbəmiz ilə nəticələndi.

Xalqımızın əldə etdiyi bu tarixi qələbə ilk növbədə Ulu Öndərin, eləcə də Azərbaycanın bütün şəhidlərinin ruhlarını şad etdi. Dövlət başçımızın dediyi kimi, biz şəhidlərimizin qisasını düşməndən döyüş meydanında aldıq. Bununla yanaşı, Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Həmçinin bu müsahibələr informasiya məkanında da düşmənin yalan üzərində qurulmuş təbliğat maşınına ağır zərbə vurdu və Ermənistanın təcavüzkar siyasətinin, eləcə də onun himayədarlarının ifşa olunması ilə nəticələndi. [3, 314]

Nəticədə bu, informasiya müharibəsində də Azərbaycanın haqlı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi, uzun illər Ermənistanın yürütdüyü faşist ideologiyası, xalqımıza qarşı etnik təmizləmə, soyqırımı, dövlət terrorizmi və işğalçılıq siyasətinin, eləcə də erməni yalanlarının dünya miqyasında ifşası istiqamətində əhəmiyyətli rol oynadı, tarixi ədalətin zəfər çalmasını şərtləndirdi.

Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın milli maraqlara, bəşəri dəyərlərə əsaslanan çoxcəhətli fəaliyyətinin həm ölkəmizdə, həm də beynəlxalq səviyyədə dərin rəğbətlə qarşılanmasını məmnunluq hissi ilə qeyd etmək istərdim. Belə ki, onun dövlətçiliyimizin qüdrətlənməsinə naminə həyata keçirdiyi mühüm işlər bütün digər məsələlərlə yanaşı, dövlət başçımızın geniş spektrli fəaliyyətinə dəstək olaraq əlavə bir mexanizm kimi dəyərləndirilməlidir. [12]

Azərbaycanın uğurlarını elmi əsaslarla fundamental təhlil edərək qətiyyətlə söyləmək olar ki, Azərbaycanın bugünkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı və ölməz ruhu qarşısında müqəddəs borcu, onun əsəri

olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir.

Müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin başladığı işlərin onun siyasi varisi – ölkə başçısı tərəfindən uğurlu davamı gələcəyə doğru inamla addımlayan Azərbaycanın XXI əsrdə daha yüksək zirvələr fəth edəcəyindən xəbər verir.

Respublikamızın qazandığı nailiyyətlərdə Milli Məclisin də özünəməxsus xidmətləri vardır. Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş parlamentarizm ənənələri bu gün də uğurla davam etdirilir. Qanunvericilik orqanında xalqımızın layiqli nümayəndələri təmsil olunmuşlar. Həmişə olduğu kimi, 2020-ci ildə də azad və şəffaf şəraitdə keçirilmiş demokratik seçkilər nəticəsində formalaşan altıncı çağırış Milli Məclisin çağdaş fəaliyyətində parlament diplomatiyasına xüsusi önəm verilir. Bu baxımdan, ölkəmizin xarici siyasət kursunda mühüm yer tutan Milli Məclisin uğurlu beynəlxalq fəaliyyəti qeyd olunmalıdır.

Dövlət başçısı cənab İlham Əliyevin dediyi kimi, parlament xalqın mənafelərinin həqiqi təmsilçisi olmalı, millət vəkili isə onu seçmiş insanların qayğıları ilə yaşamalıdır. Azərbaycan parlamenti öz işini bu prinsiplər üzərində qurur və daha da təkmilləşdirir [2, 279-280].

Dövlət idarəçiliyində yüksək səviyyəli prezident – parlament münasibətlərini özündə ehtiva edən Heydər Əliyev ideyalarından bəhrələnən Azərbaycan bu gün uğurları ilə dünyanı heyrətləndirir. Bu xüsusda, qeyd edilən nailiyyətlərin qazanılmasına ölkə parlamenti də öz layiqli töhfəsini verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Milli Məclisdə çıxışında bu barədə belə demişdir: "Mənim üçün Milli Məclis çox əziz və doğma bir yerdir, mənim doğma evimdir... Biz bir məqsədə qulluq edirik. Amalımız da, məramımız da birdir – ölkəmizi möhkəmləndirmək, gücləndirmək və qüdrətləndirmək, xalqımızın rifah halını yaxşılaşdırmaq, güclü, zəngin dövlət yaratmaqdır" [1, 13].

Beləliklə, azadlığı, müstəqilliyi uğrunda bütün çətinliklərə mərdliklə sinə gərmiş mübariz Azərbaycan xalqı bu gün Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi, prezident İlham Əliyevin rəhbərliyi ilə öz şanlı tarixinin yeni parlaq səhifəsini yazmaqdadır.

Tam əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev bu gün dövlətimiz qarşısında taleyüklü məsələləri xalqımızın dəstəyi ilə həll etməkdə və Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətçilik irsini öz quruculuq fəaliyyəti ilə daha da zənginləşdirməkdədir. Məhz bu fəaliyyət nəticəsidir ki, keyfiyyət baxımından yeni mərhələyə daxil olmuş qalib dövlətimiz, həm də beynəlxalq etirafa nail olmuş güclü dövlət statusu qazanmışdır. Belə dövlətin vətəndaşı olmaq isə şərəf və fəxarətdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası və deputatlıq fəaliyyətinə dair hüquqi aktlar (2022-ci il iyulun 30-dək edilmiş dəyişikliklər ilə). Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2022, 376 səh.
2. İlham Əliyev – Böyük yolun Müzəffər davamçısı (Yeni Azərbaycan Partiyası 2021). Bakı: TEAS Press Nəşriyyat evi, 2021, 596 səh.
3. İlham Əliyev – İnkişaf - məqsədimizdir. Bakı: Azərnəşr, 2020, Yüz beşinci kitab, iyul 202—sentyabr 2020, 392 səh.
4. Əsgərov Z.A. Konstitusiya hüququ. Bakı: Bakı Universiteti nəşriyyatı, 2002, 345 səh.
5. “Heydər Əliyev və Azərbaycan Parlamenti”. M.Ələsgərovun redaktəsi ilə, Bakı, AR Milli Məclisinin nəşri, 2003.
6. Ələkbərov U. “Heydər Əliyev ideyaları: inkişafın uğurlu təməli”, “Heydər Əliyev yeni cəmiyyət modeli”. Bakı, “Azərnəşr” 2014.
7. Vəliyev A.İ. Azərbaycan-Avropa Şurası: demokratiya və insan hüquqları sahəsində əməkdaşlıq. – Bakı: “Elm”, 2006, 236 səh.
8. Vəliyev A.İ. Azərbaycan Respublikasının qanunvericilik sistemində sosial və əmək qanunvericiliyi mühüm komponenti kimi/ “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” elmi-nəzəri jurnal, DİA-nın nəşriyyatı, №3 (63), Bakı- 2018.
9. Vəliyev A.İ. Azərbaycan Respublikasının qanunvericilik sistemində insan və vətəndaş hüquq və azadlıqları daxili siyasətin mühüm komponenti kimi/ “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” elmi-nəzəri jurnal, DİA-nın nəşriyyatı, №4(48), Bakı - 2014.
10. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları www. president.az
11. Azərbaycan Respublikasının Milli Məclisi. Azərbaycan Respublikasının qanunları www. meclis.gov.az
12. www. heydar-aliyev.org


***Açar sözlər:*** *Parlament, qanunvericilik, Konstitusiya, normativ-hüquqi baza, hüquq islahatları, sosial siyasət, qanunun aliliyi*

**Adil Valiyev**

***Head of Social Legislation Department***
***Milli Majlis Apparatus of the Republic of Azerbaijan,***
***Associate Professor, Ph.D. in Political Sciences***

# HEYDAR ALIYEV– STATE PROVIDER OF THE MODERN LEGISLATIVE SYSTEM IN AZERBAIJAN

## ABSTRACT

The article analyzes the outstanding contributions of the great leader Heydar Aliyev during the period of his leadership of Azerbaijan regarding the strengthening and further development of our sovereign state, the formation of the traditions of parliamentarism, the establishment of a strong legal framework, the defense of human rights and freedoms, as well as the protection of the constitutional system of the Republic.

The study explores the efforts of the national leader Heydar Aliyev in social welfare on the basis of a theoretical-practical perspective. The indicated approach enables a more in-depth comprehension of the scope and significance of his endeavors.

The article examines the state policy founded by Heydar Aliyev in 1993, which aimed at establishing the principle of adherence to the rule of law in the Republic and his successful efforts to ensure a more effective modern legislative system in the country. It also covers the programmatic theses that the national leader left behind for the sustainable development of our statehood and the successful implementation of these theses by the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev.

This article provides an in-depth analysis of the guidance provided by the criterion of the supremacy of the rule of law for the adoption of new state programs and legislative acts and the implementation of the legal acts concerning human rights in accordance with the highest standards under the leadership and initiative of the great leader.

***Keywords:*** *Parliament, legislation, Constitution, legal framework, legal reforms, social policy, the rule of law*

**Адиль Велиев**

***Заведующий отделом Социального законодательства Аппарата Милли Меджлиса Азербайджанской Республики, доктор философии по политическим наукам, доцент***

# ГЕЙДАР АЛИЕВ – ГОСУДАРСТВЕННЫЙ ГАРАНТ СОВРЕМЕННОЙ ЗАКОНОДАТЕЛЬНОЙ СИСТЕМЫ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

В научной статье, в первую очередь, исследуются исключительные заслуги Общенационального лидера Гейдара Алиева в период его руководства Азербайджаном в области усиления и дальнейшего развития независимого государства, формирования и создания традиций парламентаризма и крепкой правовой базы, обеспечения прав и свобод человека и сохранения (защиты) конституционного устройства республики.

Наряду с этим, в статье на основе теоретико-экспериментальных положений проводится обзор деятельности Общенационального лидера Гейдара Алиева в социальной сфере, что позволяет еще глубже осознать масштаб и значение его личности.

В статье особо подчеркивается успешная деятельность Гейдара Алиева в период с 1993-го года в сфере намеченной им государственной политики, направленной на восстановление верховенства закона, еще более продуктивного обеспечения современной законодательной системы в республике. Автор исследует успешное претворение в жизнь Президентом Азербайджанской Республики оставленного Общенациональным лидером Гейдаром Алиевым наследия программного характера по устойчивому развитию страны.

В целом, в научной статье основательно рассмотрена четкая направленность на верховенство закона государственных программ и законодательных актов, а также новых законодательных актов в области прав человека, соответствующих самым высоким правовым нормам, принятых по инициативе и под руководством Общенационального лидера Гейдара Алиева.

***Ключевые слова:*** *Парламент, законодательство, Конституция, нормативно-правовая база, правовые преобразования, социальная политика, верховенство закона*

DOI:10.30546/dia.2.82.2023.113


UOT 101.1:316

**ETİBAR NƏCƏFOV**

***Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Fəlsəfə və sosial psixologiya" kafedrasının professoru, fəlsəfə elmləri doktoru***

*e-mail: eanajafov@gmail.com*

# MULTİKULTURALİZMİN AZƏRBAYCAN MODELİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

Müasir qloballaşma dövrünün əsas xüsusiyyətlərindən biri cəmiyyətdə etnik, irqi, dini və mədəni müxtəlifliklərin artmasıdır. Bu müxtəlifliklərin formalaşması tarixi prosesin inkişafının nəticəsi kimi obyektiv xarakter daşıyır. Onlar xalqların etnik-mədəni dəyərlərini, mədəniyyətlərini xarakterizə edir və onların dünyagörüşü və fəaliyyətlərinin əsasını təşkil edir. Buna görə də etnik-mədəni müxtəliflik xalqların həyatında müsbət rol oynayır.

Etnik-mədəni müxtəliflik ictimai inkişafın mühüm amillərindən biridir. Bununla bağlı 2 noyabr 2001-ci il tarixində UNESKO-nun "Mədəni müxtəliflik haqqında ümumdünya Bəyannaməsi"nin "Mədəni müxtəliflik, bəşəriyyətin ümumi irsi" adlı 1-ci maddəsində qeyd olunmuşdur: "Mübadilənin, innovasiyanın və yaradıcılığın mənbəyi olan mədəni müxtəliflik təbiət üçün biomüxtəlifliyin zəruri olduğu kimi bəşəriyyət üçün zəruridir. Buna görə də mədəni müxtəliflik bəşəriyyətin ümumi irsidir və o, indiki və gələcək nəsillərin rifahı naminə tanınmalı və təsdiq olunmalıdır" [15, 1]. Cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin qorunmasına yüksək önəm verən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir" [3].

Etnik-mədəni müxtəliflik mahiyyətinə görə müsbət hadisə olsa da, onun müsbət rolu bir növ imkandır. O, özü-özünə gerçəkləşmir. Bunun üçün dövlət tərəfindən cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsi gərəkdir. Dövlət tərəfindən etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin 3 əsas mümkün siyasət modeli vardır: assimilyasiya, izolyasiya və multikulturalizm.

### Assimilyasiya siyasət modeli

Assimilyasiya siyasəti milli azlıqların etnik-mədəni dəyərlərini titul etnosun mədəniyyətinə qatmaqla cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin ləğv edilməsini nəzərdə tutur. Bir qayda olaraq assimilyasiya siyasəti milli azlıqların dillərinin, mədəniyyətlərinin, hətta bir çox hallarda milli özünüdərketmələrinin itirilməsi ilə nəticələnir. Assimilyasiya könüllü və zorakı yolla həyata keçirilə bilər. Birinci halda milli azlıqlar düşdükləri şəraitə uyğunlaşmaq, orada irəliləmək üçün titul xalqın qoyduğu tələblərə uyğun olaraq onun təklif etdiyi mədəni dəyərləri qəbul edirlər. Nəticədə onlar tamamilə də olmasa müəyyən dərəcədə öz adət-ənənələrindən könüllü şəkildə əl çəkirlər, dillərini tədricən unudurlar. Assimilyasiyanın əyani misalı kimi ABŞ-dakı etnik inkişafı obrazlı şəkildə təsvir edən

"əridən qazan" (Melting pot) konsepsiyasını göstərmək olar.

Zorakı assimilyasiya məqsədyönlü şəkildə titul etnos tərəfindən həyata keçirilən siyasətdir. Bu siyasətin əsas məqsədi milli azlıqlara məcburi şəkildə hakim mədəniyyətin dəyərlərinin yeridilməsidir. Zorakı assimilyasiya akkulturasiya prosesinin bir forması kimi çıxış edir. Məlum olduğu kimi, akkulturasiya adətən bir xalqın başqası tərəfindən işğalı nəticəsində baş verir və işğala məruz qalan xalq öz etnik-mədəni dəyərlərindən əl çəkməyə və onu işğal etmiş xalqın təklif etdiyi dəyərləri qəbul etməyə məcbur olur.

Könüllü və zorakı assimilyasiya arasında olan fərqi aşağıdakı formulalar vasitəsilə göstərmək olar:

*1. Könüllü assimilyasiyanın formulu:*

Amerikalı politoloq Vilyam Nyumen 1973-cü ildə dərc olunmuş "Amerika plüralizmi: azlıq qruplarının öyrənilməsi və sosial nəzəriyyə" adlı kitabında könüllü assimilyasiyanın formulunu belə təqdim etmişdir [13, 18]:

$$A+B+C=D$$

A, B, C – cəmiyyətdə mövcud olan xalqlar və onların mədəniyyətləri;

D – assimilyasiya nəticəsində yeni formalaşmış xalq və onun mədəniyyəti.

Bu formuladan göründüyü kimi, assimilyasiyaya cəmiyyətdə olan bütün xalqlar, yəni həm titul xalq, həm də milli azlıqlar məruz qalırlar. Sözsüz ki, yeni formalaşmış mədəniyyətin əsasını titul xalqın mədəniyyəti, dili və digər etnik-mədəni dəyərləri təşkil edir. Lakin bununla belə qeyd etmək lazımdır ki, yeni formalaşmış mədəniyyətdə milli azlıqların da etnik-mədəni dəyərlərinin bəzi elementləri öz əksini tapır. A+B+C=D formulu "əridən qazan" konsepsiyasını da aydın şəkildə təsvir edir.

*2. Zorakı assimilyasiyanın formulu:*

Könüllü assimilyasiyanın yuxarıda verilmiş formulunun əsasında zorakı assimilyasiyanın formulunu belə təqdim etmək olar:

$$A+B+C=A$$

A – titul xalq və onun mədəniyyəti;

B, C – milli azlıqlar və onların mədəniyyətləri.

Bu formuladan göründüyü kimi, könüllü assimilyasiya ilə müqayisədə zorakı assimilyasiya prosesində milli azlıqların etnik-mədəni dəyərləri titul etnosun mədəniyyətinə qatılaraq ləğv olunur. Nəticədə yalnız titul xalq və onun mədəniyyəti qalır.

Zorakı assimilyasiyanın mahiyyəti amerikalı politoloq Milton Qordonun 1966-cü ildə Nyu--Yorkda dərc etdiyi "Amerika həyatında assimilyasiya: irqin, dinin və milli mənşəyin rolu" adlı kitabında təqdim etdiyi anqlokonformizm nəzəriyyəsində açıqlanır. Bu nəzəriyyəyə əsasən, ABŞ miqrantları qəbul edən ölkə kimi onları assimilyasiyaya məruz qoyaraq doğma mədəniyyətlərini və dillərini unutdurur. Sonra da onları hakim anqlosakson mədəniyyətini, ingilis dilini universal dəyərlər kimi qəbul etməyə məcbur edir [10, 14].

**İzolyasiya siyasət modeli**

İzolyasiya siyasəti milli azlıqların etnik-mədəni dəyərlərinin titul etnosun etnik-mədəni dəyərləri ilə hər hansı bir əlaqəsinin qarşısını alınmasını nəzərdə tutur. Bu siyasət assimilyasiya siyasətindən fərqli olaraq cəmiyyətdəki etnik-mədəni müxtəlifliyi ləğv etməklə deyil, onun yaranmasının və artmasının qarşısını almaqla tənzimləyir.

İzolyasiya siyasəti 2 formada özünü büruzə verir:

1. Miqrantların, xüsusilə milli azlıqların nümayəndələrinin ölkəyə daxil olub orada məskunlaşmasına mane olur;

2. Cəmiyyətdə artıq məskunlaşmış milli azlıqların nümayəndələrinin titul xalqın mədəniyyətinə assimilyasına mane olmaq məqsədilə onları təcrid edir. İkinci halda bu siyasət aparteid adlanır.

London İqtisadiyyat Məktəbinin professoru Çandran Kukatas "Multikulturalizmin nəzəri əsasları" adlı məqaləsində qeyd edir ki, bu və ya digər ölkədə etnik-mədəni müxtəlifliyin yaranmasının qarşısının alınmasının

praktiki cəhətdən ən real yolu miqrantların, xüsusilə də milli azlıqlara mənsub olan miqrantların ölkəyə daxil olmalarının qarşısının alınmasıdır [12, 3].

İzolyasiya siyasətinin ikinci forması aparteid siyasəti ilə bağlıdır. Aparteid siyasəti cəmiyyətdə artıq məskunlaşmış milli azlıqların nümayəndələrinin titul xalqın mədəniyyətinə assimilyasiyasının qarşısının alınmasını nəzərdə tutur.

Beləliklə, multikulturalizm siyasətinin meydana gəldiyindən əvvəl cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklər assimilyasiya və izolyasiya siyasətləri vasitəsilə tənzimlənirdi. Bu siyasətlər bir-birindən fərqlənsələr də onların hər biri cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin artmasını arzuolunmaz hal hesab edərək ona qarşı yönəlmişdir. Lakin tarixi hadisələrin sonrakı gedişatı etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə yönələn bu iki siyasət modelinin səmərəsizliyini göstərdi. Belə ki, xalqların dünyagörüşünün və fəaliyyətlərinin əsasını təşkil etməklə həyatlarında müsbət rol oynayan etnik-mədəni dəyərlərin rolunun artdığı bir dövrdə assimilyasiya siyasətinin düzgün olmadığı kimi, qloballaşma, mədəniyyətlərin qovuşduğu bir şəraitdə izolyasiya siyasətinin də yanlış olduğu müəyyən olundu. Etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə yönəlmiş assimilyasiya və izolyasiya siyasətlərinin iflasa uğraması ötən əsrin 70-ci illərində əvvəlcə Kanadada, sonra isə Avropanın bir sıra çoxmədəniyyətli ölkələrində multikulturalizm siyasətinin meydana gəlməsinin başlıca səbəblərindən biri olmuşdur. 8 oktyabr 1971-ci ildə Kanadanın Baş naziri Pyer Elliot Trüdo ölkə Parlamentində çıxış edərək multikulturalizmi rəsmi dövlət siyasəti elan etdi. O, çıxışında aşağıdakıları söylədi: "Kanadada iki rəsmi dil olmasına baxmayaraq, burada nə dominant mədəniyyət, nə də ki, başqaları üzərində üstünlüyə malik olan etnik qrup vardır. Hər bir vətəndaş kanadalıdır və ölkənin bütün vətəndaşlarına (*etnik-mədəni mənsubiyyətindən asılı olmayaraq. – E.N.*) eyni münasibət göstərilir" [14, 85].

**Multikulturalizm siyasət modeli**

Multikulturalizm siyasəti cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin qorunmasını nəzərdə tutur. Multikulturalizm etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinə yönələn bir siyasət kimi assimilyasiya siyasətindən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyərlərinin ləğv edilməsinin qarşısını almaqla və bu dəyərləri qorumaqla yanaşı, izolyasiya siyasətindən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyərləri ilə titul etnosun etnik-mədəni dəyərlərinin bir-birinə qarşılıqlı təsir etmələri üçün lazımi şərait yaradır və milli azlıqların yaşadıqları cəmiyyətə inteqrasiya olmaları üçün əlverişli imkan yaradır. Cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsində assimilyasiya, izolyasiya və izolyasiyanın variantı olan aparteid siyasət modelləri ilə müqayisədə multikulturalizm siyasəti daha səmərəlidir, çünki o, etnik-mədəni müxtəlifliyin və onun əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasına yönəlmişdir. Bundan başqa, multikulturalizmin yüksək mərhələsini təşkil edən interkulturalizm cəmiyyətdəki etnik-mədəni müxtəlifliyi tanımaqla və qorumaqla yanaşı onun əsasını təşkil edən dəyərlərin bir-birilə qovuşması, dialoqa girməsi və birləşməsi üçün şərait yaradır. Bu isə müxtəlifliyin daşıyıcıları arasında dialoq və əməkdaşlıq münasibətləri yaradaraq cəmiyyətdə inteqrasiya proseslərini gücləndirir.

Müasir qloballaşma dövründə cəmiyyətdə daima artan etnik, dini və mədəni müxtəlifliklərin tənzimlənməsində multikulturalizmin digər siyasət modelləri ilə müqayisədə alternativi olmayan ən optimal və düzgün siyasət modelidir. Bu məsələ ilə bağlı çoxsaylı çıxışlarının birində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Biz multikulturalizmi çox yüksək dəyərləndiririk... Azərbaycanın təcrübəsi göstərir ki, multikulturalizmin böyük gələcəyi var və onun alternativi yoxdur. Multikulturalizmin alternativi özünü təcridetmə, ayrı-seçkilik və irqçilikdir" [4].

Multikulturalizmin Azərbaycan modeli dünyanın ən mütərəqqi multikulturalizm modellə-

rindən biridir. Bu modelin meydana gəlməsini şərtləndirən səbəbləri 2 qrupa bölmək olar: obyektiv və subyektiv səbəblər. Obyektiv səbəblərə ilk növbədə tarixi və coğrafi faktorlar daxildir.

Tarixən Azərbaycan çoxmədəniyyətli bir dövlət olmuşdur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "leksikonumuzda nisbətən yeni söz olan multikulturalizm ənənələri Azərbaycanda əsrlər boyu həmişə mövcud olub. Sadəcə, müxtəlif cür adlanıb, lakin mahiyyəti dəyişməyib" [2, 107]. Azərbaycanın tarixinin bütün mərhələlərində onun ərazisində müxtəlif xalqların nümayəndələri birgə əmin-amanlıq şəraitində yaşamışlar.

Azərbaycan olduqca əlverişli bir coğrafi məkanda yerləşir. Bura müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu ərazidir. Müxtəlif xalqların tarixi təcrübəsinə əsasən, belə ərazilərdə yerləşən ölkələrin xalqları müxtəlif etnik, irqi, dini və mədəni qrupların nümayəndələri ilə qarşılaşaraq onlarla iqtisadi-ticarət və mədəni əlaqələrini inkişaf etdirmişlər. Bu isə öz növbəsində belə ərazilərdə multikultural mühitin formalaşması üçün əlverişli şərait yaratmışdır. Məlum olduğu kimi, ölkəmizin ərazisi müxtəlif sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir.

Azərbaycan multikulturalizminin meydana gəlməsinin və formalaşmasının subyektiv səbəbləri dedikdə ölkəni idarə edən dövlət xadimləri və Azərbaycan xalqı nəzərdə tutulur. Azərbaycanın tarixinin müxtəlif mərhələlərində ölkə başçıları cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəliflikləri elə tənzimləmişdilər ki, burada etnik və dini zəmində ciddi münaqişələr baş verməmişdir. Məhz bu səbəbdən, yuxarıda qeyd olunduğu kimi, tarixən Azərbaycanda məskunlaşmış milli azlıqlar etnik, dini və mədəni mənsubiyyətlərinə, etnik-mədəni dəyərlərinə görə burada əhalinin çoxluğunu təşkil edən və titul xalq olan Azərbaycan türkləri tərəfindən təqib olunmamış və birgə əmin-amanlıq şəraitində yaşamışlar. Azərbaycanda multikultural mühit ölkənin müstəqil olduğu zamanda daha da güclənmişdir. Məsələn, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bakı dünyanın ən çox-mədəniyyətli şəhərlərindən biri olmaqla bərabər burada etnik, dini və mədəni zəmində əhali arasında qarşıdurma, münaqişə müşahidə olunmamışdır. Parlamentdə ölkədə yaşayan bir neçə xalqın nümayəndələri deputat kimi fəaliyyət göstərirdilər. Burada bəzi milli azlıqların siyasi təşkilatları da təmsil olunmuşdur. Bundan başqa hökumətin tərkibində milli azlıqların nümayəndələri yüksək vəzifələr tuturdular. Onlardan bəziləri hətta nazir vəzifəsinə təyin olunmuşdular.

18 oktyabr 1991-ci ildə Azərbaycanda dövlət müstəqilliyinin bərpa olunması, xüsusilə 15 iyun 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının istəyi ilə hakimiyyətə qayıdışı ölkədə multikultural mühiti əsaslı şəkildə yaxşılaşdırdı. Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışının nəticəsində ölkədə olan tarixi tolerantlıq ənənələrinin qorunması və inkişafı üçün real şərait yaradıldı, eləcə də etnik-mədəni müxtəlifliklərin qorunması istiqamətində mühüm işlər görüldü.

Obyektiv və subyektiv səbəblərin təsiri ilə meydana gələn multikulturalizmin Azərbaycan modeli tarixi inkişaf yolu keçmişdir. Tolerantlıq və multikulturalizm ideyaları Azərbaycan xalqının ictimai şüurun müxtəlif formalarında, o cümlədən milli ideya olan Azərbaycançılıqda öz əksini tapmışdır.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycançılıq milli ideyası tarixində tamamilə yeni bir mərhələ başlandı. Bu mərhələ Azərbaycançılıq milli ideyasının bütün tarixi inkişafının zirvəsini təşkil edir. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyir: "1993-2003-cü illər inkişaf, sabitlik illəri oldu. Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu, milli ideologiya – Azərbaycançılıq ideologiyası xalq tərəfindən dəstəkləndi" [7]. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir

Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycançılıq ideyasının inkişafına, Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinə güclü təsir göstərdi. Belə ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycançılıq ideyasını əsas tutaraq onun bütün sahələrdə inkişafını təmin etdi. Ümummilli Lider Heydər Əliyev ilk dəfə olaraq multikulturalizmi Azərbaycançılıq ideyasının tərkib hissəsi kimi təqdim etdi.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş multikulturalizmin Azərbaycan Respublikasının daxili siyasətinin tərkib hissəsi olmasının mühüm göstəricilərindən biri dövlət–din münasibətlərinin yüksək səviyyədə olmasıdır.

Demokratik, hüquqi və dünyəvi dövlət olan Azərbaycan Respublikasında din dövlətdən ayrıdır.

Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olması özünü ilk növbədə dörd əsas məqamda göstərir:

1. Dini etiqad azadlığının təmin edilməsində;
2. Bütün dinlərin, dini məzhəblərin qanun qarşısında bərabər olmasında;
3. Dini icmaların fəaliyyətlərinə dövlət tərəfindən hər cür dəstəyin göstərilməsində;
4. Dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasında.

**1. Dini etiqad azadlığının təmin edilməsi**

Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının təmin edilməsi demokratik inkişaf yolu seçmiş, yaratdığı multikultural mühitlə və tolerantlığı ilə dünya ölkələri arasında seçilən Azərbaycan Respublikasının daxili siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan dövləti ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının tərkib hissəsi kimi yanaşır. Ölkə vətəndaşlarının dini etiqad azadlığı Azərbaycan Respublikası Konstitusiyasına, “Dini etiqad azadlığı haqqında” Qanuna və Azərbaycan Respublikasının digər normativ-hüquqi aktlarına əsaslanır.

Azərbaycanda dini azadlıqlar tam şəkildə təmin edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinin (“Bərabərlik hüququ”) 3-cü bəndinə əsasən, “Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaş-dırmaq qadağandır” [1, 25-3]. Konstitusiyasının 48-ci maddəsinin (“Vicdan azadlığı”) 1-ci və 2-ci bəndlərində isə qeyd olunmuşdur: “Hər kəsin vicdan azadlığı vardır”, “Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır” [1, 48].

Azərbaycan Respublikasında dini azadlıqların təmin edilməsi ilə bağlı Prezident İlham Əliyev 2014-cü ilin dekabr ayında Bakıda Heydər məscidinin açılışında qeyd etmişdir ki, “Azərbaycanda bütün dini azadlıqlar tam şəkildə təmin edilir. Bu da hesab edirəm ki, bizim ümumi inkişafımızda çox böyük əhəmiyyətə malik olan bir sahədir. Din, etiqad azadlığı Azərbaycanda tam şəkildə təmin edilir”.

**2. Bütün dinlərin, dini məzhəblərin qanun qarşısında bərabər olması**

Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasının növbəti göstəricisi olan dinlərin və dini məzhəblərin qanun qarşısında bərabər olması məsələsinə gəldikdə, ilk növbədə qeyd etmək lazımdır ki, ölkəmizdə söhbət Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) dövlət qeydiyyatından keçmiş dini qurumlardan gedir. Məlumat üçün

qeyd edək ki, 2009-cu ildən indiyədək DQİDK-də 993 dini qurum dövlət qeydiyyatına alınmışdır. Onlardan 956-sı İslam, 37-si qeyri-islam təmayüllüdür. Sonunculardan 26-sı xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru dini icmasıdır [9].

Azərbaycan Respublikasının əhalisinin 96 faizi müsəlman olmasına baxmayaraq, dövlət dinlər arasında heç bir ayrı-seçkiliyə yol vermir. Ölkə Konstitusiyasının 18-ci maddəsinin 1-ci bəndində göstərilir ki, Azərbaycanda "bütün dini etiqadlar qanun qar-şısında bərabərdir" [1, 18-1]. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsində isə deyilir: "Bütün dinlər və dini qurumlar qanun qarşısında bərabərdir. Heç bir din (dini cərəyan) və dini qurum barəsində digərlərinə nisbətən hər hansı üstünlük və ya məhdudiyyət müəyyən edilə bilməz".

Məlum olduğu kimi, İslamın şiə və sünni məzhəblərə bölünməsi müsəlman dünyasının sosial-iqtisadi, siyasi, hərbi, mədəni sahələrdə geridə qalmasının əsas səbəblərindən biri olmuşdur. Bu bölgünün yaranması müsəlman aləmində qanlı toqquşmalara səbəb olmuşdur. Əfsuslar olsun ki, müasir dövrdə də əksər müsəlman ölkələrində şiə-sünni qarşıdurması bu və ya digər formada özünü büruzə verir. Bu qarşıdurma özünü həm ölkədaxili, həm də ölkələrarası müstəvidə göstərir. Azərbaycan nadir müsəlman ölkələrindəndir ki, burada şiə-sünni qarşıdurması yoxdur. Ölkə əhalisinin əksəriyyəti bu bölgüyə əhəmiyyət vermir. Bunun mühüm bir əyani göstəricisi kimi şiələrlə sünnilərin eyni məscidlərdə ibadət etmələrini göstərmək olar.

### 3. Dini icmaların fəaliyyətlərinə dövlət tərəfindən hər cür dəstəyin göstərilməsi

Azərbaycanda dini qurumların hər birinə dövlət tərəfindən lazımi köməklik, o cümlədən maliyyə dəstəyi göstərilir. Rəsmi məlumata əsasən, 2003-cü ildən bəri Azərbaycanda 250-yə yaxın məscid tikilmiş və ya təmir edilmişdir. Belə məscidlərdən Bibiheybət, Təzəpir, Əjdərbəy, Heydər məscidlərini, İmamzadə dini, tarixi, mədəni mərkəzini və başqalarını göstərmək olar. Eynilə rus pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri işlərində dövlət öz lazımi köməyini göstərir.

1920-ci ildə Sovet hakimiyyəti dövründə bağlanmış rus pravoslav dini icmasına məxsus olan Jen Mironosets kilsəsi Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra dövlət tərəfindən Rus-Pravoslav kilsəsinə verilmişdir. Bu məbəd mərhum azərbaycanlı iş adamı Aydın Qurbanov tərəfindən əsaslı şəkildə bərpa edilərək, əvvəlki görkəminə qaytarılmışdır. 2001-ci ilin mayında Azərbaycanda səfərdə olan Moskva və Ümumrusiya Patriarxı II Aleksi mərasimdə iştirak etmiş və məbədə baş kafedral kilsə statusu vermişdir.

Son dövrdə Bakıda və ölkənin müxtəlif regionlarında çoxsaylı rus pravoslav, gürcü pravoslav, Alban-udi, alman lüteran kilsə və məbədləri, yəhudi sinaqoqları əsaslı təmir və bərpadan sonra dindarların istifadəsinə verilmişdir. 2008-ci ildə Bakıda Roma-katolik kilsəsi inşa edilmişdir. Dövlətin maliyyə yardımı ilə 2002-ci ildə Avropa yəhudiləri, 2012-ci ildə isə Dağ yəhudiləri üçün yeni sinaqoqlar inşa edilmişdir.

Azərbaycan dövləti ölkədə fəaliyyət göstərən dini qurumlara mənəvi yardım da göstərir. Bütün Cənubu Qafqaz regionunda 16 noyabr Beynəlxalq Tolerantlıq Günü ilk dəfə Azərbaycanda qeyd edilmiş və 1999-cu ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu əlamətdar gündə ölkəmizdəki dini konfessiyaların başçıları ilə görüş keçirilmişdir. Bu ənənənin davamı kimi, bu gün Azərbaycan Respublikası rəhbərliyi adından ölkəmizdə fəaliyyət göstərən konfessiyaların dini bayramlarında və əlamətdar günlərində müsəlmanlara, xristian və yəhudi icmalarına bayram təbriki ilə müraciət edilir, mütəmadi olaraq onlarla görüşlər keçirilir, tolerantlıq mühitinin daha da möhkəmləndirilməsi üçün dövlət səviyyəsində həyata keçirilən tədbirlərin icrası daim nəzarətdə saxlanılır. Dövlət başçısı ənənəvi olaraq hər il Ramazan ayında

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə tərəfindən verilən iftar süfrəsində iştirak edir. Həmin iftar mərasiminə təkcə İslam dininin nümayəndələri deyil, həm də digər konfessiyaların təmsilçiləri qatılırlar.

### 4. Dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulması

Azərbaycanda dini azadlıqların yüksək səviyyədə təmin edilməsi, bütün dinlərin və dini məzhəblərin qanun qarşısında bərabər olması, dövlət tərəfindən dini icmalara hər cür dəstəyin göstərilməsi öz məntiqi nəticəsi kimi ölkə daxilində dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasına səbəb olur. Bununla əlaqədar qeyd etmək lazımdır ki, Azərbaycanda müxtəlif dini konfessiyalar tərəfindən ibadət evlərinin tikintisinə və bərpasına fərqli dini icmaların nümayəndələrinin maddi və mənəvi dəstək verməsi, ianələr toplaması Azərbaycan xalqının tarixi keçmişindən qalan mütərəqqi ənənədir. Məsələn, XIX əsrin sonlarına yaxın Bakıda "Qızıllı kilsə" kimi tanınan "Aleksandr Nevski" kilsəsinin inşası zamanı toplanmış ianənin böyük hissəsini müsəlmanlar vermişdilər. Azərbaycanda Avropa və Dağ yəhudiləri üçün yeni sinaqoqların tikintisində xaricdə fəaliyyət göstərən yəhudi təşkilatları ilə yanaşı, Qafqaz Müsəlmanları Idarəsi, Rus-Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası da yaxından iştirak etmişdir. Bundan başqa Azərbaycanda fəaliyyət göstərən dini icmaların nümayəndələri bir-birinin tədbirlərində iştirak edirlər. Azərbaycanda dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulması bir çox ölkələrdə müşahidə olunan dini separatizmin qarşısını alaraq cəmiyyətdə inteqrasiya proseslərini daha da gücləndirir. Azərbaycandakı dinlərarası münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edən ölkə Prezidenti İlham Əliyev deyir: "Azərbaycanda bütün xalqların, bütün konfessiyaların, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar və yaşayacaqlar. Heç vaxt ölkəmizdə dini zəmində heç bir qarşıdurma olmamışdır və olmayacaqdır. Hətta heç bir anlaşılmazlıq da olmamalıdır və yoxdur. Biz bu yolla gedirik və dünyaya bu yolu göstəririk" [5].

Beləliklə, multikulturalizmin Azərbaycan Respublikasının daxili siyasətinin tərkib hissəsi olması ölkə daxilində dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasını təmin etməklə cəmiyyət daxilində inteqrasiya proseslərinin dərinləşməsinə səbəb olur. Dərinləşən inteqrasiya prosesləri isə öz növbəsində etnik və dini zəmində baş verə biləcək münaqişələrin qarşısını alır. Bundan başqa Azərbaycan Respublikasının daxili siyasətinin tərkib hissəsi olan multikulturalizm onun xarici siyasətinə də müsbət təsir göstərir, daha konkret desək, onun səmərəliliyini artırır.

Daxili siyasətin tərkib hissəsi olan multikulturalizmin onun xarici siyasətinə təsir etməsi təsadüfi deyil. O, bir növ qanunauyğunluqdur. Bu qanunauyğunluq daxili və xarici siyasət arasında olan münasibətdən irəli gəlir. Məlum olduğu kimi, bu münasibətdə daxili siyasət xarici siyasətə müəyyənedici təsir göstərir.

Daxili siyasətin xarici siyasətə müəyyənedici təsir göstərməsi ideyasına əsaslanaraq Azərbaycanın daxili siyasətinin tərkib hissəsi olan multikulturalizm siyasətinin ölkənin xarici siyasətinə müsbət təsir göstərdiyinin nəticəsində ölkənin xarici siyasət sahəsində əldə etdiyi müəyyən uğurların səbəblərini anlamaq mümkündür. Əgər ölkə daxilində Azərbaycan Respublikasının multikulturalizm siyasəti cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasını təmin edirsə, bu dəyərlərin daşıyıcıları arasında dialoq və əməkdaşlıq münasibətlərinin inkişafına şərait yaradırsa, ölkələrarası münasibətlərdə bu siyasət Azərbaycanın müxtəlif mədəniyyətlərə və sivilizasiyalara mənsub olan dövlətlərlə hərtərəfli əlaqələrinin inkişafı üçün əlverişli şərait yaradır. Bu isə öz növbəsində dünya miqyasında mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişafına səbəb olan əsas faktorlardan biridir.

Tanınmış politoloq Samuel Hantinqtona görə, müasir dövrdə ictimai inkişafda etnik-mədəni dəyərlərin, mədəniyyətin aparıcı rol oynaması sivilizasiyaların, xüsusilə də İslam və Qərb sivilizasiyalarının bir-birilə toqquşmasını qaçılmaz edir. Belə ki, onun fikrincə, bu sivilizasiyalar müxtəlif etnik-mədəni dəyərlərə, mədəniyyətlərə əsaslanır. [11, 28-30]. Hantinqtonun bu fatalist və pessimist ruhda verdiyi təhlükəli proqnozunun yanlış olduğunu multikulturalizm ideyalarına əsaslanan Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sahəsindəki fəaliyyəti, onun xarici siyasəti sübut edir. Belə ki, əhalisinin 96 faizini müsəlmanlar təşkil edən Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri müxtəlif mədəniyyətlərə və sivilizasiyalara mənsub olan dövlətlərlə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi yolu ilə dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun və əməkdaşlığın inkişaf etdirilməsidir. Qeyd edək ki, bu istiqamətdə ölkəmiz böyük uğurlara imza atmışdır. Belə uğurlardan ikisini xüsusi olaraq qeyd etmək lazımdır: “Bakı prosesi”ni və Azərbaycanın Qoşulmama Hərəkatına sədr seçilməsi.

Son dövrdə siyasi leksikona daxil olmuş “Bakı prosesi” – mədəniyyətlər arasında dialoqun təşviq olunmasını nəzərdə tutan bir təşəbbüsdür. Mahiyyətinə görə “Bakı prosesi” multikulturalizmin yüksək inkişaf mərhələsi olan interkulturalizmin təzahürüdür. Çünki o, müxtəlif mədəniyyətlərin və sivilizasiyaların birgəyaşayışı ilə yanaşı onlar arasında dialoq və əməkdaşlıq münasibətlərinin inkişafının təmin olunmasına yönəlmişdir.

“Bakı prosesi” təşəbbüsünü ilk dəfə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci il 2-3 dekabr tarixində Bakıda Avropa və ona qonşu regionların mədəniyyət nazirlərinin “Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır” mövzusunda keçirilmiş konfransında irəli sürmüşdür. Bu konfransda ilk dəfə olaraq 10 islam ölkəsinin də iştirak etməsi ilə yeni bir formatın əsası qoyulmuşdur. Ümumilikdə 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının yüksək səviyyəli nümayəndələrinin iştirak etdikləri bu konfransda Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq “Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi” qəbul edildi. Bununla sivilizasiyalar arasında dialoqun inkişafını nəzər-də tutan “Bakı prosesi”nin və bu prosesin uğurla davam etdirilməsi məqsədilə Azərbaycan tərəfindən təklif edilən “Sənətçilər dialoq naminə” layihəsinin əsası qoyuldu.

Prezident İlham Əliyev “Bakı prosesi”nin tarixi və əhəmiyyəti haqqında 2015-ci ilin may ayında Bakıda keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında aşağıdakıları söyləmişdir: “2008-ci ildə “Bakı prosesi” bizim təşəbbüsümüzlə başlamışdır. Bizim təşəbbüsümüz idi ki, Avropa Şurasının mədəniyyət nazirlərinin iclasına İslam Əməkdaşlıq Təşkilatının nazirləri dəvət edilsin. Bu, ilk belə hal idi. Çünki Azərbaycan hər iki təşkilata üzv olan azsaylı ölkələrdəndir. Daha sonra – 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatı mədəniyyət nazirlərinin iclasına Avropa Şurası mədəniyyət nazirləri dəvət edildi. Bunlar bizim təşəbbüslərimiz idi və artıq buna “Bakı prosesi” adı verilib. Bu gün mədəniyyətlərarası və sivilizasiyalararası dialoq, multikulturalizmə aid məsələlər “Bakı prosesi”nə daxildir.” [2, 118].

“Bakı prosesi” əvvəlcə regional təşəbbüs kimi yaranmışdır. 2010-cu ildə o, regional təşəbbüsdən qlobal hərəkata çevrildi. “Bakı prosesi”nin keyfiyyətcə yeni olan bu inkişaf mərhələsi də Prezident İlham Əliyevin adı ilə bağlıdır. Belə ki, 2010-cu ildə BMT Baş Məclisinin 65-ci sessiyasında çıxış edərkən Prezidenti İlham Əliyev növbəti il Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilməsini elan etmişdir: “Azərbaycan bütün dövrlərdə müxtəlif dinlər, etnik qruplar və fəlsəfələr arasında birgəyaşama və dözümlülük məkanı olmuşdur. Sivilizasiyalar İttifaqının Dostlar Qrupunun fəal üzvü kimi Azərbaycan dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqinə qarşılıqlı hörmət və anlaşma

əsasında töhfə verir. Azərbaycan bu ilin yazında 32 dövlətin dini rəhbərlərinin Ümumdünya Sammitini təşkil etmiş, 2011-ci ilin aprelində Mədəniyyətlərarası Dialoq naminə Ümumdünya Forumunu keçirmək təşəbbüsü ilə çıxış etmişdir" [2, 61]. Bu çıxışın ardınca Prezident İlham Əliyev 27 may 2011-ci il tarixində "Azərbaycan Respublikasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkili barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı"nı imzaladı. Fərmanda Azərbaycan Respublikasında 2011-ci ildən başlayaraq hər iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil edilməsi məsələsi qoyulur. Yeri gəlmişkən qeyd edək ki, 2011-ci ildən indiyədək Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoqun 5 Forumu (2011-ci, 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illər) keçirilmişdir. BMT Baş Assambleyası 11 dekabr 2017-ci ildə qəbul etdiyi "Dinlərarası və Mədəniyyətlərarası Dialoqun, Qarşılıqlı Anlaşmanın və Sülh üçün Əməkdaşlığın Təşviqi" adlı Qətnamədə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu "mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platforma" adlandırmışdır. [16].

Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları ilə yanaşı "Bakı prosesi" çərçivəsində təşkil olunmuş digər mühüm tədbirlərdən ölkəmizdə 2010-cu və 2019-cu illərdə keçirilmiş Dünya dini liderlərinin I və II Bakı Sammitlərini, 2011-ci, 2012-ci, 2013-cü, 2014-cü, 2016-cı və 2018-ci illərdə keçirilmiş Bakı Beynəlxalq Humanitar Forumlarını, 2016-cı ilin 25-27 aprel tarixlərində keçirilmiş Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu göstərmək olar. Azərbaycan Respublikasının "Bakı Prosesi" çərçivəsində mədəniyyətləarası və sivilizasiyalararası dialoqa yüksək önəm verməsinin daha bir bariz nümunəsi kimi 2019-cu il 30 iyun – 10 iyul tarixlərində Bakıda UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasına ev sahibliyi etməsini göstərmək olar. Dünya mədəni irsi ilə bağlı məsələlərin müzakirə edildiyi və dünyanın 180-dən artıq ölkəsindən 2500 nəfərdən artıq nümayəndənin qatıldığı 43-cü sessiyada Ümumdünya Mədəni İrs Siyahısına salınması üçün üzv dövlətlər tərəfindən təqdim olunmuş 36 namizəd fayl (onlardan 28-i mədəni, 6-sı təbiət, 2-si qarışıq abidələr olmaqla) nəzərdən keçirilmişdir. İrs Komitəsinin 43-cü sessiyasında təqdim olunmuş 36 abidədən çoxu UNESKO-nun Ümumdünya İrs Siyahısına salınmışdır. Siyahıya salınan abidələr sırasında Şəkinin Xan Sarayı ilə birgə onun tarixi mərkəzi də vardır.

Azərbaycan Respublikası tərəfindən irəli sürülən "Bakı prosesi" təşəbbüsünü BMT-nin Baş Katibi Antonio Quterreş yüksək qiymətləndirərək onu 2008-ci ildən bəri bütün dünyada mədəniyyətlər arasında dialoqun təşviq olunmasında mühüm rol oynadığını qeyd etmişdir [17].

Mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviq olunması sahəsində Azərbaycanın əldə etdiyi növbəti uğur onun Qoşulmama Hərəkatına sədr seçilməsi olmuşdur.

Qoşulmama Hərəkatı - heç bir hərbi-siyasi bloklara və qruplara daxil olmayan dünya dövlətlərinin forumudur. Hərəkat 1961-ci ildə təsis edilmişdir. Qoşulmama Hərəkatı BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır. Bu hərəkata 120 dövlət tam hüquqlu üzvdür. 17 dövlət və 10 beynəlxalq təşkilat isə Qoşulmama Hərəkatı yanında müşahidəçi statusuna malikdir. Qoşulmama Hərəkatının əsas prinsipləri sırasında aşağıdakıları göstərmək olar: insan hüquqları və əsas azadlıqlarına, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə, BMT Nizamnaməsi çərçivəsində hər bir dövlətin özünü fərdi və ya kollektiv şəkildə müdafiə etməsi hüququna hörmət etmək, dövlətlərin daxili işlərinə qarışmamaq və bütün irqlərin və xalqların bərabərliyini tanımaq.

Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına üzv qəbul olunmuşdur. Ölkəmizin heç bir hərbi bloka qoşulmadan müstəqil siyasət aparması, beynəlxalq hüququn norma və prinsiplərini müdafiə etməsi, müxtəlif mədəniyyətlərə və sivilizasiyalara mənsub olan dövlətlərlə müxtəlif sahələri əhatə edən əlaqələrin inkişaf etdirməsi onun Qoşulmama Hərəkatın-

da qısa bir müddət ərzində böyük nüfuz qazanmasına səbəb olmuşdur. Bunun əsas göstəricisi kimi Qoşulmama Hərəkatının 2016-cı ildə keçirilmiş XVII Zirvə Görüşündə növbəti sammitin Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsinə dair qəbul olunmuş qərarı qeyd etmək olar. 2019-cu ilin oktyabrın 25-də Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşünün açılışında çıxış edərkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu əlamətdar hadisəni Qoşulmama Hərəkatı tərəfindən Azərbaycana göstərilən hörmətin, inamın və etimadın təzahürü, siyasətimizə verilən dəstək kimi qiymətləndirmişdir [8].

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv, Qoşulmama Hərəkatına sədr seçilməsi və ya digər beynəlxalq və regional təşkilatlarda hər hansı bir qisimdə fəaliyyəti özü-özlüyündə məqsəd deyil. O, ilk növbədə Azərbaycanın xarici siyasətinin prioritetlərinin, ümumilikdə onun milli maraqlarının həyata keçirilməsi üçün mühüm bir vasitədir. Bu qurumlara üzvlük Azərbaycana onun haqqında həqiqətləri, ilk növbədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair obyektiv məlumatı dünya ictimaiyyətinin geniş dairələrinə çatdırmağa imkan verir. Məsələn, ölkəmizin Qoşulmama Hərəkatına üzv qəbul olunmasından sonra bu qurumun müxtəlif vaxtlarda və müxtəlif ölkələrdə keçirilən Dövlət və Hökumət Başçılarının Zirvə Görüşlərində, nazirlər iclaslarında qəbul olunan Yekun Sənədlərinə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bənd də daxil edilmiş. Bənddə üzv dövlətlər Ermənistan və Azərbaycan arasında münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və beynəlxalq miqyasda tanınmış sərhədləri daxilində həll edilməsinə dəstəklərini ifadə etmişlər.

Bundan başqa 2020-ci il oktyabrın 19-da Azərbaycan xalqının Qarabağın azadlığı uğrunda apardığı İkinci Qarabağ müharibəsi, Vətən müharibəsinin qızğın dövründə BMT Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar keçirilmiş qapalı iclasından sonra ATƏT-in Minsk qrupunun həmsədr ölkələri olan Rusiya və Fransa tərəfindən bəyanatın layihəsi hazırlanıb və razılaşdırılması üçün üzv ölkələr arasında yayılıb, lakin bəyanat layihəsində Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrinə istinad öz əksini tapmayıb. Qoşulmama Hərəkatının və eyni zamanda, hazırda Təhlükəsizlik Şurasının üzvü olan 7 ölkə - İndoneziya, Tunis, Niger, Dominikan Respublikası, Vyetnam, Cənubi Afrika Respublikası və Sent-Vinsent və Qrenadin təklif edilən sənəd layihəsinə Təhlükəsizlik Şurasının məlum qətnamələrinə istinadın daxil edilməsinə dair israrlı mövqe nümayiş etdirib. Nəticədə Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri hazırladıqları bəyanat layihəsini geri götürməyə məcbur olublar.

Xarici siyasət sahəsində dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviq olunmasına yönələn multikulturalizmin Azərbaycan modeli bu sahədə “Bakı prosesi” və Azərbaycanın Qoşulmama Hərəkatına sədr seçilməsi kimi nailiyyətlərin əldə olunmasında mühüm rol oynamışdır. Bu nailiyyətlər Azərbaycanın beynəlxalq aləmdə imicini qaldırmaqla yanaşı ölkənin daxili vəziyyətinə də müsbət təsir göstərir. Belə ki, ölkəmizin xarici siyasət sahəsində əldə etdiyi bu uğurlar onun daxili vəziyyətini yaxşılaşdırır, xarici investorları ölkəyə cəlb etməklə onun inkişaf imkanlarını artırır.

Beləliklə, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrdə ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən multikulturalizmin Azərbaycan modeli ölkədə yaşayan milli azlıqların nümayəndələrinin etnik-mədəni dəyərlərini qorumaqla Azərbaycan xalqının siyasi, iqtisadi, sosial və mədəni yüksəlməsinə yönələn Azərbaycançılığın sosial bazasını genişləndirir. Belə ki, o, Azərbaycançılığı ölkədə yaşayan bütün xalqların və etnik qrupların ideologiyasına çevirməklə onun cəmiyyətdə geniş yayılmasını təmin edir. Multikultu-

ralizmin Azərbaycan modelinin fərqləndirici xüsusiyyətləri ölkənin daxili və xarici siyasətində özünü büruzə verir. Bu xüsusiyyətlərin əsasını ölkəmizdə multikulturalizmin bir çox sahələrdə özünün yüksək inkişaf mərhələsi olan interkulturalizm mərhələsinə qalxması təşkil edir. Bu o deməkdir ki, Azərbaycan Respublikasının multikulturalizm siyasəti cəmiyyətdəki etnik-mədəni müxtəlifliyi qorumaqla yanaşı onun əsasını təşkil edən dəyərləri və dəyərlərin daşıyıcılarını bir araya gətirərək onlar arasında dialoq və əməkdaşlıq münasibətlərini yaradır. O, müxtəlif mədəniyyətlərə mənsub olan dəyərləri birləşdirərək cəmiyyətdaxili inteqrasiya proseslərinin gücləndirilməsinə səbəb olur. Bu isə ölkənin sosial-iqtisadi və mədəni inkişafına müsbət təsir göstərir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. (2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş əlavə və dəyişikliklərlə.) http://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında // Prezident İlham Əliyev "Rossiya-24" informasiya telekanalına müsahibə verib(28.11.2014). Bakı, 2017, s. 107.
3. Əliyev Heydər, Müstəqillik yolu, Seçilmiş fikirlər. Bakı, 1997, file:///C:/Users/User-PC/Downloads/Musteqillik_yolu_sechilmish_fikirler.pdf
4. Əliyev İlham. Prezident İlham Əliyev Birinci Cənubi Qafqaz Forumunun rəsmi açılış mərasimində iştirak edib. 7 may 2013-cü il.https://president.az/articles/8018
5. Əliyev İlham. Prezident İlham Əliyev Bakıda Heydər məscidinin açılışında iştirak edib. (26.12.2014)
6. https://president.az/articles/13889
7. Əliyev İlham. Respublika Günü münasibətilə rəsmi qəbulda İlham Əliyevin nitqi, 27 may 2016, https://president.az/articles/19986/print
8. Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü işə başlayıb. 25 oktyabr, 2019-cu il. https://president.az/articles/34578/print
9. Dini sahə ilə bağlı statistik rəqəmlər. https://scwra.gov.az/az/view/pages/306?menu_id=83
10. Gordon, M.. Assimilation in American Life: The Role of Race, Religion, and National Origins. Oxford University Press, New York, 1966, p.14.
11. Huntington, S.The Clash of Civilizations and the Remaking of World Order.New York, Simon and Schuster, 1996.
12. Kukathas,C..Theoretical Foundations of Multiculturalism. http://econfaculty.gmu.edu/pboettke/workshop/fall04/theoretical_foundations.pdf p.3
13. Newman, W. American Pluralism: A Study of Minority Groups and Social Theory. Harper & Row, Publishers, New York, 1973.
14. Trudeau, P.E. "Canadian Culture: Announcement of İmplementation of Policy of Multiculturalism Within Bilingual Framework", in Canada House of Commons Debate: Official report. 3-rd session 28-th Parliament – 20 Elizabeth II, volume VIII. Published under the Authority of the Speaker of the House of Commons by the Queen's Printer for Canada, 1971): 8545.

15. UNESCO Universal Declaration on Cultural Diversity. Adopted by the 31st Session of the General Conference of UNESCO Paris, 2 November 2001 http://www.unesco.org/new/fileadmin/MULTIMEDIA/HQ/CLT/pdf/5_Cultural_Diversity_EN.pdf
16. UN General Assembly: World Forum 'a key global platform for promoting intercultural dialogue'. Press releases. 11 December, 2017. https://bakuprocess.az/un-general-assembly-world-forum-a-key-global-platform-for-promoting-intercultural-dialogue/
17. UN Secretary-General: Baku Process has been at the forefront of advocating for dialogue among cultures since 2008. 13 October, 2017. https://bakuprocess.az/un-secretary-general-baku-process-has-been-at-the-forefront-of-advocating-for-dialogue-among-cultures-since-2008/

***Açar sözlər:*** *Ümummilli Lider Heydər Əliyev, Azərbaycan Respublikası, Azərbaycançılıq, etnik-mədəni müxtəliflik, assimilyasiya siyasəti, izolyasiya siyasəti, multikulturalizmin Azərbaycan modeli, interkulturalizm*

**Etibar Najafov**

***Senior adviser of the Department of Humanitarian Policy, Diaspora, Multiculturalism and Religious Issues of the Administration of the President of the Republic of Azerbaijan, Professor of the Department of Philosophy and Social Psychology of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Doctor of Philosophical Sciences***

# THE ROLE OF HEYDAR ALIYEV IN THE FORMATION OF THE AZERBAIJANI MODEL OF MULTICULTURALISM

## ABSTRACT

The article addresses the role of the national leader Heydar Aliyev in the formation of the Azerbaijani model of multiculturalism. The regulation of ethnocultural diversity is a critical challenge for every multicultural society. The policy of multiculturalism is the most effective of the major policy approaches available. Because in addition to recognizing and preserving ethnic-cultural diversity in society, this policy promotes the processes of integration in society by fostering discourse and constructive relations among the bearers of diversity.

The Azerbaijani model of multiculturalism, founded by the National Leader Heydar Aliyev, respects and preserves the ethnic-cultural values of representatives of national minorities and ensures that those who are members of minorities are integrated into society. Furthermore, it expands and strengthens the social base of Azerbaijanism, which is aimed at the Azerbaijani people's political, economic, social, and cultural progress. Features of the Azerbaijani concept of multiculturalism are evident in the country's internal and international policy achievements.

***Keywords:*** *National Leader Heydar Aliyev, the Republic of Azerbaijan, Azerbaijanism, ethnocultural diversity, assimilation policy, isolation policy, Azerbaijani model of multiculturalism, interculturalism*

**Этибар Наджафов**

***Старший консультант отдела по гуманитарной политике, вопросам диаспоры, мультикультурализма и религии Администрации Президента Азербайджанской Республики, профессор кафедры Философии и социальной психологии Академии Государственного Управления при Президенте Азербайжанской Республики, доктор философских наук***

# РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ФОРМИРОВАНИИ АЗЕРБАЙДЖАНСКОЙ МОДЕЛИ МУЛЬТИКУЛЬТУРАЛИЗМА

## РЕЗЮМЕ

В статье рассматривается роль Общенационального лидера Гейдара Алиева в формировании азербайджанской модели мультикультурализма. Как подчеркивает автор, регулирование этнокультурного разнообразия является важной проблемой, стоящей перед каждым многонациональным обществом. Политика мультикультурализма является наиболее эффективной из всех основных возможных моделей политики, потому что наряду с признанием и защитой этнокультурного разнообразия в обществе эта политика развивает происходящие здесь процессы интеграции, создавая отношения диалога и сотрудничества между носителями этнического разнообразия.

Азербайджанская модель мультикультурализма, основы которой были заложены Общенациональным лидером Гейдаром Алиевым, признает и защищает этнокультурные ценности представителей национальных меньшинств, а также обеспечивает интеграцию их носителей в общество. Кроме того, указанная модель расширяет и укрепляет социальную базу азербайджанства, направленного на политическое, экономическое, социальное и культурное возвышение азербайджанского народа. Особенности азербайджанской модели мультикультурализма проявляются в достижениях страны в области ее внутренней и внешней политики.

***Ключевые слова:*** *Общенациональный лидер Гейдар Алиев, Азербайджанская Республика, азербайджанство, этнокультурное разнообразие, политика ассимиляции, политика изоляции, азербайджанская модель мультикультурализма, интеркультурализм*

DOI:10.30546/dia.2.82.2023.127


UOT 327

**NAMİQ ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının müdiri, hüquq elmləri doktoru, professor, Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri, İkinci dərəcə Dövlət müşaviri***

*e-mail: namikamal1@gmail.com*

# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ VƏ AZƏRBAYCAN-ERMƏNİSTAN MÜNASİBƏTLƏRİNİN BƏZİ SİYASİ-HÜQUQİ PROBLEMLƏRİ

*"Azərbaycan heç vaxt öz torpaqlarını kiməsə verə bilməz. Biz torpaqlarımızı mütləq azad edəcəyik. Əgər sülh yolu ilə həll edilməsə, bizim bütün imkanlarımız, güclü ordumuz vasitəsilə bu məsələni həll edəcəyik".*

*Heydər Əliyev*

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi, Azərbaycan torpaqlarını erməni işğalından azad olunması zərurətini şərtləndirən ildırım sürətli 44 günlük Qarabağ Vətən müharibəsi, 1993-cü il BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin tələblərini praktik olaraq yerinə yetirdi. 9/10 noyabr 2020-ci ildə Azərbaycan və Rusiya prezidentlərinin, habelə Ermənistan Respublikası Baş nazirinin üçtərəfli Bəyanatı imzalaması, Azərbaycanda kompakt yaşayan ermənilərin çoxmillətli multikultural cəmiyyətimizə sülh şəraitində inteqrasiya olunmaları üçün şərait yaratdı. Bölgədə qalan erməni silahlı qüvvələrinin Qarabağ ərazisindən tam çıxarılmasından, eyni zamanda erməni əhalisinin tamamilə tərksilah edilməsi və bir sıra digər məsələləri həll etməkdən ötrü Rusiya sülhməramlı qüvvələrinin məhdud sayda kontingenti müvəqqəti olaraq ermənilərin kompakt yaşadığı ərazilərə yerləşdirildi.

Azərbaycan-Ermənistan dövlət sərhədinin delimitasiyası və demarkasiyası ilə bağlı işlərə başlanılmış və bu işlər hələ də davam etməkdədir. Nəticə olaraq bu proses, dövlət sərhədlərinin qarşılıqlı tanınmasına dair müvafiq sülh sazişinin imzalanması ilə başa çatmalıdır.

## Ermənistan Respublikasının 9/10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyannamədən imtina etməsi ehtimalı

Ermənistan Respublikasında müəyyən qüvvələr tərəfindən alovlandırılan revanşist əhvali-ruhiyyə hələ də güclüdür. Müxalifət, hər şeydən narazı kütlə və demək olar ki, bütün vətəndaşlar, guya parlament və cəmiyyəti xəbərdar etmədən sülh bağlamaq hüququnun olmadığını iddia etdikləri Paşinyanın istefasını tələb etməkdədir. Onlar həmçinin İrəvanın 9/10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatdakı imzasını ləğv edərək geri götürməsini tələb edirlər. Qonşu ölkədə baş nazirin istefasından sonra onun yerinə gələn şəxsin müharibəni bitirən bu sənədi zibil qutusuna ata biləcəyi barədə təəccüblü bir inanc yaranmışdır. Sülh prosesinin şərtlərini isə Ermənistan Respublikasının öhdəlikləri deyil, Paşinyanın şəxsi öhdəlikləri kimi qiymətləndirirlər.

Əlbəttə ki, bu belə deyil və "ləğv" fikrini təbliğ edən şəxslərin bundan xəbərsiz olmaları və ya heç olmasa bunu təxmin edə bilmədikləri mümkün deyil. Erməni xalqı növbəti dəfə siyasi avantüristlərin qurbanına çevrilmək təhlükəsi ilə və hətta bu dəfə Ermənistan Respublikası üçün çox ağır nəticələrlə təhdid olunur.

Azərbaycan ərazilərinin işğaldan azad olunmasının və Ermənistan-Azərbaycan münaqişəsinin həlli məsələsinin qəti iradəli qərarı regional oyunçular – Rusiya, Türkiyə və Azərbaycan tərəfindən qəbul edildi. Ermənistan Respublikası bu prosesə yalnız uduzan tərəf kimi qatıldı, və Rusiya və Azərbaycanla birlikdə üçtərəfli bəyanatı imzaladı. Üç ölkə liderlərinin imzaladığı bu müqaviləni ləğv etmək heç bir beynəlxalq təşkilatın və heç bir beynəlxalq məhkəmənin səlahiyyətində deyildir.

Üçtərəfli bəyanatın imzalandığı ilk dəqiqələrdən Ermənistan Respublikasında buna müxalif mövqeyin ortaya çıxdığının şahidi oluruq. Belə ki, bu münaqişəni yaradaraq Azərbaycanın şəhər və kəndlərini yerlə yeksan edən, mülki şəxslərini öldürən, tarixi və mədəni irsini məhv edən, digər hərbi və s. cinayətləri törədənlər onları hansı katastrofik nəticələrin gözlədiyini bildikləri üçün belə müxalif yanaşma özlüyündə təbii sayılmalıdır. Buna görə onlar beynəlxalq hüquq qarşısında cavab verməli olacaqlar.

Paşinyandan bəyanat verərək imzasını geri götürməyi tələb edənlərin və ya onun istefasından sonra sənədin ləğv olunacağına inananların aşağıdakıları bilmələri vacibdir:

Beynəlxalq hüquqa görə əlavə səlahiyyətə ehtiyac olmadan dövlət başçısı, hökumət başçısı (Baş nazir) və xarici işlər naziri dövlət adından beynəlxalq müqavilələr (sazişlər) imzalamaq hüququna malikdirlər. Digər bütün vəzifəli şəxslər yalnız müvafiq səlahiyyətlər aldıqdan sonra dövlət adından beynəlxalq sənədləri imzalaya bilərlər. Nəticə etibarilə, Ermənistan hökumətinin başçısı – baş nazir Nikol Paşinyan da üçtərəfli bəyanatı imzalamaq üçün bütün səlahiyyətlərə malik idi. Bu sənəd qanuni qüvvəyə minib və 10 noyabr 2020-ci ildən tətbiq olunur. Bu isə o deməkdir ki, həmin tarixdən etibarən bəyanatda iştirak edən dövlətlərin, o cümlədən Ermənistan Respublikasının öhdəlikləri ilə bağlı müəyyən hüquqi məsuliyyət qüvvəyə minmişdir. Ermənistan Respublikasının bu beynəlxalq sənəddən çıxaraq öz üzərinə götürdüyü beynəlxalq öhdəlikləri yerinə yetirməkdən imtina etməsi, bəyanatın digər iştirakçı dövlətlərinin də hüquqlarının pozulması deməkdir ki, bu da, öhdəliklərini yerinə yetirməyən İrəvanın beynəlxalq məsuliyyətə cəlb olunması üçün əsasdır.

Ermənistan Respublikasının beynəlxalq hüququ pozması halı ilk dəfə deyildir və üçtərəfli bəyanatdan çıxması beynəlxalq birliyə və hüquqa növbəti dəfə "tüpürməsi" ola bilər. Lakin bəyanatına yenidən nəzərdən keçirilməsinin tərəfdarları açıq şəkildə anlamalıdırlar ki, erməni tərəfinin öhdəliklərini yerinə yetirməkdən imtina etməsi, öz növbəsində, Rusiya və Azərbaycanı öhdəliklərdən azad olunmasına səbəb olacaqdır. Bu isə, fürsət yarandığı təqdirdə yeni vəziyyətə qayıtmaq deməkdir: 1) Rusiya – sülhməramlı missiyasını dayandıracaq (geri çəkəcək); 2) Azərbaycan – 1993-cü il BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini tam yerinə yetirəcək; 3) Dünya birliyi – birdəfəlik erməni faşizmindən qurtulacaq.

Təbii ki, Azərbaycanın işğaldan azad etdiyi ərazilərinin Ermənistan Respublikasına qaytarılmasından söhbət gedə bilməz. Bu cür düşüncələr yalnız gülüşə və çaşqınlığa səbəb ola bilər. Yəqin ki, bu, tarixdə unikal bir hal olmalıdır ki, işğalçı beynəlxalq təşkilatlardan qonşu dövlətin ərazisini onun işğalı altına qaytarmağı tələb edir. Beynəlxalq hüququ hələ heç kim ləğv edə bilməyib və yaxşı olardı ki, ermənilər dünyanı özlərinə güldürməkdən əl çəksinlər.

### Üçtərəfli Bəyanatda nəzərdə tutulan "dəhlizlərin" statusu haqqında

Hər şeydən əvvəl, bəyanatın Laçın və Zəngəzur "dəhlizləri" ilə bağlı 3, 6 və 9-cu bəndlərində nəzərdə tutulanlar barədə daha ətraflı izaha ehtiyac vardır.

Əvvəlcədən qeyd edirəm ki, Rusiya sülhməramlı kontingentin (RSK-nın) müvəqqəti məsuliyyət zonasına daxil olan bölgə, o cümlədən Laçın yolunun ərazisi Azərbaycan Respublikasının suveren ərazisidir. RSK-nın bu əraziyə müvəqqəti yerləşdirilməsi həmin bölgənin statusunu heç bir şəkildə dəyişmir. Ora Azərbaycanın suveren ərazisi olaraq qalmaqdadır. Sənədin mətnində Qarabağ bölgəsi üzərində dövlətimizin suverenliyini məhdudlaşdıran hər hansı bir sözə rast gəlinmir. O halda, istənilən faktiki məhdudiyyət qeyri-legitimdir və müvafiq olaraq onun aradan qaldırılması qanunidir.

Bəyanatın 3-cü bəndində deyilir: “Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir”. 6-cı bəndində isə “həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur” ki, bu da, RSK-nın funksiyasının yalnız mühafizə olduğunu göstərməkdədir.

Həmin 6-cı bənddə yenə göstərilir ki, “Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir”. Bunu oxuyan hər kəs başa düşür ki, fiziki iştirak olmadan dəhliz boyu hərəkətin təhlükəsizliyini təmin etmək mümkün deyildir. Ona görə də Azərbaycanın güc strukturlarının həmin dəhlizdə olmasının bəyanatın özündə də nəzərdə tutulduğu açıq-aydın görsənməkdədir. Bu, eyni zamanda, Azərbaycanın bu nəqliyyat arteriyası üzərində suverenliyinin təsdiqidir.

Bəyanatda bir kəlimə də deyilmir ki, Laçın yolunun keçdiyi yerdəki sərhəd bölgəsi Azərbaycan dövləti tərəfindən qorunmur. Azərbaycan bir dövlət kimi özünün sərhəd və gömrük mühafizəsi funksiyasını heç kimin (o cümlədən RSK-nın) öhdəsinə buraxmayıb və ondan da imtina etməyib. Bunu dərk edən RSK rəhbərliyi, fürsətdən istifadə edərək hər dəfə qeyd edir ki, separatçıların daşıdıqları yüklərə onların nəzarət etmək hüquqları yoxdur.

Bəs bunun axırı? Bu, işğalçı-dövlətin silahlı qüvvələrinin hələ də bütünlüklə çıxarılmadığı region olan dövlət sərhədinin belə mühüm hissəsinin nəzarətsiz qalması anlamına gəlməlidir? Bu, dövlət üçün arzuolunmaz şəxslərin (terrorçuların, təxribatçıların), qadağan olunmuş malların, silahların (o cümlədən minalar, partlayıcı maddələr), narkotiklərin və s. qeyri-qanuni dövriyyəsi üçün kanaldır. Bu, adi narahatçılıq deyildir: Azərbaycanın güc strukturlarının nəzarəti olmadan və RSK-nın razılığı ilə hər gün törədilən cinayətlərdir.

Əgər, Azərbaycanın Laçın yolu ilə hərəkət təhlükəsizliyinə zəmanət verdiyi 6-cı bəndi Ermənistan Respublikasının “vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət” verdiyi 9-cu bəndin müddəaları ilə müqayisə etsək, onda aydın olacaq ki, maneəsiz hərəkətin Azərbaycan tərəfindən təmin olunma zəmanətinin olmaması və sərhəddə, əsasən Laçın yolu ərazisində sərhədçilərin və gömrük işçilərinin olması anlamına gəlməkdədir.

**Azərbaycanda erməni icması problemi**

Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa edildikdən sonra azad edilmiş ərazilərdə, o cümlədən yerli erməni azlığının qaldığı rayonlarda dinc yaşayış şəraitinin yaradılması məsələsi ortaya çıxmışdır.

12 dekabr 2020-ci il tarixində Fransa və ABŞ-dan olan Minsk qrupunun həmsədrlərini qəbul edərkən Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan erməni xalqı ilə deyil, ərazilərimizi zəbt etmiş işğalçılar və cinayətkarlarla müharibə edirdi. Hazırda ölkənin digər bölgələrində yaşadıqları kimi, gələcəkdə ermənilər Qarabağda da təhlükəsiz və ləyaqətlə yaşaya biləcəklər. Dövlət başçısı əmin etdi ki, Azərbaycanın yurisdiksiyası altında onlar yaxşı yaşayacaq,

yoxsulluqdan qurtulacaq və perspektivlər əldə edəcəklər [6].

Qeyd etmək lazımdır ki, Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə inteqrasiyası məsələsi bəlkə də ən çətin məsələlərdən biridir. Əsrlər boyu aqressiv millətçilik və ksenofobiyanın aşılanması erməni xalqının mentalitetinə dağıdıcı təsir göstərmişdir. Hətta o qədər dağıdıcı ki, uzun illər Azərbaycanda müxtəlif xalqların beynəlmiləl və multikultural ailəsində yaşamalarına baxmayaraq, erməni vətəndaşları millətçi təbliğata asanlıqla boyun əydilər.

Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, bu gün, işğala son qoyulduğu bir vaxtda, Qarabağ erməniləri üçün vahid, normal, sabit və çiçəklənən ölkənin bir hissəsi olma fürsəti yaranmışdır [6]. Lakin təəssüflər olsun ki, Qarabağ ermənilərinin bu faktı dərk etdiklərinin aydın təzahürləri hələ də yoxdur. Ermənistan Respublikasından gələn revanşist əhvali-ruhiyyəli kütləvi təbliğatdan isə heç bəhs etmək istəmirik. Qarabağ ermənilərindən həqiqətlərin gizlədilməsi və Rusiya sülhməramlı qüvvələrinin mövcudluğu keçmiş separatçı qurumun sakinlərində müəyyən illüziyalara səbəb olmuşdur. Məsələn, Azərbaycanın yurisdiksiyasından kənarda qala bilmək ehtimalı, xüsusən də Azərbaycan vətəndaşlığını qəbul etməyərək işğal zamanı kütləvi şəkildə keçdikləri Ermənistan Respublikasının vətəndaşlığını saxlamaq və ya hətta Rusiya vətəndaşlığını qəbul etmək imkanları barədə illüziyalar.

Azərbaycanda yaşamağa davam etmək, və bütün sosial və iqtisadi imkanlardan istifadə etmək üçün Qarabağ ermənilərinin Azərbaycan vətəndaşlığını qəbul etmələri mütləqdirmi?

Ermənistan Respublikasının kapitulyasiyasından sonra Azərbaycan Prezidenti İlham Əliyev birmənalı şəkildə Qarabağın dağlıq hissəsində münaqişədən əvvəl yaşamış və Azərbaycan qanunlarını tanıyan erməni vətəndaşların ölkədəki digər milli azlıqlarla bərabər şəraitdə təhlükəsiz və sərbəst yaşamaq imkanlarının olacaqlarını bəyan etdi. Azərbaycan ölkədə yaşayan bütün milli azlıqlara olduğu kimi, ermənilərə də bu hüquqları təmin edir. Azərbaycan, Konstitusiyaya və ölkəmizin digər qanunlarına müvafiq olaraq onları Azərbaycan vətəndaşı kimi tanıyır və onlara bu hüququn zəmanətini verir.

Belə bir məqamda, anlaşılmazlığın qarşısını almaq üçün vətəndaşlıq haqqında qanunvericiliyimizin bəzi müddəalarına şərh vermək zəruri olacaqdır.

30 sentyabr 1998-ci il tarixli 527-IQ nömrəli "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa və ona edilmiş əlavə və dəyişikliklərə əsasən bütün fiziki şəxslər, o cümlədən Qarabağın dağlıq hissəsində və Azərbaycanın digər bölgələrindən yaşayan ermənilər də daimi yaşayış üçün ölkə xaricinə getdikləri və xarici vətəndaşlığı əldə etdikləri zaman Azərbaycan vətəndaşlığını itirmiş sayılırlar. Bundan əlavə, Ermənistan Respublikası tərəfindən Azərbaycan ərazilərinin işğalı dövründə Qarabağın dağlıq hissəsinin əhalisi Azərbaycan yurisdiksiyasından imtina etmişdir ki, bu da, praktiki olaraq Azərbaycan vətəndaşlığından könüllü çıxma demək idi.

Eyni qanunun 10-cu maddəsinə əsasən Azərbaycan Respublikası ikili vətəndaşlığı da tanımır.

Əcnəbi vətəndaşlarının Azərbaycan ərazisində daimi yaşamaq hüquqları olmadığına görə onların ölkəmizdə qalma müddətləri daxili qanunvericilik normaları və ikitərəfli hökumətlərarası müqavilələrlə məhdudlaşdırılır. Bu səbəbdən, işğaldan azad edilmiş ərazilərimizdə yaşamaq üçün qanuni əsası olmayan bütün əcnəbilər Azərbaycan ərazisini tərk etməli olacaqlar.

Qeyd etmək lazımdır ki, vətəndaşlıq haqqında Azərbaycan qanunvericiliyinin normaları, vətəndaşsızlıq hallarının istisnası və ikili vətəndaşlığa dair beynəlxalq təcrübəyə və standartlara uyğundur.

Beləliklə, Azərbaycan vətəndaşlığını bərpa etmək hüququ olan Qarabağ ermənilərinin hamısı rəsmi olaraq Ermənistan və hazırda mənsub olduqları hər hansı digər vətəndaşlıqdan imtina etməlidirlər və yalnız bundan

sonra Azərbaycan vətəndaşlığını və Azərbaycan ərazisində yaşamaq hüququnu əldə edə bilərlər.

Bu baxımdan, Azərbaycan-Rusiya münasibətlərinə dair təcrübədən maraqlı bir presedenti xatırlatmaq istərdim. 3 sentyabr 2010-cu il tarixində Bakıda Rusiya Federasiyasının (o vaxtkı) Prezidenti D.A.Medvedev və Azərbaycan Respublikasının Prezidenti İ.H.Əliyev tərəfindən Dağıstan MSSR və Azərbaycan SSR-in keçmiş inzibati sərhədinə uyğun olaraq iki dövlət arasındakı quru sərhəd xəttini müəyyən edən Dövlət sərhədi haqqında Müqavilə imzalanmışdır. Əvvəllər Azərbaycan ərazisinə etnik ləzgilər məskunlaşdığı iki rus eksklavı – Xrax-Uba (Palıdlı, Xaçmaz bölgəsi, kənd Qusarçay çayının sol sahilində yerləşir) və Uryan-Uba (Uryanoba, Xaçmaz bölgəsi) daxil idi. Orada Rusiya Federasiyasının vətəndaşı olan ümumilikdə 600 ləzgi yaşayırdı.

Rusiya tərəfi ilə əldə edilmiş razılaşmalara uyğun olaraq, Azərbaycan dövləti hələ də Rusiya vətəndaşlığını qoruyan hər iki kəndin sakinlərinə istədikləri halda sadələşdirilmiş sxem üzrə Azərbaycan vətəndaşlığını seçmək və qəbul etmək imkanını vermişdir. Uryanoba sakinlərindən bir qismi bu təklifdən istifadə edərək Azərbaycan vətəndaşlığını qəbul etdilər və kənddə yaşamağa davam etdilər [Bax: 7]. 26 dekabr 2012-ci il tarixində Dağıstan hökuməti Uryan-Uba və Xrax -Uba əhalisinin orada qalan 400 sakinini Dağıstan ərazisinə köçür-məyi və onları mənzillə təmin etməyi öhdəsinə götürmüşdür [Bax: 8]. Bu insanların köçürülməsi üçün hər cür şərait yaradılmışdır.

Eyni təcrübə, etnik azlıqlara yurisdiksiyalarına tabe olmağa hazır olduqları ölkələrdə özünün daimi yaşayış yerlərini sərbəst seçmə imkanını verir. Bu yanaşma həmçinin milli münasibətlər zəminində lazımsız yerə həddi aşmağın qarşısını almağa imkan verəcək, dövlətlərin suverenliyini möhkəmləndirəcək, həmçinin qonşu dövlətlərin daxili işlərinə müdaxilə imkanlarını məhdudlaşdıracaqdır.

### Ottava Konvensiyası və minalanmış sahələr problemi

İşğalın hüquqi və ictimai qiymətləndirilməsini tələb edən nəticələrdən biri də Qarabağın azad edilmiş bütün ərazilərindəki erməni işğalçılardan qalan minalanmış sahələrdir. Hazırda bu mövzu hüquqşünasların, politoloqların, tarixçilərin və digər mütəxəssislərin diqqət mərkəzində olmalıdır. Onu, işğalçılar tərəfindən törədilən müharibə cinayətlərinin hüquqi qiymətləndirilməsi, həmçinin bu faktın siyasi və tarixi cəhətləri baxımından araşdırmaq lazımdır.

Humanitar hüquq üzrə görkəmli mütəxəssis, Qırmızı Xaç Komitəsinin üzvü Jan Pikte yazırdı: "Müharibə xalqları birləşdirən bütün bağları qoparmır, o, sivilizasiyanın çətinliklə qazanılan bütün maddi və mənəvi nailiyyətlərinə son qoya bilməz və buna cəhd etməməlidir də" [1, s.103].

Minalanmış ərazilərin xəritələrini Azərbaycana verməkdən imtina edən erməni tərəfinin erməni terrorçularının təhvil verilməsi xahişi ilə Azərbaycana müraciəti, yüksək səviyyədə əxlaqsızlıq və məsuliyyətsizlik elementlərini daşımaqla yanaşı, beynəlxalq hüquq normalarını pozan bir hərəkəti formalaşdırır. Ermənistan Respublikasının dünya birliyinin qaydalarına zidd olan bu hərəkəti qınağdan kənarda qala bilməz, çünki müharibənin sona çatmasına və regionda davamlı sülhün qurulmasına mane olmaqdadır.

Ermənistan Respublikası və onun vəzifəli şəxsləri tərəfindən törədilən əməlin subyektiv tərəfi baxımından Azərbaycana xəritələrin verilməməsi, hərbi əməliyyatlar bitdikdən sonra hərbi qulluqçuların və mülki şəxslərin ölümünü qəsdən istəmək və müharibəni davam etdirməyi arzulamaq mənasına gəlməkdədir. Rusiyalı ekspert Sergey Markov bu barədə birmənalı olaraq bildirirdi: «Ermənistanın minalanmış sahələrin xəritələrini Azərbaycana verməkdən imtina etməsi hərbi cinayətdir» [Bax: 4].

Eyni zamanda, xəritələrin verilməməsi Azərbaycanın təşəbbüsü ilə ikitərəfli münasi-

bətlərdə başladılan sülh prosesində onun xeyirxah addımlarının da qarşısını almaqdadır. Belə vəziyyət, ölkə rəhbərliyinə erməni tərəfinin maraqları naminə və ya müəyyən məsələlərin həll yolunu tutmasına imkan vermir, çünki ictimai rəyin və vətəndaş cəmiyyətinin əks fikirlərinə rast gələcəkdir.

Qeyd olunanları nəzərə alaraq, ermənilər tərəfindən minalanmış ərazilərin xəritələrinin verilməməsi məsələsi beynəlxalq təşkilatların, dünyanın aparıcı dövlətlərinin yalnız diqqət mərkəzində qalmamalı, eyni zamanda müzakirə mövzusuna çevrilməlidir.

Yaxın tarixin təhlili göstərir ki, minalanmış sahələr Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən yaradılmışdır. İşğal altındakı Azərbaycan ərazilərində olduqları müddətdə onların heç bir hərbi qulluqçusu orada minaya düşməmişdir, yəni minalanmış sahələrin xəritələrinin olmaması doğru istinad deyildir. Bu istinad erməni faşizmi və Njdeizm ideologiyasının hələ də Ermənistan Respublikası siyasətində üstünlük təşkil etdiyinin göstəricisidir. Ermənistan Respublikasının xarici siyasətində beynəlxalq hüququn prinsip və normalarına keçid prosesinin hələ də baş tutmamasıdır.

Toxunanda avtomatik partlayan minalar, tələ-minalar və digər bu kimi qurğular Piyadalar əleyhinə minaların (PƏM) istifadəsi, ehtiyatının toplanması, istehsalı və ötürülməsinin qadağan edilməsi və onların məhv olunması haqqında Konvensiyaya görə qadağan olunmuş müharibə vasitələridir (PMQK, Ottava Konvensiyası) [Bax.: 3]. Bu sənəd 3 dekabr 1997-ci ildə Ottava şəhərində imzalanmış və 1 mart 1999-cu ildə qüvvəyə minmişdir. Bu Konvensiyaya əsasən ümumi öhdəlik belədir: heç vaxt və heç bir halda piyada əleyhinə minalardan istifadə etməmək. Bu öhdəlik bütün silahlı münaqişə vəziyyətlərinə aiddir. Piyadalar əleyhinə quraşdırılan minalar seçimsiz təsir qüvvəsinə malikdirlər və uzun müddət işlək vəziyyətdə qala bilirlər. Piyada əleyhinə minanın partlaması nəticəsində alınan xəsarətlər xüsusilə ağır olur. Bu silahın məqsədi yalnız öldürmək deyil, həm də ömürlük şikəst etməkdir ki, bu daha çox təsadüf edilir. Eyni zamanda, bu minalara görə ərazilərin əksər hissələri yararsız vəziyyətdə qalmaqdadır.

Ermənistan Respublikasının Cinayət Məcəlləsinin "Sülh və insanlıq əleyhinə cinayətlər" adlı 33-cü fəslində 387-ci maddə var. İlk əvvəl onun mətnini tam olaraq təqdim edirik:

"Maddə 387. Qadağan edilmiş müharibə vasitələrindən və üsullarından istifadə etmə.

1. Hərbi əməliyyatlar və ya silahlı münaqişələr zamanı **beynəlxalq müqavilə ilə qadağan edilmiş** vasitə və üsullardan istifadə etmə – maksimal olaraq iyirmi il müddətinə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.
2. **Ermənistan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə qadağan edilmiş** kütləvi qırğın silahlarını sınaqdan keçirmə və ya istifadə etmə – on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrumetmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır. (Maddə 387, 23 May 2011-ci il tarixli HO-143-N uyğun olaraq dəyişdirilmişdir)" [2].

Həmin maddəyə əsasən, hətta 1997-ci il Ottava Konvensiyasına qoşulmadığına baxmayaraq Ermənistan Respublikasının özü, işğal olunmuş Azərbaycan ərazilərini minalayan və minalanmış sahələrin xəritələrini verməkdən imtina edən şəxsləri cinayət məsuliyyətinə cəlb etməlidir. Səbəbini izah etməyə çalışaq.

387-ci maddənin birinci hissəsində, Ermənistan Respublikasının bu universal müqaviləyə qoşulub-qoşulmamasından asılı olmayaraq, "Hərbi əməliyyatlar və ya silahlı münaqişələr zamanı beynəlxalq müqavilə ilə qadağan edilmiş vasitə və üsullardan istifadə etmə"yə görə məsuliyyət nəzərdə tutulur. Qanunverici, humanist düşüncədən yola çıxaraq muvafiq maddəyə məhz belə məna yükləmişdir, çünki bəşəri dəyərlər bu və ya digər heç bir siyasi qərar və imtiyazlardan asılı olmamalıdır. Elə buna görə də o, həmin maddənin sırf ikinci hissəsində "Ermənistan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə qadağan

edilmiş kütləvi qırğın silahlarını sınaqdan keçirmə və ya istifadə etmə"dən bəhs edir, daha doğrusu Ermənistan Respublikasının artıq qoşulduğu müqavilələri nəzərdə tutur.

Beləliklə, Ermənistan Respublikası SQ-nin hərbi qulluqçuları tərəfindən Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində Ermənistan Respublikasının Cinayət Məcəlləsinin 387-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə cinayətlər törədilmişdir. Ona görə də cinayətkarlar layiqincə cəzalandırılmalı və Ermənistan Respublikası isə törədilmiş cinayət əməllərinin fəsadlarını azaltmaq üçün müvafiq tədbirlər görməlidir.

## Azərbaycan ərazisindəki döyüş əməliyyatlarında Ermənistan Respublikasının istifadə etdiyi muzdluların məsuliyyətə cəlb edilməsi məsələləri

Son dövrlərdə, Qarabağ müharibəsində iştirak edən üçüncü ölkələrin vətəndaşları olan erməniləri təqib etməkdən ötrü Bakının resursları səfərbər etməsindən Ermənistan Respublikasındakılar narahatçılıq hissi keçirirlər. Belə ki, onlara qarşı cinayət işinin başlanılması tələbi ilə Azərbaycan bir sıra dövlətlərin hüquq-mühafizə orqanlarına müraciət etmişdir. Əsasən, Fransanın "General de Europe" jurnalında Fransa öz vətəndaşlarının Qarabağ müharibəsində iştirakı faktları ilə bağlı araşdırmaya başladığı haqda politoloq Sebastyan Bussuanın məqaləsinin dərc olunmasından sonra səs-küy qopmuşdur.

Əvvəla, bu fakt, Qarabağda Ermənistan Respublikasının tərəfində əcnəbi muzdluların döyüşdüyünün təsdiqidir. Özlərinə məxsus şəkildə uzun müddət bunu Azərbaycana yamağ etməyə çalışsalar da, ermənilərin bu faktı artıq etiraf etmələri xüsusilə diqqətçəkicidir [Bax: 9]. Təəccüblüsü budur ki, hər hansı qanunsuz və ya ləyaqətsiz bir iş gördükdən sonra onlar dərhal səs-küy salırlar ki, bunu Azərbaycan edir – daha doğrusu, oğru qışqırır ki: "Tutun oğrunu!".

Artıq uzun müddətdir ki, bizdə, qonşularımızın hansısa paralel dünyada yaşadıqlarına dair fikir formalaşmışdır. Bir erməni müəllifinin opusunda səslənən düşüncəyə baxaq: "Fransa vətəndaşlarının müharibədə iştirak etməsi faktı şübhə doğurmur. Ancaq bu rəsmi Parisin cəza tədbirlərini tətbiq etmək məcburiyyətində olduğu deməkdir mi?" [11].

Baş verənləri təhlil etməyə çalışaq. Hər şeydən əvvəl, üçüncü dövlətlərin vətəndaşlarının bir münaqişədə iştirakı – həmin dövlətlərin də bu münaqişəyə cəlb olunmasının bir forması sayılır ki, bu faktor da üçüncü dövlətin xarici siyasi fəaliyyətinə maneçilik törədə, onun maraqları ilə ziddiyyət təşkil edə bilər. Demək olar ki, bütün dövlətlərin cinayət qanunvericiliklərində muzdluluğa görə cinayət məsuliyyətinə cəlbetmə maddələri nəzərdə tutulmuşdur. Bunun səbəbi isə, 4 dekabr 1989-cu il tarixli muzdluların cəlb olunması, istifadəsi, maliyyələşdirilməsi və təlimi ilə mübarizə haqqında Beynəlxalq Konvensiyanın mövcud olmasıdır [10].

Bütün dünyada muzdlular cinayətkar sayılırlar, hərbi əməliyyatlar zamanı isə onlar "qanun xaricində" olurlar və məhv edilməyə məhkumdurlar. Bu cür şəxslərin kateqoriyasına hərbi münaqişədə və ya hərbi əməliyyatlarda iştirak edən dövlətin vətəndaşı olmayan, onun ərazisində daimi yaşamayan, həmçinin rəsmi vəzifələri yerinə yetirmək üçün münaqişə zonasına göndərilməyən üçüncü dövlətin vətəndaşları da daxildir.

Azərbaycan Prezidenti İlham Əliyev "Əl-Cəzirə" telekanalına verdiyi müsahibədə bu cür vətəndaşları əsaslı olaraq muzdlu adlandırırdı. "Onların erməni mənşəli olub-olmamalarının fərqi yoxdur. Bir əcnəbi müharibədə iştirak edirsə, o, muzdludur."

Beynəlxalq hüquq normalarına uyğun olaraq, ikili və ya çoxsaylı vətəndaşlıq hallarında, şəxsin daimi yaşayış yerinə sahib olduğu dövlətdəki vətəndaşlığı ilk növbədə tanınır. Bu səbəbdən, hətta etnik erməni olsalar belə xarici muzdlular, bütün dünyada daimi yaşadıqları dövlətin vətəndaşları kimi tanınırlar.

Bundan başqa, Ermənistan Respublikasının tərəfində döyüşən etnik erməni olmayan muzdluların iştirakı faktları da müəyyən edilmişdir.

Yenə eyni erməni müəllif “erməni radiosu” üslubunda belə bir fikri ifadə edir: “Hətta ölkədən kənarda hərbi əməliyyatlarda iştirakın cinayət sayıldığı dövlətlərdə belə bu maddələr üzrə çox nadir hallarda cinayət işi açılır. Və bu, yalnız hüquqi və siyasi deyil, həm də humanitar səbəblərə görə belədir. Bir qayda olaraq, cəmiyyət təqsirləndirilən şəxslərə rəğbət və simpatiya ilə yanaşır” [9].

Erməni muzdluların hansı cəhətləri bu qədər cəlbedicidir ki, vətəndaşı olduqları cəmiyyətlər öldürməyə getdikləri üçün onlara rəğbət bəsləməlidir? Qanunlar sentimentallıq tanımır və Qarabağda döyüşən erməni muzdluların beynəlxalq hüququ “cəzbetmə” istəyi baş tutmayacaqdır.

**“Hərbi əsirlər” yoxsa terrorçular?**

Hələ 2020-ci il 31 dekabrda Bakıda Türkiyənin müdafiə naziri Hulusi Akarla görüşdə Azərbaycan Prezidenti İlham Əliyev bir çox erməni əsgərinin “həbs olunduğunu” və on-ların “hərbi əsir hesab edilə bilinməyəcəyini” vurğulamışdır. “Azad edilmiş torpaqlarda (Qarabağ münaqişəsi zonasında – red.) hələ də mövcud olan erməni silahlı birləşmələri Ermənistanın siyasi rəhbərliyinə tabe deyillər. Müharibə qurtardıqdan sonra onların bir çoxu həbs edilmişdir. Lakin onlar müharibə əsirləri sayıla bilməz, onlar terrorçudurlar” [12].

Vəziyyətin hərtərəfli qiymətləndirilməsi. 12 Avqust 1949-cu il tarixli Hərbi əsirlərlə rəftar haqqında Cenevrə Konvensiyasının 4-cü maddəsində “hərbi əsirlər” anlayışı kateqoriyasına aid olan şəxslərin ətraflı siyahısı verilmişdir. Bu geniş həcmli maddənin məzmunu izah etməyə ehtiyac yoxdur. Ona görə də onun prinsipial müddəaları üzərində duracayıq. Bu maddəyə uyğun olaraq, hərbi əsir anlayışının ən vacib keyfiyyət xüsusiyyətləri “tərəflərinin münaqişədə olması” (A.1; A.2 bəndləri), “hərbi əməliyyatlarda iştirak” (B.1 bəndi), “öz hərəkətlərində müharibə qanunlarına və adətlərinə riayət olunması”ndan ibarətdır (bənd A.2.d).

Azərbaycan, Ermənistan Respublikası və Rusiya liderlərinin Üçtərəfli Bəyanatı Ermənistan Respublikası ilə Azərbaycan arasındakı silahlı münaqişəyə və hərbi əməliyyatlara son qoymuşdur. Bu sənədin 1-ci maddəsinə əsasən belə elan edildi ki,“10 noyabr 2020-ci il tarixindən Moskva vaxtı ilə 00 saat 00 dəqiqədən etibarən Dağlıq Qarabağ münaqişə zonasında bütün hərbi əməliyyatlar dayandırıldı və tam atəşkəs təmin edildi. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası hazırda tutduqları mövqelərində dayanırlar” [13].

Hərbi əməliyyatlar tamamilə dayandırıldıqdan sonra Ermənistan Respublikasından Azərbaycan ərazisinə daxil olan erməni silahlı dəstələrinin hücumu nəticəsində dörd əsgər öldürüldüyünə və üç nəfər yaralandığına görə 2020-ci il noyabr ayının sonunda Azərbaycan Silahlı Qüvvələri Xocavənd rayonunda antiterror əməliyyatı aparmaq məcburiyyətində qaldı. Silahlı münaqişə və hərbi əməliyyatlar dayandırıldığına görə bu hərbçilərin hərəkətləri, tərəflərin sülh razılaşmalarını pozur və hətta "müharibə qanunlarına və adətlərinə riayət edilməsinə" heç yaxın belə deyildir. Elə isə, onlar hansı əsasla hərbi əsir kimi tanınmalıdırlar? Hərbi əməliyyatlar dayandırıldıqdan sonra Azərbaycan ərazisində qətllər törətmiş bu şəxslər terrorçudurlar və cinayətin törədildiyi yerin qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb olunmalıdırlar.

Və nəhayət, həmin Konvensiyanın 5-ci maddəsinə uyğun olaraq, “Əgər döyüş əməliyyatlarında bu və ya digər dərəcədə iştirak etmiş və düşmən əlinə keçmiş şəxslərin 4-cü maddədə sadalanan kateqoriyalardan birinə mənsub olub-olmaması barəsində şübhə yaranarsa, belə şəxslər onların statusu səlahiyyətli məhkəmə tərəfindən müəyyən edilənədək bu Konvensiyanın himayəsindən istifadə edirlər". Yəni, 9/10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatdan sonra Azərbaycan ərazisində cinayət törətdiyinə görə tutulmuş şəxslərin statusundan kiminsə şübhəsi varsa, o zaman bu işlərə dair səlahiyyət sahibi olan məhkəmənin keçirilməsini gözləmək lazım olacaqdır. Məhz bu məhkəmə həbs olunmuş şəxslərin statuslarını müəyyən edəcəkdir.

Zənnimizcə, Qarabağın bərpası prosesinin başlanğıc mərhələsində Azərbaycan-Ermənistan münasibətlərinin bəzi siyasi-hüquqi aspektlərinin tərəfimizdən gözdən keçirilməsi sülh prosesinin inkişafına, tərəflərin bir-birilərinin mövqelərini doğru anlamasına və nəticə etibarilə, Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olmasına xidmət edəcəkdir.

**Ədəbiyyat:**


1. https://1news.az/news/o-chem-dogovorilis-po-karabahu-azerbaydzhan-rossiya-i-armeniya-tekst-zayavleniya
2. Без азербайджанского гражданства армяне в Карабахе жить не смогут. - https://news.day.az/politics/1296409.html?fbclid=IwAR3weopk54rVsu5cfRs1Wna4lhnxVgRia64OuokbDUmsxN4N7TLWRhIzf5w
3. 527-IQ - Azərbaycan Respublikasının vətəndaşlığı haqqında (e-qanun.az)
4. Переселение жителей седа Храх-Уба и Урьян-Уба в Дагестан завершится до конца года. РИА Дагестан. 25 июня 2018.
5. Дагестану понадобилось 900 миллионов на переселение лезгин из Азербайджана. Сайт Lenta.ru
6. Алиев, Намик. Day.az: встретимся в Карабахе. Комментарии к агрессии армянства (Выпуск первый). – Баку: Təhsil, 2021, с.73-74 (– 128 с.) ISBN 978-9952-518-24-5
7. Пикте, Жан. Развитие и принципы международного гуманитарного права. Женева: МККК / Институт Анри Дюнана, 1994
8. Алиев, Намик. Day.az: в ожидании встречи с Шушой. Комментарии к трагедии армянства (Выпуск второй). – Баку: Маариф, 2022. – 192 с. ISBN 978-9952-445-21-03
9. Уголовный кодекс Республики Армения. https://www.legislationline.org/download/id/8989/file/ARM_Criminal%20Code_ru_as%20of%2010%20Jul%202019.pdf
10. Конвенция о запрещении применения, накопления запасов, производства и передачи противопехотных мин и об их уничтожении. - https://www.un.org/ru/documents/decl_conv/conventions/mines_convention.shtml; https://www.icrc.org/ru/doc/resources/documents/misc/ihl-ottawa-convention-271004.htm
11. BMT Baş Məclisinin 44-cü sessiyasında 4 dekabr 1989-cu il tarixli qətnamə (44/34) ilə qəbul edilmiş “Muzdlunun cəlb edilməsi, istifadəsi, maliyyələşdirilməsi və təlimi ilə mübarizə haqqında” Beynəlxalq Konvensiya"


***Açar sözlər:*** *Azərbaycan, Ermənistan Respublikası, işğal, təcavüz, işğal olunmuş ərazilərin azad edilməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri, Üçtərəfli bəyanat, Qarabağ, 1949-cu il Cenevrə Konvensiyaları, 1997-ci il Ottava Konvensiyası*

**Namiq Aliyev**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Head of the Department of International Relations and Foreign Policy, Extraordinary and Plenipotentiary Ambassador of the Republic of Azerbaijan, Second Degree State Counselor, Professor, Dr. of Law Sciences***

## 44-DAY PATRIOTIC WAR AND SOME POLITICAL AND LEGAL ISSUES OF AZERBAIJAN -ARMENIA RELATIONS

### ABSTRACT

The article deals with the process of implementing the legacy of Heydar Aliyev. The author analyzes some political and legal issues arising in the sensitive process of restoring Azerbaijani-Armenian relations after the liberation of the internationally recognized territories of Azerbaijan from occupation by the Republic of Armenia.

***Keywords:*** *Azerbaijan, Republic of Armenia, occupation, aggression, liberation of the occupied territories, resolutions of the UN Security Council, Tripartite Statement, Karabakh, Geneva Conventions of 1949, Ottawa Convention of 1997*

**Намик Алиев**

***Заведующий кафедрой Международных отношений и внешней политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор юридических наук, профессор, Чрезвычайный и Полномочный Посол Азербайджанской Республики, Государственный советник Второй степени***

## 44-ДНЕВНАЯ ОТЕЧЕСТВЕННАЯ ВОЙНА И НЕКОТОРЫЕ ПОЛИТИКО-ЮРИДИЧЕСКИЕ ПРОБЛЕМЫ АЗЕРБАЙДЖАНО-АРМЯНСКИХ ОТНОШЕНИЙ

### РЕЗЮМЕ

В статье рассматривается процесс претворения в жизнь завета Гейдара Алиева. Затрагиваются некоторые политико-правовые вопросы, возникающие в чувствительном процессе восстановления азербайджано-армянских отношений после освобождения от оккупации Республикой Армения международно признанных территорий Азербайджана.

***Ключевые слова:*** *Азербайджан, Республика Армения, оккупация, агрессия, освобождение оккупированных территорий, резолюции Совета Безопасности ООН, Трехстороннее заявление, Карабах, Женевские конвенции 1949 года, Оттавская конвенция 1997 года*

UOT 328; 342.5; 351/354

**ELŞAD MİRBƏŞİR OĞLU**

***Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Sosial Tədqiqatlar Mərkəzinin İH-nin üzvü, sədr müavini, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və siyasi idarəetmə" kafedrasının professoru, siyasi elmlər doktoru***

*e-mail: elshad.mirbashiroglu@gmail.com*

# AZƏRBAYCANDA DÖVLƏT İDARƏÇİLİYİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

Dövlət idarəetməsi olduqca mürəkkəb və təkmilləşdirilmənin tələb olunduğu bir sahədir. Müvafiq olaraq dövlət idarəetməsinin təkmilləşdirilməsi istiqamətində islahatların aparılması da kifayət qədər mürəkkəb və ciddi diqqət tələb edən bir məsələdir. Belə ki, inzibati islahatlar özündə kompleks tədbirləri birləşdirir. Azərbaycan Respublikasının günü-gündən artan iqtisadi potensialı cəmiyyət həyatında müasir və çevik dövlət idarəetməsinin reallaşdırılmasını tələb edir. Azərbaycan cəmiyyətində müşahidə olunan dərin sosial-iqtisadi dəyişikliklər bu dəyişikliklərə adekvat idarəetmə prinsiplərinin tətbiq olunmasını zəruri edir. Dövlət idarəçiliyinin mürəkkəb xarakteri onun təkmilləşdirilməsi prosesinin həyata keçirilməsi prinsiplərinin, xüsusiyyətlərinin dəqiqliklə nəzərə alınmasını tələb edir. Yəni, dövlət idarəçiliyinin təkmilləşdirilməsi prosesi hakimiyyət-vətəndaş münasibətləri kontekstində baş verirsə, onda nəticələr daha səmərəli olacaq.

Azərbaycanda demokratik prinsiplərə söykənən, milli maraqların təmin olunmasına yönəldilmiş, sosial ədalətin təmin olunmasını əsas tutan dövlət idarəetmə sisteminin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Belə ki, Ulu Öndər Heydər Əliyev ali siyasi hakimiyyətə gəlməsilə səmərəli dövlət idarəçiliyinin bütün zəruri əsaslarının formalaşdırılmasına xidmət edəcək təsirli addımlar atılmışdır. Bu mənada dövlət idarəçiliyinin normativ-hüquqi bazasının yaradılması səmərəli islahatların baza prinsipi kimi nəzərdə tutulurdu. Bunu zəruri edən başlıca amil ondan ibarət idi ki, bütün ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da dövlətçiliyin möhkəmləndirilməsi və davamlı inkişafın təmin olunması dövlət idarəçiliyində sistemli şəkildə islahatların həyata keçirilməsi vacibdir. Məhz bu reallıqdan çıxış edərək Heydər Əliyev davamlı olaraq dövlət idarəçiliyi sistemində inzibati islahatların həyata keçirilməsini daim öz diqqətində saxlamışdır.

Qeyd etdiyimiz kimi, Azərbaycan dövləti öz müstəqilliyinə qovuşduqdan sonra müasir tələblərə cavab verən, demokratik prinsiplərə söykənən dövlət idarəçilik sisteminin yaradılması istiqamətində davamlı addımlar atılmışdır. Müstəqillik əldə etdiyi vaxtdan hazırkı dövrə qədər Azərbaycanda dövlət idarəçiliyi şərti olaraq dörd inkişaf mərhələsini keçmişdir. Bu inkişaf mərhələlərini təxmini olaraq aşağıdakı kimi təqdim etmək mümkündür:

**– 1991-1993.** Bu dövrdə idarəetmə sistemində bir xaos müşahidə olunurdu. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə dövlət idarəetməsinin ilkin elementi görünməyə başladı;

**– 1994-1995.** Ölkədə siyasi sabitlik təmin olundu dövlət idarəetmə sisteminin yaradılması istiqamətində real addımlar atılmağa başladı;

**– 1996-1998.** Artıq tam formalaşmış dövlət idarəetmə sistemində cəmiyyətdə gedən dəyişikliklərə müvafiq islahatların həyata keçirilməsinə start verildi;

**– 1999-cu ildən hazıradək.** Səmərəli dövlət idarəçiliyi sisteminin yaradılması prosesi özünün bütün əlamətləri ilə müşahidə olunmaqdadır.

Hər şeydən öncə qeyd edək ki, Azərbaycan Respublikasında ölkə Konstitusiyası müasir dünyamızda mövcud olan normalara uyğun olaraq hakimiyyətin üç qolunun mövcudluğunu təsbit etməklə, dövlət idarəçiliyinin ümumi prinsiplərini müəyyənləşdirmişdir. Hesab olunur ki, müasir mərhələdə Azərbaycan dövlət idarəçiliyi sisteminin formalaşması 1995-ci ildə Konstitusiyanın qəbul olunması ilə başlamışdır. 1996-cı ildə Ümummilli Lider Heydər Əliyevin sərəncamı ilə "Hüquqi İslahatlar Komissiyası" təşkil olunmuşdur. Bununla da yenicə öz müstəqilliyinə qovuşmuş dövlətin öz qanunvericilik bazasının yaradılması və inkişafı prosesi başlamışdır. Qeyd edək ki, Komissiyanın qarşısında mühüm vəzifələr qoyulmuşdur. Başlıca vəzifə isə ondan ibarət idi ki, müasir tələblərə cavab verən dövlət idarəçiliyi və dövlət qulluğu sisteminin yaradılması istiqamətində addımlar atılsın. Bu zaman qabaqcıl ölkələrin təcrübələrinin öyrənilməsi vacib əhəmiyyət kəsb edirdi.

Ümummilli Lider Heydər Əliyevin dövlət idarəçilik sisteminin formalaşdırılması və sonrakı təkmilləşdirilməsi prosesi ilə bağlı əsas baxışları ondan ibarət idi ki, Azərbaycanda demokratik prinsiplərin tam oturuşmasını, vətəndaş cəmiyyətinin dinamik inkişaf etdirilməsini şərtləndirəcək təsirli addımlar atılsın. Dövlət-vətəndaş cəmiyyəti dialoqu kontekstində daha uğurlu dövlət idarəçiliyi sisteminin qurulmasının olduqca düzgün yanaşma olduğunu həm zaman təsdiq etdi, həm də mövcud dünya təcrübəsi sübut edirdi. Çünki, dövlət idarəçiliyinin səmərəliliyinin başlıca meyarı vətəndaşların münasibətindən ibarətdir. Vətəndaş məhz vətəndaş cəmiyyəti institutları vasitəsilə öz istək və baxışları hakimiyyət orqanlarının diqqətinə çatdıra bilir. Bu zaman dövlət cəmiyyətdən gələn impulslara uyğun addımlar atmaqla vətəndaşların gözləntilərini doğrultmuş olur. Beləliklə, vətəndaş məmnunluğu da təmin olunmuş olur. Deməli, artıq səmərəli dövlət idarəçiliyindən danışmaq üçün ciddi əsas yaranmış olur. Bu baxımdan, dövlət idarəçiliyi sahəsində böyük təcrübəyə malik olan Heydər Əliyev hər şeydən öncə vətəndaş amilini nəzərə alaraq, dövlət idarəçiliyi sistemində bu və ya digər islahatları həyata keçirirdi. Onun baxışları əsasında dövlət idarəçiliyi sahəsində həyata keçirilən islahatlar milli inkişaf hədəflərimizə uyğun fəaliyyəti həyata keçirməyə imkan verəcək, Azərbaycanın hüquqi dövlət əsaslarını möhkəmləndirməyə xidmət edən ciddi qanunvericilik bazasının yaradılmasına əsaslanırdı. Yaxşı dünya təcrübəsindən geniş yararlanmaqla yanaşı, yeni hədəflərin tələblərinə uyğun dövlət idarəçiliyinin təkmilləşdirilməsi Azərbaycan Respublikasında çevik, səmərəli dövlət idarəçiliyi sisteminin qurulmasının ilkin şərtlərini təşkil edirdi [6].

Qeyd etdiyimiz kimi, dövlət idarəçiliyinin daha sistemli şəkildə inkişaf etdirilməsi üçün normativ-hüquqi bazanın yaradılması xüsusi diqqət mərkəzində olub. Bununla yanaşı, dövlət idarəçiliyi sisteminin ayrılmaz komponentini dövlət qulluğu təşkil etdiyinə görə bu istiqamətdə qanunvericilik bazasının gücləndirilməsi sistemli şəkildə həyata keçirilib. Müvafiq olaraq, 2000-ci il 21 iyul tarixində Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunun qəbul olunması kifayət qədər təsirli oldu. Ulu Öndər Heydər Əliyevin baxışları, təcrübəsi qanunun hazırlanması zamanı nəzərə alınmışdır və həm dövlət idarəçiliyinin təkmilləşdirilməsi, həm də dövlət kadr siyasətinin düzgün qurulması baxımından səmərəli addımların atılması üçün mühüm baza rolunu oynamış oldu. Qanunun qəbul olunmasından sonra həm ümumilikdə dövlət idarəçiliyi sahəsində, həm də ayrıca dövlət qulluğu sahəsində sürətlə keyfiyyət dəyişiklikləri müşahidə olunmağa başladı. Hər şeydən öncə, dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin həyata keçirilməsinin normativ-hüquqi bazası yaradılmış oldu. Ən əsası isə, dövlət idarəçiliyi sisteminin əsas keyfiyyət kriteriyası olan kadrların hazırlanması, seçilməsi ilə bağlı yanaşmalar qanunda öz aydın ifadəsini tapmış oldu. Dövlət qulluğu siste-

minə aid olan məfhumların da mahiyyətində aydın izah olunması, onun təbiətinin nədən ibarət olduğuna tam aydınlıq gətirilməsi və s. məqamların ifadə olunması qanunun sonrakı rolunu və təsirini şərtləndirən mühüm amillərdəndir. Dünya təcrübəsi göstərir ki, keyfiyyətli kadr bazası olmayan yerdə səmərəli dövlət idarəçiliyini təşkil etmək qeyri-mümkündür. Nəzərə almaq lazımdır ki, cəmiyyətdə və dünyada davamlı olaraq, siyasi, iqtisadi və mədəni dəyişikliklər getməkdədir. Müvafiq olaraq, dövlət idarəçiliyi sahəsində baxışların və uyğun qanunvericilik bazasının da yenilənməsi tələb olunur. Bu mənada, Azərbaycan Respublikasında həm dövlət idarəçiliyi, dövlət kadr siyasəti sahəsinə aid olan normativ-hüquqi bazanın davamlı olaraq dəyişikliyə və yeni çağırışlara uyğun olaraq yeniləndirilməsi diqqət mərkəzindədir. Məsələn, yuxarıda qeyd etdiyimiz "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda zaman-zaman təkmilləşdirilmənin həyata keçirilməsi bunu bir daha təsdiq edir. Həm dövlət idarəçiliyi, həm də dövlət qulluğu sistemi başlıca olaraq, vətəndaşlarla dövlət orqanları arasında konstruktiv təmasların qurulmasına, onların gözləntilərinə uyğun nəticələrə çatılmasına imkan verəcək səviyyədə olmalıdır. Bu baxımdan da, dövlət idarəçiliyinin təkmilləşdirilməsi prosesində əsasən bu kriteriyadan çıxış edilir. Bu istiqamətdə ictimai institutların funksionallığının artırılması üçün zəruri şəraitin yaradılması vacibdir [2, s.215].

Ümummilli Lider Heydər Əliyevin dövlət qulluğu haqqında qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi sahəsindəki gördüyü böyük əhəmiyyət kəsb edən işlər Ulu Öndərin siyasi kursunun ən layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən məntiqli şəkildə davam etdirilir. Dövlət başçısının yüksək diqqət və qayğısı sayəsində "Dövlət qulluğu haqqında" Qanundan irəli gələn bütün məsələlər davamlı olaraq həyata keçirilir.

Eyni zamanda, bu sahədə yeni qanunların işlənib hazırlanmasına və qəbuluna tələbat yarandığından ölkənin milli qanunverici orqanı tərəfindən 31 may 2007-ci il tarixində "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanun qəbul edilmişdir. Qanunun ikinci fəslinə uyğun olaraq, dövlət qulluqçusu səlahiyyətlərini yerinə yetirən zaman vicdanlı, məsuliyyətli olmalı, insanların hüququna, hüquqi şəxslərin işgüzar nüfuzuna hörmətlə yanaşmalıdır.

Son dövrlər beynəlxalq hüquq normalarına uyğunlaşdırılmış qanunların qəbul edilməsi ölkəmizin nüfuzunu daha da artırmış, onu dünyanın inkişaf etmiş demokratik ölkələri səviyyəsinə yüksəltmişdir.

Beləliklə, müstəqil Azərbaycan dövlətində cəmiyyətin demokratikləşdirilməsi və bazar münasibətlərinin daha da inkişaf etdirilməsi üçün dövlət idarəetməsində köklü islahatların aparılması prinsipial əhəmiyyət kəsb etdiyi üçün Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev 1998-ci il, dekabrın 29-da "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" fərman imzalamışdır. Fərmana nəzər salsaq, aydın olar ki, islahatların həyata keçirilməsi ilə müəyyən nəticələrə nail olmaq qarşıya məqsəd kimi qoyulmuşdur:

- dövlət idarəetməsinin səmərəliliyini artırmaq;
- iqtisadiyyatın tarazlaşdırılmış tənzimlənməsi məqsədi ilə zəruri təsisatların formalaşdırılmasını təmin etmək;
- ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiya olunmasını sürətləndirmək məqsədi ilə iqtisadi fəaliyyət üçün beynəlxalq standartlara cavab verən idarəetmə sistemi və hüquqi baza yaradılmasını təmin etmək;
- bu məqsədlər üçün dövlət xərclərinin şəffaf tənzimlənməsi mexanizmini formalaşdırmaq;
- audit və dövlət idarəetmə (o cümlədən dövlət qulluğu) sistemini yenidən qurmaq;
- iqtisadiyyatın idarə olunmasının təsisat sistemini təkmilləşdirilmək;
- hüquqi və məhkəmə islahatlarının aparılmasını sistemli yanaşma əsasında kompleks şəklində həyata keçirmək.

Yuxarıda sadalananları ümumiləşdirərək, dövlət idarəetməsi sistemində aşağıdakı dörd istiqamət üzrə islahatların aparılması nəzərdə tutulmuşdur [4, s.3]:

1. dövlət xərclərinin idarə olunması sisteminin yenidən qurulması;
2. audit sisteminin islahatı;
3. dövlət idarəetmə sisteminin islahatı;
4. hüquq və məhkəmə sisteminin islahatı.

Bu istiqamətlərdən biri - dövlət idarəetmə sisteminin islahatı dövlət qulluğu islahatlarını da nəzərdə tutur. Əlbəttə ki, fərmanda qeyd olunduğu kimi bu islahatların bir hissəsi normativ hüquqi aktların qəbul edilməsi ilə bağlı olmalı idi. Dövlət qulluğunun səmərəliliyinin artırılması, dövlət aparatının təkmilləşdirilməsi, dövlət qulluqçularının hüquqi statusunun müəyyən edilməsi, onların sosial müdafiəsinin, maddi müstəqilliyinin təmin edilməsi və eyni zamanda məsuliyyətlərinin artırılması üçün 2000-ci il iyulun 21-də respublikamızda ilk dəfə olaraq "Dövlət qulluğu haqqında" qanun qəbul edilmişdir [1]. Həmin vaxta qədər dövlət qulluqçularının fəaliyyəti Konstitusiya, əmək qanunvericiliyinin normaları və s. normativ-hüquqi aktlarla tənzimlənirdi. Müstəqil Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində qəbul olunmuş ilk qanunun çox böyük əhəmiyyəti olmuşdur. Belə ki, qanunun qəbul edilməsi ilə Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulmuşdur. Qanunun qəbul edilməsinin əsas səbəbi Heydər Əliyevin 1998-ci ildə dövlət idarəçilik sistemində islahatların aparılması ilə bağlı fərmanda nəzərdə tutulmuş işlərin həyata keçirilməsi olmuşdur. Respublikamızda dövlət qulluğu sistemində islahatların həyata keçirilməsi prosesi Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin dövlət qulluqçularına təbrikində dəqiq olaraq təsbit edilmişdir: "Müstəqil Azərbaycan Respublikasında müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun ali siyasi hakimiyyətə qayıdışından sonra ölkədə xaos və anarxiyanın qarşısı alındı, dövlət nizamı və sabit dövlət idarəçiliyi bərpa edildi, demokratik hüquqi dövlət quruculuğu prosesi başlandı. Onun rəhbərliyi altında həyata keçirilən idarəçilik fəaliyyəti insanlarda dövlətçilik şüurunu möhkəmləndirdi, hakimiyyət və idarəetmə orqanlarının işinə inamı artırdı. Son illərdə dövlət idarəetmə orqanlarının işinin dövrün tələblərinə uyğun yenidən qurulması, keyfiyyətli kadr korpusunun yaradılması, nazirlik və komitələrin müvafiq istiqamətlər üzrə vahid dövlət siyasətini həyata keçirən hakimiyyət orqanlarına çevrilməsi istiqamətində zəruri tədbirlər görülmüşdür. Həyata keçirilən islahatlar nəticəsində dövlət orqanlarının səlahiyyətləri dəqiqləşdirilmiş, onların öz vəzifələrini daha dəqiq və dürüst icra etmələri üçün imkanlar genişləndirilmiş və məsuliyyət artırılmışdır. Dövlət qulluğunun qanunvericilik bazası yaradılmış, "Dövlət qulluğu haqqında" qanun və digər hüquqi-normativ sənədlər qəbul edilmişdir".

Ulu Öndər Heydər Əliyevin dövlət idarəçiliyinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi prosesində ən çox diqqət yetirdiyi məqamlardan biri də keyfiyyətli kadr hazırlığı məsələsi idi. Həqiqətən də, keyfiyyətli kadr bazasını formalaşdırmadan uğurlu dövlət idarəçiliyi sistemi qurmaq qeyri-mümkündür. Bu baxımdan, kadr hazırlığının uğurla həyata keçirilməsi üçün bütün zəruri addımlar atılırdı. Xüsusi olaraq vurğulamaq lazımdır ki, hələ SSRİ-nin mövcudluğu dövründə Azərbaycan gəncləri Heydər Əliyev tərəfindən ittifaqın ən nüfuzlu ali məktəblərinə göndərilirdi. Yüksək bilik və bacarıqlara yiyələnən bu gənclər təhsillərini başa vurduqdan sonra ölkəyə qayıdaraq inkişafa ciddi töhfə verirdilər. Ulu Öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə bu amilin çox təsirli rolu olmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də bu tendensiya bu gün davam etdirilməkdədir. Qəbul edilmiş ardıcıl dövlət proqramları əsasında Azərbaycan gəncləri ölkənin əmək bazarının tələblərinə uyğun olaraq dünyanın müxtəlif universitetlərində təhsil alırlar. Heydər Əliyev Azərbaycanda da keyfiyyətli

kadr hazırlığının təşkili məsələsinə xüsusi diqqət yetirirdi. Bunu təsdiq edən faktlardan biri də ondan ibarətdir ki, 1999-cu il 3 yanvar tarixində Heydər Əliyevin imzaladığı fərmanla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradılmışdır. Dövlət İdarəçilik Akademiyasının yaradılmasından sonra dövlət idarəçiliyi sistemi üçün yüksək peşəkarlıq səviyyəsinə malik kadrların hazırlanması işində keyfiyyət dəyişikliyi müşahidə olunmağa başlamışdır. Belə bir addımın atılması həm də dövlət idarəçiliyinin təkmilləşdirilməsinin elmi-nəzəri əsaslarının təmin edilməsinə xidmət etmiş oldu. Müvafiq istiqamətdə elmi-tədqiqat işlərinin həyata keçirilməsi, qabaqcıl təcrübənin öyrənilməsi və tətbiq olunması və s. istiqamətlərdə Dövlət İdarəçilik Akademiyasının kifayət qədər ciddi töhfələri olmuşdur və bu, bu gün də müşahidə edilməkdədir.

Ümummilli Lider Heydər Əliyev dövlət idarəçiliyinin təkmilləşdirilməsi prosesində innovasiyaların tətbiqinə də xüsusi diqqət yetirirdi. Dövrün tələblərinə uyğun olaraq yeniliklərin dövlət idarəçiliyində tətbiq olunması və bu zaman vətəndaş məmnunluğunun təmin olunması prinsipinin əsas götürülməsi vətəndaş-dövlət münasibətlərinin də yeni xarakterini müəyyən etmişdir. Yeniliklərin tətbiq olunması vətəndaşlara təqdim olunan dövlət xidmətlərinin də keyfiyyətinin əhəmiyyətli dərəcədə artmasını şərtləndirmişdir. Qeyd etmək lazımdır ki, Heydər Əliyev dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində kadr və institusional islahatların həmişə paralel aparılmasına xüsusi diqqət yetirib. Yeni dövrün, yeni inkişaf hədəflərinin tələblərinə uyğun dövlət institutlarının yaradılması, təkrarlanan strukturlarının ləğv olunması dövlət idarəçiliyində ciddi keyfiyyət dəyişikliyini şərtləndirmişdir. Yeni strukturlara uyğun kadrların hazırlanması tamamilə yeni bir idarəetmə sisteminin formalaşmasına gətirib çıxardı. Bütün bunlar bir daha göstərir ki, Azərbaycanda müasir, təkmil dövlət idarəçiliyi sisteminin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu Öndər Heydər Əliyev dövlət idarəçiliyi sahəsində sistemli şəkildə həyata keçirilən islahatların əhəmiyyətinə toxunaraq qeyd edirdi: "Keçid dövrünü yaşayan bir neçə başqa ölkələrlə Azərbaycanı müqayisə edəndə bizim gördüyümüz işlər daha da dərin xarakter daşıyır. Biz bütün tədbirləri ölçüb-biçib, düşünüb həyata keçiririk... Təbiidir ki, on illərlə yaranmış sistemi dağıdıb özəl sektor, bazar iqtisadiyyatı prinsipi əsasında yeni bir iş yeri yaratmaq asan deyildir”.

Göründüyü kimi, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə ali siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu, cəmiyyətdə demokratik prinsiplərin bərqərar olunması istiqamətində təsirli addımlar atıldı. Təbii ki, sözügedən istiqamətdə daha yaxşı nəticələrin alınması mütləq şəkildə qanunvericilik bazasının da yeni keyfiyyət mərhələsinə qaldırılmasını tələb edirdi. Ümummilli Lider Heydər Əliyev hər zaman qabaqcıl təcrübənin ölkəmizdə tətbiq edilməsinin tərəfdarı olub. Xüsusilə də dövlət idarəçiliyi sahəsində həm də inzibati islahatların istiqamətlərini müəyyənləşdirən zaman, həm də kadr siyasətinin konturlarını təyin edən zaman beynəlxalq qabaqcıl təcrübələrə istinad edib. Bunun üçün isə ölkənin beynəlxalq təmaslarının artırılmasının, beynəlxalq konvensiyalara fəal şəkildə qoşulmanın xüsusi əhəmiyyəti var idi. Dövlət qulluğunun və dövlət idarəçiliyinin təkmilləşdirilməsi prosesində atılan addımların hamılıqla qəbul edilən mütərəqqi standartlara uyğunlaşdırılması Azərbaycan Respublikasında çevik və səmərəli dövlət idarəçiliyi sisteminin formalaşdırılmasını şərtləndirən əsas amillərdən biri olmuşdur.

Ölkəmizdə dövlət qulluğu sistemini səciyyələndirən başlıca xüsusiyyətlərə aid olan məqam kimi həmçinin, onun açıq sistem olmasını qeyd etmək mümkündür. Bu məqam Dövlət Qulluğu haqqında Qanunda dəqiqliklə ifadəsini tapmışdır. Belə ki, qanunda dövlət qulluqçularına nəzarət sisteminin olması təsbit edilmişdir. Qeyd edilir ki, Azərbaycanda dövlət qulluqçularına nəzarəti ictimaiyyət, xalq həyata keçirir. Bundan başqa, ictimaiyyət qarşısında dövlət qulluqçularının öz fəaliyyət-

ləri haqqında hesabat verməli olduqları təsbit olunmuşdur.

Artıq yuxarıda qeyd etdiyimiz kimi, dövlət idarəçiliyinin səmərəliliyini təyin edən başlıca amil uğurlu dövlət qulluğu sisteminin formalaşdırılmasından ibarətdir. Azərbaycanda dövlət qulluğu sistemi səciyyələndirən əsas cəhətlərdən biri odur ki, dövlət qulluğuna qəbul olunmaq hər bir Azərbaycan vətəndaşı üçün əlçatandır. Təbii ki, bunun üçün müəyyənləşdirilmiş kriteriyalar mövcuddur. Nəzərə almaq lazımdır ki, Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanununda qeyd edilir: (1, maddə 27) "Azərbaycan Respublikasının 16 yaşına çatmış, irqindən, milliyyətindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, dinə münasibətindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan vətəndaşlarının dövlət qulluğuna girmək hüququ vardır". Qeyd edək ki, bu məqamın qanunda yer alması olduqca mütərəqqi hal idi. Belə ki, bununla dövlət qulluğuna qəbul prosesində köklü dəyişiklik baş vermişdir və dövlət qulluğu sistemində şəffaflıq əhəmiyyətli dərəcədə artmışdır. Ən əsası isə, dövlət qulluğuna qəbulda diskriminasiya hallarının baş verməsi ciddi şəkildə məhdudlaşdırılmışdır.

Artıq qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasında dövlət qulluğu sistemində daim yenilənmələr aparılmaqdadır. Bu baxımdan, qeyd etmək olar ki, ölkəmizdə dövlət qulluğu sisteminin ölkə daxilində və xaricində gedən dəyişikliklərin tələblərinə uyğun olaraq təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilməkdədir. Elə bunun özünü də Azərbaycanda dövlət qulluğunun müəyyən bir xüsusiyyəti kimi nəzərdən keçirmək mümkündür. Dövlət qulluğu sisteminin konseptual əsaslarının davamlı olaraq zənginləşdirilməsi onun təkmilləşdirilməsi prosesini daha səmərəli edir. Artıq qeyd etdiyimiz kimi, 2000-ci ildə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunması ilə dövlət qulluğu sisteminin bütün məqamları əhatə olunmuş oldu. Belə ki, qanun dövlət qulluğuna qəbuldan tutmuş, dövlət qulluqçularının vəzifə təsnifatlarını, hüquqlarını, kadr hazırlığı prosesi və s. kimi məqamları əhatə etmişdir.

Beləliklə, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət idarəçiliyi sistemi hazırkı mərhələdə Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilməkdədir. Dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi, burada vətəndaşların maraqlarına və gözləntilərinə uyğun daha səmərəli fəaliyyət göstərmələrini şərtləndirəcək inzibati islahatların həyata keçirilməsi Azərbaycan Prezidenti cənab İlham Əliyevin daim birbaşa nəzarəti altındadır. Belə ki, ölkə Prezidentinin birbaşa təşəbbüsü və nəzarəti ilə dövlət idarəetmə orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulmasını təmin etmək üçün 2007-2011-ci illərdə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" qəbul olunaraq həyata keçirilmişdir. Bundan başqa "açıq hökumətin" təşviqi istiqamətində 2012–2015-ci illəri əhatə edən Milli Fəaliyyət Planı da icra olunmuşdur. Bu planın mahiyyəti dövlət idarəçiliyi sistemində həyata keçirilən fəaliyyətin şəffaflığının maksimum yüksəl-dilməsi, hesabatlılığın təmin olunması, idarəetmədə müasir texnologiyaların tətbiq olunmasından ibarət olmuşdur. Azərbaycan Respublikasında həyata keçirilən inzibati islahatların mühüm istiqamətlərindən birini də idarəetmə funksiyalarının proqnozlaşdırılmasının, strateji təhlilinin aparılmasının tətbiqinin şərtləndirilməsi də təşkil edir. Bundan başqa, hazırkı inzibati islahatlar dəqiq marketinqin aparılmasını tələb edir. Belə ki, marketinq insanların tələb və gözləntilərinin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir. Bu, dövlət idarəetmə sistemində müvafiq islahatların daha vacib istiqamətlərinin müəyyənləşdirilməsinə imkan verir. Müasir dövlət idarəçiliyində innovasiyaların tam tətbiqinin təmin edilməsi inzibati islahatların əhəmiyyətli istiqamətini təşkil edir. Bunun da mühüm göstəricilərindən biri dövlət idarəetməsində elektron xidmətlərin genişlən-

dirilməsidir. Azərbaycanda elektron xidmətlərin göstərilməsi sistemli, dövlət səviyyəsində qəbul olunmuş konseptual əsaslar üzrə həyata keçirilməkdədir.

**Ədəbiyyat:**


1. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2001, 40 s.
2. Ələkbərova A. Dövlət qulluğu institutu // «Dirçəliş XXI əsr».–2009, №139-140, s. 215
3. İsmayılov S. Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri. Bakı, «Oğuz Eli», 2013, 216 s
4. Məmmədova D. Heydər Əliyev Azərbaycanda müasir dövlət qulluğu sisteminin banisidir/ Azərbaycan, 2013, 23 iyun, s.3
5. Məmmədov H. Azərbaycanda dövlət qulluğunun formalaşması xüsusiyyətləri // Elm və İnnovativ Texnologiyalar Jurnalı, № 9, 2019, s. 71- 83
6. Mirbəşir o. E. Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətləri illər ötdükcə daha aydın şəkildə görünməkdədir/https://azertag.az/xeber/Elsad_Mirbesiroglu_Ulu_onder_Heyder_Aliyevin_Azerbaycan_xalqi_qarsisindaki_tarixi_xidmetleri_iller_otdukce_daha_aydin_sekilde_gorunmekdedir-2173700
7. Ulu Öndər Heydər Əliyevin idarəçilik meyarları: təcrübəyə söykənən müasirlik və gələcəyə aparan təşəbbüskarlıq / Azərbaycan qəzeti, 05 may, 2020, s. 2.


***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan Respublikası, dövlət idarəçiliyi, islahat, dövlət qulluğu*

**Elshad Mirbashir oglu**

***Member of the Milli Majlis of the Republic of Azerbaijan,***
***Member of the Board of the Social Research Center,***
***Deputy Head of the Board,***
***Professor of Political Science at the Department of Political Administration,***
***The Academy of Public Administration under the***
***President of the Republic of Azerbaijan***

## THE ROLE OF HEYDAR ALIYEV IN THE IMPROVEMENT OF THE PUBLIC ADMINISTRATION IN AZERBAIJAN

### ABSTRACT

The article analyses the reforms carried out in the system of public administration. With its complex nature, public administration always requires reforms in response to societal upheavals because political, economic, and cultural rearrangements are taking place intensively on the internal and external planes. In addition to these modifications, state administration needs to be improved because new development goals are always set in front of each newly established state. In changing conditions for achieving objectives and goals, carrying out reforms in the state administration system plays a significant role. After gaining independence, the formation of a functional system

of state administration was a critical precondition for future development. After assuming power, national leader Heydar Aliyev established and developed an effective public administration system. Heydar Aliyev's institutional and personnel reforms contributed to the creation of a functional public administration.

***Keywords:*** *Heydar Aliyev, Azerbaijan Republic, public administration, reforms, public service*

**Эльшад Мирбашир о.**

***Депутат Милли Меджлиса Азербайджанской Республики,***
***Член правления Центра социальных исследований,***
***заместитель председателя правления, профессор кафедры Политологии и политического управления Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор политических наук***

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В УСОВЕРШЕНСТВОВАНИИ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

Государственное управление со своим сложным характером всегда требует реформ в соответствии с изменениями в обществе, так как в государстве интенсивно происходят политические, экономические и культурные изменения. В соответствии с этим возникает необходимость в усовершенствовании государственного управления, потому что перед каждым государством всегда ставятся новые цели развития. На фоне новых условий для успешного достижения новых целей проведение реформ в системе государственного управления имеет важное значение. После приобретения независимости формирование функциональной системы государственного управления стало важным условием будущего развития. С возвращением к власти Общенациональный лидер Гейдар Алиев создал и развил эффективную систему государственного управления. Институциональные и кадровые реформы Гейдара Алиева способствовали созданию функционального государственного управления. В этом контексте анализируются реформы, проводимые Общенациональным лидером в системе государственного управления.

***Ключевые слова:*** *Гейдар Алиев, Азербайджанская Республика, государственное управление, реформы, государственная служба*

UOT 338.2

**XATİRƏ HÜSEYNOVA**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəetməsi və menecment" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor***

*e-mail: khatira.huseynova@dia.edu.az*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF STRATEGİYASI

*"... Bazar iqtisadiyyatının qurulması uzun müddətli bir prosesdir… Yalnız bu prosesi ardıcıl sürətlə həyata keçirərək iqtisadiyyatımızı daha da inkişaf etdirə bilərik, eyni zamanda bu nəzəriyyə ilə bağlıdır. Aparılan iqtisadi islahatların həyata keçirilməsi, nəticələri təhlil edilməlidir. Dünya təcrübəsini öyrənərək , ümumiləşdirmək, bizim iqtisadiyyatımıza uygunlaşdırmaq lazımdır..."*

*Heydər Əliyev*
*Azərbaycan xalqının Ümummilli Lideri*

**Giriş**

Ulu Öndər Heydər Əliyevin düşünülmüş iqtisadi strategiyası sistemləşdirərək, uyğun enerji siyasətini həyata keçirməsi, respublikamızın hazırkı tərəqqi mərhələsinə çatmasına dərin əsaslar yaradıb, məhz bu siyasəti müasir Azərbaycanın dövlət quruculuğu, iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi dövrü üçün qarantor rolunu oynamışdır.

Ulu Öndər ölkəmizdə adaptiv iqtisadi sistemin əsasını qoymuşdur. 1995-2003-cü illər ərzində ölkəmizdə böyük sosial-iqtisadi dəyişikliklər müşahidə olunmuş, Ulu Öndərin rəhbərliyi ilə bu dövrdə ölkənin müasir inkişafı üçün möhkəm təməl qoyulmuş, Azərbaycanın qərarlaşmış dövlət kimi qəbul olunması təmin edilmiş, gələcəkdə Azərbaycanın müasir dünyaya inteqrasiyası üçün şərait yaradılmışdır.

Məhz bugünkü dövrdə Azərbaycan postmünaqişə dövrünə bu uzaqgörən geosiyasət, təbii sərvətlərin düzgün idarə edilməsi və beynəlxalq nüfuz ilə uğurla başlamışdır.

Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi inkişafın 2003-cü ildən yeni dönəmi başlamış və 2003-2005-ci illərdə ölkə Prezidenti İlham Əliyevin irəli sürdüyü "tarazlı iqtisadi inkişaf", "idxalı əvəz edən iqtisadi siyasət", "neftdən və neftin qiymətindən asılı olmayan iqtisadiyyat", "insanların iqtisadi cəhətdən azad olması", "xarici amillərdən asılılığın azaldılması" kimi prinsiplərini özündə əks etdirən iqtisadi inkişaf strategiyası uğurla davam etdirilmişdir.

Hal-hazırda bəşəriyyətin yeni bir dünya nizamının formalaşması dövründə ölkənin beş fundamental nəticəsinin – qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah kimi sosial-iqtisadi inkişaf nailiyyətlərin olması və bu dövrdə Azərbaycanda makroiqtisadi sabitlik və davamlılığın təmin edilməsi, sosial rifahı dəstəkləyən

iqtisadi artıma nailolunma məhz, əsası qoyulan uzaqgörən iqtisadi siyasətın nəticəsidir.

### Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycanın iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi dövrü üçün qarantor rolu

Müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında tərəqqi yolunda inamla addımlayan dövlətimiz hazırda iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşayır. Öz tarixi ərazi bütövlüyünü təmin etməklə ölkəmiz yeni qlobal reallıqlar fonunda növbəti və daha böyük transformasiya astanasına keçid edir.

Azərbaycan dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilmişdir. Azərbaycan beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir, ölkəmizin təşəbbüsü və iştirakı ilə qlobal layihələr uğurla icra edilir. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaratmışdır [1].

Azərbaycanın:

- Geopolitik vəziyyəti;
- Zəngin təbii sərvətləri;
- Dünya ölkələrinin diqqət mərkəzində qalması ölkənin iqtisadi inkişafını zəruri edir.

Müstəqil Azərbaycanın yüksək inkişaf mərhələsinə çıxmasında, milli-iqtisadi təhlükəsizliyinin möhkəmlənməsində, zəngin iqtisadiyyata malik olmasında neft və qaz amili xüsusi rol oynamışdır. Düzgün, düşünülmüş iqtisadi strategiyaya uyğun enerji siyasətinin həyata keçirilməsi respublikamızın hazırkı tərəqqi mərhələsinə çatmasına dərin əsaslar yaratmışdır.

Ulu Öndər Heydər Əliyevin bu siyasəti müasir Azərbaycanın dövlət quruculuğu, iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi dövrü üçün qarantor rolunu oynamışdır.

Bu isə Azərbaycanı proqnozlaşdırıla bilən (predictable) ölkə statusuna yüksəltmişdir.

Azərbaycanın iqtisadi inkişafına baxdıqda məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında 70-80-cı illərdə dövlətin əsaslı quruculuq işləri, sənaye, kənd təsərrüfatı inkişaf etməyə başlamışdır.

Müstəqillik əldə etdikdən sonra Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə siyasi sabitlik bərqərar oldu, bazar iqtisadiyyatının qurulmasına yönəlik yeni imkanlar açmışdır.

Azərbaycan iqtisadiyyatında islahatların aparılması, İqtisadi sahələrin inkişaf etdirilməsi və elmi əsaslandırılmış iqtisadi siyasətin işlənib hazırlanması vəzifələri irəli sürülmüşdür. Bu da öz ifadəsini 1994-cü il “Əsrin müqaviləsi” imzalanmasında tapmışdır. “Əsrin müqaviləsi” ölkənin neft-qaz sənayesinin dirçəlməsinə və Azərbaycanın gələcək rifahının başlanğıcı olmaqla respublikanın enerji sektorunun inkişafı iqtisadiyyatın qeyri-neft sahəsinin fəal artımına gətirib çıxarmışdır. Bir çox Dövlət Proqramları qəbul edilmişdir:

- Azərbaycanda sahibkarlığın inkişafı (1993-1995) Dövlət Proqramı;
- Azərbaycanda Kiçik və Orta Sahibkarlığa Dövlət Yardımı Proqramı (1997-2000);
- Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005);
- Azərbaycan Respublikasında maşınqayırma sənayesinin inkişafının Dövlət Proqramı (2002-2005-ci illər);
- Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramı (2002-2006);
- Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası;
- "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı;




**Şəkil.** Azərbaycan iqtisadiyyatının tənəzzüldən inkişafa doğru dinamikası və strateji hədəflər

• "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005).

Bütövlükdə, keçirilən tədbirlər nəticəsində tənəzzül sürətlə azalmış, inkişaf meyli artmışdır. Ölkənin makroiqtisadi göstəriciləri sürətlə yaxşılaşmışdır. Bunu aşağıdakı qrafik-şəkildən daha aydın gərmək olar:

Xüsusilə qeyd etmək lazımdır ki, həm də, Ulu Öndər Heydər Əliyev adaptiv iqtisadi sistemin əsasını qoyulmuşdur. Dogurdan da, 2002-ci il çıxışlarının birində söyləmişdir: “Bazar iqtisadiyyatının qurulması uzun müddətli bir prosesdir… Yalnız bu prosesi ardıcıl sürətlə həyata keçirərək iqtisadiyyatımızı daha da inkişaf etdirə bilərik, eyni zamanda bu nəzəriyyə ilə bağlıdır. Aparılan iqtisadi islahatların həyata keçirilməsi, nəticələri təhlil edilməlidir. Dünya təcrübəsini öyrənərək, ümumiləşdirmək, bizim iqtisadiyyatımıza uyğunlaşdırmaq lazımdır.”

Təhlillər göstərir ki, 1995-2003-cü illər ərzində ölkəmizdə böyük sosial-iqtisadi dəyişikliklər müşahidə olunmuş. Ulu Öndərin rəhbərliyi ilə bu dövrdə ölkənin müasir inkişafı üçün möhkəm təməl qoyulmuş, Azərbaycanın qərarlaşmış dövlət kimi qəbul olunması təmin edilmiş, gələcəkdə Azərbaycanın müasir dünyaya inteqrasiyası üçün şərait yaradılmışdır.

Nəticədə, məhz bu uzaqgörən geosiyasət, təbii sərvətlərin düzgün idarə edilməsi və beynəlxalq nüfuz ilə Azərbaycan post-münaqişə dövrünə uğurla başlamışdır.

1993-2003-cü illərdə Ulu Öndər Heydər Əliyev prezident olduğu on il ərzində müəyyən etmiş və gərgin əməyi sahəsində nail olmuş olduğu strategiyaları aşağıdakı kimi alqoritm edə bilərik:

- 1994-cü ildən etibarən Qarabağ cəbhəsində atəşkəs rejiminə nail olmaqla iqtisadi inkişafın əsas prioritetlərinin formalaşdırılması;
- ölkənin həyatında çox zəruri olan ictimai-siyasi sabitləşmə, demokratik prinsiplərin və təsisatların yaradılması və təkmilləşdirilməsi;

- dövlət aparatının möhkəmləndirilməsi və dövlət idarəçilik təsisatlarının formalaşdırılması;
- yeni – açıq və demokratik vətəndaşlığın formalaşdırılması;
- müstəqil dövlətin neft strategiyasının yaradılması, bu strategiyanın əsası olan "Əsrin müqaviləsi" sazişinin imzalanması, ölkənin əsas regional energetik aktora transformasiyasının başlanması;
- "Böyük İpək Yolu" layihəsində fəal iştirak etməklə Azərbaycanın regional logistik mərkəz kimi rola dəyişməsi;
- tarazlı xarici siyasət modelinin formalaşdırılması;
- müasir ordunun yaradılması və s.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu iqtisadi inkişafın 2003-cü ildən yeni dönəmi başlamışdır. 2003-2005-ci illərdə ölkə Prezidenti İlham Əliyevin irəli sürdüyü "tarazlı iqtisadi inkişaf", "idxalı əvəz edən iqtisadi siyasət", "neftdən və neftin qiymətindən asılı olmayan iqtisadiyyat", "insanların iqtisadi cəhətdən azad olması", "xarici amillərdən asılılığın azaldılması" kimi prinsiplərini özündə əks etdirən iqtisadi inkişaf strategiyası uğurla davam etdirilmişdir.

Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu 44 günlük zəfər tarixi yazdı, ərazi bütövlüyü bərqərar oldu. Bununla da Azərbaycan yeni inkişaf dövrünə qədəm qoydu.

Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində dünyada böyük nüfuz qazanan Azərbaycan artıq ən mühüm mövzuların müzakirə olunduğu mötəbər beynəlxalq tədbirlərin təşəbbüskarı və təşkilatçısı kimi tanınır.

Xüsusilə, Vətən müharibəsindən sonrakı dövrdə keçirilən beynəlxalq tədbirlərdə işğaldan azad olunan ərazilərimizin dirçəldilməsi və beynəlxalq nəqliyyat dəhlizlərinin mühüm komponentinə çevrilməsi istiqamətində görülən işlərin təbliğinə geniş yer verilir.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbədən dərhal sonra Cənubi Qafqazın sülh və əməkdaşlıq regionuna çevrilməsi istiqamətində həyata keçirdiyi siyasət beynəlxalq ictimaiyyətin daim diqqət mərkəzindədir.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında da bildirmişdir: «...Qarabağ və Şərqi Zəngəzur iqtisadiyyatımızın qeyri enerji sektorunda, həmçinin nəqliyyatda böyük həcmdə ÜDM istehsal edəcək. 3 Hava limanı, dəmir yolları əlaqələri, coğrafi məkanı nəzərə alaraq, Zəngilan mühüm nəqliyyat və loqistik Hab olacaq...»

Hazırda bəşəriyyət yeni bir dünya nizamının formalaşması dövrünü keçirir.

Bu dövrdə güclərin, imkanların birləşdirilməsi, qlobal miqyasda düzgün iqtisadi və siyasi mövqelərin birlikdə seçilməsi türk dövlətlərini yeni dünya düzənində əlverişli mövqeyə yüksəldə bilər. 2021-ci ildə qəbul olunan "Türk Dünyası 2040 Vizyonu"nda və 2022-ci ildə imzaladıqları Səmərqənd Bəyannaməsində bu reallıqlar nəzərə alınıb.

Şərq-Qərb və Şimal-Cənub enerji və nəqliyyat dəhlizləri (Orta dəhliz), "İpək Yolu" turizm marşrutları, müdafiə və kosmik sənaye, orqanik kənd təsərrüfatı və qida təhlükəsizliyi, yaşıl enerji, səhiyyə turizmi, distant təhsil xidmətləri, post-münaqişə ərazilərin yenidən qurulması sahələrində böyük əməkdaşlıq imkanları yaradır.

Zəngəzur dəhlizinin tamamlanması türk respublikalarına imkan verəcək ki, Orta dəhlizlə bağlı öz ərazilərində tam şəkildə söz sahibi ola bilsinlər, öz aralarında yük və sərnişindaşımanı tam sərbəst həyata keçirsinlər. Bu dəhliz, şübhəsiz ki, ilk növbədə Azərbaycanla Türkiyə arasındakı iqtisadi əlaqələrin inkişafına əhəmiyyətli töhfə verəcək, ölkəmizin Avropa ilə nəqliyyat imkanlarını xeyli yaxşılaşdıracaq.

- Bu dəhliz üzv dövlətlər arasında ticarət dövriyyəsinin artmasına imkan yaradacaq.

- Türk coğrafiyasında "İpək yolu" turizm marşrutlarının inkişafı baxımından da bu dəhlizin böyük önəmi olacaq.
- Kifayət qədər mürəkkəb coğrafi mövqedə yerləşən Qarabağ və Şərqi Zəngəzurun Azərbaycan və dünya iqtisadiyyatına inteqrasiya imkanları xeyli yaxşılaşacaq.
- Dəhliz bərpa və yenidənqurma proseslərinin aparılmasına, burada yaşayan və gələcəkdə yaşayacaq əhalinin iqtisadi rifahına öz müsbət töhfəsini verəcəkdir.
- Yaxın gələcəkdə Türkiyənin digər türk dövlətləri ilə azad ticarət sazişləri imzalaması ilə Türk Dövlətləri Təşkilatı çərçivəsində faktiki olaraq Azad Ticarət Zonası qurulmuş olacaq.

Son illərdə pandemiyanın təsirinə baxmayaraq, vaxtında görülmüş tədbirlər nəticəsində milli iqtisadiyyat qısa müddətdə yeni qlobal reallıqlara uyğunlaşdırılmış, makroiqtisadi stabillik təmin edilmiş və Azərbaycan bu böhrandan ən az təsirlənən ölkələrdən biri olmuşdur (cədvəl).

2022-ci ilin yanvar-iyun aylarında ölkədə 63364,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,2 faiz çox ümumi daxili məhsul istehsal olunub.

Azərbaycan dövləti post-pandemiya və post-münaqişə dövründə keyfiyyətcə yeni olan və 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olur.

- Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi,
- milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla,
- yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir:

**Cədvəl.** Əsas sosial-iqtisadi göstəricilər

| Göstəricilər | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| Əhalinin hər nəfərinı düşən gəlirlər, manat | 4380,7 | 5053,2 | 5407,8 | 5731,8 | 5590,4 | 5708,0* |
| Əhalinin xərcləri, milyon manat | 34963,4 | 44498,4 | 47557,2 | 51927,4 | 49826,4 | 55201,5* |
| Dövlət büdcəsinin gəlirləri: | | | | | | |
| milyon manat | 17498,0 | 16516,7 | 22508,9 | 24398,5** | 26077,9** | 26631,7** |
| ümumi daxili məhsulda, faizlə | 32,2 | 23,5 | 28,1 | 29,8** | 36,0** | 28,7** |
| Dövlət büdcəsinin xərcləri, milyon manat | 17784,5 | 17594,5 | 22731,6 | 24425,9 | 26416,3 | 27422,4 |
| ümumi daxili məhsulda, faizlə | 32,7 | 25,0 | 28,5 | 29,8 | 36,5 | 29,5 |
| Xarici ticarət dövriyyəsi, mln ABŞ dolları | 25809,0 | 24263,8 | 31782,7 | 33065,3 | 24203,5 | 35556,4 |
| o cümlədən: | | | | | | |
| ixrac | 16592,3 | 15480,5 | 20316,8 | 19397,8 | 13471,5 | 23850,6 |
| idxal | 9216,7 | 8783,3 | 11465,9 | 13667,5 | 10732,0 | 11705,8 |

* İlkin məlumatlar
** Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun daxilolmaları nəzərə alınmaqla

– Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə
– Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət üzrə strateji çərçivə
– Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı üzrə strateji çərçivə
– İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış üzrə strateji çərçivə
– Təmiz ətraf mühit və "yaşıl artım ölkəsi" üzrə strateji çərçivə.

Bu əsasda 22 iyul 2022-cil tarixli Sərəncamla Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası qəbul edilmişdir. Sərəncamda deyildiyi kimi "…Bu Strategiyanın reallaşması 2026-cı ilin sonuna ölkə iqtisadiyyatının simasında böyük dəyişikliklərə səbəb olacaq, iqtisadi artım tamamilə yeni keyfiyyət amilləri bazasında formalaşacaq, xüsusilə prioritet sahələrdə artım templəri sürətlənəcək, iqtisadiyyatın və məşğulluğun dayanıqlığı daha da güclənəcəkdir.

Özəl sektorun, o cümlədən mikro, kiçik və orta sahibkarlığın inkişafı yeni və daha səmərəli stimullar və inkişaf mühiti hesabına sürətlənəcək, özəl və xarici investorların ölkə iqtisadiyyatında fəallığı artacaq, qeyri-xammal ixracı genişlənəcəkdir.

Qeyri-neft/qaz sektoruna, xüsusilə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən, ixrac potensialının artırılmasına və kənd yerlərində rifahın yüksəlməsinə töhfə verən rəqabətqabiliyyətli aqrar istehsal və emalı sənayesinə dövlət dəstəyi və investisiyalar cəlb olunacaq, innovasiyalar, habelə dövlət–özəl tərəfdaşlığı ilə bu sahədə resurs və xidmət təminatı gücləndiriləcək.

Dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin iqtisadi səmərəsi yüksələcək, iqtisadiyyatda şəffaflıq daha da artacaq, iqtisadi idarəetmənin keyfiyyəti yeni səviyyəyə qalxacaqdır.

Dövlət əmlakının özəlləşdirilməsi və dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi, dövlətə məxsus olan hüquqi şəxslərin restrukturizasiya tədbirlərinin həyata keçirilməsi, burada dövlət payının azaldılması sahəsində müvafiq işlər görüləcəkdir.

Makroiqtisadi və maliyyə sabitliyinin qorunması, dövlət büdcəsinin dayanıqlığının və səmərəliliyinin artırılması mexanizmləri təkmilləşdiriləcəkdir. Kapital bazarının inkişaf mühitində əhəmiyyətli dəyişikliklər baş verəcək, real sektorun və sahibkarlığın maliyyə xidmətlərinə və resurslarına çıxış imkanlarının genişləndirilməsi mexanizmləri gücləndiriləcəkdir.

İnsan kapitalının davamlı inkişafı və yeni keyfiyyətə transformasiyası mühiti daha da təkmilləşəcək, milli iqtisadiyyatda innovasiyaların sürətlə mənimsənilməsi üçün zəruri ekosistem formalaşacaq, ölkənin yaşıl enerji məkanına çevrilməsi və ətraf mühitin sağlamlaşması prosesləri sürətlənəcəkdir.

İnnovasiyalar təşviq ediləcək, müasir texnoloji həllərin tətbiqi genişləndiriləcək, bu əsasda iqtisadiyyatın effektivlik əsasında inkişafı və rəqabətədavamlılığı təmin olunacaqdır.

Əhalinin sosial müdafiəsi, xüsusilə həssas təbəqələrin sosial təminatı gücləndiriləcək, pensiya sistemində mühüm keyfiyyət dəyişikliyi baş verəcəkdir.

Nəhayət, ölkənin sosial-iqtisadi inkişafında tarixi dönüş dövrü və yeni strateji mərhələ olan işğaldan azad edilmiş ərazilərin bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası əsasında bu regiona böyük qayıdış təmin ediləcəkdir…."

Bu əsasa gəlirik ki, Dogurdan da bütün bunlar Azərbaycanı proqnozlaşdırıla bilən (predictable) ölkə statusuna yüksəltmişdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları.
2. Ələkbərov Urxan. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Ali məktəblər üçün dərslik. – Bakı: Təhsil. – 2018. – 215 s.
3. Huseynova Khatira. Belt and Road Initiative China's global business footprint / Chapter 9, Harrow UK, 2021
4. https://www.stat.gov.az - Statistika Komitəsinin materialları


***Açar sözlər:*** *Azərbaycan, Ulu Öndər Heydər Əliyev, Ölkə Prezidenti İlham Əliyev, iqtisadi strategiya*

**Xatira Huseynova**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Head of the Department of Public Administration and Management, Dr. of Economic Sciences, Professor***

## HEYDAR ALIYEV AND AZERBAIJAN'S ECONOMIC DEVELOPMENT STRATEGY

### ABSTRACT

The article explores the National Leader of Azerbaijan, Heydar Aliyev's implementation of the relevant energy policy by systematizing his well-thought-out economic strategy, laying a deep foundation for our Republic's entry into the current stage of development, and the role of this policy as guarantor of state-building, economic revival, social and political progress in modern Azerbaijan. The paper substantiates that all this has elevated Azerbaijan to a predictable country. The paper also shows that the national leader has laid the foundations of an adaptive economic system. In the course of 1995–2003, our country has undergone significant social and economic changes. Under the leadership of the National Leader, the foundations were laid for the country's modern development. Azerbaijan was recognized as a settled country, and conditions were created for the future integration of Azerbaijan into the modern world. Today, Azerbaijan has successfully entered the post-conflict era owing to its visionary geopolitics, proper management of natural resources, and international influence. The article analyzes and shows that the new era of economic development, which National Leader Heydar Aliyev initiated, began in 2003. "Balanced economic development," "economic policy of import substitution," "economy independent of oil and oil prices," "economic freedom of the people," and "reduction of dependence on external factors" were put forward by President Ilham Aliyev in 2003. The economic development strategy incorporating such principles has been successfully pursued. It was affirmed that at this time, during the formation of the new world order of humanity, the five main results of socio-economic development, such as state conquest, international influence, an educated society, great economic potential, welfare growth, macroeconomic stability, and stability in Azerbaijan during this period, economic growth that supports social welfare, are the result of the country's sound economic policy.

***Keywords:*** *Azerbaijan, National Leader Heydar Aliyev, President Ilham Aliyev, economic strategy*

**Хатира Гусейнова**
*Заведующая кафедрой Государственного управления и менеджмента*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор экономических наук, профессор*

## ГЕЙДАР АЛИЕВ И СТРАТЕГИЯ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНА

### РЕЗЮМЕ

В статье подчеркивается, что Общенациональный лидер Азербайджана Гейдар Алиев систематизировал свою продуманную экономическую стратегию, осуществил соответствующую энергетическую политику, заложил глубокий фундамент для вхождения нашей республики в нынешний этап развития, роль этой политики как гаранта государственного строительства, экономического возрождения, социального и политического прогресса современного Азербайджана. Обосновывается, что все это возвело Азербайджан в статус прогнозируемой страны. Автор также показывает, что Общенациональный лидер Гейдар Алиев заложил основы адаптивной экономической системы. В течение 1995-2003 годов в стране произошли большие социально-экономические изменения, под руководством Великого лидера были заложены основы для современного развития страны,

Сегодня Азербайджан успешно вступил в постконфликтную эпоху благодаря своей дальновидной геополитике, правильному управлению природными ресурсами и международному влиянию. При этом автором анализируется и показывается, что новая эра экономического развития, основы которого заложил общенациональный лидер Гейдар Алиев, началась в 2003 году. "Сбалансированное экономическое развитие", "экономическая политика импорт замещения", "экономика, не зависящая от нефти и цен на нефть", "экономическая свобода народа", "снижение зависимости от внешних факторов", были выдвинуты Президентом Ильхамом Алиевым в 2003 году, Стратегия экономического развития, включающая такие принципы, сегодня под его руководством успешно продолжается.

Было подтверждено, что в настоящее время, в период формирования нового мирового порядка человечества, пять основных результатов социально-экономического развития, в частности такие, как завоевание государства, международное влияние, образованное общество, большой экономический потенциал и рост благосостояния, а также обеспечение макроэкономической стабильности и устойчивости в Азербайджане в этот период, экономический рост, поддерживающий социальное благосостояние, являются результатом продуманной экономической политики страны.

***Ключевые слова:*** *Азербайджан, Великий лидер Гейдар Алиев, Президент страны Ильхам Алиев, экономическая стратегия*

DOI:10.30546/dia.2.82.2023.153



UOT 32::008; 32:316.7

**NİGAR ƏLƏKBƏROVA**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və siyasi idarəetmə" kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor***

*e-mail: nigaralakbar@mail.ru*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT SİYASƏTİNİN BANİSİ KİMİ

## Giriş

Azərbaycan xalqı bəşər tarixinə qüdrətli şəxsiyyətlər bəxş etmişdir. O nadir tarixi simalar sırasında böyük əzəməti, tükənməz qətiyyəti, dərin fəlsəfi-analitik təfəkkürü, ensiklopedik nəzəri və praktiki biliyi, fitri istedadı, dahi müdrikliyi və əyilməz, polad siyasi iradəsi ilə seçilən müstəqil Azərbaycanın memarı Heydər Əliyevin xüsusi yeri vardır. İllər keçdikcə Azərbaycan xalqının bu ölməz oğlu, ümumbəşər tarixinin dahi şəxsiyyəti, onun siyasi və mənəvi örnəyə çevrilmiş ləyaqətli həyat yolu, tarixi əhəmiyyət kəsb edən böyük xidmətləri, zamanın sınağından çıxmış strateji xətti daha aydın görünərək insanları, bütün bəşəriyyəti daim heyrətdə qoymaqda davam edir. Danılmaz bir həqiqətdir ki, Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin şərəfli adı, möhtəşəm və alovlu fəaliyyəti ilə birbaşa bağlıdır. Çünki bu dövrün özünü məhz Heydər Əliyev yaratmışdır. O, var qüvvəsini Azərbaycanın yüksəlişinə həsr etmiş, respublikamızın hər yerində nəhəng quruculuq işlərinin təşəbbüskarı olmuşdur. Bütün digər sahələrdəki kimi, onun dahiyanə uzaqgörənliyi, mükəmməl bilik və bacarığı mədəniyyət sahəsində də dərin və silinməz iz qoymuşdur. Mübaliğəsiz demək olar ki, Ümummilli Lider vətən mədəniyyət siyasətimizin banisidir. Çox səmərəli təcrübə sübut edir ki, Heydər Əliyev tərəfindən əsası qoyulan müstəqil Azərbaycanın mədəniyyəti ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək yeni dövr üçün zənginləşdirilir və inkişaf etdirilir.

Böyük Heydər Əliyevin adı ilə bilavasitə bağlı olan mədəniyyət siyasətinin özəl xüsusiyyətləri məqalədə "yumşaq güc" kontekstində təhlil edildiyi üçün həmin termin və konsepsiyaya diqqət yetirək.

## Mədəniyyət siyasəti "yumşaq güc" kontekstində

Əvvəla qeyd edək ki, XX əsrin sonu XXI əsrin əvvəllərində "yumşaq güc" (soft power") amilinin təsiri imkanlarının qat-qat artması onu ölkəmizin xarici siyasətinin mühüm əhəmiyyətli alətinə çevrilməsini şərtləndirmişdir. Bu dövrün sosial-siyasi reallıqları təsdiq edir ki, dövlətin qüdrətinin əsas göstəriciləri olan hərbi və iqtisadi potensialla yanaşı xarici siyasi hədəflərə çatmağın son dərəcə effektiv vasitələri qismində həm də "yumşaq gücün" resurs və metodları çıxış edir. Bu anlayışın müəllifi C.Nay "yumşaq güc" ideyasını ölkənin siyasi və mədəni təsiri konsepsiyasına çevirərək onu ilk növbədə gücün qeyri-maddi mənbələri olan mədəniyyətə, ümumi dəyərlər sisteminə və publik diplomatiyaya müncər edir.

Keçən əsrin 90-cı illərində C.Nayın təklif etdiyi "yumşaq güc" termini planetar miqyasda ictimaiyyətin diqqətini çəkərək siyasi

diskursa möhkəm daxil edilir, dünya liderləri, bir çox ölkələrin siyasi elitası, alimlər, ekspertlər və jurnalistlər tərəfindən geniş istifadə olunmağa başlayır. Bu gün "yumşaq güc" anlayışının çoxsaylı şərhləri və tərcümələri mövcuddur. Ən geniş yayılmış şərh – əks tərəfə qeyri-hərbi metodlarla təsirdir. Nay özü də bu anlayışı və konsepsiyanı müxtəlif əsərlərində, o cümlədən "Bound to Lead: The Changing Nature Of American Power", "Soft Power: The Means to Success in World Politics" və "The Future of Power" kitablarında izah etmişdir [15; 16]. Burada cəlbedicilik ideyası, yəni hansısa fenomenlərin, müddəaların, yanaşmaların, dəyərlərin cəlbediciliyi konstruktiv əsas kimi götürülərək onun konsepsiyasının məğzini təşkil edir və məcburetməyə, güc təzyiqinə, şantaja qarşı qoyulur. "Yumşaq güc" zorla qəbul etdirməni ya stimullaşdırmanı mümkün hesab etmir(əks tərəf özü seçim etməlidir), tərəfdaşla uzunmüddətli qarşılıqlı əlaqəyə istiqamətlənir, manipulyativ strategiyalardan qaçır, dialoqa açıqdır, əks tərəfi obyekt kimi deyil, subyekt kimi qəbul edir və, nəhayət, etibarlı münasibətlərin yaradılmasını nəzərdə tutur. Yumşaq gücün istifadəsinin aparıcı resursları isə mədəniyyət, təhsil və idman sahələridir. Məhz sonuncular vasitəsi ilə cəlbedicilik (ölkənin, dövlətin cəlbediciliyi) yaradılır. Nəzərdə tutulur ki, özünün cəlbediciliyi uğrunda rəqabət dövlətlərin beynəlxalq arenadakı fəaliyyətinin spesifik və mühüm əhəmiyyətli bir növüdür.

Beləliklə, dövlətin cəlbedici imicinin yaradılmasında ölkənin mədəniyyəti, mədəni normaları, ənənələri, siyasi dəyərləri, elm və təhsil xüsusiyyətləri, sivilizasiyon modelləri və standartları aparıcı amil kimi qiymətləndirilir. Mədəniyyətin yüksək səviyyəyə çatdırılmasının başlıca şərti isə, əlbəttə ki, ölkədə düzgün, müasir tələblərə cavab verən mədəniyyət siyasətindən asılıdır.

Mədəniyyət siyasətinin müstəqil Azərbaycanda davamlı inkişaf strategiyası çərçivəsində son dərəcə vacib istiqamətə çevrilməsi, bu sahənin praktikası ilə mədəniyyətin hərtərəfli tədqiqi arasında sıx qarşılıqlı əlaqələrin qurulması, yeni minillikdə bu fenomenin inkişafının etibarlı, düzgün istiqamətinin dəqiq müəyyənləşdirilməsi və optimal idarə edilməsi birbaşa məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

### Azərbaycan Respublikasının mədəniyyət siyasəti

Əvvəlcə mədəniyyət siyasəti anlayışı və fenomeninə diqqət yetirək. Yaxşı bəllidir ki, Azərbaycanda yeni müstəqil dövlətin qurulması siyasi, sosial-iqtisadi və hüquqi səbəblərdən baş verən çox ciddi, irimiqyaslı islahatlarla müşahidə olunurdu. Amma baxmayaraq ki, mədəniyyət rəsmi olaraq islahat sahəsi elan olunmamışdı, burada da bir çox dəyişikliklər baş verirdi. Əgər yaxın keçmişdəki, yəni SSRİ dövründəki və indiki mədəniyyət siyasətinin məqsəd, prinsip və əsas xüsusiyyətlərini müqayisə etsək, göz önündə olduqca maraqlı və çox ziddiyyətli bir mənzərə yaranar. Hamının yaxşı yadındadır ki, Sovet Ittifaqında hər bir totalitar dövlətdə olduğu kimi, mədəniyyət əsasən hakim partiya – dövlət dəyərlərinin insanların şüuruna yeridilmə aləti kimi başa düşülürdü. Onun köməyi ilə mövcud ictimai-siyasi quruluş möhkəmləndirilirdi. Bu cür münasibət isə kommunist-ideoloji yönümlülük, mədəni və bədii dəyərlərə sinfi yanaşma, yaradıcılıq prosesinə bilavasitə müdaxilə, mədəniyyət siyasətinin məqsədlərinin inzibati-amiranə, yəni məcburi metodlarla həyata keçirilməsi ilə fərqlənən bir mədəniyyət siyasətinin möhkənlənməsinə səbəb olurdu. Müstəqilliyimizin ilk çağlarında ölkəmizin mədəni həyatında dəyişikliklər hələ ki, çox az idi. Bir qədər sonra digər sahələrdə olduğu kimi, mədəniyyətdə da qatma-qarışıqlıq, qeyri-müəyyənlik, bir çox mənfi meyillər müşahidə olunur və baş alıb gedir. Bir tərəfdən anarxiya kimi başa düşülən azadlıq, digər tərəfdən qeyri-peşəkar rəhbər şəxslərin mədəniyyətə çox qəribə, hətta primitiv yanaşması, məsələn onlar tərəfindən qərb mədəniyyətinin, incəsənətinin bizə, guya, tamamilə yad olması və lazımsızlığının bəyan edilməsi, bu sahənin

normal inkişafının qarşısını alır, çağdaş Azərbaycan mədəniyyətini ümumsivil məcradan təcrid edərək ona böyük zərbələr vururdu, beləliklə də rəqabət bacarığını azaldırdı. Ümumiyyətlə demək olar ki, o mərhələdə düşünülmüş mədəniyyət siyasəti yox dərəcəsində idi. Nəhayət 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyə yenidən qayıtmasıyla bağlı olaraq vəziyyət köklü şəkildə dəyişir. Sürətlə başlanan demokratikləşmə prosesləri, cəmiyyətin düzgün istiqamətdə inkişafı mədəniyyətin yeniləşməsini qaçılmaz edən amillərə çevirir. Məhz demokratik, dünyəvi və hüquqi dövlətin formalaşması şəraitində yeni mədəniyyət siyasətinin təşəkkül tapması, onun məqsəd və prinsiplərinin dəqiqləşməsi, müasir tələblərə cavab verməsi çox vacib və təxirəsalınmaz problemlər sırasına daxil edilir. Xüsusilə qeyd edək ki, Azərbaycanın əbədi lideri Heydər Əlirza oğlu Əliyevin mədəniyyət məsələlərinə müstəsna əhəmiyyət verməsi məmləkətimizin ən sivil ölkələr sırasına qatılmasının əsas səbəbləri kimi qiymətləndirilməlidir. Şübhəsiz, müasir dünyanın heç bir dövlət başçısı bu nəhəng şəxsiyyət qədər mədəniyyətə, incəsənətə qayğı, diqqət və maraq göstərməmişdir. Onun bu sahəylə bağlı düşünülmüş, ardıcıl, gərgin fəaliyyəti, doğma mədəniyyətə xidməti heç vaxt unudulmayacaq.

Çox önəmlidir ki, elmi cəhətdən əsaslandırılmış mədəniyyət siyasəti mədəni inkişafın ardıcıllıq, varislik, millilik, orijinallıq, Azərbaycan xalqının təkrarsız mədəniyyət genofondunun saxlanılması, eyni zamanda açıqlıq və demokratiklik ideyalarını təbliğ edir və fəal şəkildə həyata keçirir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müasir dünya elmində və praktikasında mövcud olan bir sıra modellər sırasından mədəniyyətlərin dialoqu modeli seçilərək ölkəmizdə qəbul edilir. Həmin model Azərbaycanın tərəf müqabili qismində ümumdünya mədəni prosesdə iştirakına əsaslanır və respublikamızda optimal sosiomədəni dinamikanın dəstəklənməsinə imkan yaradır.

1993–2003-cü illər ərzində yeni mədəniyyət siyasətinə uyğun olaraq dövlət tərəfindən çoxsaylı və mühüm əhəmiyyətli işlər görülmüşdür. O cümlədən, dahi Füzulinin 500 illiyinin, «Kitabi Dədə Qorqudun 1300 illiyinin, Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin yubileylərinin təntənəli qeyd edilməsi, Ümumdünya inkişaf Bankı tərəfindən Azərbaycana üç unikal milli abidəmizin – Şirvanşahlar sarayının, Şəki xan sarayının, Möminaxatın türbəsinin rekonstruksiyası üçün böyük məbləğdə pul vəsaitinin ayrılması, vaxtilə bütün müsəlman Şərqində müqəddəs ziyarətgah kimi tanınan Bibiheybət məscidinin yenidən tikilməsi, gözəl filarmoniyamızın bərpası, vokalçıların Bülbül adına beynəlxalq müsabiqələrinin və kinofestivalların keçirilməsi, dünyanın ən məşhur musiqiçilərinin konsertlərinin təşkil edilməsi, ənənəvi milli bayramlarımızın elliklə qeyd olunması, Bakı şəhərinə onun sivil simasının qaytarılması, əlbəttə bu siyahını davam etmək mümkündür, mədəniyyətə dövlət tərəfindən diqqətin dəfələrlə artırılmasının parlaq təzahürüdür və ilk olaraq böyük Heydər Əliyevin adıyla bilavasitə bağlıdır.

Bu və digər faktları nəzərə alaraq, tam qətiyyətlə demək olar ki, suveren Azərbaycan Respublikasında mədəniyyət siyasətinin özül prinsipləri məhz onun rəhbərliyi ilə müəyyənləşib. Yeni, elmi əsaslandırılmış həmin siyasət açıq demokratik cəmiyyət ideyasını təbliğ edir və fəal həyata keçirilir. Dövlətimizin mədəniyyət siyasətinin işlənib hazırlanmasında çox nüfuzlu beynəlxalq təşkilatlar olan YUNESKO və Avropa Şurası tərəfindən bəyan edilən və inkişaf etmiş ölkələr tərəfindən artıq uzun illər ərzində həyata keçirilən mədəniyyət siyasətinin məqsədləri və prinsipləri əsas istiqamət kimi götürülür.

### Müstəqil Azərbaycanın mədəniyyət siyasətinin məqsədləri, prinsipləri və qanunvericilik təminatı

İlk növbədə qeyd edək ki, dövlətin tam, bütöv rəsmi siyasəti və onun konkret bir qolu olan mədəniyyət siyasəti arasında həmişə müəyyən bağlılıq var [*"Mədəniyyət siyasəti"*

*termini Birləşmiş Millətlərin elm, təhsil və mədəniyyət üzrə təşkilatı tərəfindən tətbiq edilib. YUNESKO-nun mədəni aksiyaları dövlət siyasətinin ən mühüm məqsədlərindən biri kimi açıq etiraf etmək çağrısıyla hökumətlərə müraciətindən sonra bu çağırışı dünya birliyi addımbaaddım gerçəkləşdirir. 1993-cü ildən Heydər Əlirza oğlu Əliyevin yenidən hakimiyyətə qayıdışı dövründən başlayaraq, elmi əsaslara söykənən, qloballaşma şəraitində milli özünəməxsusluğu qoruyan və eyni zamanda müsbət beynəlxalq təcrübəni nəzərə alan mədəniyyət siyasəti müstəqil Azərbaycanda da həyata keçirilir.*]. Demokratik dövlətdə isə mərkəzi hakimiyyət "cəmiyyətin inkişafi nəticəsində yaranan mədəni tələbatların formalaşdırılması və təmin edilməsinə, həm də dövlətin mədəniyyət siyasətinin həyata keçirilməsinə cavabdehdir. O, bu səmtdə qarşıya qoyulan son məqsədləri müəyyən etməli və mövcud vəsaiti bölüşdürməlidir. Onun vəzifəsi ictimai tələbatların üzəçıxarma mexanizmini yaratmaq, həmin sahəyə aid olan bu və digər görülən işlərin nəticələrini yoxlamaq, mədəniyyətin yeni sahələrində eksperimentləri müdafiə etmək, nəhayət, ümumi təkamül üçün çox əhəmiyyətli olan beynəlxalq kooperasiyanı dəstəkləməkdir" [11, s.181]. Demokratik və inkişaf etmiş ölkələrə inteqrasiya olmaq yolunda addımlayan Azərbaycan da özünə bu istiqaməti seçərək, həmin ölkələrdə artıq çoxdan dövlət tərəfindən mədəniyyətin inkişafına tətbiq edilən prinsipləri qəbul edib. Şübhəsiz, müxtəlif sivil ölkələrdə mədəniyyət siyasətinin modelləri başqa-başqadır. Çünki hər bir dövlət öz ənənələrinə, dəyərlərinə münasib olan, üstün tutulan mənəvi, estetik və bədii normalardan irəli gələn bir strategiya müəyyənləşdirir. Lakin bütün demokratik ölkələrdə vahid, universal mədəniyyət siyasətinin olmamasına baxmayaraq, onlar üçün YUNESKO-nun keçirdiyi bütün müşavirə və konfranslarda daim bəyənilən, qəbul edilən və dəstəklənən ümumi məqsəd və prinsiplər mövcuddur. Məhz bu məqsəd və prinsiplər Azərbaycan Respublikasında Heydər Əliyevin rəhbərliyi altında gerçəkləşdirilən yeni mədəniyyət siyasətinin özülünü təşkil edərək, qloballaşma şəraitində milli mədəniyyətin bir tərəfdən eyniyyətinin saxlanılmasını, digər tərəfdən isə onun dünya mədəniyyətləri ilə qarşılıqlı əlaqəsini təmin edir. Hələ 1970-ci ildə Venesiya şəhərində mədəniyyət siyasətinin institusional, inzibati və maliyyə aspektlərinə həsr olunmuş hökumətlərarası konfransda iki əsas prinsip dəqiq müəyyənləşmişdir. Birinci prinsip BMT-nin 1948-ci ildə qəbul etdiyi Ümumdünya İnsan Hüquqları Bəyannaməsində «Hər bir insan cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək, incəsənətdən zövq almaq hüququna malikdir» (maddə 27) müddəasıyla birbaşa bağlıdır. Bu da o deməkdir ki, dövlət öz vətəndaşlarının qeyd olunan hüququnu həyata keçirmək üçün imkanlar yaratmalıdır.

İkinci prinsip – inkişaf prinsipidir. Venesiya konfransı mədəni inkişafın ümumi (iqtisadi, sosial, texnoloji) inkişafla ayrılmaz bağlılığını vurğulayaraq belə bir nəticəyə gəlmişdir: «mədəniyyət siyasəti ümumi dövlət siyasətinin bir hissəsini təşkil etməlidir». İnkişaf prinsipi mədəni özünəməxsusluq prinsipi ilə sıx bağlıdır. Bu məsələyə 1982-ci ildə Mexiko şəhərində keçirilən Mədəniyyət sahəsində siyasət üzrə Ümumdünya Konfransında çox böyük önəm verilir. Konfransın yekun sənədi olan "Mexiko bəyannaməsi"ndə hər bir mədəniyyətin müstəqilliyi və dəyərliliyi mədəniyyət siyasətinin ən əsas prinsipləri kimi müəyyənləşdirilir. Burada xüsusi olaraq vurğulanır: «Hər bir xalq özünü məhz öz ənənələri və ifadə formalarıyla bütün dünyaya tanıtdırır». Mədəni özünəməxsusluğun təsbit edilməsi xalqların azad olunmasına imkan yaradır və, əksinə, hökmranlığın hər hansı forması bu özünəməxsusluğu inkar edir və ya onun mövcudluğuna təhlükə yaradır [9, s.39].

Eyni zamanda "Mexiko bəyannaməsi"ndə Dünya mədəniyyətlərinin qarşılıqlı əlaqəsi və birliyi prinsipi də vurğulanır. Sənəddə deyilir: «Mədəniyyət dialoqdur; təcrid edilərək o, solur və məhv olur" [9,39]. Mədəni özünəməxsusluğun güclənməsi isə özünü təkləməyi deyil, digər mədəniyyətlərə açıqlığı nəzərdə tutur [14, s.150]. Beləliklə, mədəni siyasətin

əsas prinsipi olan inkişaf mədəni özünəməxsusluğun saxlanılmasını və möhkəmlənməsini, eyni zamanda beynəlxalq mədəni əlaqələrin genişlənməsini güman edir. Çox önəmlidir ki, get-gedə xarici mədəniyyət siyasətinin əhəmiyyəti artır, bu sahədə ölkələrarası münasibətlər artıq asılılıq vəziyyətindən çıxır.

BMT-nin Baş Assambleyasının 1987-ci ilin dekabr ayında keçirilən 41-ci sessiyasının Plenar iclasında Mədəniyyətin İnkişafının Ümumdünya 10 illiyi elan olundu. 1988-1997-ci illəri əhatə edən 10 illiyin məqsədləri aşağıdakılar idi:

1. Ümumi inkişaf prosesində mədəni aspektin seçilib ayrılması.
2. Mədəniyyətlərin özünəməxsusluğunun bərqərar olması və zənginləşməsi.
3. Mədəniyyətin inkişafında bütün ölkələrin xalqlarının iştirakının genişlənməsi.
4. Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın möhkəmlənməsi.

Bu məqsədlər hələ 1945-ci ildə Londonda keçirildiyi YUNESKO-nun Təsis konfransında qeyd edilən və bu təşkilatın Monako iclasından (1967) başlayaraq [10], sonrakı konfrans və müşavirələrdə bütün ölkələrin mədəniyyət siyasətinin əsasları kimi bəyan edilən məqsədlərdir. Hər bir inkişaf etmiş ölkədə konkret mədəniyyət siyasətinin fərqli xüsusiyyətlərinə baxmayaraq yuxarıda qeyd olunan məqsədlər artıq uzun illərdir ki, çox səmərəli şəkildə həyata keçirilir. Suveren Azərbaycan Respublikasının yeni, elmi əsaslandırılmış mədəniyyət siyasətinin işlənməsi və reallaşdırılması prosesində həmin məqsədlər düzgün istiqamət kimi götürülür. Beləliklə, artıq bizim ölkədə də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşmış yeni mədəniyyət siyasətinin əsas məqsədləri aşağıdakılardır:

1. Yeni şəraitdə insanların (bütün yaş qrupları nəzərə alınaraq) mədəni-mənəvi və bədii-estetik inkişaf sisteminin yaradılması və gerçəkləşdirilməsi;
2. Əhalinin ayrı-ayrı qruplarının mədəni fəaliyyətdə iştirakının genişləndirilməsi;
3. Milli özünəməxsusluğun qorunması və inkişafı, o cümlədən maddi və qeyri-maddi mədəni irsin mühafizəsi;
4. Sənətkarların, incəsənət xadimlərinin yaradıcılığının tam azadlığının təmin edilməsi,
5. Mədəniyyət sahəsində beynəlxalq əlaqələrin, bərabərhüquqlu əməkdaşlığın inkişafı, ümumdünya miqyasında milli mədəniyyətimizin təbliği, onun nüfuzunun maksimal dərəcədə gücləndirilməsi;
6. Dünya klassik irsinin və müasir incəsənətin (həm elitar, həm də qlobal kütləvi mədəniyyətin) ali nümunələrinin geniş təbliği və beynəlxalq standartlara cavab verən milli mədəni sənaye və kommersiyanın sürətli inkişafı;
7. Mədəniyyət və incəsənət sahəsində müasir tələblərə cavab verən təhsil sisteminin formalaşdırılması;
8. Mədəniyyət və incəsənət sahəsiylə bağlı olan üçüncü sektorun uğurlu fəaliyyətinin təmin edilməsi.

Sonuncu əsas məqsədin ölkəmizdə böyük müvəffəqiyyətlə həyata keçməsini 80 mədəniyyət yönümlü qeyri-hökumət təşkilatının fəaliyyəti sübuta yetirir. Burada Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyevanın həmin illər başçılıq etdiyi «Azərbaycan dostları fondu»nun rolu xüsusi qeyd olunmalıdır. Fond tərəfindən bir çox maraqlı mədəni layihələrin həyata keçirilməsi vətən mədəniyyətinin inkişafını intensivləşdirərək bədii-estetik prosesə yeni bir nəfəs verirdi. Hazırda Prezidenti olduğu "Heydər Əliyev Fondu" da mədəni həyata böyük töhfələr bəxş edərək bu sahəylə bağlı müxtəlif aksiyaların gerçəkləşməsində fəal iştirak edir. Ümumiyyətlə, əsl vətənpərvər ziyalı olan Mehriban xanım yüksək peşəkarlıqla mənəvi irsimizin mühafizəsi, Azərbaycan mədəniyyətinin özünəxas

unikallığının qorunması və bütün dünyada tanınması üçün əlindən gələni əsirgəmir.

Əlbəttə, mədəniyyət siyasətinin qeyd olunan prinsip və məqsədlərini effektiv reallaşdırmaq üçün ilk növbədə düşünülmüş, hüquqi baxımdan mükəmməl və müasir tələblərə cavab verən qanunvericilik tələb olunur. Çox önəmlidir ki, Ulu Öndər Heydər Əliyevin prezidentliyi dövründə bu sahədə səmərəli iş aparılıb və nəticədə 17 qanun qəbul edilib. Fərəhli haldır ki, bunlardan 15 qüvvədə olan ən mühüm qanun 1995-2000-ci illər ərzində, yəni Milli Məclisin I çağırışı zamanı parlamentin mədəniyyət məsələləri daimi komissiyası tərəfindən hazırlanıb, qəbul edilib və ölkə Prezidenti tərəfindən imzalanıb. Məsələn, "Mədəniyyət haqqında" (1998), "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (1998), "İnformasiya azadlığı haqqında" (1998), "Şəhərsalma haqqında" (1999), "Milli arxiv fondu haqqında" (1999), "Muzeylər haqqında" 1999), «Nəşriyyat işi haqqında»(2000) və s. Milli Məclisin II çağırışının fəaliyyəti dövründə iki qanun qəbul edilib. "Azərbaycan Respublikasının dövlət dili haqqında"(2002) və "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" (2003) qanunları. Həmin qanunları hazırlayarkən, onların inkişaf etmiş ölkə standartlarına və təcrübəsinə, eyni zamanda Azərbaycanın gerçəkliyinə, müvafiq reallıqlarına və xüsusiyyətlərinə uyğunluğu məsələsi əsas şərt kimi götürülüb.

Mədəniyyət siyasətinin ən prioritet hissəsi olan milli özünəməxsusluq probleminə gəldikdə isə söhbət ilk növbədə milli irsin mühafizəsi haqqında getməli və burada da bir çox pozitiv dəyişikliklərin, ciddi irəliləyişlərin mövcudluğu xüsusi vurğunlanmalıdır.

### Beynəlxalq konvensiyaların ratifikasiyası və beynəlxalq təşkilatlarla əməkdaşlıq

Həmin illər ərzində Azərbaycan 5 mühüm beynəlxalq konvensiyaya qoşulub və onlar Milli Məclisdə ratifikasiya olunub. Həmin konvensiyalar aşağıdakılardır: «Silahlı münaqişələr zamanı tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (Haaqa 1954), "Ümumdünya mədəniyyət və təbiət irsinin mühafizəsi haqqında" (Paris 1972), "Mədəni dəyərlərin qeyri-qanuni aparılmasının və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəldilən tədbirlər haqqında" (Paris 1970), «Oğurlanmış və qeyri-qanuni aparılmış mədəni dəyərlər haqqında" (1995) və «Mədəniyyət haqqında" Avropa Konvensiyalarıdır. Azərbaycan bu konvensiyalara heç də formal olaraq qoşulmayıb. Dövlətimizin bu məsələlərlə bağlı siyasəti məhz beynəlxalq konvensiyaların normativlərinə söykənir. Məsələn, həmin konvensiyaların müddəaları müvafiq qanunlarda, konkret olaraq "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" qanunda əks olunur.

Milli abidələrin mühafizəsi məqsədilə Azərbaycan 1993-cü ildən bəri YUNESKO-nun nəzdində fəaliyyət göstərən və mədəni sərvətlərin qorunması ilə birbaşa məşğul olan üç mötəbər beynəlxalq təşkilatla six əlaqələr qurub. Bunlardan ikisi qeyri-hökumət təşkilatıdır – "Beynəlxalq muzeylər şurası (İKOM), "Abidələr və tarixi yerlər üzrə beynəlxalq şura" (İKOMOS), üçüncüsü isə 93 ölkənin üzv olduğu hökumətlərarası təşkilatdır – "Mədəni sərvətlərin qorunması və bərpası məsələlərinin öyrənilməsi üzrə beynəlxalq mərkəz" (İKKROM).

Yeni mədəniyyət siyasətinə uyğun olaraq, Azərbaycan ənənəvi ikitərəfli əlaqələrlə yanaşı çoxtərəfli beynəlxalq layihələrdə iştirakın getdikcə ölkəmiz üçün daha böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, YUNESKO və Avropa Şurasından başqa Avropa İttifaqı, TÜRKSOY, İSESKO və digər beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da gücləndirmişdir. Məsələn, 1997-ci ildən başlayaraq Azərbaycan Avropa Şurasının mədəniyyət siyasəti üzrə Departamentiylə yaxından əməkdaşlıq edir. Məhz bu departamentin təşəbbüsüylə 2000-2003-cü illər ərzində "Steyc" adlı regional layihə həyata keçirildi. "Steyc" – Cənubi Qafqazda yeni mədəniyyət siyasətinin əsasını təşkil edən bir layihədir.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin eyniadlı strukturu (yəni Mədəniyyət siyasəti Departamenti) ilə adı çəkilən Departamentin və Bonn şəhərində yerləşən Mədəniyyət siyasəti üzrə müqayisəli tədqiqatlar Avropa institutunun çox faydalı işi nəticəsində sorğu xarakteri daşıyan "Azərbaycan Respublikasında mədəniyyət siyasəti" adlı kitabça hazırlandı və çapdan çıxdı. İngilis dilində bu icmal "Avropada mədəniyyət siyasəti: əsas faktlar və tendensiyaların kompendiumu" adlı Avropa məcmuəsinə daxil edilərək Bonn Institutunun saytında yerləşdirildi. Maraqlıdır ki, Azərbaycanın mədəniyyət siyasəti haqqında geniş məlumatlar verən həmin sayt artıq yüzerlərin ən çox istifadə etdiyi saytlardan birinə çevrilib.

Bundan başqa, Mədəniyyət Nazirliyinin Departamenti və Azərbaycan mütəxəssislərinin birgə iştirakıyla mədəniyyət siyasəti üzrə Milli Məruzə Hazırlandı və Strasburqda Avropa Şurasının yuxarıda qeyd olunan Departamenti tərəfindən çap olundu.

Ölkəmizdə mədəniyyət siyasətinin düzgün aparılmasını YUNESKO tərəfindən tərtib olunan Ümumdünya mədəni irsinin siyahısına milli abidələrimizin salınması da bunu bir daha parlaq şəkildə sübut edir. Bir neçə il ərzində Azərbaycan tərəfi abidə incilərimizin ən dəyərli nümunələri olan Naxçıvandakı Qarabağlar Türbəsi, Möminəxatın məqbərəsi, Ordubad qoruğu, Bakıdakı Qobustan, Atəşgah, İçərişəhər, Lahıç və Şəki qoruqları və Xəzəryanı müdafiə qurğularını bütün bəşəriyyət üçün olduqca dəyərli mədəniyyət abidələri daxil edilən həmin siyahıya salmaq məqsədi ilə YUNESKO-ya dəfələrlə müraciət etmişdi. Nəhayət 2000-ci ildə, təqdim olunan abidələrdən biri İçərişəhər – YUNESKO-nun mədəniyyət siyahısına daxil edildi. O vaxtdan bəri çoxsaylı digər milli abidələr də bu siyahıya salınmışdır.

Yeni mədəniyyət siyasətinə uyğun olaraq yaradıcı xadimlər qruplarına dövlət köməyinin nəzərdə tutulması da təqdirə layiqdir. Bununla bağlı 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəzi sərəncamlarını xatırlatmaq istərdim:

– Azərbaycan simfonik orkestrinin fəaliyyətinin yaxşılaşdırılması üzrə tədbirlər. 02/12/1997 №701
– Azərbaycan Respublikasının yaradıcı xadimlərinə şəxsi pensiyaların verilməsi haqqında. 22/12/1997 №714
– "Qızıl Kitaba" salınmış gənc istedadlara Prezident təqaüdünün verilməsi haqqında. 13/09/1997 №662
– Azərbaycan Dövlət Akademik Opera və balet teatrının balet truppası işçilərinin sosial təminatının yaxşılaşdırılması haqqında. 06/12/1999 №281
– Azərbaycan Respublikasının gənc yazarlarına şəxsi təqaüdlərin verilməsi haqqında 06/12/1999 №277 sərəncamları.

Mənəvi planda Prezidentin 22 may 1998-ci il sərəncamına əsasən verilən dövlət mükafatları sistemi də çox əhəmiyyətli rol oynayır.

Bir məsələ də xüsusi olaraq diqqəti cəlb edir. Yeni mədəniyyət siyasətinə görə Azərbaycan cəmiyyətinin bütün təbəqə və qruplarının mədəni tələbatlarının, yaradıcı imkanlarının ən geniş spektrının əks olunması artıq mümkündür. Bunu Azərbaycanda "üçüncü sektorun" fəal formalaşması və əhəmiyyətli dərəcədə mədəniyyət sahəsini zənginləşdirməsi sübuta yetirir. Çox yaxşı haldır ki, 1993-2003-cü illərdə ölkəmizdə 70-dən artıq mədəniyyət problemləriylə məşğul olan qeyri-hökumət təşkilatı, müəssisə və assosiasiyası qeydiyyatdan keçərək, qanuni şəkildə fəaliyyət göstərirdi. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında da son dərəcə aktual olan bu problemə böyük diqqət yetirilir. Burada həmin problemlə bağlı bütün lazımi informasiya, ən yeni məlumat toplanır, təhlil olunur. Onların əsasında məqalələr, kitabçalar, sanballı monoqrafik tədqiqatlar hazırlanır, proqramlar tərtib edilir, ixtisasartırma kurslarında mühazirələr oxunur. Heç bir şübhə yoxdur ki, DİA-nın Suveren Azərbaycanın mədəniyyət siyasətinin formalaşmasında və həyata keçirilməsində əhəmiyyətli payı var.

**Nəticə**

Yuxarıda göstərilən fakt və məlumatlar bir daha bunları sübuta yetirir ki, 1993-2003-cü illərdə Azərbaycan Respublikasının milli mədəniyyət siyasətinin yeni modelinin formalaşması və gerçəkləşməsi yalnız Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında müəyyənləşdirilmiş, mədəniyyətlərarası qarşılıqlı təsirlərin gedişində müsbət innovasiyaların qəbul edilməsinə, eyni zamanda qloballaşma şəraitində Qərbin mədəni ekspansiyasına düşünülmüş əks-təsirin göstərilməsinə, mədəniyyətimizin intensiv inkişafına və onun təkrarsız simasının itirilməməsinə yönəldilmişdir. Azərbaycanın "yumşaq gücü"nün əsasını və qeyri-maddi mənbəyini təşkil edən həmin mədəniyyətin yüksək səviyyəyə çatdırılmasının başlıca şərti olan, düzgün, müasir tələblərə cavab verən mədəniyyət siyasətinin sütunları ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən daha da möhkəmləndirilərək milli identikliyimizi qorumaq şərti ilə dünya mədəni birliyinə inteqrasiya olunmağımızda məxsusi rol oynayır və ölkənin cəlbediciliyinin artırılmasında, müsbət imicinin möhkəmləndirilməsində mühüm əhəmiyyətli vasitə qismində çıxış edir.

**Ədəbiyyat:**


1. Heydər Əliyev və mədəniyyət. I cild. Bakı, 2008
2. Heydər Əliyev və mədəniyyət. II cild. Bakı, 2008
3. Ələkbərova N. Mədəniyyət və siyasət, Bakı, 2000
4. Əliyev Ə. Milli mədəniyyətimiz Heydər Əliyev ideyalarından güc alır / Xalq qəzeti. – 6 may. – 2010.
5. Əliyev, Y., Şabanov, R. Heydər Əliyev fenomeni milli mədəniyyətimizi daim zənginləşdirir // Mədəniyyət. 7 may, 2000
6. Usubəliyev A. Dövlətin inkişafını təmin edən mədəniyyət siyasəti/ https://medeniyyet.az/page/news/12632/Dovletin-inkisafini-temin-eden-medeniyyet-siyaseti.html
7. Osmanlı A. Azərbaycanın "yumşaq güc" strategiyası. 14 noyabr. 2022
8. ООН. Генеральная Ассамблея, 41-я сессия 29 декабря 1987 года. Резолюция 41/187, с. 1-2
9. ЮНЕСКО. Всемирная конференция по политике в области культуры. Мехико, 26 июля 6 августа 1982 года. Заключительный доклад. Париж 1982
10. Cultural Policy: a preliminary study: UNESKO.P., 1969.
11. Girard A. Cultural development eksperienses and policies. P., 1983
12. Hoggard R. An idea and its UNESKO. L., 1978
13. Mitchell J.M. International Cultural Relations. L., 1986
14. UNESKO a veille de son quarntenaier anniversaire. P., 1985
15. Nye J. Soft Power: The Means to Succes in World Politics. N.Y.: Public Affairs, 2004.
16. Nye J. The Future of Power. N.Y.: Public Affairs, 2011.
17. https://az.bccrwp.org/compare/difference-between-hard-power-and-soft-power/
18. https://ordu.az/az/news/215042/beyn%D3%99lxalq-munasib%D3%99tl%D3%99r-konsepsiyasinda-yumsaq-gucun-rolu-%E2%80%93-analiz-


***Açar sözlər:*** *yumşaq güc, mədəniyyət siyasəti, mədəniyyət, dövlət*

**Nigar Alakbarova**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Head of the Department of Political Science and Political Management, Professor, Dr. of Philosophical Sciences***

# NATIONWIDE LEADER HEYDAR ALIYEV AS THE FOUNDER OF CULTURAL POLITICS OF THE REPUBLIC OF AZERBAIJAN

## ABSTRACT

The article focuses on the cultural politics of independent Azerbaijan, which is inextricably linked to the name of the nationwide leader Heydar Aliyev. The article explores the unique features, objectives, principles, and various aspects of legislative support for the state's cultural policies.

Herein, it is analyzed how culture and art are utilized as sources of "soft power" and the potential of their amplified effect on the international scale, showcasing their versatility and appeal while simultaneously contributing to the formation and acquisition of our country's international reputation.

***Keywords:*** *soft power, cultural politics, culture, state*

**Нигяр Алекперова**

***Заведующая кафедрой Политологии и политического управления Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философских наук, профессор***

# ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ КАК ОСНОВОПОЛОЖНИК КУЛЬТУРНОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

## РЕЗЮМЕ

В статье анализируется феномен культурной политики независимого Азербайджана, напрямую связанный с именем Общенационального лидера Гейдара Алиева, выявляются её фундаментальные особенности, цели, принципы и различные аспекты законодательного обеспечения. Культура и искусство Азербайджана представляются в качестве ресурсов «мягкой силы», освещаются процессы многократного усиления возможности их влияния на международном уровне с точки зрения универсальности и привлекательности, а также превращение в фактор создания и возвышения положительного имиджа нашей страны.

***Ключевые слова:*** *мягкая сила, культурная политика, культура, государство*

UOT 94(479.24)

**HAVVA MƏMMƏDOVA**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*"Tarix" kafedrasının professoru, tarix elmləri doktoru*

*e-mail: havva_mamedova@mail.ru*

# ERMƏNİSTANIN AZƏRBAYCANA QARŞI TƏCAVÜZÜNÜN DÜNYA BİRLİYİNƏ ÇATDIRILMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti sərəncam imzalamışdır. Sərəncamda deyilir ki, "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur." (2) Dünyanın bir çox ölkələrində, bütün Türk dünyasında, onu yaxından tanıyanlar, şəxsiyyətinə böyük hörmət və etimad göstərənlər Heydər Əliyevi böyük hörmət və məhəbbətlə yad edirlər. Bu hörmət, bu ehtiram bir daha onu göstərir ki, zaman keçdikcə Heydər Əliyev şəxsiyyəti, böyüklüyü bizə daha aydın görünür. Azərbaycanın bugünkü yüksəlişi, dünya birliyində mövqeyinin möhkəmlənməsi, əlaqələrinin gündən-günə genişlənməsi məhz Heydər Əliyevin uzaqgörən siyasətinin, Vətəninə, millətinə olan böyük sevgisinin nəticəsidir.

Azərbaycan tarixinin müxtəlif taleyüklü məqamları və mərhələlərində həmişə doğma Vətənimizi ağır sınaqlardan çıxarmaq vəzifəsi müvafiq dövrlərin böyük şəxsiyyətlərinin üzərinə düşübdür. İkinci minilliyin sonuncu yüzilliyi də Azərbaycan dövləti üçün çox keşməkeşli olubdur. Dövlət müstəqilliyimizi bərpa etdiyimiz zaman bu müstəqilliyi qoruyub saxlayan liderə ciddi ehtiyac var idi. Ölkəyə başçılıq edən səriştəsiz rəhbərlərin fəaliyyəti nəticəsində müstəqilliyimiz məhvə doğru gedirdi. Bir tərəfdən erməni qəsbkarlarının Azərbaycan torpaqlarını işğal etmələri və bunun da nəticəsində bir milyondan artıq soydaşımızın öz ata-baba torpaqlarından didərgin düşmələri, digər tərəfdən isə respublikanın daxilində hökm sürən hərc-mərclik, özbaşınalıq, ayrı-ayrı şəxslərə xidmət edən qeyri-qanuni silahlı birləşmələr vəziyyəti daha da gərginləşdirirdi.

Ermənistan-Azərbaycan münaqişəsinin dərinləşməsi Ermənistanın özündə, ondan kənarda fəaliyyət göstərən təşkilatların və eləcə də Azərbaycanda sabitliyi pozmaq istə-yən bir sıra böyük dövlətlərin məkrli siyasəti ilə bağlı olmuşdur. Məkrli siyasətə xidmət edən ermənilər və ermənipərəst qüvvələr regionda baş verənləri beynəlxalq ictimaiyyətə müxtəlif ad altında, həqiqətdən uzaq şəkildə təqdim etmişlər. Belə ki, onlar Cənubi Qafqazda olduqca mürəkkəb siyasi vəziyyəti regionda xüsusi etnik münaqişələr zəminində baş verən hadisələrlə eyniləşdirməyə cəhd etmiş, dünya ictimaiyyətinin fikrini baş verənlərin əsl mahiyyətindən yayındırmışlar.

1988-ci ildə Ermənistan-Azərbaycan arasında yaranmış böhranlı münasibət müstəqillik dövründə daha da kəskinləşdi. Əvvəl sovet, sonralar Rusiya hərbi qüvvələrinin köməyi ilə erməni daşnakları Qarabağda irimiqyaslı hərbi əməliyyatlar keçirərək azərbaycanlıları öz doğma yurdlarından qovub çıxarmağa başladılar. Güclü arxa duranlarına söykənən ermənilər 1991-ci ilin sentyabrında Yuxarı Qarabağda qeyri qanuni bir qurum, oyuncaq "Dağlıq Qarabağ Respublikası" yaratdılar. Həmin il

noyabr ayının 26-da Azərbaycan Respublikasının Milli Məclisi DQMV statusunu ləğv etməyə məcbur oldu.

Tarix dəfələrlə sübut etmişdir ki, azadlığı qazanmaq nə qədər çətindirsə, onu qoruyub saxlamaq daha çətin və mürəkkəbdir. Azadlıq, müstəqillik mübarizələri baş qaldırdıqda çox vaxt hakimiyyətə heç bir idarəçilik səriştəsi olmayan insanlar gəlirlər.

Ermənistan–Azərbaycan münaqişəsinin həlli ilə məşğul olan mühüm beynəlxalq təşkilatlardan biri kimi ATƏT-in 1992-ci ildə Helsinkidə keçirilmiş birinci sammitində Qarabağ məsələsinin Azərbaycanın ən kəskin problemi olmasına və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüz etdiyinə baxmayaraq, o zamankı Azərbaycan nümayəndə heyəti bu məsələnin gündəliyə salınmasına belə nail ola bilməmişdi (5, s.246 ).

Heydər Əliyev 1990-cı ildə Moskvadan qayıtdıqdan sonra Naxçıvana gəldi və 1991–1993-cü illərdə Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsində işləyərkən dəfələrlə o zamankı Azərbaycan rəhbərliyini xəbərdar etmişdi ki, ermənilərin beynəlxalq aləmdə Azərbaycana qarşı yeritdikləri təbliğat və informasiya müharibəsi çox təhlükəlidir və bu ağır nəticələrə gətirə bilər. Təəssüf ki, vaxtında mühüm tədbirlər görülmədi, erməni təbliğatı ağır nəticələrə gətirib çıxardı (7).

Blokada vəziyyətində yaşayan Naxçıvanı Heydər Əliyev müdrikliyi, dəyanəti xilas etdi. Naxçıvan MR Ali Məclisinin sədri kimi o, Türkiyə və İranın dövlət başçıları ilə görüşdü. 1992-ci il mayın 28-də Naxçıvan ilə Türkiyə arasında Sədərək-Dilicu "Ümid" körpüsü açıldı. İrandan Naxçıvana elektrik enerjisi verildi. Əgər o vaxt Heydər Əliyev Naxçıvanda olmasaydı, ermənilər oranı işğal edəcəkdilər. Çıxılmaz vəziyyəti, təhlükəli proseslərin getdiyini görən iqtidar kömək üçün Heydər Əliyevə müraciət etdi.

Azərbaycanın böyük vətənpərvər oğlu Heydər Əliyev belə ağır gündə xalqın və iqtidarın təkidi, böyük istəyi ilə dəvəti qəbul etdi. Özünün millətsevərliyi, vətənsevərliyi ilə Heydər Əliyev ilk gündən ölkədə sabitlik yaratmaq, xaosa, hərc-mərcliyə son qoymaq üçün nəhəng fəaliyyət göstərdi. 1993-cü il iyun ayının 9-da Bakıya gəldi. Xalqımız bu gəlişi ümidlə, sevinclə qarşıladı. Heydər Əliyev öz müdrikliyi, dərin düşüncəsi, mükəmməl bacarığı, uzaqgörən siyasəti ilə Azərbaycanda vətəndaş müharibəsinin qarşısını almaq üçün siyasi manevrlər etdi. Hərbi müxalifəti neytrallaşdırmaq üçün Gəncəyə getdi. Hamı bu böyük şəxsiyyəti yüksək səviyyədə qarşıladı. 1993-cü il iyunun 15-də xalqın istəyi və dəstəyi ilə milli lider Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Tariximizə qızıl hərflərlə yazılmış həmin gün Milli Qurtuluş Günü kimi qəbul edildi. Milli Məclis xalqın çoxsaylı xahiş və tələbini nəzərə alaraq bu günü bayram elan etdi.

1991–1993-cü ilin birinci yarısında Azərbaycanın xarici siyasətində prioritet istiqamətlər dürüst müəyyənləşdirilmədi, düzgün dəyərləndirilmədi. Azərbaycan Respublikasının xarici siyasəti 1993-cü ilə qədər demək olar ki, özünü doğrultmadı. Yalnız 1993-cü ilin ortalarından – Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsindən sonra xarici siyasət sahəsində fəaliyyət müsbət məcraya yönəldi, əvvəllər buraxılmış səhvlərin nəticələri tədricən və ardıcıl şəkildə aradan qaldırılmağa başlandı. (7)

1993-cü il oktyabrın 10-da Respublika sarayında Azərbaycanın dövlət başçısının təntənəli andiçmə mərasimi keçirildi. Həmin mərasimdə Heydər Əliyev tarixi bir nitq söylədi: "Belə bir yüksək məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, birinci növbədə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublika vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq vəzifələri mənim

Prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır və mən bunların həyata keçirilməsinə çalışacağam” (11).

Birmənalı şəkildə demək olar ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Qarabağ münaqişəsi Azərbaycanı öz təsir dairəsində saxlamaq istəyən dövlətlərin irticaçı qüvvələrinin yaratdığı problem olmuşdur. Bunu uzaqgörənliklə dərk edən Ümummilli Lider Heydər Əliyev Ermənistanın təcavüzünün dəf edilməsinin, respublikamızın pozulmuş ərazi bütövlüyünün bərpa olunmasının və işğalçıların ölkə ərazisindən çıxarılmasının düzgün yolunu müəyyənləşdirdi. Ona görə də Azərbaycan hökuməti bu dövrdə bütün gücünü müstəqil dövlətimizin dünyada tanınmasına, onun beynəlxalq nüfuzunun artmasına, ictimai-siyasi, iqtisadi və mənəvi həyatın bütün sahələrində dünya birliyinə inteqrasiya olunmasına yönəltdi. Bundan sonra Qarabağ probleminin həll edilməsi ilə bağlı beynəlxalq aləmin dəstəyinin qazanılması müstəqil dövlət quruculuğunun bütün dövrlərində Azərbaycan diplomatiyasının qarşısında duran ən mühüm vəzifələrdən biri oldu.

Heydər Əliyevin diplomatiyası beynəlxalq məhəlli təşkilatlarla sıx əlaqələr yaratmaq, beynəlxalq hüquq normaları və qarşılıqlı faydalı əməкdaşlıq prinsipləri ilə tənzimlənən böyüк dünya siyasətinə qatılmaq sahəsində də mühüm işlər gördü. (13) Bu münaqişənin həlli ilə bağlı xüsusi konsepsiya hazırlayaraq konkret vəzifələri həyata keçirmək üçün ardıcıl siyasi kurs yeritməyi planlaşdırdı. Bu kurs Qarabağ münaqişəsinin ermənisayağı həllini dəstəkləyən ölkələri bitərəfləşdirməsini, əvvəldən bitərəf qalan dövlətləri öz tərəfinə çəkməyi, Azərbaycanın müstəqil dövlətçiliyində marağı olan və onu müdafiə edən dövlətləri, beynəlxalq təşkilatları Azərbaycanla daha sıx bağlamağı, onların Ermənistana təzyiq etməsi üçün hərtərəfli düşünülmüş müvafiq diplomatik və siyasi iş aparmağı ehtiva edirdi.

Heydər Əliyev kursu Qarabağ probleminin mahiyyətini və köklərini hərtərəfli açıqlamağa, Azərbaycanın haqq səsini bütün dünya ictimaiyyətinə çatdırmağa xidmət etdi; mövcud olan informasiya boşluğunu doldurdu, dünyada ictimai rəyi respublikamızın xeyrinə formalaşdırmaq məqsədilə qeyd olunan problemin milli zəmin əsasında baş verən etnik münaqişə və ya insan hüquqlarının pozulması ilə meydana çıxan qarşıdurma deyil, Azərbaycanın istiqlaliyyəti yolunda süni yaradılmış maneə, respublikamızın müstəqilliyinin qarşısını almaq üçün düşünülmüş siyasi manevr və Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının nəticəsi olduğunu inandırıcı şəkildə bütün dünyaya bəyan etdi. Bunlarla yanaşı, Qarabağda yaşayan ermənilərin Azərbaycan dövlətinə qarşı yönəlmiş çıxışlarının beynəlxalq separatizmin tərkib hissəsi kimi qorxulu, ağır nəticələr törədən və digər dövlətlərin də ərazisində oxşar problemlərin alovlanmasına təkan verən təhlükəli bir hərəkət olduğu sübut edildi. Dünya ictimaiyyətinin diqqəti belə təhlükələrin qarşısını vaxtında almağın vacibliyinə yönəldildi.

ABŞ 1993-cü ilin əvvəllərində Qarabağ münaqişəsi ilə bağlı dəfələrlə Ermənistanın mövqeyini əks etdirən, onu münaqişədə haqlı hesab edən bəyanatlar yaydığı, bu ölkəyə həm mənəvi, həm siyasi, həm də maddi yardım göstərdiyi halda, Azərbaycana başqa münasibət göstərirdi. 1993-cü ilin yayında baş verən ictimai-siyasi dəyişikliklər və Heydər Əliyevin yenidən rəhbərliyə qayıtması ilə münasibətlər dəyişdi. Ümummilli Lider Azərbaycanın ərazi bütövlüyünün, dövlət müstəqilliyinin əbədi və dönməzliyinin təmin edilməsi yolunda gərgin mübarizəyə başladı. ATƏT-in sədrləri, Minsk qrupuna daxil olan ABŞ, Fransa, Rusiya Federasiyasının həmsədrləri, habelə bir çox başqa dövlət xadimləri ilə görüşlərdə və danışıqlarda Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Qarabağ münaqişəsinin yarandığını vurğulayırdı. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, işğal olunmuş torpaqların erməni işğalçılarından təmizlənməsi, bir milyondan artıq qaçqın və köçkünün doğma yurdlarına qaytarılması diplomatiyanın əsas prinsipləri oldu.

Heydər Əliyevin xarici ölkələrə səfərləri zamanı dövlət və hökumət başçıları ilə, digər qurumların rəhbərləri ilə müxtəlif səviyyəli

görüşlərində Qarabağ münaqişəsinin sülh yolu ilə və tezliklə həll edilməsinə dair fikirləri söhbətlərin əsas mövzusunu təşkil edirdi. Ardıcıl olaraq Fransaya, Türkiyəyə və ABŞ-a rəsmi dəvətlə səfərlər edən Heydər Əliyev görüşlərin hamısında Ermənistanın Azərbaycana təcavüzü səbəbindən Qarabağ problemini beynəlxalq hüquq normalarına uyğun şəkildə həll etmək tələbini irəli sürdü. Qarabağ və digər işğal olunmuş ərazilərimizin sülh yolu ilə azad edilməsi üçün bütün imkanları səfərbər etmək məramını ortaya qoydu.

1993-cü ilin ikinci yarısından götürülən hərtərəfli düşünülmüş, aydın, ardıcıl və prinsipial siyasi kurs məhz Heydər Əliyevin siyasətində respublikamızın müstəqillik və təhlükəsizlik problemlərini beynəlxalq təşkilatlar vasitəsilə ümumavropa təhlükəsizliyi fonuna çıxardı, regionda sülhün bərqərar olmasına onların təsir etməsini sürətləndirdi. Xüsusən Azərbaycanın cəlb olunduğu Qarabağ münaqişəsinin həlli məsələsində dövlət başçısı özünün əsas diqqət və səylərini beynəlxalq və məhəlli təşkilatlarda münaqişə haqqında əsl həqiqətlərin dünyanın siyasi dairələrinə və dünya ictimaiyyətinə çatdırılmasına, Ermənistanın təcavüzkar kimi tanınmasına, Azərbaycanı dəstəkləyən ölkələrin sayının artmasına yönəltdi və bu təşkilatların yığıncaqlarında münaqişənin həlli yollarına dair qərarlar qəbul edilməsinə nail oldu (10).

Prezident seçildikdən sonra Heydər Əliyevin 1993-cü ilin dekabrında ilk rəsmi xarici səfəri Azərbaycan üçün çox uğurlu sonluqla başa çatdı. BMT Təhlükəsizlik Şurasının beş əsas üzvündən, dünyanın "Yeddilər" adlandırılan aparıcı dövlətlərindən biri olan Fransanın dövlət başçısının bəyanatı bütün dünyada sensasiya yaratdı. Avropa Birliyinin, NATO-nun, ATƏT-in və başqa beynəlxalq və regional qurumların fəal üzvü olan Belçika Krallığı Qarabağ münaqişəsinin aradan qaldırılması məsələsində Azərbaycan Respublikasını dəstəklədi.

1994-cü ilin may ayında atəşkəs haqqında saziş imzalandı və bu atəşkəsin qorunub saxlanmasına Azərbaycan tərəfindən daim əməl olunması təmin edildi.

ABŞ-ın prezidenti Corc Buşla görüşü zamanı Heydər Əliyev Azərbaycanın ən ağrılı problemi olan Ermənistanın Azərbaycana təcavüzü, Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsi ətrafında geniş fikir mübadiləsi apardı, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağla bağlı ərazi iddiaları irəli sürən Ermənistanın 1988-ci ildən başladığı hərbi təcavüz nəticəsində ölkəmizin ərazisinin 20 faizinin işğal olunduğunu, bir milyondan çox vətəndaşımızın uzun müddət çadırlarda dözülməz şəraitdə yaşadığını, Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunmuş torpaqlarda artıq hər şeyin dağıdıldığını, talan edildiyini, yerlə yeksan olunduğunu söylədi. Bu məsələnin 3 əsas prinsip üzrə həll edilməsinin əhəmiyyətli olacağını bildirdi. Corc Buş Prezident Heydər Əliyevin zəngin siyasi həyat yolu keçməsini, qətiyyətli mövqeyə və ardıcıl siyasətə malik olmasını vurğuladı və onun sayəsində regionun mühüm ölkəsi olan, zəngin təbii sərvətlərə, əlverişli coğrafi-siyasi mövqeyə malik Azərbaycanın inkişaf və tərəqqi yolunda olduğunu bildirdi.

1994-cü ildə Azərbaycan və ABŞ Qarabağ probleminin həlli üzrə beynəlxalq hüquq normalarına uyğun qərarlar qəbul etməyə və münasibətlər qurmağa hazır olduqlarını bəyan etdilər. Bəyanatda Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı, Qarabağın Azərbaycan Respublikasının ərazisi olması təsdiq olunurdu.

1994-cü ildə keçirilmiş Budapeşt zirvə toplantısında Heydər Əliyev nüfuzlu Avropa və dünyanın digər ölkələrinin rəhbərləri ilə görüşərək Qarabağda sülhyaratma prosesinin intensivləşdirilməsi üzrə qətnamənin qəbul edilməsində konsensusa nail olmaq və sülhməramlı qüvvələr kontingentinin formalaşdırılmasına kömək haqqında dövlət başçıları ilə dərhal danışıqlara başlamaq kimi vəzifələri yerinə yetirdi. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, 1995-1996-cı illərdə Heydər Əliyev üç dəfə Fransa Respublikasında səfərdə oldu. O, görüşlərdə Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların və dünya

dövlətlərinin rolunu xüsusi qiymətləndirərək «ATƏM-in sərhəd və ərazilərin toxunulmazlığı prinsiplərinə Azərbaycanın həmişə tərəfdar olduğunu» bildirdi və eyni zamanda beynəlxalq təşkilatların, dünya siyasətində böyük nüfuza malik olan dövlətlərin Ermənistanın işğalçılıq siyasətinin qarşısını almaq üçün təsirli tədbirlər görmədiyini təəssüflə ifadə etdi (5, s.87-88).

BMT Təhlükəsizlik Şurasının Azərbaycan ərazisinin işğalı faktına qətiyyətsiz münasibəti Heydər Əliyevin 1995-ci il oktyabr ayının 22-də BMT-nin yaradılmasının 50 illiyi münasibəti ilə keçirilmiş 36-cı plenar iclasda etdiyi çıxışında öz əksini daha kəskin şəkildə tapdı. Bu çıxışdan sonra Qarabağ mövzusunu BMT-nin baş katibi Butros Qali illik hesabatına saldı, hesabatda təcavüz faktı pislənilir və münaqişənin tezliklə sülh yolu ilə həllini tapacağına əminlik bildirilirdi.

1996-cı il noyabrın əvvəllərində ATƏT-in Parlament Assambleyasının Prezidenti Xavyer Ruperesin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş zamanı X.Ruperes Heydər Əliyevə müraciətlə «Məhz Azərbaycan bu bölgədə və dünyada ilk demokratik müsəlman ölkəsidir. Qarabağ probleminin başladığı andan indiyədək Siz bu məsələnin sülh yolu ilə həll edilməsinin tərəfdarısınız və buna görə Sizə minnətdarıq. Siz Azərbaycanda və bütün dünyada müstəsna liderlik qabiliyyətinə malik olduğunuzu göstərmisiniz və şübhəsiz ki, Sizin bu qabiliyyətiniz məsələnin son məqamda sülh yolu ilə həllinə gətirib çıxarmalıdır» demişdi. (12, s.20) X.Ruperes vurğuladı ki, «ATƏT Parlament Assambleyası hər hansı bir ölkənin ərazi bütövlüyünün şübhə altına alınmasına heç vaxt tərəfdar ola bilməz, çünki bu, ümumilikdə bizim prinsiplərin əleyhinədir». Görüşdə Heydər Əliyev ATƏT-in Parlament Assambleyasının Qarabağ məsələsində həmişə Azərbaycanın mövqeyini müdafiə etməsini müsbət qiymətləndirdi. O ümidvar olduğunu bildirdi ki, Lissabon zirvə görüşünədək əməkdaşlığımız daha da genişlənəcək, bu tədbirdə məsələnin həlli üçün konkret yol açılacaq» (12, s.21).

Heydər Əliyevin gərgin fəaliyyətinin nəticəsində Azərbaycanın xarici siyasətinin qarşısında duran ən mühüm vəzifələrdən biri - Ermənistanın təcavüzünün aradan qaldırılması və Qarabağ probleminin həlli ilə bağlı Azərbaycan diplomatiyasının fəaliyyətində böyük dönüş yarandı. ATƏT-in 1996-cı ilin dekabrında keçirilən Lissabon sammitində Azərbaycan diplomatiyasının uğurları meydana çıxdı.

Lissabon zirvə görüşündə Heydər Əliyev demişdir: « Qarabağın müstəqilliyi barədə qanunsuz iddialar beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç vaxt razılaşmayacaq, biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verməyəcəyik» (3).

ATƏT-in Minsk qrupu yarananda Qarabağ münaqişəsinin həllində əsas rol oynayan Rusiya Federasiyası bütövlükdə Ermənistanı və Qarabağın separatçı qüvvələrini həm mənəvi-siyasi, həm də maddi cəhətdən dəstəkləyirdisə və bu məsələdə hər zaman Azərbaycana birtərəfli qaydada təzyiq göstərirdisə, Lissabon sammiti ərəfəsində Azərbaycanın bu problemin həlli ilə bağlı irəli sürdüyü bütün şərtləri həm nəzəri, həm də praktiki cəhətdən müdafiə etdiyini açıq bəyan etdi (12, s.71-72).

Heydər Əliyevin uğurlu siyasətinin nəticəsində Azərbaycan-Amerika münasibətləri tərəfdaşlıq və əməkdaşlıq istiqamətində yüksələn xətlə inkişaf etdi və Lissabon sammitində Azərbaycan üçün taleyüklü məsələ hesab olunan Qarabağ probleminin həlli prinsiplərini müəyyən edən qərarın qəbul edilməsində ABŞ bir daha öz prinsipial mövqeyini bildirdi.

ABŞ-ın Prezidenti B.Klintonun vaxtilə Heydər Əliyevə göndərdiyi məktubda qeyd edilənlər ABŞ-ın Qarabağ probleminə aid mövqeyinin tam dəyişməsini sübut edən ən bariz göstəricisi idi. 1996-cı il 8 noyabr tarixli həmin məktubda B.Klinton açıq bildirirdi ki, o, Azərbaycanın ərazi bütövlüyünü və münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında həll edilməsini dəstəkləyir (9).

1994-1996-cı illərdə Almaniya ilə aparılan fəal iş nəticəsində Dağlıq Qarabağ problemi yönündə qəti fikrin bildirilməsi və Azərbaycanın

ərazi bütövlüyünün təmin olunması zərurətinin rəsmi bəyan edilməsi Heydər Əliyev siyasətinin daha bir uğuru idi. Almaniya Federativ Respublikası Bundestaqının Qafqaz qrupunun rəhbəri, ATƏT-in Parlament Assambleyasının vitse-prezidenti Villi Vimmerin «Almaniya heç vaxt hansısa ölkənin ərazi bütövlüyünün pozulması və əmin-amanlığın məhz ərazi hesabına təmin edilməsi mövqeyi ilə barışmayacaq» (1) deməsi xarici siyasətdə Heydər Əliyev diplomatiyasının çox mühüm qələbəsi idi.

Ermənistan-Azərbaycan münaqişəsinin həllindən danışarkən Villi Vimmer hətta «beynəlxalq normaların və ATƏT prinsiplərinin pozulması kimi qiymətləndirərək, AFR-ın Azərbaycanın mövqeyinə üstünlük verdiyini bildirirdi (5, s.101).

Heydər Əliyevin diplomatik kursunun nəticəsində, Budapeşt və Lissabon Sammitləri arasındakı iki illik fəaliyyət zamanı ATƏT və onun Minsk qrupuna daxil olan digər üzvlərin də mövqeyi respublikamızın xeyrinə tam dəyişdi.

Heydər Əliyevin siyasi kursuna riayət edən Azərbaycan hökuməti beynəlxalq təşkilatlar, həmçinin bütün ATƏT üzvü olan dövlətlərlə fəal iş apardı ki, bunun da sayəsində respublikamızın haqq işi uğrunda mübarizəsində, ərazi bütövlüyünün bərpa edilməsində onu dəstəkləyən dövlətlərin sayı artdı, ermənilərin işğalçı siyasəti ifşa edildi və erməni siyasəti iflasa doğru yuvarlanmağa başladı. Bu siyasətin ardıcıllığı nəticəsində respublikamızı dəstəkləyən dövlətlərin Ermənistana təzyiqi artdı, Ermənistanı müdafiə edənlər bitərəfləşdirildi.

Heydər Əliyev BMT, İKT, QDİƏT, AB, AŞ, NATO, TDB, GUAM, MDB və digər beynəlxalq və regional təşkilatların tribunalarından Ermənistanın Azərbaycana təcavüzü və Qarabağ münaqişəsinin əsl mahiyyətini açıqlayaraq Ermənistanın işğalçı, Azərbaycanın isə işğala məruz qalmış ölkə olduğunu məntiqi şəkildə əsaslandıran çıxışlar ilə ifadə etdi.

Ermənistanın Azərbaycana təcavüzü və Qarabağ münaqişəsinin həlli istiqamətində Heydər Əliyevin çevik siyasi fəaliyyəti 1996-cı ilin dekabrında keçirilən ATƏT-in Lissabon zirvə toplantısında özünü hərtərəfli göstərdi.

Azərbaycan Respublikasının xarici siyasətinin qarşısında duran ən mühüm vəzifələrdən biri Ermənistanın Azərbaycana təcavüzü və Qarabağ münaqişəsinin beynəlxalq normaları əsasında ATƏT-in Lissabon sammitində nümayiş etdirilən məqsədyönlü siyasəti idi. Bu manevrlər Heydər Əliyevin uğurlu diplomatiyasının nəticəsi idi.

ATƏT-in Lissabon zirvə görüşündə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev demişdir: «Dağlıq Qarabağın müstəqilliyi barədə qanunsuz iddialar beynəlxalq hüququn hamı tərəfindən bəyənilmiş normaları ilə bir araya sığmır. Biz həmin iddialarla heç vaxt razılaşmayacaq, biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranmasına yol verməyəcəyik» (5, s.101).

Heydər Əliyevin gərgin və çevik siyasəti əsasında Lissabon sammitində Azərbaycanın ərazi bütövlüyünü tanıyan bəyanatı rəsmi sənəd kimi qəbul edildi (12, s.63).

ATƏT üzvü olan dövlətlərin Azərbaycanla həmrəyliyi, sözsüz ki, yürüdülən ardıcıl siyasət sayəsində qazanılan beynəlxalq dəstəyin nəticəsi idi. 54 dövlət başçısının iştirak etdiyi Lissabon zirvə toplantısı ilk dəfə olaraq Ermənistanın Azərbaycana təcavüzü və Qarabağ münaqişəsinin mahiyyətini, ümumi və xüsusi cəhətlərini, həlli yollarının hüquqi-siyasi çərçivəsini bəyan etdi.

Lissabon sammitinin Azərbaycan üçün böyük təbliğatı, hüquqi və mənəvi-siyasi əhəmiyyətini Heydər Əliyev özü belə şərh edirdi: «Əgər sammitə gələndə Qarabağ, Azərbaycan məsələsi tamamilə unudulmuşdursa, iki-üç gün içərisində bir nömrəli məsələyə çevrildi. Ona görə ki, bütün dövlətlər dərk etdilər ki, bu məsələ nə qədər kəskin məsələdir və biz nə qədər geniş ictimai rəy yarada bildik» (4, s.13).

Müstəqilliyin ilk illərindən fərqli olaraq, Avropanın inkişaf etmiş və qüdrətli dövlətləri hesab olunan Fransa, Böyük Britaniya, Almaniya, Belçika, Norveç, Bolqarıstan və Rumıniya ilə dostluq, əməkdaşlıq, tərəfdaşlıq

haqqında ikitərəfli müqavilələr bağlandı, beynəlxalq aləmdə onların hərtərəfli dəstəyinə nail olundu. Lissabon sammitində respublikamızın Qarabağ münaqişəsinin həlli ilə bağlı ədalətli mövqeyini bütün Avropa dövlətlərinin dəstəkləməsi Heydər Əliyev diplomatiyasının qısa müddətdə nail olduğu böyük uğurun əyani sübutu idi.

Heydər Əliyev diplomatiyasının ən uğurlu addımlarından biri 1999-cu ilin dekabrında BMT-də Azərbaycanın ərazi bütövlüyünün bir daha təsdiq olunması, 2000-ci ildə Vaşinqtonun Ermənistana ayırdığı birbaşa yardımı azaltması, Qarabağa göstərdiyi maliyyə yardımını isə tamamilə dayandırması bu münaqişənin tənzimlənməsi məsələsində Qərbin mövqeyinin tədricən dəyişdiyini və Azərbaycanın daha artıq dəstəkləndiyini nümayiş etdirirdi. Regionda həyata keçirilən qlobal iqtisadi layihələrdə Azərbaycanın aparıcı rol oynaması, getdikcə demokratik dəyərlərin bərqərar olduğu məkana çevrilməsi Respublikamızın iqtisadi qüdrətinin və siyasi nüfuzunun artmasını bir daha göstərdi (12, s.115).

Bu gün Azərbaycanın bütün sahələrində böyük dövlət xadimi Heydər Əliyevin əl izləri vardır. Zəmanəmizin böyük azərbaycanlısı, dünya azərbaycanlılarının lideri və müasir türk dünyasının iftixarı Heydər Əliyev xalqını sevən, onunla fəxr edən görkəmli bir şəxsiyyətdir. Onun xidmətlərini tam təfərrüatı ilə sadalamaq, sözlə ifadə etmək, kağız üzərində əks etdirmək mümkün deyil. Çünki buna nə bir insan ömrü, nə vaxt, nə də insan təfəkkürü kifayət edər.

Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə Qarabağ və işğal olunmuş ərazilərin sülh yolu ilə azad edilməsi üçün bütün imkanlarını səfərbər etsə də, Ermənistanla sülh sazişi bağlamaq mümkün olmamışdır. Təcavüzkar Ermənistan rəhbərliyi hər dəfə danışıqlar masasından yayınmış və işğalçı siyasətindən əl çəkməyərək mövcud status-kvonun saxlanması yolunda hər cür siyasi riyakarlığa əl atmış, beynəlxalq hüququn norma və prinsiplərinə hörmətsizlik etmişdir. Nəhayət, 2016-cı il Aprel, 2020-ci il Tovuz hadisələri, Ermənistanın işğalçılıq planlarının getdikcə güclənməsi xalqımızı torpaqlarımızın işğaldan azad edilməsi üçün səfərbər etdi. 2020-ci il 27 sentyabrda başda Ali Baş Komandan olmaqla Müzəffər Azərbaycan ordusu 30 il işğal altında qalan torpaqlarımızı işğaldan azad etdi, tarixi ədalətin və ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi üçün işğalçı Ermənistan ordusunu məğlubiyyətə uğratdı.

**Ədəbiyyat:**


1. Azərbaycan beynəlxalq aləmdə // Azərbaycan qəzeti, 23 avqust 1995
2. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı, 2022-ci il, 29 sentyabr
3. ATƏT-in Lissabon Zirvə görüşündə Azərbaycan prezidenti Heydər Əliyevin nitqi (2 dekabr 1996). Dirçəliş- XXI əsr, 2003, № 70, s.103-107
4. ATƏT-in məlumatı. Lissabon sənədləri 1996-cı il, s.13.
5. Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1995), Bakı, Elm, 2000, s.246
6. Həsənov Ə. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması Dirçəliş – XXI əsr 2003, N-63, s. 52.
7. Hüseynova İ. Müstəqilliyimizin təminatçısı (məqalələr, çıxışlar, müsahibələr, rəylər) Bakı: Təhsil, 2003, 504 səh.
8. Hüseynova I. Dövlətçilik naminə. Bakı: BUN, 2001, 300 s.
9. Xalq qəzeti, 14 noyabr 1996.
10. İsmayılov M. Pravda ob armyanskoy aqressii. Baku: Azerneşr, 1996, 105 s.
11. Qurtuluş ( Red. M.Ələskərov). Bakı,1998, 462 s.
12. Lissabon sammiti-96, tərtib edən: Ə.Həsənov, Ş.Şahməmmədov. Bakı, 1997, s.20.
13. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, 326 s.


***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, Qarabağ, Ermənistan, siyasət, münaqişə*

**Havva Mammadova**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of History, Professor, Dr. in History***

# THE ROLE OF HEYDAR ALIYEV IN DRAWING THE ATTENTION OF THE INTERNATIONAL COMMUNITY TO ARMENIA'S AGGRESSION AGAINST AZERBAIJAN

## ABSTRACT

During the difficult situation of the independent Republic of Azerbaijan in 1991–1993 and the danger of the collapse of the country, our people showed wisdom and returned Heydar Aliyev to power. Since 1993, when Heydar Aliyev led Azerbaijan, the priority direction of Azerbaijan's foreign policy was determined. Heydar Aliyev focused on preventing the aggression of Armenia, promoting our independent state in the world, and increasing its international authority, one of the most important tasks facing Azerbaijani diplomacy. Thanks to his wise policy and political intelligence, Heydar Aliyev saved Azerbaijan from the danger of isolation from the international world, developed an exceptional concept of bringing this conflict to the global level, and found its solution.

***Keywords:*** *Azerbaijan, Heydar Aliyev, Karabakh, Armenia, politics, conflict*

**Хавва Мамедова**

***Профессор кафедры Истории Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор исторических наук***

# РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ДОВЕДЕНИИ ДО МИРОВОЙ ОБЩЕСТВЕННОСТИ АГРЕССИИ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Во время тяжелого положения независимой Азербайджанской Республики в 1991-1993 годах и опасности распада страны наш народ проявил мудрость и вернул Общенационального лидера Гейдара Алиева к власти. С 1993 года, когда Азербайджаном руководил Гейдар Алиев, определилось приоритетные направления внешней политики Азербайджана. Гейдар Алиев сосредоточился на предотвращении агрессии Армении, продвижении нашего независимого государства в мире, повышении его международного авторитета, как одной из важнейших задач, стоящих перед азербайджанской дипломатией. Гейдар Алиев, благодаря своей мудрой политике и политической интеллигентности, спас Азербайджан от опасности изоляции от международного мира, разработав специальную концепцию вывода этого конфликта на мировой уровень и его решения.

***Ключевые слова:*** *Азербайджан, Гейдар Алиев, Карабах, Армения, политика, kонфликт*

UOT 328; 342.5; 351/354

**SEVİL MƏMMƏDOVA**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*"Politologiya və siyasi idarəetmə" kafedrasının professoru,*
*siyasi elmlər doktoru*

*e-mail: smammedova10@rambler.ru*

# HEYDƏR ƏLİYEVİN MÜSTƏQİL DÖVLƏT QURUCULUĞU STRATEGİYASINDA İCTİMAİ-SİYASİ SABİTLİK AMİLİ

## Giriş

İctimai-siyasi sabitlik siyasi prosesin vacib xarakteristikalarından biridir. Müasir dövrdə ictimai-siyasi sabitliyin təmin edilməsi probleminin aktuallığı qloballaşma ilə bağlı dünyada baş verən dəyişikliklərin dinamizmi, informasiya inqilabı ilə müəyyən olunur. İctimai-siyasi sabitlik anlayışı cəmiyyətin durumunu səciyyələndirir, bu durumun xüsusiyyətini əsas sosial və siyasi qüvvələrin ictimai inkişafın məqsədləri və metodlarına dair razılığı təşkil edir. Bir çox ölkələrdə cəmiyyətin sosial strukturunda dəyişikliklər baş verir, əhalinin müxtəlif qrup və təbəqələrinin mövqeləri transformasiya olunur, ayrı-ayrı region və şəhərlərin inkişafında disproporsiyalar yaranır. Demokratiyaya və bazar iqtisadiyyatına tranzit yaşayan əksər dövlətlər, həmçinin keçən əsrin 90-cı illərində müstəqilliklərini qazanmış bir sıra keçmiş sosialist ölkələri, o cümlədən müstəqil Azərbaycan xeyli çətinliklərlə üzləşmişlər.

Belə şəraitdə həmin ölkələrdə cəmiyyətin iqtisadi, sosial, siyasi, mədəni həyatında dəyişikliklərin baş verdiyi dövrdə ictimai-siyasi sabitliyin təmin edilməsi amilləri və mexanizmləri maraq doğurur. Bu baxımdan müstəqilliyinin ilk illərində hakimiyyətsizlik, xaos və dərin böhran vəziyyətini yaşayan, vətəndaş müharibəsi təhlükəsi ilə üzləşmiş Azərbaycanda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmış və xilaskarlıq missiyasını yerinə yetirən Ümummilli Lider Heydər Əliyevin milli dövlət quruculuğu strategiyasında ictimai-siyasi sabitlik amilinin, eləcə də onun layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədə ictimai-siyasi sabitliyin qorunması və möhkəmləndirilməsinə yönələn siyasətinin öyrənilməsi xüsusi əhəmiyyət və aktuallıq kəsb edir.

## Siyasi sabitlik siyasi prosesin başlıca xüsusiyyətlərindən biri kimi

Siyasi sabitlik anlayışının siyasi elmdə indiyə qədər birmənalı tərifi yoxdur. Mövcud təriflərdən göründüyü kimi, siyasi sabitlik meyarları sosial və iqtisadi sabitlik meyarları ilə qarışdırılır. Bəzən siyasi sabitlik bütövlükdə sosial sistemin sabitliyi ilə eyniləşdirilir, bu isə əhəmiyyətli dərəcədə onun çərçivələrini genişləndirir. Problemin öyrənilməsinə bu cür diametrik yanaşmaların olması onun dərin elmi təhlilinin aparılmasına ehtiyacın olduğunu təsdiq edir [20, s.174]. Siyasi sabitlik (lat. stabilis) - cəmiyyətdə mövcud olan bütün siyasi qurumların davamlı fəaliyyətində, hüquqi, siyasi və mənəvi normalara, habelə orada inkişaf etmiş ən vacib sosial ənənələrə riayət edilməsində, münaqişə vəziyyətlərinin dinc həllində özünü göstərən cəmiyyətin siyasi həyatının xarakteristikası, vəziyyətidir. Bütövlükdə bu, həmin ictimai sistemə strukturunu və keyfiyyətini qoruyub saxlayaraq, səmərəli fəaliyyət göstərməsinə və inkişaf etməsinə imkan verir [14].

Siyasi sabitlik mürəkkəb, çoxfaktorlu və çoxölçülü bir hadisə kimi əsas siyasət subyektlərinin qarşılıqlı təsir keyfiyyətinin, hakimiyyət strukturlarının fəaliyyəti səmərəliliyinin ümumiləşdirici, kompleksli və funksional xarakteristikasıdır. Anlayış kimi, «siyasi sabitlik», birincisi, müxtəlif siyasi subyektlər arasında əlaqələr sistemini; ikincisi, siyasi sistemdə siyasi quruculuq proseslərinin məcmusunun strukturunu; üçüncüsü, xarakterik xüsusiyyəti sosial inkişafın məqsəd və metodları ilə bağlı əsas sosial və siyasi qüvvələrin nisbi razılığı olan cəmiyyətin vəziyyətini; dördüncüsü, bütövlükdə cəmiyyətin siyasi həyatını xarakterizə edir [14].

S.Hantinqton göstərir ki, sabitlik modernləşən ölkələrdə siyasi sistemlərin daha vacib, başlıca xarakteristikalarına aiddir, çünki ondan sosial proseslərin idarə edilməsi imkanı asılıdır [19]. Öz növbəsində qeyri-sabitlik siyasi prosesin dinamikasını əks etdirir.

Cəmiyyətin siyasi sabitliyinin təmin edilməsi vətəndaşların və siyasi təşkilatların siyasi fəaliyyətində, xüsusən də özlərinin siyasi maraqlarını müdafiə edən və hakimiyyətdə siyasi iştiraka iddia edən müxalifət (etiraz) hərəkatlarında iştirakının təhlükəsizliyinin hüquqi təminatları sayəsində əldə edilir. Dünyanın bir çox demokratik ölkələrində kataklizmlərə və milli sarsıntılara səbəb olmayan siyasi mübarizədə (və ilk növbədə hakimiyyət uğrunda mübarizədə) əhəmiyyətli təcrübə toplanmışdır. Təhlillərdən göründüyü kimi, müxtəlif ölkələrdə xüsusi sabitləşdirmə proqramları irəli sürülüb və həyata keçirilir.

Təcrübə göstərir ki, siyasi sabitlik siyasi fəallıq səviyyəsindən və xarakterindən, siyasi liderlərin mövqelərindən, onların ümummilli maraqları ifadə etmək və vətəndaşların siyasi iradəsini birləşdirmək bacarığından, öz fəaliyyətini tənqidi təhlil etmək qabiliyyətindən, onlar tərəfindən mənəvi və hüquqi normalara riayət olunmasından asılıdır.

İslahatlar dövründə cəmiyyətin siyasi sabitliyi üçün vacib şərt Konstitusiyanın (Əsas Qanunun) və qanunvericiliyin vəhdəti əsasında əldə olunan hüquqi təminatdır. Cəmiyyətdə mövcud olan qanunlar sistemi yeni şərtlərə və zamanın yeni çağırışlarına uyğun olaraq dəyişdirilməlidir. Konstitusiya normalarının və mövcud qanunvericiliyin vaxtında dəyişdirilməməsi, təkmilləşdirilməsinin gecikməsi siyasi prosesə, siyasi subyektlərin və hakimiyyət qollarının qarşılıqlı əlaqələrinə sabitliyi pozucu təsir göstərir. Sabit demokratik dövlətin mövcudluğunun qeyd-şərtsiz şərti, demokratik norma və dəyərlərə yönəlmiş informasiya institutlarının konstruktiv fəaliyyətidir, bunların sayəsində də vətəndaşlar ən vacib sosial-siyasi biliklərə yiyələnə və cəmiyyətin siyasi həyatı haqqında məlumatlı ola biləcəklər. Siyasi sabitliyin informasiya təminatının inkişaf etmiş mexanizmləri olmadan demokratiyanın müsbət meyillərinin inkişafı problemli olur [18, s.55].

Təhlillər əsasında cəmiyyətin siyasi sabitliyinin göstəricisini onun kənardan mənfi təsirləri (təxribat, beynəlxalq terrorizm, iqtisadi blokada, siyasi təzyiq, şantaj, dezinformasiya, güc tətbiq etmək təhlükəsi və s.) zərərsizləşdirmək qabiliyyəti kimi izah etmək olar. Bu cür mənfi təsirlər siyasi sistemi həddindən artıq qeyri-sabitlik vəziyyətinə gətirə bilər və hətta onu məhv edə bilər. Bu baxımdan, mövcud quruluşun həm tərəfdarları, həm də əleyhdarları tərəfindən vətəndaş müharibəsinin və ya genişmiqyaslı siyasi zorakı hərəkətlərin başlanması xüsusilə təhlükəlidir. Buna görə dövlət tərəfindən özünün suverenliyinə, sosial maraqlarına və vətəndaşlarının təhlükəsizliyinə təhdidlərə adekvat reaksiyanın verilməsi çox vacibdir. Bu zaman siyasi sabitliyə nail olunmasında çoxsaylı forma və metodlardan istifadə olunur və dünya təcrübəsi göstərir ki, bu prosesdə başlıca subyekt kmi dövlət və onun institutları çıxış edir. Odur ki, müvafiq optimal institusuonal sistemin mövcud olması və onun səmərəli işləməsi siyasi sabitliyin təmin edilməsində mühüm amildir.

### Heydər Əliyevin xilaskarlıq missiyası və ölkədə ictimai-siyasi sabitliyin yaradılması

Bu gün ölkəmiz dünyaşöhrətli siyasətçi, Ümummilli Lider Heydər Əliyevin müdrik və düşünülmüş siyasəti sayəsində nail olunmuş, onun layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl siyasət nəticəsində qorunaraq möhkəmləndirilmiş ictimai-siyasi sabitlik şəraitində yaşayır. Məlum olduğu kimi, keçən əsrin 90-cı illərinin əvvəllərində, xüsusilə də 1993-cü ilin may-iyun aylarında Azərbaycanda böhran, hakimiyyətsizlik, xaos ilə səciyyələnən qeyri-sabit ictimai-siyasi vəziyyət şəraitində vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yaranmışdı. Belə bir ağır vəziyyətlə üzləşmiş Azərbaycan xalqı ölkədə daxili ictimai-siyasi durumun nə dərəcədə mürəkkəb olduğunu düzgün qiymətləndirərək özünün Ümummilli Lideri, zəngin təcrübəyə malik olan dünyaşöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin hakimiyyətə yenidən qayıtmasını tələb etdi. Ümumxalq hərəkatına çevrilən xalqın bu iradəsi və istəyi ilə dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanın ziddiyyətli, parçalanmaq təhlükəsi altında olduğu bu dövründə yenidən rəhbərliyə qayıtdı. Faktiki olaraq 1991-ci ildə müstəqilliyini bəyan edən Azərbaycan Respublikası real suverenliyinə 1993-cü ildə nail oldu. Məhz Heydər Əliyevin müdrik siyasəti və xalqın ona olan etimadı əsasında bu təhlükənin qarşısı alındı. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli ilə hakimiyyətə qayıdışından sonra hədəfinə çevrildiyimiz bu ağır problemlər öz həllini tapmağa başladı. Nəhayət, iyunun 15-də Heydər Əliyev Ali Sovetin sədri seçildi. Xalqın iradəsinin qələbəsi olan bu hadisə 15 iyun – Milli Qurtuluş Günü kimi yaddaşlara həkk olundu [11, s. 6].

Bu gün dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir [2]. Ulu Öndərimizin xilaskarlıq missiyasına böyük əhəmiyyət verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev göstərirdi: “Məhz Heydər Əliyev 1993-cü ildə vətəndaş müharibəsini dayandırdı və ölkəmizi inkişaf yoluna çıxartdı. Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi, islahatlar, inkişaf – bütün bunlar onun adı ilə bağlıdır və biz fəxr edirik ki, onun işini davam etdiririk” [8].

Ümummilli Liderimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra özünün milli inkişaf strategiyasını işləməli idi. Heydər Əliyev ondan çıxış edirdi ki, siyasi sabitlik olmadan cəmiyyətin digər problemlərinin həlli mümkün olmaz. Buna görə də Ümummilli Lider Heydər Əliyev ilk növbədə ölkədə ictimai-siyasi sabitliyin yaradılmasına böyük əhəmiyyət verirdi. Həmin dövrdə Azərbaycan üçün ictimai-siyasi sabitlik cəmiyyətdə sosial gərginliyin azaldılması, iqtisadi və siyasi islahatların həyata keçirilməsi, bu istiqamətdə milli razılığın əldə edilməsi və hakimiyyətin legitimliyinin bərpa edilməsi demək idi. Yalnız hərtərəfli sabit şəraitdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi mümkün idi.

Ulu Öndərimiz özünün çıxış və nitqlərində sabitliyin müstəqil dövlətin qurulması və inkişafı üçün zəruri şərt olduğunu dəfələrlə göstərmişdir. Belə ki, məsələn, bununla əlaqədar 05 iyul 1993-cü il tarixində Heydər Əliyev “Ostankino” dövlətlərarası televiziya şirkətinə müsahibə verərkən, müxbirin “...vəziyyəti müəyyən dərəcədə sabitləşdirmək üçün Azərbaycanda hansı tədbirləri görmək lazımdır?” sualına cavab olaraq vurğulamışdır: “Biz gərək başlıcası milli barışığa, bütün siyasi qüvvələrin sıx birliyinə nail olaq, qarşıdurma amilini, vətəndaş müharibəsinin baş verməsi imkanını tamamilə aradan qaldıraq... ictimai-siyasi vəziyyəti sabitləşdirmək üçün səylərimizi də birləşdirməliyik. Təbiidir ki, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinə müdaxilə ilə bağlı məsələləri də həll etmək gərəkdir” [5, s.21].

Daxili ictimai-siyasi sabitliyin təmin edilməsi zəruriliyini Heydər Əliyev 2 noyabr 1993-cü il tarixində də Ermənistan silahli qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı milli televiziya və radio ilə xalqa müraciətində göstərmişdir: "Əgər son iki il ərzində, Azərbaycanın müstəqil dövlət olduğu dövrdə respublikanı etibarlı müdafiə etmək üçün lazımi silahlı qüvvələr yaransaydı, daxili sabitlik olsaydı və bütün qüvvələr torpaqlarımızı qorumağa, ərazi bütövlüyümüzü təmin etməyə yönəldilsəydi, indi bu günə düşməzdik" [4]. Ulu Öndər Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə 17 noyabr 1993-cü il tarixində görüşündəki çıxışında da daxili sabitliyin olmamasının məğlubiyyətlərimizin səbəblərindən biri olduğunu diqqətə çatdırır [3].

Bundan sonra da Ulu Öndərimiz bu məsələyə xüsusi diqqət ayıraraq ictimai-siyasi sabitliyin yaradılması üçün təsirli tədbirlər görmüşdür. Onun yorulmaz fəaliyyəti nəticəsində ilk növbədə qayda-qanunun bərpası, qanunsuz silahlı birləşmələrin fəaliyyətinin aradan qaldırılması, cəbhə bölgəsində müvəqqəti atəşkəsin əldə olunması əsasında artıq 1994-cü ilin ortalarında ölkədə ictimai-siyasi sabitlik yaradıldı. Lakin bu prosesin özü də hamar yol ilə getmədi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında Azərbaycanın müstəqilliyini istəməyən xarici qüvvələrin himayəsi ilə respublikamızda dövlət çevrilişlərinə cəhdlər edildi. Prezident Heydər Əliyevlə xalqın sarsılmaz birliyi Azərbaycanın bu sınaqlardan da uğurlu çıxmasını təmin etdi.

Beləliklə də, xalqımız özünün Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə bütün bu çətin mərhələləri keçmiş, respublikamızın müstəqilliyi qorunub saxlanılmışdır. Ən böyük nailiyyət ondan ibarət olmuşdur ki, həmin vaxtdan ölkədə əmin-amanlığın, qanunçuluğun bərpa olunması istiqamətində uğurlu addımlar atılmış, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə birdəfəlik son qoyularaq, Azərbaycanda daxili ictimai-siyasi sabitlik yaradılmışdır.

Ölkənin, dövlətin inkişafını ilk növbədə vətəndaşa xidmətdə görən Ulu Öndərimiz Heydər Əliyevin qeyd etdiyi kimi, ölkədə yaradılmış bu sabitlik hər bir vətəndaş üçün, onun hüquqlarının qorunması üçün olduqca lazım idi. Digər tərəfdən, bu sabitlik Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin həyata keçirilməsinin təmin edilməsi üçün əsas şərt idi. Heydər Əliyev ölkədə yaradılmış sabitliyin əhəmiyyətini açıb göstərirdi:" ... son illər Azərbaycanın çətin şəraitdə çox əhəmiyyətli nailiyyətləri vardır. Birinci nailiyyət ondan ibarətdir və bu, ən böyük nailiyyətimizdir ki, biz xalqımızı bu bəlalardan, cürbəcür daxili dövlət çevrilişi cəhdlərindən xilas etdik və Azərbaycanda daxili ictimai-siyasi sabitlik yaratdıq. Bu sabitlik Azərbaycanın hər bir vətəndaşı üçün lazımdır. Bu sabitlik hər bir vətəndaşın hüquqlarının qorunmasını təmin edir. Bu sabitlik Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin həyata keçirilməsinin təmin olunması üçün şərtdir. Bu sabitlik Azərbaycanda siyasi, iqtisadi islahatların həyata keçirilməsi üçün çox vacib bir vasitədir" [6].

Bunların ən böyük nailiyyətimiz olduğunu göstərən Heydər Əliyev xalqın birliyi və Azərbaycan dövlətinin düzgün siyasəti ilə bu sabitliyin bundan sonra daha da möhkəmləndiriləcəyinə, qorunaraq saxlanılacağına əminlik bildirmişdir. Yaradılmış ictimai-siyasi sabitlik şəraitində 1995-ci ildə demokratik, müstəqil dövlət kimi Azərbaycanın ilk demokratik Konstitusiyası – Əsas Qanunu ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş, 1995-ci ilin noyabrında çoxpartiyalı sistem əsasında demokratik, sərbəst seçkilər vasitəsilə Azərbaycanın ilk parlamenti seçilmişdir. Beləliklə də, Ulu Öndərimiz Heydər Əliyevin qeyd etdiyi kimi, "Azərbaycanın xalq tərəfindən seçilmiş hakimiyyəti, xalq tərəfindən bəyənilmiş və təsdiq olunmuş Konstitusiyası, xalq tərəfindən seçilmiş parlamenti, xalq tərəfindən seçilmiş Prezidenti vardır" [6].

Ölkədə ictimai-siyasi sabitliyin yaradılması və inkişafı amillərindən biri kimi azərbaycançılıq ideyası çıxış edirdi. Heydər Əliyev dühasının səyi ilə azərbaycançılıq mahiyyətcə real məzmun daşıyaraq praktikada reallaşmaq

imkanları qazandı. Heydər Əliyevin azərbaycançılıq ideyası və onun məzmununa daxil edilmiş əsas prinsiplər 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapdı. Azərbaycançılıq artıq hansısa siyasi partiyanın, sosial qrupun, yaxud təşkilatın deyil, bütün xalqın ümumi marağının ifadəsinə çevrildi [10, s.2].

Heydər Əliyev azərbaycançılığı real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün çox mühüm vasitə hesab edirdi. Onun baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri zənginləşdirmək, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Bu baxımdan xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir [13].

Əldə olunmuş ictimai-siyasi sabitlik şəraitində daxili siyasi sabitliyin əsas subyektləri olan cəmiyyət və onun idarə edilməsi funksiyasını yerinə yetirən dövlət arasında qarşılıqlı münasibətlər keyfiyyətcə yeni xarakter almışdır. Məhz həmin subyektlərin bir-biri ilə yeni xarakterli qarşılıqlı təsir və münasibətləri ölkədə hakimiyyətin legitimliyi vasitəsilə siyasi sabitlliyi şərtləndirmişdir. Legitimliyin əsas mənbəyini isə bu şəraitdə siyasi liderlik təşkil etmiş, xalqımız onun iradəsi ilə hakimiyyətə qayıtmış müdrik Lider Heydər Əliyevin ətrafında gələcəyə inamla birləşmişdir.

Bu illərin ən böyük nəticələrindən biri ondan ibarət olmuşdur ki, bu mərhələdə yaradılmış sabit siyasi durum şəraitində Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyənləşdirilmiş, ölkədə demokratik, hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsinə imkanlar yaranmışdır. Bununla bağlı olaraq Heydər Əliyev vurğulayırdı: "...bu, bizim ən böyük nailiyyətimizdir. Mən əminəm ki, biz xalqın birliyi və Azərbaycan dövlətinin, hökumətinin düzgün siyasəti ilə bu sabitliyi bundan sonra daha da möhkəmləndirəcəyik, qoruyacağıq və saxlayacağıq" [6].

Dünya təcrübəsi göstərir ki, siyasi sabitliyin əsasında duran vacib amil hakimiyyət bölgüsüdür. Bir çox dövlətlərin təcrübəsi göstərir ki, ayrılmış hakimiyyətin qolları (qanunverici, icraedici və məhkəmə) ölkədə siyasi sabitliyin təmin olunmasında qarşılıqlı əlaqədə olmaqla bir-birini tamamlamalıdır. Bu baxımdan Amerika siyasi təsisatlarının ölkədə sabitliyin təmin edilməsində xidmətləri olduqca böyükdür. Unikal Konstitusiya strukturu – güclü Konqress və güclü Prezident kombinasiyası ABŞ siyasi sisteminin sabitliyinə xeyli təsir edir. Ümumiyyətlə, ABŞ konstitusiyasının yaradıcıları siyasi sabitlik məsələsinə daim diqqətlə yanaşmışlar. Məsələn, C.Medison "idarəçilikdə sabitliyin milli xarakterdə ən vacib olduğunu" qeyd edirdi. Tədqiqatçıların fikrincə, ABŞ prezident sisteminin sabitliyi bu sistemin özəyini təşkil edən unikal qanunverici strukturu və güclü milli hökumətin olması ilə şərtlənir.

Azərbaycan Respublikasında da Konstitusiyanın 7-ci maddəsinə görə dövlət hakimiyyəti hakimiyyət bölgüsü prinsipi əsasında təşkil olunur. Bizim fikrimizcə, qanunverici və icra hakimiyyətlərinin Konstitusiyada təsbit olunmuş səlahiyyətləri və qarşılıqlı münasibətlər mexanizmi, Respublikada siyasi sabitliyin qorunub saxlanılmasına müsbət təsir göstərir [1]. Ölkədəki mövcud sosial-siyasi proseslərin təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, Azərbaycan Respublikasında da siyasi sabitliyin yaradılması və qorunub saxlanılmasında güclü Prezident amili böyük rol oynayır.

Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə (27 may 1998-ci il) Azərbaycan Prezidenti Heydər Əliyev özünün nitqində göstərirdi: "Biz Azərbaycanda daxili vəziyyəti sabitləşdirərək doğru-düzgün, düşünülmüş xarici və daxili siyasəti müəyyən etmişik və onların həyata keçirilməsini təmin edirik" [6]. Beləliklə, buradan da göründüyü kimi, ölkədə

ictimai-siyasi sabitliyin yaradılması və qorunub saxlanılması Ümummilli Lider Heydər Əliyevin müstəqil dövlət quruculuğu strategiyasında vacib amil kimi dəyərləndirilmişdir. Onun təməlində isə Ulu Öndərimizin müəyyənləşdirdiyi və müvəffəqiyyətlə həyata keçirdiyi daxili və xarici siyasəti dayanırdı.

**İctimai-siyasi sabitlik şəraitində Heydər Əliyevin daxili və xarici siyasət istiqamətləri**

Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərin qorunub saxlanılması Ümummilli Lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Onun müdrik siyasəti sayəsində artıq ölkədə yaranmış ictimai-siyasi sabitlik 1995-ci ilin əvvəllərində milli inkişaf strategiyasının işlənilməsinə və perspektivlərin müəyyən edilməsinə imkan verdi.

Mətni Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkədə demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun hüquqi əsaslarını yaratmışdır [1]. Bu da Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətlərindəndir.

Öz məzmununa görə müddəaları demokratik xarakter daşıyan Azərbaycan Respublikasının Konstitusiyası hakimiyyətin 3 qola bölünməsi kimi demokratik prinsipi təsbit edir və onun həyata keçirilməsi mexanizmini müəyyən edir. Konstitusiyada hakimiyyətin bölünməsi prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müasir dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir [10, s.2].

Məlum olduğu kimi, insan hüquq və azadlıqlarının müdafiəsi məsələsi hər zaman Ulu Öndərin diqqət mərkəzində olmuşdur. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Konstitusiyasının maddələrinin üçdə biri məhz insan və vətəndaş hüquq və azadlıqlarına, onların müdafiə mexanizmlərinə həsr edilmişdir [1]. Dövlətimizin Konstitusiyasında insan hüquqlarına aid bütün maddələrin əks olunması və onlardan irəli gələn vəzifələri həyata keçirmək üçün yeni qanunların qəbul edilməsi Azərbaycanda insan hüquqlarının qorunmasının daim dövlət nəzarətində olmasının əyani sübutudur. Azərbaycan Prezidenti Heydər Əliyevin "İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 1998-ci il 22 fevral tarixli Fərmanı, eləcə də Heydər Əliyev tərəfindən 1998-ci il iyunun 18-də təsdiq olunmuş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" ölkəmizdə demokratiyanın inkişaf etdirilməsinə daha geniş imkanlar yaratmış, insan hüquqları sahəsində görüləcək işlərin istiqamətini müəyyən edərək, onu dövlət siyasəti səviyyəsinə qaldırmışdır. İnsan hüquqlarının səmərəli müdafiəsi sahəsində atılan mühüm addımlar sırasında ölkəmizdə ilk dəfə konstitusiya nəzarəti orqanı olan Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, həmçinin İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) təsisatının yaradılmasını vurğulamaq olar.

Bir vacib amil kimi də Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə uğurla reallaşan demokratikləşmə prosesinin gedişində milli birliyə nail olunmasını göstərmək lazımdır. Şübhəsiz ki, həmin vaxt həyata keçirilən bütün bu proseslərin kökündə dahi şəxsiyyət Heydər Əkiyev tərəfindən əsası qoyulmuş milli birlik və həmrəylik konsepsiyası dayanırdı. Bu məsələ ilə bağlı Azərbaycan cəmiyyətində qütbləşmə, radikallaşma olmamışdır. Xüsusilə liberallaşma dövründə siyasi və iqtisadi dəyişikliklər qarşılıqlı şəkildə bir-birini şərtləndirmiş və tamamlamışdır. Buna görə də bu möhkəm özül əsasında ölkəmizdə şəxsiyyətin azadlığı və toxunulmazlığı, habelə onların hüquqi müdafiəsi qorunmuş, çoxpartiyalı sistem üçün əsaslar yaradılmış, siyasi plüralizm, vicdan və etiqad azadlığı, azlıqların hüquqları, qanun qarşısında bərabərlik təmin edilmişdir.

Konstitusiya Məhkəməsi, üçpilləli məhkəmə sistemi yaradılmış, məhkəmələrin müstəqilliyi və prosedur qaydalarının şəffaflaşması təmin edilmiş, on minlərlə insan amnistiya edilmiş və böyük sayda məhkum bağışlanmış, senzura ləğv edilmiş, KİV-in azadlığı və QHT-lərin sərbəst fəaliyyəti təmin edilmişdir [12].

Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunması ilə ölkədə çoxpartiyalılığın formalaşmasında da yeni mərhələ başlamış, Konstitusiyanın "Birləşmək hüququ" adlanan 58-ci maddəsinin təsbit olunması xüsusi əhəmiyyət kəsb etmişdir. Demokratik cəmiyyətlərdə siyasi partiyalarla dialoq mütləq bir şərtdir. Azərbaycanda hələ Ümummilli Lider Heydər Əliyevin dövründən başlayaraq siyasi dialoq təşəbbüsləri gündəmdə olub, hakimiyyət həmişə konstruktiv müxalifətlə əməkdaşlıq edib, onları dinləyibdir ki, bu da Heydər Əliyevin ölkədə yaratdığı sağlam siyasi iqlimindən xəbər verirdi. Milli həmrəyliyə və sağlam siyasi münasibətlərə xidmət edən siyasi dialoq Azərbaycanda demokratiyanın inkişafında, siyasi, iqtisadi azadlıqların qorunmasında, ölkəmizin möhkəmlənməsində mühüm rol oynayır. Bu mərhələdə çoxpartiyalılığın inkişaf prosesi çərçivəsində siyasi partiyaların seçkilərdə iştirak mexanizmi təkmilləşdirilmişdir. Bu mexanizm prezident, parlament və bələdiyyə seçkiləri haqqında qanunlarda, daha sonra 2003-cü ilin yayında beynəlxalq standartlara uyğun qəbul edilmiş Seçki Məcəlləsində öz əksini tapmışdır

Siyasi partiyaların siyasi sistemdə tutduqları yer və oynadıqları rol, eləcə partiya sisteminin inkişafı baxımından xüsusi olaraq Ulu Öndərimizin sədrliyi ilə 1992-ci il noyabr ayının 21-də Naxçıvanda yaradılmış və öz fəaliyyətini ölkə Prezidenti İlham Əliyevin sədrliyi ilə uğurla davam etdirən Yeni Azərbaycan Partiyasını göstərmək lazımdır. YAP ən geniş sosial bazaya malik olan və dinamik inkişaf edən siyasi partiya olaraq ölkəmizdə çoxpartiyalı sistemin inkişafına öz töhfəsini verir.

Heydər Əliyevin müstəqil Azərbaycanda demokratik dövlət quruculuğu siyasətində vətəndaş cəmiyyətinin, onun institutlarının formalaşması başlıca vəzifələrdən biri kimi qarşıya qoyulmuşdur. Müstəqilliyin ilk illərində səriştəsiz rəhbərlik səbəbindən yaranmış hərc-mərclik, hakimiyyətsizlik, xaos və separatizm meyillərinin artdığı bir şəraitdə bu məsələlər dövlət səviyyəsində özünün həllini tapa bilməmişdir. Bu proses yalnız Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra məqsədyönlü xarakter almış və bu sahədə ardıcıl dövlət siyasəti 1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunmasından sonra həyata keçirilmişdir. Belə ki, Konstitusiyanın preambulasında Azərbaycan xalqı öz niyyətləri sırasında məhz vətəndaş cəmiyyətinin qurulmasını da müəyyən etmişdir [1]. Buna müvafiq olaraq, ilk növbədə qeyd etmək lazımdır ki, Konstitusiyada təsbit olunmuş insan – vətəndaş hüquq və azadlıqları sistemi, həmçinin bu hüquq və azadlıqlara dövlət təminatı verən müddəalar təsbit olunmuşdur ki, bu da ölkədə vətəndaş cəmiyyətinin formalaşmasında mühüm rol oynamışdır.

Konstitusiyaya müvafiq olaraq Heydər Əliyevin uğurla reallaşdırdığı demokratik və hüquqi islahatlar nəticəsində ölkədə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesləri bir-birini tamamlayaraq, bu sahədə bundan sonrakı fəaliyyətin təməlini təşkil edən müsbət təcrübə əldə olunmuşdur. Həmin dövrdə Azərbaycanda qeyri-hökumət təşkilatları şəbəkəsinin – üçüncü sektorun formalaşması, onların ölkəmizdə Ulu Öndərin rəhbərliyi altında uğurla reallaşan demokratik proseslərə qoşulması, 1999-cu ildə Milli Qeyri-Hökumət Təşkilatları Forumunun təsis olunması, 2000-ci ildə "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Qanunun qəbul edilməsi üçüncü sektorun fəallaşmasını xeyli dərəcədə şərtləndirmişdir.

Beləliklə, Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi altında müstəqil Azərbaycan qısa zamanda demokratik inkişaf və hüquqi dövlət quruculuğu yolunda ciddi uğurlar qazanmışdır.

Siyasi transformasiyanın uğurlu olmasının vacib şərtlərindən birini onun reallaşmasında dövlət və cəmiyyətin strateji resursu sayılan

gənclərin potensialından səmərəli istifadə olunması təşkil edir. Tədqiqatçılar, o cümlədən M.S.Proşin cəmiyyətdə gənclərin heç bir digər sosial-demoqrafik qrupların yerinə yetirmədikləri xüsusi funksiyalara malik olduqlarını göstərir [17]. Ulu Öndərimiz özünün milli inkişaf konsepsiyasında məhz bunlardan çıxış edərək, həmçinin gənclərin müstəqil dövlət quruculuğu prosesinə fəal cəlb olunmasını ölkədə ictimai-siyasi sabitliyin yaradılması və qorunub saxlanılmasında mühüm amil kimi dəyərləndirirdi. Odur ki, Heydər Əliyev ağır bir vaxtda hakimiyyətə qayıtdıqdan sonra gənclərin ölkənin əsas strateji resursu və insan kapitalının daha dəyərli hissəsi olduğunu nəzərə alaraq, onların cəmiyyətdə yeri, hüquq və maraqlarının müdafiəsi, eləcə də təşkilatlanması, təhsilinin təşkili, o cümlədən gənclərimizin xarici ölkələrə təhsil almağa göndərilməsi məsələlərinə xüsusi diqqət yetirdi və həmin dövrdən də dövlətin gənclər siyasətinin həyata keçirilməsinə başlanıldı.

Bu baxımdan 1994-cü ildə Prezident Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması və onun üzərinə dövlət gənclər siyasətinin həyata keçirilməsinin qoyulması əhəmiyyətli olmuşdur. Bununla bağlı qanunvericilik bazası yaradılmış, bir sıra dovlət proqramları qəbul olunaraq müvəffəqiyyətlə yerinə yetirilmişdir. Ulu Öndər Heydər Əliyev 2 fevral 1996-cı il tarixində ölkəmizdə onun təşəbbüsü ilə keçirilən Gənclərin Birinci Forumunda bilavasitə iştirak edərək, gənclər qarşısında mühüm tarixi vəzifələr qoymuş, onların vətənpərvərlik ruhunda, mənəviyyatca zəngin formalaşmasına, hərtərəfli inkişafı və ölkə həyatında fəal iştirakı üçün mühüm zəmin yaratmışdır. Prezidentin 2 fevral 1997-ci il tarixli Sərəncamı əsasında 2 fevral tarixinin Azərbaycan Gəncləri Günü elan olunması xüsusi əhəmiyyət kəsb etməklə, Ümummilli Liderin gənclərimizə ən böyük hədiyyəsi olmuşdur.

Siyasi sabitliyi şərtləndirən daimi amillər sırasında xalqın rifahının yüksək səviyyəsinin təmin edilməsinə yönələn iqtisadi amillər xüsusi yer tutur. Məhz respublikanın iqtisadi inkişafı, əhalinin rifah halının yaxşılaşdırılması məsələləri, iqtisadiyyatın tənzimlənməsi sahəsində islahatların həyata keçirilməsi Azərbaycan Prezidenti kimi Heydər Əliyevin həmişə diqqət mərkəzində olmuşdur. Ümummilli Liderin hakimiyyətə qayıdışı ilə ölkəmiz təbii ehtiyatlarına, insan potensialına və digər şərtlərə əsaslanan milli iqtisadiyyatını formalaşdırdı. Bu dövrdə başlıca vəzifələrdən biri də müstəqil ölkənin neft sənayesinə xarici neft kompaniyalarını cəlb etmək və yeni nəql marşrutlarını yaratmaqdan ibarət idi. Bu baxımdan 1994-cü ilin sentyabrında "Əsrin Müqaviləsi"-nin imzalanması Heydər Əliyevin Azərbaycan xalqı, bugünkü və gələcək nəsillər qarşısında tarixi xidmətlərindən biridir. Bu müqavilənin imzalanmasından bir qədər sonra isə Xəzərin digər karbohidrogen yataqlarının işlənilməsi ilə əlaqədar 30-dan çox saziş imzalanmış, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyulmuşdur.

“Əsrin müqaviləsi”nin imzalanması ölkə iqtisadiyyatında dönüş yaratdı. Heydər Əliyevin müdrikcəsinə düşünülmüş neft strategiyası nəticəsində Azərbaycan regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticari əlaqələrin genişləndirilməsində, bir sıra nəhəng layihələrin həyata keçirilməsində mühüm rol oynayan bir dövlətə, dünyanın neft mərkəzlərindən birinə çevrildi.

Göründüyü kimi, 1993-cü ildən etibarən Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində 1995-ci ildən başlayaraq ölkəmizin sosial-iqtisadi inkişafı və dünya iqtisadi sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlərə imza atıldı. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarilə yeni bir modeli – Azərbaycan modeli yaradıldı. Bu model 3 mühüm parametrlə xarakterizə olunur: 1) sərbəst bazar münasibətlərinə əsaslanan və özünü-inkişaf qabiliyyətinə malik olan sosialyönümlü bütöv iqtisadi sistemin-müstəqil milli iqtisadiyyatın formalaşdırılması; 2) ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat döv-

riyyəsinə cəlb olunması; 3) milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin olunması [12, s.3]. Xüsusilə qeyd etmək lazımdır ki, Heydər Əliyev özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirdi, bu sahədə mövcud problemlərin həlli yollarını elmi-nəzəri və praktiki əsasda göstərdi. Azərbaycanın yeni neft strategiyasının hazırlanaraq həyata keçirilməsi də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biridir [11, s.5]. Beləliklə də, Heydər Əliyev ölkəmizdə yaratdığı ictimai-siyasi sabitlik şəraitində həmçinin Azərbaycanın iqtisadi müstəqilliyinin əsasını qoydu.

İctimai-siyasi sabitliyə sosial amil xüsusi təsir göstərir. Müstəqilliyin ilk illərində deklarativ xarakterli sosial siyasət həyata keçirilmişdir. Yalnız Ulu Öndərimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra onun rəhbərliyi ilə mükəmməl və dünya standartlarına cavab verən hüquqi bazaya söykənən sosial siyasətin həyata keçirilməsinə başlanmışdır. Ölkəmizdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində bir milyon qaçqın və məcburi köçkünlərin ağır vəziyyətdə yaşaması da bu sahəyə daim böyük diqqətin ayrılmasını tələb edirdi. Məhz bundan çıxış edən Ümummilli Liderimizin rəhbərliyi ilə ölkə iqtisadiyyatının tənəzzüldən çıxmasından və daxili ictimai-siyasi sabitliyin yaradılmasından sonra sosial sahədə təsirli tədbirlər görüldü, ünvanlı sosial siyasət həyata keçirildi, onun qanunvericilik bazası formalaşdırıldı.

Göründüyü kimi, Ümummilli Lider Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində keçən əsrin 90-cı illərində Azərbaycan milli, regional və qlobal maraqları uzlaşdıran sosial-iqtisadi inkişaf strategiyasını formalaşdıra və reallaşdıra bildi. Bu strategiya həm müstəqil demokratik dövlət quruculuğunun uğurla həyata keçirilməsi, həm Azərbaycanın Cənubi Qafqazın aparıcı dövlətinə, həm də regional liderə çevrilməsi üçün imkan yaratdı. Bu uğurun təməlində dövlət quruculuğu ilə yeni cəmiyyətin formalaşdırılmasının vəhdət təşkil etməsi dururdu. Həmin aspektdə əvvəlcə cəmiyyətdə sabitliyin yaradılması, sonra isə davamlı sosial-iqtisadi inkişaf xəttinə çıxılması mərkəzi yer tuturdu. Təcrübə göstərdi ki, Azərbaycan Cənubi Qafqazda bu modeli ən yaxşı şəkildə reallaşdıran lider-dövlətdir. Beləliklə, bir tərəfdən, ölkədə yaradılmış ictimai-siyasi sabitlik iqtisadi islahatların həyata keçirilməsi üçün vacib bir vasitədir, digər tərəfdən isə, iqtisadi inkişaf siyasi sabitliyin daha da möhkəmləndirilməsini şərtləndirən vacib amillərdən biridir.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin milli inkişaf strategiyasında nəzərdə tutulan və ardıcıl həyata keçirilən tədbirlər həmçinin elmi-intellektual tərəqqiyə, dövrün tələbi ilə uzlaşan elm və təhsil islahatlarının həyata keçirilməsinə, insan kapitalının formalaşmasına, elmtutumlu texnologiyaların inkişafına yönəlmişdir.

Təcrübə göstərir ki, ölkənin sabit inkişaf templərinə rüşvət və korrupsiya hallarına qarşı mübarizə əhəmiyyətli dərəcədə öz təsirini göstərir. Ümumi şəkildə korrupsiya dövlət hakimiyyətindən şəxsi mənfəət üçün sui-istifadə kimi izah edilir. Y.A.Lazarevin fikrincə, korrupsiya və qeyri-sabitlik arasında əlaqə var və bu əlaqə ondan ibarətdir ki, nə qədər ölkədə qeyri-sabitliyin səviyyəsi yüksək olarsa, o qədər də korrupsiyanın səviyyəsi yüksək olar [15, s.51]. Müdrik siyasətçi Heydər Əliyev bu nöqteyi-nəzərdən yanaşaraq hələ sovet dövründə Respublikamıza rəhbərlik etdiyi vaxtda SSRİ məkanında ilk olaraq Azərbaycanda korrupsiya və rüşvətxorluğa qarşı mübarizəyə başlanılmış, bu istiqamətdə cəsarətli tədbirlər həyata keçirilmişdir. Müstəqillik dövründə Ulu Öndər 1993-cü ilin yayında yenidən hakimiyyətə qayıtdıqdan sonra da bu sahədə Azərbaycanda qətiyyətli işlər aparılmış, bu mübarizənin istiqamətləri 9 avqust 1994-cü il tarixli Prezident Fərmanı ilə müəyyən edilmişdir. Heydər Əliyev tərəfindən 8 iyun 2000-ci il tarixində "Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi haqqında" Fərmanın imzalanması ilə ölkəmizdə bu sahədə yeni mərhələ başlamışdır [7].

Heydər Əliyevin xarici siyasətində dünyanın aparıcı dövlətləri ilə və nüfuzlu beynəlxalq təşkilatlarla yüksək səviyyəli əlaqələrin qurulması və bu münasibətlərdən dövlətimizin maraqlarına uyğun faydalanması mühüm istiqamətlərdən biridir. Heydər Əliyev ilk növbədə keçmiş hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı. Bunun üçün ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Eyni zamanda xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, keçmiş Sovet respublikaları, o cümlədən Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə ilə, müsəlman dünyası ölkələri ilə, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrinin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirildi. Təbii ki, ilk növbədə, yaxın xariclə münasibətləri qaydaya salmaq və 1993-cü il sentyabrın 20-də Azərbaycanın Müstəqil Dövlətlər Birliyinə daxil olması bu yöndə atılmış ilk addımlardan biri idi [31].

Azərbaycan və Türkiyə münasibətlərinin dərin köklərə malik olmasını nəzərə alan Ulu Öndər Heydər Əliyev 1994-cü ilin fevralında Türkiyəyə səfər etdi və onun apardığı siyasətdə Türkiyə ilə münasibətlər "Bir millət, iki dövlət" prinsipinə əsaslanırdı. Azərbaycanın ilk səfirliyinin də məhz Türkiyədə açılması, 1991-ci il dekabrın 25-də Türkiyə ilə Naxçıvan arasında Araz çayı üzərində Ümid körpüsünün salınması, "Əsrin müqaviləsi"-nin imzalanması, Bakı-Tbilisi-Ceyhan, TRASEKA kimi böyük layihələrin imzalanması Azərbaycan və Türkiyə münasibətlərinin uğurla inkişaf etdiyini göstərirdi.

Ulu Öndərimiz Heydər Əliyevin xarici siyasətində Azərbaycan üçün qərəzli yaradılmış Qarabağ probleminin həlli ən mühüm yer tuturdu. Bu istiqamətdə Prezident Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin əsas məzmununu münaqişənin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizama salınması təşkil edirdi. Vaxtilə dünya siyasətindən demək olar ki, təcrid olunmuş, informasiya blokadasında sıxılan, ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "Azadlığı dəstək aktı"na 907-ci düzəliş" deyilən ədalətsiz sənədlə ayrı-seçkiliyə məruz qalan Azərbaycan yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünya dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi. Azərbaycana, onun problemlərinə münasibətdəki təkamül prosesi özünü ATƏT-in Budapeşt, Lissabon və İstanbul sammitlərində açıq şəkildə büruzə verdi [31].

Zəngin təbii resursları ilə yanaşı həm də strateji vəziyyəti Azərbaycanın dünyada mövqeyini daha da artırdı. Heydər Əliyev bilirdi ki, Azərbaycanın xarici ticarətini inkişaf etdirmək üçün qədim ipək yolunun bərpası ən vacib məsələlərdən biridir. Heydər Əliyevin təşəbbüsü ilə 7-8 sentyabr 1998-ci il tarixlərində Bakı şəhərində 9 ölkənin dövlət başçısı (Azərbaycan, Bolqarıstan, Gürcüstan, Qırğızıstan, Moldova, Ruminiya, Türkiyə, Özbəkistan, Ukrayna), 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə Tarixi ipək yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilmiş, Avropa İttifaqının TRASEKA proqramının əsasında "Avropa–Qafqaz–Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmış və Bakı Bəyannaməsi qəbul edilmişdir. Əsas Çoxtərəfli Sazişin müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınıb və 2001-ci il fevralın 21-də rəsmi açılışı olub. Beləliklə, Azərbaycan tarixi İpək Yolunun bərpa edilməsinə öz töhfəsini verməklə, əsas inkişaf trayektoriyalarının müəyyənləşdirilməsində mühüm rol oynayıb [21].

Heydər Əliyevin uğurla həyata keçirdiyi xarici siyasət fəaliyyətində Azərbaycanın dünyanın

nüfuzlu beynəlxalq və regional təşkilatları ilə münasibətlərinin qurulması və mövqeyinin dünya arenasında möhkəmləndirilməsi xüsusi yer tuturdu. Belə ki, Azərbaycan Heydər Əliyevin diplomatik səyləri sayəsində bir çox nüfuzlu təşkilatlara üzv seçildi, Azərbaycanın bir çox ölkələrdə səfirlikləri açıldı, xarici dövlətlərin səfirlikləri Azərbaycanda fəaliyyətə başladı. 2001-ci il yanvarın 25-də Azərbaycan Avropa Şurasına üzv qəbul olundu, bundan başqa dünyanın bir sıra digər nüfuzlu təşkilatlarına üzv oldu və beləliklə də, Heydər Əliyev Azərbaycan bayrağının dünya dövlətləri ilə bir sırada dalğalanmasına nail oldu.

Ümummilli Lider Heydər Əliyev Avropa Şurasının tribunasından Azərbaycanın mənafeyinə uyğun şəkildə istifadə edilməsi üçün uğurlu bir addım atdı. Belə ki, Avropa Şurası Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinə millət vəkili İlham Əliyevin rəhbərlik etməsi və daha sonra cənab İlham Əliyevin AŞPA-dakı fəaliyyəti Ümummilli Liderimiz Heydər Əliyevin qarşıya qoyduğu bütün vəzifələri reallaşdırdı. Bütün bunların məntiqi davamı kimi, 2003-cü il yanvarın 27-də siyasi qabiliyyəti, diplomatik məharəti və prinsipiallığı ilə xüsusi seçilən Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin AŞ PA-nın vitse-prezidenti və qurumun Büro üzvü seçilməsi ilə müstəqil Azərbaycan tarixinə yeni səhifə yazılmış oldu [9].

Beləliklə, 1993-cü ildən başlayaraq müstəqil Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında uğurlu xarici siyasət həyata keçirərək öz beynəlxalq mövqeyini möhkəmləndirməyə nail oldu. Ölkəmiz beynəlxalq arenada müstəqil dövlət kimi tanındı, dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli xarici əlaqələr quruldu.

Ümummilli Lider Heydər Əliyevin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də azərbaycançılıq ideyasını milli diasporun təşkilatlanması üçün ideoloji təmələ çevirməsidir. Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı xaricdə yaşayan azərbaycanlılarla çoxsaylı görüşlər keçirmiş, onları daim milli ideya ətrafında birləşməyə, təşkilatlanmağa, milli icmalar yaratmağa səsləmişdir. Məhz 2001-ci ildə Azərbaycanda dünya azərbaycanlılarının qurultayının keçirilməsini möhtəşəm siyasi-tarixi hadisə hesab etmək olar. Ulu Öndərə məxsus “dünya azərbaycanlılarının bir Vətəni var, bu – Azərbaycandır” kəlamı müasir dövrün azərbaycançılıq təliminin siyasi-ideoloji əsasını təşkil edir. Heydər Əliyevin 5 iyul 2002-ci il tarixli Prezident Fərmanı ilə Xarici Ölkələrdə yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsini yaratması dünya azərbaycanlılarının diaspora fəaliyyətinin təşkilinin milli dövlət siyasəti səviyyəsinə qaldırıldığını nümayiş etdirdi. Azərbaycan diasporasının formalaşması və inkişafı sahəsində qazanılan nailiyyətlər həyata keçirilən həmin siyasətin bəhrələridir [30].

Göründüyü kimi, Ulu Öndərimiz yeni dünya düzənində gedən proseslərin məcrasını düzgün müəyyənləşdirərək ölkəmizin yeni əsrə və həm də yeni minilliyə qüdrətli və güclü dövlət kimi çıxmasını təmin etmişdir.

### Azərbaycan Prezidenti İlham Əliyevin güclü dövlət siyasətində daxili sabitlik prioritet kimi

Bu gün banisi Ümummilli Lider Heydər Əliyev olan müstəqil Azərbaycan qalib dövlət olaraq layiqli siyasi varis, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında sürətli inkişaf və tərəqqi yolu ilə inamla irəliləyir. Prezident İlham Əliyevin uğurla reallaşdırdığı güclü dövlət siyasətində respublikamızda ictimai-siyasi sabitliyin qorunması və möhkəmləndirilməsi prioritet yer tutur. Bu məsələyə böyük əhəmiyyət verən cənab İlham Əliyev göstərmişdir: “Bizim siyasətimizdə əsas məqsəd dövlətimizin möhkəmlənməsi, xalqımızın daha yaxşı yaşaması və sabitliyin təmin edilməsidir” [26]. Digər bir çıxışında isə, sabitliyin ölkəmizin inkişafında roluna toxunaraq vurğulamışdır: “...istənilən genişmiqyaslı layihənin icrası üçün önəmli elementlərdən biri sabitlikdir. Azərbaycanda uzun illərdir ki, sabitlik var və bu, bizim iqtisadi inkişafımızın əsas amillərindən biridir. İndi Azərbaycanın beynəlxalq arenada oynadığı rol

da, həmçinin bizim daxili siyasətimiz sayəsində əmələ gəlmişdir. Çünki güclü iqtisadiyyat, siyasi, iqtisadi sabitlik və hökumət siyasətimizin proqnozlaşdırılması – bütün bu amillər körpülərin və mümkün qədər çox ölkə ilə daha yaxın münasibətlərin qurulması ilə yanaşı, bugünkü reallığa gətirib çıxarıb. Buna görə siyasi sabitlik, təhlükəsizlik, iqtisadiyyat – bütün bunlar çox vacibdir [24]. Odur ki, Prezidentimiz “daxili sabitliyin qorunmasını hər birimizin əsas vəzifəsi” hesab edir [27].

Ölkəmizdə ictimai-siyasi sabitliyin möhkəmləndirilməsinə insan hüquq və azadlıqlarının müdafiə edilməsi yönümündə Ulu Öndər Heydər Əliyev tərəfindən götürülmüş strateji xəttin yeni keyfiyyət səviyyəsində uğurla davam etdirilməsi və daha da geniş miqyas alması, insan hüquqlarının müdafiəsinin daxili mexanizmlərinin yaradılması, dövlətimizin bu sahədəki beynəlxalq və regional Konvensiyalara qoşulmaqla öz vətəndaşlarına həmin mexanizmlərdən istifadə etmək imkanının yaradılması əhəmiyyətli dərəcədə təsir edir. Bu baxımdan Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamına əsasən Dövlət Proqramının qəbul olunduğu 18 iyun tarixinin hər il Azərbaycanda İnsan Hüquqları Günü kimi qeyd edilməsi, həmçinin 2006-cı il 28 dekabr tarixli və 2011-ci il 27 dekabr tarixli Prezident Sərəncamları ilə müvafiq olaraq “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı”nın və “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın təsdiq edilməsi dövlətimizin insan hüquqlarının təmin edilməsinə daim böyük dəyər verdiyini bir daha sübut edir.

Vətəndaş cəmiyyətinin inkişaf etdiriməsi, milli həmrəyliyə və siyasi dialoqa nail olunması ictimai-siyasi sabitliyin qorunması və möhkəmləndirilməsi amilləri kimi xüsusi əhəmiyyət kəsb edir. Bu məsələlərə böyük dəyər verən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, siyasi dialoqun inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Onun rəhbərliyi altında aparılan çoxşaxəli islahatlar siyasi sistemdə keyfiyyətcə yeni, konstruktiv dialoq və əməkdaşlığı şərtləndirdi. 2020-ci il altıncı çağırış Milli Məclisinə seçkilər nəticəsində Azərbaycanda çoxpartiyalı parlamentin formalaşdırılması siyasi dialoqun inkişafına xidmət edir. Parlament və komitələrin rəhbərliyində təmsil olunan müxtəlif siyasi partiyalardan olan deputatlar Azərbaycanda siyasi sistemin möhkəmlənməsinə, siyasi münasibətlərin sağlam əsaslarla qurulmasına öz töhfələrini verirlər. Müasir mərhələdə Azərbaycanda dövlət qeydiyyatından keçərək fəaliyyət göstərən 50-dən çox siyasi partiyalardan yerinə yetirdikləri rola, fəaliyyət istiqamətlərinə yenidən baxmaq və öz fəaliyyətini yeni qəbul olunmuş “Siyasi partiyalar haqqında“ Qanunun müddəalarına uyğunlaşdırmaq tələb olunur. Bu, xüsusilə müxalifət partiyalarına aiddir. Ölkənin bugünkü inkişaf mərhələsi Prezident İlham Əliyevin reallaşdırdığı ardıcıl siyasət sayəsində yaradılmış sağlam rəqabət mühiti və əldə olunmuş siyasi dialoq şəraitində sağlam, konstruktiv müxalifətin olmasını tələb edir.

Dövlətimizin başçısı yeni mərhələdə ölkəmizdə siyasi dialoqun daha da dərinləşdiriləcəyini və ölkəmizdə dialoqun artıq baş tutduğunu vurğulamış, onun formatını müəyyən edərək ümummilli məsələlərdə – Qarabağ məsələsində, siyasi partiyaların fəaliyyəti, demokratiyanın inkişafı, iqtisadi azadlıqlarının bərqərar olunması, ölkəmizin güclənməsi məsələlərində heç bir fərqli fikrin ola bilməyəcəyini göstərmişdir [22].

Heydər Əliyevin dövlət quruculuğu strategiyasında xüsusi yer tutan və Prezident İlham Əliyev tərəfindən dövlət siyasətinin prioritetinə çevrilən demokratik və hüqiqi dövlət quruculuğunda əldə olunan böyük uğurlar müstəqil Azərbaycan Respublikasını bütün dünyada tanıtmış və ölkəmizin dünya birliyində layiqli yerini tutması, beynəlxalq aləmdə gedən proseslərə fəal şəkildə inteqrasiya olunması üçün möhkəm zəmin yaratmışdır.

Prezident İlham Əliyevin böyük uğurla həyata keçirdiyi siyasi kursun təhlili əsasında ölkədə ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi amilləri sırasında dövlətimizin ölkənin strateji resursu olan gənclərə böyük qayğısı və diqqətini özündə ifadə edən uğurlu gənclər

siyasəti vacib yer tutur. Gənc nəslə böyük dəyər verən Prezident İlham Əliyev gənclərə xüsusi münasibəti olduğunu vurğulayaraq, "...siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" demişdir. Məhz bundan çıxış edərək dövlət başçımız İlham Əliyev tərəfindən gənclərin hərtərəfli inkişafı və rifahına xidmət edən çoxlu sayda mühüm Dövlət Proqramları təsdiq edilmiş və uğurla yerinə yetirilmişdir ki, onların da bir hissəsi gənclərin təhsili ilə bağlı olmuşdur. Prezident Sərəncamı ilə 2017-ci ilin "Gənclər ili" elan olunması gənclərimizin cəmiyyət həyatında fəallığının daha da artmasına xüsusilə səbəb olmuşdur. 44 günlük Vətən müharibəsi zamanı Şuşa qayalarında, bütün Qarabağ torpağında igidlik göstərən gənc Azərbaycan əsgərlərinin qəhrəmanlığı ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev demişdir: "... bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik" [25]. Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə geniş vüsat almış könüllülər hərəkatının aparıcı hissəsini də gənclərimiz təşkil edir.

Prezidentimiz cənab İlham Əliyev Azərbaycan xalqının xilaskarı və Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunu davam edərək və Azərbaycan xalqının gələcəyinin məhz elm və təhsil ilə bağlı olduğunu nəzərə alaraq insan kapitalının inkişafına yönələn siyasət çərçivəsində təhsilin və elmin dünya standartları səviyyəsinə çatdırılması istiqamətində geniş islahatların həyata keçirilməsini prioritet kimi müəyyən etmişdir.

Azərbaycanda mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik, dini dözümlülük mühitinin, ən yüksək səviyyədə dinlərarası münasibətlərin yaradılmasında Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin xidmətləri müstəsna əhəmiyyətə malikdir. Azərbaycanda tolerantlıq və multikulturalizm dəyərlərinin formalaşması və həyat tərzinə çevrilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır, böyük rəhbərin bu sahədəki siyasi xətti onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir. Bu gün dünyaya tolerantlığın yeni modelini təqdim edən, eləcə də dünya tərəfindən multikulturalizmin nümunəsi kimi qəbul olunan Azərbaycanda, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "bütün millətlərin, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır, Azərbaycanda multikulturalizm yaşayır. Bunu biz yaşadırıq və yaşadacağıq" [23]. 44 günlük Vətən müharibəsində Azərbaycanın tarixi torpaqlarının təcavüzkar Ermənistanın işğalından azad edilməsində ölkəmizdə yaşayan digər xalqların və dinlərin nümayəndələrinin də iştirak etməsi məhz dövlətimizin böyük uğurla həyata keçirdiyi bu siyasətin nəticəsi oldu.

Digər vacib amil dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi altında ölkədə iqtisadi və sosial islahatların yeni keyfiyyət səviyyəsində uğurla və ardıcıl həyata keçirilməsi, onların əhalinin rifah halının yüksəldilməsinə, eləcə də yoxsulluğun səviyyəsinin aşağı düşməsinə verdiyi töhfələr çıxış edir ki, bunlar da ölkədə siyasi sabitliyə təsir edən vacib amillərdir. İlham Əliyevin birinci prezidentliyi dövründən başlayaraq əsası Ulu Öndərimiz tərəfindən qoyulan iqtisadi inkişaf strateiyası zənginləşdirilərək, sürətli sosial-iqtisadi inkişaf strategiyası həyata keçirildi, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları ardıcıl reallaşdırıldı, yeni iqtisadiyyat sahələri yaradıldı. Ölkəmizin yüksək templərlə sosial-iqtisadi inkişafı perspektivləri baxımından Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər"in, 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. İqtisadi islahatlarla və məşğulluqla əlaqəli olan yeni imkanlardan danışarkən Prezident İlham Əliyev qeyd etmişdir: "Azərbaycanda yoxsulluq səviyyəsi beş faizə yaxındır. Bu, onu göstərir ki, biz enerji sektorundan əldə olunan gəlirdən maddi sərvətlərin bərabər paylanması üçün istifadə edə bilmişik. Əlbəttə ki, iqtisadi islahat və məşğulluqla bağlı yeni imkanlar Azərbaycanda yeni perspektiv yaradacaq" [29].

Ölkəmizdə əhalinin həssas qruplarının etibarlı müdafiəsi sisteminin səmərəli işləməsinə yönələn sosial siyasətin mərkəzində vətəndaş dayanır və sosial dövlət prinsiplərinə əsaslanan bu siyasət dövlətimizin başçısı cənab İlham Əliyevin xüsusi diqqət yetirdiyi prioritet sahədir. Bu fundamental məsələni ölkə başçısı bu cür dəyərləndirir: "Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır". Odur ki, Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi daxili siyasətin başlıca istiqamətini vətəndaşların rifahının təmin edilməsi təşkil edir. Belə ki, ölkə iqtisadiyyatının dinamik artımı şəraitində sosial inkişafın davamlı xarakter almasına, sosial müdafiə və aktiv məşğulluq proqramlarının dəfələrlə genişlənməsinə, sosial sahədə vətəndaş rifahı və məmnunluğuna yönəlik mühüm irəliləyişlərə, sosial ödənişlərdə orta hesabla 10–15 dəfə artımlara imkan verib. Zəfər dövrünü yaşayan qalib Azərbaycanda müharibədən sonra dövlət başçısının göstərişi ilə şəhidlərimizin ailə üzvləri və müharibə iştirakçıları ilə bağlı çox geniş tədbirləri əhatə edən sosial dəstək paketinin icrasına başlanıb. Son 4 ildə minimum əmək haqqı 2,3 dəfə, orta aylıq əmək haqqı 53 faiz, əmək müqavilələri 30 faiz, minimum pensiya 2,2 dəfə, təqaüd ödənişləri 3,5 dəfə artıb. Həmçinin bu dövrdə 10-dan çox yeni sosial ödəniş növü təsis olunub ki, bu da sosial təminat sisteminin əhatə dairəsini daha da genişləndirib. Prezident İlham Əliyevin uğurlu sosial siyasətində şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial təminatı, mənzil-məişət şəraitlərinin yaxşılaşdı-rılması mühüm yer tutur [28].

Cəmiyyətdə ictimai-siyasi sabitliyin təmin edilməsinə dövlətin korrupsiyaya qarşı mübarizə siyasəti öz təsirini göstərir. Müasir mərhələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin reallaşdırdığı strateji kursun və dövlət siyasətinin prioritetlərinə uyğun olaraq ölkədə korrupsiyaya qarşı sistemli və barışmaz mübarizənin aparılması istiqamətində ciddi işlər görülür. Bu istiqamətdə həyata keçirilən islahatların və təşkilati tədbirlərin səmərəliliyi yüksəlmiş, korrupsiyaya qarşı preventiv tədbirlərin görülməsinə xüsusi diqqət yetirilir. Bürokratiya, süründürməçilik və korrupsiya hallarının aradan qaldırılmasında Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və Azərbaycanın brendinə çevrilmiş "ASAN xid-mət" mərkəzləri mühüm rol oynayırlar. 2015-ci ildə BMT-nin Dövlət xidmətləri mükafatına, 2019-cu ildə isə Rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində xüsusi mükafatına layiq görülən "ASAN xidmət" fəaliyyəti dövründə 60 milyona yaxın müraciət üzrə dövlət xidmətləri göstərilməsini təmin etmişdir. Bu gün "ASAN xidmət" mərkəzlərində – vahid məkanda müxtəlif dövlət qurumları, həmçinin özəl şirkətlər tərəfindən ümumilikdə 360-dan çox xidmət göstərilir. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,8 % təşkil etmişdir [21].

Dövlət başçımız İlham Əliyevin ölkədəki möhkəm ictimai-siyasi sabitlik şəraitində yürütdüyü uğurlu daxili siyasət öz məntiqi davamını uzaqgörənliklə və yüksək diplomatik məharətlə həyata keçirdiyi xarici siyasətdə tapmışdır ki, bu siyasətin də əsas prioritetini Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi təşkil etmişdir. Prezidentimiz İlham Əliyev "Şuşasız Qarabağ, Qarabağsız ümumiyyətlə Azərbaycan yoxdur" söyləyən Ulu Öndərimiz Heydər Əliyevin bu sahədəki strateji kursunu müdrik və qətiyyətli, yorulmaz fəaliyyəti ilə davam etdirərək, "Qarabağ Azərbaycandır və nida işarəsi" vədinin yerinə yetirilməsini təmin etdi. İşğal ərzində həm Ümummilli Liderimiz Heydər Əliyevin, həm də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ümidverici çıxışları xalqımızda torpaqlarımızın azad olunmasına böyük inam yaradırdı ki, bu da ölkədə ictimai-siyasi sabitliyə təsir edən amillərdən olmuşdur.

Beləliklə də, siyasət sahəsində həmişə qalib olan Ümummilli Liderimiz Heydər Əliyevin banisi olduğu güclü Azərbaycan dövləti ölkəmizdə davamlı xarakter almış ictimai-siyasi sabitlik şəraitində layiqli siyasi varis, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında daha da qüdrətlənərək 44 günlük Vətən mühari-

bəsində təcavüzkar Ermənistan üzərində Böyük Qələbəyə nail oldu və bununla da bütövlükdə regionda geosiyasi konfiqurasiyasını dəyişdi.

Prezident İlham Əliyevin daxili və xarici siyasət fəaliyyətinin uğurla reallaşmasına, ölkədə ictimai-siyasi sabitliyin möhkəmlənməsinə Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva özünün genişmiqyaslı fəaliyyəti ilə dəyərli töhfəsini verir. Onun ölkəmizin inkişafı və çiçəklənməsi naminə yorulmaz fəaliyyətinin əsasını Vətəninə və xalqına böyük məhəbbəti, Ulu Öndərimiz Heydər Əliyevin müdrikcəsinə müəyyən etdiyi və onun layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilən strateji kursa inamı və sədaqəti təşkil edir. Azərbaycan qadınına xas olan ən gözəl keyfiyyətləri özünün pozitiv obrazında birləşdirən və xalqımız tərəfindən sevilən Mehriban xanım Əliyeva çoxtərəfli və səmərəli fəaliyyəti ilə Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli işi ən yaxın silahdaş kimi tamamlayır, uğurlarını artırır.

**Nəticə.** Beləliklə, 1993-cü ilin iyun ayından başlayaraq, dünyaşöhrətli siyasətçi və dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev rəhbərliyə qayıtması ilə xilaskarlıq missiyasını yerinə yetirərək xalqın itiril-miş inamını özünə qaytarmışdır. Həmin vaxtdan sonrakı dövr Azərbaycanda qanunçuluğun, demokratiyanın, iqtisadiyyatın inkişafı və bütün bunların da nəticəsində ictimai-siyasi həyatda sabitliyin ildən-ilə qorunub saxlanılması və inkişafı dövrü olmuşdur.

Ölkəmizin Əsas Qanununun qəbul edilməsi, burada təməl demokratik prinsiplərin, o cümlədən, insan – vətəndaş hüquq və azadlıqlarının, hakimiyyətlərin bölünməsi prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması, nəhayət, müasir dövlət qurumlarının formalaşdırılması Ümummilli Liderin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı quruculuq proqramının tərkib hissəsi idi.

Heydər Əliyevin rəhbərliyi altında ölkədə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi, bu kontekstdə insan və vətəndaş hüquq və azadlıqlarının ən yüksək səviyyədə müdafiəsi üçün səmərəli, həmçinin çevik mexanizmlərin yaradılması, habelə qanunların aliliyinin təmin olunması gerçəkləşdirilən mütərəqqi islahatların mühüm istiqamətlərini təşkil etmişdir.

Ümummilli Liderin modern dövlət quruculuğu siyasətinin mühüm bir istiqamətini güclü iqtisadiyyat qurmaq təşkil etmişdir. O, güclü iqtisadiyyata malik olan dövlətin hər şeyə qadir olduğunu bəyan edərək, ölkəmizin sosial-iqtisadi, elmi-texniki potensialını hərəkətə gətirmiş, həyata keçirilən yeni islahatlarla bazar iqtisadiyyatı normalarına və çoxmülkiyyətçiliyə əsaslanan müasir iqtisadi sistemə keçidin əsasını qoymuşdur. Ulu Öndərimiz Heydər Əliyevin müstəqil dövlət quruculuğu strategiyasının onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən yeni keyfiyyət səviyyəsində uğurla davam etdirilməsi nəticəsində Azərbaycan sürətli, dinamik inkişaf yolunda böyük nailiyyətlər əldə edərək, güclü və modern dövlət kimi dünya dövlətləri arasında layiqli yer tutdu. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Rəşadətli Azərbaycan Ordusu böyük qəhrəmanlıqla Şanlı Zəfər qazandı.

Bu gün Ulu Öndərimizin yaratdığı müstəqil və güclü Azərbaycan daha da qüdrətlənir, möhkəm ictimai-siyasi sabitlik şəraitində sürətlə inkişaf edən və qalib dövlət kimi dünyada daha da şöhrətlənir. Bu, xalqın, millətin, dövlətimizin dahi Ümummilli Liderimiz Heydər Əliyevin xatirəsinə ən böyük abidəsidir. Ümummilli Liderimizin layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə möhkəm ictimai-siyasi sabitliyi qoruyub saxlamaqla, bütün sahələrdə ardıcıl aparılan islahatlar, əldə olunan böyük uğurlar xalqımızın sabaha olan inamını qat-qat artırır, Qarabağın dirçəlişi strategiyası sürətlə reallaşır, işğaldan azad edilmiş ərazilər Böyük Qayıdış üçün hazırlanır.

Bütün bunlar bundan sonra da Ulu Öndərimiz Heydər Əliyevin zəngin dövlətçilik irsini xalqımızın milli sərvəti kimi qoruyub saxla-

maqla, onun müstəqil və güclü Azərbaycan dövləti konsepsiyasının və ona əsaslanan çoxşaxəli strateji kursunun ictimai-siyasi sabitlik şəraitində reallaşması təcrübəsinin daha dərindən araşdırılmasını xüsusi əhəmiyyət kəsb edən vəzifə kimi qarşımıza qoyur.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2018.
2. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 29 sentyabr 2022-ci il.
3. Azərbaycan Prezıdenti Heydər Əliyevin Azərbaycanın siyasi partiyalarının və ictimai hərəkatlarının rəhbərləri ilə görüşdə çixiş // Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci kitab. B., Azərnəşr, 1997, 612 səh. s.160-164
4. Azərbaycan Prezidenti Heydər Əliyevin Ermənistan silahli qüvvələrinin Azərbaycan Respublikasinin ərazisinə yeni hücumlari və təcavüzü ilə bağli milli televiziya və radio ilə xalqa müraciəti. 2 noyabr 1993-cü il // Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci kitab.B., Azərnəşr, 1997, 612 səh. s. 149-156.
5. Azərbaycan Prezidenti Heydər Əliyevin "Ostankino" dövlətlərarası televiziya şirkətinə müsahibəsi // Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci kitab. B., Azərnəşr, 1997, 612 səh., s. 21–25
6. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi - 27 may 1998-ci il // "Azərbaycan" qəzeti, 29 may 1998-ci il
7. Antikorrupsiya siyasətində güclü dövlət faktoru// Respublika.-2014.- 19 fevral.
8. Əliyev İ.H. İnkişaf – məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər / İ. H. Əliyev; bur. məsul R.Ə.Mehdiyev. 120-ci kitab: may 2022-iyul 2022.- Bakı: Azərnəşr, 2022.- 384 s.
9. Əhmədov E.İ. Heydər Əliyevin xarici siyasət kursu. Yeni və dinamik inkişaf mərhələsində // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, 2013, № 2 (4), s. 121-130
10. Əsgərov Z. Azərbaycançiliq və dövlət suverenliyi. Azərbaycan qəz., 2015, 2 may, №93.
11. Heydərov F. Azərbaycanin inkişaf strategiyası Heydər Əliyev irsinə əsaslanir, Azərbaycan qəz., 2015, 5 may, № 95.
12. Naxçıvanlı A. Azərbaycan xalqı öz görkəmli liderinin müqəddəs xatirəsini həmişə hörmətlə yad edəcək//Xalq qəzeti, 2012, 3 may, № 96.
13. Yusifov M. Heydər Əliyev və azərbaycançılıq ideologiyası. Bakı, 2003
14. Зеркин Д.П. Основы политологии: теоретико-методологические проблемы // https://all-politologija.ru/knigi/osnovy-politologii-kurs-lekcij-zerkin
15. Лазарев Е.А. Коррупция и политическая стабильность: институциональная перспектива // Полития, 2011, №1(60), с.50-66.
16. Политическая стабильность в обществе: сущность, виды и факторы //https://politics.ellib.org.ua//pages-844.html
17. Прошин М.С., Нестеров А.Ю. Ценностные установки и приоритеты концептуального управления молодежной политики // Журнал Человеческий капитал. 2014, № 4, с.51.
18. Семченко О.Р. Политическая стабильность: сущность, понятие, информационные механизмы // Вопросы управления, 2015, №1, с.53-59.
19. Хантингтон С. Политический порядок в меняющихся обществах. /пер. с англ. В.Р.Рокитянского. М.: Прогресс-Традиция. 2004. 481 с.
20. Waltz K.N. Theory of International Politics. Reading: Adison-Wesley, 1979. 251 p.
21. https://files.preslib.az/projects/ilhamaliyev/ebooks/im_ebook124.pdf.
22. https://president.az/az/articles/view/50798
23. https:/president.az/az/articles/view/4740
24. https://president.az/az/articles/view/58028
25. https://president.az/az/articles/view/55348
26. https://president.az/articles/view/35693

27. https://president.az/az/articles/view/31760
28. https://www.sosial.gov.az/Vetendash-rifahinin-teminati-Prezident-Ilham-Eliyevin-siyasetinin-baslica-istiqametidir_640901
29. https://caliber.az/post/63295
30. https://yeni azerbaycan.com/Siyasete11464 az.html
31. https://www.anl.az/dovn/meqale/xalqqazeti/2010/may/118928.htm

***Açar sözlər:*** *Heydər Əliyev, ictimai-siyasi sabitlik, müstəqil dövlət, daxili siyasət, xarici siyasət, İlham Əliyev, güclü dövlət*

**Sevil Mammadova**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Political Science and Political Management, Dr. of Political Sciences, Professor***

## THE FACTOR OF SOCIO-POLITICAL STABILITY IN THE STRATEGY OF HEYDAR ALIYEV FOR THE CONSTRUCTION OF AN INDEPENDENT STATE

### ABSTRACT

The article reveals one of the essential characteristics of the political process: socio-political stability, as a complex and multifactorial phenomenon. In this context, ensuring socio-political stability is an important component of the strategy of the great leader Heydar Aliyev to build an independent state. It highlights the rescue mission of the National Leader, Heydar Aliyev, and his policy to create socio-political stability in the country. The article analyzes the internal and foreign policy of Heydar Aliyev in the conditions of established socio-political stability, as well as the serious successes achieved in the implementation of socially oriented economic reforms, ensuring human rights and freedoms, the formation of a multiparty system, and other areas. Based on the analysis of extensive material, the policy of the worthy successor of the political course of Heydar Aliyev, President of the Republic of Azerbaijan Ilham Aliyev, aimed at preserving and strengthening socio-political stability in the country as a priority of his strategy of a strong state, is highlighted in detail.

***Key words:*** *Heydar Aliyev, socio-political stability, independent state, domestic policy, foreign policy, Ilham Aliyev, strong state*

**Севиль Мамедова**

***Профессор кафедры Политологии и политического управления АкадемииiГосударственного Управления при Президенте Азербайджанской Республики, доктор политических наук***

# ФАКТОР ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ СТАБИЛЬНОСТИ В СТРАТЕГИИ ГЕЙДАРА АЛИЕВА ПО СТРОИТЕЛЬСТВУ НЕЗАВИСИМОГО ГОСУДАРСТВА

## РЕЗЮМЕ

В статье раскрывается сущность одной из важнейших характеристик политического процесса – общественно-политической стабильности, как сложного и многофакторного явления. В этом контексте обеспечение общественно-политической стабильности рассматривается как важный компонент стратегии Общенационального лидера Гейдара Алиева по строительству независимого государства. Здесь освещается миссия спасения великого лидера Гейдара Алиева и его политика по созданию общественно-политической стабильности в стране. Анализируются внутренняя и внешняя политика Гейдара Алиева в условиях создавшейся общественно-политической стабильности, а также серьезные успехи, достигнутые в осуществлении социально-ориентированных экономических реформ, обеспечении прав и свобод человека, формировании многопартийной системы и в других сферах. На основе анализа обширного материала подробно освещается политика достойного продолжателя политического курса Гейдара Алиева, Президента Азербайджанской Республики Ильхама Алиева, направленная на сохранение и укрепление общественно-политической стабильности в стране, как приоритета его стратегии сильного государства.

***Ключевые слова:*** *Гейдар Алиев, общественно-политическая стабильность, независимое государство, внутренняя политика, внешняя политика, Ильхам Алиев, сильное государство*

UOT 342

**İSAXAN VƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquq" kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor***

*e-mail: veliev.i@inbox.ru*

# VİCDAN AZADLIĞININ KONSTİTUSİON HÜQUQİ TƏMİNATI ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN HÜQUQİ İSLAHATLARININ PRİORİTET İSTİQAMƏTLƏRİNDƏN BİRİ KİMİ

İnsan və vətəndaşın əsas hüquq və azadlıqlarından sayılan vicdan azadlığının təmin olunması demokratik cəmiyyətlərin və dövlətlərin ümumi inkişafının təməl prinsiplərindən biridir. Odur ki, inanclı insanların dini etiqad azadlığının məhdudlaşdırılması konstitusion hüquq normalarının pozulması kimi qiymətləndirilir.

Son dövrlər dünyada gedən proseslər – dünya əhalisinin artması ilə əlaqədar miqrasiya, ksenofobiya, terrorizm, ekstremizm, rasizm, qarşılıqlı dözümsüzlük hallarının artması bəşəriyyəti bir sıra qlobal problemlərlə qarşı-qarşıya qoymuşdur ki, bu səbəbdən də dünya siyasətçiləri tərəfindən yaranmış vəziyyəti stabilləşdirmək məqsədi ilə yeni bir termin "tolerantlıq" termini dövriyyəyə buraxılmış və 16 noyabr 1995-ci ildə UNESCO tərəfindən ona rəsmilik verilərək "Tolerantlıq prinsipləri" Bəyannaməsi qəbul edilmişdir. Bəyannamədə qeyd edildiyi kimi, tolerantlıq dünyamızın zəngin, rəngarəng mədəniyyətlərinin, insan fərdiyyətinin özünü ifadə etmə və büruzə vermə formalarının qəbulu, düzgün dərki və onlara hörmət deməkdir. Ona bilik, aşkarlıq, ünsiyyət və fikir, vicdan və məslək azadlığı xidmət edir. Tolerantlıq rəngarəng xüsusiyyətlərin birliyidir. Bu təkcə mənəvi borc deyil, həm də siyasi və hüquqi tələbatdır. Tolerantlıq sülhə nail olmağı mümkün edir və müharibə mədəniyyətindən sülh mədəniyyətinə aparır.

Tolerantlıq güzəşt, mərhəmət və ya pis şeylərə göz yummaq deyil. Tolerantlıq hər şeydən əvvəl insanın əsas hüquq və azadlıqlarının etirafı əsasında formalaşan fəal münasibətdir. Heç bir halda tolerantlıq bu əsas dəyərlərə edilən qəsdlərə haqq qazandıra bilməz. Ayrı-ayrı şəxslər, qruplar və dövlətlər tolerantlıq göstərməlidirlər.

Tolerantlıq insan hüquqlarının, plüralizmin (o cümlədən mədəni plüralizmin), demokratiyanın bərqərar olmasına və qanunun təntənəsinə kömək etmək vəzifəsidir. Tolerantlıq ehkamçılığı, həqiqəti mütləqləşdirməyi rədd edən və insan hüquqları sahəsində beynəlxalq hüquqi aktlarda müəyyən edilmiş normaları təsdiq edən bir anlayışdır. İnsan hüquqlarına hörmətlə həmahəng olan tolerantlığın təzahürü sosial ədalətsizliyə tolerant münasibət, öz əqidəsindən imtina və ya başqalarının əqidələrinə güzəşt deyildir. Bu, o deməkdir ki, hər kəs öz əqidəsində azaddır və başqalarının da həmin hüququnu tanıyır. Bu, o deməkdir ki, insanlar təbiətcə öz xarici görünüşlərinə, vəziyyətlərinə, nitqlərinə, davranış və dəyərlərinə görə fərqlənirlər və əmin-amanlıqda yaşamaq, öz fərdiliklərini qoruyub saxlamaq hüququna malikdirlər. Bu həm də o deməkdir ki, bir adamın fikirləri başqalarına zorla qəbul etdirilə bilməz [5]. Başqa sözlə desək, tolerantlıq müxtəliflikdə harmoniyadır. O təkcə mənəvi borc deyil, həm də siyasi və hüquqi tələbatdır.

Bəyannamədə tolerantlığın bir sıra sosial, siyasi və hüquqi əsasları göstərilmişdir. Dövlət səviyyəsi adlanan ikinci maddədə qeyd edilmişdir ki, dövlət səviyyəsində tolerantlığın təmin edilməsi ədalətli və qərəzsiz qanunvericilik, qayda-qanuna riayət, məhkəmə-prosessual və inzibati normalar tələb edir. Tolerantlıq, habelə ayrı-seçkilik qoymadan hər bir insana iqtisadi və sosial inkişafı üçün şərait yaradılmasını tələb edir. Ögey münasibət və marqinallaşdırma passivliyə, düşmənçiliyə və fanatizmə səbəb ola bilər.

Cəmiyyəti daha dözümlü etmək üçün dövlətlər insan hüquqları haqqındakı beynəlxalq konvensiyaları təsdiq etməli, əgər lazım gələrsə, cəmiyyətdəki bütün qruplar və ayrı-ayrı şəxslər üçün bərabərhüquqlu yanaşmanı, imkanların bərabərliyini təmin etmək məqsədilə yeni qanunvericilik işləyib hazırlamalıdırlar.

Beynəlxalq həmrəyliyin mənafeyi üçün ayrı-ayrı adamların, icmaların və millətlərin bəşər birliyinin çoxmədəniyyətli xarakterini dərk etməsi və ona hörmət bəsləməsi vacibdir. Tolerantlıq olmadan sülh mümkün deyil, sülh olmadan inkişaf və demokratiya mümkün deyildir.

Tolerantlıq, sosial cəhətdən daha az müdafiə olunan qrupların marqinallaşdırılması, onların ictimai və siyasi həyatdan təcrid edilməsi, onlara qarşı zorakılıq və ayrı-seçkiliyin tətbiq edilməsi formasını qəbul edə bilməz. İrq və irqi xurafat haqqında bəyannamənin elan etdiyi kimi: "bütün insanlar və insan qrupları bir-birlərindən fərqlənmək hüququna malikdirlər".

Bəyannamənin tolerantlığın sosial aspektlərinə həsr edilmiş üçüncü maddəsi xüsusilə diqqəti cəlb edir. Qeyd edilir ki, ayrı-ayrı adamlar arasında, ailədə və cəmiyyətdəki münasibətlərdə tolerantlıq zəruridir. Məktəblərdə və universitetlərdə qeyri-formal təhsil yolu ilə, evdə və işdə tolerantlıq hissini möhkəmlətmək, münasibətlərdə açıqlığı, bir-birinə diqqəti və həmrəyliyi formalaşdırmaq zəruridir. Kommunikasiya vasitələri azad və açıq dialoq və müzakirələrə təsir etməklə, dözümlülüyün dəyərlərini yaymaqla və dözümsüzlüyün təbliğ edilməsində yenicə baş qaldıran qruplara və ideologiyalara münasibətdə biganəlik göstərməyin təhlükəli olduğunu aydınlaşdırmaqla konstruktiv rol oynaya bilər. Bu qlobal məsələnin həlli ilə əlaqədar müvafiq elmi tədqiqatların aparılması və beynəlxalq cəmiyyətin fəaliyyətinin əlaqələndirilməsi məqsədilə informasiya şəbəkəsinin yaradılması zəruridir. Burada sosial elmlərin qüvvələri ilə təsirli əks tədbirlərin qəbul edilməsi, bu halın əmələgəlmə səbəblərinin təhlil olunması, habelə, üzv dövlətlərin siyasi qərarlarının və normativ fəaliyyətinin təkmilləşdirilməsinə təsir edən elmi tədqiqatların və monitorinqlərin həyata keçirilməsi zəruridir.

Tolerantlıq mühitinin yaradılmasında tərbiyənin roluna xüsusi yer verən Bəyannamədə əks olunduğu kimi, tərbiyə dözümsüzlüyün qarşısının alınmasında ən təsirli vasitədir. Tolerantlıq ruhunda tərbiyə insanların ümumi hüquq və azadlıqlarının nədən ibarət olduğunu onlara öyrətməkdən başlayır, bunun üçün bu hüquqların həyata keçirilməsini təmin etmək və başqalarının hüquqlarını müdafiəyə meyli möhkəmləndirmək lazımdır. Tolerantlıq ruhunda tərbiyəyə təxirəsalınmaz vacib məsələ kimi baxılmalıdır; bununla əlaqədar olaraq tolerantlığın öyrədilməsi metodikasının təkmilləşdirilməsinə sistemli və səmərəli əsasla kömək edilməsi vacibdir. Bu zaman dözümsüzlüyün zorakılıq və ayrı-seçkiliyin əsas səbəbləri kimi çıxış edən mədəni, sosial, iqtisadi, siyasi və dini mənbələri aşkara çıxarılır. Təhsil sahəsindəki siyasət və proqramlar ayrı-ayrı şəxslər arasında olduğu kimi, etnik, sosial, mədəni, dini və dil qrupları, habelə, millətlər arasındakı münasibətlərdə də qarşılıqlı anlaşmanın yaxşılaşmasına, həmrəylik və tolerantlığın möhkəmləndirilməsinə kömək etməlidir. Tolerantlıq ruhunda tərbiyə başqalarına münasibətdə qorxu və ayrı-seçkilik hissi yaradan təsirə qarşı yönəldilməli, o, gənclərdə müstəqil təfəkkür, tənqidi dərketmə bacarığının formalaşdırılmasına və əxlaqi dəyərlərə əsaslandırılmış mühakimələrin təkmilləşdirilməsinə kömək etməlidir (maddə 4).

Haqlı olaraq qeyd edilir ki, tolerantlığın elmi tədqiqat işləri səviyyəsində araşdırılması, bu sahədə pedaqoji hazırlığın, tədris planlarının və məşğələlərinin səviyyəsinin yüksəldilməsi

və digər tədris materiallarının təkmilləşdirilməsi məsələlərinə xüsusi diqqət yetirilməsi mühüm əhəmiyyət kəsb edir.

Bəyannamənin 5-ci maddəsində üzv dövlətlərə tövsiyə edilir ki, təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində proqram və təsisatlardan istifadə edərək dözümlülüyün yayılmasına və qeyri-zorakılığın qarşısının alınmasına kömək etməyi öhdələrinə götürsünlər.

Tolerantlıq hər şeydən əvvəl Azərbaycan Respublikasının Konstitusiyasının normalarında təzahür edir. Odur ki, hər şeydən əvvəl dini tolerantlığın təmin edilməsinin əsası kimi çıxış edən normalara münasibət bildirilməsi məqsədəmüvafiq olardı, çünki Ümummilli Lider Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanmış və referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında tolerantlıq prinsiplərinin qorunub saxlanmasına xüsusi diqqət yetirilmiş, xalqın iradəsinin ifadəsi olan bu sənəd çoxmillətli Azərbaycan xalqının milli dövlətinin yaranmasının hüquqi təminatına çevrilmişdir. Azərbaycan Respublikasının konstitusiyalarında vicdan azadlığı bu və ya digər şəkildə öz təsbitini tapmışdır. Azərbaycan SSR-in 1921-ci il Konstitusiyasının birinci bölməsinin dördüncü maddəsində göstərilir ki, zəhmətkeşlərin həqiqi vicdan azadlığının təmin edilməsi üçün kilsə dövlətdən, məktəb isə kilsədən ayrılır, dini və antidini təbliğat azadlığı bütün vətəndaşlar üçün tanınır. Göründüyü kimi, konstitusiyanın bu maddəsində məscidin dövlətdən və ya məktəbin məsciddən ayrılmasından söhbət getmir. Elə təsəvvür yaranır ki, SSRİ dövləti ərazisində yalnız xristian dininin mövcudluğu qəbul edilir və vətəndaşların yalnız bu dinin təbliği və antitəbliği istiqamətində azadlığı tanınır. Halbuki, o zaman SSRİ məkanında xristianlıqla yanaşı islam, iudaizm və s. dinlər də mövcud idi. Bu səbəbdən də söhbətin yalnız kilsənin dövlətdən və məktəbin kilsədən ayrılmasından getməsi, fikrimizcə, bütün vətəndaşların vicdan azadlığı baxımından məhdudlaşdırıcı xarakter daşıyır.

Eyni müddəa Azərbaycan SSR-nin 1927-ci il Konstitusiyasının 1-ci bölməsinin altıncı maddəsində də olduğu kimi təkrar edilmişdir.

Azərbaycan SSR-in 1937-ci il Konstitusiyasında isə vicdan azadlığına münasibət qismən dəyişdirilmişdir. Konstitusiyanın 131-ci maddəsinə əsasən vətəndaşların vicdan azadlığını təmin etmək məqsədilə Azərbaycan SSR-də din dövlətdən və məktəb dindən ayrılmışdır. Bütün vətəndaşlar dini ayinləri icra etməkdə və din əleyhinə propaqanda aparmaqda azaddırlar.

Göründüyü kimi, artıq vicdan azadlığının əsas göstəricilərindən biri kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması deyil, bütövlükdə dinin dövlətdən və məktəbin dindən ayrılması hesab olunur. Digər tərəfdən bu maddədə dinin təbliğindən söhbət getmir və yalnız ölkə vətəndaşlarının dini ayinləri icra etmək azadlığı təsbit edilmişdir.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında bu məsələyə 1937-ci il Konstitusiyası ilə müqayisədə fərqli yanaşılmışdır. Konstitusiyanın 50-ci maddəsinə görə Azərbaycan SSR vətəndaşlarının vicdan azadlığı, yəni hər hansı dinə etiqad etmək və ya heç bir dinə etiqad etməmək, dini ayinləri icra etmək və ya ateizm təbliğatı aparmaq hüququ təmin olunur. Dini etiqadla əlaqədar ədavət və nifrət oyatmaq qadağan edilir.

Azərbaycan SSR-də məscid və kilsə dövlətdən, məktəb məsciddən və kilsədən ayrılmışdır.

Burada bötüvlükdə dinin dövlətdən ayrılmasından deyil, məscid və kilsənin dövlətdən ayrılmasından söhbət gedir. Halbuki həm o zaman, həm də bu gün Azərbaycanda islam və xristian dini ilə yanaşı, digər dinlərə də sitayiş edilməkdədir.

Azərbaycanın müstəqilliyini bərpa etdiyi dövrə qədər qüvvədə olan konstitusiyalardan fərqli olaraq, memarının Ümummilli lider Heydər Əliyev olduğu Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasında vicdan azadlığına daha tolerant münasibət bəslənilmişdir (maddə 48).

Vicdan azadlığı hər kəsin dinə münasibəti ilə bağlı azadlığıdır. Ölkənin əvvəlki konstitusiyalarından fərqli olaraq Azərbaycan Respublikasının qüvvədə olan Konstitusiyasında din və dövlət münasibətləri beynəlxalq normalara uyğun şəkildə tənzimlənmiş və 18-ci maddədə

qeyd edilmişdir ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir. Konstitusiyanın 48-ci maddəsinə görə hər kəsin vicdan azadlığı vardır: hər kəsin dinə münasibətini müstəqil şəkildə müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Konstitusiyanın bu müddəası çoxmillətli Azərbaycanda dini müxtəlifliyin qorunmasına geniş imkanlar yaratmaqla bərabər, həm də hər bir şəxsə sərbəst şəkildə hər hansı bir dinə etiqad etmək, dinə münasibətdə öz neytral mövqeyini saxlamaq və ya heç bir dinə etiqad etməmək imkanı verilməsinin hüquqi əsası kimi çıxış edir. Halbuki bəzi ölkələrin konstitusiyasında əhalinin böyük əksəriyyətinin etiqad etdiyi dinin dəyişdirilməsi qadağan edilir. Məsələn, Yunanıstan Konstitusiyasının (11 iyun 1975-ci ildə qəbul edilmişdir) 13-cü maddəsinə görə, bu ölkədə prozelitizm, yəni yeni dini əlaqəyə və ya məzhəbə xidmət etmək qadağandır.

İlk baxışdan elə görünür ki, Azərbaycanda vətəndaşın vicdan azadlığı hüququ sərhədsizdir, halbuki ölkə konstitusiyasında vicdan azadlığı hüququnun hüdudları da müəyyən edilmişdir: 18-ci maddədə göstərilmişdir ki, insan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsipinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır, dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır. Bu, vicdan azadlığı hüququnun ilk məhdudiyyətidir. Digər məhdudiyyətlər isə konstitusiyanın 48-ci maddəsində nəzərdə tutulmuşdur: dini mərasimlərin yerinə yetirilməsi ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir; dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır; heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə məcbur edilə bilməz. Konstitusiyanın bu normasının təminatı Ümummilli Lider Heydər Əliyevin hüquqi islahatlarının nəticəsi olaraq qəbul edilmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin bir sıra müddəalarında öz əksini tapmışdır. Məcəllənin 167-ci maddəsində dini ayinləri icra etməyə mane olmağa, 167-1-ci maddəsində dini etiqad etməyə məcbur etməyə, 167-2-ci maddəsində qanunsuz olaraq dini ədəbiyyatları yaymağa, 168-ci maddəsində dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Ümummilli Lider Heydər Əliyevin prezidentliyi dövründə qəbul edilmiş qanunvericiliyin üstün cəhətlərindən biri də verilmiş dini azadlıqla bərabər, həmin hüquqların təminatının müvafiq normalarda əks etdirilməsindədir. Bu təminatlardan birincisi, fikrimizcə, vicdan azadlığı hüququnun hüdudlarını müəyyən edən normativ aktlarda həmin hüququn ona edilə biləcək qəsdlərdən mühafizəsinin də nəzərdə tutulmasıdır. Başqa sözlə desək, əgər şəxs konstitusiyanın müəyyən etdiyi məhdudiyyət səddini keçməzsə, qanunun tələblərinə əməl edərsə, o, vicdan azadlığı normalarını pozmağa görə günahlandırıla bilməz. Vicdan azadlığı hüququna verilmiş ikinci hüquqi təminat konstitusiyanın 26-cı maddəsində təsbit olunmuşdur: hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Ölkə Konstitusiyasının 61-ci maddəsində nəzərdə tutulan və hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnu rəsmiləşdirən müddəa vicdan azadlığına verilmiş üçüncü təminatdır [7, s.15].

Azərbaycanda vicdan azadlığı hüququnun təminatı sırasında ən mühüm yerlərdən birini bərabərlik hüququ prinsipi tutur. Multikultural cəmiyyətin mühüm komponenti hesab olunan etnomədəni müxtəlifliyin qorunub saxlanılması, bütün xalqların bərabər hüquqi əsaslarla eyni bir dövlətin sərhədləri içərisində mövcud ola bilməsi baxımından "bərabərlik hüququ"nun həyati əhəmiyyəti çox böyükdür. Bu məsələyə xüsusi diqqət yetirən Ulu Öndər Heydər Əliyev öz çıxışlarında daimi olaraq vurğulayırdı ki, "Azərbaycan çoxmillətli dövlətdir. Onun bütün vətəndaşları milli mənsubiyyətindən, dini etiqadından və siyasi əqidəsindən asılı olmayaraq bərabər hüquqa malikdirlər [6, s.103]. Bu nöqteyi-nəzərdən ölkə Konstitusiyasının 25-ci maddəsi irqindən, milliyyətin-

dən, dinindən, dilindən ... asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir, insan və vətəndaş hüquqlarının və azadlıqlarının irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmağı qadağan edir. Ölkəmizdə vicdan azadlığının təmin edilməsinə yönələn normativ hüquqi aktlar sırasında 20 avqust 1992-ci il tarixdə qəbul edilən "Dini etiqad azadlığı haqqında" Qanun da xüsusi yer tutur [2]. Qanunun 1992-ci ildə qəbul edilməsinə baxmayaraq, qanunyaradıcı prinsiplərə uyğun olmadığından, faktiki olaraq geniş tətbiq edilməmişdir. Ümummilli Liderin ikinci dəfə hakimiyyətə gəlişindən sonra onun təşəbbüsü ilə qanuna 20-yə yaxın əlavə və dəyişiklik olunmuş, bundan sonra multikulturalizmin əsas prinsiplərini özündə əks etdirən dini tolerantlıq nümunəsinə çevrilmiş və yalnız bundan sonra intensiv olaraq tətbiq edilməyə başlanmışdır. Qanun dövlət və dini qurumlar, din və məktəb, dini icma, dini idarə və mərkəzlər, dini təhsil, dini qurumların dövlət qeydiyyatına alınması, onların ləğvi, dini qurumların mülkiyyəti, istehsal və təsərrüfat fəaliyyəti, dini ayin və mərasimlərin keçirilməsi, ümumiyyətlə din və onunla əlaqəli olan təsisatlar arasında münasibətləri təfərrüatı ilə tənzimləyir.

Qanuna əsasən Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün dini qurumlar bərabər hüquqlara malikdir. Dövlət bu qanunla onlar üçün hətta bəzi güzəştli şərtlər də müəyyən etmişdir. Qanunun 16-cı maddəsinə əsasən dini qurumlar dini təyinatlı binaların yerləşdikləri ərazi ilə birlikdə onlara verilməsində üstünlük hüququna malikdirlər. Dini qurumların işçilərinin sosial sığortası "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanunu, pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanunu ilə tənzimlənir, Azərbaycan Respublikasında fəaliyyət göstərən dini mərkəz (idarə) tərəfindən dəvət edilmiş və ya Azərbaycan Respublikasında rəsmi səfərdə olan əcnəbi və ya vətəndaşlığı olmayan din xadimi tərəfindən dini ibadət, ayin və mərasimlərin aparılması halları istisna olmaqla, dini ibadət, ayin və mərasimlərin aparılması yalnız Azərbaycan Respublikasının vətəndaşları tərəfindən həyata keçirilir. Xaricdə dini təhsil almış Azərbaycan Respublikasının vətəndaşları Qafqaz Müsəlmanları İdarəsi tərəfindən müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırmaqla islam dininə aid ayin və mərasimlərin aparılmasına buraxıla bilərlər və s. [2]

Azərbaycan Respublikasının Konstitusiyasının 7-ci maddəsində Azərbaycan dünyəvi dövlət elan edilmiş, 18-ci maddəsinə əsasən isə dinin dövlətdən ayrı olduğu təsbit edilmişdir. Bununla bərabər, "Dini etiqad azadlığı haqqında" Qanunun 21-ci maddəsində Konstitusiyanın sadalanan müddəaları ilə uyğunsuzluq təşkil edən müddəa nəzərdə tutulmuş və göstərilmişdi ki, qoşun hissələrinin komandanlığı (müstəsna hallardan başqa) hərbi qulluqçuların boş vaxtlarında ibadət etmələrinə və dini ayinləri yerinə yetirmələrinə mane ola bilməz. Əsgəri bölmələrdə hərbi rəhbərliyin razılığı ilə ruhanilərin fəaliyyətinə yol verilir.

Hərbi hissələr dövlətin icra strukturlarının əsas həlqələrindən biri olduğundan, fikrimizcə, orada dini qurumların fəaliyyətinə yol verilməsi ilə razılaşmaq olmazdı. Bu nöqteyi-nəzərdən Ümummilli Lider Heydər Əliyevin vicdan azadlığı ilə bağlı siyasətini uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin qanunvericilik təşəbbüsü ilə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa 4 may 2021-ci il tarixində dəyişiklik edilmiş və 21-ci maddənin beşinci hissəsi aşağıdakı redaksiyada verilmişdir:

Hərbi hissənin komandanlığı döyüş əməliyyatları, döyüş növbətçiliyi, qarovul və qarnizon xidməti, hərbi təlimlər ilə əlaqədar olan hallar istisna olmaqla, asudə vaxtlarında hərbi qulluqçuların dini ibadət etmələrinə mane ola bilməz. Hərbi hissələrdə din xadimlərinin fəaliyyətinə hərbi hissənin komandanlığının razılığı ilə yol verilir.

Bu həm də onunla şərtləndirilir ki, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikası Qanununun 5.0.12-ci maddəsinə əsasən Silahlı Qüvvələrdə siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və dini qurumların yaradılması və fəaliy-

yətinin qadağan edilməsi Silahlı Qüvvələrin hərbi quruculuq və fəaliyyət prinsiplərindən biri kimi təsbit edilmişdir.

Yeri gəlmişkən qeyd edilməlidir ki, ölkə Prezidenti İlham Əliyev tərəfindən tolerantlıq institutuna yeni münasibət sərgilənmiş, uğurlu siyasət nəticəsində onun hüquqi bazasında bir sıra ciddi dəyişikliklər edilmişdir. Dövlət başçısının təşəbbüsü ilə 2016-cı ildə keçirilən referendum zamanı milli bərabərliyi daha etibarlı təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə dəyişiklik edilərək qeyd edilmişdir ki, dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır. Referenduma qədərki Konstitusiyada isə söhbət etnik mənsubiyyətdən yox, milli mənsubiyyətdən gedirdi. Elə təsəvvür yaranırdı ki, insanların bərabərliyini milli mənsubiyyətinə görə pozmaq olmaz, lakin etnik mənsubiyyətə görə bərabərlik hüququnun təmini normativ tənzimlənmədən kənarda qalmışdı. Prezident İlham Əliyev tərəfindən müvafiq olaraq 2011-ci, 2012-ci, 2013-cü, 2014-cü, 2016-cı, 2018-ci və 2019-cu illərdə Bakı Beynəlxalq Humanitar Forumlarının təşkil edilməsi, 2016-cı ilin Multikulturalizm ili, 2017-ci ilin İslam Həmrəyliyi ili elan edilməsi, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi və s. onun Ulu Öndərin vicdan azadlığı siyasətini uğurla davam etdirməsinin praktiki göstəricisidir.

Bu sahədə görülən tədbirlərin və mükəmməl hüquqi bazanın yaradılmasının nəticəsidir ki, 44 gün sürən Vətən müharibəsində müxtəlif dini etiqadlara sitayiş edən Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşdi və bu birləşmə işğal edilmiş ərazilərimizin erməni təcavüzündən azad edilməsinə gətirib çıxardı.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası, http://www.e-qanun.az/framework/897, 2023
2. “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının 20 avqust 1992-ci il tarixli Qanunu, http://www.e-qanun.az/framework/7649, 2023
3. “Dini ekstremizmə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 4 dekabr 2015-ci il tarixli Qanunu, https://e-qanun.az/framework/31509, 2023
4. “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının 30 sentyabr 2002-ci il tarixli Qanunu, https://e-qanun.az/framework/1865, 2023
5. Tolerantlıq prinsipləri haqqında Bəyannamə, UNESCO, 16 sentyabr 1995. https://multiculturalism.preslib.az/az_documents-uGoBepJdVU.html
6. Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. – Bakı: “Azərbaycan Universiteti” nəşriyyatı, 1997 – 136 s.
7. Vəliyev İ. // Vicdan azadlığının və ana dilində danışmaq hüququnun konstitusion hüquqi təminatı. “Azərbaycan multikulturalizmi: din və siyasətin inkişaf perspektivləri” adlı beynəlxalq konfransın materialları, Bakı, 8-9 sentyabr 2016-cı il, s.15-22.


***Açar sözlər:*** *vicdan azadlığı, tolerantlıq, dini etiqad, dini ayinlər*

**Isakhan Valiyev**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan,*
*Head of Department of Law, Professor, Dr. of Laws*

# CONSTITUTIONAL LEGAL GUARANTEE OF FREEDOM OF CONSCIENCE AS A PRIMARY DIRECTION OF THE LEGAL REFORMS OF THE NATIONAL LEADER HEYDAR ALIYEV

## ABSTRACT

This article delves into the history of the constitutional-legal regulation of freedom of conscience, analyzes the legal norms regulating freedom of conscience, explores the legal level where the constitutional-legal guarantee of freedom of conscience and religion is one of the priority directions of the state policy of the National Leader Heydar Aliyev, and reviews the essence of the changes made to "On Freedom of Religion," the Law of the Republic of Azerbaijan. President Ilham Aliyev pursued the state policy developed by the great leader on freedom of conscience.

The author rightly believes that as a result of these measures taken in this area and the establishment of a perfect legal framework, the Azerbaijani people of diverse religious beliefs united like an iron fist around Commander-in-Chief Ilham Aliyev during the 44-day-long Patriotic War, and this unity resulted in the liberation of our territories from Armenian aggression.

***Keywords:*** *freedom of conscience, tolerance, religious belief, religious rituals*

**Исахан Валиев**

***Заведующий кафедрой Права***
***Академии Государственного Управления***
***при Президенте Азербайджанской Республики,***
***доктор юридических наук, профессор***

# КОНСТИТУЦИОННО-ПРАВОВАЯ ГАРАНТИЯ СВОБОДЫ СОВЕСТИ КАК ПРИОРИТЕТНОЕ НАПРАВЛЕНИЕ ПРАВОВЫХ РЕФОРМ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

## РЕЗЮМЕ

В данной статье осуществляется экскурс в историю конституционно-правового регулирования свободы совести, анализируются правовые нормы, регулирующие свободу совести, и правовой уровень, где конституционно-правовое обеспечение свободы совести и вероисповедания является одним из приоритетных направлений государственной политики Общенационального лидера Гейдара Алиева «О свободе вероисповедания». Обсуждается сущность изменений, внесенных в данный Закон Азербайджанской Республики, затем освещается продолжение Президентом Ильхамом Алиевым государственной политики свободы совести, разработанной великим лидером. Автор доказывает, что меры, предпринятые руководством страны в сфере конституционно-правового обеспечения свободы совести, позволили народам Азербайджана, представляющим различные религиозные конфессии, сплотиться вокруг Верховного Главнокомандующего Вооруженных Сил Азербайджанской Республики господина Ильхама Алиева во время 44-дневной Отечественной войны и освободить оккупированные Арменией территории Азербайджана.

***Ключевые слова:*** *свобода совести, толерантность, вероисповедание, религиозные обряды*

UOT 821

**LALƏ ƏHMƏDOVA**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dillər" kafedrasının professoru, filologiya üzrə elmlər doktoru***

*e-mail: lala-axmedova@mail.ru*

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT QURUCULUĞU STRATEGİYASINDA DİL MƏSƏLƏSİ

*"Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir".*

*Heydər Əliyev*

Bu gün Heydər Əliyev şəxsiyyətini dəyərləndirmək cəhdində olmaq, tarixə, zamana, gələcəyə qiymət vermək iddiası qədər çətindir. Çünki Heydər Əliyev şəxsiyyəti fərdi-subyektiv ölçülərə, bütövlükdə tarixə, zamana sığmır. Özünün böyük həyatı ilə zamanın çərçivəsinə sığmayan bir insan sözə heç vaxt sığa bilməz. Çünki, bu tarixi şəxsiyyətin fəaliyyətinin hər səhifəsi, hər mərhələsi əlli illik Azərbaycan tarixinin mərhələləri ilə üst-üstə düşür, bəzən, hətta indi arxada qalmış o tarixin bütövlükdə dərkini şərtləndirir.

Heydər Əliyevin siyasi-mənəvi irsinə hər dəfə müraciət edəndə bu sahədə Azərbaycan xalqının mili-mənəvi dəyərlərinin necə dərin problemlərinin öz əksini tapdığının şahidi olursan.

Heydər Əliyevin 1969-ci ildə respublika rəhbərliyinə gəlişi Azərbaycan dilinə rəsmi münasibəti çox sürətlə və əsaslı sürətdə dəyişdirdi. Dövlət dili sahəsində fəaliyyətə respublika rəhbəri onun işlənmə sferasını və fəaliyyət dairəsini genişlənməkdən başladı.

Azərbaycan KP MK-nın 1969-ci il iyul plenumunda respublikanın rəhbəri seçilən Heydər Əliyevin gündəlik fəaliyyətinə, ümummilli siyasi xəttində Azərbaycan dilinə qayğı mühüm yer tuturdu. Rus dilini nə qədər gözəl öyrənib, həmin dildə ölkənin tanınmış ictimai-siyasi xadimlərinin belə qibtə etdikləri bir səviyyədə danışsa, nitqlər söyləsə, məruzələr etsə də doğma Azərbaycan dilinin cazibəsindən heç zaman qopmamışdı.

Sovet dövrünün ehkamları respublika rəhbərlərinindən bütün rəsmi tədbirlərdə yalnız rus dilində danışmağı tələb edirdi. Heydər Əliyev bu qaydanı formal olaraq pozmurdu, həqiqətən də, bütün qurultaylarda, plenumlarda məhz rus dilində çıxış edirdi. Lakin rəsmiyyətçilikdən kənara çıxmaq üçün azacıq imkan düşən kimi o, Azərbaycan dilinə müraciət edirdi. Özü də, demək olar, heç vaxt əvvəlcədən hazırlanmış mətnlərdən istifadə etmir, sözlərini sinədən deyirdi. 1972-ci illərin ortalarında yazıçıların biri ona «yoldaş Əliyev, Siz azərbaycanca nə gözəl danışırsınız»

deyəndə, Heydər Əliyev gülümsəyərək belə cavab vermişdi: «Sən niyə mənim rusca gözəl danışmağıma deyil, azərbaycanca danışmağıma təəccüb edirsən? Bu dil mənim ana dilimdir, mən bu dili bilməliyəm! Eləcə də hamımız». Bunlar adi sözlər deyildi, Bu sözlərin Azərbaycan ziyalıların milli tərbiyəsinə təsirinin gücü ana dilinə uzun müddətdən bəri davam edən çox soyuq münasibətə son qoya bildi [2].

Heydər Əliyevin bitkin elmi-nəzəri əsaslarla, praktik tətbiqə əsaslanan Azərbaycan dili siyasəti böyük uğurlar qazanıb desək, yanılmarıq. Vaxtı ilə öz doğma dilində danışa bilməyən, yaxud danışmaq istəməyən bir sıra yüksək vəzifəli dövlət məmurları Heydər Əliyevin ciddi tələbkarlığı nəticəsində indi Azərbaycan dilində sərbəst danışırlar.

Bununla bərabər, Heydər Əliyev hesab edirdi ki, Azərbaycanın milli ruhunun yüksəlişinə təkan verən şərtlərdən biri ana dilində təhsil almaqdır. Bu prosesin inkişaf etdirilməsi məqsədi ilə 1969-1982-ci illərdə respublikanın şəhərlərində, kənd və qəsəbələrində yüzlərlə uşaq bağçası və məktəb tikilib, istifadəyə verildi, ali məktəblərin sayı 12-dən 17-yə, bunlarda təhsil alan tələbələrin sayı isə 70 min nəfərdən 100 min nəfərə çatmışdı.

1978-ci ilin ən böyük hadisəsi – çoxlarının müqavimətinə baxmayaraq, Azərbaycan dilinə dövlət dili statusu verilməsi oldu. Heydər Əliyev Respublikaya rəhbərliyi dövründəki fəaliyyətinin nəticəsi olaraq, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət statusu təsbit edildi. Dövr baxımından, sözün əsl mənasında, qəhrəmanlığa bərabər olan bu addım gələcəyin müstəqil, yeni Azərbaycanı naminə atılmışdı.

Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi təsbit edilməsi və idarəçilikdə geniş işlədilməsi, demək olar, bütün böyük klassiklərin yubileylərinin Ümumittifaq miqyasında keçirilməsi, İmadəddin Nəsimiyə, Cəfər Cabbarlıya, Nəriman Nərimanova abidələrin ucaldılması, Azərbaycan mədəniyyətinin Sovet ittifaqında ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı şəkildə tədqiqi və nəşri və s. – bütün bunlar Heydər Əliyevin siyasətinin əməli nəticələridir. Böyük Vətəndaş bu fəaliyyəti son dərəcə yüksək siyasi məharət və peşəkarlıq səviyyəsində həyata keçirirdi.

Sovet dövlətinin çox qüdrətli bir dövründə Heydər Əliyev Azərbaycan dilinin dövlət dili olması barədə Konstitusiyaya xüsusi maddənin nəinki yazılmasına, eyni zamanda əlavə bir abzasın daxil edilməsinə də nail olmuşdu. Həmin abzas belə idi: «Azərbaycan SSR dövlət orqanlarında, mədəniyyət və maarif idarələrində Azərbaycan dilinin işlədilməsini təmin edir və onun hərtərəfli inkişafına dövlət qayğısı göstərir». Konstitusiyanın qəbul olunduğu dövr, onun törətdiyi çətinliklər nəzərə alınarsa, bu, böyük rəhbərin öz xalqına, öz dilinə, həqiqətən, qəhrəmanlığa bərabər xidməti idi.

«Böyuk qayıdış»dan sonrakı dövrün də öz çətinlikləri var idi. Cəmi bir il hakimiyyətdə olanlar dövlət dilinin adı Konstitusiyada «Azərbaycan dili» olmasına baxmayaraq, tələm-tələsik onu Mili Məclisdə «türk dili» ilə əvəz etmişdilər. Ölkə Prezidenti kimi Heydər Əliyev bu səhvin düzəldilməsi üçün xeyli əmək və vaxt sərf etməli oldu. Məsələlərin hərtərəfli müzakirələrindən sonra Azərbaycan Prezidenti, Konstitusiya Komissiyasının sədri Heydər Əliyev yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 5 noyabr 1995-ci ildə keçirilən iclasında müzakirələrin məntiqi nəticəsi kimi dövlət dilimizin adı barədə öz qəti fikrini bildirdi: «Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda bu gün deməliyik ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb, özünəməxsus adını götürüb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq heç bir nöqteyi-nəzərdən, həm fəlsəfi nöqteyi-nəzərdən, həm Azərbaycanın dövlətçiliyi nöqteyi-nəzərindən, ölkəmizin bu günü və gələcəyi nöqteyi-nəzərindən düz deyil». Əbədi yaşar

Prezidentimiz dövlət dilimizin adı sahəsində gördüyü işlər ölkəmizin, xalqımızın, mil-lətimizin, dövlətimizin adına uyğun olaraq, dövlət dilimizin adının da Azərbaycan dili olması ilə nəticələndi [3].

Heydər Əliyevin ana dilinə müraciət etməsi müəyyən mənada sanki, gözlənilmədən, bədahətən idi. Bunun dəqiq ifadə edilməsi sonralar olmuşdur. Artıq müstəqillik illərində Heydər Əliyev ana dilinə münasibətini, televiziya və informasiya texnologiyaları da daxil olmaqla, həyatımızın bütün sahələrində Azərbaycan dilinin mövqeyinin möhkəmləndirilməsinə dair xüsusi fərmanlarda və tədbirlərdə son dərəcə aydın ifadə edərək, eyni zamanda öz çıxışlarında da bu mövzuya müraciət edəcəkdir. Onun bu mövzuda çoxsaylı fikirlərindən birini xatırlamaq istərdik: “Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir”.

2001-ci ildə Ümummilli Liderimizin imzaladığı “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərman isə yalnız cari bir sənəd deyil, xüsusi tarixi əhəmiyyət daşıyan böyük siyasi hadisə idi. Məhz Ulu Öndər Heydər Əliyevin yürütdüyü dil siyasətinin nəticəsində bütün dövlət və qeyri-hökumət təşkilatlarında, indiyə qədər Azərbaycan dilindən istifadə etməmiş qurumlarda dövlət dili bərqərar edildi. Latın qrafikasına keçid prosesi başa çatdırıldı. 30 sentyabr 2002-ci ildə isə Ulu Öndər Heydər Əliyev tərəfindən “Azərbaycan Respublikasında dövlət dili haqqında” Qanun təsdiq olundu. Bu sənədə görə, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Qanun Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır və xeyli dərəcədə təkmilləşdirir. Ulu Öndər Heydər Əliyevin qərarı ilə 1 avqust tarixi hər il “Azərbaycan Əlifbası” və «Azərbaycan Dili Günü” kimi qeyd olunur. Müstəqilliyimizin 10-cu ildönümünə həsr olunmuş mərasimdə Ümummilli Lider demişdir: “Bu on ildə bizim ən böyük nailiyyətlərimizdən biri Azərbaycan dövlət dilinin, ana dilinin hakim olmasıdır. Biz bütün dünyaya nümayiş etdiririk ki, dünyada Azərbaycan xalqı var, Azərbaycan milləti var, Azərbaycan dili var”. Ümummilli Lider Heydər Əliyevin məşhur bir fikrini dönə-dönə xatırlamaqla duyduğumuz qürurun böyük mənası var: “Millətin milliliyini saxlayan onun dilidir”. Həmçinin, bundan əlavə, qəbul edilən digər Fərman və sərəncamlar əsasında dilimizin inkişafı, ana dilində təhsilin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Məhz Ümummilli Liderimizin zəngin təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mənəviyyatımıza dərindən bələd olması və bağlılığı sayəsində 60-cı illərin sonlarından başlayaraq həyata keçirilən dil siyasəti doğma dilimizin günbəgün saflaşmasına, zənginləşməsinə və inkişaf etməsinə şərait yaratdı” [7].

Ümummilli Liderin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev də dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Qətiyyətlə deyə bilərik ki, bu gün dilimizin inkişafının əsas qarantı da məhz ölkə Prezidentinin özüdür. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşıb. Ölkə rəhbərinin hələ 18 il öncə, 2004-cü il yanvarın 12-də

"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"kı sərəncamı əlifba ilə bağlı problemləri aradan qaldırdı. Dövlət başçısının sonrakı sərəncamlarında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi. Bu sahədə mühüm və uğurlu tədbirlərdən biri də ölkə rəhbərinin 18 il bundan əvvəl imzaladığı "Azərbaycan milli ensiklopediyasının nəşri haqqında"kı sərəncamı oldu. Bu sərəncamların nəticəsində qiymətli kitabların çapı mənəvi xəzinəmizin zənginləşməsində mühüm rol oynadı.

Prezident İlham Əliyev milli xüsusiyyətlərimizin saxlanmasında ana dili və ədəbiyyatımızın başlıca amillərdən olduğunu dəfələrlə diqqətə çəkərək demişdir: "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir". Ölkə Prezidenti İlham Əliyev bölgələrdə keçirdiyi görüşlərdə də həmişə dövlət atributlarına, xüsusilə də Azərbaycan dilinə, əlifbasına, mədəniyyətinə, incəsənətinə, milli adət-ənənələrinə xüsusi ehtiramla yanaşaraq onun dəyərlərindən söz açır. Prezident demişdir: "Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz – Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir". Sovet dönəmində Azərbaycan dilçilərinin dünyada gedən proseslərdən təcrid olunması ilə əlaqədar ölkəmizdə dilçilik sahəsində müəyyən boşluqlar yaranmışdı və bunları aradan qaldırmaq üçün dövlət başçısı İlham Əliyev 2013-cü il mayın 23-də "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqət çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir". Beləliklə, minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Və bu gün Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu milli siyasətin fonunda milli dilimizin – Azərbaycan dilinin mühafizəsi və inkişafı yönündə həyata keçirilən səmərəli tədbirlərin Prezident İlham Əliyev tərəfindən dövrün aktual çağırışlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilməsi Azərbaycan dilinin milli həmrəylik, bütövlük və identikliyi təmin edən əsas faktorlardan biri kimi çıxış etməsini şərtləndirib. Dövlət başçımızın dediyi kimi: "Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik".

Beləliklə, minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Məhz Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimizi uğurların əsasını təşkil edir.

Heydər Əliyevin dövlət quruculuğunda dil siyasəti və onu inkişaf etdirmək haqqında söylədiyi fikirləri belə ümumiləşdirmək və səciyyələndirmək olar:

1) xalqının mənəvi varlığı kimi ana dilini – Azərbaycan dilini sevmək; 2) ana dilini dərindən və mükəmməl öyrənmək; 3) ana dilinin tədrisini yüksəltmək və onu intensivləşdirmək; 4) dilin zəngin lüğət tərkibindən və söz ehtiyatından bacarıqla istifadə etmək; 5) dilin qayğısına qalmaq, onun saflığını qorumaq, onunla fəxr etmək; 6) dilimizin-nitqimizin gözəlliyini duymaq, öyrənmək, mənimsəmək və bu gözəlliyi hər zaman hər yerdə təbliğ etmək, bu dildə düzgün danışmaqla hamıya nümunə olmaq [4].

Heydər Əliyevin Azərbaycana, onun sosial-mədəni, elmi-intellektual, iqtisadi, siyasi inkişafına, milli-mənəvi intibahına həsr olunan, xalqımızın tarixində bütöv mərhələ təşkil edən fenomenal fəaliyyətində milli dil siyasəti həmişə həlledici yer tuturdu. Təkcə yaşanılan dövrü, müasir mərhələni yox, Azərbaycan ədəbiyyat və mədəniyyətinin bütöv milli mühitini əhatə edən dil siyasəti xalqın tarixi uğurlarına əsaslanaraq, söykənərək, böyük perspektivlərə istiqamətlənib [5].

İnsanın böyüklüyü, dühası hər şeydən əvvəl onun mənsub olduğu xalqa xidmətinin miqyası, əhatə dairəsi, praktik nəticələri, tarixi perspektivləri ilə ölçülür. Xalqının, millətinin tarixi yolunda müstəsna rol oynayan, taleyüklü vəzifələr, epoxal missiyalar həyata keçirən, beləliklə, ümumxalq, ümummilli dayağa, xilaskara dönən insanlar dünyanın ən böyük, əbədi xoşbəxtlərindəndirlər. Heydər Əliyev tariximizə yazılan taleyin xoş töhfəsi, əvəzolunmaz qisməti idi, xalqı daxilən, ruhən səfərbər edib böyük işlərə, böyük inkişafa istiqamətləndirmək üçün Tanrı payımız idi [6].

**Ədəbiyyat:**


1. Aforizmlər (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışlarından seçilmiş müdrik fikirlər). – Bakı: Azərbaycan Universiteti, 1997. - 38 s.
2. Axundov A. Heydər Əliyevin Azərbaycan dilinə qayğısı qəhrəmanlığa bərabər xidmət idi. - Dirçəliş - XXI əsr, 2004, N74-75
3. Məmmədov M. Azərbaycanın dövlət dilinin inkişafının yeni dövründə Heydər Əliyev nitqlərinin səfərbəredici ruhu. - Dirçəliş - XXI əsr, 2003, N 63
4. Xudiyev N. Dil siyasətinin uğurları. - Dirçəliş - XXI əsr, 2002, N 58
5. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. - Bakı: Təhsil, 1997. - 288 s.
6. Xudiyev N. Heydər Əliyevin dil siyasətinin uğurları. - Dirçəliş - XXI əsr, 2004, N 74-75
7. Azərbaycan dilinin inkişafında Heydər Əliyevin rolu // https://sesqazeti.az/news/analytics/948490.html


***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan, inkişaf dövrü, milli-mənəvi dəyərlər, dil siyasəti*

**Lala Ahmadova**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Languages, Professor***

# THE LANGUAGE POLICY IN HEYDAR ALIYEV'S STATE-BUILDING STRATEGY

## ABSTRACT

The great leader Heydar Aliyev is one of the most important personalities of our nation. The unparalleled services he rendered for Azerbaijan elevated Heydar Aliyev to the status of the National Leader. Every year, May 10 is celebrated by our people as a national holiday. As it is known, the era of progress and development of the Azerbaijani nation began with the ascent of the great leader Heydar Aliyev to power, whose 100th anniversary will be celebrated this year. The policy pursued by our National Leader, Heydar Aliyev, since the early 1970s in the direction of protecting the national and moral values of our people, studying our history accurately, increasing the role of our mother tongue, and protecting literary and artistic works, which emerged as the manifestations of the people's desire for freedom, from attacks, led to the awakening of the national spirit in society and gave an impetus to the national movement.

The President of Azerbaijan, Mr. Ilham Aliyev, who duly implements the ideas of the national leader, is very sensitive to our native language, national traditions, and ancient culture.

Thus, the Azerbaijani language, which has been formed for thousands of years and has survived to this day, symbolizes our nation's history and is a source of pride. Today, the existence of an independent state is a significant historic opportunity to protect our language and take a worthy place among the world's languages. The language policy founded by the great leader Heydar Aliyev is the basis of our success in this field.

***Keywords:*** *Heydar Aliyev, Azerbaijan, development period, national-moral values, language policy*

**Лала Ахмедова**

***Профессор кафедры Языков
Академии Государственного Управления
при Президенте Азербайджанской Республики,
доктор филологических наук***

## ЯЗЫКОВОЙ ВОПРОС В СТРАТЕГИИ ГЕЙДАРА АЛИЕВА ПО ГОСУДАРСТВЕННОМУ СТРОИТЕЛЬСТВУ

### РЕЗЮМЕ

Великий лидер Гейдар Алиев является одним из величайших личностей азербайджанского народа. Выдающиеся заслуги Гейдара Алиева в государственном управлении возвысили Гейдара Алиева до вершины Общенационального лидера. Ежегодно день рождения этого незаурядного политического деятеля 10 мая отмечается в нашей стране как национальный праздник. Как известно, эпоха прогресса и развития азербайджанского народа началась с приходом к власти великого лидера Гейдара Алиева, 100-летие которого будет отмечаться в этом году. Целенаправленная политика, проводимая Общенациональным лидером и направленная на защиту национально-нравственных ценностей нашего народа, изучение истории Азербайджана, повышение роли азербайджанского языка, охрану литературно-художественного наследия с начала 70-х годов прошлого века привела к пробуждению в обществе национального духа. Президент Азербайджана Ильхам Алиев, являясь политическим преемником Гейдара Алиева, также достойно претворяет в жизнь идеи Общенационального лидера, трепетно относится к нашему родному языку, национальным традициям, древней культуре.

Таким образом, азербайджанский язык, формировавшийся на протяжении тысячелетий и сохранившийся до наших дней, является символом нашего народа и предметом гордости. Сегодня существование Азербайджанского независимого государства является важной исторической возможностью с точки зрения защиты нашего языка. Языковая политика, заложенная великим лидером Гейдаром Алиевым, является основой нашего успеха в этой области.

***Ключевые слова:*** *Гейдар Алиев, Азербайджан, период развития, национально-нравственные ценности, языковая политика*

DOI:10.30546/dia.2.82.2023.207


UOT 327

**MEHMAN SÜLEYMANOV**

***Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyası, ehtiyatda olan polkovnik, tarix elmləri doktoru, professor***

*e-mail: smehman@mail.ru*

**NƏSRİN SÜLEYMANOVA**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent əvəzi***

*e-mail: nsdia.edu@gmail.com*

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA ALİ BAŞ KOMANDANLIQ İNSTİTUTUNUN QURUCUSU KİMİ

## Giriş

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ən mürəkkəb şəraitdə öz xalqının xilaskarlıq missiyasını üzərinə götürmüş bənzərsiz dövlət xadimlərindən biridir. O da bəllidir ki, Heydər Əliyevi başqa siyasətçilərdən fərqləndirən başlıca xüsusiyyət onun ən çətin şəraitdə belə bir çoxlarının görə bilmədiyi ən doğru vasitələri tapıb qarşıda dayanan vəzifələrin yüksək icrasına nail ola bilməsi idi.

Azərbaycan Respublikasının müstəqil dövlət quruculuğunun bütün sahələrində, eləcə də hərbi təhlükəsizliyinin təmin edilməsi sahəsində gördüyü əzəmətli işlər Heydər Əliyevin mahir siyasətçi, böyük qurucu olduğunu bir daha sübut edir. O, yaxşı başa düşürdü ki, Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, hərbi təhlükəsizliyinin təmin edilməsinə hesablanmış hərbi siyasəti səmərəli şəkildə həyata keçirmək üçün əsas şərtlərdən biri daxili ictimai-siyasi sabitliyin təmin edilməsi, xalqın bütün təbəqələrinin ümumdövlət mənafelərini əks etdirən ümummilli məqsədlər ətrafında birləşməsinə nail olunmasıdır. Heydər Əliyevin çox doğru şəkildə daxili hərbi-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, xalqın birliyinin təmin edilməsinin əhəmiyyətini düzgün qiymətləndirdi və onların əldə edilməsinə də nail oldu.

## Ordu Quruculuğu və Ali Baş komandanlıq İnstitutunun formalaşması

1993-cü il Gəncə və Lənkəranda baş vermiş hadisələrin, eləcə də 1994 və 1995-ci illərdə dövlət çevrilişinə göstərilən cəhdlərin qarşısının alınması Heydər Əliyevin böyük siyasət xadimi olduğunu artıq nümayiş etdirmişdir. Bu hadisələr həmin illərdə respublikada ictimai-siyasi sabitliyin bərqərar olmasına, cəmiyyətin vahid məqsəd ətrafında daha çox səfərbər edilməsinə, ölkənin müdafiə qüdrətinin möhkəmlənməsinə şərait yaratdı.

Heydər Əliyev Bakıya dəvət olunanda Azərbaycan Ordusunda ağır böhran mövcud idi.

Heydər Əliyev dövlətin dərin hərbi-siyasi böhranla qarşılaşmasının başlıca səbəblərindən birini vahid rəhbərliyin, yəni Ali Baş Komandanlıqda təmsil olunan mərkəzləşdirilmiş rəhbərliyin olmamasında görürdü. Çünki belə rəhbərliyin olmaması həm ölkənin bütün imkanlarının vahid siyasət əsasında respublikanın ərazi bütövlüyünün müdafiəsinə istiqa-

mətləndirilə bilməməsinə, həm də hərbi qüvvələrin idarə edilməsinin nəzarətdən çıxmasına səbəb olurdu. Bakıya dönüşünün elə ilk günlərindən verdiyi bəyanatlarında o bu məsələyə xüsusi olaraq toxunurdu və Azərbaycan ordusuna dövlət nəzarətinin itirilməsini dövlət ərazilərinin erməni qüvvələri tərəfindən işğalına əlverişli zəmin yaratması kimi dəyərləndirirdi [1].

Ordudakı böhranın xarakterik tərəfləri aşağıdakılardan ibarət idi:

– orduya dövlət rəhbərliyi təmin edilməmişdi;
– ordu quruculuğu ilə bağlı aydın proqramı yox idi;
– dövlət və ordu arasında tənzimlənmə yox idi;
– orduya siyasi məsələlərə qarışmışdı;
– ordu daxilində siyasi mənsubiyyətə görə parçalanma yaranmışdı;
– ordu daxilində qanunsuzluqlar baş alıb gedirdi;
– sovet ordusundan miras qalmış hərbi əmlak talanırdı;
– orduya çağırış işi özbaşına idarə olunurdu;
– ordunun döyüş qabiliyyəti tələblərə cavab vermirdi;
– orduda vahid komandanlıq yox idi.

Qeyd edək ki, Heydər Əliyev dövlət ərazisinin və xalqın erməni təcavüzündən qorunması üçün hələ SSRİ dövründə müvafiq işlərin görülməli olmasının zəruriliyini vurğulayırdı. Amma bunun əksinə olaraq respublika rəhbərliyi müvafiq tədbirləri həyata keçirməkdən çəkindi [7].

Heydər Əliyev haqlı olaraq qeyd edirdi ki, Azərbaycan erməni təcavüzünə məruz qaldığı vaxtdan xalqın və torpaqların müdafiəsi üçün lazımi işlər görülməmişdi, müdafiə qüvvələri təşkil edilməmişdi. Hətta dövlət öz müstəqilliyini elan etdikdən sonra da Azərbaycan Ordusunun yaradılması istiqamətində ciddi bir fəaliyyət ortaya qoyulmamışdı [5].

Heydər Əliyev şübhə etmirdi ki, hətta 1991-ci ilin oktyabrında «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» Qanun qəbul olunmasından sonra ciddi ordu quruculuğu prosesinə başlansaydı erməni təcavüzünü cilovlamaq mümkün ola bilərdi [5].

Haqlı olaraq, Heydər Əliyev Azərbaycan Ordusunun vaxtında formalaşmamasının başlıca səbəbini məhz respublika rəhbərliyinin fəaliyyətinin səmərəsizliyində, ordu quruculuğuna rəhbərlik etməli olan Ali Baş Komandanlığın bu vəzifənin öhdəsindən gələ bilməməsində görürdü. Ali Baş Komandanlıq ölkədə hərbi idarəetmənin ən ali orqanıdır və ona görə də hərbi və hərbi-siyasi idarəçiliyin formalaşdırılmasının və onun praktiki fəaliyyətinin səmərəliliyi və keyfiyyəti ali baş komandanın dövlətçilik təcrübəsi və təşkilatçılıq məharəti ilə birbaşa bağlıdır. Onun rəhbərliyi altında qurulan idarəetmənin səmərəliliyi isə o zaman təmin edilmiş olar ki, bu fəaliyyət cəmiyyət quruculuğunun və hərb quruculuğunun qanunauyğunluqlarına, bu sahənin elmi-nəzəri bazasına dayaqlanmış olsun. Ali Baş Komandanlıq institutunun fəaliyyətinin düzgün qurulması ölkənin suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dövlətin müstəqilliyinin müdafiəsində tarixi əhəmiyyət kəsb edir.

Ali Baş Komandanlıq institutunun hərbi siyasətin formalaşdırılması ilə bağlı fəaliyyətinin aşağıdakı qanunauyğunluqlarını göstərmək olar:

– hərbi-siyasi şəraitin, habelə müvafiq real və potensial düşmənin, onun məqsəd və imkanlarının dərindən öyrənilməsi; ölkə daxili imkanların və beynəlxalq təsirin təhlili;
– hərbi siyasətin məqsəd və vəzifələrinin və onların davamlı olaraq həyata keçirilməsinin əsaslandırılması;
– hərbi-siyasi fəaliyyətin planlaşdırılması və proqnozlaşdırılması;
– hərbi siyasətlə müəyyənləşdirilmiş məqsəd və vəzifələrin ölkənin imkanlarına uyğunluq təşkil etməsi [9].

Məhz Ali Baş Komandanlığı özündə birləşdirmiş olan dövlət rəhbərliyi Azərbaycan «ərazisini qorumaq, vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün gərəkli olan ordu hissələri yaratmalı idi» [6].

Heydər Əliyev bildirirdi ki, Azərbaycan xalqının tarixi keçmişi, keçən əsrlərdə müxtəlif döyüşlərdə göstərdiyi rəşadət və qəhrəmanlıq nümunələri onun əsrlərlə qəlbində yaşamışdır. Təbii ki, bu hissiyyatları oyatmaq lazım idi, bunları hərəkətə gətirmək lazım idi [2]. Bunun üçün isə Ali Baş Komandanlıq institutu formalaşdırılmalıydı.

Ordunun formalaşması strategiyasına Heydər Əliyevin tarixi fəaliyyətinin ilk addımları Naxçıvanda atdı. Elə ordaca Heydər Əliyev parlaq zəkası və bənzərsiz təşkilatçılıq qabiliyyəti ilə milli hərbi hissənin sağlam əsaslar üzərində formalaşmasını təmin etdi və bununla da respublikanın iqtidarında olan qüvvələrə də dövlətçilik nümunəsi göstərdi.

Ordu quruculuğunun səmərəliliyinə nail olunmasının başlıca şərtlərindən birini Heydər Əliyev məhz xalqın gücünə arxalanmaqda görürdü. Milli lider ölkə həyatının mürəkkəb anlarında da xalqı ayağa qaldırmağı və milli mənafelər ətrafında onu səfərbər etməyi bacarırdı.

Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, Ali Baş Komandanlıq institutun da formalaşmasında yeni bir təfəkkür, yeni bir yanaşma ortaya qoydu. Mövcud olan çətinliklərə baxmayaraq, bu institutun formalaşdırılması üçün qətiyyətli tədbirlər həyata keçirildi, yol verilən nöqsanlar aradan qaldırıldı. Tarixi baxımından çox qısa müddətə Azərbaycanda dövlətin və xalqın maraqlarına cavab verən, habelə səmərəli fəaliyyət göstərən Ali Baş Komandanlıq institutu formalaşdırıldı və bununla Azərbaycanın hərbi tarixində yeni bir səhifə yazıldı.

Ordu quruculuğunda yeni bir mərhələnin başlanğıcı Heydər Əliyevin 2 noyabr 1993-cü il radio və televiziya ilə birbaşa müraciəti ilə qoyuldu. Prezident xalqa çağırışda sağlam ordu quruculuğunun əsaslarını və bu istiqamətdə xalqın və dövlətin qarşısında dayanan mühüm vəzifələri müəyyənləşdirən konseptual bir sənədi ortaya qoydu. Xalq bu çağırışa dəstək verdi. Beləliklə, Heydər Əliyev böyük dövlətçilik təfəkkürü ilə xalqın potensialını ordu quruculuğu kimi mühüm bir sahəyə səfərbər edə bildi.

### Ali Baş Komandanlıq İnstitutunun hüquqi bazası

Ali Baş Komandanlıq institutunun formalaşdırılması ilk növbədə Heydər Əliyevin praktiki fəaliyyətində öz əksini Ali Baş Komandanlıq institutunun hüquqi bazasının yaradılması ilə başladı. Bununla bağlı Milli Məclis tərəfindən qanun qəbul edildi. «Müdafiə haqqında» Azərbaycan Respublikasının Qanunu Heydər Əliyevin fərmanı ilə 1993-cü il noyabr ayının 26-da qüvvəyə mindi. Qanunda Azərbaycan Respublikasının müdafiə siyasətinin əsasları, Azərbaycanın müdafiəsinin təşkili istiqamətləri, müdafiə sahəsində dövlət orqanlarının səlahiyyət və vəzifələri, müdafiə sahəsində vətəndaşların vəzifələri, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin vəzifələri və s. məsələlər öz əksini tapmışdır. Qanunun 5-ci maddəsində Azərbaycan Respublikası Prezidentinin Silahlı Qüvvələrin Ali Baş Komandanı statusu təsbit edilmiş və onun vəzifələri müəyyənləşdirilmişdir [8].

Heydər Əliyevin Ali Baş Komandanlıq institutunun formalaşdırılması ilə bağlı tarixi xidmətini sadalasaq aşağıdakı kimi kateqoriyalaşdırmaq olar:

– onun tərəfindən bu ali hərbi-siyasi idarəetmə orqanı ilə bağlı bütün sahələrin;
– hərbi təhlükəsizlik şəraitinin qiymətləndirilməsi;
– hərbi siyasətin müəyyənləşdirilməsi;
– hərbi idarəetmənin təşkilatlandırılması;
– hərbi təşkilatın tərkib hissələrinin yaradılması;
– hərbi siyasətin müəyyən etdiyi vəzifələrin icrasının təşkili;

- müdafiə məsələləri ilə bağlı ölkənin bütün qurumlarının vəzifələrinin konkretləşdirilməsi və onların əlaqələndirilməsi;
- ön və arxa cəbhə arasındakı zəruri əlaqələrin qurulması;
- dövlətin maraqlarına cavab verə biləcək səviyyədə həll edilməsi.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev hələ ilk çıxışlarından başlayaraq Azərbaycanın müdafiə siyasətinin ümumi istiqamətlərini xalqa bəyan etmişdir. Hələ Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildiyi vaxtda Heydər Əliyev bildirmişdir ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunması, möhkəmləndirməsi və inkişaf etdirməsi dövlət rəhbərliyi qarşısında dayanan başlıca vəzifədir. Təbii ki, onun müdafiə siyasəti ilə bağlı irəli sürdüyü vəzifələr də bu başlıca vəzifənin həyata keçirilməsinə xidmət edirdi [3].

Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış Azərbaycan Respublikasının müdafiə siyasətinin əsasları «Müdafiə haqqında» Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Qanun Azərbaycan Respublikası «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktına və beynəlxalq hüquq normalarına əsaslanır. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının "Müdafiə haqqında" qəbul etdiyi qanun bütün dövlətlərlə dinc yanaşı yaşamaq prinsiplərini və öz müdafiə qabiliyyətini təcavüzdən qorunmaq üçün əsas prinsip kimi tutur. Azərbaycan bütün dövlətlərlə dinc, yanaşı yaşamağa, dövlətlərin ərazi bütövlüyünə hörmətlə yaşamağa üstünlük verir.

Bütünlükdə Azərbaycan Respublikasının hərbi siyasətinin əsasları «Müdafiə haqqında» Azərbaycan Respublikasının Qanununda aşağıdakı kimi təsbit olunmuşdur:

"Azərbaycan Respublikasının müdafiəsi dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün, suverenliyinin və əhalinin təcavüzdən qorunmasının təmin olunması məqsədilə dövlət tərəfindən həyata keçirilən siyasi, iqtisadi, hüquqi, hərbi və sosial tədbirlər sistemidir".

Azərbaycan Respublikasının müdafiəsi Silahlı Qüvvələrin, iqtisadiyyatın, əhalinin, ərazinin müdafiəyə daim hazır olmasına əsaslanır və bu müddəalar dövlətin hərbi doktrinasında qeyd edilir [8]. Heydər Əliyevin rəhbərliyi altında keçirilən islahatların ilkin variantı olaraq qəbul edilən «Müdafiə haqqında» Qanuna əsasən Azərbaycanın müdafiəsinin təşkili ilə bağlı müəyyənləşdirilmiş əsas vəzifələr aşağıdakı kimi kateqoriyalaşdırılmışdır:

- dövlətin hərbi siyasətinin və hərbi doktrinasının formalaşdırılması;
- təcavüzün qarşısının alınması üçün beynəlxalq aləmdə beynəlxalq hüquqi normalara uyğun olaraq müvafiq tədbirlərin görülməsi;
- hərb elminin inkişaf mərhələləri və təkminləşdirilməsi;
- müdafiə və hərbi quruculuq məsələlərinin hüquqi bazasının yaradılması və tənzimlənməsi;
- Silahlı Qüvvələrin strukturunun hazırlanması, formalaşdırılması və təkmilləşdirilməsi, yüksək döyüş qabiliyyətinin, müasir döyüş təlimlərinin keçirilməsi, döyüş və səfərbərlik hazırlığının saxlanması;
- dövlətin hərbi-texniki siyasətinin hazırlanması və təkminləşdirilməsi, digər qabaqcıl dövlətlərin hərbi-texniki siyasətindən bəhrələnməsi, Silahlı Qüvvələrin silah, hərbi texnika, ərzaq, geyim və digər material ehtiyatları ilə təmin olunması;
- dövlət orqanlarının, iqtisadiyyatın, əhalinin və ölkə ərazisinin müharibə dövründə fəaliyyət göstərməsi üçün səfərbərlik hazırlığı;
- dövlət sərhədinin mühafizəsi;
- ölkənin əhalisinin və ərazisinin müdafiəyə hazırlığı;
- dövlət sirrinin qorunmasının təmin edilməsi və mühafizəsi konsepsiyasının hazırlanması [8].

"Müdafiə haqqında" Qanun uzun müddətə nəzərdə tutulmuş və müdafiə siyasətinin ümumi istiqamətlərini özündə əks etdirən bir konsepsiyadır. Amma dəyişən təhlükəsizlik şəraiti ölkənin müdafiəsinin, bütünlükdə hərbi təhlükəsizliyinin təmin edilməsi ilə bağlı konkret, yeni, aktual tələblər irəli sürə bilər. Bununla bağlı konkret vəzifələr Ali Baş Komandanın rəhbərliyi altında müəyyənləşdirilir, onun rəhbərliyi və təşkilatçılığı altında da həyata keçirilir. Hər bir ölkənin müdafiə və ya hərbi siyasətinin xarakterini və mahiyyətini müəyyənləşdirərkən Ali Baş Komandanın mövqeyi və fəaliyyət istiqamətləri də öyrənilməlidir. Nəzərə almaq lazımdır ki, istər müvafiq qanunvericilik və hüquqi sənədlərin hazırlanmasında, istərsə də həmin sənədlərin tələblərinin icra edilməsində Ali Baş Komandanın mövqeyi həlledici rola malik olur.

"Müdafiə haqqında" Qanunda hərbi təşkilatının yaradılmasını və hərbi idarəetmənin təşkilatlandırılmasını da daxil etmək mümkündür. Burdan irəli ölkənin müdafiəsinin təşkilində və bu vəzifələrin icrasında Ali Baş Komandanlığın böyük rolu dayanmaqdadır. Ali Baş Komandanlıq institutu ölkənin hərbi təşkilatına daxil olmaqla yanaşı, həm də ali idarəetmə orqanıdır. Bu mənada Ali Baş Komandanın təcrübəsi, təşkilatçılığı, qətiyyəti və digər keyfiyyətləri həm ölkənin hərbi təşkilatının, həm də hərbi idarəetmənin təşkilatlandırılmasında mühüm rola malikdir.

**Nəticə**

Nəticə olaraq, Heydər Əliyevin rəhbərliyi və təşkilatçılığı altında Ali Baş Komandanlıq institutunun əsas funksiyası kimi prioritet pillə olan Vətənin müdafiəsi funksiyası yeni məzmun və yeni strategiya kəsb etmişdir. Bu funksiya ümumxalq işinə çevrilmişdir. Silahlı Qüvvələrin Ali Baş Komandanı xalqın istək və arzularını, onun iradəsini və müstəqil yaşamaq istəklərini əks etdirərək bütün cəmiyyəti müdafiə işlərinə səfərbər edə bilmiş, xalqın gücünü dövlətin gücü ilə birləşdirərək və onu real qüvvəyə çevirmişdir.

Heydər Əliyev hər zaman bildirirdi ki, «mən Azərbaycan Prezidenti kimi daim xalqa arxalanmışam, xalqı həmişə özümün ən güclü dayağım hesab etmişəm». Xalq da Ümummilli Liderini unutmamış, onun layiqli davamçısı olan İlham Əliyevin arxasında bir yumruq kimi səfərbər olmuşdur (4).

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin bəyanatı. 2 iyul 1993-cü il/Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.23
2. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin 83-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitq. 26 iyun 2001-ci il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.380
3. Azərbaycan Respublikası Milli Məclisinin iclasında çıxış. 15 iyun 1993-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.14-15
4. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi münasibətilə Milli Qvardiya qərargahında keçirilən bayram mərasimində nitq. 28 may 1998-ci il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.308
5. Cəbhəyanı rayonlarda yaranmış vəziyyətlə əlaqədar Ağcabədi və Gəncədə keçirilmiş müşavirələrdə yekun çıxışı. 12 dekabr 1993-cü il/ Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.106
6. Hərbi xidmətdən yayınmış, fərarilik etmiş və digər hərbi cinayətlər törətmiş şəxslərin valideynləri ilə keçirilən görüşdə nitq. 18 oktyabr 1995-ci il. /Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.231
7. Naxçıvan qarnizonu «N» hərbi hissəsinin şəxsi heyəti ilə görüşdə nitq. 11 oktyabr 1999-cu il / Heydər Əliyev və ordu quruculuğu. Bakı, 2008, s.341
8. «Müdafiə haqqında» Azərbaycan Respublikasının Qanunu
9. Süleymanov M. Azərbaycanda Ali Baş Komandanlıq institutunun Heydər Əliyev mərhələsi, Bakı, «Elm və təhsil», 2018, 728 səh

***Açar sözlər:*** *Ali Baş komandanlıq, Ali Baş komandanlıq institutunun nəzəri və hüquqi bazası, Heydər Əliyev*

**Mehman Suleymanov**

***Military Academy of the Armed Forces of the Republic of Azerbaijan***
***Reserve Colonel, Professor, Dr. of Historical Sciences***

**Nasrin Suleymanova**

***The Academy of Public Administration under the***
***President of the Republic of Azerbaijan,***
***Department of International Relations and Foreign Policy,***
***Associate Professor, Ph.D. in Political Sciences***

# HEYDAR ALIYEV AS THE FOUNDER OF THE SUPREME COMMAND INSTITUTE IN AZERBAIJAN

## ABSTRACT

The theoretical and legal foundations of Azerbaijan's Supreme Command Institute and its development into a real and effective supreme military-political management body are linked to the name and activities of the National Leader, Heydar Aliyev. At the time when the republic was going through a dangerous military and political crisis, Heydar Aliyev, who was invited to Baku in June 1993 as the head of the state at the request and insistence of the people, had as the priority of his activity the practical establishment of the Supreme Command Institute to ensure the territorial integrity of the country, to bring all activities under the control of single management, and to direct measures already taken and those that will be taken in the future to ensure the territorial integrity of the country under a unique system. Heydar Aliyev also laid the foundation for forming this supreme military-political governing body and specified its methodology to achieve this goal.

***Keywords:*** *Supreme Command, theoretical and legal basis of the Supreme Command Institute, Heydar Aliyev*

**Мехман Сулейманов**

***Военная академия Вооруженных Сил Азербайджанской Республики, полковник запаса, доктор исторических наук, профессор***

**Насрин Сулейманова**

***Преподаватель кафедры Международных отношений и внешней политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам, доцент***

# ГЕЙДАР АЛИЕВ – СОЗДАТЕЛЬ ИНСТИТУТА ВЕРХОВНОГО ГЛАВНОКОМАНДОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

## РЕЗЮМЕ

С именем и деятельностью Общенационального лидера Гейдара Алиева связано формирование в Азербайджане на теоретико-правовой основе института верховного главнокомандующего, его превращение в реальный и действующий высший военно-политический орган управления. В период углубления опасного военно-политического кризиса в республике Гейдар Алиев был приглашен в июне 1993 года в Баку по просьбе и настоянию народа. Одним из основных направлений его деятельности на посту главы государства стало практическое создание института верховного командования, осуществление мер по обеспечению территориальной целостности страны. Для достижения этой цели Гейдар Алиев заложил основы указанного органа высшего военно-политического управления.

***Ключевые слова:*** *Верховный Главнокомандующий, теоретико-правовая база института Верховного Главнокомандования, Гейдар Алиев*

UOT 338.1

**AZƏR ƏMİRASLANOV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "İqtisadiyyatın dövlət tənzimlənməsi" kafedrasının müdiri, iqtisadiyyat üzrə fəlsəfə doktoru, dosent***

*e-mail:amiraslanov@mail.ru*

# HEYDƏR ƏLİYEV MİLLİ İQTİSADİYYATIN QURUCUSUDUR

Azərbaycan Respublikasının müstəqil dövlət kimi təşəkkülündə və inkişafında, yeni dövrün tələblərinə cavab verən milli iqtisadiyyatımızın formalaşmasında Müasir Azərbaycanın Qurucusu, Ulu Öndər Heydər Əliyevin böyük və əvəzsiz xidmətləri vardır.

Ulu Öndər hər şeydən əvvəl Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi ilə yanaşı həm də onun qorunması ənənəsini yaratmışdır. Bu baxımdan, birmənalı şəkildə qeyd etmək lazımdır ki, dövlətçilik tariximizin ən çətin və məsuliyyətli, ən parlaq və şərəfli dövrü Ümummilli Liderin Azərbaycana rəhbərlik etdiyi illərlə bağlıdır. Bu tarixi dövrün siyasi-iqtisadi, sosial-mədəni aspektlərinin öyrənilməsi və tədqiq olunması hər zaman öz aktuallığını saxlayacaqdır. Çünki bu ölkəmizin bugünkü və gələcək inkişaf vektorlarının bir daha müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi baxımından olduqca əhəmiyyətli və vacibdir.

Ümummilli Lider Heydər Əliyevin titanik fəaliyyəti, xüsusilə də onun dövlət quruculuğu və sosial-iqtisadi islahatların həyata keçirilməsi sahəsində atdığı strateji addımlar milli iqtisadiyyatımızın əsaslarını yaratmaqla yanaşı, həm də Azərbaycanı regionun aparıcı güc mərkəzinə çevirmişdir.

Heydər Əliyevin «İqtisadiyyatı qüdrətli olan dövlət hər şeyə qadirdir» fikri bir daha təsdiq edir ki, Ümummilli Lider milli iqtisadiyyatımızın inkişafına, sosial-iqtisadi məsələlərə dövlət quruculuğunun mühüm tərkib hissəsi kimi böyük önəm vermişdir.

90-cı illərin ortalarından etibarən ölkəmizdə dövlət quruculuğu ilə iqtisadi quruculuq prosesinin bir-birini uğurlu bir şəkildə tamamlaması və uzlaşdırılaraq həyata keçirilməsi müstəqil dövlət kimi uğurlarımızı şərtləndirən başlıca amil kimi qiymətləndirilməlidir.

Ulu Öndər Heydər Əliyev yeni dövrün tələblərinə cavab verən və müstəqil dövlət kimi Azərbaycanın milli maraqlarını nəzərə alan iqtisadi strategiyanı, ölkəmizin iqtisadi sahədə strateji hədəflərini müəyyən etmiş və bu barədə demişdir: "Mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Məqsədimiz güclü iqtisadiyyatımızı qurmaqla, ədalətli və humanist sosial siyasətə nail olmaqdır. Məhz bu, dövlət siyasətimizin əsas prinsipləridir".

## İqtisadi islahatlara siyasi impuls

Nəzərə almalıyıq ki, dünyanın bir sıra inkişaf etməkdə olan ölkələri, o cümlədən Asiya "pələngləri" nəzərə çarpacaq iqtisadi tərəqqiyə bazar iqtisadiyyatına keçməklə nail olmuşlar. Lakin bu ölkələrdə azad iqtisadiyyatın inkişafına yönəldilmiş radikal iqtisadi islahatlar kursunun ardıcıl davam etdirilməsi güclü siyasi hakimiyyətin sayəsində mümkün

olmuşdur. Azərbaycanda da iqtisadi transformasiya prosesinin dönməz xarakter almasında Heydər Əliyevin siyasi qətiyyəti və iradəsi həlledici rol oynamışdır.

Hər bir ölkədə həyata keçirilən əsaslı iqtisadi dəyişikliklərin uğurla başa çatdırılması hər şeydən əvvəl cəsarətli siyasi qərarların qəbul edilməsindən, siyasi və ideoloji oriyentirlərin yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasından asılıdır. Siyasi impuls olmadan iqtisadi və institusional islahatları həyata keçirmək və uğurla başa çatdırmaq mümkün deyil.

Keçmiş ittifaq respublikalarının bir çoxundan fərqli olaraq Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın siyasi hakimiyyət sistemi sabit bir şəkildə idarə edilmişdir. Dövlət idarəçiliyi sistemində iyerarxiya prinsipinə ciddi şəkildə əməl edilməsi ölkənin vahid mərkəzdən idarə edilməsinin səmərəliliyini artırmışdır. Hakimiyyətin icra və qanunverici orqanları arasında konstruktiv əməkdaşlıq ölkədə vahid dövlət siyasətinin həyata keçirilməsinə əlverişli şərait yaratmışdır.

Heydər Əliyevin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət kursu Azərbaycanın dövlət maraqlarının qorunmasında mühüm rol oynamış, ölkəmizin beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət imkanlarını xeyli genişləndirmiş, sosial-iqtisadi inkişaf üçün uzunmüddətli perspektivlər açmışdır.

Müstəqillik illərində Heydər Əliyevin milli iqtisadiyyatımızın inkişafı üçün əsas xidmətləri bir tərəfdən ictimai-siyasi sabitliyin təmin edilməsi ilə, digər bir tərəfdən də iqtisadi islahatların aparılmasına ardıcıl siyasi dəstəyin verilməsi ilə izah olunur.

Xarici ekspertlər ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsini və milli iqtisadiyyatın formalaşdırılması sahəsində strateji addımların atılmasını ölkəmizin mövcud potensialının reallaşdırılması üçün "imkanlar pəncərəsi" kimi dəyərləndirirdilər.

İqtisadi islahatların həyata keçirilməsində beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlıq mühüm rol oynamışdır. Azərbaycan Respublikası Dünya Bankına və BVF-yə üzv-dövlət kimi 1992-ci ildə qəbul edilsə də, həmin təşkilatlarla intensiv əməkdaşlığa, birgə hazırlanmış iqtisadi proqramların və layihələrin həyata keçirilməsinə, kredit tranşlarının açılmasına əsasən 1995-ci ildən başlanılmışdır. Bu hər şeydən əvvəl onunla izah olunur ki, 1995-ci ilədək ölkəmizdə siyasi vəziyyətin qeyri-sabitliyi şəraitində beynəlxalq maliyyə təşkilatları Azərbaycanla fəal əməkdaşlığa meyl etmir və kreditlərin ayrılmasında gözləmə mövqeyi tuturdular.

Genişmiqyaslı islahatlar aparmadan, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrində köklü dəyişikliklər etmədən müəyyən edilmiş iqtisadi strategiyanın reallaşdırılmasına nail olmaq qeyri-mümkündür. İqtisadi islahatları isə yalnız güclü siyasi iradəyə və qətiyyətli mövqeyə malik olan dövlətlər uğurla həyata keçirə bilir. Bu baxımdan Heydər Əliyevin qəbul etdiyi radikal qərarlar islahatların dönməzliyinin təmin edilməsində həlledici rol oynamışdır.

**Dövlət müstəqilliyi və iqtisadi inkişaf**

Bəli! Azərbaycanın müasir tarixində dövlətçiliyin qorunması ənənəsinin yaranması Ümummilli Liderin adı ilə bağlıdır. Heç şübhəsiz, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından daha çətindir. Bunu müstəqil Azərbaycanın keçdiyi inkişaf yolu da bir daha təsdiq edir. Bu müddət ərzində dövlətimizə və onun müstəqilliyinə qarşı qəsdlər olsa da onların qarşısı qətiyyətlə alınmışdır.

Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafına şərait yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı və güclənməsi də dövlət müstəqilliyinin dayaqlarını daha da möhkəmləndirir. Dövlət müstəqilliyi iqtisadiyyatımızın milli maraqlarımıza uyğun inkişaf etdirilməsinə şərait yaratdı. Artıq Azərbaycanın siyasi müstəqillik əldə etməsi iqtisadi problemlərə milli iqtisadiyyatın inkişafı kontekstindən, dövlətçilik və milli maraqlar baxımından yanaşmağı tələb edir. Əgər Azərbaycan öz dövlət müstəqilliyini əldə etməsəydi və onu son illərə kimi qoruyub saxlaya bilməsəydi nə neft strategiyasını həyata keçirə bilərdik, nə də

ölkəmizin strateji əhəmiyyətə malik olan beynəlxalq iqtisadi layihələrdə iştirakı mümkün olardı.

Hər bir xalqın, millətin xoşbəxtliyi ilk növbədə onun müstəqil və güclü dövlətə malik olması ilə müəyyən olunur. Dövlət müstəqilliyi hər şeydən əvvəl onu qazanmış olan xalqın özünütəsdiqi və milli özünüdərki üçün bir şansdır. Belə bir tarixi şansdan faydalanan və ondan səmərəli istifadə edən xalqlar həm milli inkişafa daha tez nail olur, həm də sahib olduqları dövlətin dayaqlarını möhkəmləndirə bilirlər.

**Azərbaycan iqtisadiyyatı vahid xalq təsərrüfatı kompleksinin tərkibində**

Heydər Əliyevin hələ birinci dəfə respublika rəhbərliyinə gəlişindən öncə Azərbaycan iqtisadiyyatı dərin böhran keçirirdi. 60-cı illərdə sosial-iqtisadi inkişaf göstəricilərində ciddi geriləmə meyilləri müşahidə edilirdi. Xüsusilə də, respublikamız milli gəlirin artım tempinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, əmək məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geridə idi. Azərbaycan orta ittifaq göstəricisindən milli gəlirin həcminə görə 2 dəfə, əsas fondlara görə 1,8, kapital qoyuluşu üzrə 1,7 dəfə geri qalırdı. Aqrar-sənaye kompleksi üzrə istehsal səviyyəsi aşağı düşməkdə davam edirdi. Taxılın, pambığın, üzümün, tərəvəzin, çay yarpağının və başqa bitkilərin məhsuldarlığı aşağı səviyyədə idi.

Respublikanı belə bir ağır vəziyyətdən qurtarmaq üçün çıxış yolu axtarıb tapılmalı, iqtisadiyyatın inkişafı üçün yeni konseptual proqram işlənməli, köklü struktur dəyişiklikləri həyata keçirilməli idi. Bir sözlə, Azərbaycanın sosial-iqtisadi həyatında əsaslı dönüşə ehtiyac var idi. Belə bir dönüşü isə yalnız güclü, bacarıqlı, yüksək təşkilatçılıq keyfiyyətlərinə malik olan cəsarətli bir rəhbər edə bilərdi. Belə bir rəhbər məhz, Heydər Əliyev oldu.

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən az bir müddət sonra Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda etdiyi məruzədə respublika iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyəti hərtərəfli təhlil edir, sosial-iqtisadi və mədəni quruculuq sahəsində buraxılmış ciddi nöqsanları və çatışmazlıqları müəyyənləşdirir. Beləliklə, 1969-1970-ci illər Azərbaycanın iqtisadi və ictimai-siyasi həyatında dönüş mərhələsinin başlanğıcı olur.

Heydər Əliyevin yorulmaz fəaliyyəti və əzmkarlığı, misilsiz təşəbbüskarlığı və böyük təşkilatçılığı Azərbaycanın 70-80-ci illərdə əldə etdiyi uğurların əsasını qoyur. Bu illər ərzində görülmüş işlər ölkəmizin iqtisadi gücünün və potensialının formalaşdırılmasında həlledici rol oynayır. Lakin yaradılmış bu potensial nə 80-ci illərin sonlarında, nə də 90-cı illərin əvvəllərində qorunub saxlanmamışdır.

1970-1985-ci illərdə respublikamız güclü iqtisadi və intellektual-kadr potensialına malik olmaqla bir çox məhsulların istehsalına görə keçmiş "müttəfiq" respublikalar arasında qabaqcıl yerlərdən birini tuturdu.

Hələ SSRİ dağılmamışdan əvvəl ekspertlər siyasi müstəqilliyə iqtisadi cəhətdən tam hazır olan iki respublikadan biri kimi məhz, Azərbaycanı qeyd edirdilər. Çıxarılan belə bir nəticə ölkəmizin təkcə təbii sərvətlərinin zənginliyinə deyil, həm də milli iqtisadiyyatımızın inkişaf perspektivlərinə əsaslanırdı. Belə ki, keçmiş Sovet İttifaqı dövründə Azərbaycanın büdcəsinin gəlirləri xərclərindən bir qayda olaraq çox olurdu. Azərbaycanda həmçinin istehsal olunan milli gəlirlə istehlak olunan milli gəlir arasında birincinin xeyrinə böyük fərq əmələ gəlirdi.

Azərbaycan keçmiş ittifaqın tərkibində olan "müttəfiq" respublikalardan biri kimi son 70 ildə özünəməxsus iqtisadi inkişaf yolu keçib. Bəs respublikamız bu müddət ərzində mövcud maneələrə və məhdudiyyətlərə baxmayaraq öz iqtisadi potensialını, milli iqtisadi maraqlarını reallaşdıra bilibmi? Bu sualları cavablandırmağa çalışaq.

Sovet ittifaqının mövcud olduğu illərdə Azərbaycanın müstəqil iqtisadi siyasət həyata keçirmək imkanlarının məhdud olmasına baxmayaraq, ölkəmiz həmin dövrdə iqtisadi sahədə ciddi uğurlar əldə etmişdir. 1970-1985-ci

illərdə respublikamız iqtisadiyyatın bütün sahələrində güclü iqtisadi və kadr potensialına malik olmuşdur. Bir çox məhsulların istehsalına görə keçmiş SSRİ respublikaları arasında qabaqcıl yerlərdən birini tutmaqla, Azərbaycan həmin məhsulların əksər hissəsini müxtəlif regionlara göndərirdi.

1970-1985-ci illərdə xalq təsərrüfatının artım sürəti orta ittifaq səviyyəsindən yüksək olmuşdur. Həmin dövrdə respublikamızda istehsal olunan milli gəlir 2,6 dəfə, sənaye məhsulunun həcmi 2,7 dəfə, kənd təsərrüfatı məhsulu 2,3 dəfə artmışdır. Bu dövrdə həmçinin 211 yeni iri sənaye obyekti tikilib istifadəyə verilmişdir. 1986-cı ilin məlumatlarına əsasən ittifaq üzrə istehsal olunan məişət kondisionerlərinin 100 faizi, neft-mədən avadanlığının 70 faizi, elektrik mühərriklərinin 12 faizi, soyuducuların 6 faizi Azərbaycanda istehsal edilirdi. Eyni zamanda ittifaq üzrə istehsal olunan üzümün 27 faizi, tütünün 16 faizi, baramanın 13 faizi, pambıq mahlıcının 9 faizi, yaşıl çay yarpağının 5 faizi, tərəvəzin 3 faizi Azərbaycanın payına düşürdü.

Bu rəqəmlər sovet ittifaqının mövcud olduğu illərdə Azərbaycanın əsaslı iqtisadi inkişaf yolu keçdiyini göstərir. 80-ci illərdə yeni sənaye müəssisələrinin açılması, yeni maşın və avadanlıqların alınması SSRİ-nin digər respublikalarına nisbətən Azərbaycanda əsas kapitalın (əsas fondların) daha sürətlə artmasına səbəb olmuşdur.

Qeyd edilən dövrdə Azərbaycan iqtisadiyyatı vahid xalq təsərrüfatının tərkib hissəsi olsa da, Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda genişmiqyaslı iqtisadi quruculuq prosesinə start verilmişdir.

### Azad iqtisadiyyatın inkişafına konstitusion təminat

Heydər Əliyevin dövlət quruculuğu sahəsində atdığı strateji və siyasi xarakterli mühüm addımlardan biri də 1995-ci ilin noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi təşəbbüsü oldu.

Hər bir dövlətin Əsas Qanunu – Konstitusiyası həm də ölkənin hansı siyasi və iqtisadi inkişaf yolunu seçdiyini müəyyənləşdirir. Yeni Konstitusiya dövlət idarəçiliyinin formasını, vətəndaşların və dövlətin hüquq və vəzifələrini müəyyən etməklə yanaşı, həm də iqtisadi sistemin əsaslarını, dövlətin iqtisadi strategiyasının əsas prinsiplərini də özündə əks etdirmişdir.

Heydər Əliyev yeni Konstitusiyanın müəllifi kimi bir tərəfdən ölkədə dövlət idarəçiliyinin əsaslarını, digər tərəfdən də Azərbaycanın iqtisadi inkişaf modelinin əsas prinsiplərini təsbit etmişdir. Bu həm də iqtisadi ideologiyanın müəyyən edilməsi deməkdir. Mahiyyəti etibarı ilə iqtisadi ideologiya dövlətin iqtisadi strategiyasını, iqtisadi islahatların konseptual əsaslarını, seçilmiş iqtisadi modelin əsas prinsiplərini, ölkənin milli iqtisadi mənafeyi və maraqları ilə bağlı məsələləri özündə birləşdirir.

Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi ideologiya artıq Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Belə bir ideologiyanın əsasını hər şeydən əvvəl mülkiyyət münasibətləri təşkil edir. Mülkiyyətin toxunulmazlığı və onun dövlət tərəfindən müdafiə edilməsi artıq konstitusion müddəaya çevrilmişdir. Əsas Qanunda həm də qeyd edilir ki, Azərbaycan dövləti bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir. "İqtisadiyyatın inkişafı xalqın rifahının yüksəldilməsinə xidmət edir" müddəası isə iqtisadi siyasətin sosial yönümlü olmasını təsbit edir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən ölkəmizdə prezidentli respublika üsuli-idarəsinin seçilməsi iqtisadi sistemin transformasiyasının və radikal iqtisadi islahatların həyata keçirilməsinin sürətləndirilməsi baxımından özünü doğrultmuşdur. Təsadüfi deyildir ki, bir çox ekspertlər keçid mərhələsində olan ölkələr üçün prezidentli respublikaya əsaslanan dövlət idarəçiliyini daha məqsədəuyğun hesab edirlər.

Azərbaycan Respublikasının Konstitusiyası iqtisadi siyasətin hazırlanması və həyata keçirilməsi ilə bağlı olan bütün idarəetmə həlqələrinin iqtisadi idarəçilik sahəsində hüquq və səlahiyyətlərini, onların əsas vəzifələrini dəqiq müəyyən etmişdir. Belə ki, ali icra hakimiyyəti – Azərbaycan Respublikasının Prezidenti dövlətin iqtisadi və sosial proqramlarını təsdiq etməklə sosial-iqtisadi siyasəti müəyyən edir. Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanı kimi sosial-iqtisadi proqramların icrasını, yəni ölkə başçısı tərəfindən müəyyən edilmiş iqtisadi siyasətin həyata keçirilməsini təmin edir. Mərkəzi icra hakimiyyəti orqanları isə öz səlahiyyətləri daxilində müvafiq proqramların reallaşdırılmasında iştirak edir, dövlətin ayrı-ayrı sahələr üzrə müəyyən edilmiş siyasətini həyata keçirir.

Qeyd edilən müddəalar iqtisadi islahatların dönməzliyinə konstitusion təminat verməklə yanaşı, həm də bazar münasibətlərinin ölkənin iqtisadi həyatına daha dərindən nüfuz etməsi üçün hüquqi-ideoloji zəmin yaradır.

**Azad iqtisadiyyat və azad cəmiyyət**

Heydər Əliyevin sosialist təsərrüfat sisteminin mövcud olduğu illərdə Azərbaycanın rəhbəri, Sovet İttifaqı hökumətinin isə vəzifəcə ikinci şəxsi olmasına baxmayaraq, o 1993-cü ildən - müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk dövrdən müasir dünya düzəninin inkişaf meyllərini uzaqgörənliklə qiymətləndirərək, müasir cəmiyyətin qəbul etdiyi inkişaf yolunu seçdi. Bu yol isə iqtisadiyyat üzərində dövlət inhisarçılığının aradan qaldırılmasından, sahibkarlığın inkişaf etdirilməsindən, iqtisadi azadlığın təmin edilməsindən başlayır.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövr ərzində iqtisadiyyatın liberallaşdırılmasına yönəldilmiş tədbirlər eyni zamanda insan azadlığının və cəmiyyətin demokratikləşməsinin iqtisadi-ideoloji əsaslarının yaradılması kimi də qiymətləndirilə bilər. Azad cəmiyyət iqtisadiyyatın, xüsusilə də özəl bölmənin və sahibkarlığın inkişafına şərait yaratdığı kimi, azad iqtisadiyyat da cəmiyyətdə demokratik dəyişikliklərin sürətlənməsinə xidmət edir. Xatırlatmaq istərdik ki, Heydər Əliyev BVF-nin nümayəndə heyəti ilə görüşündə iqtisadiyyat və demokratiyanın qarşılıqlı əlaqəsinin mahiyyətini açan belə bir fikir söyləmişdir: “İqtisadi əsas olmasa, demokratiyanı yaratmaq mümkün deyil… Azərbaycanda ictimai-siyasi sabitliyin təmin edilməsi, iqtisadiyyatın tənəzzülünün qarşısının alınması və nəhayət, makroiqtisadi inkişafın əldə olunması – bunlar hamısı birlikdə Azərbaycanda həqiqi demokratiyanın yaranmasının əsaslarıdır.”

Ümummilli Lider güclü və inkişaf edən iqtisadiyyatı azad və demokratik cəmiyyətin formalaşdırılmasının həlledici və zəruri şərti hesab edirdi. Bəli! Milli iqtisadiyyatını formalaşdıra bilməyən, milli sərvətlərinə sahiblənməyən, yoxsulluq və səfalət, borc içərisində yaşayan ölkələr azad və demokratik cəmiyyət qura bilməzlər. Bu gün müstəqil Azərbaycan Respublikası özünün indiyə kimi topladığı iqtisadi gücü ilə təkcə azad cəmiyyətin qurulması üçün deyil, həm də heç kimdən asılı olmadan müstəqil siyasətin həyata keçirilməsi üçün möhkəm əsaslar yaratmışdır.

**«Əsrin müqaviləsi» Azərbaycanın strateji uğuru kimi**

Təcrübə göstərir ki, milli iqtisadiyyatını yenicə formalaşdırmaqda olan ölkələrin sosial-iqtisadi inkişafı ilkin mərhələdə sənayenin bir və ya iki sahəsindən asılı vəziyyətdə olur. Və həmin sahələr ölkədəki bir çox iqtisadi problemlərin həllində mühüm rol oynayır. Azərbaycanda da sosial-iqtisadi inkişaf üçün lokomotiv funksiyasını məhz neft sektoru yerinə yetirməkdədir. Bu baxımdan hesab edirik ki, bir çox maneələrə və təzyiqlərə baxmayaraq Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti nəticəsində 1994-cü ilin sentyabrın 20-də «Əsrin müqaviləsi»nin imzalanması ölkədə iqtisadi inkişafın əsasını qoydu. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, bu müqavilənin imzalanması ilə Azərbaycan həm də özünün siyasi və iqtisadi diplo-

matiya tarixində çox böyük bir uğuruna imza atmış oldu. Sevindirici haldır ki, əldə edilmiş bu nailiyyət sonradan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin reallaşması ilə tamamlandı.

Əsrin müqaviləsi böyük siyasi əhəmiyyətə malikdir. Onun imzalanması dövlət müstəqilliyimizin təsdiqi kimi qiymətləndirilir. Bu müqavilə Azərbaycanın regionda geostrateji mövqeyini daha da gücləndirmiş, dünyanın ən iri neft şirkətlərinin ölkə iqtisadiyyatına cəlb edilməsinə, dünyanın aparıcı dövlətləri ilə iqtisadi əlaqələrimizin daha da inkişafına, siyasi və iqtisadi diplomatiya sahəsində Azərbaycanın müstəqil dövlət kimi manevr etmə imkanlarının artmasına şərait yaratmışdır.

Əsrin müqaviləsinin iqtisadi əhəmiyyəti də çoxşaxəlidir. Belə ki, bu müqavilə ilə Azərbaycanın enerji təhlükəsizliyinin əsası qoyuldu. Xarici investisiyaların cəlb edilməsi üçün yaşıl işıq yandı. Ölkəmizin regional və beynəlxalq iqtisadi inteqrasiya prosesində yaxından iştirakına əlverişli şərait yarandı. Hazırda neft sektoru ölkənin makroiqtisadi göstəricilərinə, xüsusilə də iqtisadi artım tempinə, sənaye istehsalının və ixracatın həcminə, büdcə və valyuta gəlirlərinə həlledici təsir göstərməkdədir. Bu təbiidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, neft sektoru hələ müəyyən müddət iqtisadiyyatda həlledici rol oynayacaq.

### Neft gəlirlərinin səmərəli idarə edilməsi modeli

Dünya ölkələrinin təcrübəsinə istinadən qeyd etmək olar ki, hər bir ölkənin təbii sərvəti iqtisadi inkişaf üçün zəmin yaratsa da, onun həlledici şərti kimi çıxış etmir. Nə qədər təzadlı görünsə də dünyanın zəif inkişaf etmiş ölkələrinin əksəriyyəti təbii ehtiyatları zəngin olan ölkələrdir. Belə bir təzad həmin ölkələrdə mövcud iqtisadi potensialın reallaşdırılmasına şərait yaradan səmərəli iqtisadi sistemin yaradılmamasının nəticəsidir. Burada ABŞ-ın 26-cı prezidenti Teodor Ruzveltin bu ölkənin iqtisadi potensialı ilə bağlı söylədiyi fikrini xatırlatmaq istərdik. O demişdir: "Bizim dövlətin böyüklüyü və qüdrəti malik olduğumuz sərvətlərlə deyil, bu sərvətlərdən necə istifadə etməyimizlə müəyyənləşir".

Ulu Öndər Heydər Əliyev də məhz böyük şəxsiyyətlərə xas olan uzaqgörənliklə bu gerçəkliyi nəzərə alaraq, neft gəlirlərinin idarə edilməsinin ən effektiv modelini yaratdı. Bu model neft-qaz ixracından əldə edilən valyuta gəlirlərinin Neft Fondunda toplanılmasını və həmin vəsaitlərin mərkəzləşdirilmiş qaydada istifadəsini nəzərdə tutur.

Böyük məbləğdə neft gəlirlərinin səmərəli idarə edilməsi baxımından Neft Fondu hazırda mühüm rol oynayaraq üç mühüm makroiqtisadi funksiyanı yerinə yetirir: birincisi, neft dollarının ölkənin valyuta bazarına təzyiq göstərməsinə imkan vermir; ikincisi, dividentlər hesabına öz həcmini artırır; üçüncüsü, ölkənin maliyyə sistemini "neftsiz iqtisadiyyat rejimi"nə uyğunlaşdırır.

### İnstitusional islahatlar və idarəetmə sistemində dəyişikliklər

İdarəetmə islahatları bir qayda olaraq yalnız azad iqtisadiyyatın inkişafına və bürokratik meyllərin aradan qaldırılmasına, çevik idarəçiliyə və koordinasiyaya şərait yaratdığı halda yüksək iqtisadi və təşkilati effektə malik olur. Ümumiyyətlə, dövlət idarəetmə sistemində islahatlar ağrılı və çətin prosesdir. Lakin siyasi hakimiyyəti güclü və sabit olan ölkələrdə iqtisadi islahatlar və struktur dəyişiklikləri daha davamlı və rəvan bir şəkildə həyata keçirilir. Çünki hakimiyyətin siyasi gücü həmin islahatların aparılması yolunda qarşıya çıxan "maneələri" asanlıqla dəf etməyə imkan verir. Heydər Əliyevin milli iqtisadiyyatın formalaşması və inkişaf etdirilməsi, o cümlədən idarəetmə və dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi sahəsində qəbul etdiyi qərarlar bunu bir daha təsdiq edir.

Bütün postsosialist ölkələri və keçmiş ittifaq respublikaları kimi Azərbaycan da bazar iqtisadiyyatına keçid prosesinə qəbul edilmiş ümumi "reseptlər" əsasında başlamışdır. Bu mənada transformasiya dövrünü yaşayan ölkə-

lərdə iqtisadi islahatların gedişi və onun mərhələləri bir-birindən demək olar ki, fərqlənmir. Başlıca fərq həmin ölkələrin seçmiş olduğu tənzimləmə və idarəetmə modelindədir. Sözsüz ki, iqtisadi potensialı, sənaye strukturu, milli iqtisadi maraqları, geopolitik mövqeyi, yeni iqtisadi münasibətlərin formalaşması sürəti bir-birindən fərqli olan ölkələrin tənzimləmə modeli və idarəetmə sistemi də eyni ola bilməz. Bunu nəzərə alaraq Heydər Əliyev tərəfindən Azərbaycanda sosial-iqtisadi inkişafın spesifik xüsusiyyətlərini və mövcud reallıqlarını nəzərə alan iqtisadi tənzimləmə modeli və idarəetmə sistemi qurulmuşdur.

Azərbaycanda iqtisadi islahatların institusional problemlərinə, xüsusilə də iqtisadiyyatın idarə edilməsinin təşkilati strukturunun təkmilləşdirilməsinə, bazar infrastrukturunun formalaşdırılmasına, islahatların kadr təminatı ilə bağlı problemlərin həllinə Ümummilli Lider tərəfindən xüsusi diqqət yetirilirdi. Onun tərəfindən "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" 29 dekabr 1998-ci il tarixli Fərmanın imzalanması idarəetmə islahatlarının konseptual əsaslarının hazırlanması və bu prosesin geniş miqyasda həyata keçirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etmişdir.

Dövlət idarəetmə sisteminin yenidən qurulması prosesində diqqət yetirilməli mühüm məsələlərdən biri də idarəetmə islahatlarının iqtisadi islahatların tempi ilə düzgün əlaqələndirilməsidir. Yəni idarəetmə sisteminin restrukturizasiyası ilə yeni iqtisadi sistemin formalaşması və iqtisadi münasibətlərin yeniləşməsi bir-birini tamamlamalıdır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Heydər Əliyev idarəetmə sisteminin təkmilləşdirilməsi ilə aparılan iqtisadi islahatların sinxronlaşdırılmasını təmin etmiş və bu da öz növbəsində iqtisadiyyatın effektiv tənzimlənməsinə əlverişli şərait yaratmışdır.

### Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi

Hər bir ölkədə idarəetmə və dövlət nəzarəti sisteminin xüsusiyyətlərini mövcud iqtisadi münasibətlərin xarakteri müəyyənləşdirir. Bu mənada ölkəmizdə bazar münasibətlərinin tədricən formalaşması, iqtisadiyyatın liberallaşması dövlət idarəetmə və nəzarət sistemində keyfiyyət dəyişikliklərinə səbəb olmuş və bu sistemin fəaliyyətinə yeni məzmun vermişdir.

İstənilən iqtisadi sistem özünə uyğun idarəetmə və tənzimləmə mexanizminin yaradılmasını tələb edir. Nəzarət sistemi isə dövlət idarəetmə sisteminin tərkib hissəsi və onun bir qolu olduğuna görə hüquqi dövlət, demokratik cəmiyyət və azad iqtisadiyyat kimi prinsiplər bu sistemdə də nəzərə alınmaya bilməz.

Heydər Əliyev dövlət idarəetmə aparatının təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri kimi dövlət nəzarəti sisteminin yenidən təşkilinə də xüsusi diqqət yetirmişdir. Ümummilli Liderin imzalamış olduğu iki mühüm sənəd – «İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə» 1996-cı il 17 iyun tarixli və «Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişaf etdirilməsi sahəsində süni maneələrin aradan qaldırılması haqqında» 1999-cu il 7 yanvar tarixli fərmanlar bir çox hallarda nəzarətsizliyə səbəb olan dövlət nəzarəti sistemində radikal dəyişikliklərin əsasını qoydu.

Ümumiyyətlə dövlət nəzarəti sistemində aparılan əsaslı dəyişiklikləri, heç də dövlət nəzarətinin yumşaldılması və ya aradan qaldırılması kimi xarakterizə etmək olmaz. Dövlət heç bir halda qanunların pozulmasına, dövlət əmlakı və vəsaitinin dağıdılmasına, mənimsənilməsinə göz yuma bilməz. Əksinə, hüquqi dövlət quruculuğu və iqtisadi sistemin transformasiyası dövrünü yaşayan bir ölkə kimi Azərbaycanda dövlət nəzarəti daha da sərtləşdirilməlidir. Bu sərtlik isə «məqsədli» əsassız yoxlamaların aparılması ilə deyil, qanun pozuntularının aşkar edilməsi və onun nəticələrinin aradan qaldırılması ilə müəyyən edilir. Bir sözlə, Heydər Əliyevin rəhbərliyi ilə nəzarət sistemində aparılan islahatlar dövlət nəzarətinin yumşaldılmasına yox, onun təkmilləşdirilməsinə, səmərəliliyinin artırılmasına və bu sistemin bazar iqtisadiyyatının tələblərinə uyğun yenidən təşkilinə yönəldilmişdir.

### Makroiqtisadi sabitliyin təmin edilməsi

1990-1995-ci illərdə ÜDM-in həcmi hər il orta hesabla 15 faiz azalırdı. İqtisadi artım tempinin aşağı düşməsi inflyasiya ilə müşayiət edildiyinə görə 90-cı illərin əvvəllərində staqflyasiya müşahidə edilirdi. Azərbaycanda 1991-ci ildən başlayan və 6 il davam edən iqtisadi tənəzzülün qarşısı yalnız 1996-cı ildə alınmışdır. İqtisadi artım artıq davamlı xarakter daşıyır. İqtisadi artımın yüksək tempi nəticəsində ÜDM-in adambaşına düşən həcmi də artmışdır.

90-cı illərin əvvəllərində Azərbaycan iqtisadiyyatını inflyasiya deyil, məhz hiperinflyasiya bürümüşdür. Çünki inflyasiyanın səviyyəsi artıq 1000 faizi keçmişdir. 1994-cü ildə Heydər Əliyev sərt pul-kredit və maliyyə siyasətinin həyata keçirilməsini nəzərdə tutan «Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında» fərman imzaladı. Həmin fərman əsasında ölkədə ardıcıl antiinflyasiya tədbirlərinə başlanıldı. Artıq 1996-cı ildən etibarən inflyasiya tədricən azaldıldı.

Ölkədə əhalinin sosial müdafiəsi maliyyə sabitliyindən bilavasitə asılıdır. Yüksək inflyasiya şəraitində həyat səviyyəsini nəinki yüksəltmək, hətta qoruyub saxlamaq mümkün deyil. Qeyd etmək lazımdır ki, əgər inflyasiyanın tempi əmək haqqının artım tempini qabaqlayırsa deməli əhalinin alıcılıq qabiliyyəti aşağı düşəcək. Qeyd edək ki, belə bir tendensiya 1991-ci ildən başlayaraq 1995-ci ilə kimi davam etmişdir.

90-cı illərin əvvəllərində 10 faizə çatan büdcə kəsiri 2002-ci ildə 0,4 faizədək aşağı salınmışdır. 2006-cı ilin dövlət büdcəsi isə profisitlə icra olunmuşdur.

1994-cü ildən 1999-cu ilədək Azərbaycan xarici ticarət dövriyyəsini hər il kəsrlə başa vururdu. 2002-ci ildə isə ilk dəfə olaraq xarici ticarət balansında 500 milyon ABŞ dolları həcmində müsbət saldo yaranmışdır. Həmin dövrdən bu saldo ilbəil artmaqdadır.

### Yoxsulluğun azaldılması strategiyası

Ölkədə iqtisadi artım tempi təmin edildikdən və makroiqtisadi sabitliyə nail olunduqdan sonra, Heydər Əliyev tərəfindən «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramı (2003-2005) təsdiq edilmişdir. Sosial problemləri, o cümlədən yoxsulluğu aradan qaldırmaq üçün hökumət sosial müdafiə və ya sosial inkişaf proqramları da hazırlaya bilərdi. Hazırlanmış proqramın məhz «Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı» adlandırılması sosial proqram və təminatların iqtisadi baza və resurslarla tamamlanması məqsədini güdürdü. Yəni bu proqram sosial problemlərin həlli yollarını müəyyən etməklə yanaşı həm də onun iqtisadi əsaslarını müəyyənləşdirdi. Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı ilk strateji dövlət sənədi idi ki, burada islahatların iqtisadi, sosial və institusional aspektləri kompleks şəkildə əhatə olunmuşdur. Bu proqram bütün sosial-iqtisadi problemlərin həllinə məhz yoxsulluğun azaldılması kontekstindən yanaşmağa imkan vermiş və bir növ istiqamətverici rol oynamışdır.

### Sahibkarlığın inkişafına davamlı dəstək

Ulu Öndər Heydər Əliyev sahibkarlıq sahəsində dövlət siyasətinin əsaslarını müəyyən etmişdir. O, sahibkarlarla artıq ənənə halını almış mütəmadi görüşlər keçirirdi. Belə bir təşəbbüs özəl sektorun inkişafına ölkə rəhbərliyi tərəfindən siyasi dəstəyin verilməsi baxımından xüsusi olaraq qeyd edilməlidir. Bu cür görüşlərdə iş adamları biznes mühiti ilə bağlı ən ciddi problemləri ölkə başçısının nəzərinə çatdırmaq və konkret təkliflərlə çıxış etmək imkanı qazanırdılar. Bunun isə praktiki nəticəsi Heydər Əliyev tərəfindən qəbul edilən fərman və sərəncamlarda öz əksini tapırdı.

Ölkədə sahibkarlığın inkişafına ardıcıl siyasi-ideoloji dəstəyin verilməsi özəl sektorun güclənməsi üçün geniş perspektivlər açmışdır. Heydər Əliyev tərəfindən sahibkarlığın inkişafına təkan verən bir sıra fərmanlar verilmişdir.

Özəl sektorun inkişafında mövcud olan problemlərin kompleks həlli məqsədi ilə «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının dövlət proqramı (2002-2005-ci illər)» qəbul edilmişdir, «Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında» 10 sentyabr 2002-ci il tarixli fərman imzalanmışdır.

«Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında» 28 sentyabr 2002-ci il tarixli radikal fərmana uyğun olaraq müxtəlif dövlət orqanları təsərrüfat subyektlərinə nəzarət funksiyalarından məhrum edilmişdir. Lisenziya verilən fəaliyyət növlərinin sayı 250-dən 30-a endirilmişdir.

Həmçinin prezident fərmanı ilə Sahibkarlar Şurası yaradılmışdır. Sahibkarlar Şurası dövlətlə sahibkarlar arasında körpü rolunu, əlaqələndirmə funksiyasını yerinə yetirir.

**Torpaq islahatı**

Ümummilli Liderin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə həyata keçirilən aqrar islahatlar iqtisadiyyatımızın çox mühüm sahəsi olan kənd təsərrüfatında yeni iqtisadi münasibətlərin təşəkkül tapmasına şərait yaratdı. Heydər Əliyev qeyd edirdi ki, Müstəqil Azərbaycanımızın gələcəyi aqrar-sənaye bölməsinin səmərəli işləməsindən asılıdır. Mütəxəssislər yaxşı bilirlər ki, səmərəliliyi təmin edə bilməyən heç bir sahədə və ya təsərrüfatda dayanıqlı inkişafa nail olmaq mümkün deyil. Buna görə də səmərəlilik kənd təsərrüfatında inkişafın əsas prinsiplərindən biri kimi müəyyən edilmişdir.

Heydər Əliyevin aqrar sahədə zəngin təcrübəsi islahatların həyata keçirilməsi prosesində həlledici rol oynamışdır. Ümummilli Lider aqrar idarəçilikdə və bu sahədə işlərin təşkilində böyük təcrübəyə malik olmaqla, ölkəmizin aqrar potensialına çox yaxşı bələd idi. Bitkiçiliyin bütün istiqamətləri barədə - istehsal həcmi, əkin sahəsi, məhsuldarlıq göstəriciləri üzrə Onun geniş bilgisi vardır. Heydər Əliyev hər bir rayonun torpaq və iqlim şəraitinə görə ixtisaslaşmasına böyük önəm verirdi, kənd təsərrüfatı məhsulları istehsalçılarının psixologiyasını yaxşı bilirdi. Bitkiçiliyin bütün sahələri üzrə tətbiq edilən aqrotexnoloji qaydalar barədə tam məlumatlı idi. Kənd təsərrüfatının ən gəlirli və ixracat potensialı olan sahələri barədə aydın təsəvvürlərə malik idi.

70-80-ci illərdə aqrar sektorun inkişafı sahəsində ciddi uğurlar qazanmağımıza baxmayaraq, Heydər Əliyev həmin dövrdə əldə edilmiş göstəriciləri heç də son hədd hesab etmirdi. Hələ 1994-cü ildə aqrar məsələlərə həsr edilmiş müşavirədə Ulu Öndər belə bir fikir söyləmişdir: “Tam əminəm ki, əgər biz aqrar sektorda iqtisadi islahatlar aparıb istədiyimiz prinsipləri həyata keçirəriksə, 70-80-ci illərin nailiyyətləri ilə müqayisədə daha yüksək səviyyəyə qalxa bilərik... Əgər o zaman, sərbəst olmadığımız bir vaxtda, biz bolluca kənd təsərrüfatı məhsulları istehsal etmişiksə, indi nə üçün istehsal etməyək?” Heydər Əliyev perspektiv dövrdə iki mühüm amilin – birincisi, Azərbaycanın dövlət müstəqilliyinin və müstəqil iqtisadi siyasət həyata keçirmək imkanlarının, ikincisi, torpaq üzərində xüsusi mülkiyyətçilik münasibətlərinin aqrar potensialın hərəkətə gətirilməsinə təsir imkanlarını həssaslıqla nəzərə almış və bu amillərin rolunu çox yüksək qiymətləndirmişdir.

Aqrar islahatların həyata keçirilməsini bir sıra amillər – kənd təsərrüfatında mövcud potensialın itirilməsi təhlükəsi, aqrar-sənaye kompleksində tənəzzülün dərinləşməsi, ictimai təsərrüfatların özünü doğrultmaması, istehsalçılarda maddi maraq və məsuliyyət hissinin azalması şərtləndirmişdir.

Heydər Əliyev aqrar islahatların əhəmiyyətini çox yüksək qiymətləndirərək qeyd edirdi: “Aqrar bölməni keçmiş sistem əsasında, keçmiş prinsiplər əsasında idarə edib istənilən nəticəyə nail ola bilmərik... İslahatların əsasını mülkiyyət formasının dəyişdirilməsi təşkil edir... Gərək kəndli torpağın sahibi olsun və bilsin ki, bütün bunlar onundur və istədiyi kimi istifadə edə bilər... İslahatlar xalqımızın ümumi rifahının qaldırılması üçün həyata keçirilməlidir. Əks təqdirdə islahatlar

səmərəsiz ola bilər... Bu islahatların aparılmasında mühafizəkarlığa qətiyyən yol verməK olmaz, eyni zamanda islahat şüarları altında aqrar bölmədə əldə olan potensialımızın dağılmasına da yol vermək olmaz».

Ümummilli Lider aqrar islahatların həyata keçirilməsi üçün müvafiq qanunvericilik bazasının formalaşdırılmasını, xüsusi qanunların qəbul olunmasını zəruri hesab edirdi. Təsadüfi deyildir ki, 1995-ci ildə qəbul edilmiş "Aqrar islahatların əsasları haqqında" Qanun, "Kolxoz və sovxozların islahatı haqqında" Qanun, 1996-cı ildə qəbul edilmiş "Torpaq islahatı haqqında" qanun kənd təsərrüfatında təşəkkül tapmaqda olan yeni iqtisadi münasibətlər üçün hüquqi əsaslar yaratmış oldu.

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycanda aqrar islahatların həyata keçirilməsi müəyyən çətinliklərlə müşayiət edilirdi. Belə ki, əvvəlki illərdən ölkə rəhbərliyi üçün olduqca ağır miras qalmışdır. İqtisadi böhran və tənəzzül bütün sahələri əhatə etmişdir. MDB məkanında real aqrar islahatlara hələ başlanılmadığına görə istinad edilməli elə bir nümunəvi təcrübə yox idi. Köhnə əhval-ruhiyyə və psixoloji baryerlər hələ də qalmaqda idi. Torpaq, kənd təsərrüfatı canlı orqanizm olduğuna görə, bu sahədə radikal islahatlar həyata keçirmək heç də asan məsələ deyildi.

Torpaq islahatlarının ölkə səviyyəsində ictimailəşdirilməsi, açıq müzakirələrə geniş şərait yaradılması, islahat komissiyasına alim və mütəxəssislərin cəlbi, siyasi iradə nümayişi və radikal addımların atılması, torpaqların xüsusi mülkiyyətə əvəzsiz verilməsi, təsərrüfat fəaliyyətində sərbəstliyin təmin edilməsi, ölkəmizin kənd təsərrüfatı xüsusiyyətlərinin nəzərə alınması, islahatın aqrar-sənaye kompleksini əhatə etməsi, aqrar bölmənin dövlət himayəsində, elmi-tədqiqat müəssisələrinin, toxumçuluq təsərrüfatlarının isə dövlət sektorunda saxlanılması, müxtəlifnövlü təsərrüfat formalarının yaradılması Ulu Öndərin təşəbbüsü ilə həyata keçirilmiş aqrar islahatların səciyyəvi xüsusiyyətləri kimi xarakterizə oluna bilər.

Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, aqrar islahatlar kənd təsərrüfatında kooperasiya məsələlərini də nəzərdə tuturdu. Təbii ki, iri təsərrüfatlar istehsalın effektiv təşkili baxımından əhəmiyyətlidir. Kooperativlər bu cür təsərrüfatların yaradılması formalarından biri kimi çıxış edir. Bu baxımdan heç də təsadüfi deyildir ki, Heydər Əliyev uzaqgörənliklə aqrar islahatlar paketində kənd təsərrüfatı kooperasiyası üçün ilkin hüquqi əsaslar nəzərdə tutmuşdur.

Bəs aqrar islahatların nəticələri özünü nədə göstərdi? Hər şeydən əvvəl kənddə yeni iqtisadi münasibətlər yarandı, torpaq bazarı tədricən formalaşdı, kəndlinin əməyə marağı və məsuliyyəti artmağa başladı.

Hazırda kənd təsərrüfatı istehsalının 99 faizi özəl mülkiyyətə əsaslanır. Bu isə həmin sektorun inkişafına xüsusi dinamizm verən həlledici amildir. 1992-1995-ci illərdə kənd təsərrüfatında istehsal həcmi ildə orta hesabla 12 faiz aşağı düşürdü. Məsələn, kənd təsərrüfatı istehsalı 1992-ci ildə 23,8 faiz, 1993-cü ildə 15,5 faiz, 1994-cü ildə 12,8 faiz azalmışdır. 1998-ci ildən başlayaraq aqrar sektorda istehsal artan dinamika ilə davam etməyə başlayır.

1999-cu ildən etibarən kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla 5 il müddətinə bütün vergilərdən azad olunmuşdur. Bu güzəştlərin müddəti sonrakı illərdə davamlı olaraq uzadılmışdır.

"Aqrar bölmədə indi gördüyümüz və qarşıdakı illərdə həyata keçirəcəyimiz işlər nəinki bizim – indiki nəsil üçün, həm də gənc və gələcək nəsillər üçün yeni bir bünövrədir, yeni bir təməldir, yeni bir əsasdır». Ulu Öndərin uzaqgörənliklə söylədiyi bu fikir artıq gerçəkləşməkdədir. Bu gün ölkəmizin bütün sahələrdəki uğurları həmin sağlam təmələ əsaslanır.

### Heydər Əliyev iqtisadi strategiyasının real nəticələri

Azərbaycan dövlətinin müstəqilliyinin qorunub saxlanması və iqtisadi tənəzzülün iqtisadi dirçəlişlə əvəzlənməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdırsa, milli iqtisa-

diyyatın davamlı inkişafı və sürətli modernizasiyası onun layiqli davamçısı, Prezident İlham Əliyevin 20 il ərzindəki məqsədyönlü və ardıcıl fəaliyyətinin nəticəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət və dərin islahatlar nəticəsində ölkəmiz uğurla inkişaf edir, bütün istiqamətlər üzrə qarşıya qoyulmuş vəzifələr yeni dövrün tələblərinə uyğun olaraq icra edilir. Bu təməl üzərində ölkəmizin qazandığı uğurlar və əldə edilmiş nəticələr əsasən aşağıdakılardan ibarətdir:

- Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə Şanlı Ordumuzun İkinci Qarabağ müharibəsində düşmən üzərində tarixi qələbəsi və bunun da nəticəsində torpaqlarımızın 30 illik erməni işğalından azad edilməsi;
- Həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası və müxtəlif sahələrdə genişmiqyaslı tədbirlərin icrası nəticəsində əldə olunan nailiyyətlərin ölkənin iqtisadi və hərbi-müdafiə qüdrətini gücləndirməsi və 44 günlük Vətən müharibəsində tarixi qələbənin qazanılmasına zəmin yaratması;
- Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi;
- Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"-nın təsdiq edilməsi;
- 2022-ci ildə əvvəlki ilə nisbətən ÜDM-in real ifadədə 4,6 faiz artaraq cari qiymətlərlə 133,8 milyard manata, adambaşına düşən ÜDM-in isə 4,1 faiz artaraq 13,3 min manata (7.8 min ABŞ dollarına) çatması;
- 2022-ci ildə 2021-ci ilə nisbətən qeyri neft-qaz sektorunda artımın 9,1 faiz təşkil etməsi;
- İqtisadiyyatın inkişafına, ixrac potensialının artırılmasına, rəqabətqabiliyyətli məhsul istehsalına önəmli töhfə verən 7 sənaye parkının yaradılması;
- Hazırda ölkənin 32 rayonu üzrə 239,3 min hektar ərazidə 51 aqropark və iri fermer təsərrüfatının yaradılması;
- 2022-ci ildə operativ məlumatlara əsasən dövlət büdcəsi gəlirlərinin 30,7 milyard manat (2021-ci illə müqayisədə 4283,3 milyon manat və ya 16,2 faiz çox) təşkil etməsi;
- 2022-ci il üçün dövlət büdcəsinin xərclərinin 32,1 mlrd. manat təşkil edərək 2021-ci illə müqayisədə 4640,7 mln. manat və ya 16,9% çox olması;
- 2022-ci ildə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisinin 22,8 faiz (hədəf göstəricidən 4,7 faiz bənd az), dövlət borcunun ÜDM-ə nisbətinin isə 11,7 faiz (hədəf göstəricidən 8,3 faiz bənd az) təşkil etməsi;
- 2022-ci ilin 31 dekabr tarixinə görə 6693,2 mln. ABŞ dolları səviyyəsində xarici dövlət borcunun ÜDM-ə nisbətinin iqtisadi təhlükəsizlik göstəricisindən xeyli aşağı həddə - 8,6 faizə bərabər olması;
- 1 yanvar 2023-cü il tarixinə əvvəlki illə müqayisədə 10,0% artaraq 58 533,7 mln. ABŞ dollarına çatmış strateji valyuta ehtiyatlarının həcminin 2022-ci il üzrə ÜDM-in 74,4%-ni təşkil etməsi;
- Mərkəzi Bankın rəsmi valyuta ehtiyatlarının isə 2022-ci ilin sonunda 2021-ci illə müqayisədə 27,1% artaraq 9,0 mlrd. ABŞ dollarına çatması;
- 2022-ci il üzrə Dövlət Neft Fondunun aktivlərinin 49,0 milyard ABŞ dollarına və ya ÜDM-in 62,3%-nə bərabər olması;
- Tədiyə balansının iri həcmli profisitinin valyuta bazarında tarazlığa müsbət təsir göstərərək məzənnə sabitliyini dəstəkləməsi;
- 2022-ci ildə manatın ABŞ dollarına qarşı orta günlük rəsmi məzənnəsinin 1,7 manat təşkil etməsi;
- "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin

beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" üzrə Dövlət Neft Fondunun 2022-ci il üzrə büdcəsində 27,8 mln. manat vəsaitin nəzərdə tutulması;

- Dövlət Neft Fondunun 2022-ci il üzrə büdcəsində "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın maliyyələşdirilməsi üçün 17,9 mln. manat vəsaitin nəzərdə tutulması;
- 2022-ci ildə 2003-cü illə müqayisədə respublikada neft hasilatının 2,1 dəfədən çox, qaz hasilatının isə 8,9 dəfədən çox artması;
- 2022-ci ilin əvvəlindən SOCAR tərəfindən Cənubi Qafqaz Boru Kəməri vasitəsilə Avropaya təbii qazın ixracına başlanılması və Cənub Qaz Dəhlizi vasitəsilə il ərzində Avropa, Türkiyə və Gürcüstana ümumilikdə 20,9 mlrd. kubmetr qaz ixrac edilməsi;
- 2022-ci ildə elektroenergetika sahəsi üzrə müasir infrastrukturun yaradılması, yeni texnologiyaların tətbiqi, enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlərin davam etdirilməsi, Azərbaycanın regionda elektrik enerjisi ixrac edən aparıcı dövlətə çevrilməsi;
- Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi və həmin ərazilərdə genişmiqyaslı iqtisadi quruculuq işlərinə başlanılması;
- 2022-ci ilin dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 4,3 mlrd. manat vəsaitin nəzərdə tutulması;
- Regionların, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafının təmin edilməsi, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, yerlərdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının davam etdirilməsi.

**Heydər Əliyev iqtisadi strategiyasının dönməzliyi və davamlılığı**

Heydər Əliyev iqtisadi strategiyası hələ uzunmüddətli dövr üçün Azərbaycanda əsas götürüləcək. Çünki bu strategiya dünya sivilizasiyasının qəbul etdiyi bazar iqtisadiyyatı prinsiplərinə, azad sahibkarlığa, beynəlxalq iqtisadi əməkdaşlığın dərinləşməsinə, maliyyə sabitliyinin və iqtisadi artımın qorunub saxlanılmasına, sosial yönümlü iqtisadi siyasətin həyata keçirilməsinə əsaslanır.

İqtisadi sahədə siyasət tədbirləri isə heç şübhəsiz, iqtisadiyyatın inkişaf dinamikasına uyğun olaraq yeniləşməli və korrektə edilməlidir. Azərbaycan Prezidenti İlham Əliyev jurnalistlərə verdiyi ilk müsahibəsində bildirmişdir: «Artıq Azərbaycanda ölkəmizi inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma eyni zamanda həyat yerində durmur. Qarşımıza yeni tələblər, yeni vəzifələr çıxır».

Bu məqalənin sonunda Ulu Öndər Heydər Əliyevin söylədiyi bir fikri xatırlatmaq yerinə düşür: "Bir müddətdən sonra Azərbaycan dünyəvi dövlət, daha yüksək sürətlə inkişaf edən, kifayət qədər güclü iqtisadiyyata və yaxşı həyat səviyyəsinə malik respublika olacaqdır. Bu, həddən çox "əgər"lərdən asılıdır…"

Biz birmənalı şəkildə deyə bilərik ki, Ümummilli Liderimizin qətiyyətlə söylədiyi nikbin fikirlər artıq özünü doğrultmaqdadır. Heydər Əliyev müstəqil dövlət quruculuğu və iqtisadi inkişaf yolundakı «əgərləri» yəni, maneələri tədricən aradan qaldıraraq Azərbaycanı gələcəkdə daha böyük uğurlar əldə edə biləcək ölkə səviyyəsinə qaldırmışdır.

Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi strategiyanın nəticəsidir ki, Azərbaycan iqtisadiyyatının inkişaf dinamikası bu

günə kimi qorunub saxlanılmışdır. Bu strategiya qarşıdakı illərdə də sosial-iqtisadi inkişafın daha da sürətlənməsini, ölkənin iqtisadi potensialının və maliyyə imkanlarının daha da artmasını, həyat səviyyəsinin yüksəlməsini təmin edəcəkdir.

**Ədəbiyyat:**


1. Heydər Əliyev və Müasir Azərbaycan. Bakı, Group Design 2013
2. İlham Əliyev: İqtibaslar və təhlil. Bakı, “Azərbaycan” nəşriyyatı, 2006
3. Parlament tariximizin Heydər Əliyev dövrü. Bakı, “CBC PP” MMC, 2013
4. Müstəqil Azərbaycan: 25 il. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı 2016
5. İqtisadi biliklərin əsasları. Azər Əmiraslanov. Göytürk mətbəəsi, Bakı 2000
6. «Azərbaycan iqtisadiyyatı və bazar münasibətləri». Azər Əmiraslanov «Azərbaycan Ensiklopediyası» NPB, Bakı, 1998
7. Aqrar sahədə dövlət siyasətinin əsas vəzifələri. Azər Əmiraslanov. Dövlət İdarəçiliyi jurnalı, Nəzəriyyə və təcrübə, №1(49). 2015
8. Güclü siyasi hakimiyyətdən qüdrətli iqtisadiyyata doğru. Azər Əmiraslanov. “Paleolit” jurnalı, İyun, 2006 №2
9. Dövlət idarəetmə sistemində islahatların prioritet istiqamətləri. Azər Əmiraslanov. Azərbaycan qəzeti, 20 aprel 2001-ci il
10. Azərbaycanda iqtisadi strategiyanın siyasi-ideoloji əsasları və təşkilati aspektləri Azər Əmiraslanov. Azərbaycan qəzeti, 24 may 2001-ci il
11. Sahibkarlığın inkişafında və iqtisadi siyasətdə əsaslı dönüşün başlanğıcı. Azər Əmiraslanov. Xalq qəzeti, 6 oktyabr 2002-ci il
12. İqtisadiyyat və siyasət, Azər Əmiraslanov, “Yeni Azərbaycan” qəzeti, 7 oktyabr 2003-cü il


***Açar sözlər:*** *milli iqtisadiyyat, dövlət siyasəti, strateji məqsədlər, ictimai-siyasi sabitlik, dövlət quruculuğu*

**Azer Amiraslanov**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Head of the Department of State Regulation of the Economy, Ph.D. in Economy, Associate Professor***

## HAYDAR ALIYEV - FOUNDER OF THE NATIONAL ECONOMY

### ABSTRACT

The successful implementation of economic reforms in Azerbaijan is contingent on adopting bold political decisions and adapting political and ideological standards to new socio-economic conditions. The article highlights the impressive decisions that led to positive global economic changes. The primary supportive elements of the strategy that led to the successful outcomes of systemic reforms are investigated in terms of socio-political stability and effective techniques of government regulation of market relations.

***Keywords:*** *national economy, state policy, strategic goals, social and political stability, state building*

**Азер Амирасланов**

***Заведующий кафедрой Государственного регулирования экономики Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по экономике, доцент***

## ГЕЙДАР АЛИЕВ – ОСНОВАТЕЛЬ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ

### РЕЗЮМЕ

Успешное осуществление экономических преобразований в Азербайджане зависит, в первую очередь, от принятия смелых политических решений и адаптации политических и идеологических ориентиров к новым социально-экономическим условиям. В статье освещены основополагающие решения, приведшие к глобальным позитивным изменениям в экономике. Исследованы основные опорные элементы стратегии, приведшей к успешным результатам системных реформ как в области общественно-политической стабильности, так и в эффективных методах государственного регулирования рыночных отношений.

***Ключевые слова:*** *национальная экономика, государственная политика, стратегические цели, общественно-политическая стабильность, государственное строительство*

UOT 371

**ÜLKƏR ŞƏFİYEVA**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent***

*e-mail: ulker.shafiyeva@teams.dia.edu.az*

# HEYDƏR ƏLİYEVİN TƏHSİLİN İNKİŞAFINA DAİR STRATEGİYASI

*"Təhsil insanlara rəhbərlik etməyi asanlaşdırır, amma yönləndirməyi çətinləşdirir; idarə etməyi mümkün edir, lakin kölə etməyi qeyri-mümkün edir".*

*Henri Peter Bruqam*

Heydər Əliyev Sovet dövründə və müstəqil Azərbaycan tarixinin keçid mərhələsində həm sosial-iqtisadi, həm də təhsilin inkişafında dərin iz qoymuş Azərbaycan xalqının Ümummilli Lideridir. Onun təhsilə baxışı Azərbaycanı bu gün güclü müstəqil dövlətə çevirib. Heydər Əliyevin fikrincə, savadlı xalq özünü firavan və sabit həyata apara bilər. Sovet İttifaqının dağılmasından sonra bir çox sınaqlardan keçmiş Azərbaycan təhsil sistemində Heydər Əliyevin təkrar hakimiyyətə gəlməsiylə müvafiq dövlət institutları möhkəmlənərək yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Heydər Əliyevin təhsil siyasətinin mühüm elementlərindən biri də ayrı-ayrı dövlət orqanları və milli qurumlar üçün milli kadrların yetişdirilməsi və kadr potensialının artırılması idi. Heydər Əliyev hələ Sovet Azərbaycanına rəhbərliyi dövründə bir neçə təhsil ocağının, o cümlədən Cəmşid Naxçıvanski adına Hərbi liseyin yaradılması təşəbbüsü ilə çıxış etmişdir. Eyni zamanda, Heydər Əliyev çoxsaylı azərbaycanlı gənclərin keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsini yaratmışdır. Həmin dövrdə Sovet İttifaqının 170 qabaqcıl ali təhsil müəssisəsinə hər il təxminən 800 tələbə, ümumilikdə isə 15 minə yaxın azərbaycanlı göndərilmişdir [7].

Həmin dövrdə Heydər Əliyev paralel olaraq Azərbaycan daxilində də təhsilin inkişafı üçün sistemli işlər həyata keçirmişdir. Belə ki, təhsil müəssisələrinin maddi-texniki təminatının gücləndirilməsi siyasəti çərçivəsində 1970-ci illərdə hökumət tərəfindən 350 mindən çox şagird üçün 849 ümumtəhsil məktəbi tikilib. 1978-ci ildən hökumət orta məktəb şagirdlərinə məktəb dərsliklərini pulsuz paylamağa başlayıb. Həmçinin, 1970–1980-ci illərdə Sovet Azərbaycanında beş yeni universitet açılıb, beləliklə, həmin illərdə ölkədə ali təhsil alanların sayı 70 mindən 100 minə yüksəlib [3].

Heydər Əliyev müstəqil Azərbaycanın prezidenti kimi fəaliyyətinin ilk illərindən başlayaraq (1993–1998 və 1998–2003-cü illərdə) suveren ölkədə təhsilin inkişafı istiqamətində geniş spektrli islahatlara başlayıb. Bu məqsədlə Heydər Əliyev ilk növbədə təhsil siyasətinin hüquqi bazasının gücləndirilməsinə xüsusi diqqət yetirib. O, 1995-ci ildə 1992-ci ildə qəbul edilmiş "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanuna dəyişikliklərin təşəbbüskarı olub. 1995-ci ildə qanuna edilmiş əsas dəyişiklik icbari təhsil müddətinin on ildən on bir ilə qədər artırılması olub. Paralel olaraq, Təhsil Nazirliyinin Qayda və Əsasnamələri

haqqında Fərmanla nazirliyin rolu və səlahiyyətləri dəqiqləşdirilib. 1996-cı ildə hökumət "Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında" qərar qəbul edib. Azərbaycan prezidenti tərəfindən 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" fərman imzalanıb. Daha sonra o, geniş müzakirələrdən sonra 1999-cu ilin iyununda qüvvəyə minmiş "Azərbaycan Respublikasının təhsil sahəsində islahatlar proqramı"nı təkmilləşdirib və onun icrasına nəzarət edib. Həmin proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasını və milli təhsil ənənələrinə uyğun olaraq qalmasını təmin edib.

1999-cu ildən sonra təhsil sistemində, o cümlədən ali təhsil səviyyəsində islahatlar sistemli xarakter almağa başlayıb. Ali təhsildə əsaslı struktur dəyişiklikləri həyata keçirilib və həmçinin peşə hazırlığının yüksəldilməsi məqsədilə yeni ixtisaslar yaradılıb. Bundan başqa, hökumət tərəfindən təhsil müəssisələrinə daha çox müstəqillik və səlahiyyətlər verilib. Universitetlər elmi şuraların, dövlət attestasiya komissiyalarının strukturunu, onların daxili bölməsini, tədris planını müəyyən etməyə başlayıb. Hətta təxminən altı universitetə tam özünüidarəetmə səlahiyyəti verilib. Heydər Əliyev bazar iqtisadiyyatının reallıqlarını nəzərə alaraq, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Tibb Universiteti, Azərbaycan Kənd Təsərrüfatı Akademiyası və bir sıra digər ali təhsil müəssisələrinə maliyyə müstəqilliyi vermişdir.

2000-ci ildə Heydər Əliyev "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanını imzalayıb. Fərmanın əsas məqsədləri Azərbaycanda vətəndaşların təhsil hüququnu tam təmin etmək, milli təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək, pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını və yenidən hazırlanmasını təmin etmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaqdan ibarət olub.

Fərmanın əsas konturları aşağıdakılardan ibarət idi:

Təhsil Nazirliyi mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrinə tədris-metodiki rəhbərlik, təlim və tədris prosesinin keyfiyyətinə nəzarət üçün cavabdeh olacaq;

- Bütün tədris müəssisələri (Müdafiə, Daxili İşlər və Milli Təhlükəsizlik nazirliklərinin tabeliyində olanlar istisna olmaqla) Təhsil Nazirliyinə veriləcək;
- Bakı şəhəri üzrə Təhsil İdarəsi ləğv edilərək, onun infrastrukturu və kommunal xidmətləri Təhsil Nazirliyinə veriləcək;
- Bütün şəhər və rayon təhsil şöbələri Təhsil Nazirliyinə veriləcək;
- 2000-ci ildən şəhər və rayon təhsil şöbələrinə ayrılan vəsaitlər Təhsil Nazirliyinə ayrılacaq.

Heydər Əliyev 1999-cu ildə "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nı təsdiq edib. Proqramın üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdu:

1) yeni sistemin qanunvericilik, iqtisadi və informasiya bazasını yaradan birinci – hazırlıq mərhələsi (1999-cu il);
2) islahatın həyata keçirilməsini asanlaşdıran qısamüddətli perspektivlərə yönəlmiş ikinci mərhələ (2000-2003-cü illər);
3) fəaliyyətlərin həyata keçirilməsinin yekun mərhələsi (2004-cü ildən).

Heydər Əliyevin təhsil islahatlarına yanaşmasının əsas istiqaməti, bir tərəfdən əvvəllər sovet dövründə yaradılmış institutların peşəkar komponentlərinin qorunub saxlanması, digər tərəfdən isə müstəqillik və bazar islahatları üçün zəruri dəyişikliklərin nəzərə alınması idi. Bu səbəbdən Heydər Əliyev təhsil islahatlarında mərhələli yanaşmaya üstünlük verirdi. Nəticədə təhsil islahatlarının həyata keçirilməsi, xüsusilə humanitar fənlər üzrə dərsliklər yenilənmiş və əhəmiyyətli dərəcədə yenidən yazılmış,

təhsil proqramlarının standartları təkmilləşdirilmiş, yeni fənlər tətbiq edilmişdi.

Avropanın standart ikipilləli ali təhsil sisteminə (bakalavr və magistr proqramları) keçdi və bu, 2005-ci ildə Boloniya prosesinə sonradan qoşulmaq üçün zəmin yaratdı. Heydər Əliyev rəhbərliyi dövründə hökumət təhsil sahəsində bir sıra beynəlxalq təşkilatlar və maliyyə institutları ilə fəal əməkdaşlıq edirdi. Azərbaycanın təhsil sahəsində mühüm tərəfdaşlarından biri Dünya Bankı olub. Dünya Bankı Azərbaycanda təhsilin inkişafı ilə bağlı olan bir sıra əhəmiyyətli layihələri təşviq edib. 1999-cu ildə Azərbaycan Hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası (Dünya Bankı) arasında təhsil islahatlarının həyata keçirilməsinə dəstək üçün nəzərdə tutulmuş kredit sazişi də imzalanıb. Layihənin təlimatlarına uyğun olaraq, hökumət Dünya Bankının kreditləri hesabına maliyyələşdirilən təhsil islahatı təşəbbüsünü hazırlamaq üçün Dövlət Komissiyası yaradıb. Dünya Bankı ilə təhsil sisteminin islahatı üzrə əməkdaşlığın ilkin mərhələsi 2003-cü ilə qədər davam edib. Dünya Bankı və Azərbaycan Respublikasının hökuməti bu təşəbbüsü birgə maliyyələşdiriblər. Təşəbbüsün əsas diqqəti məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi və kurikulumlar və dərsliklərin inkişafına yönəlib. Dünya Bankı ilə birgə həyata keçirilən təhsil islahatları çərçivəsində yeni dərslik siyasətinin qəbulu və həmin siyasətin həyata keçirilməsinə məsul olan müstəqil qurum kimi Dərslikləri Qiymətləndirmə Şurası yaradılıb [5].

Heydər Əliyev 2000-cü il iyunun 13-də təhsil sisteminin və onun idarə edilməsinin təkmilləşdirilməsinə kömək etmək, beynəlxalq standartların milli institutlarda tətbiqini təmin etmək məqsədilə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərman imzaladı. Azərbaycana qlobal iqtisadiyyatın bir hissəsi kimi baxan Heydər Əliyev, milli kurikulumun beynəlxalq təhsil sisteminə inteqrasiya olmasını vacib hesab edirdi. Əlavə olaraq, qəbul edilən islahatlar paketi pedaqoji kadrların hazırlanmasını da asanlaşdırdı. Bundan başqa, həmin illərdə Azərbaycan hökuməti tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Milli Təhlükəsizlik Akademiyası, Musiqi Akademiyası, Milli Musiqi Konservatoriyası, Dənizçilik Akademiyası, Aviasiya İnstitutu kimi bir neçə yeni təhsil müəssisəsinin təməli qoyulub. Göründüyü kimi, Heydər Əliyev təhsilin müxtəlif sahələrinə – dövlət təhlükəsizliyindən tutmuş incəsənət və humanitar elmlərə qədər xüsusi diqqət yetirirdi.

Beləliklə, Sovet dövrünün mərkəzləşdirilmiş planlı iqtisadi sistemindən bazar iqtisadiyyatına sərt keçidin, həmçinin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan Respublikası tərəfindən işğalı, etnik təmizləmə, kütləvi dağıntılar, bir milyon qaçqın və məcburi köçkünün yaranması nəticəsində Azərbaycanın bir sıra iqtisadi-maliyyə çətinliklərlə üzləşməsinə baxmayaraq hökumət təhsil ocaqlarına vəsait ayırırdı. Heydər Əliyev təhsil sahəsində çalışan alimlərin və müəllimlərin maddi təminatının yaxşılaşdırılmasına və müntəzəm olaraq maaşlarının artırılmasına diqqət ayırırdı [4].

Qeyd edək ki, Ermənistanın təcavüzü və sonradan Azərbaycan ərazisinin təxminən iyirmi faizinin işğalı nəticəsində 693 xalq təhsili məktəbi, 11 texnikum, 1 ali məktəb, 2 universitet filialı və 3 orta ixtisas məktəbi dağıdılıb, bir çox müəllim qaçqın və məcburi köçkünə çevrilib [6]. Göründüyü kimi, işğalın maddi və psixoloji yükünün öhdəsindən gələn hökumət, Heydər Əliyevin rəhbərliyi altında təhsilin məzmununun gücləndirilməsinə də diqqət ayırıb. Bu baxımdan, Heydər Əliyev hər za-man incəsənət və humanitar elmlərin rolunu xüsusi vurğulayırdı. Hökumət marksist narrativlərə və rus imperiya maraqlarına əsaslanan dərsliklərdən yaxa qurtarmaq üçün tarix və başqa fənlərdə yeni dərsliklər sifariş etmişdir. Bu kontekstdə, Heydər Əliyev hər zaman təhsil sistemində Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi dərsliklərinin əhəmiyyətini vurğulayırdı. Həmçinin, Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının alimləri ilə görüşlərində humanitar elmlərin

əhəmiyyətini vurğulayaraq qeyd edib: "Müstəqil Azərbaycanda təbii ki, fizika, riyaziyyat, biologiya, kimya və digər fənlər inkişaf etməlidir. Lakin tarix yeniyetmələrdən başlayaraq hər kəs üçün lazımdır. O cümlədən mədəniyyətimiz, ədəbiyyatımız, elm tariximiz dərindən öyrənilməlidir".

Ümumi təhsildə ən ciddi yeniliklərdən biri kiril əlifbasından yeni latın əlifbasına keçid olub. Bununla da, Heydər Əliyevin "Bu günümüz və gələcəyimiz latın əlifbası ilə bağlıdır" tarixi çağırışının gerçəkləşməsi istiqamətində əsas addım atılıb. Bundan əlavə, Heydər Əliyev həmişə Azərbaycan dilinin güclü təbliğatçısı kimi çıxış edib. Qeyd etmək lazımdır ki, müstəqilliyin ilk illərində rus dili – rus və sovet müstəmləkə keçmişinin qalıqları dövlət aparatında, elmi mühitdə və mətbuatda üstünlük təşkil edirdi. Heydər Əliyev "Millətin milliliyini qoruyan onun dilidir" deyərək Azərbaycan dilinin yeganə dövlət dili kimi möhkəmləndirilməsi ilə bağlı bir sıra icraedici addımlar həyata keçirib.

Heydər Əliyev Sovet Azərbaycanından miras qalmış milli akademiya sistemində də islahatlar aparmışdır. 1997-ci il yanvarın 31-də Heydər Əliyev Elmlər Akademiyasının rəhbərliyini və bir qrup aparıcı alimi qəbul edərək, elm sahəsində islahatların aparılmasının vacibliyini vurğulayaraq Azərbaycanda elmin inkişafı strategiyasının əsas müddəalarını müəyyən edib. Həmin iclasdan etibarən Milli Elmlər Akademiyasının Rəyasət Heyəti prezidentin tövsiyələrini rəhbər tutaraq akademiyada islahatların aparılması, elmi tədqiqatların istiqamətlərinin dəqiqləşdirilməsi, elmi-təşkilati bazanın hazırlanması sahələrində qərarlar qəbul edib və tədbirlər həyata keçirib. Eyni zamanda, elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatlar konsepsiyası hazırlanıb.

Azərbaycan həmişə multikultural ölkə olub və Heydər Əliyev milli müxtəlifliyə xalqın etnik-mədəni tərəqqisinin mühüm tərkib hissəsi kimi baxıb. O, Azərbaycan torpağında yaşayan bütün etnik qrupların etnik-mədəni dəyərləri ilə yanaşı, milli özünəməxsusluğunun qorunub saxlanmasının və tərəqqisinin təhsildən qaynaqlandığını qeyd edirdi. Multikulturalizm konsepsiyasının təhsilə daxil edilməsi üçün çoxsaylı regional və qlobal səylərə başlanılıb. "Azərbaycan multikulturalizmi" fənni həm ölkə daxilində, həm də xaricdə bir çox universitetlərdə tədris olunmağa başlayıb. Azərbaycanın fəxr etdiyi tolerantlıq və anlaşma prinsiplərini gələcək nəsillərə yaşatmaq üçün multikulturalizm dəyərlərinin aşılanması hər zaman vacib olub.

Beləliklə, yuxarıda qeyd edilənlərdən o nəticəyə gəlinir ki, Heydər Əliyevin müasir Azərbaycan təhsilinə, elminə və mədəniyyətinə danılmaz təsiri olub. Onun təhsilin inkişafına olan baxışları və qəbul etdiyi qərarlar sayəsində Azərbaycan bu gün qüdrətli dövlət, güclü və müstəqil ölkə olub.

Heydər Əliyev müəllimlərə müraciət edərkən "Dövlət müstəqilliyinin üstünlüklərindən biri də ondan ibarətdir ki, biz təhsil sistemimizi xalqımızın, millətimizin tarixi, adət-ənənələri əsasında qururuq. Bu proses doğrudan da çox mürəkkəbdir və qısa müddətdə başa çatmayacaq. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək təhsil sistemində işin müstəqil Azərbaycanın ümummilli prinsipləri əsasında qurulmasını xahiş edirəm" deyə vurğulayıb [6].

Bu gün biz şahid ola bilərik ki, Heydər Əliyevin irsi uzunmüddətli təsirə malikdir və Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilir. Sosial və iqtisadi həyatı modernləşdirən və Azərbaycanı qabaqcıl dünya təcrübəsinə uyğunlaşdıran ölkənin növbəti strateji vəzifəsi davamlı iqtisadi artımı təmin etmək və əhalinin həyat səviyyəsini yüksəltməkdən ibarətdir. Modernləşmə, ilk növbədə, qabaqcıl idarəetmə texnikalarının, texnologiyalarının və innovasiyalarının ölkənin sosial və iqtisadi həyatına səmərəli inteqrasiyası ilə bağlıdır. Hər kəsin müasir bilik və bacarıqlarla tanış olmasını təmin edən insan kapitalının inkişafı ölkənin qlobal iqtisadiyyata inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, bu məqsəd üçün prioritet istiqamətdir [2].

Göründüyü kimi, tələbə biliklərinin iqtisadi komponentə çevrilməsi sosial və iqtisadi həyatın modernləşdirilməsində təhsilin funksiyalarından biridir. Tədris prosesi zamanı əldə edilən bilik və bacarıqlar əxlaqi standartlar və dəyərlərlə yanaşı, hər bir tələbənin cəmiyyətin hörmətli üzvü olması üçün zəruri şərait yaratmalıdır. Ölkədəki dəyişiklikləri nəzərə aldıqda, Heydər Əliyevin təhsilin inkişafı ilə bağlı baxışları bu gün qalib Azərbaycanda özünü büruzə verdiyini təsdiq etmək olar.

**Ədəbiyyat:**


1. Asian Development Bank, "Educational Reforms in Countries in Transition," July 2004, p.4.
2. AzerTAg.az. (2013, October 24). Государственная стратегия по развитию образования в Азербайджанской Республике. АЗЕРТАДЖ. Retrieved January 18, 2023, from https://azertag.az/ru/xeber/Gosudarstvennaya_strategiya_po_razvitiyu_obrazovaniya_v_Azerbaidzhanskoi_Respublike-109168
3. Independent Azerbaijan. (n.d.). Retrieved January 5, 2023, from https://republic.preslib.az/en_c7-2.html
4. N.Ahmadov, N. Zeynalova and F.Suleymanov. "Heydar Aliyev's Heritage in Education," Norwegian Journal of Development of International Science, No. 17, 2018.
5. The education reforms in Azerbaijan. Azerbaijan. (n.d.). Retrieved January 2, 2023, from https://www.azerbaijans.com/content_1729_en.html
6. The Impact of Armenian Aggression on Education in Azerbaijan - Timeline. State Examination Center of the Republic of Azerbaijan. (n.d.). Retrieved January 5, 2023, from https://dim.gov.az/en/news/5840/
7. Əliyev, M. (2010, May 16). Heydər Əliyev elm, təhsil və mədəniyyətin himayədarı idi. Xalq Qazeti, p. 4.


***Açar sözlər:*** *Heydər Əliyev, təhsil, islahatlar, beynəlxalq təşkilatlar, keçid, təhsilin inkişafı*

**Ulker Shafiyeva**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan***
***Dean of the Faculty of Retraining of Governement Officials***
***Ph.D. in Philology, Associate Professor***

## HEYDAR ALIYEV'S STRATEGY FOR EDUCATIONAL DEVELOPMENT

### ABSTRACT

The paper talks about the educational policy of Heydar Aliyev during his leadership both in the Soviet Union and Independent Azerbaijan. The author demonstrates the reforms in the field of education in Azerbaijan initiated by Heydar Aliyev, who left a significant imprint not only on the country's history and transition but also on its socio-economic and educational development.

Azerbaijan is a country with a long history of economic development. In the past two decades, a number of reforms have been implemented in higher education due to the transition from the

Soviet command system to the market economy. New specialties were introduced to enhance professional training. In this paper, the author discusses the implementation of educational reforms in cooperation with the international organizations and the concept of strategic development of the National Academy of Sciences and reforms. The author also stresses that today the legacy of the late president is well continued by the president of Azerbaijan, Ilham Aliyev.

***Keywords:*** *Heydar Aliyev, education, reforms, international organisations, transtion, educational development*

**Улькяр Шафиева**

***Декан факультета Переподготовки руководящих кадров***
***Академии Государственного Управления***
***при Президенте Азербайджанской Республики***
***доктор философии по филологии, доцент***

## СТРАТЕГИЯ ГЕЙДАРА АЛИЕВА ПО РАЗВИТИЮ ОБРАЗОВАНИЯ

## РЕЗЮМЕ

В представленнной статье исследуется образовательная стратегия Общенационального лидера Гейдара Алиева во время его нахождения на руководящих постах в Советском Союзе и в период руководства им независимым Азербайджаном. Автор анализирует реформы, инициируемые Гейдаром Алиевым в сфере образования и демонстрирует их решающее влияние не только на историю и переходный этап развития страны, но и в целом на ее социально-экономическое и образовательное развитие.

В статье подробно анализируются реформы в сфере высшего и поствысшего образования страны до уровня международных стандартов, обсуждается реализация подобных реформ в сотрудничестве с международными организациями, исследуется концепция стратегического развития Национальной Академии Наук. Подчеркивается, что на сегодняшний день приемственность политического наследия Общенационального лидера Гейдара Алиева обеспечивает ныне действующий Президент Азербайджана Ильхам Алиев, являющийся гарантом процветания страны.

***Ключевые слова:*** *Гейдар Алиев, образование, реформы, международные организации, переход, развитие образования*

DOI:10.30546/dia.2.82.2023.235


UOT 32::008; 32:316.7

**YUSİF AĞAYEV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müşaviri, filologiya üzrə fəlsəfə doktoru, dosent***

*e-mail: yusif_agayev@rambler.ru*

# MƏDƏNİYYƏTLƏR VƏ SİVİLİZASİYALARARASI DİALOQUN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

Qərblə-Şərqin arasında körpü rolunu oynayan Azərbaycan tarix boyu müxtəlif sivilizasiyaların qovuşduğu bir məkan olmuşdur. Mövcud şəraitin formalaşmasında Azərbaycanın tarixi inkişafı, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi və digər amillər böyük rol oynamışdır. Min illərlə mövcud olmuş tarixi şərait müxtəlif dinlərin birgə mövcudluğuna hər cür imkan yaratmışdır. Tarixin ayrı-ayrı dönəmlərində Azərbaycan ərazisində bütpərəstlik, zərdüştilik, xristianlıq, islam və bir çox başqa dini inanclar bu və ya digər səviyyədə yayılmış, bir-birinə qarşılıqlı təsir göstərmiş və bütövlükdə mənəvi həyatın özəlliyini səciyyələndirmişdir. Belə bir şəraitdə bəşər sivilizasiyanın müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması böyük əhəmiyyət kəsb edir. Müasir dövrün yeni çağırışlarının həyatımıza və təfəkkürümüzə gətirdiyi yeniliklər həyatın müxtəlif sahələrini əhatə etdiyi kimi, düşüncə tərzini, yeni ideologiyaların yaranmasını gündəmə gətirməyə, onları yeni dövrün dəyərləri baxımından müzakirə etməyə zəmin yaradır. "Din bəşər mədəniyyətinin yalnız əvəzsiz mənəvi irsi deyil, həm də hər yeni gələn nəslin yaşadığı, öyrəndiyi və münasibət bildirdiyi gerçək reallıqdır" (11,s.197).

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycanda başlanan yeni tarixi dövrdə milli-mənəvi inkişafın bütün istiqamətlərini əhatə edən strateji kursu həyata keçirməklə, bu sahəni dövlətçiliyin mənəvi dayaqlarından birinə çevirdi. "Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir... O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir" (12).

Sosialist düşərgəsinin süqutu ilə dünyanın mövcud siyasi xəritəsi dəyişmiş, bir sıra yeni problemlər meydana çıxmışdır. İqtisadi, ekoloji və demoqrafik problemlərlə yanaşı, mənəvi dəyərlər sisteminin çevik formalaşmaması və ya formalaşmaqda olan dəyərlər sisteminə məqsədyönlü kənar müdaxilələr nəticəsində mənəviyyat problemləri də kəskinləşmişdir.

Belə bir dövrdə dünya dinləri arasında mövcud fərqlərə əsaslanan «sivilizasiyaların toqquşması» nəzəriyyəsi meydana çıxmış və öz tərəfdarlarını tapmışdır. Bəzi "qüvvələr" bir çox hallarda öz fəaliyyətlərinə bəraət qazandırmaq məqsədi ilə dini amildən də istifadə etmək niyyətində olmuşlar. Harvard Universitetinin professoru Samuel Hantinqton 1993-cü ildə «The Clash of Civilizations» ("Sivilizasiyaların toqquşması") adlı məqaləsini «Foreign Affairs» jurnalında dərc etdirmişdir. Bu məqalədə o, "sivilizasiyaların toqquşması" adlı nəzəriyyəsini cəmiyyətin müzakirəsinə vermişdir. Hantinqtonun fikirlərinə görə, yeni əsr sivilizasiyaların toqquşması əsri olacaqdır.

Nəzəriyyə ictimaiyyət, nəzəriyyəçi və praktik siyasətçilərin geniş marağına səbəb oldu. Bu günün özündə belə nəzəriyyə müxtəlif

cür qiymətləndirilir. Bəziləri Hantinqtonun konsepsiyasını reallığa uyğun nəzəriyyə kimi qiymətləndirirsə, digərləri onun yararsız olduğunu vurğulayır. S.Hantinqtonun tezislərinə əsasən, bəşəriyyətin gələcəyi bir-birindən tarixi keçmişi, mədəni ənənələri, xüsusən də konfessional mənsubluğuna görə fərqlənən «sivilizasiyaların toqquşması» ilə xarakterizə olunacaqdır. Amerika aliminin fikrinə görə, demokratik Qərblə kommunist Şərqin siyasi qarşıdurması ilə səciyyələnən «soyuq müharibə»dən sonrakı dövrdə münaqişə və qarşıdurmaların əsas mənbəyini ideologiya və siyasi baxışlar deyil, din və mədəniyyətdəki fərqlər təşkil edəcəkdir. Özü də «gələcəkdə ən qanlı münaqişələr sivilizasiyaları bir-birindən ayıran sərhədlər boyunca baş verəcəkdir» [9].

Elmi təhlillər göstərir ki, bu kimi ciddi risklərin idarəedilməsi və gələcəyə yönələn cəmiyyətin inkişafını təmin etmək üçün multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Digər mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini, tarixi inkişaf və nailiyyətlərini öyrənmədən, onlara qarşı tolerant münasibət, onların nümayəndələrinə hörmət, qarşılıqlı anlaşma, sivilizasiyaların dialoqunu qurmaq mümkün deyildir. Bu gün dünyada baş verən hadisələrin təhlili göstərir ki, sivilizasiyalar arasında dialoqun qurulması və inkişafı həyati zərurətə çevrilməkdədir. Bu mənada ideologiyaların qarşılaşdırılması, müxtəlif mədəniyyətlərin assimilyasiyası, milli-mədəni dəyərlərin qorunması, virtual aləmin mənəvi təsir imkanları daha çox insan faktoru ilə bağlıdır. Elm və təhsilə əsaslanan sivil inkişafın və bilik cəmiyyətinin qurulmasına xidmət edən strategiyanın hədəfində də bu kimi təsirlərə qarşı immunitetin yaradılması öz əhəmiyyətini saxlamaqdadır.

Belə bir şəraitdə bəşər sivilizasiyanın müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması böyük əhəmiyyət kəsb edir. Bu baxımdan tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsi nümunə ola bilər. Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir. Azərbaycan ərazisində yaşayan çoxsaylı etnik və dini qruplar arasında möhkəm əlaqələrin formalaşmasında onların eyni həyat taleyini yaşamaları amili də böyük rol oynamışdır.

Tarix boyu Azərbaycanda yaşayan xalqlar dəfələrlə qüdrətli dövlətlərdən asılı vəziyyətə düşmüş və yaranmış şərait onları, dünyagörüşlərindəki fərqlərə baxmayaraq, yaxınlaşmağa vadar etmişdir. Sovet İttifaqının dağılması regionda dini dözümlülük ənənələri üçün əsl sınağa çevrildi. Bu proseslərin nəticəsində keçmiş müttəfiq respublikaların xalqları müstəqilliklə yanaşı, dini etiqad azadlığı da əldə etdilər. Azərbaycandakı mövcud tolerantlığın əsasları üçün ən böyük təhlükəni minlərlə dinc sakinin ölümünə və bir milyondan çox soydaşımızın doğma yurdlarından didərgin düşməsinə səbəb olan erməni təcavüzü yaradırdı.

Lakin bu hadisələr respublikadakı dini konfessiyalar arasında olan münasibətlərə həlledici mənfi təsir göstərə bilmədi. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu münasibətlər ciddi formada yaxşılaşdı. Bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir. Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən hər bir şəxs vicdan azadlığı hüququna malikdir [1,s.16]. Konstitusiyanın 18-ci maddəsinin 1 və 3 bəndlərində göstərilir ki, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır, bütün dini etiqadlar qanun qarşısında bərabərdir, insan şəxsiyyətini alçaldan, insanlıq prinsiplərinə zidd olan dinləri yaymaq və təbliğ etmək qadağandır. «Dini etiqad azadlığı haqqında» Azərbaycan Respublikasının Qanunu hər bir şəxsin dinə münasibətini müəyyənləşdirmək və ifadə etmək hüququna və həmin hüququ həyata keçirməyə təminat yaradır [10].

Müasir dövrün yeni çağırışlarının həyatımıza və təfəkkürümüzə gətirdiyi yeniliklər həyatın müxtəlif sahələrini əhatə etdiyi kimi, düşüncə tərzini, yeni ideologiyaların yaranmasını gündəmə gətirməyə, onları yeni dövrün dəyərləri baxımından müzakirə etməyə zəmin

yaradır. “Din bəşər mədəniyyətinin yalnız əvəzsiz mənəvi irsi deyil, həm də hər yeni gələn nəslin yaşadığı, öyrəndiyi və münasibət bildirdiyi gerçək reallıqdır” [11, s.197].

Müstəqillik əldə etdikdən sonra ölkəmizdə keçid dövrü adlandırılan mürəkkəb bir zamanda mənəvi dəyərlərin varisliyinin təmin edilməsi son dərəcə çətin idi. 70 il müddətində mövcud olan milli-mənəvi köklərdən uzaqlaşma proseslərinin nəticələrinin aradan qaldırılması bu sahədə ciddi dövlət siyasətinin müəyyən olunmasını tələb edirdi. Ən mühüm məsələ ideoloji vakuumu müəyyənləşdirmək və yeni mərhələnin qarşıya qoyduğu vəzifələri həyata keçirmək idi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycanda başlanan yeni tarixi dövrdə milli-mənəvi inkişafın bütün istiqamətlərini əhatə edən strateji kursu həyata keçirməklə, bu sahəni dövlətçiliyin mənəvi dayaqlarından birinə çevirdi. “Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir... O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir” [12].

Dünyada baş verən təhdid və çağırışların fonunda Azərbaycanda həyata keçirilən siyasət tarixi ənənəyə, insan potensialına və yaxşı idarəetməyə əsaslanır. Bu baxımdan dünyaya multikultural həyat tərzinin təbliği, multikulturalizm ilinin elan olunması ilə açıq mesajlar verilir. Yuxarıda qeyd edilən üç amilin tədqiqi onu deməyə əsas verir ki, Azərbaycan həmişə müxtəlif etnosların nümayəndələrinin mədəniyyətləri və dinlərinin inteqrasiya məkanına çevrilib. Müsəlman, xristian və yəhudi əhalisinin nümayəndələri arasındakı tolerant və dostluq münasibətləri Azərbaycan xalqının humanist mədəniyyəti üçün hər zaman xarakterik olubdur [2, s.102].

Azərbaycanda dini abidələrə münasibət din və dövlət arasında münasibətlərin təzahürüdür: “Azərbaycanda dövlət yalnız məscidləri və islam dininə aid olan digər abidələri tikib bərpa etmir. Eyni zamanda, digər dinlərə aid məbədlər də təmir və inşa edilir. Təbii ki, burada dövlət siyasəti də, bu siyasətin əsasları da düzgün qurulub. Bu, bizim həyat tərzimizdir. Bu bizim dünyaya baxışımızdır. Biz belə yaşayır və belə yaşayaraq özümüzə, regiona və dünyaya sübut edirik ki, multikulturalizm mövcuddur. Multikulturalizm nisbətən yeni anlayışdır. Mahiyyət etibarı ilə isə müxtəlif mədəniyyət və dinlərə mənsub olan şəxslərin birlikdə yaşamaları deməkdir. Yəni bu anlayış Azərbaycanda əsrlər boyu mövcud olub, bu gün də mövcuddur və möhkəmlənməkdədir. Azərbaycan xalqı müxtəlif dövrlərdə müxtəlif ictimai-siyasi quruluşlarda yaşayıb. Buna baxmayaraq, sevindirici haldır ki, müstəqillik dövründə bu müsbət tendensiyalar daima güclənib və güclənməkdədir. Bizim uğurlu inkişafımızı gücləndirən amillər bunlardır” [9].

Təhlillər onu deməyə əsas verir ki, ölkədə bu sahədə həyata keçirilən fəaliyyətin əsasında tarixi ənənə, yaxşı idarəetmə və insan potensialı dayanır. Qeyd edilən bu üç amil tarix boyu formalaşmışdır. Azərbaycan müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qarşılıqlı anlaşma şəraitində bir araya gəldiyi, multikultural dəyərləri həyat tərzinə çevirən nadir ölkələrdəndir. Multikulturalizm eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun olan siyasətdir. “Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir” [13].

Qəbul edilən həqiqət bundan ibarətdir ki, multikulturalizm Azərbaycan cəmiyyətini səciyyələndirən dəyərə çevrilib və ölkəmizdə əsrlər boyu müxtəlif xalqların və konfessiyaların nümayəndələrinə hörmətlə yanaşılması ənənəsi mövcud olub. Azərbaycan Respublikası ikinci dəfə müstəqilliyini bərpa etdikdən sonra məhz Heydər Əliyevin idarəçilik məharəti, onun siyasi müdrikliyi və uzaqgörənliyi nəticəsində bu ənənə prinsiplər səviyyəsinə yüksəlmiş, dövlət siyasətinin vacib istiqaməti kimi öz təsdiqini tapmışdır. Ulu Öndər bildirirdi: “Avropa ilə Asiyanın qovuşuğunda, Böyük İpək Yolunun üstündə yerləşən Azərbaycanda zərdüştilik, atəşpərəstlik kimi qədim dini inanclar öz

izlərini qoymuş, islam, xristianlıq və yəhudi dinləri əsrlər boyu dialoq və qarşılıqlı anlaşma mühitində dinc yanaşı yaşamış və hələ də yaşamaqdadır. Azərbaycan Şərqlə Qərbin qovuşmasında mühüm rol oynayır" [14].

Azərbaycan Respublikasında indiyədək fasiləsiz formada həyata keçirilən multikultural siyasəti layiqincə davam etdirən Prezident İlham Əliyev ənənəvi olaraq ölkəmizdə yaşayan xalqların, dini icmaların nümayəndələri ilə vaxtaşırı görüşür, onları dini bayramları münasibəti ilə təbrik edir. Prezidentin Sərəncamı ilə Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyinin təsis edilməsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu sahəyə göstərilən diqqətin əyani göstəricisidir. Eyni zamanda, Prezident İlham Əliyevin imzaladığı "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında" sərəncamı da göstərir ki, multikulturalizm ənənələrinin qorunub saxlanması, inkişaf etdirilməsi, təbliğ olunması ölkə rəhbərliyinin daimi diqqət mərkəzindədir [5].

Azərbaycan artıq dünyada multikulturalizm və sivilizasiyalar arasında dialoq məkanı kimi qəbul edilir. Xalqımızın sahib olduğu multikultural dəyərlərin dünyaya təqdim edilməsində, ölkələr və beynəlxalq qurumlar arasında sivilizasiyalararası dialoqun təşviq edilməsində, multikulturalizmin Azərbaycan modelinin təbliği sahəsində Heydər Əliyev Fondunun da əvəzsiz xidmətləri vardır. Yaşadığımız günlərin reallığı isə budur ki, artıq multikulturalizmin Azərbaycan modeli mükəmməl şəkildə formalaşıbdır.

Təəssüf ki, dünyanın bir çox ölkələrində toqquşmalar və humanitar problemlər ayrı-ayrı xalqların faciəsinə çevrilib. Eyni zamanda, bu qarşıdurmalar milli və dini zəmində baş verir. Qərb dünyasında islamofobiya meyilləri artdığı bir zamanda Şərq dünyasında ideologiyalar, inanclar, məzhəblər arasında olan qarşıdurmalar artır və daha da dərinləşir. Bu isə sonda mədəniyyətlər və sivilizasiyalararası ziddiyyətləri dərinləşdirir.

Bəzi Qərb dövlətləri multikulturalizmi idarə etməyin kifayət qədər mürəkkəb olması ilə əlaqədar ondan imtina edir, onun bir dəyər kimi iflasa uğradığını açıq bəyanatla bildirirlər.

Son illər dünyada baş verən toqquşmalar, qarşıdurmalar, xüsusilə bəzi liderlərin sivilizasiyalar və mədəniyyətlərarası gərginliyə gətirib çıxaran siyasi bəyanatları gündən-günə gərginləşən münasibətlərin düşmənçilik həddinə çatdığından xəbər verir. Buna görə də dünyada mədəniyyətlərarası dialoqun rolunun dominantlıq təşkil etməsi və qlobal problemlərin intellektual, mədəni, tolerant müstəvidə həlli olduqca önəmlidir. Bu sahədə potensialı güclü olan ölkələrin dialoq məsələlərində təşəbbüslərinin və rolunun artırılması da vacib amillərdəndir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etməklə dünyaya daha bir sülh mesajı vermişdir. Bu addımla bir daha təsdiq olunur ki, Azərbaycan dövləti öz ərazisində məskunlaşan bütün xalqların mehriban və dostluq şəraitində birgəyaşayışının, onların mədəni inkişafının, adət və ənənələrinin qorunmasının təminatçısıdır. Azərbaycanın sivilizasiyalararası dialoqun mərkəzinə çevrildiyini diqqətə çatdıran Prezident İlham Əliyev dünyada sülhün təmin edilməsində dialoqlara böyük ehtiyac olduğunu bildirir. Həqiqətən də, bu gün Azərbaycan təkcə Şərqdən Qərbə və Qərbdən Şərqə gedən yolların körpüsü deyil, həm də siyasi və iqtisadi maraqların, dinlərin, mədəniyyətlərin, sivilizasiyaların da qovuşduğu və bir-birini qarşılıqlı surətdə tamamladığı siyasi-iqtisadi və mədəni-mənəvi mərkəzə çevrilmişdir. III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılış mərasimində Prezident İlham Əliyev çıxışında demişdir: "Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsində yerləşir. Biz Avropa və Asiya arasında yerləşirik. Əlbəttə ki, bu coğrafi yerləşmə Azərbaycanın mədəni müxtəlifliyində öz rolunu oynamışdır. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar. Biz fəxr edirik ki, bu müsbət meyillər müstəqillik illərində daha da güclənmişdir. Bizim tarixi abidələrə nəzər salmaq yetər ki, Azərbaycanın

mədəni müxtəlifliyi aydın görünsün. Biz tarixi və mədəni irsimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən olan, 743-cü ildə inşa edilmiş məscid Azərbaycanın qədim Şamaxı şəhərində yerləşir. Dünyanın ən qədim kilsələrindən biri – Qafqaz albanlarının kilsəsi Azərbaycanın digər qədim Şəki şəhəri yaxınlığındadır. Pravoslav və katolik kilsələri, sinaqoqlar, atəşpərəstlər məbədi bizim mədəni irsimizin tərkib hissəsidir və biz bununla fəxr edirik. Bu gün Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri yaşayır və ölkəmizin uğurlu inkişafına öz töhfələrini verirlər. Düşünürəm ki, bu, bizim ən böyük sərvətlərimizdəndir. Biz bundan qürur duyuruq və multikulturializm dəyərlərinin, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşmanın təşviqi üçün müxtəlif beynəlxalq tədbirlər keçiririk. Hesab edirəm ki, müsbət meyillərin güclənməsi üçün dünyada belə tədbirlərə, açıq müzakirələrə və fikir mübadiləsinə ehtiyac var"[4].

Fəxrlə deyə bilərik ki, Azərbaycanın həyata keçirdiyi uğurlu siyasi strategiya nəticəsində "sivilizasiyalararası dialoqun Azərbaycan modeli" üzərində beynəlxalq elmi ictimaiyyət bu gün diskussiyalar aparır, xalqımızın adət-ənənələrindən irəli gələn yüksək dəyərlərin öyrənilməsi və onun tətbiq olunmasının elmi şəkildə araşdırılmasının əhəmiyyəti barədə söhbət açırlar.

Təsadüfi deyil ki, bu gün Azərbaycan sivilizasiyalararası qarşıdurmanın təzahürləri kimi meydana çıxan qlobal problemlərin həllində qarşılıqlı əməkdaşlıq çağırışları edən elm, din və siyasət xadimlərinin görüşdüyü bir məkana çevrilmişdir. Azərbaycan mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu məkan kimi bütün dünyada qəbul olunmaqdadır. Bu mənada sivilizasiyalararası dialoqun, multikulturalizmin Azərbaycan modeli bütün dünyanın diqqətini cəlb etməkdədir.

Sivilizasiyalar və mədəniyyətlərarası dialoq prosesinin davamlılığını təmin edən Azərbaycan Şərq ilə Qərb arasında körpüdür. Azərbaycanın iqtisadiyyatı, elmi-mədəni potensialı elə bir səviyyəyə çatmışdır ki, sadəcə olaraq, iki sivilizasiya arasında körpü rolunu oynamır, sivilizasiyaların hər ikisinin daşıyıcısı olmaqla onların vəhdətini təcəssüm etdirir. Son illərdə qazanılmış böyük iqtisadi nailiyyətlər Azərbaycana özünün beynəlxalq mövqeyini möhkəmləndirmək, Şərq ilə Qərb arasında tutduğu əlverişli coğrafi vəziyyətdən daha optimal surətdə istifadə etmək imkanı vermişdir. Ölkə Prezidenti İlham Əliyev Azərbaycan multikulturalizminin özünəməxsusluğunu yüksək qiymətləndirərək bəyan edir: "Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir" [4].

Yuxarıda qeyd olunanlara əsasən deyə bilərik ki, ölkədə insan faktorunun inkişafı baxımından kompleks tədbirlərin görülməsinə, gənclərin multikultural dəyərlərlə formalaşmasına daim xüsusi önəm verilmişdir. İnsanın hərtərəfli inkişafına, güclənməsinə və idarəedilməsinə yönəldilmiş siyasətin mərkəzində ilk növbədə Azərbaycan vətəndaşı, xüsusən Azərbaycan gəncliyi dayanır. "Qara qızıl"ın "insan qızılına" çevrilməsinə yönəldilmiş strategiyada bilik və bacarıq əsas rol oynayır. "....neft faktorunun insan kapitalına çevrilməsi insan potensialının inkişafına səbəb olur. Strateji önəm daşıyan, tükənməyən və daim təkmilləşən təbii sərvətlər arasında ən böyük əhəmiyyətə malik olan insan potensialı isə hər zaman inkişafın həlledici amili kimi çıxış edib və etməkdədir. Son zamanlar ölkələrin inkişafının, əhalinin həyat səviyyəsi və rifahının bilik və bacarıqlardan asılı olması insan amilinin vacibliyini bir daha ön sıraya çıxarıb [6].

Bu yanaşma yuxarıda qeyd etdiyimiz üçbucağın müddəalarından irəli gəlir. Elmsiz, təhsilsiz nə dialoq, nə sülh, nə də tolerantlıq təmin edilə bilməz. Təsadüfi deyildir ki, 2016-cı ilin 25-27 aprel tarixində paytaxtımızda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçiriləcəkdir. Bu mötəbər beynəlxalq tədbirin ölkəmizdə keçirilməsi Azərbaycanda yüksək səviyyədə qorunan multikultural dəyərlərə dünya birliyi tərəfindən verilən

qiymətdir. Azərbaycan Respublikasının bu sahədə apardığı xətt belə deməyə əsas verir ki, o, təkcə maddi sərvətləri ilə deyil, həm də mənəvi sərvətləri, o cümlədən yüksək mənəviyyatı, tolerantlığı, multikultural həyat tərzi və birgəyaşayışa, sülhə meylli olması ilə digər dövlətlərə nümunə göstərilə bilər.

Dövlətimizin bu sahədə apardığı xətt onu deməyə əsas verir ki, Azərbaycan xalqı təkcə maddi sərvətləri ilə deyil, həm də mənəvi sərvətləri, o cümlədən xalqın yüksək mənəviyyatı, onun tolerantlığı, multikultural həyat tərzi və birgə yaşayışa, sülhə meylli olmaları ilə də dünya ictimaiyyətinə eyni zamanda təhsil və tədrisin standartlarının tətbiqi baxımından da model olaraq nümunə göstərilə bilər.

Ölkədə zəngin multikultural həyat tərzinin dünyada təbliği istiqamətində mühüm tədbirlər görülür. Qürur duyulası haldır ki, ölkəmizdə ardıcıl olaraq uğurla həyata keçirilən hüquqi-demokratik islahatlar, vətəndaş cəmiyyəti quruculuğu, bilik iqtisadiyyatının formalaşması kimi gələcəyə yönəlmiş baxışların əsasında insan potensialının inkişafı və idarə edilməsi, onun tarixi və mənəvi dəyərlərinin qorunması da prioritet təşkil etməkdədir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı: "Qanun", 2011
2. Əliyev H., Müstəqilliyimiz əbədidir, Bakı: "Azərnəşr", 1997-2004
3. İlham Əliyevin Üçüncü Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimindəki çıxışı, http://www.president.az/articles/15172
4. İlham Əliyevin III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuda çıxışı, http://www.president.az/articles/15172
5. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı, 11.01.2016 http://www.president.az/articles/17437
6. Ələkbərov U., Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası I virtual dəyirmi masa, 2014 http://cdn.bbmm.az/pdf/rt1.pdf
7. Xəlilov S. Şərqdə və Qərbdə milli-mənəvi dəyərlər http://psychology.az/salahaddin_halilov.php
8. The Clash of Civilizations and the Remaking of World Order. New York: Simon & Schuster, 1996
9. P.Darabadi, «Sivilizasiyaların toqquşması» və ya Samuel Hantinqtonun neoatlantizmi, http://newtimes.az/az/politics/3026
10. Dini etiqad azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 20 avqust 1992-ci il
11. Мец А. Мусульманский Ренессанс, М.: Наука, 1973
12. Azərbaycan-tolerantlığa nümunə ölkə // http://xalqqazeti.com/az/news/politics/56945 http://www.president.az/articles/9894
13. Azərbaycan multikulturalizmin əsas məkanlarından biridir http://www.interaztv.com/society/1838.
14. Azərbaycanda tolerantlıq http://www.azerbaijan.az/_GeneralInfo/_TraditionReligion/traditionReligion_03_a.html#to


***Açar sözlər:*** *Azərbaycanın multikulturalizm modeli, sivilizasiyalararası dialoq, tarixi ənənə, yaxşı idarəetmə*

**Yusif Agayev**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Counselor, Ph.D. in Philology, Associate Professor***

# THE ROLE OF HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF DIALOGUE BETWEEN CULTURES AND CIVILIZATIONS

## ABSTRACT

Multiculturalism is a crucial tool of intercultural dialogues and civilizations to manage risks and maintain the sustainable development of society. It is impossible to be tolerant, respect representatives of other cultures, and create mutual understanding and civilizational dialogues without learning about those cultures and their history and achievements. The analysis of the events today suggests that the formation and growth of dialogue among civilizations have become a requirement of their existence. However, regardless of the point of view from which the problem is assessed, the question retains its urgency. The basis of the problem of communication among civilizations demonstrates a triangle among civilizations, historical traditions, good governance, and human resources. These are the points of the angles mentioned above. Indeed, as the result of the policy founded by the National Leader Heydar Aliyev and successfully continued by President Ilham Aliyev, the preserved and developed tolerance of our country is an excellent contribution to the culture of tolerance in the world and a priceless value for the future generations.

***Keywords:*** *multiculturalism model of Azerbaijan, dialogues among civilizations, historical tradition, good governance*

**Юсиф Агаев**
***Советник Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по филологии, доцент***

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ МЕЖКУЛЬТУРНОГО И МЕЖЦИВИЛИЗАЦИОННОГО ДИАЛОГОВ

### РЕЗЮМЕ

Для управления рисками и обеспечения развития общества, направленного в будущее мультикультурализм является важным звеном в культурном и цивилизационном диалоге. Невозможно построить межцивилизационный диалог, толерантное отношение, уважение, обоюдное согласие не изучив сущность, особенности, историю и достижения других культур. Анализ событий, происходящих в мире в наши дни, показывает, что построение и развитие межцивилизационного диалога становится жизненно важным явлением. Однако с какого аспекта оценивается взгляд на проблему? Этот вопрос сохраняет свою актуальность. Основу проблемы отражает треугольник в межцивилизационном диалоге: историческая традиция, хорошее управление, человеческий потенциал. Это отражение различных углов. Вне всяких сомнений сохраненная и развитая среда толерантности в результате политики, основанной общенациональным лидером Гейдаром Алиевым, и успешно продолжаемой Президентом Ильхамом Алиевым является незаменимой ценностью для будущих поколений, большим вкладом нашего государства в мировую культуру.

***Ключевые слова:*** *модель мультикультурализма Азербайджана, межцивилизационный диалог, историческая традиция, хорошее управление*

DOI:10.30546/dia.2.82.2023.243


UOT 351

**MURTƏZA HƏSƏNOV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin dekanı, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent***

*e-mail: m_hasanoglu@yahoo.com.tr*

# MÜASİR AZƏRBAYCANIN DÖVLƏT İDARƏÇİLİK SİSTEMİNDƏ İNNOVASİYA SİYASƏTİ

## Giriş

Azərbaycan qədim və zəngin dövlətçilik mədəniyyətinə malikdir. Azərbaycanın iqtisadi, siyasi, sosial, hüquqi sahələrində köklü dəyişikliklər aparılmış, hakimiyyət sistemində, mülkiyyət münasibətlərində yenidənqurma prosesi getmiş, müasir dövlət idarəetmə sistemi formalaşmışdır. Azərbaycan dövləti ölkədə sosial-iqtisadi və təsisat-struktur sahəsində köklü dəyişikliklər aparılması, şəffaflığın genişləndirilməsi, cəmiyyətin yeni konturlarını müəyyən edən ən perspektivli dövlət siyasəti aparılması yolunu tutmuşdur. Azərbaycanda müstəqillik illərində ardıcıl olaraq həyata keçirilən liberallaşdırma və vətəndaş cəmiyyətinin yaradılması xətti siyasi modernləşmənin təməl daşıdır. Siyasi modernləşmə cəmiyyətin yenidən qurulmasının mühərriki olan iqtisadi modernləşməyə də yaşıl işıq yandırır.

İnnovasiya siyasəti Azərbaycanda ictimai həyatın bütün sahələrinin yenilənməsi, müasirləşməsi məhz Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti illərində daha da güclənmişdir. Demokratik inkişaf və modernləşmə yalnız yüksək maddi rifah şəraitində özünə möhkəm ictimai dayaqlar tapa bilir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyevin fəaliyyətində iqtisadiyyat həyata keçirilən islahatların əsas ağırlıq mərkəzini – nüvəsini təşkil etmişdir. Bu da kifayət qədər əsaslı yanaşma olaraq Azərbaycanın dövlət müstəqilliyinin iqtisadi bazasını möhkəmlətmək, cəmiyyətin davamlı inkişafı üçün zəmin hazırlamaq məqsədindən irəli gəlmişdir. Dövlət başçısının iqtisadi siyasəti nəticəsində son illər vətəndaşların yaşayış tərzində, sosial rifah halında özünü qabarıq göstərməyə başlayan müsbət keyfiyyət dəyişiklikləri, hər bir hüquqi dövlətdə ictimai-siyasi sabitliyin başlıca təminatçısı sayılan orta təbəqənin – milli sahibkarlar ordusunun mövqelərinin ildən-ilə möhkəmlənməsi ümumbəşəri xarakter daşıyan demokratik-hüquqi normaların ictimai rəydə düzgün dərk olunmasına, qavranılmasına və qiymətləndirilməsinə əlverişli şərait formalaşdırır. Azərbaycanda həyata keçirilən islahatların insan və vətəndaş amilinin yüksəlişinə xidmət edir. Sosial-iqtisadi və siyasi islahatların getdiyi bir dövrdə əhalinin həyat səviyyəsinin, insan və vətəndaşların hüquq və azadlıqlarının təminat səviyyəsinin yüksəldilməsinə xidmət edən sosial institutların fəaliyyətinin tədqiqi mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə geniş müzakirə edilən və aktual problemlərdən biri özünün müxtəlif növ və tipləri ilə təzahür edən innovativ idarəetmə sistemi prosesidir.

## Azərbaycanın dövlət idarəçilik sistemində innovasiya siyasətinin başlıca istiqamətləri

Azərbaycan siyasi müstəqilliyini bərpa etdikdən sonra sosial, iqtisadi, siyasi, hüquqi, mədəni sahələrdə islahatların həyata keçirilməsinə start verildi. Bu islahatlar bazar münasibətləri sisteminə keçid şəraitində hüquqi dövlət quruculuğunun həyata keçirilməsi,

dövlət idarəetməsi sisteminin yenidən qurulması sahəsində fundamental dəyişikliklərin əsasını qoydu. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətin başına gəlməsi ilə dövlət idarəçiliyində artıq ciddi islahatlar və yeniliklər tətbiq olunmağa başladı.1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi idarəetmə sistemində, o cümlədən, dövlət idarəetmə sistemində islahatların yeni mərhələsinin əsasını qoymaqla, ölkəmizdə dövlət qulluğunun legitimləşdirilməsi üçün baza formalaşdırdı. İslahatların həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti, Ümummilli Lider Heydər Əliyevin «Hüquqi islahatlar komissiyasının yaradılması haqqında» Sərəncamının (1996) və «Dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında» Fərmanının (1998) müstəsna rolu olmuşdur. Respublikamızın müstəqilliyinin bərpa olunmasından keçən dövr ərzində dövlət idarəetməsi, o cümlədən dövlət qulluğu sahəsində çox mühüm islahatlar həyata keçirilmiş, bütövlükdə, ölkəmizdə bu sistemin, eləcə də onun kadr potensialının formalaşmasında fundamental dəyişikliklər, inkişaf prosesləri həyata keçmişdir. Azərbaycan Respublikasının Konstitusiyası – Azərbaycan Respublikasının əsas qanunudur. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul olunmuşdur. 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilən referendumlarda qüvvədə olan Konstitusiyaya əlavə və dəyişikliklər qəbul olunmuşdur [1].

26 sentyabr 2016-cı il Referendumu Azərbaycan demokratik inkişaf xəttinə sədaqətini hər zaman nümayiş etdirmiş, daim təkmilləşməyə ehtiyac duyan vətəndaş cəmiyyətinin bəşəri dəyərlərlə inkişafı prinsiplərini əldə rəhbər tutmuşdur. Bu istiqamətdə həyata keçirilən davamlı islahatların uğurlu nəticələri artıq göz qabağındadır. Azərbaycanda qanunvericilik bazasının daha da təkmilləşdirilməsi, icra mexanizmlərinin dövrün tələblərinə uyğun yenilənməsi və tənzimlənməsi, daha çevik idarəetmə mexanizminin formalaşması, çoxpartiyalı sistemin və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi, insanların sərbəst toplaşmaq azadlıqlarının təmin edilməsi demokratiyanın dinamik inkişafını təsdiq edən təkzibedilməz şərtlərdir. Müstəqil Azərbaycan inkişaf və gələcəyə baxış siyasətini bu möhkəm təməl üzərində qurmuşdur. Bu gün Azərbaycanda insan hüquq və azadlıqlarının yüksək səviyyədə təmin edilməsi dövlət siyasətinin prioritet məsələsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Ana Qanununa – Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi məqsədilə 26 sentyabr 2016-cı ildə keçirilən ümumxalq səsverməsi (referendum) də ölkədə insan hüquq və azadlıqlarının konstitusion təminatının daha da gücləndirilməsinə, demokratik təsisatların fəaliyyətinin və bütövlükdə idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədlərinə xidmət göstərir. Konstitusiyaya təklif olunmuş və ölkə vətəndaşları dəstəklənmiş dəyişikliklər Azərbaycan Respublikasının bəyan etdiyi demokratiyanın inkişafı konsepsiyasının daha da möhkəmləndirilməsinə xidmət etmişdir. 26 sentyabr 2016-cı il ümumxalq səsverməsinin (referendumun) nəticələri Azərbaycan vətəndaşlarının iqtidara dərin inamını bir daha əyani şəkildə nümayiş etdirmişdir. Bu, həm də Azərbaycan Prezidenti İlham Əliyevin birbaşa rəhbərliyi altında həyata keçirilən siyasi və iqtisadi islahatların ölkə vətəndaşları tərəfindən birmənalı dəstəklənməsinin və müdafiə olunmasının bariz nümunəsidir. Azərbaycan Respublikası Konstitusiyasında 3-cü dəfə dəyişikliklər 26 sentyabr 2016-cı il tarixdə ölkə prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilmişdir. Konstitusiyanın 23 maddəsində dəyişiklik edilmiş, eyni zamanda Konstitusiyanın mətninə 6 maddə əlavə edilmişdir. Onları dörd qrupda birləşdirmək mümkündür: insan hüquq və azadlıqlarının qorunması mexanizminin təkmilləşdirilməsi; siyasi idarəçilik təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi; dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələrin imzalanması rejiminin təkmilləşdirilməsi; insan hüquq və azadlıqlarının qorunmasında bələdiyyələrin məsuliyyətinin artırılması. Təklif olunan 23 dəyişikliyin 16-sı, insan hüquq və azadlıqlarının qorunması mexanizminin təkmil-

ləşdirilməsi ilə əlaqədardır. Dəyişikliklərdən biri də yeni vitse-prezidentlər institutunun yaradılmasıdır. Bu dəyişikliyə görə Azərbaycan Prezidentinin Birinci vitse-prezidenti və vitse-prezidentlər təyin və vəzifədən azad etmək səlahiyyəti nəzərdə tutulub. Vitse-prezidentlik institutu ölkəmiz üçün yeni tətbiq olunur. Azərbaycan Respublikasının vitse-prezidentləri

I. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

II. Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.".

Digər dəyişikliklər isə siyasi idarəçilik təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi, dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələrin imzalanması rejiminin daha da təkmilləşdirilməsidir.

İslahatların mühüm istiqamətlərindən birini də məhz dövlət qulluğu sahəsində kadr hazırlığı məsələləri təşkil edirdi. Yeni Konstitusiya əsasında qəbul edilmiş mühüm normativ-hüquqi aktlardan biri də 21 iyul 2000-ci il tarixdə qəbul edilmiş "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu mühüm dövlət sənədi yeni əsrdə Azərbaycanın idarə olunmasını, onun müstəqilliyinin möhkəmləndirilməsini, insanın, sıravi vətəndaşın rifahının yaxşılaşdırılmasını təmin edən kadr siyasətinin həyata keçirilməsinə, əhalinin geniş bir təbəqəsini təşkil edən dövlət qulluqçularının cəmiyyətdəki yerinin, onların hüquq və vəzifələrinin dəqiq müəyyənləşdirilməsinə xidmət göstərir və ümumilikdə dövlət qulluğu ilə bağlı bütün məsələləri tənzimləyir. "Dövlət qulluğu haqqında" qanun 6 fəsil və 35 maddədən ibarətdir [2].

Azərbaycan Respublikası Konstitusiyasında yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin yaradılması, onların fəaliyyət istiqamətləri ilə bağlı bir sıra məsələlər öz əksini tapdı. Azərbaycanda yerli idarəetmə orqanları olan bələdiyyələrin fəaliyyət istiqamətləri, onların səmərəli fəaliyyətinin təmin edilməsi ilə məqsədi ilə Bələdiyyələr haqqında Azərbaycan Respublikasının Qanunları qəbul edildi. 2 iyul 1999-cu ildə "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanuna əsasən Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, yerli özünüidarəni həyata keçirən bələdiyyələrin yaradılması prinsiplərini, rolunu, yerli özünüidarənin hüquqi, iqtisadi və maliyyə əsaslarını, onun həyata keçirilməsi üçün dövlət təminatlarını müəyyənləşdirildi. Bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsi ilə əlaqədar yaranan münasibətlər Azərbaycan Respublikasının Konstitusiyası ilə bu Qanunla, "Bələdiyyələrin statusu haqqında", "Büdcə sistemi haqqında", "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları ilə tənzimlənir. Bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli büdcə və büdcədənkənar fondlar, bələdiyyənin istehsal, xidmət və digər iqtisadi fəaliyyəti təşkil edir. Bələdiyyənin maliyyə vəsaitinin formalaşması və istifadəsi özünüidarəetmə, müstəqillik, aşkarlıq və yerli mənafenin respublika mənafeyi ilə uzlaşması prinsiplərinə əsaslanır. Yerli büdcə bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir. Yerli büdcələrin xərclərinin həcmi və istiqamətləri bələdiyyələr tərəfindən müəyyənləşdirilir. Yerli büdcənin layihəsi bələdiyyə ərazisində fəaliyyət göstərən bələdiyyə müəssisələrinin və digər hüquqi şəxslərin, habelə fiziki şəxslərin təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi, sosial-iqtisadi proqnozlar və məqsədli proqramlar əsasında formalaşır [18].

"Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının qanunu 2007-ci il 31 may tarixli Azərbaycan Respublikası Prezidentinin qərarı ilə qəbul olunmuşdur [3].

23 noyabr 2018-ci il tarixli "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına

dair 2019-2025-ci illər üçün Strategiya haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanmışdır. Hal-hazırda həmin strategiya əsasında dövlət idarəçiliyində təkmilləşdirmə və inkişaf işləri görülür.

Azərbaycanda həmçinin etik davranış qaydalarından biri kimi sayılan korrupsiyaya qarşı mübarizə tədbirləri görülür. Bununla bağlı "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" 4 aprel 2022-ci il tarixli Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı ilə təsdiq edilmişdir [4].

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli fərmanı ilə artıq dövlət idarəçiliyində elektron hökumətin təşkili prosesləri başlamış oldu [5].

"ASAN xidmət" – Azərbaycan Respublikasında dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən qurumdur. "ASAN xidmət" Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə tabedir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2012-ci il 13 iyulda imzaladığı 685 saylı fərmana əsasən "ASAN xidmət" mərkəzlərinin də strukturuna daxil olduğu Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradıldı. 2013-cü ildən artıq öz fəaliyyətinə başladı [6].

Dövlət qulluğunun təkmilləşdirilməsi və islahatı dövlət idarəetməsinin modernizasiyası prosesi ilə qarşılıqlı əlaqədə aparılır. Azərbaycan Respublikasında bu yönümdə həyata keçirilən mühüm tədbirlərdən biri Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılmasıdır. Agentlik dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsinin, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinin, vətəndaş məmnunluğunun təmin olunmasının zəruriliyi nəzərə alınaraq yaradılmışdır.

Agentliyin yaradılması vətəndaş – dövlət qulluqçusu" münasibətlərinin səmərəli inkişafı, vətəndaşlara dövlət xidmətlərinin asan şəkildə müyəssər olması, dövlət qulluğunun müsbət imicinin artırılması üçün tədricən dövlət orqanlarında vəzifəli şəxslərdə yeni etik xüsusiyyətlərin, təşkilati mədəniyyətin fəaliyyət üslubunun formalaşdırılması yönümündə həyata keçirilən mühüm tədbirdir. Bir neçə dövlət orqanının səlahiyyətinə aid olan xidmətləri bir orqanda vətəndaşlara təqdim edən "Asan xidmət"in yaradılması ilə dövlət idarəetmə sistemində yeni prinsipin – "rəqabət" prinsipinin tətbiqinə başlanılmışdır. İdarəetmədə rəqabət prinsipi vətəndaş məmnunluğunun təmin olunması, korrupsiyanın qarşısının alınması, dövlət orqanlarının fəaliyyətində səmərənin və çevikliyin artırılması üçün dövlət orqanları arasında sağlam rəqabətin yaradılmasını nəzərdə tutur.

Dövlət Agentliyi fəaliyyət istiqamətlərinə uyğun olaraq, Azərbaycan Respublikasında "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinin vahid şəkildə idarə edilməsini, xidmət mərkəzlərində fəaliyyət göstərən mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, nəzarət və qiymətləndirmənin aparılmasını, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasını, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsini, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

İslahatlar dövlət idarəetməsinin ənənəvi funksiyalarına proqnozlaşdırma, strateji təhlil, qiymətləndirmə, marketinq, insan resurslarının idarə olunması kimi yeni funksiyaların əlavə olunmasına, innovasiyalardan və müasir texnologiyalardan fəal istifadənin təmininə də səbəb olmuşdur. Dövlət orqanlarının fəaliyyətinin müasir standartlara uyğun təkmilləşdi-

rilməsi üçün 2007-2011-ci illərdə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" icra edilmiş, Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planında dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın, yeni texnologiyaların tətbiqi əsas prinsiplər kimi təsbit olunmuşdur.

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi – Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 11 aprel tarixli Fərmanı ilə yaradılmışdır. Dövlət İmtahan Mərkəzi dövlət qulluğu üçün kadrların seçilməsi, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun həyata keçirilməsi məqsədi ilə, habelə müqavilə əsasında dövlət orqanları, hüquqi və fiziki şəxslər üçün imtahanlar təşkil edən publik hüquqi şəxsdir [7].

"Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2016-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasında dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsini, ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsini (attestasiyasını), orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (tibb təhsili üzrə əsas təhsil və rezidentura) səviyyələrinə, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə mərkəzləşdirilmiş qəbul imtahanlarının keçirilməsini təşkil etmək məqsədi ilə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs yaradılmışdır.

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi dövlət qeydiyyatına alındığı andan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ləğv edilmiş və onların istifadəsində olan dövlət əmlakı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin balansına verilmişdir.

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi dövlət qulluğu sahəsində fəaliyyəti, ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsini (attestasiyasını) həyata keçirən, dövlət qulluğu üçün kadrların seçilməsi, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq ali və orta ixtisas təhsili müəssisələrinə, bakalavriat səviyyəsində hazırlıq qruplarına tələbə qəbulunun həyata keçirilməsi məqsədi ilə, habelə müqavilə əsasında dövlət orqanları, hüquqi və fiziki şəxslər üçün imtahanlar təşkil edən publik hüquqi şəxsdir [7].

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi – "DOST" mərkəzlərinin idarə edilməsi, onların fəaliyyətinə nəzarət və qiymətləndirmənin həyata keçirilməsi, eləcə də məşğulluq, əmək, sosial müdafiə və təminat sahələrində, habelə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətlərinə uyğun olaraq digər sahələrdə Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi siyahıda göstərilən xidmətlərin "DOST" mərkəzlərində göstərilməsinin təşkili ilə bağlı fəaliyyət göstərən publik hüquqi şəxsdir. DOST Agentliyi Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2018-ci il tarixli 229 saylı Fərmanına əsasən yaradılıb [8].

Agentlik öz fəaliyyətində mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir. Agentliyin idarəetmə orqanları Müşahidə Şurası və İdarə Heyətindən ibarətdir. Agentliyin Müşahidə Şurası Agentliyə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir. İctimai əsaslarla fəaliyyət göstərən Şura müstəqil qərar qəbul etmək hüququna malikdir. 7 üzvdən ibarət olan Şuranın tərkibi aşağıdakı kimidir:

- Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri;
- Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi;
- Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri;
- Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Dövlət Agentliyinin İdarə Heyətinin sədri;
- Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri;

- Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Milli Konfederasiyasının Prezidenti;
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bir nümayəndəsi.

Müşahidə Şurasının sədri Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziridir [9].

Bundan başqa, 23 noyabr 2018-ci il tarixli "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanmışdır. Hal-hazırda həmin strategiya əsasında dövlət idarəçiliyində təkmilləşdirmə və inkişaf işləri görülür [10].

### Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində kadr potensialı və kadr hazırlığının xüsusiyyətləri

Ümumdövlət siyasətinin əsasında formalaşan, çoxsaylı subyektə, mürəkkəb struktura malik olan kadr siyasəti ictimai münasibətlərin əsas tərəflərini əks etdirir, obyektiv xarakterə malik olur və hər bir sivil cəmiyyətin, təşkilatın inkişafında mühüm rol oynayır. Kadr siyasəti dövlətin fəaliyyət istiqamətlərindən biri olub, insanlarla işləmək üçün təşkilati xarakterli prinsiplərin işlənib hazırlanmasını, kadr ehtiyatının formalaşdırılmasını və ondan rasional qaydada istifadə olunmasını, kadr potensialının səmərəli inkişafının təmin olunmasını nəzərdə tutur. Səmərəli kadr siyasətinin yürüdülməsi vasitəsilə potensiallı və peşəkar kadrları dövlət qulluğuna cəlb etmək, onların bilik və bacarıqlarından səmərəli şəkildə istifadə etmək və səriştəli kadr potensialının formalaşdırılmasını təmin etmək olar. İnkişaf proseslərindən irəli gələn yeni vəzifələrin həlli dövlət idarəetmə sisteminin mühüm əhəmiyyətli sahələrindən biri olan dövlət qulluğunda çalışan qulluqçulardan yüksək peşəkarlıq səviyyəsi, yaradıcı, kreativ, özünüinkişafa hazırlıqlı olmalarını tələb edir. Ona görə də bu proseslər fonunda qarşıya çıxan problemlərin çevik və uğurlu həlli məhz dövlət idarəetməsi sahəsində kadr potensialının gücləndirilməsi, kadrların hazırlığı və yenidən hazırlığı sisteminin təkmilləşdrilməsi, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsinin zəruriliyini ön plana çəkir.

İnkişaf etmiş ölkələrdə dövlət qulluğunda kadr siyasəti sahə siyasətinin aparıcı istiqamətidir. Bu ölkələrdə "insan kapitalına" məcmu investisiyalar istehsal vasitələrinə investisiyaları əhəmiyyətli dərəcədə üstələyir. Vurğulamaq zəruridir ki, dövlətin kadr siyasəti dövlət idarəetməsinin keyfiyyət xarakteristikaları ilə sıx əlaqədardır. İdarəetmənin kadr potensialı yox, cəmiyyətin kadr potensialı daha böyük önəm daşıyır. Cəmiyyətin kadr potensialından səmərəli istifadə olunmasının əsas şərti düşünülmüş kadr siyasətinin işlənməsi və təcrübədə reallaşdırılmasıdır. Kadr potensialı – ölkənin əmək resurslarının əmək, qulluq, vəzifə öhdəliklərini yerinə yetirmək qabiliyyətinin məcmusudur. Kadr potensialına həm işləyən kadr heyəti, həm də potensial olaraq əmək-qulluq prosesinə qoşulmağa hazır olan kadr rezervləri daxildir. Yuxarıda qeyd etdiyimiz kimi, dövlətin kadr siyasətinin əsas məqsədi yüksək peşəkarlığa malik kadr potensialının formalaşdırılmasıdır. Məhz effektiv kadr siyasəti dövlət qulluğunda xalqa, cəmiyyətə layiqli xidmət göstərilməsini təmin edə bilər. Cəmiyyəti dövlət idarəetməsində qeyri-peşəkarlıqdan qorumaq məqsədi ilə dövlət aşağıdakı tədbirləri həyata keçirir [11]:

- professional birliklərlə birlikdə müxtəlif fəaliyyət sferalarında kvalifikasiya imtahanları sistemini təşkil edir;
- dövlət qulluğu üçün kadrlar hazırlayan təhsil müəssisələrində dövlət təhsil standartlaşdırılmasının reallaşdırılması, bu müəssisələrin lisenziyalaşdırılması və akkreditasiyası sistemi üzərində nəzarəti gücləndirir;
- dövlət qulluqçuları üçün professional təcrübənin səviyyəsinə kvalifikasiya tələblərinin səviyyəsini müəyyən edir;
- dövlət professional fərqləndirmə və mükafatlandırma sistemini yaradır;

- xüsusi hazırlıq tələb edən peşə qruplarını müəyyən edir;
- dövlət qulluğunda vəzifəli şəxslərin qeyri-peşəkar fəaliyyətinə görə məsuliyyət dərəcəsini müəyyən edir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra sosial, iqtisadi, siyasi, hüquqi, mədəni sahələrdə innovativ idarəetmə sisteminin həyata keçirilməsinə start verildi. İnnovativ idarəetmə sistemi bazar münasibətləri sisteminə keçid şəraitində hüquqi dövlət quruculuğunun həyata keçirilməsi, dövlət idarəetməsi sisteminin yenidən qurulması sahəsində fundamental dəyişikliklərin əsasını qoydu. O dövrdə bu sahədə islahatların mühüm istiqamətlərindən birini də məhz dövlət qulluğu sahəsində kadr hazırlığı məsələləri təşkil edirdi. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi idarəetmə sistemində, o cümlədən, dövlət idarəetmə sistemində islahatların yeni mərhələsinin əsasını qoymaqla, Azərbaycan dövlət qulluğunun legitimləşdirilməsi üçün baza formalaşdırdı.

Azərbaycan Respublikasının müstəqilliyinin bərpa olunmasından keçən dövr ərzində dövlət idarəetməsi, o cümlədən dövlət qulluğu sahəsində çox mühüm islahatlar həyata keçirilmiş, bütövlükdə, ölkəmizdə bu sistemin, eləcə də onun kadr potensialının formalaşmasında fundamental dəyişikliklər, inkişaf prosesləri həyata keçmişdir. Bu proseslər fonunda Azərbaycanın beynəlxalq təcrübəyə və milli xüsusiyyətlə əsaslanan özünəməxsus dövlət qulluğu sistemi formalaşmışdır. İlk növbədə qanunverici, normativ-hüquqi baza formalaşdırılmış, dövlət qulluğuna qəbul sahəsində şəffaflıq prinsiplərinin üstünlüyünə əsaslanan bir sistem təşkil edilmişdir. dövlət orqanlarının status və funksiyalarına uyğun olaraq kateqoriyaları müəyyən edilmiş, dövlət qulluğu vəzifələrinin təsnifatlar üzrə bölgüsü aparılmışdır. Həm təşkilati, həm də institusional istiqamətlərdə də əsaslı inkişaf meylləri üstün olmuşdur. Bu sahədə nəzarət və tənzimləməni həyata keçirən Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yaradılmışdır, dövlət qulluqçuları haqqında mərkəzləşdirilmiş məlumat bazasının yaradılması üçün Dövlət Qulluqçularının Reyestri formalaşdırılmışdır [10]. Çox mühüm əhəmiyyətli addımlardan biri isə məhz respublikamızda dövlət idarəçiliyi sahəsində mütəxəssislərin hazırlanması və onların peşəkarlıq səviyyələrinin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradılması olmuşdur. Hal-hazırda Akademiya respublikamızda dövlət qulluğu sistemində çalışan insanların ixtisasının artırılması, onların yenidən hazırlığı məsələlərində çox mühüm rol oynayır. Ümumiyyətlə, dövlət qulluğu həm hüquqi, həm sosialyönümlü dövlət, həm də azad, sivil vətəndaş cəmiyyətinin formalaşması və inkişafının əsasında dayanır. Dövlət qulluğu sistemində kadr hazırlığının reallaşdırılması institusionallaşmanın xarakterik cəhətlərindən olmaqla, həm də davamlı və dayanıqlı inkişafın əsas şərtləndirici amillərindən birinə çevrilməkdədir [12].

Prezident İlham Əliyevin uğurlu dövlət idarəçiliyi strategiyasının nəticəsində formalaşan inkişaf modeli səmərəli kadr siyasətinin və peşəkar dövlət qulluğunun zəmini olmuşdur. Müasir və güclü dövlətin, səmərəli, demokratik və şəffaf idarəetmənin formalaşdırılması istiqamətində aparılan ardıcıl islahatlar nəticəsində ölkədə vətəndaşa yönümlü, peşəkar və şəffaf dövlət qulluğu modeli formalaşdırılmış, dövlət qulluğu “cəmiyyətə, xalqa xidmət” mənasını qazanmışdır. Milli-mənəvi dəyərlərə bağlı, dövlətini və millətini sevən, müasir və yaradıcı təfəkkürlü, geniş dünyagörüşlü, peşəkar kadrların dövlət qulluğuna cəlb olunması, həmçinin, kadr potensialının inkişaf etdirilməsi üçün mühüm islahatlar həyata keçirilmişdir [13].

Azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almalarını və ölkənin inkişafının mühüm amilinə çevrilmələrini təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidenti “Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı haqqında” 2006-cı il 19 oktyabr tarixli Sərəncam imzalamışdır. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramında da insan kapitalının

yüksək inkişaf səviyyəsinin təmin edilməsi nəzərdə tutulmuşdur. Digər sahələr kimi, dövlət qulluğunun da peşəkar, kreativ, innovativ düşüncəyə malik kadr potensialı ilə təmin olunması, kadrların inkişaf etdirilməsi üçün müasir təlim texnologiyalarına, ixtisaslı kadrlara, zəruri infrastruktura malik, səmərəli, çevik, innovativ, şəxsiyyətə yönümlü əlavə təhsil sistemi zəruri əhəmiyyət kəsb edir. İnsan potensialının inkişafının, kadrların intellektual, peşə hazırlığı səviyyəsinin yüksəldilməsinə və təkmilləşdirilməsinə, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılmasına xidmət edən əlavə təhsil fasiləsiz təhsil imkanını təmin edir [13].

Ədəbiyyatda haqlı olaraq vurğulanır ki, kadrların idarə edilməsi sahəsində bilik və bacarıqların artması Azərbaycanın dövlət qulluğuna və ola bilsin, ümumiyyətlə ölkənin inkişafına əhəmiyyətli dərəcədə fayda verəcəkdir [14].

Dövlətin mövcudluğu və gələcək taleyi onun milli-mənəvi dəyərləri, resursları, istehsal gücləri, modern və çevik idarəetmə sistemi ilə yanaşı, həm də kadr potensialı insan kapitalı ilə müəyyən olunur. İnsan kapitalı xalqların inkişaf və yaşayış səviyyəsinin, qazandığı uğurların əsas zəminidir. Respublikamızda aparılan islahatların gündəmində də prioriteti məhz insan faktoru təşkil edir. Ölkə başçısının neft kapitalını insan kapitalına çevirmək üçün göstərdiyi siyasi iradənin realizəsi üçün cəmiyyətin bütün inkişaf aspektlərini əhatə edən silsilə tədbirlər həyata keçirilir.

Dövlət qulluqçularının hazırlığında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının xüsusi rolu vardır. Respublikada dövlət idarəçiliyi sahəsində yeganə təhsil ocağı olan Akademiyanın vəzifəsi demokratik, müstəqil Azərbaycan dövləti üçün gənclərdən ibarət dövlət strukturlarını zamanın tələbləri səviyyəsində idarə edə biləcək mütəxəssis kadrlar hazırlamaq, mövcud kadrların, dövlət məmurlarının ixtisasının artırılmasından ibarətdir. Akademiyanın “Rəhbər kadrların ixtisasının artırılması” fakültəsində dövlət qulluqçuları yenidən hazırlanır, onlara “Azərbaycan dövlətçiliyinin hüquqi əsasları və inzibati islahatlar”, “Dövlətin sosial siyasəti: mahiyyəti, prioritetlər və həyata keçirilmə mexanizmləri”, “Azərbaycan Respublikasında gənclər siyasəti”, “Azərbaycanda dövlət, ailə, qadın və uşaq siyasəti”, “Dövlət qulluğunun təşkilati əsasları və dövlətin kadr siyasəti” istiqamətlərdə qısa müddətli ixtisasartırma kursları keçirilir [13].

Hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçılık Akademiyası respublikanın dövlət idarəçilik sahəsi üçün mütəxəssislər hazırlanmasını və onların peşəkarlıq səviyyələrinin artırılmasını həyata keçirir [11]. Dövlət İdarəçılık Akademiyası öz nizamnaməsinə uyğun olaraq dövlət idarəçiliyi və dövlətin kadr siyasəti sahəsində elmi-tədqiqatlar aparır, dövlət vəzifələrində çalışan dövlət qulluqçularını, habelə onların əvəz edilməsi üçün ehtiyatı hazırlayır, yenidən hazırlayır, yaxud ixtisaslarmı artırır, dövlət idarəçiliyi məsələləri üzrə dövlət hakimiyyət orqanlarının analitik informasiya təminatını həyata keçirir, dövlət qulluqçularının peşəkarlıq səviyyəsinə olan əsaslı tələblərin ekspertizasını keçirir.

Dövlət qulluqçularının hazırlığında Akademiyanın “Rəhbər kadrların ixtisasının artırılması” fakültəsinin xüsusi rolu vardır. Fakültə həm qiyabi şöbə üzrə dövlət qulluqçularının yenidən hazırlanması, həm də qısa müddətli ixtisasartırma kursları istiqamətləri üzrə fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya” 2018-ci il 23 noyabr tarixli Sərəncamına əsasən dövlət qulluqçularının fasiləsiz peşəkar inkişafının təmin edilməsi dövlət qulluğunun əsas inkişaf istiqamətlərindən biridir.

### Elektron hökumət: dövlət idarəetməsində yeni perspektivlər

21- ci əsr informasiya və texnologiya əsri kimi ifadə olunur. Dünyada fərdlərin, qurumların, cəmiyyətlərin, sektorların, dövlətlərin və münasibətlərin daim dəyişərək inkişaf etdiyi bir proses mövcuddur. İnformasiya cəmiyyəti əsri insanların həyatını sürətlə dəyişdirərkən, eyni zamanda

qurumların, hüquqi şəxslərin və onların dövlətlərinin işləmə mexanizmlərini də dəyişdirir. Qloballaşan cəmiyyətdə həyatımızı informasiya kommunikasiya texnologiyaları olmadan təsəvvür etmək mümkün deyil. Bu gün internet ilə bir çox əməliyyatları asanlıqla edə bilirik. Əhəmiyyətli əməliyyatları bir neçə dəqiqə ərzində yerinə yetirmək mümkündür. İnformasiya və texnologiyanın inkişafı dövlət idarəçiliyində də öz əksini tapmış, elektron hökuməti yaratmışdır. Elektron hökumət dövlət və vətəndaşların birləşmə mexanizmi olub, daha səmərəli, açıq və vətəndaşlar üçün əlçatan fəaliyyətdir. Eyni zamanda dövlət orqanlarının da bir-biri ilə əlaqəli fəaliyyətini təmin edir. Elektron hökumət bütün dünya üçün yeni bir anlayışdır və hər gün daha da təkmilləşməkdə davam edir.

Yeni əsri informasiya əsri, bu əsrin cəmiyyətini də informasiya cəmiyyəti olaraq adlandırırıq. İki yüzillik arasında mövcud olan bu fərqlilik dövlətlərin, özəl sektorun və cəmiyyətin transformasiyasının əsas səbəbi olaraq göstərilir. Dövlət idarəçiliyinə informasiya sistemlərinin adaptasiya olması bu transformasiyanın nəticəsi sayıla bilər. Bu adaptasiyanın da ən nəzərə çarpan məhsulu elektron hökumət hesab olunur. İnformasiya cəmiyyətinin əhatə etdiyi müasir dövrdə dövlət- cəmiyyət münasibətlərin ön plandadır. Bu məsələnin həllində informasiya-kommunikasiya texnologiyalarından istifadə edilərək yaradılan və dövlət idarəçiliyinin yeni forması olan elektron hökumət mühüm rol oynayır. Yarandığı dövrdən etibarən bir neçə mərhələdən keçmiş və müasir vəziyyətini almışdır. Son illərdə müxtəlif dövlət qurumları elektron hökumət layihələri həyata keçirirlər və bu sahədə müəyyən nailiyyətlər əldə olunmuşdur. Azərbaycan Respublikasında bu sahədə kifayət qədər layihələr həyata keçirilib, strategiyalar hazırlanmışdır. Həyata keçirilən layihələr ölkə vətəndaşları tərəfindən də rəğbətlə qarşılanmış və istifadə ilə bağlı adaptasiya problemləri demək olar ki öz həllini tapmışdır. Beləliklə, deyə bilərik ki, e-hökumət layihəsi Azərbaycan Respublikasında uğur qazanıb və qazanmağa davam edir. Bunu ölkənin e-hökumət indeksinin ildən-ilə artması da sübut edir.

"Elektron Hökumətin İnkişafı İndeksi" üzrə dövlətlər ən yüksək, yüksək, orta və aşağı qruplarda təsnifləşdirilir. Azərbaycan yüksək qrupa aid edilən 73 ölkə arasındadır. Azərbaycan bu kateqoriyada təmsil olunan dövlətlər arasında 23-cü yerdədir. Azərbaycan yüksək qrupda 69 bal dəyər indeksinə malikdir. Okeana çıxışı olmayan və EHİİ üzrə yüksək kateqoriyada qərarlaşmış 16 ölkə arasında isə Azərbaycan 8-ci mövqedə qərarlaşıb. Elektron Hökumətin İnkişafı İndeksi"ni təşkil edən meyarlara "Onlayn Xidmət", "Telekommunikasiya İnfrastrukturu" və "İnsan Kapitalı" alt indeksləri daxildir. Azərbaycan "Onlayn Xidmətlər" alt indeksi üzrə 100 mümkün baldan 61 bal toplayıb. "Onlayn Xidmətlər" alt indeksi dövlət xidmətlərinin göstərilməsi zamanı informasiya və kommunikasiya texnologiyalarından hansı səviyyədə istifadə olunmasını ölçən mürəkkəb göstəricidir. "Onlayn Xidmətlər" alt indeksi üzrə yüksək-orta gəlirli dövlətlər üçün müəyyən edilmiş orta bal 57 baldır. Telekommunikasiya İnfrastrukturunun İnkişafı" (Tİİ) alt indeksi üzrə 2022-ci il hesabatında Azərbaycan 67 bal toplayıb. Tİİ əsasən dörd göstərici – hər 100 nəfərə olan internet istifadəçi sayı, mobil abunəçilərin sayı, simsiz genişzolaqlı abunəçilərin sayı və sabit genişzolaqlı abunəçilərin sayı kimi meyarlara əsasən təyin olunur. Tİİ alt indeksi üzrə yüksək-orta gəlirli dövlətlər üçün müəyyən edilmiş orta bal 50 baldır. Üçüncü isə Azərbaycan "İnsan Kapitalı" alt indeksidir ki, bu indeks üzrə Azərbaycan 79 bal toplayıb. "İnsan Kapitalı" alt indeksi üzrə yüksək-orta gəlirli dövlətlər üçün müəyyən edilmiş orta bal 76 baldır [17]. Azərbaycanda son illər ərzində rəqəmsallaşma, xidmətlərin elektronlaşdırılması istiqamətində bir sıra əhəmiyyətli işlər görülüb, müxtəlif qurumlar tərəfindən vətəndaşların olduğu məkandan 7/24 xidmətə ala bilməsi üçün müxtəlif portallar yaradılıb.

E-dövlət mühitində cəmiyyət yalnız informasiyaya çıxış imkanı deyil, həm də dövlət qərarlarının qəbulu prosesinə təsir etmək, onların hazırlanması prosesində interaktiv iştirak etmək imkanını əldə edirlər, nəticədə isə dövlət sektorunun işinin şəffaflığı artır. E-dövlət, bütövlükdə, demokratiyanın inkişafı

üçün yeni imkanlar yaradır. O, İKT-nin imkanlarından istifadə edərək əhali və vətəndaş cəmiyyəti institutları ilə hakimiyyət orqanlarının qarşılıqlı informasiya əlaqəsini təmin edir. Başqa sözlə, e-dövlət İnternet vasitəsi ilə vətəndaşlar, vətəndaş cəmiyyəti və biznes-strukturları ilə icra hakimiyyəti strukturlarının qarşılıqlı əlaqə sistemini təşkil edir. Müxtəlif ölkələrdə dövlətin fəaliyyətinə İKT-nin tətbiqi, dövlət informasiyasının şəffaflığı və əlyetərliliyi, əhali və hakimiyyət orqanları arasında əks əlaqə prinsipi, qəbul edilən qərarlar üçün dövlətin məsuliyyəti və s. kimi məsələlər e-dövləti səciyyələndirən əsas xüsusiyyətlərdir. Elektron hökumət rəqəmsal informasiya texnologiyasına əsaslanan və internet üzərindən həyata keçirilən hər hansı dövlət sistemlərini, proseslərini və ya funksiyalarını ifadə etmək üçün istifadə edilən termindir. Elektron hökumətin üstünlükləri arasında vətəndaşdan hökumətə, hökumətdən vətəndaşa və hökumətin özündə təkmilləşdirilmiş məlumat axını daxildir. Bundan əlavə, e-hökumət idarəetmə prosedurlarını modernləşdirməyə, iqtisadiyyatları yaxşılaşdırmağa və prosesdə şəffaflığı təşviq etməyə kömək edir. Elektron Hökumətin məqsədi hökumətlər və vətəndaşlar arasında yeni dinamik əlaqə yaratmaqdır.

Bu gün davamlı tərəqqi dövrünü yaşayan Azərbaycanda yüksək texnologiyalar sahəsinin inkişafı prioritet istiqamət kimi müəyyənləşdirilmişdir. Müasir texnologiyalardan lazımınca yararlanmaq üçün ölkəmizdə əlverişli şərait yaradılmış, cəmiyyətin gündəlik həyat fəaliyyətinin tərkib hissəsi olan internetə yüksəksürətli çıxış və ondan sərbəst istifadə imkanı təmin edilmişdir. Hazırda rəqəmli televiziya yayımı həyata keçirilməkdədir. Dövlət idarəçiliyində müasir metodlar və texnoloji yeniliklər sayəsində “elektron hökumət” sisteminin tətbiqi genişlənmişdir.

Dövlət idarəçiliyinin rəqəmsallaşdırılması prosesi mal və xidmətlərə çıxışı yaxşılaşdırmaq məqsədi daşıyan strategiyanın bir hissəsidir. Səmərəli və innovativ dövlət idarəçiliyi vətəndaşlara sürətli və keyfiyyətli xidmətlərin göstərilməsini təmin etməlidir. Bu, rəqəmsal perspektivdə prosedurların və xidmətlərin yenidən nəzərdən keçirilməsi və yenidən müəyyənləşdirilməsi, digər administrasiyaların və mümkün olduğu qədər vətəndaş cəmiyyətinin məlumat və xidmətlərə sərbəst çıxışının təmin edilməsi deməkdir. Elektron hökumət anlayışı İnformasiya Texnologiyaları sahəsində sürətli dəyişikliklərlə əlaqədar olaraq inkişaf etmişdir. Şəhər infrastrukturu, məsələn, səmərəli nəqliyyat sisteminə malik olmalıdır; etibarlı və ucuz elektrik şəbəkəsinə universal çıxışa zəmanət; təhlükəsiz su və kanalizasiya təmin etmək; tullantıların toplanması və təkrar emalı sisteminin davamlı idarə olunmasını təmin etmək; biznesləri dəstəkləmək və ictimai xidmətlərin göstərilməsi üçün sürətli, genişzolaqlı və ucuz bağlantı təklif edir. Bütün bu məqsədlərə yeni texnologiyalar və dövlət idarəçiliyinin rəqəmsallaşması sayəsində daha asan nail olmaq olar.

Müasir dövrdə geniş müzakirə edilən və aktual problemlərdən biri özünün müxtəlif növ və tipləri ilə təzahür edən innovativ inkişaf prosesidir. Dünyanın bütün dövlətləri inkişaf strategiyalarına uyğun innovativ inkişaf prosesini həyata keçirir. Müasir dövrümüzdə dövlətlərin idarəetmə sistemində də təzahür edən modernləşmə yeni idarəetmə modellərinin, müasir, vətəndaşa yönümlü, onu məmnun edən idarəetmənin qurulmasının zəruriliyini üzə çıxarmışdır.

Müasir dövrdə qloballaşma prosesi nəticəsində dövlət idarəçiliyində ortaya çıxarılan yeni paradiqmalar və həyata keçirilən yeni islahatlar dövlət idarəçiliyini də bu paradiqma və islahatlara uyğun olaraq formalaşdırmaqdadır.

Azərbaycan Respublikasında “elektron hökumət”lə bağlı ideya ilkin olaraq “Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)” sənədində birmənalı şəkildə öz əksini tapıb. Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi adlandırılıb.

2011-ci ilin may ayının 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Dövlət orqanlarında elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Sərəncamına əsasən dövlət orqanlarında elektron xidmətlərin göstərilməsinə start verilib və qısa zaman kəsiyində bu xidmətlərin göstərilməsi geniş vüsət almış və elektron xidmətlərin istifadəsi dövlət orqanlarının işinin effektivliyinin və şəffaflığın yüksəldilməsi ilə yanaşı, vətəndaşların da məmnunluğunu artırmışdır. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində aşağıdakı publik hüquqi şəxslər yaradılıb:

1. İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi;

2. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyindəki “Milli Nüvə Tədqiqatları Mərkəzi” Qapalı Səhmdar Cəmiyyətinin, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyindəki İnnovasiyalar Agentliyi publik hüquqi şəxsin və Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nəzdindəki Yüksək Texnologiyalar üzrə Tədqiqat Mərkəzinin birləşmə formasında yenidən təşkili yolu ilə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi [15].

“İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi” publik hüquqi şəxs:

Rəqəmsal transformasiya sahəsində fəaliyyətin təşkilini, əlaqələndirilməsini, həyata keçirilməsini (o cümlədən nəzarət və tənzimləməni) təmin edir;

Yüksək texnologiyalar, nüvə elmləri, nüvə texnologiyaları və nüvə energetikası sahəsində kompleks tədbirləri, elmi, elmi-texniki, innovasiya fəaliyyətini və müvafiq sınaq təcrübələrini həyata keçirir;

Fiziki və hüquqi şəxslərə müasir texnologiyaların və texnoloji həllərin əldə olunmasında yardım göstərir, innovasiya yönümlü elmi tədqiqatları və innovativ layihələri (o cümlədən startapları) təşviq edir, onlara maliyyə dəstəyi verən innovasiya təşəbbüskarlığını təbliğ edir [16].

**Nəticə**

Müasir dövrün tələblərindən biri olan innovasiya fenomeni xüsusilə son illərdə bir çox sahələrdə öz təsirini göstərməkdədir. Qloballaşma ilə bir çox sahədə öz təsirini göstərən innovasiya, dəyişiklik ideyası çağdaş dönümüzün ən trend tətbiqlərindən birinə çevrilib. Müasir dövrdə dövlətlərin idarəetmə sistemində modernləşmə, aparılan islahatlar yeni idarəetmə modellərinin – vətəndaş yönümlü, onu məmnun edən, şəffaflığın artırılması, “vətəndaş – dövlət qulluqçusu” münasibətlərinin səmərəli inkişafını ön plana çəkən idarəetmənin qurulması zəruriliyini üzə çıxarmışdır. Müasir dövrdə dövlət qulluğu dövlət idarəçiliyinin formalaşması və inkişafı, dövlətçilik ənənələrinin möhkəmlənməsi, dövlətin sosial-iqtisadi proqramlarının həyata keçirilməsi, mədəni, sosial-iqtisadi inkişafda və bütövlükdə ictimai həyatın müxtəlif sahələrinin tənzimlənməsində böyük əhəmiyyət kəsb edən fəaliyyət sahəsidir. Sosial-iqtisadi və siyasi islahatların getdiyi bir dövrdə dövlətin vəzifə və məqsədlərinin həyata keçirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının təminat səviyyəsinin, daxili və xarici təhlükəsizliyin təmin edilməsi əsas məsələlərə çevrilmişdir. Azərbaycanda dövlət idarəetməsi sahəsində aparılan ardıcıl islahatlar nəticəsində ölkədə “vətəndaşa, insan faktoruna yönümlü” dövlət qulluğu modeli formalaşdırılır. Azərbaycanda müasir demokratik dövlətin əsas məqsədi vətəndaşların mənafeyini qorumaqla onların həyat səviyyəsini daim yaxşılaşdırmaqdır. Bu, dövlətin strateji məqsədidir. Bu gün yeni dövlət idarəçiliyi yanaşması şəffaflıq, hesabatlılıq, vətəndaş yönümlülük, üfüqi təşkilati struktur, rəqabət, səlahiyyətlərin verilməsi və mərkəzsizləşdirmə anlayışlarını xüsusilə vurğulayır. Beynəlxalq aləmdə gedən proseslər dövlət qulluğunun təbiətində islahatların həyata keçirilməsi zərurətini yaradır. Müasir dövrdə dünyanın inkişaf etmiş ölkələrində islahatların aparılmasının yeni metod və formalarının axtarışı həyata keçirilir. Azərbaycanda da son dövrlərdə bu yolda uğurlu addımlar atmış və zəruri islahatlar həyata keçirmişdir.

Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu azərbaycanlı gənclərin ölkə üçün zəruri ixtisaslar üzrə xaricdə təhsil almaları və Azərbaycanın inkişafının mühüm amilinə çevrilmələrinin təmin edilməsi ilə bağlı siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin neft kapitalını insan kapitalına çevirmək üçün göstərdiyi siyasi iradənin realizəsi üçün cəmiyyətin bütün inkişaf aspektlərini əhatə edən silsilə tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasında aparılan ardıcıl islahatlar və innovasiya siyasəti dövlət orqanlarının fəaliyyətində səmərənin və çevikliyin artırılmasına, "rəqabət" prinsipinin tətbiqinə, dövlət orqanları arasında rəqabətin yaradılmasına, dövlət qulluğunun müsbət imicinin artırılmasına, səmərəli və peşəkar dövlət qulluğunun, vətəndaş-məmur münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasına, dövlət qulluğunun xalqa qulluq mənasını ifadə etməsinə, məsuliyyətli, kreativ, dövlətinə və xalqına sadiq dövlət qulluqçularının hazırlanmasına xidmət edir.

Azərbaycan dövlətçiliyinin davamlı inkişafına, şəffaf, demokratik və peşəkar dövlət qulluğunun formalaşdırılmasına yönəlmiş modernləşmə xətti əlavə təhsilin roluna və məzmununa yeni çalarlar qazandırmış və onu kadr siyasətinin potensialın artırılmasına yönələn strateji və dinamik icra mexanizminə çevirmişdir. Bu mexanizmin strateji hədəfləri, metod və prinsipləri, məzmun və keyfiyyət meyarları dövlət qulluğunun inkişaf istiqamətlərinə uyğun şəkildə müntəzəm olaraq təkmilləşmişdir.

**Ədəbiyyat:**


1. 12 noyabr 1995-ci il, Azərbaycan Respublikasının Konstitusiyası, Bakı.
2. 21 iyul 2000-ci il, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu
3. 31 may 2007-ci il, "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının qanunu
4. 4 aprel 2022-ci il , "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" haqqında Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı
5. 23 may 2011-ci il, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı
6. 13 iyul 2012-ci il, "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin Fərmanı
7. "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı,11 aprel 2016-cı il
8. 9 avqust 2018-ci il, "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı
9. 2022, "DOST Agentliyinin struktur və rəhbərliyi" (az.). dost.gov.az
10. 23 noyabr 2018-ci il, "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
11. Hüseynova N.Ş., "Dövlət qulluğu və kadr siyasəti", Bakı-2013
12. Rzayev Ə.H. Dövlət qulluğunun hüquqi əsasları. – Bakı - Elm, 2011
13. Hüseynova N.Ş., "Dövlət qulluğu və idarəetmə", Bakı-2017
14. Yanq R., Gilmor A., Quliyeva G., "Azərbaycanda kadrların idarə edilməsinə müasir yanaşma: İnsan inkişafı", Bakı - 2005
15. https://president.az
16. https://mincom.gov.az/az/view/organization/35/

17. https://azertag.az
18. https://www.e-qanun.az/framework/4770
19. http://www.asan.gov.az/az/about
20. https://www.e-gov.az/az/content/read/2
21. .https://www.e-gov.az/az/content/read/5
22. https://www.e-gov.az/az/content/read/217
23. https://mincom.gov.az/az/view/pages/57/

***Açar sözlər:*** *Azərbaycan Respublikası, dövlət idarəçiliyi, innovativ idarəetmə sistemi, müasir islahatlar, innovasiya siyasəti*

**Murtaza Hasanov**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Dean of the Faculty of Political Management Associate Professor, Ph.D. in Political Sciences***

# MAIN DIRECTIONS OF INNOVATION POLICY AND REFORM IN THE SYSTEM OF PUBLIC ADMINISTRATION OF MODERN AZERBAIJAN

## ABSTRACT

The innovation policy pursued by the modern Azerbaijani state involves the creation of the necessary conditions for the generation, distribution, and application of innovative knowledge and technology. Based on the principles of managerial training of the national leader Heydar Aliyev, such as political continuity, national interests, social justice, and democracy, successive reforms are carried out to create a national and contemporary governance model. Their main objective is to establish effective and democratic governance, increase transparency, responsiveness, and flexibility in the activities of state bodies, provide better services and convenient and modern innovations, and, as a result, ensure the level of welfare and satisfaction of the citizens of the country. President Ilham Aliyev's successful and deliberate policy is the foundation of Azerbaijan's transition to a new stage of development, the establishment of new democratic mechanisms, an effective and transparent modern model of public service management, the formation of a new way of thinking in the citizen-public servant relationship, the formation of human resources potential, and the elimination of factors able to cause corruption. Continuous application of innovation is considered one of the primary development directions in any area of the state.

This study aims to analyze the improvement of the innovation environment in public administration of modern Azerbaijan, the current state of innovation policy, its potential, digitalization, measures related to the improvement of management, innovation policy of the state, and the main directions of modern reforms.

***Keywords:*** *Azerbaijan Republic, public administration, innovation management system, modern reforms, innovation policy*

**Муртаза Гасанов**

***Декан факультета Политического управления Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам, доцент***

# ИННОВАЦИОННАЯ ПОЛИТИКА В СИСТЕМЕ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Инновационная политика, проводимая современным Азербайджанским государством, предусматривает создание необходимых условий для производства, распространения и применения новых знаний и технологий. Основываясь на принципах управленческого учения об управлении Общенационального лидера Гейдара Алиева, таких, как политическая преемственность, национальные интересы, социальная справедливость и демократия, проводятся последовательные реформы по созданию современной национальной модели управления. Их главная цель – формирование эффективного и демократичного управления, повышение прозрачности, оперативности, гибкости в деятельности государственных органов, предоставление более качественных услуг, удобных и современных инноваций и, как следствие, обеспечение уровня благосостояния и удовлетворенности граждан страны. Успешная и целеустремленная политика Президента Ильхама Алиева является основой для перехода Азербайджана на новый этап развития, создания новых демократических механизмов, эффективной и прозрачной, современной модели управления государственной службой, формирования нового мышления в отношениях «гражданин – государственный служащий», формирования кадрового потенциала, устранения причин, способных вызвать коррупцию. Непрерывное применение инноваций считается одним из основных направлений развития любой области государства в целом.

Целью данной статьи является анализ улучшения инновационной среды в государственном управлении современного Азербайджана, текущего состояния инновационной политики, его потенциала, цифровизации, мер, связанных с улучшением управления, инновационной политики государства, основных направлений современных реформ.

***Ключевые слова:*** *Азербайджанская Республика, государственное управление, инновационная система управления, современные реформы, инновационная политика*

UOT 351

**ELNUR ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İnzibati idarəetmə fakültəsinin dekanı, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent***

*e-mail: ealiyev7@gmail.com*

# MÜASİR MƏRHƏLƏDƏ DÖVLƏT İDARƏÇİLİYİNDƏ İNZİBATİ İSLAHATLARIN KONSEPTUAL ƏSASLARI: BEYNƏLXALQ VƏ MİLLİ TƏCRÜBƏNİN MÜQAYİSƏLİ ANALİZİ

## Giriş

Müasir mərhələdə son 30 il dünyanın demək olar ki, bütün regionlarında dövlət idarəetmə sistemlərində genişmiqyaslı islahatlar dövrünə çevrilmişdir. Genişmiqyaslı islahatlar prosesinin məqsədi dövlət idarəçiliyinin səmərəliliyini artırmaqdır. Dövlət idarəetməsi islahatları üzrə beynəlxalq təcrübənin təhlili göstərdi ki, dövlət quruluşu və iqtisadi inkişaf xüsusiyyətləri baxımından əhəmiyyətli dərəcədə fərqlənən dövlətlər əslində islahatlar baxımından qarşılarına eyni məqsədlər qoyublar:

1) Dövlət xərclərinin azaldılması; iqtisadiyyatın inkişafı və dünya bazarında rəqabət qabiliyyətinin artırılması üçün əlverişli iqlimin təmin edilməsi;
2) Hökumət qərarlarının keyfiyyətinin yüksəldilməsi və onların səmərəli icrasının təmin edilməsi;
3) Dövlət qulluğunun təkmilləşdirilməsi – insan resurslarının saxlanması xərclərini məhdudlaşdırmaqla dövlət xidmətinə tələb olunan sayda yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsi;
4) Dövlət tərəfindən vətəndaşlara, cəmiyyətə və özəl sektora göstərilən xidmətlərin çeşidinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi.

Dövlət idarəetmə sistemlərinin müxtəlifliyi həm islahat prosesinin özünün müxtəlifliyini, həm də bu prosesin nəticələrinin müxtəlifliyini müəyyən etdi. Beynəlxalq təcrübədə 1990-cı illərin sonlarından etibarən başlayan dövlət idarəçiliyində islahatların 3 əsas bloka ayrılmışdır: 1. İcra hakimiyyətinin təşkilati strukturu və mexanizmlərində islahatları (o cümlədən mərkəzi və regional hakimiyyət orqanları ilə yerli özünüidarəetmə orqanları arasında funksiya bölgüsü) əhatə edən dövlət idarəçiliyi islahatları; 2. Dövlət qulluğu islahatları; 3. Elektron hökumətin yaradılmasına yönəlik islahatlar.

Dövlət idarəçiliyi sistemində inzibati islahatın uğursuzluğu əsasən islahat ideyasının kifayət qədər konseptual işlənilməməsi, bu sahədə yaxşı düşünülmüş planın olmaması ilə müəyyən edilir. İslahatın optimallaşdırılmasının təkmilləşdirilməsi imkanları ən azı bir neçə sahənin sinxronizasiyasını nəzərdə tutan islahatın konseptual konturunun yenidən nəzərdən keçirilməsi ilə bağlıdır. Rasional bürokratiyanın bir sıra prinsiplərinin aktuallığını və inzibati islahatların korrupsiyaya qarşı mübarizə və elektron hökumət kimi sahələrinin məzmununun əhəmiyyətli dərəcədə artırılmasını təmin etməklə, “Yeni Dövlət İdarəçiliyi” (“New Public Management”) paradiqmasının müddəaları və "çevik idarəetmə" konsepsiyasının tətbiqinin genişləndirilməsi önəmlidir. İrimiqyaslı və kompleks dövlət idarəçiliyi islahatları proqramları bir sıra səbəb və amillərin nəticəsi kimi həyata keçirilmişdir. Səbəblər siyahısına, ilk növbədə, müasir cəmiyyətin sosial və texnoloji quruluşunda dərin dəyişikliklər daxil

edilməlidir. Dövlət idarəetmə islahatları ilə qlobal texnoloji dəyişikliklər arasında əlaqə ilə bağlı onun qeyri-təsadüfi xarakterini qeyd etmək olar. Texnoloji paradiqmaların dəyişməsi, bir qayda olaraq, idarəetmə vasitələrinin və ilk növbədə, dövlət idarəçiliyinin transformasiyası ilə bağlıdır. Məsələn, ABŞ-da dövlət qulluğunda aparılan bütün islahatlar zamanlama baxımından yeni texniki-iqtisadi paradiqmalar və uzun iqtisadi dalğalarla üst-üstə düşür. ABŞ-da dövlət qulluğu islahatına təkan verən sosial dəyişikliklərlə birlikdə texno-iqtisadi dəyişiklik idi ki, bu da hökumətin yeni texno-iqtisadi paradiqmalara cavab olaraq vətəndaş cəmiyyəti ilə münasibətlərin yeni modellərini inkişaf etdirmək cəhdi idi (22, s. 616-639). Qeyd olunan qanunauyğunluq, şübhəsiz ki, təkcə ABŞ üçün xarakterik deyil. İnformasiya cəmiyyətinin infrastrukturu iyerarxik şəkildə təşkil edilmiş idarəetmə strukturlarından şəbəkə prinsipinə tədricən keçidi müəyyən etmişdir. Baxmayaraq ki, informasiya cəmiyyətinin infrastrukturu həm keyfiyyət baxımından, həm də informasiya şəbəkələrinin sıxlığı, konfiqurasiyası və rolu baxımından qeyri-bərabər olmuşdur.

Dövlət idarəçilik islahatlarının səbəbləri siyahısına sənayeləşmiş ölkələrdə İkinci Dünya Müharibəsindən sonrakı dövrdə inkişaf etmiş "sosial dövlət" modellərinin tətbiqinin çətinliyi də daxil edilməlidir. Pensiya yaşına çatmış əhalinin nisbətinin artması və iqtisadi fəal əhalinin üzərinə düşən yükün artması nəticəsində kütləvi sosial təminat sisteminin stimullaşdırıcı təsiri və bütövlükdə sosial dövlət modelinin yüksək iqtisadi dəyəri yarandı ki, bu da əvvəllər qurulmuş modelin yenidən nəzərdən keçirilməsini tələb etdi.

İkinci Dünya Müharibəsindən sonrakı dövrdə yeni idarəetmə paradiqmasına keçidə dövlət idarəçiliyi modellərinin keyfiyyətinin tənqidi qiymətləndirilməsi də kömək etdi. Vətəndaşların fikrincə, dövlət həddindən artıq bahalaşıb və o qədər də effektiv deyil, cəmiyyətin tələblərindən uzaq və sadə vətəndaşlar üçün əlçatmaz, sayca həddindən artıq və fəaliyyət mexanizmləri baxımından qeyri-şəffaf olub. Sənayeləşmiş ölkələrdə rasional idarəetmə və prinsiplərin əsas vəzifələrinin həyata keçirilməsi dövlət strukturlarının daha çox çeviklik, operativlik və şəffaflıq əldə etməsini gündəmə gətirib. Bundan əlavə, post-sənaye cəmiyyətində iyerarxik idarəetmə strukturlarının və “sadə həllər” texnologiyalarının məhdudiyyətləri tam aşkar edilmişdir. Dövlət idarəçiliyinin transformasiyasının digər mühüm amili dövlətlə və ümumən ictimai-siyasi proseslərlə dialoqda yeni keyfiyyətdə daha fəal rol iddiasına imkan verən vətəndaş cəmiyyəti strukturlarının səmərəliliyinin artması idi. Beləliklə, qeyd etmək olar ki, dövlət idarəçilik islahatları müəyyən ciddi səbəblərlə həyata keçirildi: texniki və texnoloji; maliyyə və iqtisadi; ictimai-siyasi; sırf idarəetmə effektivliyi ilə bağlı səbəblər. Mahiyyət etibarı ilə dövlət idarəçiliyinin islahatı prosesi postindustrial cəmiyyətin reallıqlarına və onun yeni sosial-siyasi konfiqurasiyasına uyğunlaşmaq məqsədilə dövlətin ənənəvi modelinin transformasiyası prosesi kimi meydana çıxdı.

Dövlət idarəetməsi islahatlarının konseptual əsasları aşağıdakı əsas məsələlərin müzakirəsi zamanı formalaşmışdır: dövlət və özəl sektorlar arasında sərhədlər haradan və necə çəkilməlidir? siyasət və idarəetmə arasında sərhədlər harada çəkilməlidir? inzibati fəaliyyətdə azadlıqlara hansı məhdudiyyətlər qoyulmalıdır? həm geniş ictimai maraqların, həm də sosial qrupların maraqlarının ifadə alətləri kimi ictimai institutların effektivliyini maksimuma çatdırmaq üçün konfiqurasiya necə olmalıdır? mərkəzləşdirmə və qeyri-mərkəzləşdirmə arasında optimal balans nədir? dövlət idarəçiliyində iyerarxiya nə dərəcədə effektivdir? müxtəlif dövlət sektoru institutlarının effektiv koordinasiyası üçün hansı texnologiyalar var? icra hakimiyyətinin effektivliyini müəyyən edən texnologiyalar hansılardır? dövlət qulluqçularının öhdəlikləri hansılardır? Mahiyyət etibarı ilə dövlət idarəetməsi islahatlarının mərkəzi problemi ənənəvi dövlətlə bazar münasibətləri arasındakı əlaqə idi. Eyni zamanda, müxtəlif modellər (bazar, iştirakçı, çevik, tənzimlənməmiş) çərçivəsində bürokratiyanın

cavabdehlik, şəffaflıq və çeviklik problemləri müxtəlif yollarla həll edilə bilər. Aydındır ki, sadalanan bütün modellər dövlət idarəetmə sistemində məqsədəuyğun və effektiv idarəetməni təmin etməyə qadir olmayan və təcrid olunmuş rasional prinsiplərin yenidən qiymətləndirilməsi ilə xarakterizə olunur. Modellərin və faktiki olaraq həyata keçirilən islahatların əksəriyyəti Osborne və Gebler tərəfindən dövlət idarəçiliyində islahatların aparılması üçün 10 əsas prinsipə əsaslanır (31):

- həvəsləndirici idarəetmə: "çevik" və ya "müqavilə" əsaslı dövlət qulluğu modeli ilə dövlət sisteminə rəhbərlik etmək;
- ictimaiyyətə yönəlik idarəçilik: "səlahiyyətləndirici" dövlət qulluğu modeli;
- rəqabətli idarəetmə: xidmətlərin təşkilində rəqabətdən istifadə və ya "bazar" dövlət qulluğu modeli;
- missiyaya əsaslanan idarəetmə: qaydalara əsaslanan təşkilatların transformasiyası ("çevik" və ya "müqavilə" əsaslı dövlət qulluğu modeli);
- nəticəyönümlü idarəetmə: öhdəliklərin yerinə nəticələrə önəm verilməsi ("bazar" dövlət qulluğu modeli);
- istehlakçı yönümlü idarəetmə: bürokratiyanın deyil, istehlakçının ehtiyacları əsasdır ("bazar" dövlət qulluğu modeli);
- təşəbbüskar idarəetmə: "tənzimlənməyən" dövlət qulluğu modeli;
- ehtiyatlı idarəetmə: obrazlı ifadə ilə desək "terapiya əvəzinə profilaktika";
- qeyri-mərkəzləşdirilmiş idarəetmə: iyerarxiya əvəzinə, iştirak və komanda işi ("iştirakçı", "səlahiyyətləndirici" və ya "birləşdirilmiş" dövlət qulluğu modeli);
- bazar yönümlü idarəetmə: bazar prinsiplərinə əsaslanan davamlı dəyişikliklər ("bazar" dövlət qulluğu modeli).

Son 30 ildə aparılan inzibati islahatlar silsiləsinin dəyişməz məzmunu aşağıdakı xüsusiyyətlər ilə adekvat şəkildə əks oluna bilər:

- Dövlət sektorunda maliyyə menecmentinin rolunun əvvəlkindən əhəmiyyətli dərəcədə böyük olması;
- Dövlət qulluqçularının, dövlət təşkilatları və orqanlarının fəaliyyətinin proses nöqteyi-nəzərindən deyil, nəticələrə görə qiymətləndirilməsinin əhəmiyyəti artıb;
- Məmur-vətəndaş münasibətlərində ciddi dəyişiklik baş verib və dövlətin rəsmi aktor kimi rolu artıb;
- Dövlətə rəqabəti rədd edən monopolist və monolit struktur kimi baxış dəyişib;
- Dövlət təşkilatının iyerarxik xarakteri, dövlət strukturları və funksiyalarının təmərküzləşməsi və mərkəzsizləşdirilməsi tendensiyalarının əhəmiyyətli və məhsuldar olduğu ortaya çıxdı;
- Dövlət strukturlarının və təşkilatlarının fəaliyyətinə daha çox hesabatlılığın və nəzarətin zəruriliyi vurğulanır;
- Dövlət idarəçiliyi texnologiyasındakı dəyişikliklər, dövlətin struktur və funksiyalarının mobilliyinin məqsədəuyğunluğu, innovativ strategiyaların stimullaşdırılması.

Dövlət idarəçiliyi islahatlarının nəzəri əsasları "yeni dövlət idarəçiliyi" ("New Public Management") paradiqmasının dominant rolu olan bir sıra konseptual müddəaları əhatə edir. Dövlət idarəetməsi islahatlarının əsas məqsədləri dövlət xərclərinin azaldılması, dövlətin siyasətin işlənib hazırlanması və həyata keçirilməsi imkanlarının artırılması, dövlətin işəgötürən kimi fəaliyyətinin yaxşılaşdırılması, xidmətlərin keyfiyyətinin yüksəldilməsi, özəl sektorun və cəmiyyətin hökumətə inamını gücləndirməkdən ibarətdir. İslahatların təməl nəzəri çərçivəsi post-sənaye inkişafı və informasiya cəmiyyətinin ehtiyacları səbəbiylə buna uyğun gəlməyən rasional bürokratiyanın Veber modelindən uzaqlaşmanın baş verməsidir. M. Veberə görə rasional bürokratiyanın əsas xüsusiyyətləri vəzifə səlahiyyətlərinin aydın tənzimlənməsi, bürokratik strukturların sərt iyerarxiyası, bütün fəaliyyətlər üzrə yazılı uçotun aparılması və inzibati idarəetmə sahə-

sində bürokratiyanın məcburi kvalifikasiyasıdır. Dünyada dövlət idarəçiliyi islahatlarının əsas məqsədi müasir dövrdə dövlətin funksiyalarının həyata keçirilməsi texnologiyalarında əhəmiyyətli dəyişikliyə nail olmaq olmuşdur. Burada ortaya çıxan dövlət anlayışları bunlardır:

a) cəmiyyətə geniş spektrli xidmətlər göstərən sosial dövlət (dövlət tərəfindən xidmətlərin göstərilməsinə və sosial problemlərin həlli proseslərinin dövlət tərəfindən tənzimlənməsinə üstünlük verilir);

b) sosial problemlərin özəl sektor tərəfindən həll edilməsinin prioritetliyindən irəli gələrək, "az xərcli dövlət" (dövlətin rolu onun əsas vəzifə və funksiyalarının yerinə yetirilməsi ilə məhdudlaşır);

c) biznes və cəmiyyətlə danışıqlarda "tərəfdaş dövlət" anlayışı.

Bu yanaşmaları sintez etmək cəhdi "Yeni Dövlət İdarəçiliyi" (NPM) modelinə uyğun olaraq dövlət idarəçiliyi islahatları fəlsəfəsinin əsasını təşkil edən "proaktiv dövlət" konsepsiyası olmuşdur. Bu konsepsiya dövlətlə vətəndaşlar arasında münasibətləri qəyyumluqdan tərəfdaşlığa keçidi ehtiva edən yeni formada müəyyənləşdirir. Dövlətin vəzifələri ictimai müzakirələr zamanı müəyyən edilir, məsuliyyət cəmiyyətlə dövlət arasında bölüşdürülür. Dövlət sosial problemlərin həlli proseslərinə təşəbbüs göstərir və vasitəçi kimi çıxış edir ki, bu çərçivədə vətəndaşların məsuliyyətinə məhdudiyyətlər qoyur. Beləliklə, bu konsepsiyada dövlətin ən mühüm funksiyaları təşəbbüs göstərmək, prosesi aktivləşdirmək və insan resursunu stimullaşdırmaqdır.

"Yeni Dövlət İdarəçiliyi" (NPM) konsepsiyasına uyğun olaraq dövlət qulluğu islahatının mahiyyəti son nəticədə dövlət tərəfindən həyata keçirilən bir sıra funksiyaların özəl bazar strukturlarına həvalə edilməsi, dövlət idarəçiliyinin geniş miqyaslı "bazarlaşdırılması" olub ki, bu da dövlət idarəçiliyi sahəsində kommersiya fəaliyyətini və dövlət idarəçiliyinin əsaslarının bir növ bölüşdürülməsini nəzərdə tutur. Dövlət idarəetmə sisteminin yeni prinsiplər üzrə dərin transformasiyası dövlət aparatının iş prinsiplərinin dəyişməsinə səbəb oldu. Bazar iqtisadiyyatına xas olan kateqoriyalar (mənfəət, xərclər, rəqabət, maya dəyərinin hesablanması və s.) aktiv şəkildə istifadə edilməyə başladı. NPM-iun digər mühüm cəhəti də əvvəllər dövlət tərəfindən yerinə yetirilən bir sıra funksiyaların yerinə yetirilməsinə ictimai təşkilatların cəlb edilməsidir. NPM modelinə uyğun olaraq dövlət idarəçiliyi islahatlarının məqsədi dövlətlə dövlət xidmətlərinin istehlakçıları olan vətəndaşlar arasında münasibətlərdə daha yüksək səmərəliliyin, çevikliyin və şəffaflığın təmin edilməsi idi. NPM konsepsiyası hər şeyə müdaxilə etmək istəyən dövlətdən sadəcə xidmət təminatçısı kimi görünən dövlətə keçidlə bağlı olan baxışlarda bir inqilabi dəyişikliyi təmsil edir. Hegel fəlsəfəsində dövlətin "dünya şüuru"nun mərkəzi və tarixin yaradıcısı kimi şərhi dövləti vətəndaşlara xidmət göstərməyə yönəlmiş bir təşkilat kimi təmsil edən xidmət yanaşması ilə əvəz olunurdu. Yanaşma bundan ibarət idi ki, müasir dövlət özü qarşısında duran bütün vəzifələri yerinə yetirməməlidir, lakin bu vəzifələrin icrasını təmin etməyə borcludur. Burada söhbət dövlətlə cəmiyyət arasında yeni məsuliyyət bölgüsündən gedir. Əsas sual isə ondan ibarətdir ki, dövlət özü hansı vəzifələri yerinə yetirməlidir və qeyri-dövlət qurumları hansı vəzifələri yerinə yetirə bilərlər (34). Son nəticədə müdafiə və hüquq-mühafizə kimi strateji funksiyalar dövlət aparatında qalır, dövlətin əvvəllər yerinə yetirdiyi xidmətlə bağlı qalan digər sosial-iqtisadi funksiyalar isə daha çox kommersiya strukturlarına həvalə olunur.

Təbii ki, bütün sadalananlar M.Veberin rasional bürokratiya prinsiplərindən imtina edildiyini söyləməyə əsas vermir. Veber bürokratiyasının rasionallıq, rəsmi prosedurlara sadiqlik, şəffaflıq, cəmiyyət qarşısında hesabatlılıq, korrupsiyaya qarşı mübarizə kimi klassik prinsipləri qüvvədə qalır. Bununla belə, "proaktiv dövlət" konsepsiyası çərçivəsində dövlət idarəçiliyi haqqında yeni bir anlayış yaranır. Birincisi, dövlət müəyyən xidmətlərin yaradılmasını və göstərilməsini təmin edən bir qurum kimi çıxış edir. İkincisi, sosial proseslər üçün lazımi zəmin yaradır və vətəndaşları

problemləri müstəqil həll etməyə sövq edir. Üçüncüsü, dövlət sosial-iqtisadi fəaliyyətə müəyyən edilmiş qaydalar əsasında həyata keçirilən nəzarət institutu kimi ortaya çıxır. Dördüncü, dövlət əgər bunu digər “xidmət istehsalçıları”ndan daha az xərclə edə bilərsə o zaman dövlət cəmiyyət üçün yeni iş və xidmətlər istehsal edir. NPM paradiqmasının təməl fikirlərindən biri belədir: əgər müəyyən funksiyaları qeyri-dövlət qurumları yerinə yetirə bilirsə, dövlətin müdaxilə etmək hüququ yoxdur.

NPM konsepsiyasına əsaslanan “proaktiv dövlət” modelində dövlət qurumları 2 böyük qrupa bölünür: “sifarişçilər” və “sifariş icraçıları”. Siyasi institutlar və inzibati qurumların rəhbərliyi xidmətlərin müştərisi və ya alıcısı olan vətəndaşlar üçün zəmanət rolunu oynayır. Hökumət daxilində vətəndaşlara xidmət göstərənlər (“sifariş icraçıları”) davamlı xidmət və sifarişlər üçün hökumətdən kənar xidmət təminatçıları (kommersiya və ya ictimai təşkilatlar) ilə rəqabət aparırlar. Belə bir model hökumətlərin rəqabət yönümlülüyünü gücləndirir və eyni zamanda, vətəndaşların və sosial qrupların xidmətlərin istehsalına və göstərilməsinə daha çox cəlb edilməsi imkanlarını ortaya çıxarır. Beləliklə, “proaktiv dövlət” modeli 3 elementi ehtiva edir: a) zəmanətlərin verilməsi və məsuliyyətin bölüşdürülməsi; b) vətəndaşların və bütövlükdə cəmiyyətin fəallaşması; c) səmərəlilik və qənaət. Dövlət idarəetmə sisteminin daha çevik sistemə çevrilməsi idarəetmə kadrlarının yeni prinsiplər üzrə hazırlanmasını və kadrların dəyişən idarəetmə mühitinə uyğunlaşmasının şərti kimi onların daim yenidən hazırlanmasını nəzərdə tutur. Yenilənmiş idarəetmə modelləri dövlət xidməti ilə bağlı əvvəlki fikirləri dəyişir və dövlət məmurunun işinin əsas meyarı onun əldə etdiyi nəticələrdən çox onun təhsil ixtisası və iş təcrübəsidir. İdarəetmə kadrlarının daim yenidən hazırlanması və onların işinin motivasiyasının və texnologiyasının dəyişdirilməsi idarəetmənin müasirləşdirilməsi üçün ilkin şərt kimi görünür. Uğurlu liderlik üçün şərtlər getdikcə daha çox tabeçiliyində olanların işini aktivləşdirən və onlara səlahiyyət verən şəxsi təşəbbüsə çevrilir.

Müxtəlif ölkələrdə dövlət idarəçiliyi islahatlarının həyata keçirilməsi dövlət qulluğunun milli modellərinin xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilmişdir. NPM modelinə uyğun ən səmərəli dövlət idarəçiliyi islahatları yüksək manevr imkanları ilə seçilən ölkələrdə olmuşdur. İslahatlar zamanı istifadə edilə bilən dövlət rıçaqları və institusional həssaslığın birləşməsi müəyyən edici olmuşdur. Yüksək manevr azadlığına malik ölkələr sırasına Yeni Zelandiya, Avstraliya, Böyük Britaniya, Kanada, və Finlandiya daxildir. Almaniya, Braziliya, Polşa, Hollandiya ilə birlikdə Rusiya da az manevr azadlığına malik ölkə kimi qiymətləndirilir və bu dövlət idarəçiliyində islahatların həyata keçirilməsini çətinləşdirir. Əksər ölkələrdə islahatların gedişində dövlət aparatının ixtisarı və onun saxlanmasına çəkilən xərclərin azaldılması, idarəetmə sisteminin fəaliyyətinin şəffaflığının, çevikliyinin və səmərəliliyinin təmin edilməsi, dövlət orqanlarında menecerlərin karyera yüksəlişində meritokratik prinsiplərdən istifadənin əhatə dairəsinin və keyfiyyətinin genişləndirilməsi kimi məqsədlər qarşıya qoyulur.

Yeni qlobal reform dalğasının tarixinə nəzər salsaq "menecerial inqilabı"n 1979-cu ildə Böyük Britaniyada başladığı aydın olur. Derek Reinerin rəhbərlik etdiyi tədqiqat proqramı (1979) effektiv dövlət idarəçiliyi modelinin formalaşdırılmasına yönəldildi. İslahatın əsas istiqamətlərini müəyyən edən bir sıra önəmli proqramlar qəbul edildi: “Dövlət qulluğunun səmərəliliyi” (1982), “Növbəti Addımlar Təşəbbüsü” ("Next Steps Initiative") (1988) (29). və "Vətəndaş Xartiyası" (1993). “Növbəti Addımlar Təşəbbüsü”nün (1988) əsasını təşkil edən hesabatda 5 məsələ vurğulanır:

1. Aydın və hesabatlı idarəetmə məsuliyyətinin olmaması;
2. Gözlənilən nəticələr üzrə daha çox dəqiqliyə ehtiyac duyulması;
3. Resurslarla yanaşı nəticələrə də diqqət yetirmək lazımdır;
4. Böyük və müxtəlif dövlət xidmətlərinə vahid sistemin tətbiq edilməsinə maneə;
5. Dövlət xidmətlərində təkmilləşdirmə üçün davamlı təzyiqə ehtiyac.

Böyük Britaniyada inzibati islahat 3 mərhələdən keçdi və aşağıdakı əsas istiqamətləri əhatə etdi: özəlləşdirmə, optimal idarəetmə elementlərinin tətbiqi (dövlət qulluqçularının sayının azaldılması, fəaliyyətlərin yoxlanılması, dövlət tərəfindən xidmətlərin göstərilməsi zamanı alıcı ilə "provayder" arasında fərqin müəyyən edilməsi), idarəetmə funksiyalarının daha aşağı idarəetmə səviyyəsinə həvalə edilməsi, maliyyə şəffaflığı, dövlət qulluğunun açıqlığı və dövlət xidmətlərində rəqabətlilik. İslahatın 1-ci mərhələsində (1979-1982) dövlət xərclərinə qənaət, dövlət qulluqçularının və dövlət proqramlarının ixtisarına diqqət yetirildi. Lakin bu mərhələnin sonunda aydın olur ki, islahatın əsas vəzifəsi qənaət deyil səmərəliliyin artırılmasdır. 2-ci mərhələ (1983-1986) "üç "E" (economy, efficiency, effectiveness) yəni qənaət, səmərəlilik, və nəticəlilik prinsipləri əsasında keçirildi. Bu mərhələdə hökumətin siyasi proqramına dövlət sektoru müəssisələrinin geniş şəkildə özəlləşdirilməsi, hökumətdə maliyyə idarəçiliyinin inkişaf etdirilməsi, mərkəzi nazirliklərin və yüksək rəhbər heyətin qiymətləndirmə funksiyasının təkmilləşdirilməsi daxil edildi.

3-cü mərhələdə (1987-1993) əsas dəyişikliklər dövlət idarəçiliyinin mədəni və struktur komponentlərinə əhatə etdi. Bazar yönümlü idarəetmə mexanizmlərinin geniş inkişafı, idarəetmənin və xidmətlərin təşkilati və coğrafi məkan olaraq qeyri-mərkəzləşdirilməsinin dərinləşdirilməsi, xidmətlərin keyfiyyətinin yüksəldilməsi və vətəndaşların ("istehlakçıların") ehtiyaclarına uyğunlaşdırılması istiqamətində vəzifələr qoyulmuşdur. Əgər əvvəllər inzibati islahatlarda əsas diqqət dövlət idarəçiliyinə iqtisadi yanaşmaya yönəldilirdisə, indi bazar iqtisadiyyatı və demokratiya inzibati islahatların kəsişən amilləri kimi qəbul edilir. Yerli idarəetmənin dirçəldilməsi və inkişafı, parlamentin modernləşdirilməsi mərkəzi məsələlərdən birinə çevrilir. Beləliklə, Böyük Britaniyada dövlət qulluğu islahatlarının ən mühüm prinsipi ənənəvi olaraq dövlətə xas olan funksiyaların yenidən bölüşdürülməsi idi. Mərkəzi aparata bütün sahələrdə siyasətin müəyyən edilməsi və strateji xəttin formalaşdırılması ilə bağlı funksiyalar həvalə edilib. Xidmətlə bağlı digər funksiyalar və əvvəllər dövlət tərəfindən həyata keçirilən funksiyalar kommersiya strukturlarına həvalə edilib. Beləliklə, dövlət xidmətlərin göstərilməsi ilə bağlı funksiyaların yerinə yetirilməsinə təminat verməyə başladı, lakin özü bu funksiyaları birbaşa yerinə yetirməyi dayandırdı (27). Bu proses mahiyyət etibarilə dövlətin transformasiyası prosesinə çevrildi. Böyük Britaniyada açıq şəkildə tətbiq olunan "bazar" modeli fərqli nəzəri fərziyyələrə əsaslanır. Birincisi, bazar olmadan dövlət qulluğunun səmərəli işləyə bilməyəcəyini, "xidmət istehsalçısı"nın və bürokratik aparatın böyüməsi təhlükəsinin mövcud olduğunu güman edən "qeyri-sosial müqavilə" nəzəriyyəsidir. İkinci müddəaya görə islahat prosesində bazarla yanaşı, müqavilələr də əsas əhəmiyyət kəsb edir. İslahat zamanı qeyri-bazar xarakterli dövlət qulluğu ilə onun bazar prinsipləri əsasında yenidən təşkili cəhdi arasında ziddiyyət daha da arta bilər.

ABŞ-da dövlət idarəçiliyində köklü dəyişikliklər 1990-cı illərin əvvəllərində başlandı. Vitse-prezident Albert Qorun rəhbərliyi altında dövlət idarəçiliyində islahatlar strategiyası müəyyən edildi. İnzibati islahat ictimai seçim nəzəriyyəsi, özəlləşdirmə konsepsiyası, ümumi keyfiyyətin idarə edilməsi nəzəriyyəsi kimi nəzəri ənənələrə əsaslanırdı. Ümumiyyətlə, inzibati islahat proqramı Albert Qorun 1993-cü ildə "İcra qurumlarının effektivliyi milli icmalı" məruzəsində öz əksini tapmışdır. Bu yeni islahat dalğasının dövlət idarəçiliyində əvvəlki dəyişikliklərdən mühüm fərqləri arasında aşağıdakıları qeyd etmək olar: strukturların yenidən təşkilindən daha çox, xidmətlərin göstərilməsində dəyişikliklərə yönəlmək; əsas dəyişikliyin obyekti siyasi təyinatlar və ya yüksək rütbəli məmurlar deyil, adi federal işçilər idi; islahatçı tövsiyələrin həyata keçirilməsi parlamentin təsdiqindən asılı deyil və dəyişikliklər icra hakimiyyətinin nəzarəti altında həyata keçirildi. ABŞ administrasiyası daha yaxşı işləyən və daha az pul xərcləyən hökumət yaratmağı məqsəd olaraq elan etdi.

Hökumətin fəaliyyətinin təklif olunan prinsipləri aşağıdakılardan ibarət idi:

1. Bürokratiya və idarəetmədə formalizmin azaldılması (federal büdcə prosesinin daha da rasionallaşdırılması; kadr siyasətinin mərkəzsizləşdirilməsi; dövlət sifarişləri və dövlət satınalmaları prosesinin sadələşdirilməsi; tənzimləyici norma və qaydaların qarışıqlığının aradan qaldırılması; ştat və şəhər hökumətlərinin səlahiyyətlərinin artırılması).

2. Vətəndaşın "müştəri" olaraq görülməsi və onun maraqlarının üstünlüyü (biznesin rəqabətli aspektlərinin dövlət sektoruna tətbiqi; "müştəri"yə özəl sektorda olduğu kimi xidmət göstərmək; davamlı "müştəri" sorğularının aparılması ("müştəri" ehtiyaclarının monitorinqi və göstərilən xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi); aydın xidmət standartlarının müəyyən edilməsi; vahid "müştəri" xidmətləri mərkəzləri yaradılması; dövlət qurumlarına xidmət göstərən təşkilatlar arasında rəqabətin təmini; bazar mexanizmlərindən istifadənin genişləndirilməsi).

3. Nəticələrə çatmaq üçün işçilərə səlahiyyət verilməsi ("müştəri"lərin maraqlarının hər şeydən üstün olması; keyfiyyət imperativinə tabe olan dövlət sahibkarlığı mədəniyyətinin yaradılması; hüquqların və vəzifələrin idarəetmənin aşağı səviyyələrinə həvalə edilməsi; nəticənin qiymətləndirilməsi meyarlarının müəyyən edilməsi; dövlət qurumlarının informasiya təminatının təkmilləşdirilməsi; işçilər üçün təşkil edilən təlimlərə xərc mənbəyi kimi deyil, investisiya kimi baxılması.

ABŞ-da aparılan islahat ictimai seçim nəzəriyyəsi, özəlləşdirmə konsepsiyası və ümumi keyfiyyətin idarə edilməsi nəzəriyyəsi ideyalarına əsaslanırdı. Bu islahatın mühüm fərqləri sırasında dəyişikliklərin əsas hədəfinin siyasi təyinatlar və ya yüksək vəzifəli şəxslər deyil, sıravi federal işçilər olmağı qeyd edilə bilər. İslahat zamanı atılan ən önəmli reform addımları:

- büdcə prosesinin və dövlət sifarişləri və dövlət satınalmaları prosesinin rasionallaşdırılması;
- kadr siyasətinin mərkəzsizləşdirilməsi; tənzimləyici norma və müddəaların xaotikliyinin aradan qaldırılması;
- dövlət və əyalət hökumətlərinin səlahiyyətlərinin artırılması;
- biznesin rəqabətli aspektlərinin dövlət sektoruna daxil edilməsi;
- müştərilərin ehtiyaclarının və onların göstərilən xidmətlərin keyfiyyətindən məmnunluğunun monitorinqi;
- xidmətlər üçün "bir pəncərə" sisteminin yaradılması və müştərilərə xidmət üçün aydın standartların müəyyən edilməsi;
- dövlət qurumlarına xidmət göstərən təşkilatlar arasında rəqabətin tətbiq edilməsi.

İslahat nəticəsində sərəncamında nəhəng maddi resurslar olan dövlət qurumlarının kommersiyalaşdırılması və muxtariyyəti ilə bağlı dövlət aparatının özündə nəzarət funksiyaları əhəmiyyətli dərəcədə gücləndirilmək ilə potensial risklər ortadan qaldırılmaq istəndi. Xüsusi nəzarət xidmətləri və leqallaşdırılmış yoxlama prosedurları ilə yanaşı, dolayı nəzarət üsullarına, o cümlədən əmək haqqının fərdiləşdirilməsinə də əhəmiyyət verilib. Dövlət idarəçiliyində aparılan inzibati islahatların nəticələrindən danışarkən, prosesə çəkilən xərcləri də qeyd etmək lazımdır. Böyük Britaniya və ABŞ-da dövlət idarəçiliyi islahatları zamanı qeyri-bazar xarakterli dövlət qulluğu ilə onun bazar prinsipi əsasında yenidən təşkili arasında ziddiyyət aşkar edildi.

İslahat prosesinin təhlili göstərir ki, özəl sektorda və dövlət sektorunda idarəetmə arasında sərhəd nə qədər qeyri-müəyyən olsa da, "ləyaqət" meyarına əsaslanan qərəzsizlik, obyektivlik, məmurların karyera yüksəlişi, nazirlərin və bir çox başqa məmurların parlament məsuliyyəti Veberin bürokratiya nəzəriyyəsində olan idarəetmə dəyərləri eroziyaya uğradılmamalıdır. Yeni inzibati islahatlarda məsafə qət edən Böyük Britaniyada belə son illər "müştəri məmnuniyyəti" məsələsini dövlət idarəçiliyinin bir sıra fundamental prinsipləri

ilə birləşdirməyə çalışırlar. Hökumətlər ənənəvi dəyərlər anlayışını yenidən gündəmə gətirdi və dövlət qulluqçuları üçün davranış kodeksi təklif edildi. Almaniyada işçilərin ixtisarı zamanı dövlət xidmətlərinin həcmində əhəmiyyətli azalma müşahidə olunub. Alman yanaşmasına görə bazar iqtisadiyyatı prinsipləri qeyd-şərtsiz dövlət sektoruna verilə bilməz. "Minimal dövlət" konsepsiyasına əsaslanan konsepsiyaların sosial dövlət modelinə uyğunluğu diqqətlə yoxlanılmalıdır. İnzibati idarəetmə sahibkarlıq idarəetməsi deyil və dövlət idarəçiliyi bazar iqtisadiyyatından götürülmüş anlayışlarla məhdudlaşmır. 1990-cı illərin ortalarında Almaniyada geniş yayılmış "az xərcli dövlət" anlayışı ("minimal dövlət") 1990-cı illərin sonlarında "proaktiv dövlət" anlayışı ilə əvəz edilmişdir.

Fəaliyyət məzmunu bazar prinsiplərindən fərqlənən dövlət aparatına bazar davranış modelini tətbiq etmək çətindir. Bunun səbəblərindən biri dövlət institutlarının təşkili və fəaliyyətinin spesifikliyidir ki, burada "bazar" iqtisadi sahədən fərqli şəkildə özünü göstərir. Birincisi, çox vaxt dövlət qurumu bu və ya digər sahədə inhisarları saxlayır ki, burada da bazar mexanizmləri işləmir. İkincisi, dövlət xidmətləri göstərmək səlahiyyətinə malik olacaq qeyri-dövlət təşkilatı istehlakçı qarşısında zəif cavabdehlik daşıyır. Üçüncüsü, dövlət və qeyri-dövlət təşkilatları tərəfindən göstərilən xidmətlərin seçimi baxımından istehlakçı xidmətlərin qiymətinə deyil, keyfiyyətinə diqqət yetirir. Dördüncüsü, vəzifəli şəxslər funksional vəzifələrinin xüsusiyyətləri etibarilə istehlakçı qarşısında birbaşa cavabdeh deyillər. Strateji və operativ funksiyaları və mövqeləri ayır-mağa yönəlmiş inzibati islahat ideyası vahid siyasi və inzibati prosesin müvafiq komponentlərini mexaniki şəkildə ayırmaq cəhdidir (24).

İslahatların digər xərcləri arasında dövlət qulluğunun legitimliyinin zəifləməsi, dövlət sektorundan ixtisaslı kadrların uzaqlaşması, dövlət qulluğunun ümumi nüfuzunun aşağı düşməsi qeyd edilməlidir. Dövlət idarəçiliyinin "bazarlaşması" potensial olaraq dövlət xidməti institutunun məzmununun və nüfuzunun qismən aşınması ilə nəticələnə bilər. Bunun səbəblərindən biri də "bazar" məfhumunun iqtisadi sahədən fərqli şəkildə təzahür etdiyi dövlət qurumlarının təşkili və fəaliyyət xüsusiyyətləridir. Bu dövlət qulluğunun ənənəvi etik qaydalarının aşınmasında öz əksini tapdı. Ən əhəmiyyətli etik dəyişikliklər vətəndaşlıq, bərabərlik, təmsilçilik, məsuliyyət və neytrallıq dəyərlərindən istehlakçı yönümlülük, səmərəlilik, rəqabətqabiliyyətlilik və tərəfdaşlıq kimi xidmətlərin istehlakçısı olaraq vətəndaşların faktiki bərabərsizliyini ortaya çıxaran dövlət qulluğu və idarəçilik dəyərlərinə keçid oldu.

Dövlət qulluğunun ənənəvi etik prinsiplərinin aşınması və onun biznes normaları ilə əvəzlənməsi elə bir vəziyyətə gətirib çıxara bilər ki, cəmiyyət dövlət institutları ilə biznes strukturları arasında fərqi çətin ortaya çıxara bilər. Dövlət qulluğu özünün xarakterik və ənənəvi ictimai maraqlara yönəlmə prinsipini, cəmiyyət qarşısında öhdəlikləri və ümumilikdə dövlət maraqlarına xidmət prinsipini itirə bilər. İnkişaf etmiş ölkələrdə dövlət qulluğunda aparılan islahatlar və bunun nəticəsində dövlət qulluğunda yaranmış dəyişikliklər bu və ya digər dərəcədə inkişaf etməkdə olan ölkələrin dövlət idarəçiliyi sahəsinə təsir göstərdi. Bəzi analistlərə görə dövlət idarəçiliyinin etik standartları biznesin idarə edilməsi standartlarına bənzəyir və bu iki sahə arasında normativ fərqlər getdikcə bulanıqlaşır ki, bu da gələcəkdə dövlət qulluğunun identikliyi üçün problem yarada bilər. İnkişaf etməkdə olan ölkələrdə dövlət qulluğuna biznesə xas məqsədlərin, strategiyaların, strukturların və texnologiyaların tətbiqi və onların bazar prinsipləri əsasında rasionallaşdırılması prosesi bütövlükdə dövlət qulluğunun etik və legitim identikliyinə təsir göstərir.

Keçid ölkələrində dövlət qulluğu və dövlət idarəçiliyi adı altında aparılan islahatlar təcrübəsi fərqli uğur və uğursuzluqların birləşməsi ilə xarakterizə olunur. Həyata keçirilən islahat proqramlarının əksəriyyətinin əldə etdiyi faktiki nəticələr haqqında ümumiyyətlə dəqiq və obyektiv məlumatlar mövcud deyil. Dövlət idarəçiliyi islahatları iqtisadiyyatda səmərəliliyin artması və xərclərin azaldılması kimi nəticələr də verməlidir.

**Azərbaycanda Dövlət İdarəçiliyi İslahatları**

Azərbaycanda son 30 ildə (1993-2023) həyata keçirilən dövlət idarəçiliyi islahatlarını bir neçə istiqamətdə qruplaşdırıb analiz etmək mümkündür: məhkəmə-hüquq sistemi islahatları, vətəndaşlara xidmət və elektron hökumət islahatları, dövlət maliyyə sistemi və satınalmalar üzrə islahatlar, dövlət qulluğu islahatları, yerli idarəetmə islahatları və publik hüquqi şəxslərin yaradılması.

**1. Məhkəmə-Hüquq Sistemi İslahatları**

Azərbaycanda dövlət idarəçilik islahatlarının önəmli istiqamətlərindən biri də, məhkəmə-hüquq islahatlarıdır. Azərbaycan Respublikasının Prezidenti, Ümummilli Lider Heydər Əliyev tərəfindən 10 iyun 1997-ci ildə təsdiqlənən "Məhkəmələr və hakimlər haqqında" Qanun ilə Azərbaycanda konstitusion müstəqil məhkəmə hakimiyyətinin hüquqi əsasları yaradıldı. Bu Qanunda məhkəmələrin hüquq və vəzifələri, məhkəmələrdə işlərə baxılması qaydaları, məhkəmələrin qərarları ilə bağlı müddəalar, məhkəmə qarşısında vətəndaşların hüquq bərabərliyi, təqsirsizlik prezumpsiyasının təmin edilməsi, ölkənin məhkəmə sisteminə daxil olan məhkəmələrin təsnifatı, məhkəmələrin fəaliyyətinin və hakimlərin maddi təminatı, hakimlərin statusu və vəzifəyə təyin olunması, hakimlərin səlahiyyətləri və müstəqilliyi kimi təməl məsələlər təsbit edildi (26). Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət başçısı kimi səlahiyyət müddətinin başladığı 2003-cü ildə təsdiqlədiyi ilk qanunlardan biri məhz "Konstitusiya Məhkəməsi haqqında" Qanun olmuşdur (21). Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi əsaslarını təsbit edən bu Qanunun 2003-cü ildə imzalanması ilə Prezident İlham Əliyev hakimiyyəti dönəmində məhkəmə hakimiyyətinə və məhkəmə-hüquq sahəsində islahatlara önəm verəcəyini də nümayiş etdirmiş oldu.

28 dekabr 2004-cü il tarixində qəbul edilən “Məhkəmə-Hüquq Şurası haqqında” Qanunun 1-ci maddəsinə əsasən “Məhkəmə-Hüquq Şurası Azərbaycanda məhkəmə sisteminin təşkilinin, hakimlərin və məhkəmə sisteminin müstəqilliyinin təmin edilməsi, vakant hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsinin təşkili, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, onların iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri səlahiyyəti daxilində həll edən məhkəmə hakimiyyətinin özünüidarə funksiyalarını həyata keçirən orqandır” (25). Öz fəaliyyətini müstəqillik, qanunçuluq, kollegiallıq, qərəzsizlik və obyektivlik prinsipləri əsasında quran Məhkəmə-Hüquq Şurası hakimlərdən, icra, qanunvericilik, prokurorluq orqanları və Vəkillər Kollegiyasının nümayəndələrindən olmaqla 15 üzvdən ibarət tərkiblə fəaliyyət göstərir.

2005-ci ilin fevral ayından fəaliyyətə başlayan Məhkəmə-Hüquq Şurasının Azərbaycanda məhkəmə hakimiyyətinin fəaliyyətinin effektivliyinin artırılmasına, inamın möhkəmlənməsinə, neqativliklərin ortadan qaldırılmasına, şəffaflığın yüksəldilməsinə bir neçə istiqamətdə töhfəsi olmuşdur:

- Sadəcə Məhkəmə-Hüquq Şurası aparatı və ya prokurorluq orqanları nümayəndələrindən deyil, eyni zamanda vəkil, hüquqşünas və alimlərdən ibarət inklüziv bir struktur tərkibində formalaşan Hakimlərin Seçki Komitəsi tərəfindən hakim vəzifəsinə namizədlərin seçilməsi prosesi.
- Məhkəmə mühakiməsində ədalətlilik prinsipinin gücləndirilməsi və hakimlərin tutduqları vəzifələrə uyğunluqlarının yoxlanması üçün Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin fəaliyyətinin 3 və ya 5 ildən bir qiymətləndirilməsi.
- Qanunvericiliyə uyğun hüquqi əsaslar yarandıqda vəzifəli şəxslərin müraciətinə əsasən hakimlərin intizam məsuliyyətinə cəlb edilməsi.

Məhkəmə-Hüquq Şurasının 11 mart 2005-ci il tarixli qərarı ilə təsdiq edilən "Vakant Hakim Vəzifələrinə Hakim Olmayan Namizədlərin Seçilməsi" Qaydalarına əsasən vakant hakim

vəzifəsinə namizədlərin seçilməsi şəffaf olaraq həyata keçirilməli olan yazılı və şifahi imtahanlar, uzunmüddətli tədris kursları və yekun müsahibə yolu ilə həyata keçirilir ki, bu uzun prosesdə namizədlərin bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünyagörüşü, hakim vəzifəsinə yararlı olması müəyyən edilir (36). Hakimin fəaliyyəti qiymətləndirilərkən aşağıdakılar nəzərə alınır: hakimin iş yükü, hakimin əmək və icra intizamına əməl etməsi, hakimin peşəkar davranışı və bilik-bacarıqları, hakim tərəfindən aparılan kargüzarlıq fəaliyyətinin keyfiyyəti və hakimin etik davranışı (20).

Məhkəmə-Hüquq Şurasının 22 iyun 2007-ci il tarixli qərarı ilə hakimlik fəaliyyətinin etik prinsiplərinin və standartlarının toplusu olaraq "Hakimlərin Etik Davranış Kodeksi" də təsdiq edilmişdir (19). Kodeks, hakimlərin fəaliyyətinə hər hansı formada kənar müdaxiləyə hakimin özü tərəfindən yol verilməməsi, proses iştirakçılarına qarşı hər hansı bir ayrı-seçkilik edilməməsi, hakimin dövlət idarəetmə orqanlarının təsiri altına düşməməsi, məhkəmə prosesinin aşkarlığının təmin edilməsi, maraq konfliktinin yaradılmaması, hakimin qərəzsizliyinə neqativ təsir edə bilən fəaliyyətlərdən çəkinməsi və məhkəmə prosesinin tərəfləri ilə prosesdən kənar hər hansı ünsiyyətdən çəkinməsi kimi önəmli müddəaları önə çıxardır. Məhkəmə hakimiyyəti üzrə açıqlıq, effektivlik və şəffaflıq prinsipinin təmini üçün Məhkəmə-Hüquq Şurası və məhkəmələr üzrə kütləvi informasiya vasitələri (KİV) ilə əlaqələrə məsul şəxslər müəyyən edilərək onların siyahısı açıqlanmışdır (23). Habelə, “Elektron Məhkəmə” İnformasiya Sistemi və “Vahid Məhkəmə Portalı” (https://courts.gov.az) yaradılmışdır (16).

## 2. “ASAN Xidmət”, elektron hökumət və vətəndaşlarla iş üzrə islahatlar

Azərbaycan Prezidenti İlham Əliyevin 13 iyul 2012-ci il tarixli fərmanı ilə dövlət orqanlarının şəffaf fəaliyyətinin təmini, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin artırılması, vətəndaşlara etik münasibətlə onların məmnunluğunun yüksəldilməsi, elektron xidmətlərin tətbiqinin intensivləşdirilməsi, dövlət orqanlarının fəaliyyətində innovasiyaların tətbiqi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradıldı (1). Fərmana əsasən Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nəzdində “ASAN xidmət” mərkəzləri təsis edildi. “ASAN xidmət” mərkəzləri qanunvericiliklə müəyyən edilən xidmətləri vətəndaşlara şəffaf, etik və innovativ göstərməklə dövlət-vətəndaş münasibətlərinin daha da sağlamlaşdırılmasına və eyni zamanda da, yeni dövlət idarəçiliyi konsepsiyasının ən mühüm elementlərindən biri olan vətəndaşların xidmət məmnuniyyətinin yüksəldilməsinə xidmət etməkdədir. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin rəsmi təqdimatlarında “ASAN xidmət” mərkəzlərinin yaradılmasını zəruri edən səbəblər belə sıralanmaqdadır:

- Azərbaycanın sosial-iqtisadi inkişafının tələb etdiyi idarəetmə islahatları;
- Korrupsiya, bürokratik əngəllər, uzun prosedurlar, subyektivlik, səriştəsizlik, süründürməçilik və digər bənzər problemlərin mövcudluğu;
- Dövlət idarəçiliyində şəffaflıq, əlçatanlıq, səmərəlilik və hesabatlılıq ehtiyacı;
- Dövlət qulluqçuları ilə vətəndaşlar arasında münasibətlərin keyfiyyətinin və dövlətin bürokratik aparatına ictimai etimadın yüksəldilməsi ehtiyacı;
- Dövlət xidmətlərinin göstərilməsində vahid standartların yaradılması ehtiyacı;
- Dövlət xidmətlərinin standartlaşdırılma, əlaqələndirilmə və elektronlaşdırılması üçün məsul vahid orqanın yaradılması ehtiyacı (35).

“ASAN xidmət” mərkəzlərində vətəndaşlara göstərilən xidmətlərin sahələri aşağıdakıları əhatə edir (tam olmayan xidmət siyahısı): notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, məhkumluq barədə arayışların verilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, şəxsiyyət vəsiqələrinin və ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, arxiv arayışlarının və sənədlərindən

çıxarışların verilməsi, daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı, miqrasiya xidmətləri, kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı, gömrük işi sahəsində xidmətlərin göstərilməsi, lisenziyaların verilməsi, yaşayış yeri üzrə qeydiyyat arayışının verilməsi, bank və sığorta xidmətləri kimi funksional yardımçı xidmətlər, hərbi qeydiyyat ilə bağlı xidmətlər, sənədlərə apostil verilməsi və leqallaşdırılması xidmətləri, Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi ilə bağlı fermerlərə göstərilən xidmətlər, qida təhlükəsizliyi ilə bağlı xidmətlər, əmək pensiyalarının təyin edilməsi. Bütün bu xidmətlər vətəndaşlar tərəfindən yüksək tələbin olduğu və dövlət-vətəndaş münasibətlərinə ciddi təsir edən xidmətlərdir. Bunun nəticəsidir ki, "ASAN xidmət" mərkəzlərinin fəaliyyətə başladığı 2012-ci ildən 2022-ci ilə qədər keçən 10 illik müddətdə bu mərkəzlərə təqribən 60 milyon vətəndaş müraciəti edilib (8).

Yaradıldığı vaxtdan fəaliyyətini genişləndirən Azərbaycan vətəndaşlarına dövlət xidmətlərinin göstərilməsi üzrə "bir pəncərə" sistemi olan "ASAN xidmət" dövlət təşkilatı korrupsiyanın azaldılmasında uğurlu olub və səmərəliliyini sübut edib. Almaniyanın "Bertelsmann Stiftung" Fondunun bir layihəsi olan BTI Transformasiya İndeksi də "ASAN xidmət" mərkəzlərinin sayının artması və onların təklif etdiyi xidmətlərin çeşidi fərqli səviyyəli bürokratik korrupsiyanı getdikcə ciddi azaltmaqla bəzi sahələrdə səmərəliliyi artırıb (4). Dövlət tam fəaliyyət göstərən bürokratik sistemi və infrastrukturu vasitəsilə səhiyyə, təhsil, vergi yığımı, sosial təminat və nəqliyyat kimi əsas xidmətləri göstərir ki, bu xidmətlərin keyfiyyəti və standartları da getdikcə yüksəlir. "ASAN xidmət" mərkəzlərinin yaradılması ilə əmlakın qeydiyyatı prosesi də müəyyən qədər sadələşdirilib. Səyyar ASAN Xidmət, ASAN ödəniş, elektron növbə, Skype şikayət köşkü, xidmət və ödənişlər haqqında məlumatları əks etdirən sensorlu ekran monitorları kimi innovasiyalar müştəri məmnuniyyəti və xidmətlərin səmərəliliyi üçün tətbiq edilir (9). Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi 2016-cı ildə təsdiq etdiyi "Dövlət xidmətlərinin "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsi Qaydaları"na əsasən mərkəzi və icra icra hakimiyyəti orqanları tərəfindən göstərilən hər bir dövlət xidmətinin keyfiyyətini təsdiq olunmuş meyarlara və altmeyarlara görə sorğu anketləri əsasında dəyərləndirir (14). Bəzi müəlliflər "ASAN xidmət"in çox uğurlu fəaliyyətinin səbəbləri kimi güclü siyasi iradə, düzgün hazırlanmış konsepsiya, yenilikçi və davamlı icra planları, təkamülçü yanaşma, vətəndaş yönümlülük, potensialın daimi inkişafı, ictimai rəyin davamlı öyrənilməsi, hökumətin açıqlıq öhdəliyi, mərkəzləşdirilmiş idarəetmə modelinin tətbiqi, dövlət məmurlarını məsuliyyətli çalışmağa sövq edən fəal vətəndaş cəmiyyəti, dövlət idarəetmə potensialının yüksəlməsi kimi faktorları göstərirlər (17, s. 715-730).

İnformasiya texnologiyalarından yararlanmaqla dövlət təşkilatları tərəfindən Azərbaycan ərazisində yaşayan vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin çatdırılmasına imkan verən elektron sistem "Elektron Hökumət"dir ("e-Government"). "Elektron Hökumət" konsepsiyası dövlət tərəfindən təqdim edilən elektron xidmətlərin sayının və keyfiyyətinin artırılması yolu ilə dövlət-vətəndaş münasibətlərinin şəffaflaşması və xərclərin azalması, vətəndaşların dövlət xidmətləri barədə məmnunluğunun yüksəldilməsinə nail olmaq məqsədilə həyata keçirilir. Prezidentin 2010-cu il 11 avqust tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycanda rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər Dövlət Proqramı (Elektron Azərbaycan)" dövlət idarəçiliyinin bütün mövcud səviyyələrində informasiya və kommunikasiya texnologiya həllərinin həyata keçirilməsi, dövlət informasiya sistemləri və resurslarının formalaşması və inkişaf etdirilməsi məqsədini qarşıya qoydu (7). Azərbaycanda "bir pəncərə" prinsipi ilə dövlət təşkilatları tərəfindən göstərilən elektron xidmətlərin toplandığı vahid bir "Elektron Hökumət" portalı mövcuddur

(https://e-gov.az). Hazırda 430-da artıq elektron xidmət bu portala tam olaraq inteqrasiya edilib, 500-dən artıq elektron xidmət isə rəsmi dövlət saytları üzərindən vətəndaşlara təqdim edilir (33).

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nəzdindəki "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsi "Elektron Hökumət" sahəsində əlaqələndirici qurum idi. Ancaq 24 noyabr 2022-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinə (https://www.digital.gov.az) birləşdirildi. "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" Prezident Fərmanına əsasən (14 mart 2018-ci il) Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi elektron hökumət sahəsində dövlət siyasətini və tənzimləməsini həyata keçirir. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" (12 sentyabr 2018-ci il) ilə Azərbaycanda "dövlət qurumlarının informasiya ehtiyatlarının və sistemlərinin əlaqələndirilməsi, elektron xidmətlərin mərkəzləşdirilmiş qaydada təqdim olunması və istifadəçilərin onlardan istifadəsini təmin edən dövlət informasiya sistemi" kimi "Elektron Hökumət İnformasiya Sistemi" (altsistemlər: Kommunal Xidmətlər Vahid İnformasiya Sistemi, Sosial Xidmətlər Vahid İnformasiya Sistemi və Aqrar Xidmətlər Vahid İnformasiya Sistemi) və "İnformasiya Mənbələrinin Reyestri" yaradılıb (13).

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi dövlət informasiya ehtiyatları və sistemləri ilə bağlı əlaqələndirici quruma çevrilmişdir ki, buraya "Elektron Hökumət İnformasiya Sistemi" və "Elektron hökumət" portalının idarə edilməsi də daxildir. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, hal hazırda Elektron Hökumət İnformasiya Sistemi və onun sistemləri, "Elektron hökumət" portalı, "MyGov" portalı, "Rəqəmsal icra hakimiyyəti" portalı, Milli Məlumat Mübadiləsi sistemi ("ASAN Bridge"), Vahid Giriş Sistemi ("ASAN Login"), "ASAN Finans" sistemi, "Dövlət informasiya ehtiyatları, sistemləri və elektron xidmətlərin vahid reyestri" və İnformasiya Mənbələrinin Reyestri, "İcazələrin alınması və monitorinqi sistemi", və ölkədəki digər informasiya sistemləri və reyestrlərinə nəzarət edir (31). Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi "dövlət-biznes" ("G2B: government to business"), "biznes-dövlət" ("B2G: business to government") formatlarında elektron xidmətlərin inkişafı üçün də tədbirlər görür. 15 Azərbaycanda 2017-ci ildən ixracatçı sahibkarların ixrac prosedurları, ixrac subsidiyaları, gömrük bəyannamələri ilə bağlı əməliyyatlar "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən həyata keçirilir (11). İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az portalı isə Azərbaycan mənşəli məhsullar haqqında məlumat, onların xarici və daxili bazarlarda satışı üçün elektron platformadır (10). https://dth.az/ portalı isə Azərbaycanın beynəlxalq rəqəmsal bazarı olaraq elektron ticarət və transsərhəd xarakterli elektron xidmətlərin elektron mərkəzidir. "Elektron Hökumət" çərçivəsində dövlət qurumları tərəfindən göstərilən elektron xidmətlərin texniki normaların və standartların tətbiq edilməsi, monitorinq və qiymətləndirilməsi, vətəndaşlardan geri dönüşlərin alınması və informasiya sistemlərinin təhlükəsizliyinin təmin edilməsi olduqca önəmlidir.

### 3. Dövlət maliyyə idarəetməsi sahəsində islahatlar

Azərbaycanın dövlət idarəçiliyi sistemində son illər ən geniş islahatlar aparılan sahələrdən biri dövlət maliyyəsinin idarə edilməsi sistemidir. Buradakı islahatlar dövlət maliyyəsinin idarə edilməsinin şəffaflığı, hesabatlılığı, iştirakçılığı və qanunvericilik bazasının təkmilləşməsinə yönəldilib. Azərbaycanda dövlət maliyyə sisteminin idarə edilməsi və tənzimlənməsi üçün əsas normativ hüquqi akt 2 iyul 2002-ci ildə qəbul edilən və Azərbaycan Respublikasının

mərhum prezidenti, Ümummilli Lider Heydər Əliyev tərəfindən təsdiqlənən "Büdcə sistemi haqqında" Qanundur. "Büdcə sistemi haqqında" Qanun giriş hissəsində qeyd edilir ki, bu qanun "büdcə sisteminin təşkilinin, büdcələrin tərtibi, təsdiqi, icrası və onların icrasına nəzarətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, habelə dövlət büdcəsi ilə büdcədənkənar dövlət fondlarının, yerli büdcələrin qarşılıqlı əlaqələrinin əsas prinsiplərini müəyyən edir" (12). Qanuna əsasən Azərbaycanda büdcə sistemi dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikası büdcəsi və yerli büdcələrdən ibarətdir. Büdcə təsnifatı isə büdcə gəlirlərinin təsnifatından, büdcə xərclərinin funksional, iqtisadi, inzibati və qismən proqramlar əsasında tərtib edilən təsnifatından ibarətdir. Son illər "Büdcə sistemi haqqında" Qanunda edilən dəyişikliklər ilə büdcə qaydası, icmal büdcənin neft gəlirləri, xalis maliyyə aktivləri, vahid xəzinə hesabının sərbəst qalığı, xərclənə bilən neft gəlirləri, icmal büdcənin qeyri-neft baza kəsiri, icmal büdcənin baza xərcləri kimi beynəlxalq təcrübədə istifadə edilən önəmli anlayışlar və kateqoriyalar Azərbaycanın büdcə qanunvericiliyinə daxil edilib. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci il 18 dekabr tarixli Fərmanı təsdiq etdiyi "Büdcə qaydasına uyğun icmal büdcə xərclərinin yuxarı həddinin hesablanması Qaydası" ölkədəki fiskal və makroiqtisadi sabitlik üçün olduqca vacibdir. Nazirlər Kabinetinin 2018-ci ildə təsdiq etdiyi Azərbaycan Respublikasının tamamilə yeni vahid büdcə təsnifatı büdcə gəlirlərinin və xərclərinin funksional, iqtisadi və inzibati təsnifatından ibarətdir (6). Gəlirlərin və xərclərin təsnifatının izahatı ilə bağlı hüquqi sənədə büdcə gəlir və xərclərinin təsirinin qiymətləndirilməsi ilə bağlı müddəaların əlavə edilməsi müzakirə predmetidir. 2018-ci ildə aparılan bu islahatlar ölkə iqtisadiyyatının uzunmüddətli makroiqtisadi dayanıqlığı və effektiv büdcə siyasəti üçün aparılmışdır. 29 iyun 2018-ci il tarixində qəbul edilən "Hesablama Palatası haqqında" Qanun kənar dövlət maliyyə nəzarəti funksiyasını reallaşdıran dövlət qurumu olan bu ali audit orqanı tərəfindən büdcə xərclərinin və büdcə gəlirlərinin kompleks auditini nəzərdə tutur. Qanunun 5.1.-ci maddəsində yer alan "Hesablama Palatası təşkilati və funksional müstəqilliyə malikdir və onun fəaliyyətinə qanunsuz müdaxilə etmək yolverilməzdir" müddəası dövlət maliyyəsindən effektiv istifadəyə nəzarətin təmini üçün olduqca mühümdür (18). Azərbaycan Respublikası Hesablama Palatasının son illər dövlət büdcəsinin layihəsinə, Dövlət Neft Fondunun büdcə layihəsinə, Dövlət Sosial Müdafiə Fondunun büdcə layihəsinə, İşsizlikdən Sığorta Fondunun büdcə layihəsinə verdiyi rəylər xüsusilə əhatəli və olduqca keyfiyyətlidir (5).

Azərbaycanın dövlət maliyyə idarəetməsi sisteminin son illər gerçəkləşdirilən ən mühüm islahatlarından biri ortamüddətli xərc perspektivinin və çox illik büdcələşdirməyə keçidin ilkin addımlarının atılmasıdır. Bu yanaşmaların tətbiqi 2016-cı ildə qəbul edilən "Azərbaycan milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" sənədi ilə başlamışdır. Azərbaycanda sosial-iqtisadi siyasətin qısamüddətli və ortamüddətli dövr üçün hədəflərini ehtiva edən "Ortamüddətli xərclər çərçivəsinin (OMXÇ) hazırlanması" (24.08.2018) qaydası ilə nəticə əsaslı büdcələmə və proqram büdcəsi yanaşmasının tətbiq potensialı olan önəmli anlayışlar təsbit edilib (29).

Ortamüddətli xərclər çərçivəsinin məqsədlərini açıqlayan qaydaların 3-cü maddəsi və ya OMXÇ-nin hazırlanması prosesini izah edən 4-cü maddəsi büdcə fəaliyyətinin göstəricilər əsasında ölçülməsini nəzərdə tutan nəticəəsaslı büdcə tərtibi mexanizmi üçün daha böyük imkanlar açır. Büdcə təşkilatlarının yeni siyasət təşəbbüslərinin hazırlanması və onlar ilə bağlı sifarişlərin verilməsi üçün Maliyyə Nazirliyi tərəfindən qurumlara göndərilən təlimatda büdcə təşkilatlarından strateji planlaşdırma fəaliyyətinin həyata keçirilməsi tələb edilir. "Azərbaycan Respublikasında büdcə təşkilatlarının sektor strateji planlarının hazırlanması" Qaydası (28 dekabr 2018) büdcə təşkilatlarının sektor strateji planları büdcə təşkilatlarının qısa və ortamüddətli dövrdə hədəflərini və

həmin hədəflərin həyata keçirilməsi tədbirlərini, o cümlədən maliyyələşmə mənbələrini nəzərdə tutan sənəddir (2). Sənəd strateji planın hazırlanması üçün müəyyən edilən minimal strukturun elementlərini belə təsbit edir: missiya hesabatı, strateji baxış, strateji istiqamətlər, strateji məqsəd və hədəflər, strateji göstəricilər, fəaliyyət planları. Büdcə təşkilatları sektor strateji planlarının hazırlanması prosesində apardıqları strateji təhlildə sektorun sosial-iqtisadi və demoqrafik vəziyyət də təhlil edilə bilər.

Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi və Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyinin yenidən təşkili də son illərin mühüm dövlət maliyyəsi institusional islahatlarıdır. Azərbaycanda aparılan dövlət maliyyə idarəetməsi islahatlarının nəticəsi olaraq Beynəlxalq Büdcə Tərəfdaşlığı Təşkilatı (International Budget Partnership – IBP) tərəfindən 2022-ci ildə açıqlanan "Açıq Büdcə İndeksi 2021" hesabatında Azərbaycan 100 maksimum baldan 57 bal toplamaqla mövqeyini 120 ölkə arasında 81-ci yerdən 44-cü yerə doğru yüksəldib (3). Maliyyə Nazirliyi əvvəllər açıqlanmayan 3 önəmli sənədi, yəni büdcə öncəsi bəyanatı ("pre-budget statement"), vətəndaşın büdcə bələdçisini və aralıq büdcə icmalını ("mid-year review") artıq hazırlayıb zamanında rəsmi internet səhifəsində yayımlayıb və bununla da, açıqlıq və şəffaflıq baxımından önəmli addımlar atıb (32). Azərbaycanda aparılan dövlət maliyyə idarəetməsi islahatları artıq beynəlxalq təşkilatlar tərəfindən də təsdiq edilir.

**Cədvəl.** OMXÇ sənədinin hazırlanmasının islahat xarakterli təqvimi

| Sənəd | Məzmunu |
|---|---|
| Ortamüddətli xərclər çərçivəsi | Büdcə tərtibinin strateji mərhələsi olmaqla icmal büdcənin və dövlət büdcəsinin gəlir və xərclərinin prioritetləşməsi, təqdim edilməsi və idarə olunması məqsədi ilə təşkil olunan, ortamüddətli resurs zərfinin və milli xərc prioritetlərinin uyğunlaşmasını təmin edən institusional tədbirlərin məcmusu; |
| Ortamüddətli xərclər çərçivəsi sənədi | Büdcə tərtibi prosesinin OMXÇ mərhələsində hazırlanan və ortamüddətli resurs zərfini, ortamüddətli büdcə siyasətini, milli xərc prioritetlərini özündə əks etdirən strateji büdcə planı; |
| Ortamüddətli resurs zərfi | Növbəti il və sonrakı üç il üçün icmal büdcənin və dövlət büdcəsinin hesablanmış gəlir və daxilolmalarının məcmusu; |
| Ortamüddətli büdcə siyasəti | Növbəti il və sonrakı 3 il üçün ölkənin mövcud iqtisadi vəziyyətini təsvir edən və büdcə-vergi siyasətinin əsas məqsədlərini, həmçinin milli xərc prioritetlərini əks etdirən bəyanat; |
| Yeni siyasət təşəbbüsləri | Növbəti il və sonrakı 3 ilə icmal büdcənin və dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi təklif olunan yeni layihələr, dövlət proqramları və islahat tədbirlərindən irəli gələn cari və əsaslı xərclər; |
| Milli xərc prioritetləri | Ölkənin ortamüddətli və uzunmüddətli hədəflərinə əsaslanan xərc istiqamətləri; |
| Büdcə təşkilatları üzrə sektor strateji planları | Büdcə təşkilatlarının qısa və ortamüddətli dövrdə hədəflərini və həmin hədəflərin həyata keçirilməsi üzrə tədbirləri, o cümlədən maliyyələşmə mənbələrini nəzərdə tutan sənəd. |

**Nəticə**

Azərbaycan Respublikasında dövlət idarəçiliyində son illərdə həyata keçirilən islahatlar davamlı inkişafın reallaşdırılmasına yönəlmişdir. Bu baxımdan dövlət idarəçiliyində son illər həyata keçirilən islahatlar bir neçə müxtəlif məqsədlərə xidmət etmişdir: (a) iqtisadi artımı və inkişafı dəstəkləyəcək effektiv və səmərəli dövlət idarəçilik sistemi formalaşmışdır, (b) dövlət qurumları keyfiyyətli insan resurslarının təmin edilməsi baxımından müvafiq fəaliyyətlər reallaşdırılmışdır c) şəffaflıq, iştirakçılıq və hesabatlılıq baxımından cəmiyyətin ehtiyaclarını qarşılaması yönündə bir sıra tədbirlər görülmüşdür.

Dövlət başçısı cənab İlham Əliyevin dövlət idarəçiliyi sahəsində apardığı islahatlar iki əsas prinsipə əsaslanır. Bunlar səmərəlilik və ədalətlilik prinsipləridir. Belə ki, dövlət idarəçiliyində aparılan məqsədyönlü islahatlar nəticəsində səmərəlilik əldə olunmuşdur. Bu baxımdan əldə olunan inkişafın və rifahın əhali arasında düzgün bir şəkildə paylaşılması ilə də ədalətlilik prinsipi təmin olunmuşdur.

**Ədəbiyyat:**

1. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman. 13 iyul 2012-ci il. https://e-qanun.az/framework/23926
2. “Azərbaycan Respublikasında büdcə təşkilatlarının sektor strateji planlarının hazırlanması Qaydası”. 2018 http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/5e4ea1039dc47.pdf
3. Azərbaycan Açıq Büdcə İndeksi reytinqində 44-cü yerə yüksəlib. 02.06.2022. https://azertag.az/xeber/Azerbaycan_Achiq_Budce_Indeksi_reytinqinde_44_cu_yere_yukselib-2162237
4. Azərbaycan Ölkə Hesabatı 2022. BTI Transformasiya İndeksi. https://bti-project.org/en/reports/country-report/AZE#pos19
5. Azərbaycan Respublikası Hesablama Palatası. 2022. https://sai.gov.az/filter?type=rey
6. Azərbaycan Respublikasının vahid büdcə təsnifatı. 2018. http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/5bc856e0ae12f.pdf
7. Azərbaycanda rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan). 11 avqust 2010-cu il. https://e-qanun.az/framework/19936
8. "ASAN xidmət"in fəaliyyəti ilə bağlı Data Portal. 2022. https://vxsida.gov.az/statistics/
9. Advanced Concept of Public Service Delivery. 2022. https://www.unodc.org/documents/treaties/UNCAC/WorkingGroups/workinggroup4/2016-August-22-24/Contributions_NV/Azerbaijan_EN.pdf
10. Azexport.az portalı. 2022. https://azexport.az/index.php?route=information/information&information_id=4
11. “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi. 2022. https://ereforms.gov.az/az/page/bir-pencere-ixraca-destek-merkezi-12
12. “Büdcə sistemi haqqında” Qanun. 2 iyul 2002-ci il. https://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/6244003cde4ad.pdf
13. “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”. 12 sentyabr 2018-ci il. https://e-qanun.az/framework/40020

14. Dövlət xidmətlərinin "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsi Qaydaları. 01.11.2016. https://e-qanun.az/framework/34012
15. "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" Prezident Fərmanı (14 mart 2018-ci il). https://e-qanun.az/framework/38229
16. "Elektron Məhkəmə" İnformasiya Sistemi. 2022. http://www.judicialcouncil.gov.az/qayda.pdf
17. Gasımzade, I. (2020). Factors for the Successful Implementation of ASAN Service in Azerbaijan. Uluslararası Beşeri Bilimler ve Eğitim Dergisi, 6 (14), 715-730.
18. "Hesablama Palatası haqqında" Qanun. 29.06.2018 https://e-qanun.az/framework/39922
19. Hakimlərin Etik Davranış Kodeksi. Məhkəmə-Hüquq Şurası. 22 iyun 2007-ci il. https://e-qanun.az/framework/16075
20. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi Qaydaları. Məhkəmə-Hüquq Şurası. 06 mart 2020-ci il. https://e-qanun.az/framework/44796
21. "Konstitusiya Məhkəməsi haqqında" Qanun. 23 dekabr 2003-cü il. https://e-qanun.az/framework/5404
22. Kiel L. D., Elliot E. Long-Wave Economic Cycles, Techno-Economic Paradigms, and the Patterns of Reforms in American Public Administration // Administration and Society. 1999. 6. P. 616-639.
23. KİV ilə iş üzrə məsul şəxslərin siyahısı. http://www.judicialcouncil.gov.az/kiv.pdf
24. Грекова Ж. А. Реформирование государственной службы в Великобритании. Актуальные вопросы политики и политологии. М., 1999.
25. "Məhkəmə-Hüquq Şurası haqqında" Qanun. 28 dekabr 2004-cü il. https://e-qanun.az/framework/7303
26. "Məhkəmələr və hakimlər haqqında" Qanun. 10 iyun 1997-ci il. https://e-qanun.az/framework/3933
27. Мэннинг Н., Паркинсон Н. 2003. Реформа государственного управления. Международный опыт. М.
28. Next Steps in Retrospect. 2017. Civil Service Blog.
29. "Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası". 24 avqust 2018. http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/5de8d0e287062.pdf
30. Osborne D., Gaebler T. Reinventing Government: How the Entrepreneurial Spirit is Transforming the Public Sector. Reading, MA: Addison-Wesley, 1992.
31. Prezident Sərəncamı 24 noyabr 2022. https://e-qanun.az/framework/52788
32. Prof. Dr. İnqilab Əhmədov. 2022. Doğrudanmı Azərbaycan büdcə şəffaflığında mühüm irəliləyiş əldə edib? https://bakuresearchinstitute.org/dogrudanmi-az%C9%99rbaycan-budc%C9%99-s%C9%99ffafliginda-muhum-ir%C9%99lil%C9%99yis-%C9%99ld%C9%99-edib-2/
33. Public Service Delivery Innovations of Azerbaijan. https://www.sesric.org/imgs/news/presentations/1319-PublicServiceDeliveryInnovationsofAzerbaijan.pdf
34. Райнхард К. Реформирование государственного управления. Концепция активизирующего государства. Реформы государственного управления накануне третьего тысячелетия. М., 2003.
35. State Agency for Public Service and Social Innovations under the President. Advanced Concept of Public Service Delivery. https://bit.ly/3KKYlfh
36. "Vakant Hakim Vəzifələrinə Hakim Olmayan Namizədlərin Seçilməsi" Qaydaları. 11 mart 2005-ci il. https://e-qanun.az/framework/17144

***Açar sözlər:*** *dövlət idarəçiliyində islahatlar, çevik idarəetmə, yeni dövlət idarəçiliyi (YDİ), proaktiv dövlət*

**Elnur Aliyev**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Dean of the Faculty of Administrative Management Associate Professor, Ph.D. in Political Sciences*

# CONCEPTUAL FOUNDATIONS OF ADMINISTRATIVE REFORMS IN THE SPHERE OF PUBLIC ADMINISTRATION AT THE MODERN STAGE: COMPARATIVE ANALYSIS OF INTERNATIONAL AND DOMESTIC EXPERIENCE

## ABSTRACT

The last 30 years have become a period of large-scale reforms in public administration systems in all regions of the world. The wide-ranging reform process aims to improve the efficiency of public administration. The diversity of public administration systems determined the diversity of the reform process and the diversity of the results of this process. The author divides public administration reforms that have been in international practice since the late 1990s into three main blocks: 1. public administration reforms in the areas of organizational structure and mechanisms of executive power (including the division of functions between central and regional authorities and local governments); 2. civil service reforms; and 3. reforms aimed at the formation of e-government. In the article, the public administration reforms carried out in Azerbaijan over the past 30 years (1993–2023) were grouped in several areas and analyzed: reforms of the judicial and legal systems, reforms in the areas of citizen services and e-government, reforms of the state financial system, civil service reforms, reforms of local government, and the creation of public legal entities.

***Keywords:*** *Public administration reforms, agile management, new public administration (NPM), proactive state*

**Эльнур Алиев**

***Декан факультета Административного управления
Академии Государственного Управления
при Президенте Азербайджанской Республики,
доктор философии по политическим наукам, доцент***

# КОНЦЕПТУАЛЬНЫЕ ОСНОВЫ АДМИНИСТРАТИВНЫХ РЕФОРМ В СФЕРЕ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ НА СОВРЕМЕННОМ ЭТАПЕ: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ МЕЖДУНАРОДНОГО И ОТЕЧЕСТВЕННОГО ОПЫТА

## РЕЗЮМЕ

Последние 30 лет стали периодом широкомасштабных реформ в системах государственного управления можно сказать во всех регионах мира. Целью широкомасштабного процесса реформ является повышение эффективности государственного управления. Разнообразие систем государственного управления определило как разнобразие самого процесса реформ, так и разнообразие результатов этого процесса. Начавшиеся в международной практике с конца 1990-х годов реформы государственного управления разделены автором на 3 основных блока: 1. Реформы государственного управления в сферах организационный структуры и механизмах исполнительной власти (в том числе разграничение функций между центральными и региональными органами власти и органами местного самоуправления). 2. Реформы государственной службы. 3. Реформы, направленные на формирование электронного правительства. В статье проведенные в Азербайджане за последние 30 лет (1993-2023) реформы государственного управления были сгруппированы по нескольким направлениям и проанализированы: реформы судебно-правовой системы, реформы в сферах обслуживания граждан и электронного правительства, реформы государственной финансовой системы, реформы государственной службы, реформы местного управления и создание публичных юридических лиц.

***Ключевые слова:*** *реформы государственного управления, гибкое управление, новое государственное управление (НПУ), проактивное государство*

DOI:10.30546/dia.2.82.2023.275


UOT 316.3

**SAKİT ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmi katibi, "Fəlsəfə və sosial psixologiya" kafedrasının dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru***

*e-mail: elmikatib55@mail.ru*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN XALQININ MİLLİ-MƏNƏVİ DİRÇƏLİŞİ

Hər bir xalqın tarixinin sərt dönüşlərində, ağır və çətin günlərində onun yetişdirdiyi böyük şəxsiyyətlər meydana çıxır və xilaskarlıq missiyasını öz üzərinə götürür. XX əsrin sonlarında, Azərbaycan xalqının müstəqil dövlət-çiliyinin ağır günlərində, onu xilas edən belə böyük şəxsiyyətlərdən biri də anadan olmasının 100 illiyini qeyd edəcəyimiz Ümummilli Lider Heydər Əliyevdir.

Ümummilli Lider Heydər Əliyevin iki siyasi hakimiyyət dövrü olub, birinci hakimiyyət dövrü (1969–1982) Azərbaycanın SSRİ-nin tərkibində olduğu dövrü, ikinci hakimiyyət dövrü isə (1993–2003) Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonrakı dövrü. Heydər Əliyev birinci dəfə hakimiyyətə gələndə Azərbaycan Sovet dövləti tərkibində sosial-iqtisadi inkişaf göstəricilərinə görə geridə qalmış bir respublika idi. 1969-cu ildə hakimiyyətə gələn Heydər Əliyev Azərbaycanı SSRİ-nin qabaqcıl respublikalarından birinə çevirdi.

Güclü dövləti yalnız güclü millət və onun içərisindən çıxan güclü lider yarada bilər. Güclü şəxsiyyəti isə sağlam təfəkkür və milli-mənəvi dəyərlərə malik olan millət yetişdirə bilər. Sovet bolşevik imperiyası repressiya illərində zəngin milli təfəkkürə, milli-mənəvi və mədəni dəyərlərə malik olan milləti yetişdirə bilən ziyalıları, Azərbaycan Xalq Cümhriyyətinin liderlərini, dövlət və ictimai-siyasi xadimləri məhv etdi. Türk etnosunun adı dəyişdirildi, latın əlifbası kiril əlifbası ilə əvəz edildi, rus dili dövlət dili oldu, rus məktəblərinin sayı artırıldı, milli-mənəvi dəyərlər – muğam, adət-ənənələr, milli mədəniyyət, dini baxışlar, AXC dövlət xadimlərinin, milli şair və yazıçıların əksəriyyətinin əsərləri, «Kitabi Dədə-Qorqud» kimi xalq dastanı qadağan edildi. Bunların əvəzində isə saxta proletar mədəniyyəti yaradılaraq təbliğ olunmağa başladı.

Milləti millət kimi formalaşdıran mənəvi dəyərlərdən biri də fəlsəfi təfəkkürdür. Azərbaycan millətini fəlsəfi təfəkkürdən, milli özünüdərkdən və milli mənlik şüurundan məhrum etmək üçün Bakı Dövlət Universitetindəki fəlsəfə ixtisası bağlandı. XIX əsrdə yaşamış görkəmli Azərbaycan maarifçi-filosofu Şeyx Cəmaləddin Əfqani demişdir ki, «Bir millətdə fəlsəfə yoxdursa, əgər o millətin hamısı alim olsa da o millətdə elmlər intişar tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımı nəticə çıxarmaqda çətinlik çəkər…

Deyə bilərəm ki, fəlsəfi ruha malik olan bir millətdə ayrı-ayrı elmlər olmasa da, şübhəsiz, həmin fəlsəfi ruh milləti başqa elmlərə yiyələnməyə vadar edəcək... İnsanda insanlığı oyadan, insan şərəfini bəyan edən, insana doğru yolu göstərən də fəlsəfədir. Mənəvi tənəzzülə uğrayan millətin, hər şeydən əvvəl, fəlsəfi ruhu zərər çəkir, bundan sonra ayrı-ayrı elmlər və ədəb-ərkan qaydaları tamam yox olub aradan gedir» [6, s.197-198]. Bakı Dövlət Universitetinin fəlsəfə ixtisasının bağlanmasında əsas məqsəd

Azərbaycan türklərini milli özünüdərkdən, milli mənlik şüurundan və fəlsəfi ruhdan məhrum etmək idi.

Güclü dövləti güclü millətin içərisindən çıxan Vətənini sevən, vicdanlı, əxlaqlı milli kadrlar yarada bilər. Heydər Əliyev hakimiyyətə gələnə qədər Azərbaycanın dövlət orqanlarında yüksək vəzifələrdə işləyənlərin əksəriyyəti erməni, rus və digər xalqların nümayəndələri idi. Güclü dövlətin yaradılmasında dil amilinin böyük rolu var. Azərbaycanın dövlət dili rus dili idi və Azərbaycan dili məişət dilinə çevrimişdi.

Belə bir şəraitdə hakimiyyətə gələn Heydər Əliyev əvvəlcə milli-mənəvi dəyərləri dirçəltməklə və milli kadrların yetişdirilməsi kimi ən vacib problemlərin həlli ilə məşğul olmağa başladı. Heydər Əliyev ilk növbədə milli ziyalıların və milli kadrların yetişdirilməsi işini əhəmiyyətli dərəcədə genişləndirdi. O, xüsusilə dövlət təhlükəsizlik təşkilatında kadrların milliləşdirilməsi məsələsinə ciddi fikir verməyə başladı. Çünki milli kadrlar xalqın problemlərini başa düşər, onun ağrı-acılarını dərk edə bilərdi. Bu baxımdan həm yeni milli ziyalı təbəqəsinin formalaşmasında, həm də milli ziyalıların totalitar rejimin repressiyalarından qorunmasında Heydər Əliyevin böyük xidmətləri olmuşdur.

Ümummilli Lider Heydər Əliyev sərt repressiya illərində totalitar bolşevik rejimi tərəfindən məhv edilən ziyalı təbəqəsinin yenidən formalaşmasını xüsusilə diqqət mərkəzində saxlamışdı. O, yeni yaranan ziyalı təbəqəsinin nümayəndələrini mükafatlandırır, onlara orden və medallar verir, mənzillə təmin edir, onların dünya miqyasında tanınması üçün geniş imkan və şərait yaradırdı. Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycan dilinin hörmət və nüfuzu özünə qaytarıldı, Azərbaycan dilli ziyalıların, radio və televiziya verilişlərinin, qəzet və jurnalların, kitabların, orta məktəblərin, ixtisasların, alim və tədqiqatçıların sayı xeyli artırıldı. Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili elan edildi. Bu milli-mədəni irsin bərpası yolunda atılan ən əhəmiyyətli addımlardan biri oldu.

Tanınmış Amerika tədqiqatçısı Tadeuş Svetoxovski özünün «Azərbaycanda rus, müasir elita və milli eyniliyin təşəkkül tapması» əsərində dövlət idarəçiliyi sisteminin milliləşdirilməsi barədə belə yazır: «Ziyalı təbəqəsinin ruslaşdırılması prosesinin inkişaf etməsinə baxmayaraq, Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra 1969-cu ildə milli nomenklaturun birləşməsi baş verir. Azərbaycan Kommunist Partiyasının I katibi kimi Əliyev yüksək idarəetmə postlarına etnik azərbaycanlıları çəkməklə, yenidən milliləşdirmə siyasətinə qayıtdı... Sübut edirdi ki, milli nomenklatur ölkədəki duruma görə məsuliyyəti nəinki öz üzərinə götürə bilər, hətta bunu etməlidir» [7, s.36].

Beləliklə, 1970–1980-ci illərdə Azərbaycan xalqının tarixində misilsiz xidmətləri olan görkəmli dövlət xadimi Heydər Əliyev milli-mənəvi dəyərlərin dirçəldilməsində və bərpa edilməsində böyük işlər gördü.

1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycanın həm daxilində, həm də xaricində dövlət müstəqilliyi ilə barışmaq istəməyən qüvvələr yenicə əldə edilmiş müstəqilliyə son qoymaq və Azərbaycanı parçalamaq istəyirdi. Ölkədə xaos və özbaşınalıq hökm sürürdü, Azərbaycanın dövlət müstəqilliyinin taleyi təhlükə altında idi. Belə ağır bir vəziyyətdə Azərbaycan xalqı, xüsusilə də Azərbaycanın tanınmış və nüfuzlu ziyalıları Heydər Əliyevi hakimiyyətə dəvət etdilər.

1993-cü il iyunun 15-də Milli Məclisin fövqəladə sessiyasında Hevdər Əliyev Ali Sovetin sədri seçildi. 1993-cü il iyunun 24-də Milli Məclis Respublika Prezidentinin səlahiyyətlərini Ali Sovetin sədri Heydər Əliyevə həvalə etdi. 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə Heydər Əliyev səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra qısa müddət ərzində ölkədə sabitliyi bərpa etdi, separatçı qüvvələri zərərsizləşdirdi, 1994-1995-ci illərdə dövlət çevrilişinin qarşısını aldı. O, hakimiyyətə

gələndən sonra Azərbaycan xalqı sülh, təhlükəsizlik və əmin-amanlıq şəraitində yaşamağa başladı. Heydər Əliyev tərəfindən Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun bünövrəsi qoyuldu.

Müasir dövrdə demokratik inkişaf yolunu seçən hər bir ölkə və xalq özünün milli-tarixi adət-ənənələrini, siyasi-mədəni köklərini, milli-mənəvi dəyərlərini nəzərə alaraq özlərinə xas olan milli demokratiyanı reallaşdırır. İkinci dəfə siyasi hakimiyyətə gələn Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının milli mentalitetinə və dövlətçilik ənənələrinə əsaslanan demokratik idarəetmə qurmaq yolunu seçdiyini bildirərək demişdir: «Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanun pozulmasına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır. Yəni bizim respublikamız bir il bundan öncə başladığı yola davam etməlidir. Bu düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir. Əmin olmalısınız ki, mən bu yola həmişə sadiq qalacağam» [1, s.10].

Ümummilli Lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldiyi ilk gündən müstəqil Azərbaycan dövlətində və cəmiyyətində idarəetmə münasibətlərinin demokratikləşdirilməsi sahəsində dərin sosial, iqtisadi, siyasi və hüquqi islahatlar aparmağa başladı. Demokratik idarəetmə sahəsində aparılan bu islahatlar ilk növbədə idarəetmənin demokratik institutlarının və mexanizminin formalaşmasına yönəlmişdir. Demokratik idarəetmə institutlarının və mexanizminin formalaşması isə ümumbəşəri demokratik və milli-mənəvi dəyərlərə əsaslanan konstitusiyanın qəbul edilməsində reallaşa bilər.

1995-ci il noyabrın 12-də Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyası ümumxalq referendumu yolu ilə qəbul edildi. Müstəqil Azərbaycan Respublikası Konstitusiyasında insan hüquq və azadlıqlarının geniş şəkildə təsbit edilməsi, demokratik idarəetmə mexanizminin əsas prinsip və normalarının müəyyənləşdirilməsi, hakimiyyət bölgüsü prinsipi, ümumiyyətlə demokratik idarəetmə institutları və onların fəaliyyət mexanizminin əsas istiqamətləri öz əksini tapmışdır. Konstitusiyada təsbit olunmuş demokratik idarəetmə ilə bağlı olan dəyərlərə uyğun olaraq təsisatların yaradılması demokratik idarəetmə yolunda aparılan islahatların başlıca istiqaməti kimi səciyyələndirilə bilər.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə 1998-ci ilin fevralında ölüm cəzası ləğv olundu, iyulunda Konstitusiya Məhkəməsi yaradıldı, avqustunda mətbuat üzərində senzura ləğv edildi. 1999-cu ilin dekabr ayında ilk bələdiyyə seçkiləri keçirildi, 2000-ci ildə məhkəmə hakimlərinin xüsusi test imtahanları ilə seçilməsi təcrübəsi tətbiq edildi və 2001-ci ilin dekabrı ayında Milli Məclisin "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununu qəbul etməsilə Ombudsman institutu yaradıldı.

1998-ci il oktyabr ayının 11-də Heydər Əliyev yenidən prezident seçildi. O, demokratik idarəetmənin bərqərar edilməsi yolunda ilk vaxtlar bir sıra çətinlik və problemlərlə rastlaşdı:

Birincisi, Azərbaycanın müharibəyə cəlb olunduğu və ərazisinin iyirmi faizə qədəri Ermənistan tərəfindən işğal olunduğu bir şəraitdə Ümummilli Lider Heydər Əliyev təcavüzə qarşı mübarizə aparmaqla bərabər, həm də demokratik dövlət quruculuğu işləri ilə məşğul olurdu;

İkincisi, Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının müstəqilliyi ilə barışmaq istəməyən həm xarici, həm də daxili düşmən qüvvələrin dövlətçiliyimizə və müstəqilliyimizə qarşı törətdikləri separatizmin, vətəndaş müharibəsi təhlükəsinin, dövlət çevrilişi cəhdlərinin qarşısını almaqla yanaşı, sosial-iqtisadi və siyasi problemlərin aradan qaldırılması kimi ağır işlərin həlli ilə məşğul olurdu;

Üçüncüsü, Ümummilli Lider Heydər Əliyev siyasi sabitliyi təmin etməklə yanaşı demokratik idarəetmənin başlıca əsası olan vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu sahəsində böyük işlər gördü. Onun rəhbərliyi ilə insanların dövlət və cəmiyyətin idarəçiliyi sahəsində fəal iştirakı üçün zəmin yaradıldı. Ümumilikdə vətəndaşlara Azərbaycan Respublikası Konstitusiyası əsasında azadlıq, bərabərlik və hüquqlar verildi. Vətəndaşlara verilən bu siyasi və hüquqi azadlıqlar onların ölkənin ictimai həyatında və dövlətin idarə edilməsində fəal iştirakını təmin etməyə yönəldilmişdir. Bu hüquq və azadlıqlar insan və cəmiyyət, vətəndaş və dövlət münasibətlərinin möhkəmləndirilməsi üçün geniş şərait və zəmin yaratdı.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında demokratik idarəetmənin mövcud olduğu hüquqi dövlətin və vətəndaş cəmiyyətinin möhkəm bünövrəsi qoyuldu. Bu möhkəm bünövrə əsasında müstəqillik illəri ərzində vətəndaş cəmiyyəti və hüquqi dövlətin bərqərar edilməsi istiqamətində çoxsaylı islahatlar aparılmışdır. Aparılan bu islahatlar içərisində məhkəmə-hüquq islahatlarını xüsusilə qeyd etmək lazımdır. 2002-ci ilin sentyabrından Respublikada üçpilləli məhkəmə sistemi və Apellyasiya Məhkəməsi yaradıldı. Məhkəmə sistemindəki islahatların əsas məqsədləri hüquqi dövlət çərçivəsində müstəqil məhkəmə sisteminin fəaliyyət göstərməsinin təmin edilməsindən, vətəndaşların ədalətli məhkəmə araşdırmasından, məhkəmə qərarlarından şikayət hüququnun həyata keçirilməsindən ibarətdir. Qəbul edilmiş qanunlar məhkəmələrin, prokurorluğun, vəkilliyin, polisin, ədliyyə orqanlarının və digər hüquq-mühafizə orqanlarının statusunu müəyyənləşdirmişdir. Məhkəmə-hüquq islahatları ilk növbədə əhalinin məhkəmələrə müraciətini asanlaşdırmağa, məhkəmə sisteminə etimadı möhkəmləndirməyə istiqamətləndirilmişdir. Hakimlər aşkarlıq şəraitində test imtahanları verməklə seçilir və təyin olunurlar. Milli Məclisin qəbul etdiyi "Prokurorluq haqqında" Qanuna uyğun olaraq, prokurorluğun bir sıra səlahiyyətləri məhdudlaşdırılmışdır. Keçmiş inzibati-amirlik metodundan miras qalmış və prokurorluq orqanlarına xas olmayan səlahiyyətlər ləğv edilmişdir.

Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğu və islahatçılıq fəaliyyəti ilə yanaşı milli şüurun, milli mənəvi dəyərlərin, milli ideyanın və Azərbaycan dilinin dirçəlişi və inkişafında böyük xidmətləri olmuşdur. Bu baxımdan o, "Azərbaycançılıq" ideologiyasının banisidir.

Güclü dövlət milli ideologiya əsasında yaradılır. "Azərbaycançılıq" ideyası tarixi köklərə malikdir. Bu ideya "Azərbaycançılıq" anlayışı ilə qırılmaz surətdə bağlıdır. "Azərbaycançılıq" ideyasının meydana gəlməsi Azərbaycanda ictimai-siyasi, fəlsəfi təfəkkürün, milli-mənəvi dəyərlərin və müstəqil dövlətçilik ənənələrin inkişafı prosesində formalaşmışdır. "Azərbaycançılıq" ideyası XIX əsr Azərbaycan maarifçilərinin baxışlarında irəli sürülmüş, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları tərəfindən formalaşdırılmışdır. Ancaq "Azərbaycançılıq" ideyası Cümhuriyyətin süqutu ilə milli şüurdan silinmişdir.

Ümummilli Lider Heydər Əliyev "Azərbaycançılıq" ideyasını yenidən dirçəldərək onu ideologiyaya çevirdi. Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya azərbaycanlılarının I qurultayında "azərbaycançılıq" ideyasının mahiyyətini səciyyələndirərkən demişdir: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" [2, s.436].

Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan vətəndaş cəmiyyətinin və hüquqi dövlətin formalaşması prosesi hal-hazırda Heydər Əliyev siyasi kursunun yaradıcı davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Prezident İlham Əliyev vətəndaş cəmiyyətinin və hüquqi dövlətin, demokratikləşmə prosesinin möhkəmlənməsi ilə bağlı deyir: "...Vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin

möhkəmlənməsi, hüquqi dövlətin qurulması sadəcə olaraq bir şüar, yaxud bir niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir. Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir və ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmiləndirir, ictimai-siyasi vəziyyətə də müsbət təsir göstərir" [5, s.290].

İqtisadi inkişafla demokratiya bir-biri ilə qarşılıqlı şəkildə sıx bağlıdır. İqtisadi artım olmadan demokratiya inkişaf edə bilməz və güclü dövlət ola bilməz. Ümummilli Lider Heydər Əliyevin apardığı dərin iqtisadi islahatlar nəticəsində bu gün ölkəmiz dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri sırasına çıxmışdır. Daha sonra Prezident İlham Əliyev əhalinin rifah halı, əmin-amanlığı və yaşayış səviyyəsinin artması ilə bağlı deyir: "Məqsədimiz müasir güclü dövlət yaratmaqdır. İqtisadi cəhətdən güclü dövlət yaratmaq, sosial rifah cəmiyyəti qurmaqdır. İnsanları narahat edən bütün məsələləri həll etmək, azad cəmiyyət yaratmaqdır ki, insanlar rahat, gözəl yaşasınlar, rifah içində yaşasınlar. Mənim də məqsədim budur və bu məqsədə doğru biz uğurla gedirik" [3, s.257].

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti hazırda regionda iqtisadi cəhətdən güclü dövlətə çevrilmiş, əhalinin rifah halı yüksəlmiş, əmin-amanlıq yaradılmış və yaşayış səviyyəsi durmadan artmaqda davam edir.

Ümummilli Lider Heydər Əliyev müasir tipli güclü ordu quruculuğunun əsasını qoymuşdur. Bu gün Türkiyənin dəstəyi ilə NATO standartlarına uyğun güclü ordu yaradılmışdır. Məhz güclü ordu, güclü Ali Baş Komandan və güclü xalq birliyi əsasında İkinci Qarabağ müharibəsində düşmən üzərində Zəfər çalındı və Azərbaycanın dövlət sərhədləri bərpa edildi. Ölkə Prezidenti Ali Baş Komandan İlham Əliyev qeyd edir ki, «Müharibənin 44 gününün hər günü dərindən təhlil edildi və əlbəttə, bu təhlil bizə imkan verdi ki, biz gələcək ordu quruculuğumuzu real vəziyyətə əsaslanaraq quraq. Bunu nəzərə alaraq yeni silahların, texnikaların alınması da təşkil edilir. Bununla bərabər müharibədən sonra Müdafiə Nazirliyində struktur islahatları aparılmışdır, struktur dəyişikliyi edilmişdir və bu, ordumuzu daha da gücləndirəcək, daha da müasirləşdirəcək» [10, s.98]. Azərbaycan ordusu öz gücünə görə dünyanın böyük dövlətlərinin orduları sırasında 57-ci yerdədir.

Əgər güclü dövlət, güclü ordu, güclü Ali Baş Komandan və ümumxalq birliyi olmasa idi, düşmən üzərində qələbə çalmaq və uğur qazanmaq çətin olardı. Bütün bu uğurların hamısının əsasını Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu qeyd edən Prezident İlham Əliyev bildirir ki, «…Əgər Ulu Öndər bu ölkənin təməlini düzgün qoymasaydı və dövlətçilik qurmasaydı, bu gün Zəfərdən söhbət gedə bilməzdi. Sadəcə olaraq, Azərbaycan xalqı müdriklik göstərib, 2003-cü ildə və ondan sonrakı illərdə onun siyasətinə səs verib» [9, s.44].

İşğaldan azad olunmuş ərazilər işğal altında olduğu 30 il ərzində yerlə-yeksan olunaraq, hər şey vəhşicəsinə məhv edilmişdir. Buna görə azad olunmuş ərazilərdə nəhəng quruculuq və bərpa işlərinə başlanıldı. Qısa müddət ərzində irimiqyaslı Dövlət Proqramları əsasında aeroportlar tikildi, avtomobil və dəmir yolları çəkilməyə başlandı, işıq, qaz, su və digər infrastrukturlar yaradıldı. Şəhər, rayon, qəsəbə və kəndlərin baş planları hazırlanaraq həyata keçirilməyə başlandı. Məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı üçün «Böyük qayıdış» Proqramı hazırlandı. Bu nəhəng işləri Azərbaycan dövlət öz iqtisadi gücü hesabına edir. Bütün bu uğurlarla bağlı Prezident İlham Əliyev qeyd edir ki, «Onu da bildirməliyəm ki, biz bütün bu nailiyyətləri öz zəhmətimiz hesabına qazanmışıq. Heç kimdən bir manat dəstək almamışıq. Azad edilmiş torpaqları da yüz faiz öz gücümüzə bərpa edirik» [10, s.100].

Hazırda Azərbaycan dövləti sosial-iqtisadi inkişaf göstəricilərinə görə dünyanın qabaqcıl ölkələri sırasına çıxmışdır. Prezident İlham Əliyev qeyd edir ki, «Bu gün istənilən meyar

üzrə, istənilən parametr üzrə heç kimdən asılı deyilik, iqtisadi sahədə ən qabaqcıl yerlərdəyik – istər xarici borc baxımından, istər iqtisadi artım baxımından və adambaşına düşən valyuta ehtiyatları baxımından» [8, s.71]. Azərbaycan dövlətinin uğurları nəticəsində onun güclü-sosial, iqtisadi, hərbi və s. potensiala malik olduğunu qeyd edən Prezident İlham Əliyev demişdir: «Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmayıbdır» [5, s.214].

Bu baxımdan müasir, güclü Azərbaycan dövlətinin Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyalarının məhsulu olduğunu qeyd edən Prezident İlham Əliyev bildirmişdir ki, «Biz bu tarixi bilməliyik, bilirik və bundan sonra öz fəaliyyətimizi bu möhkəm təməl üzərində quracağıq, necə ki, bu vaxta qədər qurmuşuq. 1993-2003-cü illər həlledici illər olmuşdur. Dövlətçiliyin əsasları qoyulmuşdur» [8, s.70].

Beləliklə, müasir Azərbaycan dövlətinin sosial, iqtisadi, hərbi, elmi, mədəni və s. sahələrdə qüdrətinin artması və regionda güc mərkəzinə çevrilməsi Ümummilli Lider Heydər Əliyevin güclü dövlət quruculuğu ideyalarının uğurla həyata keçirilməsinin nəticəsidir.

**Ədəbiyyat:**


1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci kitab, iyun, 1993 – may 1994, B., Azərnəşr, 1997, - 612 səh.
2. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Otuz altıncı kitab, sentyabr, 2001 – noyabr 2001. B. Azərnəşr, 2011, 512 səh.
3. Əliyev İlham. İnkişaf – məqsədimizdir. On doqquzuncu kitab, avqust 2006 - oktyabr 2006. B.: Azərnəşr, 2014, 392 səh.
4. Əliyev İlham. İnkişaf – məqsədimizdir. İyirmi dördüncü kitab, aprel 2007-iyun 2007, B.: Azərnəşr, 2015, 408 səh.
5. Əliyev İlham. İnkişaf – məqsədimizdir. Yetmiş doqquzuncu kitab, mart 2017 - may 2017. B.: Azərnəşr, 2019, 400 səh.
6. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. B.:Azərnəşr, 1996, 220 səh.
7. Mirzəzadə A. Heydər Əliyev siyasi irsinin politoloji aspektləri. – Bakı, «Azərbaycan nəşriyatı», 2016, - 240 səh.
8. Prezident İlham Əliyevin Yeni Azərbaycan Partiyasının VII qurultayındakı giriş nitqindən, 5 mart 2021-ci il. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. 2021, №1 (73) səh.68-75.
9. Prezident İlham Əliyevin Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşündəki nitqindən. 4 oktyabr 2021-ci il. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. 2021, №4 (76) səh.36-45.
10. Prezident İlham Əliyevin 2022-ci ilin birinci rübunun yekunlarına həsr olunan müşavirədəki giriş nitqindən, 12 aprel 2022-ci il. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. 2022, №2 (78) səh.96-100.


***Açar sözlər:*** *müasir qüdrətli Azərbaycan dövləti, Ümummilli Lider Heydər Əliyevin demokratik dövlətçilik ideyaları, hüquqi dövlət, sosial dövlət*

**Sakit Aliyev**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan Scientific secretary Associate Professor, Ph.D. in Philosophy***

# HEYDAR ALIYEV AND THE NATIONAL, MORAL REVIVAL OF THE AZERBAIJANI NATION

## ABSTRACT

The presented article analyzes the actual aspects of the effective execution of the National Leader Heydar Aliyev's fundamental principles on transforming contemporary Azerbaijan into a powerful state in social, economic, military, scientific, cultural, and cultural other spheres. It is noted that Heydar Aliyev laid the fundamental foundations of contemporary, powerful, democratic Azerbaijan. The author emphasizes that the faithful implementation of Heydar Aliyev's ideas in the statehood of the Republic of Azerbaijan was ensured by his political successor, President of the Republic of Azerbaijan Ilham Aliyev, whose entire policy is aimed at building a legal state and a socially oriented civil society in Azerbaijan. At the moment, the transformation of the regions of Azerbaijan into real centers of state administration as well as their economic performance at the level of leading countries in the world, is the result of the consistent implementation of Heydar Aliyev's ideas in the realm of state construction.

***Keywords:*** *contemporary powerful Azerbaijani state, Nationwide Leader Heydar Aliyev's ideas for democratic statehood, legal state, social state*

**Сакит Алиев**

***Ученый секретарь Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по философии, доцент***

# ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И НАЦИОНАЛЬНО-ДУХОВНОЕ ВОЗРОЖДЕНИЕ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА

## РЕЗЮМЕ

В представленной статье анализируются актуальные аспекты успешной деятельности по претворению в жизнь основополагающих идей общенационального лидера Гейдара Алиева по превращению современного Азербайджана в могущественное в социальном, экономическом, военном, научном, культурном и т.д. отношении государство. Отмечается, что Гейдар Алиев заложил фундаментальные основы современного сильного демократического Азербайджана. Автор подчеркивает, что неуклонное претворение идей Гейдара Алиева в государственности Азербайджанской Республики обеспечил его политический преемник, Президент Азербайджанской Республики Ильхам Алиев, вся политика которого направлена на построение в Азербайджане правового государства, социально ориентированного гражданского общества. В настоящий момент превращение регионов Азербайджана в реальные центры государственного управления и выход по экономическим показателям на уровень передовых стран мира является  следствием последовательного воплощения в жизнь идей Гейдара Алиева в свете государственного строительства.

***Ключевые слова:*** *современное мощное Азербайджанское государство, идеи общенационального лидера Гейдара Алиева о демократической государственности, правовое государство, социальное государство*

UOT [002:004]:316.774

**ELVİN ƏZİZBƏYOV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "İntellektual sistemlərin idarə olunması" kafedrasının müdiri, fizika-riyaziyyat elmləri namizədi, dosent***

*e-mail: eazizbayov@dia.edu.az*

**GÜLNAR MİRZƏYEVA**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "İntellektual sistemlərin idarə olunması" kafedrasının dosenti, mexanika üzrə fəlsəfə doktoru***

*e-mail: gulnar.mirzayeva@gmail.com*

# DÖVLƏT İDARƏÇİLİYİNDƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN ROLU

Məqalədə əsas məqsəd dövlət idarəçiliyində rəqəmsal texnologiyaların rolunu araşdırmaq və bu sahədə strateji hədəflərlə bağlı təkliflər verməkdən ibarətdir. Məlumdur ki, respublikamız qısa müddət ərzində dövlət idarəçiliyinin bütün sahələrində mühüm irəliləyişlərə nail olmuşdur. Belə ki, Azərbaycan Respublikasında aparılan islahatların nəticəsi olaraq, dinamik inkişaf edən dövlətin qarşısında duran vəzifələri yüksək səviyyədə yerinə yetirmək bacarığı olan səmərəli dövlət idarəçiliyi sistemi formalaşmışdır. Uğurlu islahatlar nəticəsində yaradılmış "Elektron hökumət"in idarəetmədə rəqəmsallaşmanın əhatə dairəsinin genişləndiril-məsi buna bariz nümunədir [4]. Artıq dövlət qurumları idarəçilikdə informasiya sistemlərin-dən, elektron xidmətlərdən geniş istifadə edir.

Cənubi Qafqaz regionunda ilk dəfə olaraq Azərbaycan Respublikasında, TIER III səviyyəli, ISO 20000 və ISO 27001 standartlarına uyğun Data Mərkəzi yaradılmışdır. İcra olunan layihələrin davamlılığı üçün ölkədə "Elektron hökumət"in inkişafı, "Rəqəmsal hökumət"ə keçidin təmin edilməsi, elektron xidmətlərin yaradılması və göstərilməsi üçün dövlət xərclərinin optimallaşdırılması, informasiya sistemlərinin fəaliyyətinin daha müasir standartlar əsasında keyfiyyətli, dayanıqlı və təhlükəsiz infrastrukturda təşkilinin təmin edilməsi və vətəndaşların bu imkanlardan sərbəst istifadəsi üçün "Bulud" texnologiyasının tətbiqi məqsədilə, 3 iyun 2019-cu ildə "Hökumət buludu"nun (G-cloud) yaradılması və "Bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında fərman imzalanmışdır. Bu sənəd Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnolo-giyalarının inkişafına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planının 2.4.5-ci yarımbəndinin icrası ilə əlqdədar həyata keçirilmişdir.

16 iyun 2020-ci ildə Prezident İlham Əliyev "Microsoft" şirkətinin vitse-prezidenti və şirkətin digər nümayəndələri ilə keçirdiyi videokonfransda vurğulamışdır ki, hazırda Azərbaycanda Rəqəmsal Transformasiya üzrə Hökumət Strategiyası üzərində işlər aparılır. Bu gün qlobal dünyada yeni risk mədəniyyətinin və blokçeyn texnologiyalarının formalaşdığı dövrdə dövlət idarəçiliyinin yeni metodlar

əsasında fəaliyyət göstərməsi zərurəti yaranmışdır.

Dövlət idarəçiliyi sahəsində tətbiq olunan innovasiyaları, həm də meydana çıxan problemlərin aradan qaldırılmasınında istifadə olunan yeni bir tətbiq kimi xarakterizə etmək olar. Bununla da, dövlət idarəçiliyində innovasiya dedikdə, problemlərin aradan qaldırılmasının daha yaradıcı metodlarının yaranması başa düşülür. Qeyd edək ki, dövlət idarəçiliyi sahəsində bu texnologiyaların tətbiqi inzibati islahatların həyata keçirilməsi ilə də sıx bağlıdır. Elmi ədəbiyyatda innovasiya anlayışının mahiyyətinə dair yanaşmalarda fikir müxtəlifliyi mövcuddur. Bu söz ingilis mənşəli "innovation" sözündəndir və mənası yeniliklərin uyğunlaşdırılması deməkdir. Yəni bu termin hər hansı bir problemin həllində müasir dövrün tələblərinə cavab verəcək yeni üsulların yaranmasını nəzərdə tutur. Ilk dəfə XIX əsrdə bu anlayış mədəniyyətşünaslıq ilə bağlı elmi tədqiqatlarda bir mədəniyyətin elementlərinin digər mədəniyyətə aid olmasını ifadə edirdi.

İnnovasiya dövlət siyasətinin vacib bir amilidir: Hökümətlərin resurs məhdudluğu dövründə dövlət idarəçiliyində yaranan bu yenilik cəmiyyətin ehtiyaclarına uyğun bir hala gəlmişdir. İnnovasiya konsepsiyasını, iqtisadiyyat modelinin mərkəzində yerləşdirən isə XX əsrin 20-30-cu illərində iqtisadi təlimlərdə xüsusi rolu olan, Avstriya iqtisadçısı İ.Şumpeter olmuşdur. Şumpeter, bu yeniliyi iqtisadi quruluş içərisində aramsız olaraq inqilab edən, köhnəni ləğv edib, daima yeni bir quruluş yaradan və idarəetmənin transformasiyası kimi bir forma olduğunu nəzəri olaraq izah etmişdir. Ümumilikdə isə, innovasiyanın dərk edilməsinə dair bu yanaşmaların təhlili sonda belə bir fikir formalaşdırır ki, onun əsas məzmunu dəyişikliklərdən ibarətdir. Buna baxmayaraq, bu innovativ texnologiyaların tətbiqi nəticəsində kifayət qədər yaxşı təsirlərinin əldə edildiyi görünür. Bu da, öz növbəsində dövlət idarəçiliyinin səmərəliliyinin açıq göstəricisidir.

İnnovativ texnologiyanın intensiv inkişafı və dünyada internet istifadəçilərinin sayının sürətlə artması özəl və dövlət sektorlarınun diqqətini çəkmişdir. XX əsrin ortalarından başlayaraq artıq bütün dünyada informasiya texnologiyalarının getdikcə sürətli inkişafı, internetin bütün ölkələrin və bəşəriyyətin həyatına olduqca geniş nüfuz etməsi ilə yeni bir inkişaf mərhələsinin əsasını qoymuşdur. Eyni zamanda, bu inkişaf özü ilə bir çox sosial-mədəni dəyişikliklər gətirmiş və dövlət xidmətlərinin göstərilməsində yeni bir dönüş dövrü başlanmışdır. Bunların əsasını isə rəqəmsallaşma təşkil edir. 20-ci əsrin sonundan başlayan və 2000-ci illərdə daha da sürətlənən rəqəmsallaşdırma prosesi demək olar ki, hər sahədə köklü dəyişikliklərə səbəb olmuşdur. Rəqəmsal texnologiyaların məhsulu olan robotlar, ağıllı sistemlər, elektron ticarət, sosial media, elektron hökumət, mobil rabitə kimi tətbiqetmələrlə rabitə, bank və səhiyyə müəssisələri kimi xidmət sektorunun müxtəlif sahələrində də böyük bir dəyişiklik yaşanmışdır. Bu dəyişiklik və dönüş əsasında texnologiyanın verdiyi işləri daha sürətli həyata keçirir və qərar qəbuletmə proseslərində istifadə olunur. Gartnerin lüğətinə görə: "Rəqəmsallaşma – bir iş modelini dəyişdirmək və yeni dəyər formalaşdırma imkanlarını yaratmaq üçün rəqəmsal texnologiyaların tətbiqidir". Rəqəmsal bir işə keçid prosesi rəqəmsal texnologiyalardan istifadə prosesidir. Beləliklə, rəqəmsallaşma prosesin səmərəliliyini artıraraq məlumatların şəffaflığını yaxşılaşdırır, eyni zamanda müəssisələrin də xidmət səviyyəsini yük-səltməyə kömək edir [3]. Qabaqcıl təcrübələrdə keyfiyyətli, təhlükəsiz və səmərəli rəqəmsal transformasiya, eləcə də bu sahədə resurslardan effektiv istifadə innovasiyaların inkişafında hərəkətverici qüvvə hesab olunur. Ölkələr rəqəmsal xidmətlərin genişləndirilməsi və elektron hökumətin inkişafı vasitəsilə səmərəliliyin və şəffaflığın artırılmasına nail olmuşlar.

İqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyası son illərdə Azərbaycan Respublikasının da qarşısında duran prioritet məsələlərdən birinə çevrilmişdir. Ölkədə rəqəmsallaşma, informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində yeni infrast-

ruktur quruculuğu, müasir texnologiyaların tətbiqi və modernizasiyası sahəsində mühüm işlər görülmüşdür. İqtisadiyyatın və dövlət idarəetməsinin səmərəliliyinin, informasiya təhlükəsizliyinin və vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə İKT infrastrukturunun əsasını təşkil edən genişzolaqlı internet şəbəkəsinin inkişafı, "Hökumət buludu" (G-Cloud), "Böyükhəcmli məlumatlar" (Big Data), "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) kimi rəqəmsal təşəbbüslər həyata keçirilir. Azərbaycanın regionda rəqəmsal mərkəzə çevrilməsi istiqamətində ardıcıl islahatlar aparılır.

Hazırda genişzolaqlı internet şəbəkəsi ölkənin bütün ərazisində tətbiq olunur, o cümlə-dən özəl sektorun fəaliyyəti üçün səmərəli hesab edilməyən ucqar məntəqələrdə də rəqəmsal infrastruktur qurulur, dövlət şirkətləri vasitəsilə müasir xidmətlər təqdim edilir, cəmiyyətdə müvafiq sahədə vərdişlər formalaşdırılır. Dövlət "Böyükhəcmli məlumatların" (Big Data) ölkə üzrə əsas təminatçısı olmaqla yanaşı, mövcud infrastrukturun və məlumatların qorunması üzrə kibertəhlükəsizlik çağırışlarını prioritetləşdirir. Bu sahədə işləyən xidmət operatorları rəqəmsal transformasiya, kibertəhlükəsizlik üçün kritik infrastruktur və məlumat təminatçısı rolunu yerinə yetirirlər.

Təhlillər göstərir ki, hazırkı mərhələdə rəqəmsal xidmət sahələrinin təyinatı üzrə idarə edilməsinin mühüm strateji əhəmiyyəti vardır. Sahəvi rabitə operatorları zəruri infrastruktur və məlumat təminatçısı funksiyasını yerinə yetirərək, rəqəmsal cəmiyyətin, o cümlədən innovasiya nəhənglərinin fəaliyyət göstərdiyi texnologiya bölgələrinin təşəkkülünə mühüm töhfə verir.

Rəqəmsal transformasiya sahəsində həyata keçirilən dövlət siyasəti üzrə idarəetmə, əlaqələndirmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, kommersiya fəaliyyəti ilə yanaşı, dövlət və ictimai əhəmiyyət daşıyan funksiyaların effektiv həyata keçirilməsini tələb edir.

Cənab Prezident İlham Əliyev ölkədə müasir telekommunikasiya və rəqəmsal arxitektura quruculuğunun idarə olunması, eləcə də müxtəlif sahələrdə rəqəmsal xidmətlər və həllər üzrə platformanın inkişaf etdirilməsi sahəsində işlərin effektiv əlaqələndirilməsi məqsədilə 27 aprel 2021-ci il tarixli fərman imzalamışdır [2].

Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra yeni iqtisadi şəraitdə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna keçid dövründə dövlət aparatının, dövlət idarəetmə sisteminin yenidən qurulması və dövlət qulluğunun formalaşması mərhələsinə keçilmiş, zəruri islahatlar həyata keçirilmişdir. İslahatların tətbiq olunmasında Ümummilli Lider Heydər Əliyevin 1996-ci il tarixli «Hüquqi islahatlar komissiyasının yaradılması haqqında» Sərəncamını və 1998-ci il tarixli «Dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında» fərmanlarını xüsusilə qeyd etmək lazımdır.

Azərbaycanın iqtisadi, siyasi, sosial, hüquqi sahələrində əsaslı dəyişikliklər aparılmış hakimiyyət sistemində, mülkiyyət münasibətlərində yenidənqurma prosesi getmiş, müasir dövlət idarəetmə sistemi formalaşmışdır.

Ölkəmizdə, həmçinin dayanıqlı rəqəmsal infrastrukturun qurulması istiqamətində işlər uğurla davam etdirilir. Bu istiqamətdə atılan ən mühüm addımlardan biri ölkəmizi qlobal İnternet şəbəkəsinə qoşan "AzerTelecom" şirkəti tərəfindən reallaşdırılan "Azerbaijan Digital Hub" proqramıdır. Proqram üç əsas blokdan - "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsi çərçivəsində Asiya və Avropa arasında Azərbaycan vasitəsilə qlobal fiber-optik infrastrukturun yaradılması, "Google", "Amazon", "Alibaba", "Tencent", "Apple", "Netflix", "Facebook", "Microsoft", "Baidu" və digər dünya provayderləri üçün qlobal Data Mərkəzin yaradılması, Azərbaycanda və bütövlükdə regionda rəqəmsal ekosistemin formalaşdırılması kimi bloklardan ibarətdir.

"Rəqəmsal İpək Yolu" layihəsi təkcə Azərbaycana deyil, həm də qitələri birləşdirən yeni telekommunikasiya dəhlizinin keçəcəyi ərazilər vasitəsi ilə Avropa və Asiya ölkələrinə də inkişaf üçün imkanlar yaradır. Ümumilikdə, proqramın həyata keçirilməsi Azərbaycanın təkcə Cənubi Qafqaz üçün deyil, həm də Yaxın

Şərq, Orta Asiya və Cənubi Asiya üçün daha geniş mənada rəqəmsal xidmətlər mərkəzi olmasına imkan verəcəkdir. Yeni İnternet mübadiləsi nöqtəsi olaraq, London, Frankfurt, Sofia, İstanbul, Moskva, Amsterdam və Dubay kimi daha inkişaf etmiş mərkəzlərlə yanaşı, Bakı 1,8 milyard insanın müxtəlif rəqəmsal xidmətlərə çıxışını yaxşılaşdıracaq.

Rəqəmsal texnologiyaların geniş tətbiqi vətəndaşların müxtəlif sosial xidmətlərə asan çıxışını da təmin edir. Artıq respublikamızda "myGov" şəxsi kabinet əsaslı elektron hökumət portalında istifadəçi sayı 700 mini keçib. Hazırda inteqrasiya olunan sistemlərlə birlikdə "myGov"da 710 xidmətə giriş təmin edilir. 2021-ci ildə "myGov"a COVID-19 vaksin və immunitet sertifikatları inteqrasiya edilmişdir. Bununla da vətəndaşların şəxsi kabinetlərində yerləşdirilmiş sənədin QR kodunu oxutdurmaqla COVID-19 pasportu tələb olunan qurum və müəssisələrə rahat daxil ola bilməsi təmin olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" tərəfindən yaradılmış "Rəqəmsal icra hakimiyyəti" portalı istifadəçilərinə təqdim olunmuşdur.

Hazırda respublikamızda rəqəmsal idarəçilik sahəsində yaxşı nəticələr qazanan qurumlardan biri də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir. Belə ki, nazirliyin 170 xidmətindən 105-nin elektron şəkildə, o cümlədən 44-nün proaktiv formada göstərilməsi təmin edilir. Proaktiv xidmətlər vasitəsilə 233 mindən çox, o cümlədən 2021-ci ilin 9 ayında 107 min pensiya, müavinət, təqaüd təyinatı elektron qaydada həyata keçirilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vətəndaşlara xidmətləri müxtəlif elektron platformalar üzərindən təqdim etdilməsi təqdirəlayiqdir. Dövlət başçısının 5 sentyabr 2018-ci il tarixli Fərmanı ilə yaradılan "e-sosial.az" portalı vətəndaşlara 100-dən çox sosial xidmət növündən çevik rejimdə yararlanmalarına şərait yaradır. Yalnız cari ildə "e-sosial.az" portalına 7 milyon 400 min müraciət qeydə alınıb. Nazirliyin "e-Hökumət" portalına yerləşdirilmiş xidmətlərinə isə cari ilin əvvəlindən 11,5 milyon müraciət edilib. Həmçinin, nazirliyin fəaliyyət sahələri üzrə 30 növ "e-arayış" xidməti də vətəndaşların istifadəsindədir. Son təqvim ilində həmin xidmətlər vasitəsilə 465 min e-arayış verilib, 31 qurumla informasiya bazalarının inteqrasiyası təmin edilib. Həmin qurumlar tərəfindən cari ildə nazirliyin informasiya bazalarına edilmiş sorğu sayı 86 milyonu ötüb. Onu da qeyd etmək lazımdır ki, 2021-ci ilin 9 ayı ərzində 108 min şəxsə avtomatik qaydada sosial sığorta nömrəsi verilib və onların adına fərdi hesab açılıb. Bu elektron xidmət cəmi iki ildir ki, fəaliyyətdədir və artıq 320 min elektron fərdi hesabın açılması təmin edilmişdir. Qeyd olunan nazirlik tərəfindən fərdi məşğulluq proqramları da artıq e-qaydada tərtib olunur. Mühüm elektron platforma kimi, "Əmək münasibətləri və məşğulluq" altsistemi (ƏMAS) yaradılır. ƏMAS bütün əmək münasibətlərini məşğulluq, əmək və məşğulluğa nəzarət, hesabatlılıq və təhlil funksional istiqamətlərini özündə birləşdirəcək. "Məşğul şəxslərin reyestri", "BACAR", virtual informasiya resursu, "Elektron əmək birjası və yarmarkası" sistemi də önəmli e-yeniliklər sırasındadır. Bundan başqa, "Virtual DOST mərkəzi" platforması da hazırlanma mərhələsindədir.

Qeyd etməliyik ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə müəyyən edilmiş vəzifələrin icra edilməsi məqsədilə "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi" (bundan sonra – Strateji Yol Xəritəsi) hazırlanmışdır. Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ciilədək strateji baxış və tədbirlər planı, 2025-ciilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir. Strateji Yol Xəritəsində 2020-ci ilədək müəyyən edilmiş məqsədlərə çatmaq üçün 3 strateji hədəf və 10 prioritet müəyyən edilmişdir. Strateji Yol Xəritəsində innovasiyaların tətbiqinin

genişləndirilməsi üçün səmərəli mexanizmlərin yaradılması və inkişaf etdirilməsi nəzərdə tutulur. Azərbaycanın ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası, sosial və iqtisadi fəaliyyətin yeni formalarının təşəkkül tapması, informasiya və bilik bazarının yaradılması, iqtisadiyyatın müxtəlif sahələrində səmərəliliyin artırılması, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsi və ümumilikdə İKT-nin inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Hazırkı güclü tərəf və imkanlarla Azərbaycanın 2025-ci ilədək telekommunikasiya sektorunun perspektivinə baxışı ölkənin telekommunikasiya və informasiya texnologiyaları infrastrukturunu gücləndirmək, bu sahədə göstərilən xidmətləri genişləndirmək və bütün tərəfləri bu xidmətlərdən istifadəyə təşviq etməkdən ibarətdir. Bu baxışın davamı kimi 2025-ci ildən sonrakı dövrdə gündəlik həyatda istifadə olunan xidmətlərin geniş tətbiqi nəticəsində regionun aparıcı texnologiya əsaslı ölkəsinə çevrilmək əsas prioritetlərdən biridir. Bu məqsədlə, ölkədə, ilk növbədə, geniş əhatə dairəsinə malik yüksəksürətli genişzolaqlı infrastrukturun inkişaf etdirilməsi planlaşdırılır. Bu məqsədə nail olmaq üçün aşağıda göstərilən üç strateji hədəflərə çatmaq planlaşdırılır:

1. İdarəetmə strukturlarının təkmilləşdirilməsi və İKT-nin gücləndirilməsi;
2. Sahibkarlıq subyektlərinin fəaliyyətində məhsuldarlığın və əməliyyat səmərəliliyinin artırılması;
3. Hökumətin və sosial mühitin rəqəmsallaşdırılması.

Strateji Yol Xəritəsi çərçivəsində görüləcək tədbirlər üzrə tələb olunan investisiya məbləği və gözlənilən nəticələr cədvəlinin 2.4. bəndindəki fəaliyyət Dövlət qurumlarının elektron xidmətlərinin təkmilləşdirilməsi məsələsini əhatə edir.

Strateji Yol Xəritəsinin əsas məqsədi ölkəmizdə dövlət sektorunun səmərəli fəaliyyət göstərməsi, əhalinin sosial-iqtisadi həyat səviyyəsinin yüksəldilməsi, səhiyyənin, təhsilin, maliyyənin, ümumiyyətlə iqtisadiyyatın rəqəmsallaşdırılması üçün İKT infrastrukturunun inkişafı və təkmilləşdirilməsi, ölkənin İKT sənayesinin potensialının artırılmasıdır. Bundan əlavə, strateji məqsədlərə aşağıdakılar da daxildir:

- İKT sahəsinin strukturunun və normativ-hüquqi bazasının təkmilləşdirilməsi yolu ilə dövlət tənzimləməsinin təkmilləşdirilməsi;
- İKT-nin tətbiqi üçün genişzolaqlı internet xidmətləri infrastrukturunun əhatə dairəsinin genişləndirilməsi;
- Cəmiyyətin İKT xidmətlərinə tələbatının təmin edilməsi;
- Real sektorda və bütövlükdə cəmiyyətdə İKT-dən istifadənin genişləndirilməsi;
- İKT sahəsində rəqabətqabiliyyətli, ixracyönümlü və innovativ iqtisadi potensialın gücləndirilməsi;
- "Elektron hökumət"in əhatə dairəsinin genişləndirilməsi, elektron xidmətlərin sayının və keyfiyyətinin artırılması, onların avtomatlaşdırılmış interaktiv xidmətlər şəklində həyata keçirilməsi;
- Dövlət idarəçiliyinin bütün səviyyələrində və yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqinin genişləndirilməsi;
- İqtisadiyyatın müxtəlif sahələri, həmçinin, şəhər və kənd yaşayış məntəqələri arasında İKT-dən istifadədə rəqəmsal fərqliliyin azaldılması;
- Yüksəkixtisaslı İKT mütəxəssislərinə artan tələbatın təmin edilməsi;
- Milli mədəni irsin qorunması, təhsil, səhiyyə, mədəniyyət sahələri üzrə geniş istifadə üçün təyin edilmiş elektron resursların inkişaf etdirilməsi;
- İnformasiya təhlükəsizliyi üzrə ümummilli hazırlıq və maarifləndirmə səviyyəsinin artırılması;
- ÜDM-in tərkibində İKT-nin xüsusi çəkisinin artırılması;
- İKT sahəsində yerli proqram vasitələrinin və texnoloji avadanlıqların istehsalının təşkili və inkişaf etdirilməsi;

- Regionlarda, kəndlərdə, ucqar yaşayış məntəqələrində tələblərə uyğun FTT-X və ya LTE mobil genişzolaqlı internet xidmətlərinin təmin edilməsi;
- Liberal bazar prinsipləri əsasında ədalətli rəqabət mühitinin yaradılması, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinin və prosedurlarının müəyyənləşdirilməsi;
- Dövlət idarəçiliyində və sosial mühitdə rəqəmsal texnologiyaların istifadəsinin genişləndirilməsi;
- İKT-nin köməyi ilə qərarların qəbul edilməsində cəmiyyət üzvlərinin daha fəal iştirakının təmin edilməsi.

Ümumiyyətlə, informasiya texnologiyaları dövlət xidmətlərinin göstərilməsinin keyfiyyətini yüksəltmək imkanı verir. Bir çox alim, doktorant və namizədlər dövlət qulluğunda informasiya texnologiyalarından istifadənin perspektivlərini müzakirə edirlər. Məsələn, hüquq elmləri namizədi N.M.Antoşina. "İnformasiya texnologiyalarının dövlət qulluğunda tətbiqi və istifadəsi perspektivləri" məqaləsində vətəndaşların məlumat əldə etməsinin təmin edilməsi prosedurunun müəyyənləşdirilməsinə yanaşmanın mürəkkəbliyi haqqında ətraflı yazır.

Digər müəllif İjuninov yazır: "...bu mövzunun aktuallığı idarəetmə proseslərində informasiyalaşdırmanın mühüm rolu ilə bağlıdır. Müasir dünyada həyatın müxtəlif sahələrində informasiya texnologiyalarından istifadənin rolu danılmazdır. Bu sahələrdən biri də dövlət idarəetmə sistemidir" [5].

Nəticə: Araşdırmadan əldə edilən nəticələri ümumiləşdirərək belə bir qənaətə gəlmək olar ki, müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı və onun insan fəaliyyətinin bütün sahələrinə nüfuz etməsi, bu texnologiyalardan innovativ idarəetmə üsullarına əsaslanan idarəçilikdə də səmərəli istifadə olunması zərurətini yaradır. Beləliklə, rəqəmsal texnologiyaların dövlət idarəçiliyində tətbiqini – idarəetmədə keyfiyyətin artırılmasında, şəffaflığın və informasiya təhlükəsizliyinin qorunmasında, göstərilən xidmətlərdə vətəndaş məmnunluğunun təmin olunmasında əsas amillərdən hesab etmək olar.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi, Bakı:-65s. https://mincom.gov.az/upload/files/e173f90753e30a9674e76ba8f46c341a.pdf
2. İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 27 aprel 2021-ci il, https://president.az/az/articles/view/51299
3. Murtəza Həsənoğlu, Azərbaycanda dövlət idarəçiliyi sahəsində innovativ islahatlar və rəqəmsallaşma (Digitallaşma), 11 Aralık, 2022 https://kafkassam.com/murt%C9%99za-h%C9%99s%C9%99noglu-az%C9%99rbaycanda-dovl%C9%99t-idar%C9%99ciliyi-sah%C9%99sind%C9%99-innovativ-islahatlar-v%C9%99-r%C9%99q%C9%99msallasma-digitallasma.html.
4. Mübariz Abdullayev, https://www.yeniazerbaycan.com/Analitik_e61934_az.html.
5. Ижунинов М.А., Струнин Д.А., Антипко А.В. Информационные технологии в об-ласти государственной службы, Текст: непосредственный, Молодой ученый, 2022, №16(411), с.26-28.


***Açar sözlər:*** *dövlət idarəçiliyi, adminstrasiya, rəqəmsal texnologiya, dövlət qulluğu*

**Elvin Azizbayov**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Head of the Department of Intelligent Systems Control, Ph.D. in Physical and Mathematical Sciences, Associate Professor***

**Gulnar Mirzayeva**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Intelligent Systems Control, Ph.D. in Mechanic, Associate Professor***

# THE ROLE OF DIGITAL TECHNOLOGIES IN PUBLIC ADMINISTRATION

## ABSTRACT

The purpose of the article is to research the role of digital technologies in public administration. Our state has achieved significant progress in all areas of public administration in a short period of time. Thus, as a result of the reforms, the Republic of Azerbaijan has formed an effective public administration system capable of addressing the challenges encountered by the dynamically developing state at a high level. Following the successful reforms, the formation of the “Electronic Government” in Azerbaijan is regarded as an example of this. State institutions have already started to use information systems and online electronic services. A TIER III-level data center of the Republic of Azerbaijan, compliant with ISO 20000 and ISO 27001 standards, has been established for the first time in the South Caucasus region. According to the sustainability of the projects, the development of "Electronic government" in the country, ensuring the transition to "digital government," optimization of state expenditures for the creation and provision of information technologies of state institutions, electronic services, ensuring the organization of information systems' activities of high-quality, stable, and secure infrastructure based on more modern standards for the unrestricted use of these opportunities by citizens, and for the purpose of applying "Cloud" technology, on June 3, 2019, measures were taken in the field of the creation of "Government cloud" (G-cloud) and provision of "Cloud" services decree was also signed. This decree was implemented in accordance with subsection 2.4.5 of the Action Plan of the "Strategic Roadmap for the Development of Telecommunications and Information Technologies in the Republic of Azerbaijan. It was approved by Decree No. 1138 of the President of the Republic of Azerbaijan, dated December 6, 2016.

***Keywords:*** *management, public administration, digital technology, civil service*

**Эльвин Азизбеков**

***Заведующий кафедрой Управления интеллектуальными системами Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по физико-математическим наукам, доцент***

**Гюльнар Мирзоева**

***Доцент кафедры Управления интеллектуальными системами Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по математике, доцент***

# РОЛЬ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ

## РЕЗЮМЕ

Основная цель статьи исследовать роль цифровых технологий в государственном управлении. Азербайджанское государство за короткий срок добилось значительных успехов во всех областях государственного управления. В результате определенных реформ в Азербайджанской Республике сформировалась эффективная система государственного управления, способная на высоком уровне выполнять задачи, стоящие перед динамично развивающимся государством. Примером этого является формирование «Электронного правительства» в Азербайджане. Государственные учреждения уже начали использовать информационные системы и онлайн-электронные услуги. Впервые в регионе Южного Кавказа TIER III Создан центр обработки данных уровня Азербайджанской Республики, соответствующий стандартам ISO 20000 и ISO 27001. Для устойчивости проектов, развития «Электронного правительства» в стране, обеспечения перехода к «цифровому правительству», оптимизации государственных расходов на создание и предоставление информационных технологий государственных учреждений, электронных услуг, обеспечение организации деятельности информационных систем в качественной, стабильной и безопасной инфраструктуре на основе более современных стандартов для свободного использования этих возможностей гражданами и с целью применения «облачных» технологий, 3 июня 2019 года проведены мероприятия в области создания «Государственного облака» (G-cloud) и оказания «облачных» услуг. Также был подписан Указ, который был реализован в соответствии с подпунктом 2.4.5 Плана действий «Стратегической дорожной карты по развитию телекоммуникаций и информационных технологий в Азербайджанской Республике», утвержденного Указом Президента Азербайджанской Республики №1138 от 6 декабря 2016 года.

***Ключевые слова:*** *государственное управление, администрация, цифровая технология, государственная служба*

UOT 342

**FƏXRƏDDİN NAĞIYEV**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquq" kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru, Əməkdar müəllim*

*e-mail: faxraddin53@gmail.com*

# 1948-1953-cü İLLƏRDƏ QƏRBİ AZƏRBAYCANLILARIN ÖZ TORPAQLARINDAN DEPORTASİYASI: TARİXİ KÖKLƏRİ VƏ SİYASİ-HÜQUQİ NƏTİCƏLƏRİ

Müstəqil Azərbaycanda milli dövlət quruculuğu prosesi ağır-ağır, lakin inamla davam edir. Bu prosesin özəlliyi onun daimi xarakterli olmasındadır. Mərhələlər, hadisələr bir-birini əvəz edir, hər biri özü ilə yeni vəzifələr gətirir, yeni icraçılar meydana çıxır, dəyişməyən isə bir şeydir: müstəqilliyimizin daimi, əbədi olması haqqında Ulu Öndər Heydər Əliyevin illər əvvəl dediyi və dövlətçiliyimizin məhək daşına çevrilmiş, azərbaycanlıların çox-çox nəsilləri üçün fəaliyyət proqramına çevrilmiş vəzifələrin ən yüksək səviyyədə və səmərə ilə yerinə yetirilməsi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü ili Heydər Əliyev ili elan etməsi bütün Azərbaycan vətəndaşlarının, hansı dövlətə mənsub olmasından asılı olmayaraq özünü azərbaycanlı sayan hər bir kəsin ürəyindən olmuşdur. Heydər Əliyev o nadir şəxslərdəndir ki, adı təkcə yubileydən yubileyə, əlamətdar hadisələrlə bağlı yad edilmir. Bu adı hər kəs daim minnətdarlıq hissi ilə xatırlayır, müstəqil bir dövlətin vətəndaşı olduğu üçün qürur hiss keçirdiyinə görə özünü ona borclu sayır. Bununla belə, bu da təkzibedilməz faktdır ki, əgər Heydər Əliyev dağılamaq, yox olmaq təhlükəsi ilə üz-üzə dayanmış Azərbaycanı hissə-sissə yığaraq yoxdan bir dövlət yaratdısa, onun siyasi varisi olan İlham Əliyev bu Azərbaycanı hər bir azərbaycanlının fəxr etdiyi, dünyanın iri güclərinin hesablaşdığı, Avropanın təhlükəsizliyində əhəmiyyətli söz sahibi olan, regionun ən qüdrətli bir dövlətinə çevirdi.

Bu günlər ölkəmizin hər yerində, dünyanın bir çox güşələrində Heydər Əliyevin xatirəsi anılır, barəsində kitablar yazılır, xatirəsinə həsr olunmuş tədbirlər keçirilir. Bununla əlaqədar qeyd etmək yerinə düşərdi ki, əslində Ümummilli Liderin belə tədbirlərə heç bir ehtiyacı yoxdur. Amma bir həqiqət budur ki. Heydər Əliyev irsinin öyrənilməsi, təbliğ edilməsi onu öyrənənlər və öyrədənlər üçün son dərəcə vacibdir. Təkzibedilməz həqiqətdir ki, son nəticədə təbliğ olunanların müsbət nümunələri təbliğ edənlərə keçir, onların fəaliyyətində özünü bu və ya digər formada göstərir. Bu baxımdan Azərbaycan dövləti, azərbaycançılıq ideyası mövcud olduqca Heydər Əliyev irsinə müraciətlər də olunacaq, o öyrəniləcək, təbliğ ediləcək və insanların yeni-yeni nəsilləri bu ideyaları yeni tarixi reallıqlara uyğun olaraq tətbiq edərək özləri də zənginləşəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son dövr fəaliyyəti, xüsusən onun 44 günlük Vətən müharibəsindən sonrakı çıxışları, xarici və yerli mətbuata müsahibələri zamanı Qərbi Azərbaycan torpaqlarının azərbaycanlıların qədim və tarixi yurd yeri olması və onların mütləq öz tarixi vətənlərinə qayıdacağı barədə bəyanatları [1] bu gün o qədər də dərindən öyrənilməmiş bir məsələni də aktuallaşdırır. Bu, Heydər Əliyevin azərbay-

canlıların öz tarixi vətənlərindən deportasiyası haqqında olan ideyaları, çıxışları, müraciətləri və onların məntiqi nəticəsi olan 1997-ci il dekabr ayının 19-da imzaladığı "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" [3] Fərmanıdır.

Xalqımızın özünüdərki, özünütanıması, "biz kimik, haradan gəlib haraya gedirik" tipli suallara birmənalı cavab üçün bu Fərman xüsusi əhəmiyyət kəsb edir.

Həqiqət belədir ki, həmin fərman əsrlər boyu xalqımıza qarşı aparılan ayrı-seçkilik siyasətini dövlət səviyyəsində ifşa etmiş, onun təşkilatçılarını ilk dəfə olaraq rəsmi şəkildə öz adları ilə adlandırmışdır.

Bütün tarixi mənbələrdən məlumdur ki, indiki ərazilərdə tarixən Ermənistan adlı dövlət mövcud olmamışdır. Bununla belə, əsrlər boyu işğal etdiyi xalqların təbii sərvətlərini, elmi-intellektual potensialını və mədəni nailiyyətlərini istismar edərək onların hesabına dünya xalqları və dövlətləri içərisində "mən də varam" – deyərək yaşayan imperiya Rusiyası üçün erməni dövlətinin yaranması həyati zərurət idi. Heç zaman zülmə baş əyməmiş, azadlığını hər şeydən üstün qiymətləndirən Qafqaz xalqlarını öz tabeliyində saxlamaq, eləcə də Avropanın qərbindən Uzaq Şərqə qədər böyük bir ərazidə özünü inamlı hiss edən, başçıları və adları, idarəetmə sistemləri dəyişsə də, mahiyyəti sabit qalan türk dövlətlərini zəiflədərək öz təhlükəsizliyini təmin etmək məqsədi güdən Rusiya üçün erməni kartı bu mənada əvəzolunmaz vasitə idi.

**Bir ifadənin izi ilə.** Bu ona görə belə idi ki, özlərinin də etiraf etdiyinə görə etnogenezində Çinin şimal-şərq hissəsində yaşamış, özlərini "poşa" adlandırdıran qaraçılardan tutmuş qədim Hindistanın "toxunulmazlar" adlandırılan kastalarına qədər geniş spektrli etnik qrupların iştirak etdiyi bir xalq [4, s.12] öz mövcudiyyətini mərdliklə qoruya bilmədiyi üçün hər cür rəzilliyə hazır olmuş, böyük dövlətlərin əlində alət, "ov tulası" kimi istifadə edilməyi həmişə özlərinə şərəf sanmışlar, həm də yaşamaqları üçün yeganə vasitəyə çevirmişdir. Qeyd etmək yerinə düşərdi ki, hələ sovet dövründə, Ermənistanda Sovet hakimiyyəti qurulmasının 50 illiyi ilə əlaqədar Ermənistan SSR Elmlər Akademiyası tərəfindən fundamental əsər kimi hazırlanaraq Akademiyanın "Luys" (İşıq) nəşriyyatında çap edilmiş "Erməni xalqının tarixi" adlı kitabda ermənilərin özlərinə verdikləri bu ad Azərbaycanın xüsusən ermənilərin kompakt yaşadıqları ərazilərə yaxın olan yerli türk xalqlarının dilində də işlənməkdədir. Azərbaycan dilinin izahlı lüğəti bu sözü belə təqdim edir: "Poşa isim. köhn. Əxlaqsız, pozğun, tərbiyəsiz adam". Daha sonra bu sözə nümunə olaraq M.F.Axundzadənin məşhur komediyasından misal gətirilir: Şərəfnisə: Parijdə sənin kimi oğlan bu poşaların əlindən sağ qurtara bilərmi ki, qayıdıb gələndən sonra adam kimi durub-otura [2, s.616]. Yeri gəlmişkən, böyük dramaturqun təbirincə desək, Parijdə poşaların söz sahibi olması məsələsi də ermənilərin və onların Avropadakı havadarlarının bu günkü münasibətlərinə də kifayət qədər işıq salmış olur.

**Çar Rusiyasının Qafqazda ilhaqçılıq siyasəti və erməni məsələsi.** XIX əsrin əvvəllərindəki Rus-fars, ondan bir qədər əvvəlki Rus-Osmanlı müharibələri nəticəsində Qafqazın cənub ətəklərinə sahiblənən Rusiya, yerli xanları öz itaətində saxlamaq, onları öz tarixi qohumlarının qədim və nüfuzlu dövlətlərindən olan İran və Osmanlı dövlətlərinin təsirindən qorumaq üçün Böyük Pyotrun vəsiyyətlərinə əməl edərək, İran körfəzinə və Hind okeanına çıxmağın zor olduğunu görsə də, heç olmazsa, Cənubi Qafqazda möhkəmlənmək üçün Qara dənizdən Xəzərə qədər olan məsafədə təbii sərhədlər boyu xaçpərəstlərdən ibarət mühafizə zolağı yaratmağa başladı. Bu məqsədlə İrandan ermənilər, Rusiyadan rəsmi dini təriqət olan pravoslavlıqdan fərqləndiyinə görə təqib edilən dini təriqətlərin nümayəndələri həmin ərazidə yerləşdirilməyə başladı. Azərbaycan ərazisində ilk erməni və rus (molokan, baptist və s.) kəndləri belə yaranmağa başladı. Çox

uzaqgörən bu siyasətin reallaşması üçün hökumət tərəfindən yeni köçürülmüş şəxslərə hər cür şərait yaradılırdı. Onlar vergilərdən azad olunur, qeyri-məhdud torpaq sahələrinə yiyələnir, dinc vaxtda belə silah saxlamaq haqqı qazanırdılar. Hər bir təsərrüfata dövlət tərəfindən at, inək, digər təsərrüfat vasitələri verilirdi. Bu adamlar həm də gələcəkdə Qafqaz ərazisində ilk rus kazak dəstələrinin əsasını qoyurdular.

Bu proseslərdə vaxtilə İran ərazisində yaşamış ermənilərə xüsusi rol ayrılırdı. Həm də düşünülmüş şəkildə işlər elə qurulurdu ki, ermənilərin köçürülməsi nəticəsində yerli azərbaycanlı əhali sıxışdırılır, hətta bəziləri təngə gələrək daha rahat həyat şəraitini təmin etmək məqsədilə ev-eşiklərini ataraq İrana və Türkiyəyə köçürdü.

1828-ci il oktyabrın 1-də Rusiyanın İrandakı səfiri A.Qriboyedov Culfadan Qafqaz canişini, Qafqazdakı rus ordusunun baş komandanı İ.F. Paskeviçə yazdığı məktubunda ermənilərin köçürülməsi nəticəsində Naxçıvan vilayətində yerli əhalinin daha çox narahat olduğunu bildirərək, burada əhalinin az, həm də yoxsul olduğunu, gəlmə ermənilərin burada digər yerlərdə olduğundan rahat yaşadığını göstərir, eyni zamanda yerli əhali olan tatarların (azərbaycanlıların) buraya gətirilməsindən yüksək dərəcədə narahatlıq duyduğunu yazırdı [3, s.12].

Bir dövlət məmuru kimi öz ölkəsinin işğalçılıq və ilhaqçılıq siyasətini səylə yerinə yetirsə də, A.S. Qriboyedov humanist insan və şair kimi azərbaycanlılara öz simpatiyasını gizlətmirdi. Məktuba Naxçıvan vilayətinə yeni köçürülmüş, həmçinin əvvəllər burada yaşayan erməni və müsəlman ailələrinin sayını göstərən cədvəl əlavə edərək, səfir, müsəlmanların nə qədər sıxışdırıldığına diqqət yetirməyi xahiş edirdi. Cədvəldən məlum olur ki, əvvəllər Nehrəm, Qaraxanbəyli, Kuntan, Ərəzin, Güznüt kəndlərində bir nəfər də erməni yaşamadığı halda indi bu kəndlərdə 200 nəfərə yaxın erməni yerləşdirilmiş, həm də onlar üçün ərazinin köklü xalqlarının heç vaxt malik olmadığı münbit şərait yaradılmışdır. Naxçıvan şəhərinin özünə daimi yaşamaq üçün o qədər erməni gətirilmişdir ki, artıq onların sayı yerli azərbaycanlı əhalinin sayını üstələyir. Buraya ermənilərə olan nifrət və kin nəticəsində onlarla bir yerdə yaşamaq istəmədiyindən öz doğma yurd yerlərini tərk edənlərin sayını da əlavə etsək, artıq burada erməni əhalinin sayca üstünlük təşkil etdiyini görərik. Bu uyğunsuzluqlara diqqəti çəkən səfir nəticədə sakinlərin öz təsərrüfatlarından, dövlət xəzinəsinin isə sakinlərdən heç bir gəlir götürə bilməyəcəyini göstərirdi. Səbəb: gəlmə ermənilərdən altı il ərzində hökumətin heç bir vergi almayacağı, həmin vergilərin də əlavə mükəlləfiyyət kimi yerli müsəlman əhalinin üzərinə qoyulmasıdır. [3, 577].

A.S. Qriboyedovun bildirdiyinə görə yerli əhalidə ermənilərə nifrət və ikrah hissi o qədər güclüdür ki, Gürcüstanda olduğu kimi burada da çar hökumətinin ermənilərə havadarlığından təngə gəlmiş yerli əhali öz ev-eşiyini ataraq doğma yurdlarını tərk edir. Ermənilərin zorla kəndin yaxınlığında yerləşdirilməsindən narazı qalan Sədərək adlı böyük yaşayış məntəqəsi sakinlərinin bir qismi gəlmə ermənilərin də əvəzindən vergi verməyə razılaşmayaraq öz evlərini tərk edib kəndin yaxınlığındakı dağlara çəkilərək didərgin düşmüşlər. Rus hökumətinin buradakı nümayəndəsi isə həmin hadisəni iranlıların təhriki ilə əlaqələndirməyə çalışmışdır.

Yerli əhali, xüsusən mənafeləri zərər çəkmiş mülkədarlar arasında sakitliyi bərpa etmək üçün rus səfiri iki təklif irəli sürür: İlk olaraq tezliklə beş yüzə qədər yeni gəlmiş erməni ailəsini Dərələyəzə göndərmək təklif edilir. Ona görə ki, orada ermənilər üçün yer də hazırdır, qış üçün evlər hazırlamağa da daha əvvəllər burada yerləşdirilmiş ermənilər söz verirlər. Hər üç-dörd azərbaycanlı ailəsi müqabilində bir erməni ailəsi yerləşdirməyi təklif edən səfir ermənilərin göstəriləndən çox yerləşdirilməsinin yerli əhali arasında əvvəlki İran hakimiyyətinə meylin artmasına səbəb ola biləcəyini, həm də bu hadisənin xarici qəzet-

lərdə əks olunaraq Rusiyanın nüfuzuna xələl gətirə biləcəyini göstərir. Məktubda belə bir qorxu ifadə olunur ki, ‘‘son nəticədə bizə axıra qədər sədaqətli olmayan erməni əvəzinə yüzlərlə və minlərlə sakini itirə bilərik”.

Həmin məktubda səfir yerli azərbaycanlı əhalini ələ almaq üçün hökumətin bir neçə nəfərə vəzifə verərək maaş təyin etməsini təklif edir və incə siyasətçi kimi imperiyanın əsas dayaqları olan “bəy və xanların hakimiyyətinin əlindən alınıb əvəzində xalqa yad qanunların dolaşıqlığının verilməsini” tənqid edir. ‘‘Bizə inanıb öz vətəninə arxa çevirənlərə kömək etməməyimiz adamların bizə inamının itməsinə səbəb olur’’ [3, 578]. Göründüyü kimi, dövr dəyişsə də, siyasət və münasibətlər dəyişilməyib.

Çar Rusiyasının həmin dövrdə xarici işlər naziri olmuş qraf K.V.Nesselroda yazdığı məktubların birində yenə həmin məsələyə toxunaraq A.Qriboyedov yazırdı: ‘‘Bəzən sizin vəzifəli bir rus məmuru ilə yerli bəylərdən birinə bir xələt göndərməyinizin təsiri qoşun göndərilməsindən, ciddi cəzalardan, and içdirilməsindən və dicər məcburiyyətlərdən çox olur’’ [3, 583]. Bu məktub rus hökumətinin Qafqazda yürütdüyü müstəmləkəçilik siyasətini həmin siyasətin müəlliflərindən və icraçılarından birinin dili ilə ifşa etdiyi üçün xüsusilə əhəmiyyətlidir.

Sovet hökuməti çar Rusiyasının Qafqaz siyasətinin davamçısı kimi. Çox təəssüflər olsun ki, çar Rusiyasının bu siyasəti sovet hakimiyyəti illərində də davam etmişdir. Dövlətin formasından asılı olmayaraq mərkəzi hakimiyyət və idarəetmə orqanları tərəfindən ölkənin əhalisini təşkil edən bütün xalqlara bərabər münasibət göstərilməsi, onların mili mədəniyyətinin inkişafının təmin edilməsi dövlətin inkişaf və tərəqqisinə dəlalət edir. Hansısa bir xalqın, etnik qrupun digərlərindən fərqləndirilməsi, onlara qarşı cəza aləti kimi istifadə edilməsi isə artıq dövlətdə siyasi böhran baş verdiyinin əlamətidir. Çar Rusiyası, onun hüquqi varisi olan SSRİ dövləti daim belə bir böhran içində yaşamışdır. Düzdür, cəmiyyətin obyektiv inkişaf qanunları nəticəsində həmin dövlətlər də inkişaf etmiş, müəyyən nailiyyətlər qazanmışlar. İnqilabi ruhun mövcudluğu, xarici müdaxilələrə qarşı müharibələr, vahid ideologiya belə dövlətləri uzun müddət qoruya bilmişdir. Lakin nəticədə siyasi böhran öz sözünü demiş, hər iki dövlət məhv olaraq tarixin arxivinə verilmişdir.

Sovet İttifaqında etnik deportasiyaların tarixi Stalinin ölkəyə rəhbərlik etdiyi dövrlə bağlıdır. İkinci Dünya Müharibəsi ərəfəsində başlayan etnik deportasiyalar müharibə illərində ən faciəli həddə çatmış, müharibə başa çatdıqdan sonra da davam etmişdir. Buna misal olaraq 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistandan deportasiyasını göstərmək olar. Bu deportasiyanı, məsələn, çeçenlərin, inquşların, balkarların, qaraçayların və digər xalqların Qazaxıstana və Orta Asiyaya deportasiyası ilə müqayisə etmək çətindir, çünki azərbaycanlıların deportasiyası köçürülən əhalinin qonşu respublikanın köklü əhalisinə birləşməsini nəzərdə tuturdu. Deportasiya olunanlar azərbaycanlılar müharibə dövründə olanlar kimi xüsusi rezervasiyalarda deyil, normal şəraitdə, köklü əhali ilə yanaşı yaşamalı, həmin ərazilərin infrastrukturlarında məskunlaşmalı idilər. Bununla belə, bu, deportasiya idi, çünki bu, köçürülənlərin əksəriyyətinin iradəsi və istəyi əleyhinə həyata keçirilirdi, çünki bu, on minlərlə insanın adi, adət olunmuş həyat ritmini pozur, onları yeni şəraitə uyğunlaşmağa məcbur edirdi.

Bu layihənin təşəbbüsü Ermənistan rəhbərliyindən gəlmiş, Moskva tərəfindən dəstəklənmişdi. Ermənistan rəhbərliyinin dəfələrlə SSRİ Xalq Komissarları Sovetinə etdiyi müraciətlər nəticəsində 1945-ci ildə Ermənistanın sovetləşməsinin 25-ci ildönümünə həsr olunmuş “Xarici ermənilərin Sovet Ermənistanına qaytarılması tədbirləri haqqında” qərar qəbul edildi.

Öz növbəsində, kütləvi repatriasiyanın həyata keçirilməsinin mümkünlüyü Ermənistan SSR rəhbərliyinə respublikanın sərhədlərini təkcə Türkiyənin deyil, həm də qonşu Azərbaycanın əraziləri hesabına genişləndirməyə ümid etmək

üçün əlverişli əsas verirdi. 1945-ci ilin sonunda Türkiyənin və Azərbaycanın ixtiyarında olan "dədə-baba torpaqlarının" geri qaytarılması arzusunun həyata keçirilməsinin mümkün olmadığı məlum olanda Ermənistan rəhbərliyi yeni ərazilər əsasında dəvət edilmiş repatriantları yerləşdirmək üçün heç bir yeri və qidalandırmaq üçün heç bir imkanının olmadığı barədə Moskvaya şikayətlər göndərməyə başladı.

Siyasi böhranın əlaməti olan xalqlara ögey münasibət həm də özünü onda göstərirdi ki, 1946-cı ilin 19 oktyabrında SSRİ Ali Sovetinin Rəyasət Heyəti xarici ölkələrdə daimi yaşayan erməni millətindən olan şəxslərin "öz tarixi vətənlərinə" – Sovet Ermənistanına qayıtması barədə fərman verir. Əgər azərbaycanlılara qarşı "deportasiya" tətbiq edilirdisə, ermənilər üçün "repatriasiya" yaradılırdı. İkincinin reallaşması üçün birinci vacib idi. Bütün bunlar azmış kimi SSRİ Nazirlər Sovetinin qərarı ilə ermənilər məhz azərbaycanlıların tarixən yaşadıqları yerlərə köçürülürdü. Azərbaycan xalqına qarşı yönəlmiş qatı cinayət aktı olan həmin qərarın məntiqi nəticəsi çox-çox illər sonra SSRİ dövlətinin dağılması oldu. Lakin azərbaycanlılara olan olmuşdu. Kəskin iqlim dəyişikliyinə məruz qalan, fiziki və mənəvi zərbələrə dözə bilməyən on minlərlə insan məhv olmuşdu. Öz yurd-yuvasına, doğulduğu yerə hamıdan çox bağlı olan azərbaycanlılar belə vəziyyəti əsil faciə kimi qarşılayırdılar. Onların bir hissəsi xeyli məhrumiyyətlər bahasına öz dədə-baba torpaqlarına qayıtsa da, öz qüdrətli himayədarlarına arxalanan erməni millətçilərinin yaratdığı şərait nəticəsində oralarda möhkəmlənə bilmədilər. Tarixin ən böyük deportasiyalarından biri beləcə başa çatdı.

Yeri gəlmişkən, bu layihənin əsl məqsədi xaricdə yaşayan ermənilərin köçürülməsindən daha çox köklü azərbaycanlı əhalinin öz tarixi vətənlərindən didərgin salınması idi. Bunu belə bir faktla sübuta yetirmək olardı ki, məlum qərarda əvvəlcə 300 mindən çox erməninin repatriasiyası nəzərdə tutulurdusa, 1946-cı ildə Sovet Ermənistanına cəmi 90 min erməni qayıtmışdı [6, s.2]. Göründüyü kimi, o zaman ermənilərin öz "tarixi vətənlərini" genişləndirmək ümidlərinin doğrulmaması Ermənistandakı azərbaycanlı azlıqların alçaldılması və hüquqlarının pozulması ilə kompensasiya etmək ideyası ilə əvəzləndi. Azərbaycan əhalisinin Ermənistandan Azərbaycana köçürülməsi problemi belə yarandı.

Dağlıq Qarabağ uğrunda növbəti cəhdlər – SSRİ-nin dağılmasının əsası, yaxud sirkə tünd olduqda öz qabını dağıdır. Moskvadakı havadarlarının köməyi ilə mərkəzdəki və xarici ölkələrdəki erməni və ermənipərəst lobbilərinə arxalanan erməni – daşnaklar müharibədən sonrakı illərdə də vaxtaşırı azərbaycanlıların Ermənistan SSR-dəki öz tarixi etnik ərazilərindən sıxışdırılıb çıxarılması, ilk növbədə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə çıxış edirdilər. 40-cı illərin ortalarında Mərkəzin, bilavasitə Moskvadakı erməni lobbisinin lideri və rəhbəri A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda kommunistlərin fəal iştirakı ilə gizli "Qarabağ hərəkatı" və "Qarabağ komitəsi" yaradılmışdı. 1945-ci ilin payızında Ermənistan rəhbərliyi partiya elitasının köməyi ilə növbəti dəfə mərkəzi partiya rəhbərliyi qarşısında Azərbaycan torpaqlarının bir hissəsinin – Dağlıq Qarabağ bölgəsinin Ermənistana birləşdirilməsi haqqında məsələ qaldırdı. Ermənistan K(b)P MK və XKS Stalinə müraciət edərək heç bir elmi, tarixi əsası olmadan bildirdilər ki, Dağlıq Qarabağ ərazisi guya iqtisadi cəhətdən daha çox Azərbaycanla deyil, Ermənistanla bağlıdır. Mərkəzdə bu məsələyə dərhal münasibət bildirildi. Belə ki, Moskvanın nümayəndəsi ÜİK(b)P MK katibi ermənipərəst K.M.Malenkov 28 noyabr 1945-ci ildə Azərbaycan K(b) MK-nın 1-ci katibi Mircəfər Bağırova məktub yazaraq bu məsələ haqqında - ermənilərin istəyi ilə bağlı məlumat verir və onun rəyini bilmək istəyir.

Cavab məktubunda Azərbaycan rəhbərliyi bu iddiaların heç bir elmi, tarixi əsası olmadığını və Dağlıq Qarabağın Azərbaycanın qədim torpağı olduğunu sanballı faktlarla

sübut edirdi. M.Bağırov bildirirdi ki, əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Şuşadan başqa, Yuxarı Qarabağ ərazisi o halda Ermənistana verilə bilər ki, Zəngəzur bölgəsi bütövlüklə Azərbaycana qaytarılsın. Buna isə nə Moskva, nə də Ermənistan razı olmadı, çünki Türkiyə ilə Azərbaycan hesabına yaradılmış "erməni ərazisi" bununla ləğv edilərdi.

Sovet hakimiyyəti dövründə ilk dəfə olaraq Azərbaycan rəhbərlərindən M.Bağırov itirilmiş tarixi Azərbaycan torpaqları problemini önə gətirir. O, K.M.Malenkova cavab məktubunda bildirir ki, Dağlıq Qarabağın Ermənistana güzəştə gediləcəyi halda müxtəlif zaman kəsiyində Ermənistana, Gürcüstana və Rusiyaya verilmiş bir çox tarixi Azərbaycan torpaqlarının onun özünə qaytarılması zərurəti meydana çıxacaq.

M.Bağırov yaxşı bilirdi ki, ermənilər buna razı olmayacaq və həm ermənilərin, həm də havadarlarının – Moskvanın planı pozulacaq. Moskva problemin nə qədər təhlükəli olduğunu anlayaraq ermənilərin iddialarını rədd etdi. Bununla yanaşı, Moskva Türkiyə ilə sərhəddə ermənilərin mövqeyini möhkəmləndirmək üçün işə başladı. Hələ 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək keçirilmiş Tehran konfransı zamanı ermənilər SSRİ xarici işlər naziri V.Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsini xahiş etmişdilər. V.Molotov İ.Stalinin razılığını aldıqdan sonra İranda yaşayan ermənilərin Ermənistan SSR-ə köçürülməsinə icazə verilmişdi. 1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi haqqında qərar qəbul etdi.

Lakin Molotovun təklifi Ermənistan rəhbərliyinin Stalinin razılığa gəlməsindən sonra xeyli dəyişdirildi. Qərara alındı ki, köçürüləcək ermənilər Ermənistanda yerləşdirilsinlər, əvəzində isə burada yaşayan azərbaycanlılar Azərbaycana köçürülsünlər. Bununla da Mərkəzin rəhbərliyi və xeyir-duası ilə azərbaycanlıların Ermənistan SSR ərazisindəki ata-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı. Köçürülmənin həyata keçirilməsi 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür–Araz ovalığına köçürülməsi haqqında" qəbul etdiyi 4083 saylı qərarla rəsmiləşdirildi [8]. Daha sonra bu prosesin həyata keçirilməsini sürətləndirmək üçün həmin qərara əlavə edilən konkret tədbirlər planı hazırlandı. Bu qərara görə, 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər olmaqla 100 min azərbaycanlı 1948-1950-ci illərdə "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi. Qərarın on birinci maddəsində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlıların köçürülməsi ilə bağlı onların boşaltdıqları tikililərdən, yaşayış evlərindən xarici ölkələrdən Ermənistan SSR ərazisinə köçürülən erməniləri yerləşdirmək üçün istifadə etsinlər. O zaman Ermənistan SSR-də öz ata-baba torpaqlarında yarım milyondan çox azərbaycanlı yaşayırdı. Köçürülən əhali əsas istehsal vasitələrini – kənd təsərrüfatı maşınlarını, avadanlığı, canlı və mexaniki qoşqu vasitələrini, ev heyvanlarını və s. apara bilərdi.

Azərbaycan SSR Nazirlər Soveti 1948-ci il fevralın 2-də və aprelin 14-də köçürməni qısa müddətdə başa çatdırmaq üçün xüsusi qərarlar qəbul etmiş, xüsusi köçkünlər komissiyası yaradılmışdı. Komissiya üzvlərinə göstəriş verilmişdi ki, camaat arasında izahat işi aparsınlar və bu siyasi kampaniya tezliklə başa çatdırılsın. Komissiyanın tərkibinə Ermənistanda yaşayan və rəhbər vəzifələr tutan azərbaycanlılar da daxil idilər.

Azərbaycan SSR və Ermənistan SSR rəhbərləri arasında (respublika əhalisinin rəyi nəzərə alınmadan) əldə olunmuş razılaşmaya görə, 1949-cu ildə 15.713 nəfər və 3818 təsərrüfat köçürülməli idi. Lakin SSRİ Nazirlər Soveti Azərbaycan SSR və Ermənistan SSR hökumətləri arasında əldə edilmiş razılaşmanı təsdiq etməyərək Ermənistan SSR-dən Azərbaycana əvvəlcədən müəyyənləşdirilmiş 40.000 nəfər azərbaycanlının dərhal köçürülməsini tələb

etdi. Azərbaycan hökuməti isə bunun bir dəfəyə mümkünsüz olduğunu bildirirdi. Müraciətdə həm də 1949-1950-ci illər üçün əvvəllər müəyyənləşdirilmiş köçürülmə planlarına yenidən baxılması və "Ermənistan SSR-dən olan azərbaycanlı kolxozçuların və digər əhalinin 10 min nəfərinin 1949-cu ildə, 15 min nəfərinin isə 1950-ci ildə köçürülməsinə icazə verilməsi" xahiş edildi.

Ermənistan SSR-dən köçürülən azərbaycanlılar Azərbaycan SSR-in Kür-Araz ovalığında və digər rayonlarda yerləşdirilirdilər. Bütün bunlar az imiş kimi, deportasiya edilmiş azərbaycanlılar Kür-Araz ovalığında yaşayan ermənilər tərəfindən də sıxışdırılaraq təqib olunurdular. Bu cür böhtanlar nəticəsində ermənilər Azərbaycan SSR Şamxor (Şəmkir) rayonuna deportasiya edilmiş 150 nəfər azərbaycanlının öz təsərrüfatları ilə birlikdə rayondan sürgün edilməsinə nail olmuşdular. Ermənilərin Azərbaycanda özbaşınalığına respublika rəhbərinin gözü qarşısında şərait yaradanlar respublikanın güc nazirliklərində, partiya və sovet orqanlarında rəhbər vəzifə sahibi olan Markaryan, Qriqoryan, Yemelyanov, Borşov və başqaları idi. Onlar deportasiya olunan azərbaycanlıların ermənilərin sıx yaşadıqları Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində və onun ətrafındakı rayonlarda yerləşdirilməsinə imkan vermiş M.Bağırova saxta, böhtan xarakterli arayışlar təqdim edərək deportasiya olunan azərbaycanlıların ermənilər tərəfindən sıxışdırılmaları barədə kollektiv imza ilə göndərdikləri məktub və ərizələri "millətçilik", "siyasi təxribat" kimi xarakterizə edir, respublika rəhbərini buna inandırırdılar.

Beləliklə, 1949-cu ildə Ermənistan SSR ərazisindən qədim Qərbi Azərbaycan torpaqlarından 15.276 nəfər adam Şimali Azərbaycana deportasiya edildi. Deportasiya olunanlar Şimali Azərbaycanın Saatlı, Mirbəşir (Tərtər), Göyçay, İmişli, Əli-Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Jdanov (Beyləqan), Yevlax, Ucar, Bərdə, Gədəbəy rayonlarında yerləşdirildi. Ən çətini, dözülməzi ondan ibarət idi ki, dağlıq və dağətəyi ərazilərdə dünyaya göz açıb yaşayan bu əhali indi birdən-birə çox isti olan Kür-Araz ovalığına köçürülürdü.

Sonrakı ildə – 1950-ci il martın 14-də və avqustun 25-də daha 3419 təsərrüfatın və 14.361 nəfər azərbaycanlının Ermənistan SSR-dən Azərbaycana köçürülməsi haqqında Azərbaycan və Ermənistan respublikalarının hökumətləri birgə qərar qəbul etdilər.

Köçürülənlərin sosial və məişət problemlərinə vaxtında diqqət yetirilmirdi. Bunun nəticəsi idi ki, 1950-ci ildən başlayaraq Kür-Araz ovalığından əhalinin bir hissəsi Ermənistana – öz keçmiş ata-baba yerlərinə qayıtmağa başlamışdı. Deportasiya olunanların digər bir qismi isə Azərbaycan hökumətinə və Mərkəzə şikayət məktubları göndərir və onlara olan diqqətsizlikdən, qeyri-insani münasibətdən söz açırdı. Lakin onların şikayət və tələblərinə cavab verən tapılmırdı. Əksinə, 1950-ci ilin payızında Ermənistan SSR ərazisindən Azərbaycana yeni 2907 təsərrüfat və 12.332 nəfər adam köçürülmüşdü.

Bütün bunlara baxmayaraq, erməni millətçiləri, onların himayədarları SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli qərarlarının icra olunması vəziyyətindən narazılıq edirdilər. Nəticədə, onların təkidi ilə 28 fevral 1951-ci ildə SSRİ Nazirlər Soveti "1951-ci ildə köçürülmə planı haqqında" 605 saylı tam məxfi olan yeni qərar qəbul etməli olmuşdu. Qərarda köçürülmənin sürətləndirilməsi və qısa müddətdə başa çatdırılması tələbləri öz əksini tapmışdı.

Beləliklə, 1948-1953-cü illərdə Ermənistan SSR ərazisində yaşayan 150 min nəfər azərbaycanlı öz doğma torpaqlarından zorla köçürüldü. Bu, mərkəzin və Ermənistan hökumətinin qeyri-insani fəaliyyətindən, qatı millətçilikdən, şovinist münasibətindən başqa bir şey deyildi. Bu, adi insan hüquqlarının kobudcasına pozulması, anti-demokratik hərəkət idi.

Köçürülmə sonrakı illərdə də davam etdi. 1954-1956-cı illərdə 1316 təsərrüfat, 5876 nəfər azərbaycanlı Ermənistandan deportasiya olunmuş, etnik təmizləmənin növbəti mərhələsi keçirilmişdi.

Onu da təəssüflə qeyd edək ki, deportasiya olunanların hər üç nəfərindən biri yeni şəraitə, isti və quru iqlimə, adi məişət təminatsızlığına dözə bilməyib, aclıq və xəstəlikdən ölürdü.

Beləliklə, 1948-1956-cı illərdə Stalin-Beriya-Mikoyan üçlüyünün məkrli, antiazərbaycan siyasəti və Azərbaycan rəhbərliyinin qətiyyətsizliyi nəticəsində Ermənistan SSR-də azərbaycanlıların sayı xeyli azaldı. Vaxtilə Vedi, Keşişkənd rayonlarının əhalisinin etnik tərkibinin 72 faizini azərbaycanlılar təşkil etdiyi halda, deportasiyadan sonra orada cəmi 15-17 faiz azərbaycanlı qalmışdı. Azərbaycanda isə əksinə, ermənilərin sayı artırdı. Azərbaycanın əsas iri şəhərlərində – Bakıda, Sumqayıtda, Gəncədə, Əli-Bayramlıda, Mingəçevirdə, Daşkəsəndə və s. şəhərlərdə ermənilərin sayının artması ilə yanaşı, erməni gizli təşkilatları da yaranırdı [6, s.6].

80-ci illərin sonunda isə soydaşlarımız Ermənistan SSR-dən sonuncu nəfərinədək zorla qovuldu və ermənilər tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə sona çatdırıldı.

Qeyd edilən məsələlərdə diqqəti çəkən amillərdən biri də ki, özünü SSRİ-nin hüquqi varisi elan etmiş Rusiya Federasiyası öz sələflərinin səhvlərinə də varis çıxır. Dağılmış SSRİ-nin bazasında Rusiyanın özü tərəfindən yaradılmış Müstəqil Dövlətlər Birliyinin üzvü olan dövlətlərə qarşı ayrı-seçkilik siyasəti aparılır. Məhz Rusiya qoşunlarının himayəsi ilə 1990-cı illərdən başlayaraq bir MDB üzvü digərinin ərazisinin 20 faizdən çoxunu işğal etmiş, əhalisinin bir milyondan çoxunu öz ölkəsində qaçqın və məcburi köçkünə çevirmişdi. Məhz Rusiya xüsusi xidmət idarələrinin ssenarisi və iştirakı ilə Azərbaycanda qanuni dövlət təsisatlarını qeyri-qanuni yollarla yıxmaq cəhdləri göstərilmişdir. Məhz Rusiya Müdafiə Nazirliyinin əli ilə 1990-cı illərin ikinci yarısında Ermənistana Azərbaycanla müharibə aparmaq, işğal edilmiş torpaqlarda öz hakimiyyətini möhkəmləndirmək, yerli əhalinin işğal edilmiş vətənlərinə qayıtmasının qarşısını almaq, tarixi Azərbaycan torpaqlarına dünyanın müxtəlif ölkələrindən, xüsusən Yaxın və Orta Şərq dövlətlərindən erməni əsilli əhalinin köçürülməsini və onların bu torpaqlarda məskunlaşmasını təmin etmək üçün hər cür şərait yaradılmış, təcavüzkar dövlətə əvəzsiz olaraq bir milyard dollarlıqdan çox ən müasir silahlar verilmişdir. Bu cür siyasət isə həmişə onu yaradan və icra edənlərin öz başında çatlamışdır.

Yazının əvvəlində adı çəkilən fərmana qayıdaraq qeyd etmək lazımdır ki, ‘‘deportasiya’’ latın sözü olub qovulma, sürgün deməkdir. Hüquqi anlamda sürgünün xüsusi növü kimi ilk dəfə 18-19-cu əsrlərdə bu günkü Ermənistanın strateji müttəfiqi və həmfikri olan Fransada tətbiq edilmişdir. Böyük Sovet Ensiklopediyasında faktiki olaraq deportasiyanın 1880-ci ildən tətbiq edildiyi göstərilir [9]. Keçmiş SSRİ-də Kommunist Partiyasının qeyri-məhdud hakimiyyəti zamanı o, müsəlman xalqlarına qarşı dəfələrlə tətbiq edilmişdir. Əgər çeçenlər, kalmıklar, krım tatarları, mesxeti türkləri, bir çox digər xalqlara qarşı deportasiya bir dəfə – bir günün içində tətbiq edilmişdirsə, azərbaycanlıların indi Ermənistan adlandırılan dədə-baba torpaqlarından rəsmi şəkildə deportasiyası axırıncı dəfə 1948-ci ildən başlayaraq düz qırx il – axırıncı azərbaycanlı oradan çıxarıldıqdan sonra başa çatmışdır. Həm də, fikir verin, deportasiya hüquqa və məntiqə zidd olaraq bir ölkə daxilində baş vermişdir. Bu da yalnız sovet gerçəkliyi şəraitində baş verə bilərdi.

**Deportasiya haqqında Fərman.** Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın faciəsinə düzgün qiymət ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti, Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən verildi. O, 1997-ci il dekabrın 19-da “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” fərman imzaladı. Bu fərmanla Ermənistan SSR ərazisində azərbaycanlılara qarşı tətbiq edilən etnik təmizləmə və soyqırımı siyasətinin mürtəce mahiyyəti dünya sivilizasiyasına çatdırıldı. Fərmanda deyilir:

"Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir" [3].

Fərmanla 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dövlət komissiyası yaradılması nəzərdə tutulur, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə bu fərmanın icrası ilə bağlı məsələləri həll etmək tapşırılırdı.

Bu Fərman xalqımızın tapdanmış haqqının bərpası yolunda çox mühüm bir addım kimi qiymətləndirilməli, növbəti addım həmin fərmana istinad edərək Ümummilli Liderin azərbaycanlıların deportasiyasına verdiyi siyasi qiyməti hüquqi qiymətlə möhkəmləndirmək olmalıdır.

Heydər Əliyev ideyaları yeni tarixi şəraitdə. İlk dəfə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra andiçmə mərasimində İlham Əliyev belə bir fikri vurğulamışdır ki, mənim bütün fəaliyyət proqramım Ümummilli Lider Heydər Əliyevin yarımçıq qalmış ideyalarının reallaşmasından ibarət olacaqdır. Bu gün dünya miqyasında öz xalqı tərəfindən sevilən, dəstəklənən siyasi liderlərin hamısından öndə olan Azərbaycan Prezidentinin son illərdəki uğurlu daxili və xarici siyasəti onun bu sözlərinin nə qədər uzaqgörənliklə deyildiyini bir daha sübut edir. On illər ərzində yığılıb qalmış problemlərin uğurlu həlli, xüsusən işğal altında olan torpaqlarımızın azad edilməsi üçün aparılan 44 günlük Vətən müharibəsi Azərbaycan tarixində tamamilə yeni bir dövrün təməlini qoydu. Bu dövrü xarakterizə edən amillərdən biri də Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıtması prosesinin başlanmasıdır.

Dövlət başçısı yanvarın 10-da ölkə telekanallarına müsahibəsində bu haqda növbəti açıqlamalar verərək bunları söyləyib: "Əlbəttə ki, qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıtmalıdırlar, bu, onların hüququdur, bütün beynəlxalq konvensiyalar bu hüququ onlar üçün tanıyır. Biz də Azərbaycan dövləti olaraq əlimizdən gələni etməliyik ki, bu hüququ təmin edək. Yenə də mən orada da İcmanın nümayəndələri ilə görüş zamanı demişdim ki, biz bunu sülh yolu ilə etmək istəyirik və əminəm ki, buna nail olacağıq. Deportasiya olunmuş azərbaycanlıların Qərbi Azərbaycana qayıtmaları ermənilərə problem yaratmayacaq. Çünki onların oraya qayıtmaları orada yaşayan

ermənilərin oradan çıxarılması demək deyil. Çünki o kəndlər boşdur və biz, əlbəttə ki, əlimizdə olan bütün imkanlardan istifadə edəcəyik. Necə ki, vaxtilə Qarabağ mövzusu bütün Azərbaycan xalqını birləşdirdi və biz istəyimizə nail olduq, eyni yanaşmanı burada da görməliyik. Mən bu barədə də fikirlərimi bildirmişəm. Yəni çox geniş proqram hazırlanır" - dövlət başçısı əlavə edib. Prezident deyib ki, bizim bütün proqramlarımız bir qayda olaraq icra edilir: "Biz heç vaxt reallaşması mümkün olmayan təşəbbüslərlə çıxış etmirik. Ona görə bu sahədə də artıq proqramın üzərində iş gedir. Əminəm ki, biz buna da nail olacağıq və tarixi ədaləti bərpa edəcəyik".

Bu günün reallığı ondan ibarətdir ki, ermənilər Azərbaycan ərazilərində rahat yaşamaq istəyirlərsə, o halda qərbi azərbaycanlıların, bu torpaqların əzəli sahiblərinin də öz yurdlarına qayıdışı təmin edilməlidir. Əgər ermənilər Xankəndidə yaşayacaqsa, təbii olaraq Ermənistandan deportasiya olunmuş soydaşlarımız da yurdlarına qayıtmalıdır. Bizim haqqımız həm də odur ki, ermənilər bölgəyə son iki-üç əsrdə gəlib, ancaq azərbaycanlılar indiki Ermənistan ərazisi olan Qərbi Azərbaycanda min illər boyu yaşayıblar. Söhbət 5 milyonluq Qərbi Azərbaycan kökənli insanlarımızdan gedir... [1].

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi. Azərbaycan qəzeti, № 5 (9172).11 yanvar 2023-cü il.
2. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. 3-cü cild. Bakı, "Şərq-Qərb", 2006.
3. Azərbaycan Respublikası Prezidentinin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanı. Azərbaycan qəzeti, 20 dekabr 1997-ci il.
4. Грибоедов А.С. Полное собрание сочинений. М.: Художественная литература, 1988
5. История Армянского народа, Ереван. Изд-во «Луйс», 1971.
6. Нифталиев И. "Историческая призма": 1948-1953. Неизвестные факты о депортации азербайджанцев из Армении. https://news.day.az/politics/541547.html
7. Paşasoy E. Prezident Qərbi Azərbaycana qayıdışın detallarını açıqladı - mühüm mesajlar. Yeni müsavat qəzeti. 12 yanvar 2023-cü il.
8. SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il 23 dekabr tarixli 4083 saylı qərarı.
9. https://bse.slovaronline.com/articles/Д/page-1.


***Açar sözlər:*** *deportasiya, milli məsələ, erməni məsələsi, müstəqillik, məcburi köçkünlər*

**Fakhraddin Nagiyev**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Law, Associate Professor, Ph.D. in Law*

# DEPORTATION OF WESTERN AZERBAIJANIS FROM THEIR HISTORICAL LAND IN 1948-1953: HISTORICAL ROOTS, AS WELL AS POLITICAL AND LEGAL CONSEQUENCES

## ABSTRACT

The article analyses December 19, 1997, Decree of the President of the Republic of Azerbaijan, "On the mass deportation of Azerbaijanis from their historical and ethnic lands to the territory of the Armenian SSR in 1948-1953". In the introduction part of the article, the contribution of the national leader Heydar Aliyev to preserving Azerbaijan's independence and territorial integrity is acknowledged, and the complex situation in the country in the 1990s is emphasized. Analyzing the political and historical foundations of the resettlement of Armenians from Iran to present-day Azerbaijan, the author reveals the purpose of the policy of Tsarist Russia to conquer the Caucasus and fortify it, as well as what role Russia assigned to Armenian settlers, referring to historical documents. Following that, the policies of the Soviet government and Tsarist Russia on the Armenian issue are compared. The facts of the violent expulsion of Azerbaijanis from their motherland under the command of the Dashnak-Bolshevik authorities of Soviet Armenia are revealed. Particular emphasis is given to the Decree of the President of the Republic of Azerbaijan dated December 19, 1997, "On the mass deportation of Azerbaijanis from their historical and ethnic lands on the territory of the Armenian SSR in 1948-1953." At the end of the article, the author, referring to the speech of the President of Azerbaijan, Mr. Ilham Aliyev, expresses his confidence that the descendants of the people who were expelled from their native lands in the middle of the last century as a result of the collision of the leaders of the Soviet Union and Armenia, will return to their native places, and this fully corresponds to international law.

***Keywords:*** *Deportation, national question, the Armenian question, independence, forced migrants*

**Фахраддин Нагиев**

***Доцент кафедры Права***
***Академии Государственного Управления***
***при Президенте Азербайджанской Республики,***
***доктор философии по праву***

# ДЕПОРТАЦИЯ ЗАПАДНЫХ АЗЕРБАЙДЖАНЦЕВ СО СВОЕЙ ИСТОРИЧЕСКОЙ ЗЕМЛИ В 1948-1953 гг.: ИСТОРИЧЕСКИЕ КОРНИ И ПОЛИТИКО-ПРАВОВЫЕ ПОСЛЕДСТВИЯ

## РЕЗЮМЕ

В научной статье анализируется Указ Президента Азербайджанской Республики от 19 декабря 1997 года «О массовой депортации азербайджанцев с их историко-этнических земель на территории Армянской ССР в 1948-1953 годах». В ее вводной части раскрывается роль Общенационального лидера Гейдара Алиева в деле сохранения независимости и территориальной целостности Азербайджана, подчеркивается сложная обстановка в 1990-х годах в стране.

Анализируются политические, исторические основы переселения армян из Ирана на территорию нынешнего Азербайджана. Ссылаясь на исторические документы, автор раскрывает истинную сущность политики царской России по овладению Кавказом и по укреплению в этом регионе, а также роль, которую отводила Россия армянам-переселенцам.

В статье сравнивается политика Советской власти и царской России по армянскому вопросу. Приводятся факты насильственного изгнания азербайджанцев с их исконной родины в угоду дашнакско-большевистским властям Советской Армении. Особое место отводится Указу Президента Азербайджанской Республики от 19 декабря 1997 года «О массовой депортации азербайджанцев с их историко-этнических земель на территории Армянской ССР в 1948-1953 годах».

В завершении автор, ссылаясь на выступления Президента Азербайджана Ильхама Алиева, выражает уверенность в том, что потомки лиц, изгнанных с родных земель в середине прошлого века по сговору руководителей Советского Союза и Армении, вернутся в свои родные места и это вполне соответствует международному праву.

***Ключевые слова:*** *депортация, национальный вопрос, армянский вопрос, независимость, вынужденные переселенцы*

DOI:10.30546/dia.2.82.2023.303


UOT 342

**MAHİR TAĞIYEV**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*"Hüquq" kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru*

*e-mail: tmno@mail.ru*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA HÜQUQİ DÖVLƏT QURUCULUĞU

Məlum olduğu kimi, dünya ölkələrinin hüquq sistemlərində hüquqi tənzimetmənin iki əsas üsulundan istifadə edilir. Onlardan biri ondan ibarətdir ki, yalnız hüquqi sənədlərdə bilavasitə nəzərdə tutulan hərəkətlərin edilməsinə icazə verilir. Bu üsul «qanunla icazə verilməyən qadağandır» formulu ilə ifadə olunur. Digər üsul isə yuxarıda qeyd olunanın, demək olar ki, tam əksidir. Bu üsul «qanunla qadağan olunmayana icazə vardır» formulu ilə ifadə olunur. Sosializm dövründə hüquqi tənzimetmənin əsasən birinci üsulundan istifadə edilirdi. Dövlət və hüquq, dövlət və vətəndaş münasibətlərində üstünlük ənənəvi olaraq dövlətin tərəfində olduğundan sosializm dövründə hüquqi dövlət, demokratik cəmiyyət ideyaları reallaşması mümkün olmayan bir xülya olaraq qalırdı. Lakin hər bir tarixi zamanın öz ulduz dövrü, ulduz məqamı vardır. Azərbaycan xalqının həm sosializm dövründə, həm sonrakı dövrlərdə ulduz dövrləri və məqamları onun dahi oğlu, xalqımızın Ümummilli Lideri, Ulu Öndərimiz Heydər Əliyevlə bağlıdır.

İnsanların həyatında ulduz məqamları və anları o vaxt baş verir ki, xalqın önündə dahi, zəkalı və uzaqgörən şəxsiyyət dayanır. Məşhur avstriya yazıçısı Stefan Sveyq məhz belə məqamları və şəxsiyyətləri nəzərdə tutaraq yazırdı: "Əhəmiyyətli və unudulmaz məqamlar nadir hallarda olur. Tarix çox zaman salnamə yazanın ehtirassızlığı ilə minilliklər boyu davam edən nəhəng zəncirə həlqələri əlavə edərək faktı fakt arxasınca qeydə alır, çünki tarixin hər bir addımı hazırlıq tələb edir, hər bir həqiqi hadisə tədricən yetişir. Xalqı təşkil edən milyon insanlardan yalnız bir dahi meydana gəlir, hədər yerə keçmiş milyon saatlardan yalnız biri bəşəriyyətin əsil tarixi – ulduz saatı olur". [1; 3]. Stefan Sveyq qeyd edirdi ki, belə dahi meydana gəldikdə o əsrlər boyu yaşayır, ulduz məqamları baş verdikdə onlar gələcək dövrləri, əsrləri qabaqcadan müəyyən etmiş olurlar. Azərbaycan xalqının belə dahisi Heydər Əliyevdir, xalqın həyatının ulduz məqamları isə məhz bu əbədiyaşar böyük şəxsin adı ilə bağlıdır.

Heydər Əliyev hələ birinci dəfə respublikamıza rəhbərlik etdiyi dövrdə xalqın rifahını, onun dövlətçiliyini dərindən düşünərək nəinki həmin dövr üçün, ondan sonrakı onilliklər, yüzilliklər üçün çox əhəmiyyətli olan məsələləri həll etməyə çalışmış, xalqın gələcəyinin təmin edilməsinə yönəlmiş vacib tədbirləri həyata keçirmişdir. Bu tədbirlər sırasında ildən-ilə respublikadan kənara daha çox gəncin aparıcı ali məktəblərdə təhsil alması üçün göndərilməsi, respublikanın iqtisadi potensialının gücləndirilməsi, kənd təsərrüfatının, davamlı istehsal sahələrinin inkişaf etdirilməsi, iri sənaye obyektlərinin tikintisi və s. çoxsaylı tədbirləri göstərmək olar. Həmin dövrdə Heydər Əliyev tərəfindən görülmüş nəhəng işləri onun ikinci dəfə hakimiyyətə qayıdışı zamanı həyata keçirdiyi hüquqi dövlət quruculuğu prosesinin əsaslarının yaradılmasına hazırlıq, zəmin hesab etmək olar.

Hüquqi dövlət quruculuğunu şüar və arzu deyil, Azərbaycanın hərtərəfli inkişafının başlıca şərti hesab edən Heydər Əliyev bu quruculuğun gələcəkdə həyata keçirilməsinin

mümkünlüyünü öncədən görərək həmin prosesi reallaşdırmağa qadir olan kadr potensialının hazırlanmasına xüsusi önəm verirdi.

Bu gün Azərbaycan Respublikasının onun uzaqgörən, yüksək idarəetmə üslubuna malik, müdrik və qətiyyətli Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli dinamik inkişaf etməsinin, həyatın bütün sahələrində nailiyyətlərin əldə edilməsinin, düşmən üzərində möhtəşəm qələbə qazanılaraq torpaqlarımızın işğaldan azad edilməsinin, demokratik proseslərin möhkəmləndirilməsinin təməlində Heydər Əliyevin müəllifi olduğu hüquqi dövlət quruculuğu konsepsiyasının, sosial-iqtisadi inkişaf strategiyasının uğurla həyata keçirilməsi dayanır.

1991-ci ildə Azərbaycan Respublikasının yenidən müstəqillik əldə etməsilə Respublikamızda yeni dövlətin qurulması prosesi başlanılmışdır. Lakin 1993-cü ilin II yarısınadək olan dövrdə Azərbaycan Respublikası dövlətinin quruluşu prosesində irəliləyişlər əldə edilməmiş, qeyri sabit ictimai vəziyyət və hakimiyyət uğrunda kəskinləşməkdə olan mübarizə iqtisadi gərginliklə səciyyələnmişdir.

1993-cü ilin II yarımilliyindən vəziyyət dəyişməyə başlamışdır və bu, müasir Azərbaycan dövlətinin qurucusu cənab Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə əlaqədar olmuşdur. Azərbaycan dövlətçiliyinin dağılmaq təhlükəsi ilə qarşılaşdığı hədsiz çətin və mürəkkəb bir dövrdə xalqın tələbi və təkidi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Liderimiz müstəqil dövlət quruculuğu prosesinin reallaşdırılması üçün gərgin və ardıcıl fəaliyyətə başlamışdır. Müstəqil, hüquqi, demokratik, dünyəvi dövlətin qurulmasını özünün əsas məqsədi hesab edən Prezident Heydər Əliyev hakimiyyətə qayıdışının ilk günündən başlayaraq respublikamızda baş verən ictimai-siyasi və iqtisadi proseslərin müasir tələblərə uyğun olaraq hüquqi tənzimlənməsini dövlətin ali vəzifələrindən biri elan etmişdir. Bu isə onunla əlaqədar olmuşdur ki, hüquqi dövlətdə hüquq prioritet rola, mövqeyə malik olaraq, hamının və hər bir kəsin hüquq və azadlıqlarının təminatçısı kimi çıxış etməli idi.

Azərbaycan Respublikasının müstəqil, demokratik, hüquqi, dünyəvi, qanunun aliliyinə və vətəndaş cəmiyyətinə əsaslanan dövlətə çevirmək məqsədilə milli dövlət quruculuğu prosesinin həyata keçirilməsi üçün ilkin mərhələdə müvafiq şərait yaradılmalı idi. Buna görə də 1995-ci ilin ortalarına kimi əsas məqsəd respublikamızda dövlətçiliyin qorunub saxlanılmasından, ictimai siyasi sabitliyin bərqərar olmasından ibarət olmuşdur. Bu dövrdə respublikamızda güclü mərkəzi hakimiyyət qurulmuş, bunun üçün müvafiq qanunlar qəbul edilmiş, fərmanlar imzalanmış, hüquqi, iqtisadi, sosial və siyasi sahələrdə islahatların aparılması üçün hazırlıq işləri görülərək dövlət quruculuğu prosesinin surətləndirilməsi üçün zəmin yaradılmışdır.

Heydər Əliyevin dövlət idarəçiliyində, onun tərəfindən həyata keçirilən dövlət quruculuğu prosesində hüquqi vasitələr, hüquqi tənzimetmə idarəetmədə istifadə edilən bütün digər üsul və vasitələr içərisində prioritet xarakter daşımış və ön planda olmuşdur. Dövlət idarəetməsinin üsul və vasitələri içərisində hüquqi vasitələrə üstünlük verilməsi ənənəsi Heydər Əliyevin idarəçiliyində dövlət quruculuğu prosesi inkişaf etdikcə, sonrakı mərhələlərə keçdikcə daha da güclənmişdir.

Məlumdur ki, dövlətin idarə edilməsində müxtəlif üsul və vasitələrdən o cümlədən hüquqi tənzimetmədən istifadə edilir və sonuncunun cəmiyyətin idarə edilməsində nisbi əhəmiyyəti, insanların hərəkətlərinə və davranışlarına təsir edilməsində rolu dövlətin forma və quruluşundan, məqsədlərindən və mahiyyətindən asılı olaraq dəyişir. Demokratik mahiyyətli dövlətlərdə cəmiyyətin idarə edilməsində hüquqi tənzimetmənin əhəmiyyəti böyük olur, hüqüqi dövlət quruculuğu yolunu keçən dövlətlərdə və buna müəyyən qədər nail olmuş, hüquqi dövlətin əsasını və mühüm mexanizmlərini yaratmış dövlətlərdə isə cəmiyyətin, onun üzvlərinin davranışının idarə edilməsində hüquqi təsiretmənin əhəmiyyəti daha önəmli olur və dövlət idarəetməsinin üsul və vasitələri içərisində prioritet xarakter daşıyır.

Hüquqi dövlət quruculuğuna nail olmuş dövlətlərdə qanunun aliliyi təmin edilməklə bütün münasibətlərin fövqündə qanun dayanır. Hüquq cəmiyyətin idarə edilməsində aparıcı rol oynayaraq ictimai münasibətlərin tənzim edilməsinin əsas üsulu kimi çıxış edir, hüququn bütün sahələri, təsisatları və institutları cəmiyyətin normal fəaliyyətini təmin edən mühüm vasitə olaraq, ictimai münasibətlərin və proseslərin, ümumsosial tənzimləyicisi, dövlət idarəetməsinin ən əsas və zəruri funksiyalarını yerinə yetirir. Qüvvədə olan qanunlar xalqın və dövlətin maraqlarına əsaslanır və xidmət edir, onların reallaşması isə ədalətin həyata keçirilməsi kimi qəbul edilir. Hüquq ümumsosial təmzimləyici rolunu oynayaraq bütün cəmiyyət üzvlərinə, dövlət orqanlarına, qeyri-hökumət təşkilatlarına, siyasi partiyalara, dövlət və cəmiyyət qarşısında xidmətlərindən, tutduğu vəzifəsindən və sair asılı olmayaraq hamıya eyni dərəcədə aid edilir. «Hüquqi dövlətdə qanuna riayət edilməsi hər bir məmurun həyat kredosu olmalıdır» deyən Ümummilli Lider qanunların tələblərinə ciddi əməl edilməsini ilk növbədə öz ətrafında olan vəzifəli şəxslərdən, dövlət xadimlərindən, ümumilikdə, hər bir şəxsdən tələb edirdi.

Heydər Əliyevin hakimiyyətdə olduğu bütün dövrlər ərzində hüquqi tənzimetmə dövlət idarəetməsinin ən vacib və ən əhəmiyyətli üsulu funksiyalarını yerinə yetirmişdir. Hüquqi dövlət quruculuğunun, dövlət idarəçiliyinin həyata keçirilməsində hüquqi tənzimetməyə Ümummilli Liderimizin hədsiz böyük əhəmiyyət verməsini daha aydın müşahidə və təsəvvür etmək üçün bu sahədə onun bilavasitə rəhbərliyi və təşəbbüsü ilə həyata keçirilmiş , və uğurlu nəticələr vermiş islahat və tədbirlərin bir qismini nəzərdən keçirmək yerinə düşər.

Hüquqi, iqtisadi, sosial və siyasi sahələrdə köklü islahatların aparılması üçün zəmin yaradıldıqdan sonra, 1995-ci ildən başlayaraq Respublikamızda milli dövlət quruculuğu prosesində daha ciddi addımlar atılmışdır. Azərbaycan Respublikasının Prezidenti Cənab Heydər Əliyev «Yeni 2001-ci il, yeni əsr və 3-cü minillik münasibətilə Azərbaycan xalqına müraciəti»ndə demişdir: «Azərbaycan öz dövlət müstəqilliyini elan edərkən bəyan etmişdir ki, Azərbaycan demokratiya yolu ilə irəliləyəcək, ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi gedəcəkdir. Bunlar elan olunmuşdur. Ancaq təssüf ki, Azərbaycanın daxili vəziyyəti dediyim kimi çox gərgin olduğuna görə bunlar söz idi, əməli tədbirlər isə lazımi səviyyədə görülmürdü. Azərbaycanda müstəqil dövlətin təsisatlarının yaranması və dövlət quruculuğu prosesi 1995-ci ildə vüsət aldı. Bunun əsasını da Azərbaycanının qəbul etdiyi ilk konstitusiya təşkil edirdi. Ondan sonrakı dövrdə Azərbaycanda dövlətçilik möhkəmlənib, demokratik prinsiplər bərqərar olubdur. Demokratik hüquqi, dünyəvi dövlət quruculuğu prosesi uğurla, surətlə həyata keçirilir» [2].

Həmin dövrdə hüquqi dövlət quruculuğu prosesində iqtisadi islahatların həyata keçirilməsi mühüm əhəmiyyət kəsb etdiyindən onların reallaşdırılması üçün ilkin olaraq güclü hüquqi baza yaradılmağa başlanmış, zəruri normativ-hüquqi aktlar, o cümlədən özəlləşdirmə proqramının hazırlanması, aqrar islahatların əsasları, sovxoz və kolxozların islahatını, torpaq islahatını, sahibkarlığın inkişafını təmin edən, vergi sisteminin, bankların yaranmasını və fəaliyyətini tənzim edən qanunlar qəbul edilmişdir. Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq yeni çevik idarəetmə strukturunun yaradılması istiqamətində lazımi işlər görülmüş, fərmanlar və digər qanunverici aktlar qəbul edilmiş, bir çox nazirliklər, komitə və şirkətlər ləğv edilmişdir.

Dövlət quruculuğu prosesində, ictimai münasibətlərdə, həyatın bütün sahələrində baş vermiş dəyişikliklər yeni konstitusiyanın hazırlanmasını və qəbul edilməsini tələb edirdi. Köhnə konstitusiya artıq ictimai münasibətləri ləngidən, tərəqqinin inkişafının qarşısını alan amilə çevrilərək neqativ rol oynayırdı. O, xalqın hakimiyyətinin təmin olunması, ictimai tərəqqinin hüquqi formalarının demokratikləşməsinə əsas yaratmırdı. Konstitusiyada müəyyən qədər nəzərdə tutulmuş bəzi demokratik institut və prosedurlar faktiki olaraq hərəkətsiz

vəziyyətdə olaraq bürokratik idarəetmə metodlarının və ətalətin hökm sürdüyü bir şəraitdə demokratiyanın konservatizm qarşısında geri çəkilməsinə, qanunların ali hüquqi qüvvə hesab edilməməsinə və nəticədə hüquqi dövlət ideyasının, demək olar ki, tam inkar edilməsinə şərait yaradırdı. Bütün bunlara görə 1995-ci ilin əvvəllərində Azərbaycan Respublikasının Prezidenti, Ümummilli Liderimiz Heydər Əliyevin sədrliyi ilə konstitusiya komissiyası yaradılmış, komissiya tərəfindən ümumbəşəri ideya və dəyərləri özündə əks etdirən yeni Konstitusiya layihəsi hazırlanmışdır. Yeni Konstitusiyanın layihəsi 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi – referendumda qəbul edilmişdir [3].

Yeni Konstitusiya müstəqil Azərbaycan Respublikasının hüquqi, demokratik dövlət quruculuğu istiqamətində inkişafının hüquqi təsisatlarını, hakimiyyətin və dövlətin, idarəetmənin əsaslarını formalaşdıraraq və ən yüksək hüquqi qüvvəyə malik olmaqla respublikamızda hüquq sisteminin bünövrəsini yaratmışdır.

Yeni Konstitusiya qəbul edildikdən sonra islahatların aparılması sürətlənmiş, ictimai-siyasi, iqtisadi-sosial həyatın bütün sahələrini tənzimləyən yeni qanunlar hazırlanıb qəbul edilməsinə böyük ehtiyac yarandığından Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1996-cı ilin fevral ayında imzaladığı fərman ilə hüquqi islahatlar üzrə komissiya yaradılmışdır. Hüquqi islahatlar komissiyasının tərkibinə tanınmış alimlər, təcrübəli hüquqşünaslar, qanunvericilik sahəsində mütəxəssislər daxil edilmişdir. Hüquqi islahatlar komissiyası tərəfindən Avropanın aparıcı mütəxəssislərinin müsbət rəyini almış xeyli sayda qanun layihələri, o cümlədən «Konstitusiya məhkəməsi haqqında», «Məhkəmələr və hakimlər haqqında», «Polis haqqında», «Vəkillik sistemi haqqında» və sair qanunlar, Azərbaycan Respublikasının Mülki, Cinayət, Əmək, Mülki Prosessual, İnzibati Xətalar, Ailə, Gömrük, Vergi məcəllələri hazırlanaraq qəbul edilmişdir.

Heydər Əliyevin hüquqi dövlət quruculuğu prosesində, dövlət idarəçiliyində hüquqi tənzimetmənin mühüm əhəmiyyətli, önəmli olması onun hakimiyyətdə olduğu dövrdə ictimai həyatın bütün sahələri üzrə aparılan islahatların, dövlət quruculuğu prosesinin və idarəetmənin məhz qəbul edilmiş yeni Konstitusiya əsasında həyata keçirilməsi, cəmiyyətdə yaranan ictimai münasibətlərin sistemli şəkildə və hərtərəfli olaraq nizama salınması üçün çoxsaylı normativ-hüquqi aktların qəbul edilməsi ilə səciyyələnmişdir. Azərbaycan dövlətinin və cəmiyyətinin idarə olunması, ictimai münasibətlərin tənzim edilməsi Konstitusiya və onun əsasında qəbul edilmiş qanunlar, Respublika Prezidentinin fərmanları və Nazirlər Kabinetinin qərarları və digər normativ-hüquqi aktlar vasitəsilə həyata keçirilmişdir.

Dövlət quruculuğunun, dövlət idarəçiliyinin həyata keçirilməsində, ictimai həyatın müxtəlif sahələrinin tənzim edilməsində və cəmiyyətin ardıcıl olaraq inkişafının təmin olunmasında cənab Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq, ümumxalq səsverməsində qəbul edilmiş ilk milli Konstitusiyamızın, demokratik prinsiplər və beynəlxalq hüquq normalarının tələblərinə cavab verən yeni qanunlarımızın və Azərbaycan Respublikası Prezidentinin demokratik, hüquqi dövlət quruculuğu prosesinin sürətləndirilməsinə xidmət edən bir sıra fərmanlarının əhəmiyyəti xüsusilə önəmli olmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyası Respublikamızın demokratik hüquqi dövlət quruculuğu məqsədilə qəbul etdiyi strateji istiqamətin hüquqi təsisatlarını müəyyən edərək, həyata keçirilən islahatlar konsepsiyasının təməlini təşkil etmiş, cəmiyyətimizin inkişafının hüquqi əsaslarını formalaşdırmış, əsas insan hüquq və azadlıqlarını geniş şəkildə təsbit etməklə, onların təmin olunması üçün möhkəm zəmin yaratmışdır. Konstitusiyamızın müddəalarının həyata keçirilməsi, qanunun aliliyinin və demokratik təsisatların təmin olunması üçün hüquqi sahədə köklü islahatlar aparılaraq, yeni hüquq sistemi yaradılmışdır.

Hüquqi islahatlar çərçivəsində demokratik, hüquqi dövlət quruculuğu sahəsində islahatlar prosesinin həyata keçirilməsini, insan hüquq və azadlıqlarının qorunmasını reallaşdıran,

mükəmməl olaraq hazırlanmış qanunverici aktların qəbul edilməsi və təkmilləşdirilməsi daimi diqqət mərkəzində olmuşdur. Bu sahədə aparılmış işin miqyasını və əhəmiyyətini göstərmək üçün təkcə onu qeyd etmək kifayətdir ki, Konstitusiya qəbul edildiyi vaxtdan sonrakı beş il ərzində həyatın müxtəlif sahələrində ictimai münasibətləri tənzim edən minə yaxın qanun qəbul edilərək qüvvəyə minmişdir.

Dövlət quruculuğunda və dövlət idarəçiliyində hüquqi tənzimetmənin dolğun olaraq, boşluqlara yol vermədən, ictimai həyatın bütün tərəflərini və hər bir sahəsini əhatə etməklə həyata keçirilməsi üçün çoxsaylı qanunverici aktların qəbul edilməsi ilə yanaşı digər növ normativ-hüquqi aktlardan da geniş şəkildə istifadə edilmişdir.

Sahibkarlığın inkişafı dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri olduğundan bu prosesin təmin edilməsi üçün müvafiq hüquqi baza yaradılmaqla yanaşı sahibkarların qorunması, onların fəaliyyətinə əsassız müdaxilələrin qarşısının alınması və ölkədə iqtisadi münasibətlərə dövlət nəzarəti mexanizminin tənzim edilməsi üçün Prezident Heydər Əliyev tərəfindən «İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə» 17.06.1996-cı il tarixli [4], «Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında» 07.01.1999-cu il tarixli [5] və «Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında» 28.09.2002-ci il tarixli [6] fərmanlar imzalanmışdır.

Müstəqil məhkəmə hakimiyyəti sivil cəmiyyətin ayrılmaz tərkib hissəsi olduğundan məhkəmə-hüquq islahatı konsepsiyasının hazırlanmasına və həyata keçirilməsinə Ümummilli Liderimiz tərəfindən xüsusi fikir verilmiş, tərkibinə Apellyasiya və Kassasiya instansiyalarının daxil olduğu yeni üçpilləli məhkəmə sistemi yaradılaraq, 2000-ci ilin sentyabr ayından fəaliyyət göstərməyə başlamışdır. Hakimlərin demokratik prinsiplərlə, şəffaf prosedur əsasında, beynəlxalq standartlara uyğun olaraq, aşkarlıq şəraitində seçilməsi Respublikamızda müstəqil məhkəmə hakimiyyətinin formalaşmasına şərait yaratmışdır. Ədalət mühakiməsini həyata keçirən müstəqil və qərəzsiz hakimlər korpusunun formalaşdırılması cənab Heydər Əliyevin 01 dekabr 1998-ci il tarixli «Məhkəmələr və hakimlər haqqında» qanunun tətbiqi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə» Fərmanına əsasən Azərbaycan Respublikası Prezidenti yanında yaradılmış Məhkəmə-hüquq Şurası tərəfindən həyata keçirilmişdir [7].

Respublikamızda işgüzar və çevik idarəetmə strukturlarının yaradılması, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, eyni funksiyaları yerinə yetirən artıq strukturların ləğv edilməsi, hakimiyyət və idarəetmə orqanlarının səlahiyyətlərinin, funksional vəzifəsinin dəqiqləşdirilməsi və konkretləşdirilməsi istiqamətində də xeyli iş görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1998-ci il tarixli Fərmanı ilə Respublikanın idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyası yaradıldıqdan sonra bu sahədə fəaliyyət xüsusi ilə intensivləşmiş, ardıcıl və məqsədyönlü xarakter almışdır [8].

Heydər Əliyevin memarı olduğu müasir Azərbaycan dövlətində hüquq cəmiyyətin tənzimləyicisi rolunu yerinə yetirərək insanların davranışına bilavasitə idarəedici təsir göstərir. Hüquq cəmiyyəti idarəetmə vasitəsi olaraq, insanları müəyyən hərəkətlərə sövq edir, həvəsləndirir, onları gözlənilən və tələb olunan davranışa vadar etməklə, lazım gəldikdə məcburedici və məsuliyyət müəyyən edən vasitələrdən istifadə edir.

Müasir Azərbaycan dövlətində cəmiyyətin idarə edilməsində hüququn rolu daha da artır və bu qanuna uyğun proses yalnız cəmiyyət inkişaf etdikcə hüquqla tənzim edilən ictimai münasibətlərin yeni növlərinin yaranması və tənzimetmə predmetinin genişlənməsi və mürəkkəbləşməsi ilə əlaqədar deyildir. Hüququn əhəmiyyətinin və rolunun artması eyni zamanda demokratiyanın daha çox inkişafı, demokratiyanın prinsiplərinin, təsisatlarının və təminatlarının hüquqi normalarda daha geniş təsbit

olunması, insan amilinin ön plana çəkilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının real olması üçün onların təmin olunması proseduralarının təfsilatı ilə müəyyən edilməsi ilə əlaqədardır.

Demokratik inkişaf yolu keçən cəmiyyətdə və dövlətdə hüquq daha önəmli rol oynayaraq aparıcı idarəetmə vasitəsinə, sonradan isə hüquqi dövlət yaranmış olduqda hakim, hökmran qüvvəyə çevrilir. Hüququn təsiretmə obyekti getdikcə daha da genişlənir, onun obyektinə yeni yaranan və məzmunca yenidən formalaşan ictimai münasibətlər daxil olur. Dövlət hakimiyyətinin, onun struktur və orqanlarının fəaliyyəti hüququn obyekti olaraq, qanunla müəyyən edilən ciddi və dəqiq çərçivə ilə məhdudlaşdırılır. Hüquq idarəetmə vasitəsi olmaqla yanaşı idarəetmə subyektlərinin özlərini, onların statusunu, vəzifə və səlahiyyətlərini, idarəetmənin həyata keçirilməsi sərhədlərini və məhdudiyyətlərini müəyyən edir. Respublika Konstitusiyasının Azərbaycan dövlətinə həsr edilmiş 7-ci maddəsində müəyyən olunduğu kimi, Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Respublikanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

Hüquq vasitəsi ilə insanların davranışının formalaşması həyata keçirilir. Hüquq çoxtərəfli təsirə malik olmaqla insanların davranışını çevik şəkildə tənzim edir. Hüquq vasitəsilə idarəetmə, yəni ictimai münasibətlərə məqsədyönlü şəkildə təsiretmə, onları nizama salma və tənzim etmə hüquq sistemi ilə bütövlükdə, onun bütün sahələri ilə kompleks şəkildə və, eyni zamanda, hər bir hüquq sahəsi tərəfindən ayrılıqda həyata keçirilir. Hüququn müxtəlif sahələri özlərinə xas olan vasitə və üsullardan istifadə etməklə müvafiq nizama salma və tənzim etmə prosesini həyata keçirirlər.

Hüquq müasir dövrdə ictimai inkişaf proseslərinin idarə edilməsinin təsirli və əhəmiyyətli vasitəsi olaraq, dövlət ilə və onun fəaliyyəti ilə sıx bağlı olmaqla onlarla qarşılıqlı təsirə malikdir. Hüquq dövlətin quruluşunu və idarəetmə formasını rəsmiləşdirir və qanuniləşdirir. Hüquq ictimai münasibətləri tənzim edərək dövlətin funksiyalarını, onun qarşısında dayanan sosial-iqtisadi və ictimai-siyasi vəzifələri yerinə yetirir. İdarəetmə orqanlarının fəaliyyət istiqamətlərini və məqsədlərini, daxili strukturunu, səlahiyyətlərini tənzim edərək, hüquq bu orqanların vəzifə və funksiyalarının yerinə yetirilməsinə şərait yaratmış olur. Digər tərəfdən, hüquq özü bilavasitə dövlət tərəfindən yaradılır və onun məzmunu dövlətin mahiyyətindən asılı olur. Hüquqi dövlətdə «qanunla qadağan olunmayana icazə vardır» formulu ümumhüquqi prinsip olaraq bütöv hüquq sisteminə xas olan bir prinsipə çevrilir. Dövlət hakimiyyətinin yeganə mənbəyi xalq olduğundan hüquqi dövlətin normativ-hüquqi aktlarında xalqın dövlət orqanları tərəfindən formalaşdırılmış iradəsi ifadə olunur. Qanunvericilik prosesi dövlət fəaliyyətinin bir növü olaraq ali ümumhüquqi dəyərlər hesab edilən insan hüquq və azadlıqlarının real şəkildə təmin edilməsinə xidmət edir. Hüquqi normaların yerinə yetirilməsi və icra edilməsi isə dövlətin, onun orqanlarının təşkilati və digər fəaliyyəti ilə, lazım gəldikdə qanunun tələb və göstərişlərinin məcburi qaydada həyata keçirilməsi mexanizmi ilə təmin edilir.

Hüquq, bir qayda olaraq, cəmiyyətdə həmin vaxt mövcud olan ictimai münasibətlərin törəməsi olsa da, nisbi müstəqil sosial fenomen olmaqla, onu yaradan ictimai münasibətlərə güclü əks təsirə malik olaraq, sonuncularda dəyişikliyin mənbəyi rolunda çıxış edir. Hüquq daimi dəyişən və inkişaf edən ictimai münasibətlərə nisbətdə müəyyən dövr stabil qalaraq, onlara müvafiq təsir göstərir, yeni ictimai münasibətlərin əmələ gəlməsinə kömək edir, yaxud bu prosesə maneəçilik göstərir. Bu baxımdan hüquqi normalara vaxtında müəyyən dəyişikliklər, yaxud əlavələr etməklə ictimai münasibətlərin gözlənilən məcraya yönəldilməsinə, müəyyən çərçivədə inkişafına, yeniləşməsinə və sair nail olmaq olar. Yəni, hüquqi normalar hazırki dövrdə idarəetmə vasitəsi olmaqla yanaşı gələcəyə yönəlmiş, yeni ictimai münasibətlərin yaranmasına və inkişafına təsir göstərən, yaxud nüfuz edən güclü bir vasitədir. Cəmiyyətdə sosial proseslərin, insanların

davranışının idarə edilməsinin müxtəlif üsul və vasitələrinin olmasına baxmayaraq, hüquq idarəetmə fəaliyyətinin daha çox özünü doğruldan vasitədir ki, bu da hüququn forma cəhətdən müəyyənliyi, normativliyi, ümummilliliyi, hamı üçün məcburiliyi və icrasının təminatlığı ilə əlaqədardır. Hüququn şaxələnmiş sistemi vasitəsi ilə dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının, fiziki və hüquqi şəxslərin, vətəndaşların, vəzifəli şəxslərin cəmiyyətdə statusu, idarəetmədə rolu və yeri, hüquq və vəzifələri müəyyən edilir, onların fəaliyyəti və davranışı nizama salınır, qarşılıqlı münasibətləri tənzim edilir.

Hüquq eyni zamanda Azərbaycan dövlətinin informasiya çatdırma vasitəsidir. Hüquq vasitəsi ilə dövlət gözlənilən davranış qaydaları haqqında məlumat verir, tələb olunan, icazə verilən və ya qadağan edilmiş hərəkətlər barədə təsir etmə obyektini, davranışı və fəaliyyəti idarə olunan fiziki və hüquqi şəxsləri məlumatlandırır. Hüquqi normalarda cəmiyyət və dövlət tərəfindən qəbul edilən, gözlənilən və arzu edilən davranış qaydaları təsbit edilir, insanların dövlətlə, cəmiyyətlə ünsiyyətinin, bir-biriləri ilə münasibətlərinin həddi, hüdudu, ölçüsü və məzmunu tənzim edilir, normadan kənar və qadağan edilmiş hərəkətlərə görə məsuliyyət nəzərdə tutulur, müəyyən məcburiyyət, imperativlik və zərurət ifadə olunur.

Hüquqi demokratik dövlət quruculuğu prosesini başa çatdırmaqda olan, sosial-iqtisadi islahatların yeni bir mərhələsini həyata keçirən, demokratik vətəndaş cəmiyyətinin qurulması prosesini əsasən yekunlaşdıraraq keyfiyyətcə yeni bir inkişaf mərhələsini yaşayan müasir Azərbaycan Respublikasında həyata keçirilən dövlət idarəçiliyində hüququn önəmli rol oynaması aşağıdakı xüsusiyyətlərlə səciyyələnir:

Elmi-texniki tərəqqi və inkişaf dövrünü yaşayan Respublikamızda hüququn cəmiyyətin elmi əsaslarla idarə edilməsində imkanları və əhəmiyyəti artır. Hüquq ictimai münasibətləri tənzim edən vasitə olmaqla yanaşı, daha çox onları formalaşdıran, dəyişdirən və inkişaf etdirən vasitə kimi çıxış edir.

Hüququn təsir etmə sahəsi, nüfuz dairəsi genişlənir. Bu da dövlətin iqtisadi cəhətdən inkişafı, ölkəyə qoyulan sərmayənin artması, fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların sayının çoxalması, yeni iş yerlərinin yaranması və sair proseslərlə əlaqədar olaraq, hüquqla tənzim edilən ictimai münasibətlərin həcminin artması ilə bağlıdır. Bütün bunların nəticəsində normativ-hüquqi aktların sayı və həcmi xeyli artır.

Dövlət idarəçiliyin bütün sahələrində daha keyfiyyətli idarəetmənin təmin olunması üçün müvafiq dövlət orqanlarının fəaliyyətinin bütün tərəflərinin daha dəqiq tənzim edilməsi həyata keçirilməklə yanaşı onların vəzifəli şəxslərinin hüquqi məsuliyyəti qanunvericilikdə konkretləşdirilir, idarəetmə və maliyyə hesabatları sistemi və nəzarət mexanizmləri təkmilləşdirilir.

Yeni informasiya mənbələri, daşıyıcıları və ötürücüləri növlərinin və üsullarının idarəetmədə geniş istifadə edilməsi ilə əlaqədar yaranan ictimai münasibətlərin, qarşılıqlı əlaqələndirmənin normativ-hüquqi aktlarla dəqiq olaraq tənzim edilməsinə ehtiyac yaranır. Bu sahədə hüquqi tənzimetmə prosesi qarşısında həmin vasitələrdən insanların, cəmiyyətin və dövlətin mənafelərinə zidd məqsədlərlə istifadə edilməsinin qarşısının alınması ilə əlaqədar olan vəzifələr dayanır.

Azərbaycan dövləti və cəmiyyəti daha yüksək inkişaf mərhələsinə keçdiyindən elmi əsaslandırılmış iqtisadi proqnozlar, inkişaf tendensiyası və real perspektivlər tam nəzərə alınmaqla idarəetmənin həyata keçirilməsi xeyli mürəkkəbləşir. Bu isə bütün mülahizələr nəzərə alınmaqla və ölçülüb biçilmiş idarəetmənin həyata keçirilməsini, iqtisadi, maliyyə-kredit və sair sahələrdə qanunvericiliyin daha da təkmilləşdirilməsini tələb edir, hüququn təşkiledici, yaradıcı və koordinasiyaedici funksiyaları güclənir. İqtisadi inkişaf sahəsində təşəbbüs irəli sürülməsini, mövcud imkanlardan geniş istifadə edilməsini stimullaşdıran və həvəsləndirən hüquqi vasitələrə üstünlük verilir.

Müasir Azərbaycanda dövlət idarəçiliyinin əsas vasitəsi olan hüquq sistemliliklə və daxili

vahidliklə xarakterizə edilir. Hüququn bütün sahələri arasında qarşılıqlı əlaqə, uzlaşma və biri-birlərinə əsaslanma mövcuddur. Qanunvericiliyin və hüququn sistemliliyi ictimai münasibətlərin tam şəkildə ziddiyyətlərə yol verilmədən və boşluqları aradan qaldırmaqla tənzim edilməsinə imkan yaradır.

Hüquq dövlətin və cəmiyyətin idarə edilməsində aparıcı rol oynadığından, dövlət idarəçiliyinin həyata keçirilməsində hansı istiqamətlərin daha prioritet xarakter daşıdığını və önəmli olduğunu müəyyən etmək üçün ictimai münasibətləri tənzim edən, nizama salan qanunvericiliyin, qəbul edilmiş qanunverici aktların və sənədlərin hüququn sahələri üzrə müqayisəli təhlil edilməsi kifayətdir. Belə bir təhlilin aparılması müasir Azərbaycan Respublikasında hüququn bütün sahələrinin intensiv surətdə inkişaf etdiyini göstərməklə yanaşı, son dövrlər əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, korrupsiyaya qarşı mübarizənin aparılması, regionların inkişafının təmin edilməsi, məhkəmə sisteminin daha da təkmilləşdirilməsi məsələlərinə xüsusi ilə fikir verildiyini göstərir.

Sonda qeyd etmək istəyirəm ki, dünyada öz ölkəsi və xalqları üçün çox böyük işlər görməklə adları tarixə düşmüş görkəmli dövlət xadimləri olmuşdur. Lakin onların çoxunun öz ölkələri və xalqları qarşısında tarixi rolu müəyyən dövrlə bağlı olmaqla, müəyyən çərçivə hüdudlarından kənara çıxmamış, yəni zaman və məkan məhdudiyyəti xüsusiyyətlərinə malik olmuşdur. Ötən dövrün təcrübəsi və müasir zamanın inkişafı Heydər Əliyev fenomeninin dahiliyini və unikallığını, onun ideyalarının uzaqgörənliyini və müdrikliyini, onların ölkəmiz və dövlətimiz üçün mühüm prinsiplər əhəmiyyətinə malik olduğunu, gördüyü işlərin əbədiliyini və böyüklüyünü təsdiq edərək göstərmişdir ki, Ulu Öndər xalqın yaddaşına xilaskar və qurucu dövlət xadimi, tarixin inkişafını öncədən görərək zamanı qabaqlayan, həyatını və ömrünü bütövlükdə xalqına həsr etmiş görkəmli şəxsiyyət kimi həmişəlik həkk olunmuşdur.

**Ədəbiyyat:**


1. Стефан Цвейг. Звездные часы человечества. М., 1963.
2. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr, məruzələr, müraciətlər, fərmanlar / H. Əliyev.XXXI kitab: 2000-ci il noyabrın 5-dən 2001-ci il yanvarın 5-dək olan dövr. /- Bakı: Azərnəşr, 2011.
3. Azərbaycan Respublikasının Konstitusiyası. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmişdir. 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. https://www.e-qanun.az/framework/897.
4. Azərbaycan Respublikası Prezidentinin «İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə» 17.06.1996-cı il tarixli 463№-li Fərmanı. https://e-qanun.az/framework/16096.
5. Azərbaycan Respublikası Prezidentinin «Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında» 07.01.1999-cu il tarixli 69 №-li Fərmanı. https://e-qanun.az/framework/1814.
6. Azərbaycan Respublikası Prezidentinin «Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısınının alınması haqqında» 28.09.2002-ci il tarixli 790 №-li Fərmanı. https://e-qanun.az/framework/906
7. Azərbaycan Respublikası Prezidentinin «Məhkəmələr və hakimlər haqqında»

qanunun tətbiqi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə» 01.12.1998-ci il tarixli 30 №-li Fərmanı. https://e-qanun.az/framework/3379.
8. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında» 29.12.1998-ci il tarixli 53 №-li Fərmanı. https://e-qanun.az/framework/3457.

***Açar sözlər:*** *Ümummilli Lider, dövlət idarəetməsi, hüquqi tənzimləmə, hüquqi dövlət quruculuğu, hüququn dövlət idarəçiliyində rolu, onun müasir dövrdə xüsusiyyətləri*

**Mahir Tagiyev**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan***
***Department of Law***
***Associate Professor, Ph.D. in Law***

## HEYDAR ALIYEV AND THE FORMATION OF THE LEGAL STATE IN AZERBAIJAN

## ABSTRACT

The article explores the policy pursued by the National Leader Heydar Aliyev in building a rule-of-law state in Azerbaijan from 1993 to 2003. The author of the article emphasizes that Heydar Aliyev, considering the construction of an independent, legal, secular, and democratic state in Azerbaijan as his main goal, from the first days of his election as head of state, ensured the legal regulation of the socio-political and economic processes taking place in the country. The enormous work done by Heydar Aliyev during his first leadership of our republic can be considered preparation for the work he carried out during his second return to power to ensure the process of legal state-building. The article emphasizes that in the state administration of Heydar Aliyev and the state building he carried out, legal means and legal regulation were of a priority nature and were in the foreground among all other methods and means used in management. The tradition of giving preference to legal means among the methods and means of state administration was strengthened as the process of state building developed under the rule of Heydar Aliyev and moved to the next stages. Under Heydar Aliyev, legal regulation performed the most important state administration functions. In order to more clearly analyze the unique role that our National Leader attaches to legal regulation in the implementation of legal state-building and public administration, the article examines some of the successful reforms and measures carried out under his direct leadership and initiative.

***Keywords:*** *National Leader, public administration, legal regulation, building the rule of law, the role of law in public administration, its features in the modern period*

**Махир Тагиев**

***Доцент кафедры Права***
***Академии Государственного Управления***
***при Президенте Азербайджанской Республики,***
***доктор философии по праву***

## ГЕЙДАР АЛИЕВ И СТРОИТЕЛЬСТВО ПРАВОВОГО ГОСУДАРСТВА В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

Проведенную, считающим создание правового государства главным условием всестороннего развития Азербайджана, Общенациональным Лидером нашего народа Гейдаром Алиевым еще в период своего первого руководства нашей республикой огромную работу можно рассматривать как подготовку к созданию основ процесса становления правового государства, которую он осуществил во время своего второго возвращения к власти.

В статье подчеркивается, что в государственном управлении Гейдара Алиева, в осуществляемом им процессе строительства правового государства правовые средства, правовое регулирование имели приоритетный характер среди всех других способов и инструментов, используемых в управлении. В государственном управлении Гейдара Алиева традиция отдавать предпочтение правовым средствам среди способов и средств государственного управления по мере развития процесса государственного строительства и перехода к следующим этапам еще более усиливалась.

***Ключевые слова:*** *Общенациональный Лидер, государственное управление, правовое регулирование, строительство правового государства, роль права в государственном управлении, его особенности в современный период*

.

DOI:10.30546/dia.2.82.2023.313


UOT 336.02

**ZİVƏR ZEYNALOVA**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "İqtisadiyyatın dövlət tənzimlənməsi" kafedrasının dosenti, iqtisadiyyat üzrə fəlsəfə doktoru***

*e-mail:zivarzz@mail.ru*

# AZƏRBAYCANDA HƏYATA KEÇİRİLƏN VERGİ İSLAHATLARININ İQTİSADİ NƏTİCƏLƏRİ

## Giriş

Vergi sistemi tətbiq olunduğu ölkənin iqtisadi və sosial ehtiyaclarına uyğun olaraq formalaşır və zaman keçdikcə müxtəlif islahatlara məruz qalır. Bəzən bu islahatların sürəti və əhatə dairəsi iqtisadi konyunkturada baş verən dalğalanmalara bağlı olaraq kəskin şəkildə dəyişkən olur. Ölkənin iqtisadi vəziyyətinə uyğun olaraq aparılan vergi islahatları ölkələr üzrə fərqli olsa da, onlar mütləq şəkildə hüquqi bazaya əsaslandırılır və qanunla müəyyən edilir [1, 4, 12].

Vergilər dövlətin və onun səlahiyyət vermiş olduğu qurumların digər şəxslərdən qanunla müəyyən edilmiş qaydada və qarşılıqsız olaraq topladığı iqtisadi sərvət olduğundan onun ödənilməsi vergi mükəlləflərinin üzərinə bir vəzifə qoyur. Yəni hər kəs dövlət xərclərini maliyyələşdirmək üçün vergi mükəlləfi olaraq öz üzərinə düşən məbləği ödəməlidir. Ancaq, vergi qarşılıqsız olduğundan, daha dəqiq desək, vergi ödəyicisi ödəmiş olduğu vergi məbləği müqabilində dövlətdən konkret bir xidmət tələb edə bilmədiyi üçün bəzən vergi əməletməsində problemlər yarana bilir [3, 10]. Bu baxımdan vergi sistemində aparılan islahatlar vergi mükəlləflərinin əməletməsini yüksəldəcək amilləri özündə cəmləşdirməlidir.

Ümumiyyətlə, mükəlləflər tərəfindən vergi sistemlərinin qiymətləndirilməsində müxtəlif meyarlardan istifadə edilə bilər, ancaq bu meyarlar arasında səmərəlilik, sadəlik, ədalət və iqtisadi fəaliyyətləri təşviqetmə xüsusilə diqqət çəkən meyarlardandır. Müasir vergi sistemlərinin bu meyarlara sahib olması ölkənin vergi rəqabətində üstünlük əldə etməsinə də imkan yaradır [16]. Bu meyarlar eyni zamanda ölkə daxilində vergi yükünün ədalətli və tarazlı bölüşdürülməsinə, yəni vergitutmanın sosial funksiyasının reallaşmasına da xidmət edir.

Vergi mikro və makro miqyasda bir çox amillərə, xüsusən də iqtisadi artıma təsir göstərdiyi üçün [11] bu sistemin tənzimlənməsi və uyğun islahatların zamanında aparılması mütləqdir. Bildiyimiz kimi, vergi dərəcələrinin dəyişməsi fiziki və hüquqi şəxslərin xərc və yığımlarına, habelə investisiya qərarlarının istiqamətinə birbaşa təsir edir. Bu qərarlar isə ölkədə milli gəlirin həcminin artmasına və ya azalmasına, iqtisadi artımın dinamikasının dəyişməsinə səbəb olur. Sabit iqtisadi artımı hədəfləyən ölkələr bu təsiri nəzərə alaraq ölkənin vergi sisteminin sadə, ədalətli, səmərəli təşkili və iqtisadi fəaliyyətləri təşviq etməsi üçün müxtəlif amillərin də təsiri ilə daima dəyişikliklər aparırlar. Qeyd edək ki, vergi sisteminin strukturunda nəzərdə tutulan bu meyarların təmin edilməsi, həm də dövlətin iqtisadiyyata müdaxilə səviyyəsini qiymətləndirməyə imkan verir.

### Vergi islahatının dəyişən əhəmiyyəti

Beynəlxalq təcrübədə ölkələr xüsusilə vergi rəqabətində üstünlük qazanmaq üçün vergi sistemlərində ciddi islahatlar həyata keçirirlər. Məsələn, bir çox OECD ölkəsi fiziki şəxslərin gəlir vergisi üzrə islahatlar aparır və optimal vergi dərəcəsini müəyyənləşdirməyə çalışır. Bununla belə, fiziki şəxslərin gəlir vergisinin optimal dərəcəsi barədə hələ də bir konsensus yoxdur. Sahibkarlar üçün cəlbedici biznes mühiti yaratmaq üçün hüquqi şəxslərin mənfəət vergisində, ƏDV-də dərəcələrin azaldılması istiqamətində ölkələr bəzən bir-biri ilə rəqabətə girirlər. Bu islahatlarla ölkədə rəqabətli maliyyə mühiti yaradılmağa çalışılır. Rəqabəti təmin edən mühit öz növbəsində investisiya qoyuluşlarını, sahibkarların risk etməsini və fəaliyyətlərini genişləndirməsini təşviq edir. Yəni, ümumilikdə aparılan vergi islahatları biznes mühitini sağlamlaşdıraraq, buradakı fəaliyyətləri stimullaşdırmağa istiqamətlənir. Eyni zamanda, qərəzsizlik və sadəlik meyarları ölkələrin çoxunda aparılan islahatların əsas hədəfi qəbul edilir [13, 16].

Müasir dövrdə vergi islahatlarını zəruri edən amillərdən biri də ətraf mühit və enerji vergisidir. Bu vergilərin tətbiqinin əhəmiyyətini vurğulayan bir çox tədqiqat vardır. Bu tədqiqatlardan biri Pinglin He və digərləri tərəfindən OECD ölkələri üzrə aparılan analizdir. Bu tədqiqatda 1995-ci ildən 2016-cı ilə qədər olan məlumatlar əsasında enerji vergilərinin, nəqliyyat vasitələrinə tətbiq edilən vergilərin və ətraf mühit vergilərinin enerji səmərəliliyinə təsiri analiz edilmişdir. Tədqiqatçılar tərəfindən müəyyən edilmişdir ki, enerji vergisi qısa müddətdə enerji səmərəliliyini əhəmiyyətli dərəcədə yaxşılaşdırdığı halda, nəqliyyat vasitələri vergisi uzunmüddətli perspektivdə enerji səmərəliliyini əhəmiyyətli dərəcədə yaxşılaşdırır. Ekoloji vergilər isə həm uzun, həm də qısa müddətdə enerji səmərəliliyini artırır və uzunmüddətli perspektivdə daha mənalı olur [5].

Vergilərin azaldılması ilə bağlı aparılan reformların biznes tələblərinə hansı dərəcədə cavab verdiyini araşdıran M.B.Klitgaard və T.Paster Avstriya və İsveçdə korporativ vergilər ilə miras vergilərində tətbiq edilən azalmaların müqayisəli təhlilini aparmışdır. Tədqiqatda əldə edilən nəticəyə əsasən, bu dövlətlərin apardığı vergi reformları xüsusən vergi bazasının genişləndirilməsi və aşağı gəlirli qruplar üçün vergilərin azaldılması üzrə tədbirləri əhatə etmişdir. Tədqiqatçılara görə biznes sahəsinə təsir edən əlverişli vergi endirimləri üzrə siyasət birbaşa biznesin üstünlüyü ilə bağlı olmayıb, ölkədə yarana biləcək ziddiyyətli məqsədlərin tarazlığını qorumaq üçün tətbiq edilmişdir [8].

Beləliklə, yuxarıda qeyd edilən müxtəlif tədqiqatların nəticəsi göstərir ki, vergi islahatları ölkələrin əldə etmək istədiyi hədəflər istiqamətində dəyişir. Həyata keçirilən vergi islahatları ölkənin uzunmüddətli və qısamüddətli maraqlarının təmin edilməsində açar rol oynayır.

### Azərbaycanda aparılan vergi islahatları

Azərbaycan vergi sistemi çoxşaxəli vergi islahatları ilə daima zəngin olmuşdur. Ölkədə aparılan islahatlar bir çox amillərin təsiri ilə formalaşmışdır. Belə ki, ölkədə dəyişən iqtisadi, maliyyə, sosial, siyasi və inzibati şərtlərdən asılı olaraq vergi sistemində yenidənqurma işləri daima aparılmış və vergi inzibatçılığı gücləndirilmişdir.

Azərbaycanda vergilərin tətbiqi haqqında qanunvericilik vergitutmanın ümumi, bərabər və ədalətli olmasına əsaslanır və ölkədə hər kəsin Konstitusiya hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə maneçilik törədən vergilərin müəyyən edilməsinə yol vermir. Bundan başqa Azərbaycan Respublikasının vahid iqtisadi bütünlüyünü pozan vergilərin müəyyən edilməsinə də imkan verilmir. Bura ölkə ərazisində işlərin, xidmətlərin və pul vəsaitlərinin azad yerdəyişməsini bilavasitə və ya dolayısı ilə məhdudlaşdıran və ya digər yolla vergi ödəyicilərinin qanuni fəaliyyətini məhdudlaşdıran, yaxud maneçilik törədən vergilər aiddir. Qanunvericiliyə əsasən heç bir

şəxs əldə etdiyi mənfəət və ya gəlirdən eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilə bilməz. Vergitutmada əsas prinsiplərdən biri dəqiqlik prinsipidir. Bu prinsip nəzərə alınaraq qanunvericiliyin formalaşması zamanı hər kəsin hansı vergini, hansı qaydada, nə vaxt və hansı məbləğdə ödəməli olduğunun dəqiq bilinməsi hədəflənir. Bu prinsip iqtisadi tərəqqi üçün dövlət və bələdiyyə vergilərinin sahibkarlıq fəaliyyətinin təşviqinə imkan yaradır. Bununla belə, əgər vergilər haqqında qanunvericilikdə ziddiyyətlər və aydın olmayan məqamlar yaranırsa, bu hal bir qayda olaraq vergi ödəyicisinin xeyrinə şərh edilir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlətin xidmət göstərdiyi bütün sahələr, həmçinin vergitutma sahəsində xidmətin keyfiyyətinin yüksəldilməsi məqsədilə müxtəlif və genişmiqyaslı islahatlar aparılmışdır. Xüsusilə, vergi ödəyiciləri ilə vergi qurumları arasında əməkdaşlığın stimullaşdırılması məqsədilə vergi ödəyicilərinə sürətli, şəffaf və əlçatan xidmətlərin göstərilməsi, habelə vergi ödəyicilərinin uçotda olduqları vergi orqanlarında fəaliyyətinin vahid struktur tərəfindən mərkəzləşdirilməsi üzrə işlər genişləndirilmişdir.

Vergi sahəsində aparılan islahatlar ölkədə biznes mühitinin sağlamlaşdırılmasına xüsusi töhfə vermişdir. Belə ki, vergilərin iqtisadi təsirini artırmaq və investisiya qoyuluşlarını stimullaşdırmaq üçün vergi dərəcələri aşağı salınmışdır. Xüsusilə hüquqi şəxslərin ödədiyi mənfəət vergisinin dərəcəsi 2003-cü ildə 27%-dən 25%-ə, 2004-cü ildə 24%-ə, 2006-cı ildə 22%-ə, 2010-cu ildə isə 20%-ə endirilmişdir [15]. Biznes mühitinin cəlbediciliyini artırmaq məqsədilə hüquqi şəxslərin mənfəət vergisinin dərəcəsinin aşağı salınması ilə yanaşı vergi ödəyicilərinə verilən azadolma və güzəştlərin sayı artırılmış, müxtəlif təşviqedici vasitələrdən istifadə edilmişdir. Bura nümunə olaraq, investisiya təşviqi sənədini göstərə bilərik. Bu sənəd hüquqi şəxslərə və fərdi sahibkarlara Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanununda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verir. İnvestisiya təşviqi sənədini əldə edən hüquqi şəxslər və fərdi sahibkarlar aşağıda qeyd edilən güzəştləri əldə edirlər [7]:

- müvafiq olaraq mənfəət və gəlir vergisini 7 il müddətinə 50% güzəştlə ödəyirlər;
- müvafiq əmlaka görə əmlak vergisindən, torpağa görə isə torpaq vergisindən 7 il müddətinə azad olunurlar;
- müvafiq təsdiqedici sənəd əsasında texnika, texnoloji avadanlıq və qurğuların idxalı ƏDV-dən və gömrük rüsumlarından 7 il müddətinə azad olunurlar.

Ölkə miqyasında aparılan islahatların biznes mühitini sağlamlaşdırması və təşviq etməsi nəticəsində ölkəyə investisiya qoyuluşlarının həcmi artmışdır (Cədvəl 1).

**Cədvəl 1.** İqtisadiyyata yönəldilən investisiyalar, mln.manat

| | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|
| Bütün mənbələr üzrə investisiya qoyuluşları | 480,7 | 1289,8 | 6733,4 | 14118,9 | 20057,4 | 24986,6 | 22484,0 | 25313,8 |
| Xarici investisiyalar: | 331,4 | 829,5 | 4628,5 | 6619,7 | 10998,9 | 12119,5 | 10413,2 | 12751,9 |
| Daxili investisiyalar | 149,3 | 460,3 | 2104,9 | 7499,2 | 9058,5 | 12867,1 | 12070,8 | 12561,9 |

Mənbə: Maliyyə və bank. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://stat.gov.az/source/finance/

Cədvəl 1-dən görüldüyü kimi, 1995-ci ildən etibarən Azərbaycan iqtisadiyyatına qoyulan ümumi investisiyaların həcmində kəskin artım müşahidə edilmişdir. Bütün mənbələr üzrə investisiya qoyuluşları 1995-ci ildə 480,7 mln.manat təşkil etdiyi halda, bu rəqəm 2021-ci ildə 25313,8 mln.manata yüksəlmişdir. Qeyd edilən illər üzrə dinamika açıq şəkildə göstərir ki, ölkə iqtisadiyyatına qoyulan ümumi investisiyanın həcminin artmasında daxili investisiya ilə yanaşı, xarici investisiya qoyuluşlarının rolu əhəmiyyətli dərəcədədir.

O da qeyd edilməlidir ki, ölkədə investisiya qoyuluşlarının artmasına vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəlməsinin ciddi təsiri olmuşdur. Vergi ödəyiciləri ilə vergi orqanları arasında aparılan fəaliyyətlərdə şəffaflığın daha da yüksəlməsinə, sahibkarlara əlverişli mühitin təmin edilməsinə, ölkədə könüllü əməletmə səviyyəsinin artırılmasına töhfə verən sənədlərdən biri "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" Sərəncam olmuşdur. Belə ki, şəffaf şəkildə fəaliyyət göstərən vergi ödəyicilərinə "Yaşıl dəhliz" prinsipi çərçivəsində müxtəlif xidmətlər göstərilməyə başlanmışdır. Bu layihə çərçivəsində vergi qanunvericiliyində müəyyən edilmiş qaydalara uyğun vergi hesabatlarını hazırlayan, vergi borclarını tam və vaxtında ödəyən, işçilərin sayını və əməkhaqlarını düzgün bəyan edən, beynəlxalq və ya milli mühasibat uçotu standartlarına uyğun olaraq mühasibat uçotu əməliyyatlarını həyata keçirən, təkmilləşdirilmiş elektron imza, elektron yazışmalar aparan və s. meyarlara cavab verən vergi ödəyiciləri "Partnyor vergi ödəyicisi statusu" əldə etmişdir [14].

Partnyor vergi ödəyicisi statusu alan vergi ödəyiciləri heç bir ərazi məhdudiyyəti olmadan "Yaşıl dəhliz" layihəsi çərçivəsində ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlərdən istifadə etmişdir. Eyni zamanda, bu layihə çərçivəsində ümumi vergi ödəyicilərinin növbə gözləmədən fərdi və sürətli xidmət alması üçün xüsusi masa yaradılmışdır. Bu xidmətlərdən əlavə hər bir vergi ödəyicisi üçün vergi orqanında çalışan kurator təyin edilmişdir. Bu kuratorlar vergi ödəyicilərinə xüsusi xidmətlər göstərərək, vergi qanunvericiliyində aparılmış dəyişikliklər barədə onlara məlumat verir və maraqlarının müdafiəsi üçün qabaqlayıcı tədbirlər görürlər. Vergi ödəyiciləri ilə bağlı hər hansı uyğunsuzluq və ya qeyri-müəyyənlik yarandıqda isə, kuratorlar bu məsələlərin həlli üçün bütün zəruri tədbirləri görürlər. Vergi orqanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan digər islahatlardan biri də əvvəllər vergi qurumları olmayan şəhər və rayonlarda vergi ödəyiciləri üçün müasir avadanlıqla təchiz edilmiş xidmət mərkəzlərinin yaradılması olmuşdur [15].

Vergi sistemində göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsi istiqamətində əhəmiyyətli təsirə sahib olan amillərdən biri də vergi ödəyiciləri ilə vergi qurumları arasında birbaşa əlaqənin minimuma endirilməsi olmuşdur. Qeyd etməliyik ki, vətəndaşlara ən çox elektron xidmətlərin göstərildiyi sahə məhz vergitutma sahəsidir. Bu xidmətlərə fiziki və hüquqi şəxslərin elektron uçotunun aparılması, uçot məlumatlarının dəyişdirilməsi, onların fəaliyyətinin dayandırılması və yenidən yenilənməsi, vergi bəyannamələrinin elektron qaydada təqdim edilməsi, vergilərin elektron qaydada ödənilməsi və s. daxildir. 2019-cu ildən etibarən isə hüquqi şəxslərin dövlət qeydiyyatı cəmi bir prosedurla – "Mobil nömrə və FİN kod" vasitəsilə həyata keçirilir. Bu yenilik, yəni elektron qeydiyyat sisteminin təkmilləşməsi ölkədə sadə qeydiyyat üsulundan istifadə edənlərin sayının kəskin artmasına şərait yaratmışdır [2]. Bu yeniliklər həm mikro sahibkarlığın, həm də KOB-ların fəaliyyətinə və onların sayının artmasına təsir göstərmişdir (Cədvəl 2).

Cədvəl 2-də əks olunduğu kimi, 2019-cu ildə ölkədə cəmi 271304 mikro, kiçik və orta sahibkarlıq subyekti fəaliyyətdə olmuşdur. 2021-ci ildə isə onların sayı 355906-a yüksəlmişdir. Mülkiyyət növü üzrə sahibkarlıq subyektlərinin müqayisəsini apardıqda, həm

**Cədvəl 2.** Mülkiyyət növləri üzrə fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı

| | Cəmi | 2019 | | | Cəmi | 2020 | | | Cəmi | 2021 | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | mikro | kiçik | orta | | mikro | kiçik | orta | | mikro | kiçik | orta |
| Mülkiyyət növləri üzrə cəmi | 271304 | 262622 | 5956 | 2726 | 316370 | 307717 | 5943 | 2710 | 355906 | 346171 | 6856 | 2879 |
| dövlət mülkiyyəti | 1784 | 744 | 440 | 600 | 1811 | 782 | 414 | 615 | 1808 | 800 | 419 | 589 |
| qeyri-dövlət mülkiyyəti | 269520 | 261878 | 5516 | 2126 | 314559 | 306935 | 5529 | 2095 | 354098 | 345371 | 6437 | 2290 |
| xüsusi mülkiyyət | 266434 | 259694 | 4948 | 1792 | 311296 | 304548 | 4960 | 1788 | 350443 | 342691 | 5795 | 1957 |
| xarici mülkiyyət | 2376 | 1739 | 402 | 235 | 2519 | 1890 | 427 | 202 | 2822 | 2117 | 483 | 222 |
| birgə mülkiyyət | 710 | 445 | 166 | 99 | 744 | 497 | 142 | 105 | 833 | 563 | 159 | 111 |

Mənbə: https://stat.gov.az/source/entrepreneurship/#

dövlət mülkiyyətində, həm də qeyri-dövlət mülkiyyətində olan müəssisələrin sayında artımın olduğu müşahidə edilir. Dövlət mülkiyyətində olan subyektlərin sayı 2019-cu il ilə müqayisədə 2021-ci ildə 1,4% artdığı halda, qeyri-dövlət mülkiyyətində olan subyektlərin sayı təxminən 31,4% artmışdır. Diqqət çəkən digər məqam, ümumi artımın əsasən mikro subyektlərin sayında baş verməsidir.

Son dövrlərdə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər nəticəsində vergi güzəşt və azadolmalarının sayı artmışdır. Hazırda Vergi Məcəlləsində biznes nümayəndələri üçün 100-dən çox güzəşt və azadolma mövcuddur. Sənaye və texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər 7 il müddətinə gəlir, əmlak və torpaq vergilərindən azad edilmişdir. Bu güzəştlər arasında, həmçinin kiçik orta biznesin klaster şirkətinə, onların iştirakçı şirkətinə, startaplara vergi güzəştlərinin, mikro sahibkarlığa 75 faizlik güzəştin verilməsi kimi şərtlər də daxildir. Mikro biznes, kiçik və orta sahibkarlıq subyektləri üçün gəlir, mənfəət, əmlak, torpaq vergisi və ƏDV üzrə güzəştlər də nəzərdə tutulmuşdur. Belə ki, kiçik və orta biznes klasterinə daxil olan şirkətlər KOB reyestrində qeydiyyata alındıqları andan 7 il müddətinə mənfəət, torpaq və əmlak vergilərindən azad olmuşdur. Həmin şirkətlərin istehsal və emal məqsədilə idxal etdikləri texnoloji avadanlıq və qurğular da 7 il müddətinə ƏDV-dən azad edilmişdir. Bundan başqa, kiçik və orta biznes klasterinin iştirakçısı olan sahibkarlıq subyektləri tərəfindən KOB klaster şirkəti ilə bağlanmış müqavilə əsasında təqdim etdikləri maldan qazanılan gəlirin kapital xarakterli xərclərin çəkilməsinə yönəldilən hissəsi 7 il müddətinə gəlir (mənfəət) vergisindən azad olunmuşdur. Vergi Məcəlləsinə aparılan son dəyişikliklərdə sahibkarlıq fəaliyyətinin təşviq üzrə müəyyən dəyişikliklər aparılmışdır. Məsələn, kitab, dərslik və kağızın idxal və satışı ilə məşğul olanlar, icarəçi sahibkarlar, gəlir və xərclərin uçotunu aparan şəxslərə vergi güzəştinin tətbiq edilməsi, investorlar üçün vergi və maliyyə yükünün azaldılması, hasilat sənayesi iştirakçılarına vergi dəstəyinin verilməsi bu tədbirlərin davamıdır [1].

**Cədvəl 3.** Dövlət büdcəsinin gəliri, milyon manat

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Gəlirlər-cəmi** | **26077.9** | **26631.7** | **30940.7** |
| o cümlədən: | | | |
| Fiziki şəxslərin gəlir vergisi | 1151,0 | 1194,6 | 1474,4 |
| Hüquqi şəxslərin mənfəət vergisi | 2351,7 | 2958,4 | 8522,5 |
| Torpaq vergisi | 40,8 | 45,7 | 47,4 |
| Əmlak vergisi | 186,8 | 211,3 | 231,5 |
| Əlavə dəyər vergisi | 4818,3 | 5214,5 | 6946,2 |
| Sadələşdirilmiş vergi | 308,9 | 299,7 | 323,3 |
| Aksiz | 898,2 | 1105,8 | 1358,9 |
| Yol vergisi | 104,9 | 119,1 | 148,5 |
| Mədən vergisi | 130,2 | 138,4 | 161,1 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 1160,6 | 1360,0 | 1642,9 |
| Sair daxilolmalar | 14926,5 | 13984,2 | 10084,0 |

Mənbə: Maliyyə və bank. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/finance/

Beləliklə, Azərbaycanda vergi sahəsində aparılan islahatlar biznes mühitinin sağlamlaşdırılmasına xidmət etmişdir. Ölkəyə qoyulan investisiyalar biznes iştirakçılarının sayının artmasına, vergi bazasının genişlənməsinə və nəticədə vergi gəlirlərinin artmasına səbəb olmuşdur (Cədvəl 3).

Cədvəl 3-dən görüldüyü kimi, 2022-ci il büdcə gəlirlərinin həcmi əvvəlki illərlə müqayisədə artım göstərmişdir. 2020-ci ildə 26077.9 milyon manat olan büdcə gəlirləri 2021-ci ildə 26631.7 milyon manat, 2022-ci ildə isə 30940.7 milyon manata yüksəlmişdir. Vergi gəlirlərində əldə edilən artım xüsusilə hüquqi şəxslərin mənfəət vergisi üzrə müşahidə edilmişdir. Belə ki, 2020-ci ildə 2351,7 milyon manat olan mənfəət vergisi gəlirləri 2022-ci ildə 8522,5 milyon manata yüksəlmişdir. Cədvəl 3-də diqqət çəkən digər məqam isə 2020 və 2021-ci illərdə vergi gəlirlərində ən yüksək payın ƏDV-dən formalaşmasına baxmayaraq, 2022-ci ildə bu göstəricinin dəyişməsi olmuşdur. Belə ki, ilkin məlumatlar əsasında hazırlanmış 2022-ci ilin rəqəmlərinə əsasən, hüquqi şəxslərin mənfəət vergisi büdcə gəlirlərində daha yüksək paya sahib olmuşdur.

## Nəticə

Azərbaycanda iqtisadi inkişafı və sosial ədaləti təmin etmək, inflyasiya ilə effektiv mübarizə aparmaq, iqtisadi tarazlığı qorumaq, müəssisələrin istehsal gücünü artırmaq və s. məqsədilə vergi sistemində mütəmadi islahatlar aparılmışdır. Müxtəlif dövrlərdə vergi qanunvericiliyində edilən əsaslı dəyişikliklər – vergi dərəcələrinin azalması, vergi azadolma və güzəştlərinin tətbiqi, vergi sistemində elektronlaşmanın genişlənməsi – yeni iqtisadi və sosial hadisələrə uyğun vergi inzibatçılığının təşkili ilə nəticələnmişdir. Bu islahatlar nəticəsində vergi sistemində şəffaflıq təmin edilmiş, vergi ödəyiciləri üçün artıq xərclər yaratmayan sadələşdirilmiş prosedurlar istifadəyə verilmiş, bütünlükdə iqtisadiyyatın canlanmasına və şaxələndirilməsinə xidmət etmişdir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, https://www.e-qanun.az/framework/46948 (18.02.2023).
2. Azərbaycanda vergi islahatları ilə təkmilləşən biznes mühiti dövlətimizin iqtisadi siyasətinin əsas prioritetlərindəndir, https://www.taxes.gov.az/az/post/1918 (15.01.2023).
3. Besley, T., Persson, T. (2013), Taxation and Development. London School of Economics. https://www.lse.ac.uk/economics/Assets/Documents/personal-pages/tim-besley/working-papers/taxation-and-development.pdf (04.06.2022).
4. Godar, S. Paetz, C., Truger, A. (2015), The scope for progressive tax reform in the OECD countries, A macroeconomic perspective with a case study for Germany, Dans Revue de l'OFCE 2015/5, (141), 79-117.
5. He, P., Sun, Y., Niu, H., Long, C., Li, S. (2021), The long and short-term effects of environmental tax on energy efficiency: Perspective of OECD energy tax and vehicle traffic tax, Economic Modelling, 97, 307-325.
6. https://stat.gov.az/source/entrepreneurship/#
7. İnvestisiya təşviqi mexanizmi, https://www.economy.gov.az/az/page/muracietler/sual-cavab/investisiya-tesviqi-mexanizmi (13.01.2023).
8. Klitgaard, M.B., Paster, T. (2021), How Governments Respond to Business Demands for Tax Cuts: A Study of Corporate and Inheritance Tax Reforms in Austria and Sweden, Scandinavian Political Studies, 44 (1), 91-111, https://doi.org/10.1111/1467-9477.12189.
9. Maliyyə və bank | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://stat.gov.az/source/finance/ (19.03.2023)
10. Mehta, S., Shah, N., Joseph, S., & Tripathi, A. (2021), Taxation of Digitalized Economy: Analysing the United Nations Article 12B Solution. The Dialogue and Economic Laws Practice. Retrieved from https://elplaw.in/wp-content/uploads/2021/06/The-Dialogue-EconomicLaws-Practice-Taxation-of-Digitalized-Economy.pdf (22.02.2023).
11. Navarro, A. (2021), The Allocation of Taxing Rights under Pillar One of the OECD Proposal. OUP Handbook of International Tax Law (F. Haase, G. Kofler eds., Oxford University Press 2021 Forthcoming), http://dx.doi.org/10.2139/ssrn.3825612 (12.09.2022).
12. Owens, J. An International Perspective on Tax Reform in OECD countries, OECD's Centre for Tax Policy & Administration, http://investigadores.cide.edu/aparicio/OECD_TaxReforminOECDcountries_07.pdf (24.11.2022).
13. Tekin, A. (2010), OECD Ülkelerinde Yapılan Vergi Reformlarının Değerlendirilmesi, Dumlupinar Üniversitesi Sosyal Bilimler Dergisi, 26.
14. "Yaşıl dəhliz" layihəsi şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərəcək, https://yeniazerbaycan.com/Iqtisadiyyat_e32535_az.html, 15.12.2016 (06.10.2022)
15. www.e-taxes.gov.az/
16. Zeynalova Z. (2018), "Vergi rəqabəti iqtisadi modernləşmənin aləti kimi" bölməsi, Azərbaycan iqtisadiyyatının modernizasiyasının dövlət tənzimlənməsi, Ed.F.P.Rəhmanov, Kollektiv monoqrafiya, Bakı, 2018


***Açar sözlər:*** *vergi islahatları, investisiya qoyuluşları, büdcə gəlirləri, biznes mühiti, vergi təşviqi*

**Zivar Zeynalova**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of State Regulation of the Economy, Ph.D. in Economics, Associate Professor***

## ECONOMIC CONSEQUENCES OF TAX REFORMS IMPLEMENTED IN AZERBAIJAN

### ABSTRACT

The article highlights the tax reforms carried out in Azerbaijan and the successes achieved due to these reforms. In the implementation of tax reforms, such important priorities as fairness, efficiency, simplicity, and support for economic development were emphasized. As a result of the reforms, an improvement in the business environment and an increase in investment and tax revenues were noted.

***Keywords:*** *tax reforms, investments, budget revenues, business environment, tax incentives*

**Зивяр Зейналова**

***Доцент кафедры Государственного регулирования экономики Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по экономике***

## ЭКОНОМИЧЕСКИЕ РЕЗУЛЬТАТЫ НАЛОГОВЫХ РЕФОРМ, ПРОВЕДЕННЫХ В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

В статье освещаются налоговые реформы, осуществленные в Азербайджане, и успехи, достигнутые в их результате. Автор отмечает, что при реализации налоговых реформ особую роль сыграли такие приоритеты, как справедливость, эффективность, простота и поддержка экономического развития. В результате реформ удалось добиться улучшения деловой среды, увеличения объема инвестиций и налоговых поступлений.

***Ключевые слова:*** *налоговая реформа, инвестиции, доходы бюджета, бизнес-среда, налоговые льготы*

UOT 343.1

**GÜNAY MAQSUDOVA**
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Dillər» kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru***
*e-mail: gunay_tac@mail.ru*

# HEYDƏR ƏLİYEV VƏ MÜASİR RİTORİKA

## Giriş

Dil hər bir xalqın milli varlığının təcəssümüdür, Xalq şairi B.Vahabzadənin təbirincə desək, onun milli kimliyidir:

*Mənim ana dilim – mənim kimliyim,*
*Pasportum özümə öz hakimliyim.*

Dil xalqın elə ecazkar bir xəzinəsidir ki, milyonlarla insan ondan bəhs qədər faydalanmasına rəğmən, heç vaxt bitib-tükənmir, əksinə, istifadə olunduqca daha da zənginləşir və yüksək səviyyədə formalaşır. Bəşər tarixində belə bir təcrübə artıq öz təsdiqini tapıb ki, əgər xalqın dili ümumünsiyyət vasitəsi kimi davamlı olaraq fəaliyyət göstəribsə, o dildə mühüm elm və mədəniyyət örnəkləri yaranıbsa, dövləti yaxud regional səviyyədə möhkəm qərar tutubsa, həmin dillər yüksək inkişaf yolu keçmiş hesab olunurlar. Və təbii ki, bu prosesdə adı xalqın tarixinə əbədi həkk olunmuş böyük şəxsiyyətlərin – ictimai-siyasi, mədəniyyət və elm xadimlərinin, şair və yazıçıların, ümumiyyətlə, ziyalıların böyük payı vardır. Qədim tarixə və dövlətçilik ənənəsinə malik Azərbaycan dili də öz səviyyəsinə görə bu gün dünyanın inkişaf etmiş, zəngin dillərindən biri sayılır. Heç şübhəsiz ki, dilimizin bu şəkildə formalaşmasında görkəmli söz ustalarının, ziyalıların, dövlət xadimlərinin əhəmiyyətli dərəcədə rolu vardır.

Eyni zamanda hər bir xalqın içərisindən çıxan müdrik insanlar irs-varislik əlaqələrini qoruyaraq tarixi ənənələri yaşatmağa, davam və inkişaf etdirməyə həmişə can atmış, millətini işıqlı gələcəyə aparmaq naminə insanları mütərəqqi ideyalar ətrafında məhz gözəl nitq qabiliyyətləri – mühüm ritorik keyfiyyətləri sayəsində birləşdirməyə nail olmuşlar. Adını Azərbaycan tarixinə qızıl hərflərlə yazmış, müstəqil Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyev də belə keyfiyyətlərlə zəngin fenomenal şəxsiyyət kimi xalqımızın yaddaşına ədəbi həkk olmuşdur.

## Heydər Əliyev nitqinin qüdrəti və hikməti

Mübaliğəsiz deyə bilərik ki, böyük bir tarixi mərhələdən sonra XX əsrdə dilimizin dövlət müstəvisində tanınması, onun milli və beynəlxalq arenalarda uğurla təmsil olunması məhz Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri ilə bağlıdır. Heydər Əliyevin Azərbaycan dilinə olan sevgisi və qayğısı təkcə onun dövlət başçısı kimi vəzifəsindən qaynaqlanmırdı. Bunun kökündə Ulu Öndərin hələ erkən yaşlardan aldığı təlim-tərbiyə, o cümlədən ədəbiyyata olan dərin marağı dayanırdı. Dünya miqyasında geniş və sistemli ədəbiyyat biliyinə malik nadir dövlət xadimlərindən biri olan, hələ gənclik illərindən etibarən qeyri-adi mütaliə qabiliyyəti ilə fərqlənən, hətta cavan yaşlarında tamaşalarda peşəkar teatr xadimləri ilə yanaşı cəsarətlə səhnəyə çıxan Heydər Əliyevin dünyagörüşünün formalaşmasında ədəbiyyat amili xüsusi yer tutmuşdur. Dahi lider bədii ədəbiyyatın onun şəxsiyyət kimi formalaşmasındakı rolunu çıxışlarının birində belə etiraf etmişdir: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan,

hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm. Bu gün sizə deyə bilərəm ki, şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum, onları bu gün də unutmamışam. Bəlkə də, bu əsərlərin bəzilərini ondan sonra oxumamışam, ancaq o illərdə – o uşaqlıq, gənclik illərində mənə o qədər təsir edibdi ki, mən onları unutmamışam" (2, s. 57-58). Bu baxımdan böyük siyasətçinin ana dilinə olan dərin məhəbbəti həm də ədəbiyyatın ona aşıladığı böyük təsirdən qaynaqlanırdı. Buna görə də zəngin bilik və təcrübəsini peşəkar nitqi ilə birləşdirən Heydər Əliyev nəinki ölkəmizdə, ümumən dünya miqyasında XX əsrin görkəmli natiqlərindən biri kimi tanınırdı.

Müstəqil Azərbaycanın qurucusu olan Heydər Əliyev zəngin ritorik keyfiyyətlərə malik olmuş, xüsusilə sözünün fəlsəfi məzmunu, fikirlərinin müdrikliyi ilə böyük xalq rəğbəti qazanmışdır. O, möhkəm hafizəsi, qeyri-adi təfəkkürü, söz seçmək bacarığı, dərin məntiqi, qeyri-verbal vasitələrdən istifadə bacarığı, ümumən, bütün natiqlik keyfiyyətləri ilə auditoriyanı tez bir zamanda ələ alır, dinləyiciləri heyrətləndirirdi. Bir natiq kimi o, nəyi nə vaxt və necə deməyi yaxşı bilir, Azərbaycan dilinin zəngin lüğət tərkibindən, frazeologiyasından, xalq deyim və ifadələrindən, mürəkkəb, ancaq anlaşıqlı sintaktik qəliblərdən məqamında istifadə edirdi. Onun bir natiq kimi əsas silahı səsi, diksiyası, işlətdiyi sözlər, onların ardıcıllığı, ən çətin fikirləri çox sadə, adi sözlərlə çatdırmaq, auditoriyanı inandırmaq, lazımi jestlərdən istifadə qabiliyyəti, faktlara əsaslanmaq, hadisələrə yaxından müdaxilə etmək olmuşdur. Ona görə də uzaqgörən lider ana dilini bilməməyi ciddi nöqsan hesab edir, məsələyə həssaslıqla yanaşır, hətta bu qədim və zəngin dildə danışa bilməyən dövlət məmurlarına ciddi xəbərdarlıqlar edirdi: "Oturun, müəllim tutun, bu dili öyrənin... məgər dünyadan bu dili bilməyə-bilməyə çıxıb gedəcəksiniz? Axı belə şey olmaz!" (3, s. 64). Gələcəkdə problemin tamamilə aradan qaldırılması üçün gənclərin Azərbaycan dilini mükəmməl bilmələrinə xüsusi diqqət yetirir, onlara ana dilində zəngin nitq keyfiyyətlərinə malik olmaları üçün klassiklərimizi oxumağı tövsiyə edirdi: "Gənclər ana dilimizi yaradan və yaşadan bu söz dühalarını, sənət korifeylərini oxumasa, oxuya bilməsə, tariximizi bilməyəcək, bizim mədəniyyətimizi bilməyəcək... Milli-mədəni ənənələrimizi bilməyəcək" (3, s.56).

Heydər Əliyev xalqla elə xalqın dilində danışırdı. İnsanlar bu dahi şəxsiyyətin nitqinin səlisliyini, məntiqliliyini, axıcılığını heyranlıqla qarşılayır, onu dinləməkdən yorulmurdular. Bir sözlə, onun natiqlik məharəti həqiqi mənada yaradıcı fəaliyyət idi. Ona görə də Ümummilli Lider Azərbaycan dili ilə bağlı çıxışlarında nitq mədəniyyəti məsələlərinə xüsusi diqqət yetirirdi. Görkəmli Azərbaycan dilçisi, mərhum akademik Ağamusa Axundov Heydər Əliyevlə bağlı xatirələrində yazır: "Bir dəfə Ulu Öndərimiz məni və Dilçilik İnstitutunun bir neçə əməkdaşını yanına çağırtdırmışdı. O, söhbətə başlamazdan əvvəl üzünü mənə tərəf tutaraq soruşdu: "Nə işlə məşğul olursunuz?" Mən Azərbaycan dilinin ayrı-ayrı sahələri üzrə tədqiqatların aparılması, kitabların yazılması, müxtəlif məzmunda lüğətlərin tərtib olunması və s. məsələlər barədə məlumat verdim. Cavabımdan razı qaldı və dedi: "Bunlar öz yerində, bəs nitq mədəniyyəti ilə bağlı nələr etmişsiniz? Siz bu sahəyə daha çox fikir verməlisiniz ki, xalq öz dilində sərbəst danışa bilsin" (6).

Heydər Əliyevin nitqinin əhəmiyyəti həm bunda idi ki, o, ən mürəkkəb problemlər haqqında söz açadan belə, dinləyiciyə sual yeri qoymur, təfsilatları məntiqlə kütləyə çatdırırdı. Bunun üçün Ulu Öndərin üslubuna xas olan sözlər və ifadələr var idi ki, onlardan yerində və düzgün istifadə edirdi. Məsələn, Heydər Əliyev irsinin tanınmış tədqiqatçılarından biri N.Zamanova görə, Ulu Öndərin nitqində ən çox rast gəlinən məqamlardan biri böyük natiqin "sual qoyub cavab verməsi, digəri isə "bilirsiniz" müraciətidir" (5, s.76). "Bilirsiniz"

sözü ilə dahi lider məsələnin hər kəsə bəlli olduğunu, ancaq bəzi şəxslərin hələ də öz mövqelərində qaldığına işarə edir. Heydər Əliyev nitqinin izahedici xüsusiyyətlərindən biri olaraq N.Zamanov onun anlayışlara verdiyi özünəməxsus izahları qeyd edir: belə ki, nitqin sual və cavab, başqa sözlə, özü ilə dialoq formasından uğurla istifadə olunur. "Diplomat" deyəndə adamın gözünün qabağına nə gəlir? Ən yüksək savadlı, ən yüksək mədəniyyətli, ən gözəl görünüşlü, yaxşı geyimli, yaxşı tərbiyəsi ilə, cəmiyyətdə özünü aparması ilə fərqlənən insanlardır..." Bu sətirləri adi nitq yox, sözlə çəkilmiş portret hesab etmək olar. Bu isə dahi rəhbərin nitqinin başqa bir cəhətini – barəsində söz açdığı problemi, məsələni sözlə təsvir etmək, onu real formada əyaniləşdirmək imkanını əks etdirir. S.Mərdanova haqlı olaraq yazır: "Azərbaycanda natiqlik sənətinin formalaşması tarixi qədim dövrlərə söykənsə də, onun inkişafı daha çox XX əsrlə bağlıdır. Ölkəmizdə natiqlik sənətinin bütün sahələrinin, xüsusilə ictimai-siyasi və diplomatik natiqliyin formalaşıb inkişaf etməsində Ümummilli Lider Heydər Əliyevin xüsusi yeri var" (4, s. 52).

Heydər Əliyev çox vacib ritorik keyfiyyətlərlə zəngin bir şəxsiyyət idi. Belə keyfiyyətləri kiçik bir məqalə həcmində sadalamaq və təhlil etməklə yekunlaşdırmaq mümkün deyil. Lakin onların bir neçəsini qeyd etməyi məqsədəuyğun hesab edirik.

Ana dilini sevmək və ona dərindən yiyələnmək. Dahi rəhbərin sözünün qüdrəti ilk növbədə onun ana dilinə olan dərin məhəbbətindən qaynaqlanırdı: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm".

**Həyəcanını iradəsinə tabe etdirmək.** Fikrimizcə, əsl natiqə verilən başlıca xüsusiyyət danışıq zamanı emosiyaların idarə olunaraq iradəyə tabe etdirilməsidir. Ulu Öndər də məhz bu mühüm keyfiyyətə sahib idi. Onun nitqlərini dinləyərkən bunun əyani şahidi oluruq: o, bütün gərgin situasiyalarda belə tam təmkinlə, səbirlə, əsəbiləşmədən fikirlərini ifadə etməyi bacarırdı.

Auditoriyanın səviyyəsinə uyğun nitq qurmaq. Ulu Öndər hər zaman qarşısındakıların, onu dinləyənlərin, bütövlükdə auditoriyanın hərtərəfli səviyyəsini nəzərə alırdı və onlarla müvafiq qaydada ünsiyyət qururudu. Məmurla məmur, alimlə alim, şairlə şair, sıravi vətəndaşla elə onun "dilində", yəni qarşısındaki insanın səviyyəsinə uyğun üslubda danışaraq müsahibini ələ alır, fikirlərini aydın bəyan edirdi.

**Qətiyyətli nitq qurmaq bacarığı.** Heydər Əliyev çıxışlarının təsir gücünü, əməli əhəmiyyətini artıran digər bir cəhəti də onun nitqinin qətiyyətliliyidir. Heydər Əliyev qətiyyəti onun həqiqətə inam və əminliyindən, haqqında bəhs etdiyi problemə dərindən bələdliyindən, gələcəyə inamından, cəsarətindən və əlbəttə ki, əzəmətli şəxsiyyətindən irəli gəlirdi. Bu qətiyyətdə xalqa güvənmək bacarığı da var idi. Onun nitqi güclü məntiqə dayanırdı: söylədiyi fikirləri ən dolğun və təsirli sözlərlə, dolğun məna və məzmunla çatdırırdı.

**Zəngin söz ehtiyatına maliklik.** Heydər Əliyev zəngin söz ehtiyatına malik idi. O, çıxış edərkən nitqinə fasilə verməz, qəfil duruxmaz, söz axtarmaq üçün fikirləşməzdi. Danışarkən söz və ifadələri yerli-yerində işlədər, təkrar fikirlərə yer ayırmazdı. Təkrarlar yalnız onun nitqini qüvvətləndirən vacib dil elementləri idi. Düzgün seçilən, yerində işlədilən ifadə vasitələri – leksik və frazeoloji sinonimlər, antonimlər, nidalar, müraciətlər, ritorik suallar və s. onun nitqini təsirli edir, estetik cəhətdən gözəlləşdirirdi.

Nitqin xəlqiliyi. Heydər Əliyev nitqinin gücü onun xəlqiliyində idi. Onun nitqində istifadə olunan xalq deyim və ifadələri, frazeologizmlər dahi öndərin ədəbi dillə yanaşı, canlı xalq dilinin də zənginliklərinə vaqif olmasını göstərir. Həmçinin o, ayrı-ayrı auditoriyalarda neologizmlərin sadə xalq dilində izahını verməklə onların, necə deyərlər, "Azərbaycan pasportu"nu verirdi. Natiq çox ehtiyatla, belə demək mümkünsə, sanki bir filoloq, dilçi alim kimi yeni sözləri dilimizə uyğunlaşdırırdı. Bu həm də dahi rəhbərin xüsusi dil duyumundan irəli gəlirdi.

Bir məqamı da xüsusi vurğulamaq istərdik ki, Ulu Öndərin dilimizə qarşı xüsusi diqqət və qayğısı onun dövlətçilik fəaliyyətində də mühüm yer tutur. Məlumdur ki, dövlət müstəqilliyinin bərpasından sonra ölkənin bütün sahələrində yaranan xaos ana dilimizin də dövlət statusundakı mövqeyinin düzgün tənzimlənməməsinə gətirib çıxarmışdı. Bu barədə verilən qərarlar, aparılan müzakirələr qışqırıqlarla, emosiyalarla, subyektiv yanaşmalarla məhdudlaşırdı. Yəni konkret addımlar atılması üçün vahidlik, obyektivlik, demokratiklik prinsiplərinin işə salınması lazım idi. Həm də bütün bunların fövqündə dayanan, xalqın tarixinə, mədəniyyətinə, psixologiyasına və ən əsası bütün bunları özündə cəmləşdirən ana dilimizi dərindən bilən, duyan şəxsiyyətə ehtiyac duyulurdu. Məhz Heydər Əliyev xalqımızın taleyüklü məsələlərinin qloballaşdığı bir zamanda tanrının bizə bəxş etdiyi misilsiz sərvət idi. Onun hakimiyyətə qayıdışı bütün sahələrdə olduğu kimi, Azərbaycan dilinin dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilməsini və natiqlik sənətinin inkişafını uğurla reallaşdırdı. Bir sözlə desək, müstəqllik dövründə ana dilində natiqliyin inkişafı, çiçəklənməsi məhz Heydər Əliyevin apardığı uğurlu dil siyasəti ilə bağlıdır. Ulu Öndərimizin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı ilə ana dilimizin dövlət strukturunda hüquqi mövqeyinin möhkəmlənməsi və dövlətçiliyimizin əsas dayaq sütununa çevrilməsində dönüş nöqtəsi oldu. Beləliklə, o, ana dilimizin qüdrətini həm bənzərsiz şəxsi keyfiyyətləri (xüsusilə natiqlik bacarığı), həm də uğurlu siyasi fəaliyyəti ilə zirvələrə qaldırdı.

**Nəticə**

Ümumiyyətlə, Heydər Əliyevin ana dilimizə olan dərin sevgi və qayğısının təsviri, Azərbaycan natiqlik sənətinin inkişafına verdiyi töhfələr bunlarla bitmir. Ümummilli Liderin ana dilimizə, o cümlədən nitq mədəniyyətinə verdiyi dəyər, bu istqamətdəki çoxşaxəli fəaliyyəti öyrənilməklə bitməyən tükənməz bir xəzinədir. Ona görə də bu irsin tədqiqi, xüsusilə də Heydər Əliyev nitqinin öyrənilməsində linqvistik konsepsiyanın yaradılması üçün daha da geniş tədqiqatların aparılması dilçilərin qarşısında dayanan mühüm vəzifələrdən biridir.

**Ədəbiyyat:**

1. Əhmədova S. Heydər Əliyevin dil siyasəti. Bakı: "İncə" nəşriyyatı, 2010
2. Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili. Redaktor: akad. B.Nəbiyev. Bakı: Elm, 1998
3. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı: Təhsil,1997
4. Mərdanova S. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: Elm və təhsil, 2019
5. Zamanov N. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti. Bakı: Elm və təhsil, 2014
6. https://azkurs.org/nadr-abdullayev.html?page=2

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan dili, natiqlik bacarığı, sözün hikməti*

**Gunay Magsudova**
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan*
*Department of Languages, Lecturer, Ph.D. in Philology*

# HEYDAR ALIYEV AND MODERN RHETORIC

## ABSTRACT

Heydar Aliyev, the National Leader of the Azerbaijani nation, who could fully utilize the richness of his native language, and its lexical-semantic potential, was one of the world's most outstanding orators of the 20th century. In all his speeches, interviews, public pleas, and conversations with everyone, from ordinary citizens to prominent representatives of the intelligentsia, the power of words determined his attitude toward his native language. He was one of the few twentieth-century leaders who possessed the unique energy of the word with all its possibilities, blended the richness of his native language with his deep mind, and voiced wise thoughts. As a result of these extraordinary abilities, Heydar Aliyev's words and expressions have become aphorisms among people today.

From this perspective, the article describes the exceptional speech of a brilliant leader who possesses a deep mind, inherent talent, and professional speech in his native language. It is stated that due to the power of his words, the world became acquainted with our language, people, and state. The author informs readers about Heydar Aliyev's profound understanding of the capacity of our native language and analyzes his unprecedented role in this field.

***Keywords:*** *Heydar Aliyev, Azerbaijani language, speaking, wisdom of the word*

**Гюнай Магсудова**

***Преподаватель кафедры Языков***
***Академии Государственного Управления***
***при Президенте Азербайджанской Республики,***
***доктор философии по филологии***

## ГЕЙДАР АЛИЕВ И СОВРЕМЕННАЯ РИТОРИКА

### РЕЗЮМЕ

Общенациональный лидер азербайджанского народа Гейдар Алиев, обладавший способностью максимально полно использовать богатство родного языка, его лексико-семантический потенциал, являлся одним из выдающихся ораторов XX века на мировом уровне. Во всех его выступлениях: интервью, обращениях к народу, в беседах со всеми, от простых граждан до видных представителей интеллигенции, за его отношением к родному языку стояла сила слова. Он был одним из немногих государственных деятелей прошлого века, который обладал редчайшей энергией слова со всеми его возможностями, сочетал богатство родного языка с его глубоким умом и озвучивал мудрые мысли. В результате этих необыкновенных способностей сегодня слова и выражения Гейдара Алиева стали афоризмами в народе. С этой точки зрения в статье рассказывается об образцовой речи гениального лидера, обладающего глубоким умом, врожденным талантом и профессиональной речью на родном языке, говорится о том, что благодаря силе его слова мир узнал наш язык, наш народ и государство. Автор информирует читателей о том, насколько глубоко Гейдар Алиев был осведомлен о возможностях нашего родного языка, анализирует его беспрецедентную роль в этой сфере.

***Ключевые слова:*** *Гейдар Алиев, азербайджанский язык, говорение, мудрость слова*

UOT 342

**SEYFULLA ASLANOV**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquq" kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru*

*e-mail: aslanovseyfulla@gmail.com*

# HEYDƏR ƏLİYEV VƏ TARİXİ YADDAŞ SİYASƏTİ: AZƏRBAYCANLILARIN DEPORTASİYASI KONTEKSTİNDƏ

*Müstəqillik dövründə qazandığımız mühüm nailiyyətlərdən biri tariximizin uzun illər gizli saxlanılan, saxtalaşdırılan və təhrif edilən dövr və hadisələrinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə etməyimizdir. Belə hadisələrdən biri də dövlətimiz tərəfindən artıq öz siyasi və hüquqi qiymətini almış azərbaycanlıların soyqırımıdır. Biz bir daha tarixi keçmişə qayıdır, xalqımıza qarşı açıq şəkildə həyata keçirilən geniş miqyaslı aksiyaları ürək ağrısı ilə yad edirik.*

*Heydər Əliyev*
*Azərbaycan xalqının Ümummilli Lideri*

Müvəffəqiyyətlə yola saldığımız "Şuşa İli"dən "Heydər Əliyev ili"nə keçid təqvim ilinin sadəcə dəyişməsi olmayıb, doğma Azərbaycanımızın tarixində üzvi əlaqədə olan iki böyük Milli Sərvətin bir-birini tamamlaması, məntiqi ardıcıllığı kimi qiymətləndirilməlidir. Qarabağın tacı, Qafqazın sənət məbədi, Şərqin konservatoriyası, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm xidmətləri olan görkəmli xadimlərin vətəni, doğma şəhər, əziz bir torpaq, hərbi-strateji əhəmiyyətli qala və müqəddəs abidə kimi Şuşanı xarakterizə edərkən, Ümummilli Lider Heydər Əliyev deyirdi: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir."[1]

Təsadüfi deyildir ki, Şuşanın işğaldan azad edildiyi gün – 2020-ci il noyabrın 8-i "Zəfər günü", həmçinin uzun illər işğal altında olan torpaqlarımızın azad edilməsi üçün misilsiz səylər göstərmiş Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinin həyata keçirildiyi gün oldu. Həmin tarixi hadisə ilə əlaqədar Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları böyük fəxarət hissi və qürurla deyirdi: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun

Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"

Ümummilli Lider Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır.

Ermənistan tərəfindən torpaqlarımızın işğal olunmasının beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında möhtəşəm tarixi xidmətlərindən biri də, ötən iki əsrdə azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımızın ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmasına tarixi hüquqi qiymətin verilməsindən ibarət olmuşdur. Nəinki tariximizin əvvəlki dövrlərində, hətta müstəqilliyimizin ilk illərində bu faciələr diqqətdən kənarda qalmışdır. Yalnız Ulu Öndər ikinci dəfə hakimiyyətə gəldikdən sonra ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı və deportasiya cinayətlərinə əsl hüquqi-siyasi qiymət verildi [6, 158].

Qalib ordunun Ali Baş Komandanı, möhtərəm cənab prezident İlham Əliyevin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 18 yanvar 2018-ci il tarixli Sərəncamında [10] bu tarixi hadisə barədə qeyd edildiyi kimi, erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl - 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirmiş, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirmişlər.

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaratmış, komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görmüşdür. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınmışdır. Yalnız 80 il sonra – 1998-ci il martın 26-da Ümummilli Lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında [9] həmin dəhşətli hadisələrə adekvat siyasi-hüquqi qiymət verilmiş və 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir.

Ötən illər ərzində aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanmış, Quba şəhərində kütləvi məzarlıq aşkar olunmuşdur. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha

geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir.

Bu faciəli hadisələrin tarixi kökləri dərin idi. Belə ki, Rusiya və İran imperiyaları arasında Azərbaycana sahib olmaq uğrunda XIX əsrin birinci rübündə amansız və uzun sürən işğalçılıq müharibələrinin nəticəsi olaraq, Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə Azərbaycan iki imperiya arasında bölündü. Həmçinin Azərbaycanın çar imperiyası tərəfindən ilhaq olunan hissəsi yenidən bir neçə dəfə təkrar bölüşdürüldü. Bu haqda akademik Yaqub Mahmudovun qeyd etdiyi kimi, "Rusiyadan Azərbaycan ərazisinə xristian əhalinin köçürülüb gətirilməsinə cəhd göstərildi. İlk zamanlar bu siyasət baş tutmadıqda Rusiya Cənubi Qafqazda özünə dayaq yaratmaq üçün işğal etdiyi Azərbaycan torpaqlarına, xüsusən Qarabağın dağlıq rayonlarına, keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə qonşu ölkələrdən kütləvi surətdə erməni əhalisi köçürdü. Türkiyə ilə həmsərhəd olan Qərbi Azərbaycan torpaqlarında – keçmiş İrəvan, Naxçıvan xanlıqlarının ərazisində süni surətdə və xüsusi məqsədlə "Erməni vilayəti" yaradıldı." [2, 380].

Bununla da, Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə həmin siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırım Azərbaycan torpaqlarının işğalının bir formasına çevrildi. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında, süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və soyqırımı siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" ermənilərin tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı.

Şübhəsiz ki, qeyd olunan məsələlər tarix elminin predmetidir, hərtərəfli, tam və obyektiv tədqiq etmək isə Azərbaycan tarixçilərinin tarixi vəzifəsidir. Lakin burada mübahisəsiz qeyd etməliyik ki, Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Sonralar tarixi dövr 30-cu illərin ağır repressiyaları ilə müşayiət olunaraq Azərbaycanin ziyalı genofondunun məhvinə nail olunmuş, bunun ardınca 1948-53-cü illər azərbaycanlıların kütləvi deportasiya dalğası, 80-ci illərdən başlayaraq Dağlıq Qarabağ probleminin yenidən süni şəkildə qızışdırılması, 1990-cı il 20 yanvar faciəsi və 1992-ci il Xocalı soyqırımı demək olar ki, bu faciələrin pik nöqtəsi oldu [5].

Qeyd olunanların araşdırılması, həm də dövlət səviyyəsində araşdırılması, siyasi-hüquqi qiymət verilməsi və dünyaya çatdırılması tarixi bir vəzifə idi. Bu tarixi vəzifəni də dünya şöhrətli tarixi şəxsiyyət Ümummilli Lider Heydər Əliyev yerinə yetirdi. Ulu Öndərin 18 dekabr 1997-ci il tarixli Fərmanı [8] ilə 1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə Dövlət Komissiyası yaradılmışdır. Bu Fərmanın xüsusi diqqət çəkən məqamlarından biri də həmin Dövlət Komissiyasının sədri vəzifəsini Ümummilli Lider Heydər Əliyevin şəxsən öz üzərinə götürməsindən ibarət idi.

Ümummilli Lider Heydər Əliyevin həmin Komissiyaya rəhbərliyi şəxsən öz üzərinə götürməsi, təkcə Azərbaycan Respublikasının deyil, bütünlükdə dünyanın dövlət və hüquq

tarixi üçün nadir hadisə idi. Bu tarixi hadisə Ulu Öndərin milli faciələrimizin araşdırılmasına xüsusi diqqət göstərməsi və dəyərləndirməsi ilə əlaqədar idi. Fərmanda ürək ağrısı ilə göstərilirdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən – min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948–1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır. Təəssüf ki, 1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir."

Azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiyasına totalitar-sovet-bolşevik rejimi münbit şərait yaratmışdı. Erməni şovinist dairələri isə bundan cinayətkar məqsədlərini həyata keçirmək üçün "məharətlə" istifadə etmişlər. Belə ki, deportasiya, repressiya, "qırmızı terror" və soyqırım cinayətləri totalitar sovet-bolşevik rejiminin və proletar diktaturasının mahiyyətindən törəyən, onun səciyyəvi keyfiyyət xüsusiyyətlərini özündə birləşdirən, doğruluğunun isbata ehtiyacı olmayan obyektiv hadisələr idi.

Qeyd olunan qanlı cinayətlər bu üsul idarənin mahiyyətindən törədiyindən "stalinizm" dövrü başa çatmasına, keçmiş SSRİ rəhbərliyinin dəfələrlə dəyişməsinə baxmayaraq, deportasiya cinayətlərinə siyasi-hüquqi qiymət verilməmişdir. Yalnız totalitar sovet-bolşevik rejimi dağılmaq, süqut etmək ərəfəsində, yəni 1989-cu il noyabr ayının 14-də SSRİ Ali Soveti "Zorla köçürülmüş xalqlara qarşı repressiya tədbirlərinin qanunsuz, cinayətkar tədbirlər hesab edilməsi və onların hüquqlarının təmin olunması haqqında" bəyannamə qəbul etmişdir. Həmin bəyannamə qəbul edildikdən 10 gün sonra, yəni 1989-cu il noyabr ayının 24-də əvvəlcə Moskvada "İzvestiya" qəzetində [15,1], sonra, elə həmin gün Bakıda "Kommunist" qəzetində çap olunmuşdur [7, 1].

Göründüyü kimi, keçmiş SSRİ Ali Soveti həmin vaxtda belə, sözü gedən məsələ üzrə səlahiyyətlərinə bilavasitə aid edilən normativ hüquqi akt deyil, məcburi davranış qaydalarını özündə əks etdirməyən, direktiv xarakterli, heç bir hüquqi nəticə törətməyən və hər hansı bir faktiki icra mexanizmi olmayan formal xarakterli bəyannamə qəbul etmişdir.

Qeyd olunan naqis cəhətlərinə baxmayaraq, bəyannamədə keçmiş SSRİ Ali Soveti xalqları zorla köçürmək praktikasını beynəlxalq hüququn əsaslarına, humanizm prinsipinə zidd olan ən ağır cinayət kimi qətiyyətlə pislənilmişdir: "Yaddaş xüsusi bir kədər hissilə bizi Stalin repressiyalarının faciəli illərinə aparır. Qanunsuz və özbaşınalıq heç bir respublikadan, heç bir xalqdan yan keçməmişdir. Keçmişdə yol verilmiş kütləvi həbslər, düşərgələrdəki əzablar, köçürmə zonalarında olmuş binəsib qadınlar, qocalar və uşaqlar indinin özündə də bizə vicdan əzabı verir, mənəviyyatımıza həqarət gətirir. Bunu unutmaq olmaz".

Keçmiş SSRİ Ali Soveti həmin sənəddə repressiyalara məruz qalmış bütün sovet xalqlarının hüquqlarının qəti bərpası üçün müvafiq

qanunvericilik tədbirləri görməyi zəruri hesab etmişdir. Həmin bəyannamədə daha sonra qeyd olunur ki, balkarların, inquşların, kalmıkların, qaraçayların, Krım tatarlarının, almanların, Mesxeti türklərinin, çeçenlərin doğma yerlərindən köçürülməsi Stalin rejiminin vəhşi tədbirləri olmuşdur. Xalqları zorla köçürmək siyasəti koreyalıların, yunanların, kürdlərin və başqa xalqların taleyində də öz əksini tapmışdır.

Göründüyü kimi, zorla köçürmə siyasətinin qurbanı olmuş xalqların siyahısında azərbaycanlıların adlarının olmaması, Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyaya məruz qalmış millətimizə qarşı tarixi ədalətsizliklə bərabər, keçmiş SSRİ Ali Soveti həmin bəyannaməsinin naqis cəhətlərindən biri kimi qiymətləndirilməlidir.

Şübhəsiz ki, 1989-cu il 14 noyabr tarixli bəyannamədə adları sadalanan xalqlarla müqayisədə, deportasiya olunmuş azərbaycanlıların sayı, gerçəkləşdirilən qeyri-insani və cinayətkar siyasət nəticəsində törədilmiş faciələrin miqyası, eləcə də bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydalarının daha amansız surətdə geniş tətbiq edilməsi xüsusi vurğulanmalıdır. Yəni qeyd olunan səciyyəvi keyfiyyət xüsusiyyətinə görə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası sözügedən bəyannamədə adları sadalanan xalqlardan, xüsusi ağırlıq dərəcəsinə görə tamamilə fərqlənir.

Təbii olaraq, belə bir sual qarşıda durur: azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının səciyyəvi keyfiyyət xüsusiyyəti nədən ibarətdir? Xüsusi araşdırma aparmadan bu suala birmənalı və konkret cavab vermək olar – erməni şovinist dairələrinin Azərbaycan xalqına qarşı yönəlmiş soyqırım cinayəti. Bu bir həqiqətdir, gün kimi aydın həqiqət, doğruluğunun isbata ehtiyacı olmayan aksiomdur.

Azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının erməni şovinist dairələrinin Azərbaycan xalqının məhvinə yönəlmiş soyqırım cinayətinin obyektiv cəhətinin zəruri ünsürü olmasını təsdiq edən başqa bir fakt – 1989-cu il 14 noyabr tarixli bəyannamənin icrası ilə əlaqədar verilən normativ hüquqi aktlarla təsdiqlənir. Belə ki, "“Zorla köçürülmüş xalqlara qarşı repressiya tədbirlərinin qanunsuz, cinayətkar tədbirlər hesab edilməsi və onların hüquqlarının təmin olunması haqqında” bəyannamə ilə əlaqədar bəzi qanunvericilik aktlarının hüquqi qüvvəsini itirməsi haqqında” SSRİ Ali Sovetinin 1991-ci il 7 mart tarixli qərarı [12,302] ilə keçmiş SSRİ-in 16 ədəd qanunvericilik aktı ləğv edilmişdir. Hüquqi qüvvəsini itirmiş həmin qanunvericilik aktlarının sırasında Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktları olan SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında"kı 1947-ci il 23 dekabr tarixli 4083 saylı və "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 10 mart 1948-ci il tarixli qərarlarının [4] olması, şübhəsiz ki, erməni şovinist dairələrinin cinayət əməlləridir.

Erməni şovinist dairələrinin cinayət əməlləri ilə əlaqədar diqqət tələb edən başqa bir məsələ ondan ibarətdir ki, SSRİ Ali Sovetinin yuxarıda adı qeyd olunan 1991-ci il 7 mart tarixli qərarı ilə "“1944-cü ildə Gürcüstan SSR-dən deportasiya olunmuş milliyyətcə azərbaycanlı olan SSRİ vətəndaşlarına qarşı müəyyənləşdirilmiş məhdudiyyətlərin ləğv edilməsi haqqında” SSRİ Ali Soveti Rəyasət Heyətinin 1957-ci il 31 oktyabr tarixli fərmanının 2-ci maddəsi” [14,302] hüquqi qüvvəsini itirmişdir. Eyni zamanda, həmin qərarla “Əvvəllər Gürcüstan SSR-də yaşamış SSRİ vətəndaşlarına – türklər, kürdlər, xemşillər və azərbaycanlılara münasibətdə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1957-ci il 31 oktyabr tarixli fərmanının 2-ci maddəsinin və SSRİ Ali Soveti Rəyasət Heyətinin 1956-cı il 28 aprel tarixli fərmanının 2-ci maddəsinin tətbiq edilməsi qaydası haqqında” SSRİ Ali Soveti Rəyasət Heyətinin 1968-ci il 30 may tarixli qərarı [13,188] ləğv edilmişdir.

Göründüyü kimi, SSRİ Ali Sovetinin yuxarıda adı qeyd olunan 1991-ci il 7 mart tarixli həmin qərarında azərbaycanlıların Ermənistan SSR ərazisindən kütləvi surətdə deportasiyası barədə yuxarıda adı qeyd olunan iki qərarın heç birinin daxil edilməməsinə baxmayaraq, azərbaycanlıların Gürcüstan SSR-dən deportasiyası haqqında qərarların adları, istisnasız həmin sənədə əlavə olunmuşdur. Bu da, heç şübhəsiz ki, həmin dövrdə erməni şovinist dairələri ilə keçmiş SSRİ rəhbərliyinin (Fransada hazırkı Makron hökuməti ilə olduğu kimi) isti münasibətinin nəticəsi idi.

Bu tarixi ədalətsizliklərlə və saxtakarlıqlarla mübarizə aparmağımızda, həqiqətlərin dünya xalqlarına çatdırılmasında müstəqilliyimizin əldə olunması bizim üçün geniş meydan açmışdır. Ümummilli Lider Heydər Əliyev bu barədə deyirdi: “Müstəqillik dövründə qazandığımız mühüm nailiyyətlərdən biri tariximizin uzun illər gizli saxlanılan, saxtalaşdırılan və təhrif edilən dövr və hadisələrinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə etməyimizdir. Belə hadisələrdən biri də dövlətimiz tərəfindən artıq öz siyasi və hüquqi qiymətini almış azərbaycanlıların soyqırımıdır. Biz bir daha tarixi keçmişə qayıdır, xalqımıza qarşı açıq şəkildə həyata keçirilən geniş miqyaslı aksiyaları ürək ağrısı ilə yad edirik.”

Hörmətli professorumuz Şəhla xanım Səmədovanın ürək ağrısı və təəssüflə qeyd etdiyi kimi, irqi ayrı-seçkilik – aparteid istisna olmaqla, CM-nin 7-ci bölməsində göstərilən bütün cinayətlər (Sülh və insanlıq əleyhinə cinayətlər) Ermənistan Respublikası tərəfindən Azərbaycan ərazisində və Azərbaycan vətəndaşlarına qarşı törədilmişdir. Bu günə kimi bu cinayətləri törədən şəxslərdən heç kim mühakimə olunmamışdır [3].

Doğrudur, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev cənablarının rəhbərliyi, ordumuzun və xalqımızın “Dəmir yumruq” kimi birləşməsi nəticəsində 44 günlük vətən müharibəsində Xocalı soyqırımını və Azərbaycan vətəndaşlarına qarşı törədilmiş digər ağır cinayətləri törətmiş erməni cəlladlarının layiqli cəzaları verilmişdir. Lakin hərb meydanında verilmiş layiqli cəzalar hüquqi müstəvidə də reallaşdırılmalıdır.

Bu yolda hüquqşünasların əsas vəzifələrindən biri də departasiya hadisələrinə tarixi hüquqi qiymət verilərkən, onun soyqırım cinayətinin obyektiv cəhətinin zəruri elementi olmasını hüquqi cəhətdən əsaslandırmaqdan ibarətdir.

Soyqırım və digər beynəlxalq cinayətlər – millətlərin, xalqların, eləcə də milli, etnik, irqi, yaxud dini qrupların və bütünlükdə insanlığın təhlükəsizliyinə, beynəlxalq sülhə qəsd edən, beynəlxalq hüququn əsas prinsiplərini kobud şəkildə pozan ictimai təhlükəli, təqsirli, cəzalanmalı olan əməllərdir. Hüquqi tərkibi beynəlxalq hüquq normalarında müəyyən edilən, beynəlxalq hüquqi aktlarla tənzimlənən və beynəlxalq hüquqa zidd olan bu əməllər müəyyən bir dövlətin və ya dövlətlərin, millətlərin, xalqların, yaxud müəyyən qrupların hüquqlarını və qanuni mənafelərini, eləcə də beynəlxalq səviyyədə tanınmış insan hüquqlarını və azadlıqlarını kobud və kütləvi surətdə pozması ilə xarakterizə olunur.

Qeyd etmək lazımdır ki, cinayət qanununun digər normalarından fərqli olaraq, bu əməllər həm beynəlxalq hüquqda, həm də milli cinayət qanunvericiliyində cinayət hesab olunur. Bu sahədə olan beynəlxalq hüquqi aktlar milli cinayət qanunvericiliyinin inkişafında, beynəlxalq təcrübəyə uyğunlaşdırılmasında (unifikasıyasında) və təkmilləşdirilməsində mühüm rol oynamaqla yanaşı, soyqırım və digər beynəlxalq cinayətlərin hüquqi tənzimlənməsi sahəsində cinayət hüququnun mənbələri kimi də əhəmiyyət kəsb edirlər. Adətən, qeyd olunan sahədəki beynəlxalq hüquqi aktların təsnifatı aparılarkən onlar şərti olaraq 4 qrupa bölünürlər.

Birinci qrupa, bilavasitə soyqırım və digər beynəlxalq cinayətlərə həsr olunmuş və bu bölməyə aid cinayətlərin konkret tərkiblərini müəyyən edən beynəlxalq hüquqi aktlar daxildir. Məsələn, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 9 dekabr 1948-ci il tarixdə qəbul olunmuş və 12 yanvar 1951-ci ildə qüvvəyə minmiş “Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında” Konvensiya (Azərbaycan Respublikası 31 may 1996-cı il tarixli Qanunla həmin Konvensiyaya qoşulmuşdur) [11], Aparteid

cinayəti ilə mübarizə və onun cəzalandırılması haqqında 1973-cü il Konvensiyası, Beynəlxalq səviyyədə müdafiə olunan şəxslər, o cümlədən diplomatik agentlər əleyhinə cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında 1973-cü il Konvensiyası, Girov götürülməsi ilə mübarizə haqqında 1979-cu il Beynəlxalq Konvensiyası, Nüvə materialının fiziki müdafiəsi haqqında 1980-cı il Konvensiyası və s.

İkinci qrupa tərkibində soyqırım və digər beynəlxalq cinayətlərə aid müddəalar olan beynəlxalq müqavilələr və digər beynəlxalq hüquqi aktlar (məsələn, Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyası, Ümumdünya Poçt Konvensiyası, Dəniz hüququ haqqında 1958-ci il Konvensiyası, Dəniz hüququ üzrə 1982-ci il BMT Konvensiyası və s.

Bu cinayətlərin hüquqi tənzimlənməsi sahəsində mühüm rol oynayan beynəlxalq hüquqi aktların üçüncü qrupuna beynəlxalq tribunalların və beynəlxalq təşkilatların nizamnamələri (Nürnberq, Tokio, Yuqoslaviya və Ruanda tribunallarının Nizamnamələri, Beynəlxalq cinayət məhkəməsinin Nizamnaməsi və Beynəlxalq cinayət polisi təşkilatının (İnterpolun) Nizamnaməsi) daxildir.

Nəhayət, bu cinayətlərlə mübarizə sahəsində əməkdaşlıq və ya hüquqi yardım haqqında ikitərəfli müqavilələr də qeyd olunan ictimai münasibətlərin hüquqi tənzimlənməsində mühüm rol oynayır.

Soyqırım və digər beynəlxalq cinayətlərə qarşı beynəlxalq cinayət hüquqi mübarizənin tarixi, hüquq ədəbiyyatında mövcud fikirlərə hörmətlə yanaşmaqla və mübahisələrə münasibət bildirmədən demək olar ki, alman və yapon militaristlərini cəzalandırmaq üçün təsis olunmuş Nürnberq və Tokio tribunallarından başlayır. Belə ki, Nürnberq və Tokio tribunalları bu sahədə beynəlxalq cinayət hüququnun inkişafında əhəmiyyətli rol oynamaqla beynəlxalq fərdi cinayət məsuliyyətinin əsasını qoymuşdurlar. Hüquq tarixində ilk dəfə olaraq soyqırım və digər beynəlxalq cinayətlər törətmiş fiziki şəxslər beynəlxalq məhkəmə orqanı tərəfindən beynəlxalq hüquq normaları əsasında mühakimə olundular.

Diqqət tələb edən məsələ odur ki, 30 dekabr 1999-cu il tarixdə qəbul edilmiş və 1 sentyabr 2000-ci il tarixdən qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin ümumi hissəsində sadalanan cinayət-hüquqi mühafizə obyektləri sırasına, ölkəmizin hüquq tarixində ilk dəfə olaraq, sülh və insanlığın təhlükəsizliyi daxil edilmişdir. Belə ki, 1999-cu il CM-nin 2.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

Soyqırım cinayətlərinin hüquqi tənzimləməsinin təkmilləşdirilməsi, azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə – deportasiya hadisələrinə hüquqi qiymət verilərkən, onun soyqırım cinayətlərinin obyektiv cəhətinin zəruri elementi kimi hüquqi cəhətdən əsaslandırması və onun beynəlxalq ictimaiyyətə çatdırılması hüquq elmimizin və hüquqşünasların mühüm vəzifələrindən biridir.

**Ədəbiyyat:**


1. Elçin Əhmədov. "Şuşa ili"ndən "Heydər Əliyev ilinə" – "Azərbaycan" qəzeti, 4 yanvar 2023-cü il – https://www.azerbaijan-news.az/
2. Yaqub Mahmudov. Qarabağ: real tarix. B.: Təhsil, 2005.- 380 s.
3. Şəhla Səmədova. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən normalarının tətbiqi məsələləri haqqında // "Qanunçuluq" jurnalı, 2006, № 6.
4. "Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər)". sənədlər toplusu. Tarix elmləri doktoru Ataxan Paşayevin redaktorluğu ilə. Bakı, "Zərdabi LTD" MMC nəşriyyat-poliqrafiya müəssisəsi, 2013.
5. Leyla Hüseynova. Heydər Əliyev irsində azərbaycanlıların soyqırımı və doğma yurdlarından deportasiya edilməsi məsələlərinə münasibət. // https://science.gov.az/az/news/open/20802
6. Seyfulla Aslanov. "Yaşamaq hüququnun təmini sahəsində hüquqi tənzimləmənin aktual məsələləri (soyqırım cinayətləri kontekstində)" // Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində 05.05.2022-ci il tarixdə keçirilən "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda elmi-nəzəri konfransın materialları. Bakı-2022, s.158-165.
7. SSRİ Ali Sovetinin "Zorla köçürülmüş xalqlara qarşı repressiya tədbirlərinin qanunsuz, cinayətkar tədbirlər hesab edilməsi və onların hüquqlarının təmin olunması haqqında" 14 noyabr 1989-cu il tarixli bəyannaməsi // "Kommunist" qəzeti, 24 noyabr 1989-cu il, №270 (21038).
8. "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 1997-ci il tarixli Fərmanı // https://e-qanun.az/framework/4099
9. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixli Fərmanı // https://e-qanun.az/framework/4684
10. "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2018-ci il tarixli Sərəncamı // https://e-qanun.az/framework/37632
11. "Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında Konvensiyaya qoşulmaq barədə" Azərbaycan Respublikasının 31 may 1996-cı il tarixli qanunu // https://e-qanun.az/framework/4073
12. Указа Президиума Верховного Совета СССР от 31 октября 1957 г. «О снятии ограничений с граждан СССР азербайджанской национальности, переселенных в 1944 г. из Грузинской ССР». Ведомости Съезда народных депутатов СССР и Верховного Совета СССР. 1991. № 11. Ст. 302.
13. Постановление Президиума Верховного Совета СССР от 30 мая 1968 г. «О порядке применения в отношении граждан СССР – турок, курдов, хемшилов и азербайджанцев, проживавших ранее в Грузинской ССР – статьи 2 Указа Президиума Верховного Совета СССР от 28 апреля 1956 г. и статьи 2 Указа Президиума Верховного Совета СССР от 31 октября 1957 г.». (Ведомости Верховного Совета СССР. 1968. № 23. С. 188) .
14. Постановление Верховного Совета СССР «Об отмене законодательных актов в связи с Декларацией Верховного Совета СССР от 14 ноября 1989 года «О признании незаконными и преступными репрессивных актов против народов, подвергшихся насильственному пересе-

лению, и обеспечении их прав». Ведомости Съезда народных депутатов СССР и Верховного Совета СССР. 1991. № 11. Ст. 302.
15. Декларация Верховного Совета СССР «О признании незаконными и преступными репрессивных актов против народов, подвергшихся насильственному переселению, и обеспечении их прав» // «Известия», М., 24 ноября 1989 г.

***Açar sözlər:*** *deportasiya, soyqırım, cinayət tərkibi, beynəlxalq hüquq, beynəlxalq cinayətlər*

**Seyfulla Aslanov**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Law, Lecturer, Ph.D. in Law***

## HEYDAR ALIYEV AND THE HISTORICAL POLICY OF REMEMBRANCE: IN THE CONTEXT OF THE DEPORTATION OF AZERBAIJANIS

### ABSTRACT

The article presented for the first time the political and legal assessment of the purposeful deportation policy towards Azerbaijanis by the National Leader Heydar Aliyev. The great leader was directly involved in investigating the noted historical events and personally headed the State Commission. Unlike the deportation of other peoples, the deportation of Azerbaijanis was aimed at the physical destruction of thousands of our compatriots as a result of the heinous criminal activities of Armenian nationalists.

***Keywords:*** *deportation, genocide, corpus delicti, international law, international crimes*

**Сейфулла Асланов**

***Преподаватель кафедры Права***
***Академии Государственного Управления***
***при Президенте Азербайджанской Республики,***
***доктор философии по праву***

# ГЕЙДАР АЛИЕВ И ИСТОРИЧЕСКАЯ ПОЛИТИКА ПАМЯТИ: В КОНТЕКСТЕ ДЕПОРТАЦИИ АЗЕРБАЙДЖАНЦЕВ

## РЕЗЮМЕ

В статье впервые была представлена политико-правовая оценка Общенациональным лидером Гейдаром Алиевым целенаправленной депортационной политики в отношении азербайджанцев. Великий лидер принимал непосредственное участие в расследовании отмеченных исторических событий, лично возглавлял Государственную комиссию. В отличие от депортации других народов, депортация азербайджанцев была направлена на физическое уничтожение тысяч наших соотечественников в результате гнусной преступной деятельности армянских националистов.

***Ключевые слова:*** *депортация, геноцид, состав преступления, международное право, международные преступления*

UOT 327

**ELDAR CƏFƏROV**

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru***

*e-mail: ejafarlibm@gmail.com*

# MÜASIR DÖVRDƏ AZƏRBAYCAN RESPUBLİKASI-MÜQƏDDƏS TAXT-TAC MÜNASİBƏTLƏRİ HEYDƏR ƏLİYEV DİPLOMATİYASININ UĞURU KİMİ

**Giriş**

XXI əsrin əvvəllərindən dünyanı terror və təhlükəsizlik problemləri cənginə alıb və dövlətlər bu məsələlərdə düzgün yanaşma və birliyə səy göstərmir. Müasir beynəlxalq münasibətlər sistemində ksenofobiya, islamofobiya, antisemitizm, neonasizm, rasizm və ekstremist ideologiyalardan doğan terrorun şiddətləndiyi bir dövrdə Azərbaycan və Müqəddəs Taxt-tac arasında bütün bu ayrı-seçkiliklərdən uzaq, tolerant və inkişaf yönümlü əlaqələr mövcuddur. İki dövlətin əməkdaşlığı özündə həm də dinlərin və mədəniyyətlərin qarşılıqlı əlaqələrdə inkişafını ehtiva edir. Azərbaycan və Vatikan münasibətlərində əsas olaraq humanitar əməkdaşlığın yüksək səviyyədə inkişafı nəzərə çarpmaqdadır.

Bu tolerant ünsiyyət modelinin formalaşmasında Ümummilli Lider Heydər Əliyevin "Azərbaycançılıq" ideologiyasının da kökündə duran multikulturalizm elementi durur. Məlumdur ki, Sovet hakimiyyəti illərində çoxsaylı dini abidələr yox edilir və hətta təhqirəramiz formada başqa məqsədlər üçün, anbar və s. istifadə edilirdi. Məhz bu cür rəftara XX əsrin 10-cu illərində tikilmiş olan ölkənin ilk katolik kilsəsi də məruz qalmışdı. 30-cu illərdə bu dini məbəd dağıdılmışdı. Kilsənin əsas ziyarətçiləri həm də təsisçiləri polyaklar idilər və partladıldıqdan sonra kilsənin keşişi Stefan Demurov həbsə atılır və daha sonra güllələnir [2, s.143]

Bu gün isə Mədəniyyət Nazirliyinin rəsmi məlumatına əsasən ölkə ərazisindəki 10-dan çox kilsə aktiv olaraq fəaliyyətdədir və erməni işğalından azad edilmiş ərazilərdə də bərpa işlərinə başlanılmışdır və Kəlbəcərdəki Xudavəng monastırına Alban-udin xristian icmasının sədr müavini Rafik Danakari vaiz təyin olunub [19]. Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin açıqlamasına əsasən işğaldan azad edilmiş ərazilərdə də bütün kilsə və məscidlər bərpa ediləcək [20].

Heydər Əliyev ölkə ərazisində həm İslam, həm də digər inanclara hörmət edib inkişafına şərait yaratmışdır. Gürcü Yəhudilərinin Bakı dini icmasının rəhbəri Zamir İsayev çıxışlarından birində Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu tolerantlıq ideyalarından bəhs edib. Bildirib ki, 1996-cı ildən etibarən Azərbaycanda dövlət məktəbinin tərkibində yəhudi sinfi fəaliyyət göstərir. Onun sözlərinə görə, dünyanın heç bir yerində bu cür imkan yaradılmır. Məhz bunun nəticəsidir ki, Azərbaycanda dinindən və millətin asılı olmayaraq hər kəs mehriban yaşayır [21].

Ulu Öndər fanatizmə də qətiyyətlə qarşı çıxıb, gənclərə doğru əxlaqi və tərbiyəvi xüsusiyyətlərin aşılanmasını qeyd etmişdir. Heydər Əliyev 1996-cı il fevral ayının 2-də keçirilmiş Müstəqil Azərbaycan Gənclərinin I forumundakı çıxışında demişdir: "Ayrı-ayrı qruplar gənclərə fanatizm əhval-ruhiyyəsi aşılamaq

istəyirlər və bunlar da bizim gənclərin tərbiyəsinə zərər vurur...” [22].

Vatikan rəsmiləri də dəfələrlə Azərbaycan Respublikası sərhədlərində dünyəvi siyasətin həqiqətən də uğurlu qurulmasını və təhsilin sekulyarlığını təqdir ediblər. Bu siyasətin Ulu Öndər üçün önəmli idi və dini abidələrin bərpası, mühafizəsi və onların sərbəst fəaliyyət göstərməsinə nəzarət siyasəti həyata keçirilib.

Məhz Heydər Əliyevin siyasi və hüquqi müstəvidə mədəni fərqliliklərin qorunması sahəsində fəaliyyəti bu gün də davam etdirilərək nümunəvi və müstəsna əhəmiyyət kəsb edib.

Papalıq və Azərbaycan münasibətlərini diaspor fəaliyyəti nəticəsi kimi deyil, tolerant və yumşaq güc nəticəsi kimi qəbul etməyimizin səbəbi ölkədə katolik dini konfessiyasının ardıcıllarının sayının hətta Vatikandakı katolik sayından belə az olmasından və diaspor fəaliyyətindən çox hökumətlərarası təşəbbüs nəticəsində əlaqələrin inkişaf etdirilməsindən qaynaqlanır.

**Azərbaycan-Vatikan münasibətlərinin qurulması.** Dövlətlər arasında diplomatik münasibətlər 1994-cü ildə qurulub və 26 mart tarixində ilk apostol nunsi Jan Pol Qobel öz etimadnaməsini Azərbaycan Prezidentinə təqdim etmişdir [3]. Belə ki, Papalıq Azərbaycan Respublikasının müstəqilliyini bərpasını 1992-ci ildə 23 may tarixində tanımışdır, bu da Müqəddəs Taxt-tacın Azərbaycan Respublikasını tanıyan ilk ölkələrdən biri olduğunu göstərir [4]. Bununla belə bu dövrdə ölkələr arasında sivilizasiyalararası dialoqa töhfə verən əlaqələrdən hələ söhbət getmirdi. Bu əlaqələrin əsas təməli bu tarixdən beş il sonra qoyuldu. Ümummilli Lider 25-27 sentyabr 1997-ci ildə İtaliyaya rəsmi səfərdə olan zaman Katolik dünyasının rəhbəri, 264-cü Roma Papası II İohann Pavel şəxsən Respublika Prezidentini Vatikana dəvət etdi. Palasio Kastel Qondolfoda keçirilmiş bu yüksək səviyyəli görüş zamanı Papa II İohann Heydər Əliyevə görkəmli siyasi xadim olduğunu və müstəqil Azərbaycan Respublikasının onun səyləri və ölkədəki quruculuq fəaliyyətləri nəticəsində Dünya siyasətində layiqli yer tutmasını və ölkəmizdə apardığı iqtisadi, hüquqi sahədə nailiyyətlərə gətirib çıxaran islahatların diqqət mərkəzlərində olub onları dəstəklədiklərini qeyd etmişdir. Həmçinin Papa Azərbaycanın Ermənistanla münaqişəsinin həllində də Lissabon Zirvəsinin əldə olunmuş prinsiplərinin önəmini qeyd edib dəstəkləyərək əlavə edib ki, ərazi bütövlüklərinin qorunması önəmlidir, ayrılma meyillərinə qarşı müştərək hərəkət edilməlidir. II İohann Pavel prezident tərəfindən ölkəmizə dəvət edilmişdi [9, s.75].

Papalığın dini tolerantlıq mövzusunda Azərbaycanla qurduğu münasibət təsadüfi deyildi. Artıq 1950-ci illərdən başlayaraq Vatikan mövcud beynəlxalq siyasi sferada xristianlıq və digər dinlərin əlaqələrinin səmərəli inkişaf etdirilməsi ilə yaxından maraqlanmağa başladı. Artıq 1962-ci il oktyabr ayının 11-də Papa XXIII İoannın rəhbərliyi dövründə İkinci Vatikan Konqresi açıldı. Bu konqres düz 3 il davam edəcəkdi və 1965-ci ildə Papa VI Pavelin dövründə" Kilsənin qeyri-xristian dinləri ilə qarşılıqlı münasibətləri haqqında" bəyannaməsinin qəbul edilməsi ilə yekun vurulmuşdu. Nəticədə, müasir dünyada xristianlığın gedişatı və digər dinlərlə münasibətdə yeni bir mərhələyə keçid edilmişdir. Hətta bu fonda 1964-cü ildə "Vatikan Dinlərarası Dialoq Katibliyi" yaradılıb [23].

Heydər Əliyev də din-dövlət münasibətlərini və dini fəaliyyətə nəzarət və dəstək, əsas prinsiplərin müəyyən edilməsi sahəsində addımlarını davam edirdi. Vatikana səfərin nəticəsi olaraq həm də Azərbaycan katolik icması bərpa edildi və 1999-cu ildə qeydiyyata alındı.

2001-ci il 21 iyun tarixində bu məsələ ilə bağlı böyük addım atıldı və Azərbaycan Respublikasının Prezidentinin 512 saylı fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Onu qeyd etmək lazımdır ki, bu gün qurumun nəzdində 970 dini qurum və 11 dini təhsil müəssisəsi rəsmi qeydiyyata alınıb [17].

Müqəddəs Taxt-tac ilə Azərbaycan Respublikası münasibətlərində daha bir müsbət mərhələ Papa II İohann Pavelin Ulu Öndər Heydər Əliyevin təklifini qəbul edib ölkəmizi

ziyarət etməsi oldu. Zati-Müqəddəsləri Vatikanın ölkəmizin müstəqilliyini bərpa etməsinin ardından tanımasının 10 illik yubileyində gəlmişdi, yəni 22-23 may 2002-ci il tarixlərində. Papanın bu zaman 82 yaşı var idi və səhhəti pisləşməkdə idi. Buna baxmayaraq o Azərbaycana gəldi. Heydər Əliyev Papanın ölkəmizdə qarşılanması zamanı polyak əsilli Zati-Müqəddəslərinin dil və dininə baxmadan bütün bəşəriyyətin dostu olmasını qeyd edib onun dünya vətəndaşı olmasını deyib. O cümlədən bir daha xatırladıb ki, Onun qeyri-xristian dövlətlərə səfərləri dinlələrarası dialoqun və hörmətin gücləndirilməsinə xidmət edir. Papa da öz növbəsində, ölkənin Şərq və Qərbin arasında qapı olduğunu qeyd edib [13].

Ümummilli Liderin Papa II İohann Pavel haqqında söylədikləri də əbəs yerə deyildi. O, ilk dəfə islam dininin müqəddəs kitabı olan Quranı öpmüş Roma Papası olaraq tarixə düşüb. Bu hadisə 1999-cu ildə İraq nümayəndə heyətinin Papalığa səfəri zamanı baş vermişdi və sensasiya doğurmuşdu.

II İohann Pavel həm də tarixdə ilk dəfə məscidə daxil olmuş Papa idi. Bu hadisə isə 2001-ci ilin may ayında Suriyanın paytaxtı Dəməşq şəhərində yerləşən 1300 illik Əməvi məscidində baş vermişdi [24].

Papa II İohann həm də geniş kütlələrə səslənməyi ilə məşhur idi. Məhz bu baxımdan iki bənzər görüşü olan şəxsiyyətin dialoqu nəticəsiz qala bilməzdi. Papa II İohann Pavelin Azərbaycan səfərinin nəticəsində katolik kilsəsinin inşasına qərar verildi. Vatikan dövlət başçısı Azərbaycanda katolik kilsəsinin tikilməsi xərclərini öhdəliyinə götürdü və xərclər Papanın kitablarının satılması və xarici ianələr hesabına maliyyələşdi. Buna qədər dini məbəd kimi başqa binadan istifadə edilirdi.

Ümummilli Lider Heydər Əliyev 2003-cü ildə, müqəddəs elan edilmiş Papa II İohann Pavel isə 2005-ci ildə dünyalarını dəyişdilər. Lakin bu onların bünövrəsini qoyduqları münasibələrə mənfi təsir etmədi. Növbəti prezident İlham Əliyev ilə 265-ci Papa XVI Benedikt və 266-cı Roma Papası Fransisk də bu formada münasibətləri inkişaf etdirdilər.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev də 2005-ci ildə Vatikan şəhərini ziyarət etmiş və tikiləcək olan kilsənin rəsmi sənədlərini Papalığa təqdim etmişdi [1].

Müqəddəs Bakirə Məryəm kilsəsinin tikinti işləri 2007-ci ildə tamamlanıb. Müqəddəs Bakirə Məryəm Kilsəsini təqdis edən və ilk ibadət edən şəxs apostol nunsi Klaudio Qucerotti olub. 2008-ci ildə kilsənin Bakı şəhərində rəsmi açılışı keçirilib. Açılış dövlət katibi kardinal Tarçizio Bertonenin, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın iştirakı ilə baş tutub [25].

**Azərbaycan-Vatikan münasibətlərinin siyasi və mədəni aspektləri.** Vatikanın Azərbaycandakı dini harmoniya ilə bağlı mövqeyini Bakı şəhərində 2009-cu ilin 6-7 noyabr tarixlərində "Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru" mövzusunda keçirilən beynəlxalq konfransda Roma Papası XVI Benediktin adından Vatikan nümayəndəsi Salvatore De Corci belə ifadə etmişdir:

– Papa XVI Benedikt doğum gününüzün 60 illiyi və Şeyxülislamlıq fəaliyyətinizin 30 illiyi münasibəti ilə öz nümayəndəsi kimi Kardinal Salvatore de Corcini göndərməkdən çox məmnundur. Zati-müqəddəsləri Papa Benedikt şəxsən öz səmimi salamlarını sizə çatdırır və sizə və Bakıda sizin şərəfinizə təşkil olunmuş hazırki tədbirin bütün iştirakçılarına xoş arzular diləyir. Zati-Müqəddəsləri Azərbaycanda sizin və digər dini liderlərin dini harmoniya və qarşılıqlı anlaşmaya göstərdiyiniz töhfəni qiymətləndirir və bunu təqdirəlayiq hesab edir. Azərbaycana 2008-ci ilin martında ilk dəfə səfərim zamanı Bakıda ilk Katolik Kilsəsinin açılışında buna mən özüm şəxsən şahid olmuşam. Səmimi münasibətlərimizi yüksək qiymətləndiririk.

Konfransda Moskva və bütün Rusiyanın Patriarxı Kirill, Gürcüstan Patriarx Katolikosu II İliya, Rusiya Federasiyası Dağıstan Respublikası prezidenti Muxu Əliyev və Çeçenistan Respublikası prezidenti Ramazan Kadırov, İstanbulun Patriarxı Varfolomey kimi şəxslər də qatılmışdılar [5].

2010-cu ildə Mədəniyyət və Turizm Nazirliyinin xüsusi nümayəndə heyətinin Vatikan şəhərinə səfəri olmuşdur. Dünya şöhrətli muğam ifaçısı Alim Qasımov öz qızı ilə birgə Müqəddəs Tomas universitetində konsert proqramı ilə çıxış ediblər. Vatikan rəsmiləri mədəniyyətimizi çox bəyəniblər.

Bu gün də ölkəmizin mədəniyyəti ayrı-ayrı Papalıq xadimlərinin diqqət mərkəzindədir. Şəkili şəbəkə ustası Tofiq Rəsulov əvvəlcə Vatikan şəhərindəki kilisə üçün daha sonra Müqəddəs Taxt-Tacın Ukrayna səfirliyi üçün şəbəkə nümunəsi hazırlayıb. Cənubi Qafqazın hər üç dövlətində Müqəddəs Taxt-Tacın Apostol Nunsisi Kladio Quqerotti Şəkidə olarkən sənətkarın emalatxanasını ziyarətindən sonra sənətkarın işləri valeh olub və bu qərara gəlib. Heydər Əliyev Fondunun da dəstəyi ilə şəbəkə səfirliyin fasadını bəzəyəcək və hazırlanmasında altı mindən çox taxta və şüşə parçasından istifadə edilib.

Papa II İohann Pavel ilə mərhum prezident Heydər Əliyev arasında imzalanmış konkordat əsasında yaranan katolik missiyası 4 avqust 2011-ci ildə Azərbaycan Həvari Prefekturası olaraq müstəqil fəaliyyətə başladı. Bu hadisə Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında "Katolik kilsəsinin Azərbaycan Respublikasında hüquqi statusu haqqında" Saziş imzalandıqdan sonra baş vermişdi [12].

2012-ci ilin mayında iki ölkə arasında münasibətlər qurulmasının 20 illiyi şərəfinə ilk dəfə bir müsəlman ölkəsinin Vatikan şəhərində sərgi keçirildi. "Azərbaycanın zəngin incilərinə tarixi baxış" adlanan sərgi Vatikan İslam ölkəsi ilə əməkdaşlığa həqiqətən önəm verdiyini, o cümlədən məhz Azərbaycanı tərəfdaşı kimi qəbul etdiyini göstərirdi.

2010-cu ildən Vatikanın Apostol Kitabxanasını ölkəmizə açması ilə ölkəmizin tarixi və mədəniyyəti ilə bağlı 700-ə qədər sənəd araşdırılıb. Dörd il ərzində tapılan əlyazmalar Azərbaycanın vəsaiti ilə bərpa edilib. Azərbaycan mədəniyyət və elminə dair müxtəlif dillərdə əlyazmalar aşkar edilib. 2014-cü ildə Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva bərpa olunmuş əlyazmalarla tanış olub və ona bu əlyazmaların 50-ə qədəri təqdim olunub. Daha sonra Vatikan Apostol Kitabxanasının direktoru Jan Lui Bruqes ilə "2015-2016-cı illərdə yeni əlyazmaların bərpa edilməsi və onların rəqəmsallaşdırılması"na dair müqavilə imzalanıb. Bu əlyazmaların bərpa edilməsi həm tariximiz, həm də mədəniyyətimizin bir parçası kimi böyük önəm daşıyırdı [7].

2016-cı il Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilmişdir və Roma Papası Fransisk ölkəyə dəvətinə müsbət cavab vermişdir.

Vatikan 2017-ci ildə yaradılmış Qafqaz Müsəlmanlar İdarəsinin nəzdində Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi Məşvərət Şurasında təmsil olunur və Himayədarlar Şurasının üzvü, Dinlərarası Pontifik Şurasının İslam ilə Dialoq Departmentinin sədri Xaled Akaşe Bakıda keçirilən dini liderlərin ikinci şurasında Azərbaycanın dinlərarası dialoqa verdiyi töhfənin açıq göründüyünü söyləyib.

Müsəlman Şərqinin ilk uğurlu respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi Vatikan şəhərində təntənə ilə qeyd olunmuşdur.

2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vatikan şəhərində səfərdə olarkən Papa Fransisk müəyyən dairələrin dini amilləri bəhanə gətirərək ədavət salmaq istəyənlərin olduğu bir vaxtda ölkənin tolerantlıq üçün gözəl bir nümunə olduğunu bildirib, Vatikanda aparılan bərpa işlərinə görə təşəkkür edib.

Vatikanda İtalyan mediasının 2014-cü ildə verdiyi məlumatlara əsasən Azərbaycan Respublikası Roma şəhərində yerləşən İmperator Forumunda qazıntı işlərinə 1 milyon avro və Roma Kapitoli Muzeyinin Filosoflar Salonunun bərpasına isə 100 min avro ianə edib.

Azərbaycan dövləti öz növbəsində Vatikanda mədəni fəaliyyətə davam edib. Bu fəaliyyətlər fonunda:

Zevsin heykəli;

Sikstin kapellasının şkafları bərpa edilib;

2018-ci ildə Müqəddəs Sebastian katakombaları bərpa edilib;

2020-ci ildə Müqəddəs Pyotr Bazilikasındakı "Roma Papası I Leon və Hun imperatoru Atillanın görüşü" barelyefinin 2018-ci ildə başlayan restavrasiya işləri bitib;

Heydər Əliyev Fondu daha bir katakombanın bərpasında iştirak edərək ümumbəşəri mədəni irsin qorunmasına töhfə verib, o cümlədən Müqəddəs Komodilya katakombalarının 2025-ci ilə qədər bərpası nəzərdə tutulub [11]. Həmçinin Azərbaycan dövləti və Heydər Əliyev Fondu da bu kimi mədəni fəaliyyətlərin davam etdirilməsində maraqlıdır.

Heydər Əliyev Fondunun Vatikanda artıq 10 ildən uzun fəaliyyəti iki sivilizasiyanın mehriban münasibətlərinə töhfə verir və sivilizasiyalararası əməkdaşlığın gözəl bir nümunəsidir. Heydər Əliyev Fondunun fəaliyyəti nəticəsində həm də İtaliyada çox saylı abidə bərpa edilib.

Elə məhz bu fəaliyyətlərinə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikanda Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə – IX Piy Ordeninin Böyük Xaçına (Dama di Gran Croce dell'ordine Piano) layiq görülüb.

**Nəticə**

Azərbaycan və Papalıq əlaqələri üç ayrı sferada belə təqdim edilə bilər:

1. Beynəlxalq siyasi müstəvidə
2. Müqəddəs Taxt-tac dövlətinin maraqları müstəvisində
3. Azərbaycan Respublikasının maraqları müstəvisində

Beynəlxalq siyasi arenada Papalığın Azərbaycan kimi əhalisinin çoxluğunu müsəlmanların təşkil etdiyi dövlətlə yüksək əlaqələr qurması mədəni diferensiallığa, tolerantlığa söykənən, müasir geosiyasi vəziyyətə uyğun və modern bəşəri dəyərlər fonunda münasibətlərin qurula bilməsinin mümkünlüyünü göstərir. Humanitar sahələr başda olmaqla dövlətlər arasında qeyri-hərbi sahələrdə əməkdaşlığın münaqişələrin qarşısını almaq üçün daha yaxşı vasitə olmasını göstərir. Çünki qlobal sferada da sülhə nail olmaq istəyiriksə, qlobal səviyyədə əməkdaşlığa nail olunmalıdır. Dövlətlərin iradələri bu istiqamətdə razılaşdırılmalıdır.

Papalıq kommunizmə qarşı olub və bu məqsədlə də Sovet Sosialist Respublikaları İttifaqı dağıldıdan sonra yaranan dövlətlərin o cümlədən, Azərbaycanın müstəqilliyini bərpasını müdafiə etmiş və ən cəld reaksiya verən dövlətlərdən biri olmuşdur. Hətta 1981-ci il 13 mayda Müqəddəs Pyotr meydanında Papa II İohann Pavelə Mehmet Əli Ağca tərəfindən sui-qəsd cəhdi baş verdikdən sonra səbəblərdən biri kimi Papanın kommunizmlə barışmaz mövqeyinin olması variantı da nəzərdən keçirilir [18]. Vatikan humanitar sahədə əlaqələri inkişaf etdirərək yumşaq gücünü tətbiq edir və regionda təsir dairəsi yaradır. İslam dövlətləri ilə əlaqələrini möhkəmləndirir.

Azərbaycan dövlətinin bu münasibətlərdən müəyyən gözləntiləri və münasibətlərlə bağlı hədəfləri var. Birincisi, bu əlaqələr Azərbaycanın xarici siyasətinin prinsiplərinə uyğun gəlir. İkincisi, Azərbaycanın qeyri-müsəlman dövlətləri ilə o cümlədən, Vatikanla müsbət əlaqə və əməkdaşlıq xristian dünyası ilə münasibətlərində körpü rolu oynayır. Son olaraq, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsini Ermənistanın dini münaqişə kimi beynəlxalq ictimaiyyətə "satmasının" qarşısını almaqda kömək olur. Məlumdur ki, hələ 1994-cü ildə Azərbaycana təyin olunan ilk apostol nunsi olan Jan Pol Qobel Heydər Əliyevə etimadnaməsini təqdim edəndə bu məsələni Heydər Əliyev nunsiyə çatdırmışdır. Daha sonra dəfələrlə Papalıq rəsmiləri bu münaqişədə dinin adının hallandırılmasının əsasının olmadığını qeyd ediblər [3].

Son olaraq əlaqələrin inkişafını daha da təkmilləşdirmək məqsədilə prezident İlham Əliyevin sərəncamına əsasən Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tac-da səfirliyi təsis edildi. İlk səfir isə İlqar Muxtarov oldu [16].

Bu gün beynəlxalq arenada çoxqütblüləşmə prosesinin getdiyini hamı qəbul edib. O da aydın görünür ki, inteqrasiya və qloballaşma fenomenlərinin təsiri nəticəsində dövlətlərin qarşılıqlı asılıqlarının artması müşahidə edilir. Artmaqda olan və texnoloji imkanların inkişafı ilə daha təhlükəli hal alan təhlükəsizlik məsələlərində dövlətlərarası dialoq və birgə səylər mütləqdir. Bu baxımdan Müqəddəs Taxt-tac ilə

Azərbaycanın əlaqələri digər dövlətlər üçün nümunə olmalıdır və dini fərqliliklərin şiddət, terrorçuluq və separatçılıq kimi fəaliyyətlər zamanı bəhanə kimi istifadə edilməsindən imtina edilməlidir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları - 2005-ci il. Bakı: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, 2005, 400s.
2. Əlizadə A. Azərbaycanda Xristianlıq: keçmişdən bu günə. Bakı, “Elm və təhsil”, 2016, 378s.
3. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin həyat və fəaliyyətinin xronologiyası 1993-2003. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanası
4. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Bakı, 2017, 904s.
5. Dinlərarası Dialoq: Qarşılıqlı Anlaşmadan Birgə Əməkdaşlığa Doğru. Bakı,2010, 200s.
6. Əhədova S. Müasir dünyada mədəniyyətlərarası münasibətlər. Bakı. Elm. 2014. 348s.
7. Ələkbərli F.Vatikan arxivlərində saxlanan Azərbaycana aid əlyazmalar. Bakı: təhsil”, 2014, 75 s.
8. Geosiyasi Reallıqlar və Multikultural Dəyərlər. Bakı, “Elm və təhsil”, 2017, 160s.
9. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) II hissə, Bakı, 2015, 664s
10. Azərbaycan ilə Vatikan arasında əlaqələr yüksək səviyyədə davam etdiriləcəkdir. Azərbaycan.- 2010.- 17 iyun- S. 6 http://anl.az/down/meqale/azerbaycan/2010/iyun/124759.htm
11. Azerbaijan to help fund Rome İmperial Forum Project. Redazione ANSA. 17 July 2014. https://www.ansa.it/english/news/2014/07/16/azerbaijan-to-help-fund-rome-imperial-forum-project_74c9b7ed-b6da-4897-a749-6fb5d8d337ed.html
12. http://www.e-qanun.az/framework/21903 saziş status
13. Historical background to the document of "Speech of the President of the Republic of Azerbaijan Heydar Aliyev at the meeting ceremony of the Pope John Paul II" (May 22, 2002) https://lib.aliyevheritage.org/en/1862793.html
14. Azərbaycan - Vatikan münasibətləri https://lib.aliyevheritage.org/az/6024133.html
15. From the conversation of the President of the Republic of Azerbaijan Heydar Aliyev at the meeting with Pope John Paul II - Vatican, "Palace of Castel Gandolfo," September 26, 1997 https://lib.aliyevheritage.org/en/9182868.html
16. Azərbaycan səfiri etimadnaməsini Roma Papası Fransiskə təqdim edib. https://www.azerbaijan-news.az/az/posts/detail/azerbaycan-sefiri-etimadnamesini-roma-papasi-fransiske-teqdim-edib-1673716820
17. Azərbaycanda mövcud dinlər http://mct.gov.az/az/din
18. Papa sui-qəsdinin 40-cı ili: Olayın pərdəarxası http://femida.az/az/news/108134
19. Azərbaycan-Vatikan münasibətlərinin 30 illiyi. https://xalqqazeti.com/az/news/65475
20. İşğaldan azad edilmiş yerlərdə bütün kilsə və məscidlər bərpa olunacaq http://femida.az/az/news/141639/isgaldan-azad-edilmis-yerlerde-butun-kilse-ve-mescidler-berpa-olunacaq
21. Bakıda “Heydər Əliyev və Azərbaycanda din siyasəti” mövzusunda konfrans keçirilib https://scwra.gov.az/az/view/

news/8780/bakida-heyder-eliyev-ve-azerbaycanda-din-siyaseti-movzusunda-konfrans-kechirilib
22. Dini-mənəvi dəyərlərə Heydər Əliyev münasibəti https://525.az/news/6389-dini-menevi-deyerlere-heyder-eliyev-munasibeti
23. Dinlərarası dialoqun bugünkü vəziyyəti http://www.anl.az/down/meqale/xalqcebhesi/2016/iyun/497235.htm
24. Quranı öpən, məsciddə dua edən Roma Papası https://musavat.com/news/qurani-open-mescidde-dua-eden-roma-papasi_795437.html
25. Bakida Müqəddəs Məryəm ana kilsəsinin rəsmi açilişi olmuşdur. Azərbaycan Prezidenti Ilham Əliyev mərasimdə iştirak etmişdir https://azertag.az/xeber/bakida_Muqaddas_Maryam_Ana_kilsasinin_rasmi_achilisi_olmusdur_Azarbaycan_Prezidenti_Ilham_ Aliyev_marasimda_istirak_etmisdir 402849

***Açar sözlər:*** *Heydər Əliyevin siyasi kursu, Azərbaycan, dinlərarası dialoq, Vatikan, Heydər Əliyev diplomatiyası, tolerantlıq, mədəniyyətlətarası ünsiyyət, Müqəddəs Taxt-tac*

**Eldar Jafarov**

***The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of International Relations and Foreign Policy, Ph.D. in Political Sciences***

# RELATIONS BETWEEN THE REPUBLIC OF AZERBAIJAN AND THE HOLY SEE IN MODERN TIMES AS A SUCCESS OF HEYDAR ALIYEV'S DIPLOMACY

## ABSTRACT

Heydar Aliyev has always supported the multicultural values of Azerbaijani society and state. He understood that extremists and extreme nationalist groups are the enemies of Azerbaijani statehood and society. This state has mastered the continuation of its internal political course in relations with other states in the international sphere. He laid the foundation for relationships with many countries. The establishment of the foundations of relations with the Holy See and its transformation into a model of inter-civilizational discourse was also associated with his initiatives.

The article analyzes the necessity of establishing relations between the Republic of Azerbaijan and the Holy See (Vatican), historic steps, the main directions of bilateral relations, relations with the Vatican as an integral element of our country's "soft power" policy, and the view of the Papacy, which is the main speaker in the Catholic world, towards the Republic of Azerbaijan.

***Keywords:*** *Heydar Aliyev's political course, Azerbaijan, interreligious dialogue, Vatican, Haydar Aliyev's diplomacy, tolerance, intercultural communication, Holy See*

**Эльдар Джафаров**

***Преподаватель кафедры Международных отношений и внешней политики Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по политическим наукам***

# ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И СВЯТЫМ ПРЕСТОЛОМ В СОВРЕМЕННЫЙ ПЕРИОД КАК УСПЕХ ДИПЛОМАТИИ ГЕЙДАРА АЛИЕВА

## РЕЗЮМЕ

Общенациональный лидер Гейдар Алиев всегда был защитником мультикультурных ценностей азербайджанского общества и государства. Он понимал, что экстремистские, крайне националистические группы являются врагами азербайджанской государственности и общества. Именно это государство освоило продолжение своего внутриполитического курса в отношениях с другими государствами в международной сфере и заложило добрососедские основы отношений с различными странами. С деятельностью Гейдара Алиева также было связано закладывание основ отношений со Святым Престолом и превращение их в пример диалога между цивилизациями. В этом контексте рассматривается необходимость установления отношений между Азербайджанской Республикой и Святым Престолом (Ватиканом), исторические шаги и основные направления этих двусторонних отношений, отношения с Ватиканом как неотъемлемый элемент политики «мягкой силы» нашей страны, а также позиция папства, имеющего решающий голос в католическом мире, в отношении Азербайджанской Республики.

***Ключевые слова:*** *политический курс Гейдара Алиева, Азербайджан, межрелигиозный диалог, Ватикан, дипломатия Гейдара Алиева, толерантность, межкультурная коммуникация, Святой Престол*

UOT 94(479.24)

**İLHAMƏ ÖMƏROVA**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasının baş müəllimi*

*e-mail: omarovai@yahoo.com*

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN MÜASİR XARİCİ SİYASƏTİNİN BANİSİDİR

XX əsrin 80-cı illərinin sonu – 90-cı illərinin əvvəlləri beynəlxalq aləmdə baş verən əsaslı dəyişikliklər bipolyar qarşıdurma sisteminə təsir etməyə bilməzdi. Mərkəzi güc balansının əsaslı şəkildə yenidən qurulması regional balanslarda əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Belə ki, regional güc balansının mərkəzdən "dominant" olaraq – birbaşa asılılığı getdikcə daha çox qarşılıqlı asılılıq formasına çevrilməyə başladı. Bu dövrdə, müstəqil regiona çevrilməsindən sonra Cənubi Qafqazda region ətrafı və kənar dövlətlərin strateji maraqları formalaşmağa başladı. Bu dövlətlər içərisində ABŞ, Rusiya, Türkiyə, İran İslam Respublikası və Avropa dövlətlərinin rolunu xüsusi qeyd etmək lazımdır. Belə ki, müstəqillik qazandıqdan sonra Qərb dövlətlərinin və Türkiyənin bölgədə fəallıq göstərməsi illər boyu tərkibində olduğumuz Rusiyanın narahatlığına səbəb olmağa başlamışdı. Bu baxımdan, dövlətlərin bölgədəki xarici siyasət prinsiplərində kəskin ziddiyyətlər mövcud idi və strateji maraqları demək olar ki, bütün sahələrdə toqquşurdu.

A.Utkin Rusiya strateqlərinin bölgədəki duruma yanaşmasını belə xarakterizə edir: "Cənubi Qafqaza antiamerikan İranının, amerikayönümlü Türkiyənin, BMT sülhməramlıları və ATƏT müşahidəçiləri kimi qüvvələrin daxil olması regionun qaynayan islam dünyasında qoruyan qalxan rolunu oynamasını istəyən Moskvanın mövqelərini zəiflədir." [24, s.195]. Rusiya tərəfindən Azərbaycan Cənubi və Şimali Qafqazda təhlükəsizliyin təminatı məsələsində həlledici dövlət kimi qiymətləndirilir [24, s.195]. Məhz bu baxımdan, digər qlobal güc mərkəzlərinin, xüsusilə də Z.Bzejinskinin qeyd etdiyi kimi: "Dünyaya hegemonluq etməyinə imkan verən hərbi, iqtisadi, texnoloji və mədəniyyət kimi dörd həlledici sahədə ABŞ-ın bölgəyə nüfuz etmək istiqamətindəki addımlarına Rusiya öz təhlükəsizliyinə təhdid kimi baxır" [17, s.36].

1990-cı illərdə Cənubi Qafqaz, Xəzər-Qara dəniz hövzəsinin fərqli hərbi-geostrateji qruplaşmaları və geosiyasi mövqeləri, kəsişən maraqlar və ziddiyyətli fəaliyyətlər fonunda Azərbaycan Respublikası üçün öz milli təhlükəsizlik siyasətini formalaşdırmaq, regionun ümumi təhlükəsizlik məsələləri içərisində özünəməxsus təhlükəsizlik ölçülərini və meyarlarını müəyyənləşdirmək çox çətin oldu. Çünki, SSRİ-nin dağılması ərəfəsində ərazisində etnik separatçılığın qızışdırılması və bu zəmində arzuolunmaz müharibəyə cəlb edilməsi, torpaqlarının Ermənistan tərəfindən işğal olunması və s. məsələlər, Azərbaycanın yenicə başladığı milli dövlət quruculuğunun təxirəsalınmaz daxili iqtisadi, siyasi və sosial problemləri sırasına həm də xarici hərbi müdaxilə və milli təhlükəsizlik kimi məsələləri də əlavə etmiş oldu.

Erməni hərbi birləşmələri qısa zaman çərçivəsində bəzi xarici dövlətlərin köməkliyi ilə Azərbaycanın 20% ərazisini işğal edərək, milli təhlükəsizliyini ciddi sınaq qarşısında qoydu. Qarabağ münaqişəsi başladıqdan sonra uzun müddət bu problem beynəlxalq icti-

maiyyətin diqqətini cəlb etmədi. Birinci səbəbi ondan ibarət idi ki, münaqişənin start götürdüyü ilkin mərhələdə dünya birliyi onun aradan qaldırılmasında maraqlı deyildi. Çünki, bu problem SSRİ-nin dağılması prosesini sürətləndirən çoxsaylı amillərdən biri kimi çıxış edirdi və onun aradan qaldırılması Sovet İttifaqının daxilində gedən dağıdıcı proseslərə mane ola bilərdi. Azərbaycan bu işğal ilə heç bir zaman barışmamış və bu məsələni hər zaman dünya ictimaiyyətinin nəzərinə çatdırmışdır. Müxtəlif formatlı beynəlxalq konfranslarda, tədbirlərdə "Qarabağ həqiqətləri" Azərbaycan tərəfindən ətraflı şəkildə söylənilmişdir.

Azərbaycanın təhlükəsizlik sahəsində praktiki xarici siyasət fəaliyyətinin qurulması və formalaşdırılması, onun əsas vəzifələrinin müəyyənləşdirilməsi siyasi lider, prezident Heydər Əliyevin adı ilə bağlıdır. Məhz, onun rəhbərliyi dövründə Azərbaycanın beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqelər qazanması üçün lazımi tədbirlər həyata keçirildi, ölkənin xarici aləm üçün kəsb etdiyi maraqlar dairəsi, geosiyasi və geoiqtisadi əhəmiyyəti düzgün dəyərləndirildi, beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda üst-üstə düşən, kəsişən maraq dairələri müəyyənləşdirildi.

Hər bir dövlətin real müstəqilliyi və milli təhlükəsizliyinin qarantı olan siyasi, hərbi, iqtisadi asılılığa düşməmək, Azərbaycan Respublikasının da milli maraqlarının təmin olunmasının mühüm vəzifəsi hesab olunur və müstəqilliyinin ilk dövrlərində bu istiqamətlərdə düşünülmüş dövlət siyasətinin yeridilməsi üçün siyasi, hərbi, iqtisadi stabilliyə ehtiyac var idi. Hələ Heydər Əliyevin hakimiyyətinin ilk illərində Azərbaycan ətrafında vəziyyət çox mürəkkəb idi. Belə ki, ölkəmiz Rusiya və İranı öz təhlükəsizliyinə təhdid kimi görür və bölgədə real şəkildə yalnız Türkiyənin köməyinə arxalana bilərdi, lakin Azərbaycanın Türkiyə və Naxçıvanla quru əlaqəsi kəsildiyinə görə Bakı "Azərbaycanın milli təhlükəsizliyinə hərbi təhdid törədə bilən, onun neft və qaz ehtiyatlarının beynəlxalq bazarlara çıxarılmasına maneə yaradan Ermənistan, Rusiya və İran arasında sıxılmış vəziyyətdə hiss edir"di.

Keçmiş ittifaq respublikaları ilə də iqtisadi əlaqələr kəsilmiş, Qarabağ siyasətinə etiraz məqsədilə keçirilən uzunmüddətli mitinq və tətillər Azərbaycanın sənaye obyektlərini iflic vəziyyətə salmışdı. Bir çox avadanlıqların sıradan çıxması və ittifaqın digər respublikalarından yenilərinin əldə edilməsinin mümkünsüzlüyü səbəbindən əksər müəssisələrdə istehsal dayanmış, işsizlik artmışdı.

Azərbaycan Respublikasını müstəqil dövlət kimi tanımağa məcbur olsa da, Rusiya rəhbərliyi irəli sürdüyü siyasi tələblərə, xüsusilə Azərbaycanın MDB-yə, o cümlədən, bu təşkilatın hərbi strukturlarına qoşulmağa razılığını ala bilmədiyinə görə, bütün vasitələrlə münaqişə bölgəsində Ermənistanın nail olduğu üstünlüyü qoruyur, onun Qərb ölkələri və Türkiyə ilə inteqrasiyaya daxil olmasının qarşısını almağa çalışırdı.

1993-cü ildə Azərbaycanda hakimiyyət dəyişikliyi baş verdikdən sonra Rusiya rəhbərliyi vəziyyətin ağırlığı səbəbindən Heydər Əliyevin simasında yeni rəhbərliyin Moskvanın bütün şərtlərini qəbul edəcəyinə nail ola bilmədi. Belə ki, müstəqilliyini yeni əldə etmiş ölkənin tarixinin ən kritik durumunda xalqın tələbi ilə bütün məsuliyyəti öz üzərinə götürmüş Heydər Əliyev [7, s.60] respublikada və cəbhədə vəziyyətin ağır olmasına baxmayaraq, Moskvanın Azərbaycan dövlətinin milli və dövlət maraqlarına zidd olan heç bir tələbini qəbul etmədi.

Böyük dövlətçilik və siyasi təcrübəsi olan Heydər Əliyevin hakimiyyətə qayıdışı nəinki respublikada, bütün regionda cərəyan edən hadisələrin axarını dəyişəcək proseslərin əsasını qoydu. Heydər Əliyevin həyata keçirdiyi fövqəladə tədbirlər nəticəsində respublikadakı daxili vəziyyət stabilləşdi. Barışmaz müxalifət neytrallaşdırıldı. Cəmiyyətdə baş verən parçalanmaların qarşısı alındı, ayrı-ayrı siyasi qrupların qanunsuz hərbi dəstələri zərərsizləşdirildi. Talış-Muğan separatçı hərəkatı neytrallaşdırıldı, respublikanın etnik mənsubiyyətə görə parçalanmasının qarşısı alımdı. Cəmiyyətdə və

orduda təslimçilik tendensiyası və əhval-ruhiyyəsinin qarşısı alındı. Xarici işğala qarşı mübarizə ideyası ətrafında ümummilli konsensus yaradılmasına nail olundu. Respublikanın beynəlxalq təcriddən çıxması prosesi başladı [21, s.262-263].

Heydər Əliyevin diqqət verdiyi əsas məqam "Azərbaycançılıq" milli ideologiyasının formalaşdırılması və xalqın bütün qüvvələrinin bu ideologiya ətrafında birləşdirilməsi yolu ilə Azərbaycanın müstəqilliyinin saxlanılmasına nail olmaq idi. Təcrübəli dövlət xadimi Azərbaycanın real müstəqilliyinin yalnız balanslaşdırılmış xarici siyasət yeritməklə hərbi təcavüzün dəf edilməsini, siyasi sabitlik, sabit hakimiyyətin formalaşdırılmasını, xarici sərmayələrin cəlbini, iqtisadi böhrandan çıxış və inkişafı təmin edəcək milli təhlükəsizlik strategiyasının qurulacağı təqdirdə mövcud ola biləcəyini yaxşı dərk edirdi. Heydər Əliyev qətiyyətlə və təxirəsalmadan effektiv dövlət idarəçiliyi sisteminin yaradılması və formalaşdırılması istiqamətində ilk növbədə Azərbaycan üçün təhdidləri nəzarət altında saxlamağı və aradan qaldırmağı bacaran, ölkənin milli maraqlarını təmin edə bilən təhlükəsizlik sisteminin qurulmasına imkan verəcək xarici siyasətin formalaşdırılmasına və yeridilməsinə çalışırdı. Qeyd olunmuş fəaliyyət ən müxtəlif istiqamətlərdə həyata keçirilərək təhlükəsizlik, qanunvericilik, beynəlxalq inteqrasiya və digər mühüm sferalar ilə yanaşı iqtisadi sektoru da əhatə edirdi ki, bunun da əsasını strateji əhəmiyyətli "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaq təşkil edirdi.

Heydər Əliyevin milli maraqlarda güzəştə getmədən qurmaq istədiyi bərabərhüquqlu, qarşılıqlı maraqlara və strateji partnyorluğa əsaslanan xarici siyasəti bəzi qonşu ölkələrin hərbi-siyasi dairələrinin planları ilə ziddiyyət təşkil edirdi. Əsas səbəb, Azərbaycanın öz siyasi, hərbi, iqtisadi müstəqilliyini qoruyub saxlamaq istəyi idi. Bu xətt, əsasən, Rusiya və Azərbaycan münasibətlərinin predmeti olan bütün məsələlərdə Heydər Əliyev tərəfindən istisnasız və güzəştsiz olaraq həyata keçirilirdi. O, Rusiya ilə münasibətlərdə ortaq məxrəcin tapılması, Azərbaycanın regionda Moskvanın maraqlarına zidd olan siyasi-hərbi proseslərə cəlb edilməməsi istiqamətində müdrik siyasətin fundamental əsaslarını yaradır, bu mövqeyi birmənalı şəkildə gözləyirdi [10, s.210-212].

1994-cü ilin 12 may tarixində Bişkek sülh sazişi imzalamaqla Azərbaycanla Ermənistan arasında atəşkəs rejimi elan olundu [19, s.8]. Danışıqlarda, təzyiqlər və vəziyyətin ağırlığına baxmayaraq, Heydər Əliyev Azərbaycanın mövqelərini zəiflədəcək heç bir güzəştə getmədi [10, s.210-212]. Erməni rəhbərliyi bildirdi ki, Ermənistan, Azərbaycanla qarşılıqlı sülh əldə edilməsində maraqlıdır. Belə ki, Ermənistan Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaqla, Xəzər dənizinin neft və qaz ehtiyyatlarının nəqli məqsədilə həyata keçirilən böyük gəlir gətirən iqtisadi layihələrə qoşulacaq və nəticədə, Rusiyadan total asılılığı azalacaqdır.

"Atəşkəs"-in tətbiqi hərbi əməliyyatların dayandırılması, münaqişənin tənzimlənməsi ATƏT-in fəaliyyətinə şərait yaratmış oldu. ATƏT-in 1994-cü il 6 dekabr – Budapeşt sammitində həmsədrlik institutu da təsis edildi. Minsk qrupunun bir ilə qədər davam edən müzakirə planına əsasən, Azərbaycan rəhbərliyi münaqişə zonasına Rusiya Federasiyası ilə yanaşı Türkiyə, Avstriya, Macarıstanın da silahlı müşahidəçilərinin gətirilməsinə çalışırdı. Rusiya münaqişəni öz monopoliyasında saxlamaq məqsədilə ATƏT-ə alternativ danışıqlar planı təqdim etsə də, qəbul olunmadı. Plan bölgəyə MDB sülhməramlı qüvvələrinin adı altında Rusiyanın hərbi qüvvələrinin yeridilməsini nəzərdə tuturdu [6,s.161; 18]. ATƏT-in qəbul olunmuş əsasnaməsinə əsasən vasitəçi tam neytral olmalı, sülhməramlı qüvvələrin tərkibində hər bir dövlətin hərbi qüvvələri ümumi sayın 30%-indən çox olmamalıdır [6, s.157; 13, s.409-410].

1996-cı il dekabrın 2-3-də keçirilən Lissabon sammitindən əvvəl Heydər Əliyevin Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ATƏT prinsipləri, BMT nizamnaməsi və beynəlxalq hüquq qaydalarına uyğun həlli prinsipləri haqqında məktublarına cavabında ATƏT-in üzvü olan dövlət rəhbərləri Azərbaycanın

mövqeyini dəstəklədiklərini bildirmişdilər. Lissabon Zirvə toplantısı zamanı münaqişənin dinc vasitələrlə həll olmasını sübut edən əsas prinsiplər Lissabon sammitinin Yekun sənədlərinə əlavə edildi. Bunlar:

– Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
– Dağlıq Qarabağa öz hüququnu təyinetməsinə əsaslanan və ona Azərbaycan Respublikasının tərkibində sazişdə müəyyən edilmiş ən yüksək özünüidarə səviyyəsi verən hüquqi status;
– Nizamasalmaya dair müddəalara bütün tərəflərin əməl etməsinin təmin olunması üzrə qarşılıqlı öhdəliklər də daxil olmaqla, Dağlıq Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyinin təmin olunması [12,s.148]. ATƏT-in rəsmi sənədləri sırasına daxil olan bəyanatda bu müddəaların zirvə görüşündə iştirak edən 53 ATƏT üzvü tərəfindən bəyənildiyi göstərilmişdir.

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə toplantısında da Heydər Əliyev bəyan etdi ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş əraziləri azad edilməlidir. Yalnız bundan sonra Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa müvafiq status verilə bilər [14, s.117]. Hər bir rəsmi görüşdə və zirvə toplantılarında Ulu Öndər Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt yol verilməyəcəyini bəyan etmişdir.

Azərbaycan Respublikasının müstəqil və çoxvektorlu siyasi xətt yürütdüyünü nümayiş etdirən respublika rəhbərliyi 1994-cü il mayın 4-də Brüsseldə NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramına qoşulmaq barədə siyasi qərar qəbul etdi [10, s.210]. Ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi yolunda hərbi-siyasi və hərbi-texniki sahədə beynəlxalq əlaqələrin və əməkdaşlığın hər cür inkişafı müstəsna əhəmiyyət kəsb edir. Avratlantik məkanın təhlükəsizlik sisteminə inteqrasiya, NATO dövlətlərinin qüvvələri ilə qarşılıqlı uzlaşan hərbi əməliyyat qüvvələrinin yaradılması, böhranların aradan qaldırılması məqsədi ilə müvafiq beynəlxalq təşkilatların mandatı əsasında aparılan sülhməramlı cavab əməliyyatlarında iştirak etmək Azərbaycan Respublikasının müdafiə siyasətinin əsas istiqamətlərindən hesab olunur [1].

Prezident Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan dövləti BMT-nin keçirdiyi tədbirlərin fəal iştirakçısına çevrildi. 1994-cü ilin sentyabrında Heydər Əliyev BMT-nin Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-a səfəri zamanı o, Baş Məclisdə çıxış etdi, ABŞ prezidenti Bill Klinton, digər dövlətlərin başçıları və BMT Baş Katibi Butros Qali ilə görüşdü. Sonrakı silsilə görüşlərdə Azərbaycanın daxili və xarici siyasəti barədə aparılan danışıqlar BMT ilə ikitərəfli əlaqələrin inkişafına, bu təşkilatın proqramlarında Azərbaycanın iştirakına kömək etdi. BMT Baş Katibi Ermənistan-Azərbaycan münaqişəsinin dinc siyasi vasitələrlə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq ATƏT çərçivəsində həllinin və Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığının qorunmasının zəruriliyini bildirdi.

Regionun əsas güc dövləti olan Rusiya Federasiyası ilə münasibətlərdə o qədər problemlər var idi ki, tərəfdaşlıq və əməkdaşlıqdan söhbət belə getmirdi. Qarşılıqlı ittihamlar, qarşıdurmalar, notalar bir-birini əvəz edir, iki ölkə arasında viza rejiminin tətbiqinə hazırlıq, hətta azərbaycanlıların Federasiyanın girişinə məhdudiyyətlər qoyulması barədə çağırışlar edilirdi [23]. 1997-ci il 2-4 iyul tarixlərində Prezident Heydər Əliyevin Moskvaya rəsmi səfəri zamanı “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə” imzalandı [22, s.42]. Bu sənəd qarşılıqlı əlaqələri hər iki dövlətin milli maraqlarına uyğun olaraq yüksək səviyyəyə qaldırmaq üçün geniş hüquqi baza yaradırdı. 1992-ci ildə imzalanmış, lakin, Rusiya Dövlət Duması tərəfindən ratifikasiya olunmayan analoji müqavilədən fərqli olaraq, yenilənmiş müqavilə tərəflərin milli maraqlarına uyğun olaraq ikitərəfli münasibətlərin ən yüksək səviyyəyə qaldırılması üçün geniş hüquqi baza yaradırdı.

Danışıqlar zahirən göründüyü kimi asan məcrada getmirdi. Belə ki, dövlətin müstəqilliyinin mühüm atributu, milli təhlükəsizlik konsepsiyasının əsas dayaq sütunu olan məsələlərdə Azərbaycan tərəfi heç bir güzəştə getmədi. Belə məsələlərdən biri, Azərbaycan-İran sərhədlərinin birgə mühafizəsinə dair Moskvanın təklifinə cavab olaraq, Heydər Əliyev açıq şəkildə bəyan etdi ki, "MDB-nin xarici sərhədləri" terminini qəbul etmir və hər bir müstəqil dövlət öz sərhədlərini özü qorumalıdır.

İki dövlət arasında önəmli məsələ Azərbaycanın regionda Rusiyanın hərbi maraqlarını təhlükəyə atacaq mümkün addımları, xüsusilə Türkiyə və NATO ilə münasibətlər və hərbi əməkdaşlıq məsələsi idi. Bakının 1999-cu ilin aprel ayında MDB-nin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvlükdən [20, s.22], Rusiya hərbi bazalarının Azərbaycanda dislokasiyası və sərhədlərin birgə mühafizəsindən imtinasından sonra regionda hərbi güc balansında hər hansı arzuolunmaz dəyişiklik Moskva üçün xüsusi önəm daşıyırdı. Müdrik dövlət xadimi olan Heydər Əliyev keçirdiyi çoxsaylı görüşlərdə Rusiyanın istər siyasi, istərsə də hərbi dairələrini Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasının, müdafiə strategiyasının və ordu quruculuğu sahəsindəki fəaliyyətinin yalnız öz milli maraqlarına əsaslandığına və Rusiyanın dövlət təhlükəsizliyinə və regionda maraqları olan dünyanın digər güc mərkəzləri ilə mübarizədə geostrateji maraqlarına xələl gətirməyəcəyinə inandıra bildi.

Ermənistanla müharibə vəziyyətində olan Azərbaycan öz Milli Ordusunun qurulması və hərbi qüdrətinin artırılması məqsədilə Rusiya ilə yanaşı Türkiyə, Pakistan, Ukrayna, NATO bloku ilə əməkdaşlığı ilbəil genişləndirsə də, onların Moskva ilə mübarizəsində ölkənin bitərəfliyini və neytrallığını qoruyub saxlaya bildi. Belə ki, rəsmi Bakı MDB-nin KTMT-na qoşulmamaqla yanaşı, bəzi postsovet respublikaları kimi NATO-ya daxil olmaq niyyətinin də olmadığını bəyan etdi. Azərbaycan öz milli maraqlarının müdafiəsi məqsədilə bir çox məsələlərdə İran İslam Respublikası ilə açıq konfrontasiyaya getsə də, NATO və İsrailin respublika ərazisindən İran İslam Respublikasına qarşı hərbi məqsədlərlə istifadə etməsinə icazə vermədi. Rəsmi Bakı bütün addımları ilə sübut etdi ki, onun müdafiə sahəsindəki siyasəti heç bir dövlətin və ya hərbi blokun maraqlarına deyil, yalnız öz silahlı qüvvələrinin gücləndirilməsinə xidmət edir.

Rusiya Federasiyası Xəzərin mənsubiyyətinə dair postsovet imperiya iddiaları ilə dənizin beynəlxalq hüquqi statusunu çoxtərəfli əsasda müəyyənləşdirə bilməsə də, aparılan müzakirələr Xəzəryanı tərəflərin mövqelərinin üzə çıxması baxımından əhəmiyyətli idi. Belə ki, Moskva Xəzər dənizinin enerji ehtiyatlarının çıxarılmasında iştirakından istifadə edən ABŞ və Avropa ölkələrinin regionda öz mövcudluğuna nail olacaqlarından ehtiyat edirdi. Bu problem Rusiya ilə yanaşı ABŞ-la faktiki müharibə vəziyyətində olan İran İslam Respublikası üçün də həyati vacib əhəmiyyət kəsb edirdi. Moskva və Tehran yaxşı bilirdilər ki, Avroatlantik məkanın aparıcı ölkələri üçün belə fürsəti yalnız Xəzərdə milli sektorları olan Azərbaycan, Qazaxıstan və Türkmənistan yarada bilər. [16,s.113] Həmin dövrdə, yalnız Azərbaycanın aparıcı dünya şirkətləri ilə neft müqavilələrini imzalaması Xəzərin beynəlxalq hüquqi statusunu çoxtərəfli əsasda müəyyənləşdirilməsinə dair müzakirələr Rusiya üçün xüsusən aktuallaşdı.

Azərbaycan hələ 1994-cü ildə Rusiya Federasiyası və İran İslam Respublikasının Xəzər dənizinin beynəlxalq statusu müəyyənləşməyənə qədər hər hansı məsələ ilə bağlı beynəlxalq müqavilələrin bağlanılmaması barədəki tələblərinə [10, s.377] baxmayaraq "Əsrin neft müqaviləsi"ni imzaladı. Moskva və Tehran beş Xəzəryanı dövlət arasında dənizin beynəlxalq statusunun müəyyənləşməsinə qədər bu su hövzəsinin milli sektoru olmayan dövlətlərin hərbi dəniz qüvvələri üçün qapalı zona kimi tanınmasına çalışırdı [9, s.377; 16, s.113]. Rəsmi Bakının məsələyə dair göstərdiyi mövqe belə idi: "Xəzər dənizinin beynəlxalq hüquqi statusunun həlli dünyada qəbul edilmiş qaydalara əsaslanmalıdır və Xəzər dənizi üzərində bir ölkənin üstünlüyünə yol verilməməlidir" [2]. 1995-ci ildə ümum-

xalq referendumu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 11-ci maddəsində Xəzər dənizinin sahilyanı göl-sektor variantında statusunun olması təsbit edildi.

Bu siyasi xətt sonradan Prezident İlham Əliyev tərəfindən davam etdirilərək əvvəlcə Rusiya və Qazaxıstanla Xəzər dənizinin statusuna dair müqavilə, daha sonra ümumilikdə beş Xəzəryanı dövlətin iştirakı ilə bölgədə yalnız milli sektoru olan ölkələrin hərbi dəniz qüvvələrinin mövcudluğu barədə razılaşma imzalandı.

Amerika Birləşmiş Ştatları ilə qurulan münasibətlər Azərbaycan Respublikasının xarici siyasətinin vacib və əhəmiyyətli istiqamətlərindən birini təşkil edir. Müstəqil Azərbaycanla bu ölkə arasında diplomatik münasibətlər 1992-ci il martın 18-də yaradılsa da bu, ancaq ilk addım idi. Bu yolla irəliləmək, bir sıra məsələlərə aydınlıq gətirmək, əlaqələri genişləndirmək, etimad, etibar qazanmaq, Azərbaycanı layiqincə təqdim etmək üçün çox iş görmək, böyük diplomatik fəallıq göstərmək tələb olunurdu. Bu vacib və olduqca zəruri idi. Çünki dünyəvi dövlət qurmaq istəyən və çətin problemlərlə qarşılaşmış gənc, müstəqil bir ölkənin taleyində dünya siyasətində həlledici rolu olan bu ölkə mühüm rol oynaya bilərdi. Buna nail olmaq, mövcud imkanları reallığa çevirmək üçün ardıcıl, məqsədyönlü səy göstərmək, daima müxtəlif yollar axtarmaq, vasitələr tapmaq lazım gəlirdi. Nəhayət, 1994-cü ilin sentyabrında məşhur "Əsrin müqaviləsi"nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə yeni və həm də dönüş nöqtəsi oldu. Belə ki, Azərbaycana, onunla iqtisadi əməkdaşlığa, onun problemlərinə, geosiyasi əhəmiyyətinə maraq yarandı. Bu maraq ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, münaqişəli problemin dinc yolla həllinə tərəfdar olduğunu bəyan etməklə nəticələndi. Bu, çox əhəmiyyətli bəyanat idi. İndi irəli getmək ölkəmizi, işlərimizi, məqsəd və məramımızı, düçar olduğumuz müsibətlərimizi Amerika ictimaiyyətinə çatdırmaq, əlaqələri daha da genişləndirmək üçün yeni səylər göstərmək tələb olunurdu. Prezident Heydər Əliyevin ABŞ-a səfərləri və onların uğurlu nəticələri bu böyük səylərin davamı kimi çox əhəmiyyətli oldu. Bu, Heydər Əliyev diplomatiyasının, Azərbaycanın düşünülmüş, əsaslandırılmış və sistemləşdirilmiş yeni xarici siyasət xəttinin növbəti uğuru idi [3, s. 136].

Azərbaycanın yeni xarici siyasət kursunda bütövlükdə Avropanın böyük dövlətləri ilə münasibətlər məsələsi mühüm bir istiqamət təşkil edir. Hər bir ölkənin özünəməxsus xüsusiyyətlərini bütün incəliklərinə qədər nəzərə alan bu yeni xətt qısa bir müddətdə çevik taktiki gedişlərlə həyata keçirildi. Tədricən müasir beynəlxalq münasibətlər sisteminin suveren və nüfuzlu aktoruna çevrilən Azərbaycan Respublikasının, əksər keçmiş SSRİ respublikaları kimi, xarici siyasət strategiyasının mühüm istiqamətlərindən birini Avroatlantik məkana inteqrasiya təşkil etdi. Bu zaman tələb edirdi və Bakı inteqrasiya prosesində Avroatlantik məkanın təsisatları ilə öz milli maraqları əsasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin qurulmasına xüsusi əhəmiyyət verirdi. Təsadüfi deyildi ki, Avropa İttifaqı Azərbaycan iqtisadiyyatına yardım göstərən əsas donorlardan biri olmuşdur. Demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu yolu seçməsi səbəbindən Avropa dəyərlərindən bəhrələnmək, onlardan dövlət quruculuğu prosesində, cəmiyyətin formalaşdırılmasında, sosial-iqtisadi sahədə istifadə etmək Azərbaycan Respublikası qarşısında bir vəzifə, xarici siyasət doktrinasında mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirilmişdir.

Azərbaycanla dünyanın əsas siyasi-iqtisadi güc mərkəzlərindən hesab olunan Aİ arasında geniş sahələri əhatə edən tərəfdaşlıq münasibətlərinin yaranması, tarixi baxımdan aşağıdakı bir neçə mərhələni əhatə edir:

1. Münasibətlərin əsası 22 aprel 1996-cı il tarixində Lüksemburq şəhərində imzalanmış və 1 iyul 1999-cu il tarixində qüvvəyə minmiş "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" ilə qoyuldu. Sənəd Bakı ilə Avropa İttifaqının (Aİ) üzv dövlətləri arasında, hərbi sahə istisna olmaqla, bütün sahələrdə əməkdaşlıq münasibətlərinin

hüquqi əsasını təşkil edir və əməkdaşlığın formatını müəyyən edir [9, s.2].

2. Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq münasibətlərinin növbəti mərhələsi "Avropa yeni qonşuluq siyasəti" ilə mümkün oldu. Bu siyasətin reallaşdırılmasına 2004-cü ildə başlanıldı və onun başlıca strateji məqsədi Aİ ilə qonşu ölkələr arasında davamlı və stabil təhlükəsizliyin təminatı daxil olmaqla, Aİ və ona üzv olan ölkələrin ümumi dəyərləri istiqamətində qarşılıqlı öhdəliklərə əsaslanan iddialı hədəflər müəyyən edir [9, s.2].

Qonşuluq Siyasətinin əsas mexanizmini ikitərəfli qaydada razılaşdırılan Fəaliyyət Planı təşkil edirdi və bu sənəd 2006-cı ildə Cənubi Qafqaz ölkələri ilə razılaşdırıldı. Əməkdaşlıq dövründə qısa və orta müddətə həyata keçiriləcək iqtisadi və siyasi islahatları, atılacaq konkret addımları müəyyənləşdirən Azərbaycan Respublikası – Avropa İttifaqı Fəaliyyət Planı 14 noyabr 2006-cı ildə Brüsseldə keçirilən Əməkdaşlıq Şurasının iclasında qəbul edildi [5, s.13-14].

3. 26 may 2008-ci ildə Aİ XİN başçılarının Brüsseldə keçirilmiş görüşündə əməkdaşlığın növbəti mərhələsi kimi "Şərq Tərəfdaşlığı Təşəbbüsü" irəli sürüldü. Bu təşəbbüs Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna, Moldova və Belorus Respublikalarını əhatə edirdi. "Şərq Tərəfdaşlığı Təşəbbüsü" Aİ ilə onu imzalayan dövlətlər arasındakı münasibətləri daha yüksək səviyyəyə qaldırmağı və Assosiasiya Sazişinin imzalanmasını nəzərdə tuturdu [9, s.2].

2000-ci illərin əvvəllərindən başlayaraq ABŞ və Avropanın aparıcı ölkələrinin avrointeqrasiya planları tədricən keçmiş SSRİ regionunda siyasi prosesləri gərginləşdirən amilə çevrilirdi. Bunun səbəbi isə inteqrasiya prosesinin mahiyyətcə regionda iki güc mərkəzinin – Avroatlantik məkan və Rusiyanın geopolitik maraqlarının toqquşma məkanına çevrilməsi idi. Mühüm hərbi-siyasi və iqtisadi güc mərkəzlərindən biri olan Aİ digər beynəlxalq təşkilatlar kimi postsovet ölkələri ilə əməkdaşlıq etmək siyasətini prioritet elan etmişdi. Aİ üçün Şərqə genişlənmədə strateji əhəmiyyət kəsb edən Azərbaycan Cənubi Qafqazın Birliyə inteqrasiyasında hərəkətverici, bölgədə sülhə, barışa, əməkdaşlığa ən çox meyllı və bu işə yardım edə biləcək ən imkanlı dövlət kimi nəzərdən keçirilirdi. Vəziyyətin getdikcə gərginləşməsi isə hər iki güc mərkəzinin öz maraqlarını qorumaq üçün addımlarını daha da sərtləşdirməsi səbəbindən baş verirdi. Qərbin siyasi mərkəzləri tərəfindən irəli sürülən layihələr Avroatlantik məkana inteqrasiyanı gücləndirməklə yanaşı, keçmiş sovet respublikalarının Rusiya ilə əlaqələrinin tədricən zəiflədilməsinə, Moskvanın hərbi, siyasi, iqtisadi hegemonluğuna son qoyulmasına yönəldilmişdi.

Azərbaycan rəhbərliyinin Avrointeqrasiya prosesinin əvvəlindən sərgilədiyi mövqe zaman keçdikcə uğurlu və düzgün hesablanmış siyasi xətt olduğunu sübuta yetirdi. Bakı – Avropa İttifaqı ilə müxtəlif inteqrasiya layihələri çərçivəsində əməkdaşlığa müasir dövrdə yaranmış və təkbaşına heç bir dövlətin həll edə bilmədiyi bir sıra qlobal dünya problemlərinin həllində əməkdaşlıq imkanı kimi baxırdı və bu hazırda da belədir. Müasir dövrdə istisnasız olaraq dövlətlərin milli təhlükəsizliyi üçün aktuallaşan beynəlxalq terrorizmlə mübarizə, transmilli mütəşəkkil cinayətkarlığın silah alveri, narkotik maddələrin qaçaqmalçılığı və qanunsuz dövriyyəsi, nüvə və radioaktiv maddələrin qaçaqmalçılığı və qanunsuz dövriyyəsi, kibercinayətkarlıq, çirkli pulların yuyulması, qanunsuz miqrasiya, insan alveri və orqanlarının qanunsuz transplantasiyası və digər təhdidlərin qarşısının alınması üçün beynəlxalq səviyyədə əməkdaşlıq zəruridir. Azərbaycan rəhbərliyi Avropa İttifaqı ilə əməkdaşlığın bütün mərhələlərində regionun Rusiya Federasiyası, İran İslam Respublikası, Türkiyə Cümhuriyyəti kimi mühüm dövlətləri ilə münasibətlərə xələl gətirə biləcək, onların bölgədəki maraqlarına zidd olan addımların atılmaması siyasətinə daim sadiqlik nümayiş etdirdi. Rəsmi Bakı avrointeqrasiyanın Azərbaycanı region dövlətləri ilə qarşıdurma tərəfinə çevirməməsi, Qərbin hər hansı maraqlarının təmin olunması naminə Rusiya ilə partnyorluq əlaqələrini pozmamasına xüsusi önəm verirdi.

Xarici əlaqələrin qurulması baxımından diqqət mərkəzində olan beynəlxalq təşkilatlardan biri də Avropa Şurası Parlament Assambleyasıdır (AŞPA).Avropa Şurası və onun strukturları ilə əlaqələrin qurulmasının əsası Heydər Əliyevin xarici siyasət kursunun mühüm istiqamətlərindən birini təşkil edirdi. Bu mənada, Qərb ölkələri və Avropanın siyasi və iqtisadi təşkilatları ilə münasibətlərin qurulması zəruri idi. Çünki ölkələrin iqtisadi və siyasi modernləşdirilməsi yolunun Avropa strukturları ilə əməkdaşlığından keçməsinin sübutu artıq Şərqi Avropa ölkələrinin nümunəsində özünü göstərirdi. Eyni zamanda, Avropa Şurasına üzvlük Azərbaycana öz ərazilərinin Ermənistan tərəfindən işğalını dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm bir platforma əldə etmək şansı verdi.

Avropa Şurası ilə əməkdaşlıq Azərbaycanda demokratik islahatların daha da dərinləşməsi, demokratik təsisatların inkişaf etdirilməsi və insan hüquqlarının daha effektiv şəkildə qorunması prosesinə yardım etmişdir [11, s.11-12]. Azərbaycan Avropa Şurasına üzv olmaq üçün ilk addım olaraq 1992-ci il yanvarın 20-də "xüsusi dəvət olunmuş qonaq" statusunu əldə etmək üçün müraciət etsə də Avropa Şurasının Cənubi Qafqaz regionuna doğru genişlənməyə hazır olmaması səbəbindən həyata keçməmişdi. 1996-cı il iyunun 28-də AŞPA Bürosu Azərbaycana "xüsusi dəvət olunmuş qonaq" statusunun verilməsi ilə bağlı qərar qəbul etdi. Bu status verildikdən sonra, Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının mənafeyi ilə bağlı tədbirlər, imzalanmış fərmanlar, sərəncam və digər sənədlər Azərbaycanın dünyəvi, hüquqi dövlət quruculuğu yolunda məqsədyönlü amillər hesab olunur.

2001-ci ilin yanvar ayında AŞPA-ya tamhüquqlu üzv qəbul edilən Azərbaycan dünyəvi və demokratik cəmiyyət dəyərlərinə əsaslanan quruculuq işlərini öhdəliyinə götürmüşdü. Həmin dövrdə Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinə İlham Əliyev başçılıq edirdi [4, s.194-207]. İlham Əliyevin parlament nümayəndə heyətinə rəhbərlik etdiyi 2001-2003-cü illər arasındakı dövrdə Azərbaycan üçün mühüm olan bir sıra sənədlər qəbul edilmişdi.

Ulu Öndər Heydər Əliyev deyirdi: "Respublikamızın müstəqilliyini möhkəmləndirmək üçün əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasəti olmasıdır... Bizim xarici siyasətimiz birinci növbədə dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir... respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq" [8, s. 205-206].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici siyasət xətti dərin elmi nəzəri və zəngin təcrübə üzərində qurulmuş bir xarici siyasət strategiyası oldu. Bu fəaliyyətdə hər bir amil, şərait və xüsusiyyət nəzərə alındı. Məhz, bu siyasi kursun nəticəsidir ki, Azərbaycan bu gün dünyanın demək olar ki, bütün ölkələri ilə diplomatik münasibətlər qurmuş və əməkdaşlıq edir.

Müasir dövrdə prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Bu gün Azərbaycan regionun elə ölkəsidir ki, düşünülmüş daxili və xarici siyasəti ilə həm inkişaf edir, iqtisadi sistemini təkmilləşdirir, həm də regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. [15] Bununla yanaşı, ikinci Qarabağ mühari-bəsini Qələbə ilə başa vuran Azərbaycan dövləti ərazi bütöv-

lüyünü bərpa etdi. Azərbaycan Vətən müharibəsindəki qələbədən sonra yeni tarixi mərhələyə qədəm qoydu. "Yeni mərhələdə Azərbaycan dövləti tərəfindən görülən işlər, irəli sürülən strateji təşəbbüslər regionda bütün xalqlar və dövlətlərin mənafeyinə cavab verir, mühüm siyasi-iqtisadi dividendlər vəd edir. Yaranmış unikal və universal əməkdaşlıq imkanları, regional təhlükəsizlik şəraitində formalaşdırılacaq işbirliyi platforması Asiyadan Avropaya doğru uzanan geniş bir coğrafiyada rifah və inkişaf vəd edir. Azərbaycan dövlətinin atdığı addımlar hazırkı mərhələdə tarixi qələbəmizin möhkəmləndirilməsi, ölkəmizin diplomatiya müstəvisində mövqeyinin gücləndirilməsi baxımından olduqca önəmlidir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası // 23 may 2007-ci ildə qəbul edilmişdir / Bakı. – 2007
2. Azərbaycan Respublikası prezidentinin Sərəncamı // "Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası"nın təsdiq edilməsi haqqında // – Bakı, 11.09.2013. – №3130 // http://e-qanun.az/alpidata/framework /data/26/c_f_26560.htm.
3. Azərbaycan Respublikası 1991-2001. – B. XXI-Yeni Nəşrlər Evi, 2001. – 280 s.
4. Ağayev A. Azərbaycanın Avropa Şurası ilə əlaqələrinin tarixindən. Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar. /Azərbaycan Respublikasının Milli Məclisi. – Bakı. – 2004. – s.194-207
5. Bakı-Brüssel // Azərbaycan-Avropa İttifaqı münasibətləri // Heydər Əliyev irsini araşdırma mərkəzi. – Bakı. – 2011. – 401s.
6. Əhmədov, E. Ermənistanın Azərbaycana təcavüzü: Təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. – Bakı. – 2012. – 912s.
7. Əliyev H. // Müstəqilliyimiz əbədidir. iyun, 1993 – may, 1994: [45 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, 1997, - c. I., 612 s.
8. Əliyev H.Ə. Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitq. 10 oktyabr 1993-cü il. – Müstəqilliyimiz əbədidir. I kitab. Bakı, 1997, s. s. 205-206.
9. Əliyev, Ə. Avropa Birliyi ölkələri ilə Azərbaycan arasındakı viza rejiminin Gürcüstan, Ukrayna və Moldova ilə müqayisəli təhlili. Azərbaycan avrointeqrasiya milli ictimai komitəsi / Bakı. – 2011. – 47s.
10. Qasımlı, M. Azərbaycan Respublikasının diplomatiya tarixi (1991-2003). [II hissə]. h. I. – Bakı. – 2015. – 648 s.
11. Qafarova S. Heydər Əliyevin xarici siyasət kursu və AŞPA. // "İki sahil" qəzeti. – 10 aprel. – 2013. – №61. – s.11-12
12. Quluzadə, V. Gələcəyin üfüqləri // Azərbaycan Respublikasının xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər. – Bakı: Azərbaycan nəşriyyatı. – 1999. – 288 s.
13. Mirbəşiroğlu, E. Siyasi münaqişələr: mahiyyəti, quruluşu, həlli. – Bakı, Elm. – 2009. – 524 s.
14. Mirbəşiroğlu, E. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində Heydər Əliyevin fəaliyyəti // Tarix və onun problemləri. 2009. – №1-2.
15. Prezident İlham Əliyevin uğurlu xarici siyasəti Azərbaycanın milli maraqlarina söykənir // https://ikisahil.az/post/ 10 aprel 2019.
16. Алиев, И. Каспийская нефть Азербайджана. Москва. Известия. – 2003. – 316с.
17. Бзежинский, З. Великая шахматная доска. Господство Америки и ее геостратегические императивы/ Изд-во: Международные отношения, 2010 г. /http://lib.ru/politolog/america bzhezinskij.txt

18. Дорохин, В.: «Отношения Азербайджана и России – пример другим странам», интервью газете «Неделя». http://embrus-com/intervyu/-.html.
19. Маркедонов, С. Азербайджан: «без друзей и без врагов». №4 июль/август 2007.21 августа 2007.http://www.globalaffairs.ru/n/27
20. Малышева, Д. Конфликты у южных рубежей России . Pro et Contra. – Том 5. – №3. – Лето 2000
21. Мирабдуллаев, А. Расстановка сил в постсоветском пространстве: Российская Федерация и страны СНГ. – Киев. – 2012. – 352с.
22. Мирзазаде, Л. Нормативно-правовая основа двусторонних отношений Азербайджана и России // Вектор науки ТГУ. Серия: Юридические науки. – 2012. – №3(10).
23. Чернявский, С. Политика России на Южном Кавказе. http://www.viaevrasia.com
24. Эйвазов, Дж. Державы и регионы: системный анализ безопасности постсоветского пространства. Стокгольм: Издательский дом CA&CC Press®, 2015. – 320 с.

***Açar sözlər:*** *Ulu Öndər, demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu, Avroatlantik məkan, balanslaşdırılmış çoxvektorlu xarici siyasət*

**Ilhama Omarova**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of History, Senior teacher*

# THE FOUNDER OF THE MODERN FOREIGN POLICY OF AZERBAIJAN, HEYDAR ALIYEV

## ABSTRACT

The article is devoted to the processes of implementation of one of the most important directions of the foreign policy strategy of the Republic of Azerbaijan, which has become a sovereign and influential actor in the system of international relations in accordance with the principles of national statehood - integration into the Euro-Atlantic space. The necessity to prevent the military aggression of Armenia against our nation, eradicate its grave consequences, ensure our state's territorial integrity and security, and achieve political and economic integration into the world requires a deliberate, consistent, and assertive foreign policy. Taking its first steps toward independence and attempting to enter the world community as an equal member whose territorial integrity had been violated as a result of the military aggression of Armenia, integration into the world community, bilateral and multilateral relations in the foreign policy of the Republic of Azerbaijan, including the establishment and development of relations with international and regional organizations, comprised the main activities of the National Leader Heydar Aliyev. The article reflects on the successes achieved in the political, economic, and strategic fields as a result of the balanced multi-vector foreign policy of the national leader, Heydar Aliyev. The political and diplomatic activity of H. Aliyev, the establishment of internal socio-economic stability in Azerbaijan, the implementation of a successful foreign policy, the preservation and strengthening of state independence, the success of legal and secular state building, tireless and intense exertions are the most honorable pages of our modern history.

***Keywords:*** *Great leader, democratic, secular, legal state-building, Euro-Atlantic space, National Leader, balanced multi-vector foreign policy*

**Ильхама Омерова**

***Старший преподаватель кафедры Истории Академии Государственного Управления при Президенте Азербайджанской Республики***

# ГЕЙДАР АЛИЕВ – ОСНОВАТЕЛЬ СОВРЕМЕННОЙ ВНЕШНЕЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Статья посвящена анализу процессов реализации внешнеполитической стратегии Азербайджана как суверенного актора системы международных отношей. Автор исследует меры, предпринимаемые руководством страны по политической интеграции страны в мировое сообщество, по ликвидации тяжелейших последствий военной агрессии Армении против Азербайджана и предотвращению ее дальнейшей агрессивной политики против Азербайджанской Республики, по обеспечению территориальной целостности и безопасности нашего государства. В статье также отмечается многовекторность деятельности общенационального лидера Гейдара Алиева по формированию многосторонних отношений Азербайджанской Республики с ведущими мировыми международными и региональными организациями.

В статье отражены успехи, достигнутые в политической, экономической и стратегической областях в результате сбалансированной многовекторной внешней политики Общенационального лидера Гейдара Алиева. Политико-дипломатическая деятельность Гейдара Алиева, опыт государственной мудрости, создание внутренней общественно-политической стабильности в Азербайджане, осуществление успешной внешней политики, сохранение и укрепление государственной независимости, успехи правового и светского государственного строительства, неустанная и напряженная деятельность – самые почетные страницы нашей новейшей истории.

***Ключевые слова:*** *Великий лидер, демократическое, светское, правовое государственное строительство, евроатлантическое пространство, Общенациональный лидер, сбалансированная многовекторная внешняя политика*

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı...................................................................7**

**Urxan Ələkbərov**
Dövlət idarəçiliyində Heydər Əliyev fenomeni və müasir Azərbaycan Respublikasının davamlı inklüziv inkişafı.....................................................................9

**Əlikram Abdullayev, Gülnarə Qurbanova**
Azərbaycan Respublikasında dövlət qulluqçularının təhsilinin müasir modelinin formalaşması və inkişafı.....................................................................23

**Elman Nəsirov**
Heydər Əliyev və Yeni Azərbaycan Partiyası: permanent qalibiyyət üçün doğulmuş vahid qüvvə................37

**Elçin Əhmədov**
Heydər Əliyev və Azərbaycanın milli maraqlara əsaslanan dövlət siyasəti.....................................................49

**Rəcəb Rəhimli**
Azərbaycan Respublikasında dövlət qulluğu sisteminin formalaşması: prioritet istiqamətlər və trendlər.....................................................................75

**Ziyafət Həbibova**
İnsan potensialı Heydər Əliyevin inkişaf strategiyasının əsası kimi .............................................................93

**Adil Vəliyev**
Heydər Əliyev – Azərbaycanda müasir qanunvericilik sisteminin dövlət təminatçısı................................101

**Etibar Nəcəfov**
Multikulturalizmin Azərbaycan modelinin formalaşmasında Heydər Əliyevin rolu................................113

**Namiq Əliyev**
44-günlük Vətən müharibəsi və Azərbaycan-Ermənistan münasibətlərinin bəzi siyasi-hüquqi problemləri.....................................................................127

**Elşad Mirbəşir oğlu**
Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsində Heydər Əliyevin rolu.........................................137

**Xatirə Hüseynova**
Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişaf strategiyası...................................................................145

**Nigar Ələkbərova**
Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasının mədəniyyət siyasətinin banisi kimi............153

**Havva Məmmədova**
Ermənistanın Azərbaycana qarşı təcavüzünün dünya birliyinə çatdırılmasında Heydər Əliyevin rolu.....163

**Sevil Məmmədova**
Heydər Əliyevin müstəqil dövlət quruculuğu strategiyasında ictimai-siyasi sabitlik amili...........................173

**İsaxan Vəliyev**
Vicdan azadlığının konstitusion hüquqi təminatı Ümummilli Lider Heydər Əliyevin hüquqi islahatlarının prioritet istiqaməti kimi....................191

**Lalə Əhmədova**
Heydər Əliyevin dövlət quruculuğu strategiyasında dil məsələsi....................199

**Mehman Süleymanov, Nəsrin Süleymanova**
Heydər Əliyev Azərbaycanda Ali Baş Komandanlıq İnstitutunun qurucusu kimi....................207

**Azər Əmiraslanov**
Heydər Əliyev milli iqtisadiyyatın qurucusudur....................215

**Ülkər Şəfiyeva**
Heydər Əliyevin təhsilin inkişafına dair strategiyası....................229

**Yusif Ağayev**
Mədəniyyətlər və sivilizasiyalararası dialoqun inkişafında Heydər Əliyevin rolu....................235

**Murtəza Həsənov**
Müasir Azərbaycanın dövlət idarəçilik sistemində innovasiya siyasəti....................243

**Elnur Əliyev**
Müasir mərhələdə dövlət idarəçiliyində inzibati islahatların konseptual əsasları: beynəlxalq və milli təcrübənin müqayisəli analizi ....................257

**Sakit Əliyev**
Ümummilli Lider Heydər Əliyev və Azərbaycan xalqinin milli-mənəvi dirçəlişi....................275

**Elvin Əzizbəyov, Gülnar Mirzəyeva**
Dövlət idarəçiliyində rəqəmsal texnologiyalarının rolu....................283

**Fəxrəddin Nagıyev**
1948-1953-cü illərdə qərbi azərbaycanlıların öz torpaqlarından deportasiyası: tarixi kökləri və siyasi-hüquqi nəticələri....................291

**Mahir Tağıyev**
Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu....................303

**Zivər Zeynalova**
Azərbaycanda həyata keçirilən vergi islahatlarının iqtisadi nəticələri....................313

**Günay Maqsudova**
Heydər Əliyev və müasir ritorika....................321

**Seyfulla Aslanov**
Heydər Əliyev və tarixi yaddaş siyasəti: azərbaycanlıların deportasiyası kontekstində....................327

**Eldar Cəfərov**
Müasir dövrdə Azərbaycan Respublikası-Müqəddəs Taxt-Tac münasibətləri Heydər Əliyev diplomatiyasının uğuru kimi....................337

**İlhamə Ömərova**
Heydər Əliyev Azərbaycanın müasir xarici siyasətinin banisidir....................345

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2023, №2(82)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov, siyasi elmlər doktoru, professor E.Əhmədov*, *psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev* və baş müəllim *F.Şammədov* AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru, dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Sifariş 7. Tiraj 500.

# Journal of Public Administration:
## Theory and Practice

***Scientific and theoretical journal***

**2023, №2(82)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, assistant professor*
and *F.Shammedov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., assistant professor*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed from ready made diapositives at the printing house of the
**«Aspoliqraf LTD».**
Order 7. Number of copies printed 500.